

# ELÇİN - ZAMAN SƏDDİNİ AŞMIŞ SƏNƏTKAR

Ш5
Е44

# ELÇİN -

## ZAMAN SƏDDİNİ AŞMIŞ SƏNƏTKAR

Bakı - 2004

84.2.Az
H75

Tərtib edəni
psixologiya elmləri namizədi
Vaqif Hüseynov

Redaktoru
Dilsuz

H.75 ELÇİN - ZAMAN SƏDDİNİ AŞMIŞ SƏNƏTKAR,
Bakı. «Təhsil», 2004. səh. 372.

H $\frac{M-001575}{700122}$ - 2004 Qrifli nəşr

H.75

© «Təhsil», «Beynəlxalq Universitet»
nəşriyyat və poliqrafiya mərkəzi 2004

# TƏRTİBÇİDƏN

Xalq yazıçısı Elçinin 60 illik yubileyi son illər Azərbaycan ədəbi mühitinin ən əlamətdar hadisələrindən biri oldu.

Yazıçı özü yubiley mərasimlərindən imtina etsə də, yubiley münasibətilə Elçinin yaradıcılığı, bu yaradıcılığın milli ədəbiyyatımızın inkişafındakı mühüm rolu, onun görkəmli ictimai xadim, nüfuzlu dövlət adamı kimi fəaliyyəti haqqında yüzə qədər məqalə yazıldı. Bu, əlbəttə, Elçinin Azərbaycan ədəbiyyatında tutduğu yüksək mövqeyin göstəricisidir. Müxtəlif ədəbi nəsil nümayəndələri tərəfindən yazılmış bu məqalələr Azərbaycan ədəbi prosesində həqiqi bir canlanma əmələ gətirdi.

Elçin müstəqil Respublikamızın ən yüksək mükafatı – «İstiqlal» ordeni ilə təltif edildi.

Elçinin 60 illiyi müasir Azərbaycan ədəbiyyatının əlamətdar hadisəsi kimi başqa ölkələrdə, xüsusən qardaş Türkiyə Respublikasında da geniş qeyd olundu. Yazıçı Yedditəpə Universitetinin fəxri doktoru seçildi, Fateh və Memar Sinan Universitetlərinin yüksək mükafatlarına layiq görüldü.

Azərbaycan ədəbi tənqidi , eləcə də xarici ölkələrin mətbuatı, xüsusən Türkiyədə və Rusiyada Elçinin yaradıcılığı haqqında çox yazılmışdır. Biz həmin məqalələrin bir qismini seçərək kitab şəklində nəşr etdirmişik (Bax: «Ürəklərə yol tapanda», Bakı, «Təhsil» nəşriyyatı, 2003).

Həmin kitabda Azərbaycan ədəbi fikrinin Mir Cəlal, Məmməd Arif, Məmməd Cəfər Cəfərov, Həmid Araslı, Mirzə İbrahimov, Mehdi Məmmədov, Kamal Talıbzadə, Əziz Mirəhmədov, Bəkir Nəbiyev, Yaşar Qarayev, Aydın Məmmədov, Yusif Səmədoğlu və b. kimi görkəmli nümayəndələrinin Elçin yaradıcılığından bəhs edən məqalələri toplanmışdır.

Son illər də Elçin yaradıcılığının bədii-estetik xüsusiyyətləri və fəlsəfi mahiyyəti, onun hekayə, povest və romanlarında, həmçinin dramaturgiyasında novatorluğun estetik kateqoriya kimi daima özünü göstərməsi, təhkiyyəsinin orijinallığı bir çox elmi məqalələrin, tədqiqat işlərinin, xüsusi monoqrafiyaların təhlil obyektini təşkil etmişdir. Təsadüfi deyil ki, Elçin ilk Azərbaycan nasiridir ki, onun yaradıcılığı haqqında xarici ölkədə — qardaş Türkiyə Respublikasının məşhur Atatürk Universitetində doktorluq dissertasiyası müdafiə edilmişdir. Uğurla müdafiə olunan həmin dissertasiyanı doktor Sedat Adıgözəl yazmışdır.

Biz bu kitaba Elçinin yalnız 60 illik yubileyi ilə bağlı mətbuatda dərc olunmuş məqalə və məlumatları daxil etmişik. Həmin məqalə və məlumatların isə sayı səksəndən çoxdur.

Biz kitabı tərtib edərkən, Elçinin yubileyi ilə bağlı yalnız Azərbaycan mətbuatında çıxan yazıları əhatə etməyə çalışmışıq və xroniki ardıcıllığı əsas götürmüşük.

Kitab 2003-cü ilin aprel ayından etibarən mətbuatda dərc edilən məqalələrlə başlayıb, 2004-cü ilin fevral ayında Mövlud Süleymanlının yazdığı məqalə ilə sona yetir.

Bu zaman məsafəsinin özü də (2003-cü ilin aprelindən 2004-cü ilin fevralına qədər) Elçin yaradıcılığının xalqa, vətənə dərin milli köklərlə bağlılığının əyani və qiymətli göstəricisidir.

Fevral 2004



# ALİ MÜKAFAT

## E.İ.ƏFƏNDİYEVİN "İSTİQLAL" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

### Azərbaycan Respublikası Prezidentinin fərmanı

Azərbaycan ədəbiyyatının inkişafındakı böyük xidmətlərinə görə Elçin İlyas oğlu Əfəndiyev "İstiqlal" ordeni ilə təltif edilsin.

***Heydər ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı şəhəri, 29 may 2003-cü il.***

*«Azərbaycan» qəzeti, 30 may 2003.*

## XALQ YAZIÇISI ELÇİNƏ

Hörmətli Elçin!

Sizi – müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsini 60 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz ədəbiyyatımıza 60-cı illərdə qədəm qoyaraq tez bir zamanda tanınan istedadlı yazıçılarımızdansınız. Həmin dövrün ideoloji qəliblərinə sığmayan üslubda yazıb-yaratmış və ədəbiyyatımızın yeni mərhələsini formalaşdırmış nasirlər arasında adınız daim hörmətlə çəkilir. Xalqımızın tarixi taleyi və bədii irsi ilə bağlı olan, uzaq və yaxın keçmişimizin mənzərəsini canlandıran əsərləriniz XX əsr Azərbaycan ədəbiyyatında özünəməxsus yer tutur. Milli mentalitetin daşıyıcıları olan qəhrəmanlarınız milli olduqları qədər də ümumbəşəridirlər. Məhz buna görə əsərləriniz istər keçmiş sovet dövründə, istərsə də indi müxtəlif dillərə tərcümə olunaraq bir çox ölkələrdə oxucuların rəğbətini qazana bilmişdir.

Müasir cəmiyyətdə insan fenomeni həmişə sizin diqqət mərkəzinizdə olub. Ölkəmizdə cərəyan edən mürəkkəb ictimai-siyasi proseslər, gərgin mənəvi-əxlaqi axtarışlar sizin qəhrəmanlarınızın daxili aləmində öz əksini tapmışdır. Həyat haqqında olan ideal təsəvvürlərin həyatın özündən nə qədər fərqli olduğunu dərk edən qəhrəmanlarınız əslində ədəbiyyatımızın əzəli mövzusu olan insan azadlığı problemini müasir dövrdə bütün çalarları ilə təcəssüm etdirirlər.

Siz yaradıcılığınızın çoxşaxəli olması ilə seçilən, müxtəlif janrlarda uğurla işləməyi bacaran qələm sahiblərindənsiniz. Teatr üçün yazdığınız əsərlər ədəbi aləmdə sizi həm də dramaturq kimi tanıtmışdır. Ölkəmizdə, habelə dünyada gedən ədəbi-bədii proseslər barədə dövri mətbuatda müntəzəm olaraq dərc etdirdiyiniz tənqidi məqalələr ədəbiyyatşünasların yüksək qiymətini qazanmışdır. Ssenariləriniz əsasında çəkilmiş bədii filmlər tamaşaçılar tərəfindən həmişə böyük rəğbətlə qarşılanmışdır. Sizin ictimai fəaliyyətiniz müxtəlif ölkələrdə yaşayan soydaşlarımızın mənəvi birlik və həmrəyliyi işinə xidmət etmişdir.

İnanıram ki, yaradıcılığın ən yetkin dövrünü yaşayan ədib kimi siz müasir ədəbi prosesə ciddi təsir edən yeni-yeni əsərlərinizlə



bundan sonra da Azərbaycan oxucusunu sevindirəcək, müstəqillik dövrü ədəbiyyatımızın zənginləşməsi işinə öz töhfənizi verəcəksiniz.

Sizə uzun ömür, cansağlığı və yeni yaradıcılıq uğurları arzu edirəm.

***Heydər ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı şəhəri, 19 may 2003-cü il.***

*«Azərbaycan» qəzeti, 30 may 2003.*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİYEVƏ**

Əziz və çox hörmətli cənab Prezident!

Məni müstəqil ölkəmizin ən ali mükafatı ilə təltif etdiyinizə görə Sizə dərin təşəkkür və minnətdarlığımı bildirirəm. Bu yüksək təltif yalnız mənim yaradıcılığıma deyil, bütün altmışıncı illər ədəbi nəslinin yaradıcılığına, ümumiyyətlə, bütün ədəbiyyatımıza, sənətimizə, mədəniyyətimizə Sizin daimi və ardıcıl diqqətinizin təcəssümüdür.

Siz ən gərgin, ən çətin məqamlarda belə, bu diqqəti göstərmiş, onu vacib hesab etmisiniz, çünki Siz mədəniyyətə, sənətə, ədəbiyyata həmişə doğma münasibət bəsləmiş, ona yüksək qiymət vermisiniz.

Ədəbiyyat xalqı ifadə edir.

Ədəbiyyata bəslədiyiniz hörmət və verdiyiniz qiymət, otuz beş ildən artıq bir dövrdə Azərbaycan ədəbiyyatına göstərdiyiniz qayğı, Sizin ən sıx tellərlə məhz xalqımıza bağlılığınızın, məhz xalqımıza böyük məhəbbətinizin ifadəsidir.

Təltif olunduğum bu yüksək mükafatın məsuliyyəti məni daha artıq bir əzmlə çalışmağa sövq edəcəkdir.

Bir daha təşəkkür edir, Sizə cansağlığı, uzun ömür, xoşbəxtlik, Azərbaycan xalqının rifahı, ölkəmizin inkişafı, müstəqilliyimizin möhkəmlənməsi naminə böyük fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram və qəlbən inanıram ki, belə də olacaqdır.

Həmişəki dərin hörmətlə,

**ELÇİN,**
**xalq yazıçısı**

*«Azərbaycan» qəzeti, 5 iyun 2003.*



# E L Ç İ N - 60

Vaqif HÜSEYNOV

# XALQ YAZIÇISI ELÇİNİN YARADICILIĞI HAQQINDA BİR NEÇƏ SÖZ

**(Elçinin 60 illik yubileyi münasibətilə)**

Xalq yazıçısı Elçin, ədəbiyyata gəldiyi ilk gündən, öz parlaq fitri istedadı, qeyri-ənənəvi yazı manerası, orijinal, bənzərsiz dəsti-xətti və hakim ideoloji doktrinaya zərrə qədər də meylli olmaması ilə ədəbi ictimaiyyətin diqqətini cəlb edib. Təsadüfi deyil ki, onun qəzet və jurnallarda təzəcə işıq üzü görmüş, hələ kitab halında çap olunmamış hekayə və povestlərini ədəbi tənqidimizin görkəmli nümayəndələri Məmməd Cəfər, Məmməd Arif, Həmid Araslı, Əziz Mirəhmədov, Kamal Talıbzadə, Bəkir Nəbiyev, Yaşar Qarayev və başqaları rəğbətlə qarşılayıb, onları «müsbət», «mənfi» qəhrəmanlardan təmizlənməkdə olan yeni, məhz yeni ədəbiyyatın ən bariz nümunələri kimi qiymətləndiriblər. Maraqlıdır ki, o dövrdə yaşlı nəslin, yəni Azərbaycan sovet ədəbiyyatının bünövrəsini qoyan nəslin nümayəndələri arasında da yeniliyin labüdlüyünü, tarixi zərurətdən doğduğunu həm hiss, həm də təqdir edənlər var idi. Məsələn, Mehdi Hüseyn bir məqaləsində yazırdı ki, biz yeni mərhələyə qədəm qoymuşuq; həyat hadisələrinin və insan surətlərinin təsvirində və mənalandırılmasında nə isə daha lirik, psixoloji təhlildə daha təmkinli və kamil bir üsul axtarmağın, daha təravətli və təzə ifadə vasitələrinə meyl göstərməyin özü çox əhəmiyyətli hadisədir.

Elçin, ümumən, ədəbiyyatımızda «60-cılar» kimi tanınan ədəbi nəslin öncülərindəndir. Mübaliğəsiz demək olar ki, o, öz dolğun, əhatəli yaradıcılığı ilə həm ədəbiyyat xəzinəmizi zənginləşdirib, həm də ədəbi qəlibləri ədəbi ölçüləri çox böyük ustalıqla, özünəməxsus şəkildə dəyişməyə çalışıb. Nəticədə, bu çətin, ağrılı proses yeni ədəbi ölçülərin yaranmasına səbəb olub. O dövrdə çox oxunan, ədəbi hadisə kimi qiymətləndirilən «Açıq pəncərə», «Dolça» və «Sos» povestlərində biz bu yeni ədəbi prinsipin, yeni ədəbi baxışın bərqərar olduğunu görürük.

Xalq yazıçısı Elçinin yaradıcılığına öz həmfikirləri «60-cılar» nəslinin nümayəndələri də böyük maraq göstəriblər. Onlardan biri ədəbi tənqidə, demək olar ki, meyl göstərməyən, bədii yaradıcılıqla da çox az məşğul olan Yusif Səmədoğlu öz qələm dostunun yaradıcılığını yüksək



qiymətləndirib: «Elçin yaradıcılığının əsas xüsusiyyətlərindən biri obrazların reallığı, dinamikliyidir. Hər obrazın konkret mövqeyindən, sosial mənsubiyyətindən, mənəvi və psixoloji axarından asılı olaraq, rəngarəng poetik vasitələr seçilir, detal və təfərrüatlar mühitə, obrazın siqlətinə uyğunlaşdırılır, daha doğrusu, hər poetik ştrix situasiyanın özündən törəyir».

Təəssüf hissi ilə qeyd etməliyik ki, ədəbiyyatımıza yeni ab-hava gətirən, onu dünya arenasına çıxaran «60-cılar» ədəbi nəslinin nümayəndələrində bu gün Elçin istisna olmaqla bir ədəbi təngnəfəslik hiss olunur, nədənsə, son vaxtlar onların yazılarına az rast gəlirik. Maraqlıdır ki, öz qələm dostlarından fərqli olaraq, Elçin respublikamız müstəqillik əldə etdikdən sonra daha məhsuldar işləyib, bu günümüzlə səsləşən misilsiz sənət nümunələri, hekayələr, pyeslər yaradıb. Qeyd etmək yerinə düşərdi ki, onun son illərdə yazdığı hekayələr ədəbiyyatımızda sərbəst nəsrin (sərbəst şer varsa, deməli, sərbəst nəsr də var) ilk nümunələridir.

Elçinin çoxşaxəli ədəbi-bədii yaradıcılığı haqqında yazılmış yüzlərlə məqaləni araşdırarkən görürük ki, təkcə peşəkar tənqidçilər deyil, eyni zamanda, mədəniyyətimizin və incəsənətimizin müxtəlif sahələrində çalışan görkəmli sənətçilərimiz —Tofiq Quliyev, Polad Bülbüloğlu, Vasif Adıgözəlov, Amalya Pənahova və başqaları da onun hekayə, povest, roman və pyesləri haqqında qiymətli fikirlər söyləyiblər. Məsələn, Fərhad Bədəlbəyli bir yazısında qeyd edir: «Elçinin duzlu, Abşeron günəşi ilə dolu hekayələrini oxuyanda uşaqlıq illərim yadıma düşür. Bakı şanısı kimi şirin, sahil qumutək isti, dəniz suyu kimi ılıq... Xatirələr məni qoynuna alıb sənətdə ilk addımlar atdığımız vaxtlara aparır».

Elçinin hekayə, povest və romanları xarici ölkələrdə də sevilə-sevilə oxunur. Maraqlıdır ki, bu əsərlər yerli ədib və ədəbiyyatşünasların da diqqətindən kənarda qalmır. Təkcə elə İsveçrədə çap olunmuş «Ağ dəvə» romanı haqqında onlarla məqalə və resenziya dərc olunub. «Literaturnaxrixen» jurnalının 1997-ci ildə dərc olunmuş 55-ci nömrəsində Uli Rotfus yazır: «Elçin Azərbaycanın ən çox tanınmış yazıçılarındandır. Əsərlərində müasirliklə ənənəvi şərq elementlərini böyük bir ustalıqla birləşdirir, sintez edir, bununla da, elə ecazkar poetik dəyərlərə müəssər olur ki, istər-istəməz heyran qalırsan. «Ağ dəvə» romanında öz oxucusunu İkinci Dünya Müharibəsinin tüğyan etdiyi vaxtlara, eyni zamanda, ondan əvvəlki qədim dövrlərə, Bakının köhnə məhəllələrindən birində yaşayan balaca Ələkbərin mənəvi

dünyasına çəkib aparır. Əhvalatlar uşağın dilindən nəql olunur və sadə insanların yaşadıqları bu dalda həyətlərin bu cənnətində tütəkçalan Balakərimin söylədikləri, keçmişdən bəhs etdikləri xatirə təsiri bağışlayır və bu xatirələrin fonunda Yer kürəsində cərəyan edən siyasi hadisələrin şəhərin qədim məhəllələrində yaşayan ailələrin gündəlik həyatına gətirdiyi təlatümlərdən söz açılır. Stalin hakimiyyəti dövründə adamların bir-birinə qarşılıqlı inamsızlığı və bütün bunların bariz, tam çılpaqlığı ilə 1984-cü ildə Sovet İttifaqında çap olunmuş bir kitabda təsvir olunması heyrət doğurur».

Uli Rotfus daha sonra Elçini sovet cəmiyyətinin böyük rentgenoloqu adlandırır.

Maraqlıdır ki, əsərlərindən söz düşəndə, Elçin belə bir fikri tez-tez vurğulayır: «Bu gün mən zərrə qədər də tərəddüd etmədən yazdıqlarımın altından öz imzamı ataram». Bu o deməkdir ki, istedadlı yazıçı əlinə hər dəfə qələm alanda vicdanının səsini dinləyib, əsərlərini təqib və qadağalar dövrünün diqtəsi ilə yazmayıb.

Elçin həm də tənqidçidir. O, öz tədqiqatlarında milli mədəniyyətimizin ən dərin qatlarını açır, həm də elə-belə yox, iki, bəlkə də üç min illik ədəbi prosesin iştirakçısı kimi! Və bəlkə elə buna görə də adama elə gəlir ki, Elçin ilk bayatını, ilk atalar sözünü söyləyən azərbaycanlının, eləcə də Dədə Qorqudun, Füzulinin, Mirzə Fətəli Axundovun və Sabirin müasiridir.

Elçin haqqında yazılan məqalə və resenziyalar istedadlı yazıçının yaradıcılığını təhlil etməklə yanaşı, eyni zamanda, onun ədəbi portretinin konturlarını da müəyyən edir. İnanırıq ki, bu portret, zaman keçdikcə, yeni-yeni ştrixlərlə daha da zənginləşəcək.

*«525-ci qəzet», 10 aprel 2003.*





## ÖLDÜRÜLƏNDƏN SONRA GÜLLƏLƏNƏNLƏR

**(Elçinin 60 illik yubileyi münasibətilə)**

**«İgid dara düşəndə «atım» deyibən ağlar»...**

Mart ayının son, lap son gecəsində qəflətən, gözlənilmədən yağan qar-çovğun səngiyibən ayazıyanda, həyətini sel basıb, su aparmış, quruyub-təpiməsi bu yaxın günlər üçün müşkülə dönən kirayə evin bir bucağınaca çəkilib fikrə gedən bu sətirlərin müəllifi elə Vaqif Bayatlı Ödərin yuxarıda yazdığı o igidin ovqatına köklənib...

Ancaq «At»dan da, qanaddan da daha çox indi onu bir «Yanıq Kərəmi» havası daha betər çəkir özünə:

**Kərəm deyər Gəncə mənim dağlarım...**

O Kərəm ki, yüz illərlə nakam bir məhəbbətin qəm dastanı boyunca yol gəlmişdi bizə qənşər, üzü dərdə doğru, qəmə sarı. O qəm ki, Qeysi Nizaminin, Füzulinin təsvirində döndərib Məcnun eləmişdi. O dərd ki, XX əsrin sonlarında Kərəmi Mahmud, Əslini Məryəm ismiylə yenidən yandırıb-yaxırdı.

**Bu dəfə xalq yazıçısı Elçinin yozumunda...**

Bu yozumda Mahmud daha bəşəri, daha dolğun, daha aşiqanə və daha çox bədbəxtdi; İlahi Eşqin, İlahi Təmizliyin və paklığın bədbəxti.

Bu yozumda Ziyadxan, Qəmərbanu ömürlüyünün sonsuzluğu, puçluğu dünyəvi hakimiyyətin, səltənətin, taxt-tacın puçluğu, heçliyi, ötəriliyi ahəngindədi.

Bu yozumda adamın heç Baba keşişi də qınamağa dili dönmür...

Nə qədər ki, tər-təmiz, bakirə qızlar sultanların, şahların, xanların saraylarında pozulmuş şəhvətlərə qulluq edirdi...

**Nə qədər ki, Ağ Keçinin dili Daməngər İsraillər üçün ən ləzzətli kabablıq idi...**

Nə qədər ki, Azər və Aysulunun İmam övladlarının adı qoyulmuş cocuqlarının bir az öncə əlindən-ayağından öpənlər qayıdıb o tifillərin qətlinə fərman verirdi və s. və i.a... bu belə olacaqdı.

Bu yozumda dəyişən, müasirləşən, bu günün adamı olmağa dartınan, cəhd edən, zəmanə adamına çevrilməyə yuvarlanan bircə adam varsa, o da Sofidir...

Hətta Qəmərbanu tərəfindən məqsədli şəkildə Mahmuda qulluqçu göndərilən gözəl cariyə də Mahmudun ilahi paklığına qıymadı, asi çıxmadı, intihar etməklə xilas etdi qəlbini, özünü…

Hətta əldən-ələ keçmiş, dünyanın çox üzünü görüb, çox çalasına sızmış Ceyran da Mahmudun ilahi paklığı önündə öz təbiətini, arzularını şəhid etdi…

Bu adlar siyahısını sayıb-sadalamaq da olar. Təkcə Sofi bu yeni yozumun sınağından alnı açıq, üzü ağ çıxa bilmədi.

Yaxşı ki, heç haqq dünyasında da Mahmudun xəbəri olmadı bu xəyanətdən.

Ziyad xanın aqibəti, Bayandur bəyin Xəyanəti isə çoxdanın çalınmış havası, oxunmuş bayatısı idi; **«Bu səri-çeşmə əzəldən bulanıb, ey qafil!»**

Hicri 920-ci ilin camadiuləvval ayının dördü günündən başlamış **«Mahmud və Məryəm»** hekayəti miladın 2003-cü ilinin mart ayının lap son günlərində qaçılması mümkün olmayan bir ağrı, nisgil, kədər kimi dövr edir oxucu yaddaşımda. Mən bu əsəri, xalq yazıçısı Elçinin «Mahmud və Məryəm» romanını müxtəlif yaş dövrümdə bir neçə dəfə yenidən oxumuşam. Əvvəl jurnal variantında. Sonra **«Gənclik»** (1984), **«Yazıçı»** (1985), **«Azərnəşr»** (1987) nəşriyyatlarının təqdimatında. Hər dəfə bu gözəl romanın bir əsas tərəfi, bir əsas cəhəti mənimçün daha maraqlı olub; ilk əvvəl heç də yeni olmayan tanış bir eşq-məhəbbət nağılı kimi. Sonra məlum **«Əsli və Kərəm»** dastanının **«Mahmud və Məryəm»** yozumundakı, paralelliyindəki oxşar və fərqli nüanslar oxucu marağımı daha çox məşğul edib. Sonra müəllifin (Elçinin – S.H.) məlum bir eşq dastanını özünün, yeni zamanda insanın bəşəri duyğularının boyuna necə böyük ustalıqla biçə bilməsi bacarığı çəkib məni.

Lap sonda, hazırki şəraitdə isə ən vacib, aktual, gərəkli bir əsər kimi günümüzün reallığı ilə səsləşdiyinə olan heyrətim, təəccübüm çəkir məni «Mahmud və Məryəm»ə doğru.

**Və götürüb yenidən oxuyuram…**

Dahi Balzak Fenimor Kuperin yaradıcılığından bəhs edərkən yazırdı ki, «mən bu romanları oxuyanda heyranlıqdan qışqırmaq istəyirəm…»

**«Mahmud və Məryəm»** romanı haqqında hörmətli tənqidçilərimizdən də oxumuşam, onların peşəkar bir tənqidçi kimi dəqiq müşahidələri ilə də qəlbən razıyam. Ancaq 2003-cü ilin mart ayının bu son qarlı-qasırğalı günlərində mən, sadə bir Azərbaycan ziyalısı,



oxucusu, dünyada gedən qlobal qütbləşmə, qlobal bicləşmə siyasətinin fonunda götürüb Elçinin «Mahmud və Məryəm» romanını yenidən nəzərdən keçirəndə heyrətimdən qışqırmaq istəyirəm.

**Yenə də Şərq – Qərb qarşıdurması!**

**Yenə də müsəlman-xaçpərəst qütbləşməsi!**

Yenə də dövlətlərarası xosunlaşma, naməlləşmələr!

**«Təzədən, hamısı təzədən!…»**

Ən qəribəsi odur ki, bu sətirlərin müəllifinin özü də hazırki şəraitdə beynəlxalq hegemonluğun diqtəsini, Amerika-İngiltərə cütlüyünün zorunu və məntiqini, Səddam Hüseyn rejiminin, diktatorluğunun təklənməsini və məğlubiyyətə məhkumluğunu görə-görə, bu hadisələrin vətəndaşı olduğu bir ölkənin gələcəyi üçün ola bilsin ki, daha əlverişli siyasi iqlim yarada biləcəyini dərk edə-edə, haradasa, qəlbinin lap alt qatında İraqın məğlubiyyətini istəmir, qəbul etmir.

233842

Və bəlkə də onu neçənci dəfə götürüb «Mahmud və Məryəm»i oxumağa vadar edən də həmin Hüseyn…

Məlum mətnə yeni müəllif yozumu verilən bir neçə əsərlə tanışam. Bunlardan ən çox qalanı **M.F.Axundovun «Aldanmış Kəvakib», Nazim Hikmətin «Yusif və Züleyxa», Mustay Kərimin «Odu atma, Prometey», Bəkir Yıldızın «Kərbəla» və Elçinin «Mahmud və Məryəm» əsərləridi. İsa Hüseynovun «İdeal» əsəri də bu sıradadır.**

Əsrlərlə xalq arasında dolanan «Nayman-Ana» haqqındakı əfsanəni məhz Çingiz Aytmatov dühası bəşəri don biçə bildi. Kərbəla müsibətini M.Füzulidən olan Bəkir Yıldız dünyəvi mübarizə, amal, fikir ucalığı fonunda yenidən oxucu diqqətinə çəkdi.

«Əsli və Kərəm» dastanının Qara keşiş səddi «Mahmud və Məryəm» də daha qlobal çıxılmazlıq, qaçılmazlıq faktoruna çevrildi.

Bu əsərlər ilkin mətnlərə nisbətən, nə qədər cavan, gənc, yeni olsalar da, daha real, qos-qoca, daha qədim görünürlər. Bu əsərlər keçmişə daha yaxın, daha məhrəmdi. Pərdəarxası oyunlar burada daha görünən, pərdəönü münasibətlər isə daha maraqsız və sönükdü.

«Əsli və Kərəm» hisslərin, «Mahmud və Məryəm» isə ağlın, idrakın, bəşəri düşüncə tərzinin əks-sədası, təcəssümüdü.

**«Mahmud və Məryəm» «Əsli və Kərəm» faciəsinin dünyaya açılan pəncərəsidi.**

Əslində bu yazı Elçinin «Ölüm hökmü» romanı ilə bağlı təəssüratları əks etdirməli idi. Hər halda, qələmi əlimə götürdüyüm ana qədər olan fikir beləydi. Başlıq sərlövhə də hazır idi: **«Öldürüləndən sonra güllələnənlər».** Xosrov müəllim haqqında, Ələsgər



M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

müəllim haqqında, Kələntər müəllim haqqında aktyor, şair, rejissor haqqında – öldürüləndən sonra güllələnənlərin hamısı haqqında yazılmalıydı bu yazı...

«...**Birdən-birə professor Zilberin** gözləri qızıl əsgərlərdən bir az qaranlıqda dayanmış bir nəfərə sataşdı; dayanmışdı? – yox, o adam it kimi dörd ayaq-dizlərinin və əllərinin üstündə durmuşdu və alışıb-yanan gözlərilə tonqala baxırdı və içindən elə it zingiltisinə də bənzər bir səs çıxırdı...»

Xosrov müəllim idi bu... O Xosrov müəllim ki, əsərin 169-cu səhifəsində ona baxa-baxa Ələsgər müəllimə elə gələcəkdi ki, Xosrov müəllim tabutun içində uzanıb və o tabutu indi gətirib qapının ağzında dik qoyublar.

**Ölməmişdən əvvəl öldürülmüş Xosrov müəllimdi bu:** «Ələsgər müəllim gəlib qızının yanında oturdu... Arzuya xoş sözlər dedi və birdən-birə özü də hiss etdi ki, o qarlı qış gecəsi qızına yaltaqlanır».

**Bu da Ələsgər müəllim. Əsərin 175-ci səhifəsində həmin Ələsgər müəllim gözlərini dərdli günlərdən çəkib tamam taqətsiz halda, ürəyi döyünə-döyünə mizə yaxınlaşacaq, titrək əli ilə telefona yaxınlaşacaq, dəstəyi götürəcək və güllələnməmişdən əvvəl beləcə öldürüləcək...**

Güllələnməmişdən əvvəl öldürülmüş Hamletin (aktyorun) öldürülmə səhnəsidir bu: «Hamletin (aktyorun – S.H.) gözündəki o işıq artıq Danimarka şahzadəsinin yox, qızdırmalı xəstə bir təfəkkürün işıltısı idi. Şair Hamleti yerində uzatdı».

Bu isə güllələnməmişdən əvvəl Kələntər müəllimin öldüyü, daha doğrusu öldürdüyü andı: «və birdən-birə o əhli kef, o zarafatcıl, nikbin Kələntər müəllimin dodaqları titrədi, – Qorxuram!.. – dedi, – Qorxuram!.. **Yeddi qız atasıyam...**

Firidun müəllimin güllələnməmişdən əvvəlki ölüm təridi, əcəl xofudu bu titrəmələr: - necə kimi? Xıdırı! İndicə yaxınlaşıb məndən soruşur ki, dünənki hadisəni bu gün partbüronun iclasına qoyacaqsan, yoxsa yox! Özü də elə-belə soruşmur e, hədəylə soruşur...

Bəs Mahmud necə? Aydınlıq əvəzinə otağa dolmuş camaat gülüşündə, camaat təbəssümündə bu dəli dünyanın əlacsızlığını görüb çəkdiyi ahdan od almamışdan, **yanıb məşələ dönməmişdimi Mahmud? Onda – Məryəm «mən İsəvi, Sən Məhəmməd hümməti...»** deyib pıçıldayanda. Onda – ilk dəfə başı kəsilən toyuq görüb ağlayanda, onda – yatdığı yerdə qaranlıq yuxu görüb - Sofi!.. – deyə ağ gecə köynəyində yatağından qaçanda, onda – Daməngir İsrailin əlində



tutduğu Ağ keçinin başına baxa-baxa sinəsindən dübarə «Sofi!» **fəryadı qopanda.**

Və «Ova çıxdım bir gün, qabağından bir dovşan qaçdı, ayaqları yox idi» nağılına başlayanda tüstülənmirdimi Mahmud?

Və daha sonun, axırın yaxınlaşdığına, bir göz qırpımında olduğunu görüb camaatla rastlaşdığı vaxtdan bəri tamamilə yadından çıxardığı **Məryəmin adını qışqırmaq istədiyi vaxtdan od almamışdımı Mahmud?**

Bəlkə qırmızı tumanlı kişiyə xitabən dediyi «Eh, sən nə bilirsən dərd nədi?» sualının zorundan, hikkəsindən alışmışdı o?

**Bəlkə «məgər Məcnun olmaq ayıbdır?» diksintisindən?**

Bəlkə daha çox çaldıran düzünün o qarğa-quzğunlu səhnəsi önündə fəryad qoparıb, nalə təpəndə alovlanmışdı, burum-burum tüstüyə, məşələ dönmüşdü **Mahmud: - Sofi! Sofi! Beş qarış torpaq üstə? Bir kisə qızıl üstə?!** Uşaq olmayıbmı bunlar? Göyü, ayı, ulduzları görməyibmi bunlar? Şümr olub bir-birinin başını kəsirlər. Allah buna niyə dözür, Sofi?.. Bəlkə düzəltmək olmaz bu dünyanı, Sofi?..

**Od alması, yanması yanlışdı, yalandı bəlkə Mahmudun?**

Bəlkə heç kəs bilmirdi ki, bu gecə insanlar şirin yuxuda olarkən Zuğulbanın göyündə Humay quşu uçmuşdu və həmin humay quşunun kölgəsi indi də həmişəki kimi pomidor satan bir ağ pencəkli qızın üstünə düşmüşdü.

**Və o humay quşu bəlkə Mahmudun ruhuydu, canıydı, kölgəsiydi, dipdiri görüntüsüydü?**

Bəlkə bütün yazılmışlara, yazılanlara ehtiram, əbədi hörmət naminə yenidən oxuyaq, yenidən dinləyək bu nağılları:

**Öz Mahmudumuzu, öz humay quşumuzu tapıb, öz sözümüzü deyənə qədər...**

Bu əhvalatın peyğəmbərlə bağlı olan tərəfi də var: **Bütün pisliklərə görə yaxşılıq!**

Bu, peyğəmbərdən gələn xislətdi. Ona da ilahidən, yaradandan əmanətdir. Qədim, çox-çox qədim və hər dəfə yeni, gərəkli olan bir vəsiyyətdi bu:

**- Get, o qonşuya yenə yaxşılıq elə!**

Və qonşuya edilən yaxşılıqlar kimi oxunur Elçinin əsərləri: Sadə, iddiasız, çığır-bağırsız... Zəhra kəpənəyinə bənzəyişi də var bu əsərlərin; Günəşin istisindən ləzzət ala-ala, çəməndəki sarı, bənövşəyi, qəhvəyi, göyümtül güllərin, çiçəklərin, yamyaşıl otların rəngindən sevinə-sevinə uçub gəlib qırmızı bir lalənin zərif ləçəyinə qonan,

qanadlarını yığan, çəmənin səsinə qulaq asan həmin o Zəhra kəpənəyinin zərifliyi, yüngüllüyü, ilğımı, titrəyişi var bu əsərlərin.

**Elə təam var ki, yeyirsən, yeyirsən, yeyirsən, doymursan.**

Hansısa bir şortamlıq, şirintəhərlik, meyxoşluq dartır iştahanı. Yemək, sonra da gözünə təpmək istəyirsən...

Ömür, yaşamaq eşqi kimidi bu duyğu.

Yeni duyğu ilə Baladadaşın taleyini yenidən yaşamaq istəyirsən... Var gücünlə, var səsinlə:

- Alə, Ələkbər! – demək istəyirsən – o sənin hamamın, o da sən!.. Mənim oğlum dənizə oxşayacaq, day sənin o xosma hamamına yox!

Eyni duyğu ilə birdən-birə sarı koftasının yaxasını kənara dartıb, ətli, hamar çiynindəki qara-qançırları göstərən Məsmə xanımın.

- Adam döymək pislikdir? – sualına.

- Pislikdir, əlbəttə, pislikdir – deyə cavab vermək istəyirsən.

Belə halında adam Məsməxanımın **«o ulduz mənə deyir ki, Məsməxanım, sən heç vaxt ölməyəcəksən! Məsməxanım, sən həmişə yaşayacaqsan! Məsməxanım, qar, torpaq səni görməyəcək!» Yalanına, gümanına, ümidinə bətlənib-bələnmək istəyir.**

Sonra da götürüb Zübeydə yazmaq istəyir ki, mən müəllim deyiləm, sən də şagird deyilsən, nəsihət etməyəcəm sənə. Ancaq o evə gedib-gəlmə. Özünü hayıf eləmə...

Bu sətirləri yazıram, yaddaşımdasa Elçinin ədəbi düşüncələrindən fraqmentlər dolanır: «Bir kitab həyatı öyrənmək üçün səyahətə çıxır, özü öz davamını yazmaq istəyir, baxır, müşahidə edir və nəhayətdə özünü ocağa atıb yandırır – intihar edir».

Bu kitaba maraq azalıbmı? Əksinədirmi? Bəlkə kitab özü bizdən küsüb?

Səbəb?

Bəlkə biz özümüz artıq Baladadaş, Məmmədağa, Ələkbər, Mahmud xislətinə, təbiətinə yad, biganə, laqeyd olmağa başlamışıq.

Bəlkə «get o qonşuya yenə yaxşılıq elə» deyənlərimiz azalıb.

Bəs onda bu əsərlər **«Dolça», «Toyuğun diri qalması», «Bir görüşün tarixçəsi», «Ağ dəvə», «Ölüm hökmü», «Baladadaşın toy hamamı» «Get o qonşuya kömək elə!»** xeyirxahlığını pıçıldamırmı bizə?

Tanış, gənc, lap cavan bir qadının etirafı düşür yadıma:

- Mən bu adamı sevərdim...

Elçinin «Ədəbi düşüncələr» kitabının üz qabığında verilmiş şəkilə baxıla-baxıla deyilən bu sözlərə görə o cavan qadını ona görə qınamaq olmur ki, həmin şəklə baxılan anda ilk göz önünə gələn



Məmmədağanın, Məsməxanımın, Ələkbərin, Mahmudun, Zakirin, Xosrov müəllimin və s. tanış, insanpərvər, xeyirxah simalarıdı. Və Elçin özü bir insan kimi yaxşılıq etməyə məhkum olunmuşlardandır.

Və bu əhvalatın peyğəmbərlə bağlı olan tərəfi də var!

Və ədəbiyyatımızın, mənəviyyatımızın, ədəbi ictimaiyyətimiz üzərində bir Elçin yaxşılığı, Elçin diqqəti, Elçin qayğısı Simurq quşunun kölgəsi kimi dolanmaqdadı.

Cəmiyyətimiz üçün, mənəviyyatımız üçün Elçinin ən böyük yaxşılığı «Ölüm hökmü»dü, «Ağ dəvə»di, «Mahmud və Məryəm»di, «Dolça»dı, «Gümüşü furqon»du, «Baladadaşın toy hamamı»dı və sair və i.a.

Məmmədağanın, Xosrov müəllimin, Ələkbərin, Mahmudun, Baladadaşın cəmiyyətə nüfuz edən mənəvi paklığı, təmizliyi, yaxşılığı Elçinin ziyalı, vətəndaş ömürlüyündən süzülüb gəlir. Bu obrazların insana sirayət edən, onu daxilən dəyişən, müdrikləşdirən reallığında Elçin humanizmi, Elçin qəlbi, Elçin vətəndaşlığı bütöv, boyaboy görünür.

Hər dəfə Elçin haqqında düşünəndə yaxşılıq etməyə məhkum olunmuş böyük bir ziyalı obrazı canlanır gözüm önündə. Bu məhkumluq ilahidən gələn, taledən gələn, xislətdən, tərbiyədən gələn məhkumluqdu.

**Yaxşılıq dünyanın ən gözəl işidi.**

«Quran-i-Kərim»in Bəqərə surəsinin 112-ci ayəsində isə deyilir:

**«Kim gözəl işlər görüb özünü Allaha təslim edirsə, Rəbbinin yanındadı onun əmri. Onlara qorxu yoxdur. Onlar üzülməzlər kədər içində».**

Elə bu ayənin özü də bizə təlqin edir ki:

**- Get o qonşuya yenə yaxşılıq et!**

Və qonşuya edilən yaxşılıqlar kimi oxunur Elçinin əsərləri.

*«Ədalət» qəzeti, 10, 17 aprel, 22 may 2003.*

Nərgiz PAŞAYEVA

# ELÇİNİN ƏDƏBİ QƏHRƏMANLARI

## (Elçinin 60 illik yubileyi münasibətilə)

Ədəbiyyatın inkişafında ayrı-ayrı ədəbi şəxsiyyətlərin rolu, onların bu inkişafa verdiyi bədii «məhsul» çox mühüm əhəmiyyət kəsb edir. Keçən əsrin 60-cı illərində ədəbiyyata gələn ədəbi nəsil nümayəndələrinin, ilk növbədə Elçinin, Anarın və Əkrəm Əylislinin hər birinin bu mənada XX əsr Azərbaycan ədəbiyyatında özünəməxsus yeri var.

Bütöv bir ədəbi mərhələdə (60-90-cı illər), başqa sözlə desək, bu yazıçıların yaradıcılığını əks etdirən «Yeni Azərbaycan nəsri» orbitində bu yazıçıların yaradıcılığını vahid məhvər ətrafında qiymətləndirmək o qədər də çətin deyil. Çünki bu ədəbi nəslin yaradıcılığındakı oxşar meyl və tendensiyaları ümumiləşdirmək elmi-nəzəri təcrübədə dəfələrlə sınanılıb.

Ancaq eyni zamanda, şübhəsiz ki, bu yazıçılar bir-birlərindən tamam fərqlənən fərdi bədii-estetik xüsusiyyətlərə malikdirlər və bunu biz onların yaratdığı ədəbi surətlər qalereyasında aydın görürük.

Elçinin ədəbi qəhrəmanlarından söz açmamışdan, 40 il ərzində yaratdığı müxtəlif səpgili obrazları bir neçə rakursda, baxış bucağı altında təhlil etməmişdən əvvəl, yığcam da olsa mövzu və problematika baxımından onun nəsr əsərlərini qruplaşdırmaq, bir-biri ilə bağlı, eyni zamanda bir-birindən fərqli yaradıcılıq dövrlərini müəyyənləşdirmək, bir yazıçı kimi necə inkişaf etdiyini açıqlamaq lazımdır.

1. Elçinin ilk mətbu əsəri «Azərbaycan gəncləri» qəzetinin 5 iyul tarixli sayında dərc edilmiş «O inanırdı» hekayəsidir. Bu hekayəni Elçin məktəbli ikən, 16 yaşında qələmə alıb. Adətən, hər yazıçının ilk qələm təcrübələri onun yaradıcılığında «məşq» xarakteri daşıyır və istər həmin yazıçının özü, istərsə də onun tədqiqatçıları bu yazılar haqqında susurlar. Son illərə qədər Elçinin həm bu ilk qələm təcrübəsi, həm də 1966-cı ildə çap olunan «Min gecədən biri» hekayələr kitabı haqqında ədəbi tənqidin heç bir söz deməd iyi məhz bu səbəblə bağlıdır.

Vaqif və Cavanşir Yusiflilərin «Bu nə sehrdir belə» kitabında Elçin yaradıcılığının ilk, həm də maraqlı bir dövrünü səciyyələndirən hekayələri, povestləri təhlil obyektinə çevrilir. Müəlliflər belə bir həqiqəti təsdiqləyirlər ki: «O inanırdı» hekayəsində gələcək yazıçının – elə ilk cümləsindən fərdi üslubu, özünəməxsus yazı manerası bəlli olan Elçinin istedadını təsdiq edəcək cizgilər diqqəti cəlb etdi. Yəni məktəbli Elçinin bu ilk qələm təcrübəsi işartı halında diqqəti cəlb etsə də, gələcək yazıçı Elçinin üslubuna xas olan, onun fərdi dəsti-xəttinə məhrəm görünən məqamlar gözdən yayınmır».

«Min gecədən biri» kitabında Elçinin yeddi hekayəsi, «Əsli və Kərəm» adlı lirik-yumoristik povesti toplanıb. Üç il sonra, 1969-cu ildə Elçinin daha iki povesti – «SOS» və «Açıq pəncərə» ayrıca kitab halında çap olunur, ancaq o povestlər də əvvəlki illərdə yazılıb.

Elçin özü sonrakı dövrdə çap olunan kitablarına yalnız 1968-ci ildən etibarən yazdığı əsərləri daxil edir və əslində elə həmin 68-ci ildə yazdığı «Dəyişmə» («Sarı pencək»), «Qatar. Pikasso. Latur. 1968», «Beş qəpiklik motosikl» kimi məşhur hekayələr Azərbaycan ədəbiyyatına parlaq bir istedadın gəlişindən və özünütəsdiqindən xəbər verdi.

Beləliklə, 1959-1968-ci illəri Elçin yaradıcılığının birinci – başlanğıc dövrü kimi səciyyələndirmək olar. Bu dövrün hekayə və povestləri mövzusu və problematikası baxımından, demək olar ki, bir nöqtədə birləşirlər – gənc yazıçı mənəvi-əxlaqi prizmadan müasirlərinin daxili dünyasına nəzər salır, ictimai-siyasi həyatda, cəmiyyətin müxtəlif qütbləri arasında yaranan qarşıdurmaların əksini, izlərini həmin müstəviyə keçirirdi və bütün bunlar gənc yazıçının ciddi və prinsipial uğurları idi.

Eləcə də «dramatik povest» adı ilə nəşr edilən «Poçt şöbəsində xayal» pyesi böyük istedadın ifadəsi olduğu kimi, həm də geniş dünyagörüşü, yüksək intellektual səviyyəsi ilə seçilirdi. Təsadüfi deyil ki, 1969-cu ildə yazılan və o zaman teatr səhnələrinə buraxılmayan bu əsər 33 ildən sonra (!) səhnə üzü görərək Azərbaycan dramaturgiyasının şəksiz nailiyyəti kimi qiymətləndirildi.

Elçinin o dövrkü yaradıcılıq uğurlarını şərtləndirən cəhətlərdən biri və bəlkə də birincisi, bu idi ki, 60-70-ci illərin yeni ictimai-milli problemlərini, mənəvi-əxlaqi qayğılarını əhatə etmək baxımından onun nəsrini perspektivli bədii-estetik axtarışlar səciyyələndirirdi.

«SOS» və «Açıq pəncərə» povestlərində qaldırdığı problemlər daha vüsətli şəkildə, daha möhtəşəm və bədii qüdrətlə 70-ci illərin povest və hekayələrində ifadəsini tapdı. Elçin milli mənəviyyat güzgüsündə özünün bütün ləyaqətli, izzət-nəfsi ilə görünən azərbaycanlı tipini – milli mentalitetimizi təmsil edəcək şəxsiyyətləri bədii nəsrimizə

gətirdi, hətta bu mentalitetə, milli-mənəvi dəyərlərə layiq olmayan tipləri də oxuculara nişan verdi. Xaraktercə, xasiyyətcə bir-birinə qətiyyən uyuşmayan insanlar arasında soyuqluğun, biganəliyin səbəbləri üzərində bizi düşündürdü.

Eyni zamanda, hər bir qəhrəmanın ömür-gün məramını, özünün seçdiyi həyat fəlsəfəsini bir yazıçı-psixoloq kimi bədii-psixoloji tədqiq obyektinə çevirdi. Heç bir əsərində təsvir etdiyi qəhrəmanları özünün təbliğat vasitəsinə – ideya ruporuna çevirmədi. Elçinin yüz minlərlə oxucusu (hərgah nəzərə alaq ki, onun əsərləri rus dilində, Moskvada çox böyük tirajla nəşr olunurdu, bir çox xarici dillərə tərcümə edilirdi, o zaman söhbət milyonlarla oxucudan gedir!) onun əsərlərindəki vətəndaşlıq yanğısını və vətəndaşlıq narahatlığını bunsuz da hiss etdi, duydu.

70-ci illərdə Elçin nəsrində diqqəti cəlb edən bir mühüm xüsusiyyət də bu nəsrin sənətkarlıq potensialının qüvvətli şəkildə üzə çıxması oldu. Təsadüfi deyil ki, Məmməd Arif, Məmməd Cəfər, Həmid Araslı, Mir Cəlal, Mirzə İbrahimov, Mehdi Məmmədov, Kamal Talıbzadə, Əziz Mirəhmədov, Bəkir Nəbiyev, Yaşar Qarayev və b. kimi görkəmli yazıçı, tənqidçi və ədəbiyyatşünaslar Elçin yaradıcılığından söz açarkən onun nəsrinin yetkin, sənətkarlıq baxımından orijinal nəsr olduğunu nəzərə çarpdırdılar.

Ədəbi tənqidin Elçinin nəsrinə verdiyi qiymət, onun özünəməxsusluğunu təsdiq edən mülahizələrə biz çox təsadüf edirik, onun öz ədəbi nəsli içərisində də həmin tədqiqedici fikirləri təsdiq edənlər az deyildi. Yusif Səmədoğlu Elçinin 70-ci illərdə çap olunan povestlərinə ayrıca bir məqalə həsr etmişdi. Həmin məqalədə Yusif Səmədoğlu yazırdı: «Elçin yaradıcılığının əsas xüsusiyyətlərindən biri obrazların reallığı, dinamikliyidir. Hər obrazın konkret həyat mövqeyindən, sosial mənsubiyyətindən, mənəvi və psixoloji axarından asılı olaraq rəngarəng poetik vasitələr seçilir, detal və təfərrüatlar mühitə, obrazın siqlətinə uyğunlaşdırılır, daha doğrusu, hər poetik ştrix situasiyanın özündən törəyir. Elçin öz obrazlarının mənəvi kamilləşməsini, durulaşmasını və ya deformasiyasını, öz siqlətinin cəmiyyətin normaları ilə tarazlaşmasından irəli gələn «dağılmanı» poetik təhlil obyektinə çevirərkən, istinad nöqtəsi kimi seçdiyi mühitin adət və ənənələrini, dar çərçivəli «qanunlarını», personajların oturuş-duruşunu, hətta geyimini belə nəzərdən qaçırmır».

Elə bu xüsusiyyətlərinə görə də Elçin, hələ çox gənc və təcrübəsiz bir yazıçı olarkən də mənfi səciyyəli obrazlara ənənəvi yanaşmadan



imtina edir, yaxud müsbət səciyyəli obrazlara da bütün müsbət keyfiyyətlərin toplusu kimi yanaşmır, bir insan kimi onların da zəifliklərini, hətta məğlubiyyətlərini ortaya gətirir.

Yaradıcılığının bu başlanğıc mərhələsində Elçinin fərdi üslubu özünəməxsus deyim və duyum tərzi formalaşma prosesi keçirir. Onun bədii dilinin gözəlliyi, şeriyyəti, təhkiyyəsinin son dərəcə özünəməxsusluğu bu ilk əsərlərində də özünü göstərir. Birinci kitabında lirik üslub daha çox diqqəti cəlb edirsə, sonrakı iki kitabında bu üsluba fəlsəfi, publisistik çalarlar da əlavə olunur.

Və nəhayət, yaradıcılığının elə ilk mərhələsində Elçin gələcəkdə psixoloji nəsr ustası kimi yazacağı əsərlər üçün elə bil təməl hazırlayır. İstər «SOS», istərsə də «Açıq pəncərə» povestlərində obrazların psixoloji aspektdən, mənəvi dünyasının mənzərəsindən təsviri, konfliktin açıq, üz-üzə qarşıdurması ilə yanaşı, gizli, «mən və mən» üsulu da nəzərdən yayınmır.

Bütün bunlar: elə ilk hekayə və povestlərindəki orijinal ifadə tərzi, həyat hadisələrinə özünəməxsus baxış bucağından yanaşması, dilinin – deyim tərzinin ifadəliliyi, şeriyyəti, təsvir etdiyi obrazların bir insan kimi «boyaların qatışığında» təqdim olunması Elçinin sonrakı yaradıcılığında tam şəkildə üzə çıxacaq bədii-sənətkarlıq məziyyətləri idi ki, cizgi-cizgi, rəng-rəng, ayrı-ayrı fraqmentlər halında diqqəti cəlb edirdi.

2. Mənəvi-əxlaqi axtarışlar mövzusu Elçinin 70-ci illər yaradıcılığında da davam edir. Elçin çağdaş Azərbaycan nəsrinin əsas problematikasına çevrilən bu mövzunun bir sıra ən parlaq nümunələrini yaradır.

Yuxarıda adını çəkdiyimiz hekayələr, eləcə də «Zireh», «Qırmızı ayı balası», «Gümüşü, narıncı, məxməri», «On ildən sonra», «Bu dünyada qatarlar gedər», «Baladadaşın ilk məhəbbəti», «Qış nağılı», «Günlərin bir günü», «Talvar», «Şuşaya duman gəlib», «Baladadaşın toy hamamı» kimi hekayələri, «Bir görüşün tarixçəsi», «Toyuğun diri qalması», «Dolça» povestləri təkcə Elçinin deyil, bütövlükdə 70-ci illər Azərbaycan nəsrinin ciddi uğurları idi.

Hər obrazın konkret həyat mövqeyindən, sosial mənsubiyyətindən, mənəvi və psixoloji axarından asılı olaraq rəngarəng poetik vasitələr seçilir və təfərrüatlar mühitə, obrazın siqlətinə uyğunlaşdırılır, daha doğrusu, hər poetik ştrix situasiyanın özündən törəyirdi.

Məhz bu keyfiyyətlərinə görə, Elçinin bədii nəsri, yuxarıda qeyd etdiyimiz kimi, milli hüdudları aşıb keçdi və elə 70-ci və 80-cı illərdə

Elçinin Moskvada «Pervaya lyubov Baladadaşa» («Molodaya qvardiya», 1975), «Serebristıy furqon» («Sovetskiy pisatel», 1978), «Smokovnitsa» («Detskaya literatura», 1986), «Avtokatastrofa v Parije» («Molodaya qvardiya», 1987), «Belıy verblyud» («Sovetskiy pisatel», 1990) və başqa kitabları çap olundu.

Həmin illərdə və sonralar Elçinin povest və hekayələri yüksək nüfuzlu ədəbi mükafatlar aldı, əsərləri SSRİ Yazıçılar İttifaqının, «Drujba narodov», «Nedelya», «Smena» (iki dəfə), «Literaturnaya qazeta» kimi sanballı jurnal və qəzetlərin ən yaxşı əsərlər üçün təsis etdiyi mükafatlara layiq görüldü.

3. Əgər yaradıcılığının başlanğıc mərhələsində – 60-cı illərdə Elçinin bədii nəsri formalaşma dövrü keçirirdisə, özünü tanıma səciyyəsinə malik idisə, bu prosesdə ən yaxın gələcək üçün perspektiv yollar görünürdüsə, 60-ın sonları, 70-ci illərdə həmin yollar bütün genişliyi, tüknməzliyi ilə göz önündə canlanır. İlkin mərhələdə, ilk gənclik çağlarında hələ pardaxlanmamış, şirəyə dolmamış, bu səbəbdən də energiyası içində olan Elçin istedadı 70-ci illərdə bütün mahiyyəti və vüsəti ilə üzə çıxdı.

Burası da, fikrimizcə, diqqətəlayiq bir cəhətdir ki, Elçin yaradıcılığı daimi inkişafdadır, bu yaradıcılıqda pauza yoxdur, janrlar bir-birini əvəz edir, mövzular dəyişir, ancaq dayanmaq yoxdur, elə bil ki, təbii və güclü bir bulaq daimi qaynamaqdadır. Bu gün Elçin ən məhsuldar Azərbaycan yazıçısıdır və əsas məsələ budur ki, onun belə bir məhsuldarlığı ilə əsərlərinin yüksək bədii-estetik səviyyəsi arasında daimi bir vəhdət mövcuddur.

Yəqin elə buna görə də biz Elçinin yaradıcılığında tez-tez sürprizlərlə üzləşirik. Misal üçün, çox ciddi, fəlsəfi-tragik səpkidə yazılmış «Mahmud və Məryəm», «Ağ dəvə», «Ölüm hökmü» kimi Azərbaycan prozasının ən qiymətli nümunələrindən sonra, 90-cı illərdə birdən-birə və tamamilə gözlənilmədən komediyalar silsiləsi meydana çıxır və bu komediyalar – «Ah, Paris, Paris...», «Mən sənin dayınam», «Mənim sevimli dəlim», «Mənim ərim dəlidir» bədii-estetik xüsusiyyətləri, yeni xarakterlər və komik situasiyalar yaratmaq məharəti baxımından Azərbaycan komedioqrafiyasını keyfiyyətcə yeni bir mərhələyə qaldırır.

Yaxud elə həmin 90-cı illərdə Elçin birdən-birə və yenə də tamamilə gözlənilmədən... absurdlar yazmağa başlayır.

Beləliklə, Elçin istedadı eyni temp və ahənglə 80-90-cı illərdə də öz yoluna davam edir. Lakin təbii ki, bu iki dövr arasından bir-birini



təsdiq edəcək faktorlarla yanaşı, bir-birindən qopma, ayrılma və ayrıca bir qol təşkil edə biləcək qədər müstəqilləşmə məqamları da olub.

Əgər 70-ci illərdə Elçin öz qəhrəmanlarına münasibətdə «soyuqqanlılıq» nümayiş etdirirdisə və elə bu soyuqqanlılığın arxasında onun vətəndaş narahatlılığını hiss ediriksə, 80-90-cı illərdə həmin zahiri soyuqqanlılığı fəlsəfi-publisistik «opponentlik» əvəz edir.

Sanki bu əsərlərdə təsvir olunan hadisələrdə, insanlararası münasibətlərdə ağıllı, müdrik bir məsləhətçinin – filosofun iştirakı da görünür. «Mahmud və Məryəm», «Ağ dəvə» və «Ölüm hökmü» romanlarında biz bu filosofun varlığını müxtəlif məqamlarda hiss edirik və ən əsası isə həmin fəlsəfi publisistika bədiiliyə qətiyyən xələl gətirmir, əksinə, bu üslub Azərbaycan ədəbiyyatında hadisə olan hər üç romanın bədii-emosional təsirini daha da artırır.

Elçin yaradıcılığından söz açan tədqiqatçılar belə bir cəhəti vurğulayırlar ki, bədii forma və vasitə həmişə onun üçün cəmiyyət hadisələrinə, gerçəkliyə, insan amilinə daha dərindən müdaxilə etməyin bir yolu – giriş qapısı olub.

Məsələn, 60-cı illərin sonu, 70-ci illərin əvvəllərində Elçin «Dəyişmə», «Qatar. Pikasso. Latur. 1968», «Zireh», «Qırmızı ayı balası», «Talvar» hekayələrini bədii şərtilik («dördüncü ölçü») prinsipləri əsasında qələmə alıb. Azərbaycan nəsrində bu tipli hekayələr formaca tamamilə yeni bədii hadisələr idi. Real həyat hadisələri ilə irreallığın qovuşması, lirik-fantastik ünsürlərin və məqamların hekayədə ifadə olunan əsas qayəni «reallaşdırması» oxucular üçün çox maraqlı görünürdü.

Bu hekayələrdə Elçin, yazıçı məramını ifadə etmək üçün formanın özündə struktur dəyişikliyi edib. 90-cı illərdə isə Elçin, dediyimiz kimi, Azərbaycan nəsrinə «absurd hekayə» tipini gətirdi. Əksər Azərbaycan oxucusu üçün bu tipli hekayələr hələ indiyəcən «həzm edilməli» nümunələr olmasa da, bu əsərlər ədəbiyyatımızda, sözsüz ki, hadisə idi və həmin illərdə Azərbaycan cəmiyyəti həddən artıq siyasiləşdiyi üçün bu hadisə, elə bil ki, bir az kölgədə qaldı. Həm də Elçin Qərb ədəbiyyatından gələn bu «dalğanı» olduğu kimi təkrar etmirdi, absurd poetikasına söykənərək, Azərbaycan cəmiyyəti, ictimai həyatı haqqında fikirlərinin yüksək bədiiliklə ifadəsinə nail olurdu.

Yaxud «Mahmud və Məryəm» romanını götürək. Tənqidçi Tehran Əlişanoğlu yazır: «Mahmud və Məryəm»ə tarixi roman demək bir o qədər də dəqiq olmaz. Burada tarix məqsəd deyil, vasitədir. Yazıçı cəmiyyət məsələlərini tarixi dürüstlüklə bədii tədqiqə cəlb edib.

Cəmiyyət, dövlət, tarixi gedişat, həyat məsələlərində gizlənən rəngarəng məna qammalarını, fikir çarpaşıqlarını üzə çıxarmaq üçün tarixi hadisələrdən bir vasitə, bir «forma» kimi istifadə edib. Bu mənada «Mahmud və Məryəm»i roman-esse adlandırmaq, məncə, daha doğrudur və onu qeyd edək ki, burada qeyri-normal bir şey yoxdur. Dünya ədəbiyyatında tarixə şərti münasibət artıq mövcud faktdır. Cənubi Amerika yazıçısı Qabriel Qarsia Markesin «Yüz il tənhalıqda» romanı bunun bariz nümunəsidir. Kolumbiya xalqının formalaşması burada şərti-tarixi fonda, çox inandırıcılıqla təsvir olunub».

Sitat gətirdiyimiz parça T.Əlişanoğlunun «Mahmud və Məryəm» romanının bədii strukturu barədə» məqaləsindəndir və həmin məqalədə romanın bədii strukturunda çox önəmli rol oynayan təsvir vasitələri, folklor süjeti, pritça və fantastik lövhələr, hiperbolik boyalar haqqında ətraflı söz açılır. Lakin bütün bu təsvir vasitələri – bu formayaradıcı ünsürlər təkcə bu romanda deyil, Elçinin digər əsərlərində də müşahidə olunası hallardır.

Yaradıcılığının üçüncü – 80-90-cı illər mərhələsinə xas olan xüsusiyyətlərdən biri də yazıçının folklorun sadə və müdrik məntiqinə üz tutmasıdır. Elçin tipli yazıçılar haqqında bir cümlə ilə «o, folklordan da istifadə etmişdir» demək insafsızlıq olardı. Əslində, folklor Elçin nəsrində hərəkətverici – həyatverici bir qüvvə kimi iştirak edir.

Elə ilk hekayələrindəki nağıl şeriyyəti, folklor poetikasından gələn meh-sərinlik, təmiz, işıqlı duyğular sonrakı illərdə də vüsətlə davam edirdi. «Baladadaşın ilk məhəbbəti», «Günlərin bir günündə», «Talvar», «Qış nağılı», «On ildən sonra», «Şuşaya duman gəlib» hekayələrində nağıl dünyasına xas olan şeriyyəti, şirinliyi görməmək mümkün deyildi.

Bu, xüsusilə «Bir görüşün tarixçəsi», «Toyuğun diri qalması», «Dolça» povestlərinə daha çox şamil oluna bilər. Ancaq bütün bunlar adları çəkilən hekayə və povestlərdə hiss edilən, duyulan qatdır. «Mahmud və Məryəm» romanında isə folklor qatı artıq əsərin arxitektonikasında özünə yer tapır.

Ədəbi tənqid doğru qeyd edir ki, «Elçin «Əsli və Kərəm» eşq dastanının motivlərindən istifadə edərək insan xisləti haqqında dərindən düşündürən və dərindən təsir edən bir əsər yazıb. Müəllif folklor süjetinin fəlsəfi həllini verib, insan təbiətinin mürəkkəbliyini, insan və cəmiyyət probleminin bir neçə xəttini yüksək bədii səviyyədə ucuya təqdim edib. Bu mənada müasir ədəbiyyatda dəb halını almış



folklorlaşdırma üsulundan çox uzaq olan yazıçı, el ədəbiyyatının imitasiyası yolunu deyil, xalq ədəbiyyatını, xalqın yaratdığı süjeti simvol kimi alaraq müasir fəlsəfi roman yaradıb».

Elçinin roman yaradıcılığına 80-cı illərdə başlaması da onun bədii nəsrinin təkamül prosesi ilə bağlıdır. XX əsrdə yaşayıb – yaradan bir çox yazıçılar da yaradıcılığa əvvəlcə hekayə ilə başlamış, sonra povest yazmış, nəhayət, romana keçmişlər. Görünür, burada bir qanunauyğunluq var. Biz heç də iddia etmirik ki, hekayə və povest romana nisbətən «zəif» janrdır və bir nasir kimi böyük uğur qazanmaq, yaxud yaradıcılıq qüdrətini nümayiş etdirmək üçün mütləq roman yazmaq lazımdır. Dünya bədii nəsr təcrübəsi bu fikrin yanlışlığını sübut edir.

Lakin o da məlumdur ki, yazıçılar çox zaman roman yaradıcılığına müəyyən ədəbi təcrübədən sonra müraciət etmişlər və yaradıcılıq təkamülü baxımından bu, tamamilə qanunauyğundur. Heç kim hekayənin, povestin romanla müqayisədə sanbalını azalda bilməz, ancaq roman – romandır. Folklorda dastan hansı məqamdadırsa, hansı yeri tutursa, bədii nəsrdə də roman o yeri tutur.

Səksəninci illərdə Elçin «Mahmud və Məryəm», «Ağ dəvə» və «Ölüm hökmü» romanlarını yazdı. Mənəvi-əxlaqi axtarışlar mövzusunda püxtələşmiş bir yazıçının birdən-birə tariximizin ən mürəkkəb dövrlərinə müraciət etməsi, bəlkə də, qəribə görünə bilərdi. Ancaq Elçin elə ilk romanında («Mahmud və Məryəm») sübut etdi ki, bir yazıçı kimi, həyatı, cəmiyyətdə baş verən hadisələri, tarixi gerçəkliyi daha geniş, çoxşaxəli planda əks etdirmək və yeni bədii söz demək bacarığına malikdir. Elə buna görə də «Mahmud və Məryəm» oxucular tərəfindən dərhal qəbul olundu və ən sevilən, ən populyar əsərlərdən birinə çevrildi, bir çox xarici dillərə tərcümə edildi.

Elçin tarixə – istər uzaq, istərsə də yaxın tarixi keçmişə müraciət etsə də, məqsəd çağdaş dövrümüzün, yaşadığımız əsrin suallarına cavab axtarmaq idi. Xatırladaq ki, 70-80-cı illərdə Azərbaycan bədii nəsrində tarixi mövzulara bir qayıdış hiss olunurdu. Yazıçılar sanki, yuxarıda qeyd etdiyimiz kimi, müasir dövrün doğurduğu bir çox suallara tarixi keçmişimizdə, xalqın əxlaqi və mənəvi təcrübəsinin «dərslərində» cavab axtarırdılar.

Hələ 1979-cu ildə Yaşar Qarayev yazırdı: «Tarixi əsərdə zaman və xalq qarşısında bədii cavabdehliyin meyarı daha böyük və miqyaslıdır: o, həmişə və hər yerdə «Mən kiməm?» – sualına «Bəs babam kimdir?» – sualı ilə birlikdə cavab verir. Məsələn, həqiqi tarixi nəsr – nəsrdə dərk olunan milli tarix və milli taledən başqa bir şey

deyildir. Burada epik hadisə sosial hadisəyə, fərdi dram ictimai və milli «özünüdərkin» faktına çevrilmirsə, demək hələ «tarixi-nəsr» baş tutmur. Yalnız belə çevrilmədən sonra – həm keçmişi, həm də indini bizə vəhdətdə, proses halında göstərəndə – milli bədii tarix «milli bədii yaddaşa» çevrilə bilər...».

Elçinin romanları bu mənada «Mən kiməm» sualına «Bəs babam kimdir» - sualı ilə birlikdə cavab verən tutarlı ədəbi-tarixi nümunələrdir. Lakin bu əsərləri sırf tarixi roman poetikası nöqteyi-nəzərində qiymətləndirmək də doğru deyil, çünki «Mahmud və Məryəm», «Ağ dəvə», «Ölüm hökmü» romanlarından uzaq və bir o qədər də uzaq olmayan tarix yenidən «oxunur», salnaməçi şövqilə yazılır. Yenidən «oxunan» tarixdə əsas fon, tarixi mənzərə saxlanılsa da, məqsəd tarixi dövrü «bədiiləşdirmək» deyildir. Məqsəd tarixə müasir baxışdır, - müasir dövrün doğurduğu suallara tarixdə cavab axtarmaqdır.

Elçinin 90-cı illərdə dramaturgiyaya və tənqidi-publisistik yaradıcılığa daha çox meyl etməsi isə, güman edirik ki, fərdi yaradıcılıq psixologiyası ilə bağlı məsələdir. Düzdür, o, 2000-ci illərdə Azərbaycan hekayəsinin «Sarı gəlin», «Qırmızı qərənfil gülləri Pere Palas otelində qaldı», «Göy üzünün ulduzlu çağları», «Araba» kimi şedevrlərini də yaradıb.

Müsahibələrinin birində Elçin deyir: «1990-cı ilin yanvar hadisələrindən sonra heç nə yaza bilmirdim. İndi təsəvvür edin, həmişə yazmağa vərdiş edən, hər gün yaradıcılıqla məşğul olan adam birdən-birə heç nə yazmır, yaza bilmir. Yazıçı üçün bu ən ağır bir vəziyyətdir. Başladım oxuduğum kitabları bir də oxumağa. O kitabların içində Molyerin komediyaları da vardı və birdən-birə, özüm də gözləmədən Molyeri Azərbaycan dilinə tərcümə eləməyə başladım. «Skapenin kələkləri»ni, «Jorj Danden, yaxud aldanmış ər»i dilimizə çevirdim. Sonra bir müddət Axundov kitabxanasına gedib-gəldim, «Azərbaycan səhnəsi və Molyer» mövzusunu işlədim, sonra Mirzə Cəlili, Haqverdiyevi, N.Vəzirovu təzədən mütaliə etdim. Və bütün bunlardan sonra özüm üçün də gözlənilməz bir hadisə baş verdi; oturub komediya yazmağa başladım: «Ah, Paris, Paris».

Maraqlıdır ki, Elçin orijinal komediyalarını yazmaqla bərabər, «Mahmud və Məryəm», «Ölüm hökmü», «Ağ dəvə» romanlarını səhnələşdirərək üç tragik pyes də qələmə alıb və bu əsərlər də komediyalar kimi, çox böyük uğurla səhnədə oynanılır.

Bəlkə də Elçinin müəyyən müddət nisbətən nəsrdən uzaqlaşması, onun yeni-yeni nəsr əsərlərini oxumağa alışan oxucunu darıxdırır,



lakin burada yazıçıya nəyisə irad tutmaq, yenidən nəsrə qayıtmağı tövsiyə etmək, əlbəttə, doğru olmaz. Elçin istedadının dramaturgiyada da tam şəkildə özünü tapması göz qabağındadır.

Mövzu – problematika baxımından yanaşdıqda isə Elçinin darmaturgiyası yaşadığımız dövrün 90-cı illərinin hadisələrini əhatə edir. «Keçid» dövrünün ictimai-siyasi mənzərələri, insanların çaşqınlığı, kütləvi başıpozuqluq, partiyalaşma və təbəqələşmə yüksək bədiiliklə həmin pyeslərin süjetinə hopdurulan, dramatizminə çevrilən hadisələrdir.

Elçin «dəlilik» mövzusunu «keçid» dövrünün panoramına uyğunlaşdırmış, ağıllı insanların tragizmini («dəliliyini») göstərmişdir.

«Elçin dramaturgiyamızda ilk dəfə olaraq xaosun, hərcmərcliyin obrazını yaradır! Onların əsasında duran mənəvi, əxlaqi, ideoloji stereotipə, normativ düşüncə və rəftar tərzinə ən müasir ayıq, oyaq ədəbi-estetik münasibət ifadə edir». (Yaşar Qarayev).

Elçin yaradıcılığını 40 illik bir zaman çərçivəsində nəzərdən keçirərkən onun bu müddət ərzində bir yazıçı kimi necə inkişaf etdiyini, ilk hekayəsindəki işartının, o közərtinin öz işığını artıra-artıra güclü bir alova çevrildiyini, hər əsərində öz istedadının yeni bir cəhəti ilə diqqəti cəlb etdiyini və beləliklə yaradıcılığının kamillik mərhələsinə yetdiyini görmək çətin deyil. «Altmışıncılar» ədəbi nəslinin aparıcı nümayəndələrindən biri kimi o, bədii fikirdə öz sanballı sözünü deyə bilib.

Bu ədəbi nəslin digər istedadlı nümayəndələri olan Əkrəm Əylisli, Anar, İsi Məlikzadə, Maqsud İbrahimbəyov, Rüstəm İbrahimbəyov və başqaları da 60-80-cı illərdə milli şüurun oyanmasında, fikri-mənəvi intibah işində az rol oynamadılar. Elçin və «altmışıncılar» ədəbi nəslinin digər görkəmli nümayəndələri əxlaqda, mənəviyyatda süniliyə, eybəcərliyə qarşı çıxdılar. Bu cəhət ona görə qiymətlidir ki, həmin qələm sahibləri əsas etibarı ilə, sosialist realizminin hələ hökm sürdüyü, xalqın ədəbi tərbiyəsində yenə mühüm rol oynadığı bir dövrdə yaşayıb-yaradırdılar.

Sonralar Elçin müsahibələrinin birində bu barədə belə söyləyəcəkdi: «Ədəbiyyat həqiqəti istedadla ifadə etməyi bacarırsa, deməli, o öz xalqını ifadə edir. 60,70,80-cı illərdə Azərbaycan ədəbiyyatında meydana çıxan istedadlı əsərlər, əslində, gəmidə oturub gəmiçi ilə dava eləməyin nəticəsi idi. Gəmi – yaşadığımız Sovet İttifaqı idi, gəmiçi isə SİSTEM idi. Yalnız Azərbaycanda deyil, Rusiyada da, Baltika ölkələrində də, Ukraynada da, Gürcüstanda da həmin SİSTEMƏ öldürücü zərbələrdən birini, heç şübhəsiz, bədii ədəbiyyat

vurdu. Həqiqəti göstərməsi ilə. Ədəbiyyat şərti olaraq iki yerə bölünürdü: xalqın təəssübkeşi və SİSTEMİN təəssübkeşi. xalqın təəssübkeşi həqiqəti göstərirdi. SİSTEMİN təəssübkeşi isə yalançı həqiqət quraşdırırdı».

Bu mənada Elçinin bədii nəsri və dramaturgiyası müasirlərimizin milli-mənəvi intibahında, milli azadlıq ideyalarının inkişafında mühüm rol oynayıb və həmin missiyanı Elçin indi də davam etdirir.

Elçinin ədəbi qəhrəmanları müxtəlif nöqteyi-nəzərdən bədii tədqiq obyektinə çevrilib və «müxtəliflik» deyəndə biz həmin qəhrəmanların hansı ədəbi-nəzəri meyarlarla qiymətləndirilməsini nəzərdə tuturuq.

Məlumdur ki, ədəbi qəhrəmanların təhlili, onların əsərin ideya-bədii sistemində oynadığı müstəsna rolu sovet ədəbi tənqidində, əsasən, ictimai-sosioloji planda təqdim edilirdi. Ədəbi əsərin qəhrəmanı cəmiyyətdə, ictimai həyatda tutduğu mövqeyə, sinfi mənsubiyyətinə, əmək qurucusu kimi fəaliyyətinə, partiyaya sədaqətinə, xeyirxah insani keyfiyyətinə, yaxud mənfi səciyyəlidirsə, bütün bu xüsusiyyətlərə əks mövqedə dayandığına görə qruplaşdırılırdı. 30-50-ci illərin ədəbi təndiqində buna aid onlarla misallar gətirmək olar.

Elçin özü də «Nəsr və tənqid» monoqrafiyasında bu barədə müfəssəl və səriştəli tədqiqat aparıb. 50-ci illərin axırlarından başlayaraq tənqidçilərin ara-sıra bu standart təhlili üslubundan imtina etmək cəhdləri ilə rastlaşırıq. Əvvəlki «müsbət» – «mənfi» bölgüsünü, obrazın gördüyü xeyirxah işlərin, ya əmək qəhrəmanlığının qiymətləndirilməsini indi onun nə dərəcədə sənətkarlıqla, hansı bədii üsullara təqdim edilməsi, bir insan kimi mürəkkəb və ziddiyyətli olması daha çox diqqət mərkəzinə çəkilirdi.

Obrazları təhlil edərkən zahiri aləmin, üzdə görünən, bilavasitə şahidi olduğumuz əməl və hərəkətlərin, iş və fəaliyyətin qeydiyyatını aparan tənqidçinin yerini indi, hələlik bir cəhd kimi olsa da, daha çox daxili aləmə diqqət yetirən, obrazın səciyyəsini onun öz daxili aləminin prizmasından qiymətləndirən tənqidçi əvəz etməyə başlayırdı.

Bu yerdə, bəhs olunan ədəbi əsərlərdən də çox şey asılı idi, onlar tənqidçini bədii meyarları əsas götürməyə sövq edirdi. Məsələn, çox zaman dövrün xarakterinə uyğun olaraq sosioloji tənqidə meyl edən tənqidçi Yəhya Seyidov Elçinə həsr etdiyi resenziyasında yazırdı: «Elçin müasirlərimizin bədii surətini yaratmağa, onların mürəkkəb daxili aləmlərinə nəzər salmağa cəhd edir, bu yolda axtarışdan çəkinmir. Onun bu istiqamətdə irəlilədiyinə şübhə yoxdur.



... Surətlərin daxili aləmi, təkcə birinci şəxsin dilindən yazılan «Zireh»də deyil, digər hekayələrinin hamısında ön plana çəkilib.

... «Beş qəpiklik motosikl»də obrazın, həyatın cəmi bir neçə saatı qələmə alınıb. Lakin onun düşüncə və hisslər aləminin elə mənalı anları verilib ki, oxucunun nəzərində bir şəxsin – sənətşünaslıq namizədi Sabir Məlikovun bütün həyatı, dünyabaxışı canlanır. Sabir ilk baxışda ancaq özü, oğlu, arvadı haqda düşünür. Lakin bunların hamısı müasirlərimizin mürəkkəb daxili aləmini açan bir vasitəyə çevrilir».

Məqalədə tənqidçi bəzən yenə də obrazları sosioloji meyarla təhlildən yayına bilmir, amma onun Elçin bədii nəsrinə «düşüncə və hisslər aləminin» prizmasından nəzər yetirməsi özü maraqlı və əlamətdar fakt idi.

Yeri gəlmişkən, qeyd edək ki, M.Arif, M.Cəfər, M.İbrahimov, Ə.Mirəhmədov, K.Talıbzadə, B.Vahabzadə, B.Nəbiyev, Y.Qarayev, T.Hacıyev kimi yazıçı və tənqidçilərin Elçin yaradıcılığından söz açan məqalə və resenziyalarında da məhz «düşüncə və hisslər aləminin» təhlili əsas yer tutur. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, Elçin, yaradıcılığı haqqında ən çox yazılan müasir yazıçılardan biri, bəlkə də birincisidir.

Burada bir mühüm amili də qeyd etmək yerinə düşər. O da bundan ibarətdir ki, Elçin, Ə.Əylisli, Anar, İ.Məlikzadə, M. və R.İbrahimbəyovlar və digər «altmışıncılar»ın yaradıcılığından söz açan tənqidçilər ədəbi qəhrəmanların təhlilində sosialist realizmi tənqidinin əsas ölçüsü olan sosioloji təhlil üsulunu bütün parametrlərini tətbiq edə bilməzdilər.

Məsələ burasındadır ki, Elçinin, eləcə də «altmışıncılar»ın digər aparıcı nümayəndələrinin (Əkrəm Əylislinin, Yusif Səmədoğlunun, Anarın) ədəbiyyata gətirdiyi qəhrəmanlar heç bir «müstəsnalığı» ilə seçilmirdilər. Onların əksər qismi adi, sıravi insanlar idi. Doğrudur sosialist realizmi ədəbiyyatında da adi, sıravi insanlara yer verilirdi, lakin bu adilər və sıravilər sonda məcburən müstəsna qəhrəmana, döyüşkən mübariz qurucu insana çevrilirdilər. Doğrudur, Azərbaycan sovet ədəbiyyatşünaslığı təsdiq edirdi ki, «sosialist realizmi üçün «sıravi», yoxsa «müstəsna» qəhrəman dilemması yoxdur, vahid bir realist və humanist insan konsepsiyası var. «Sıraviyə» və «qeyri-adiliyə» eyni dərəcədə maraq bu metoda məxsus sosialist məzmunlu humanizmin və demokratizmin öz təbiətindən irəli gələn bir xüsusiyyətdir» (Yaşar Qarayev). Ancaq onlarla misallar gətirmək olar ki, sosialist realizmi ədəbiyyatında «sıraviyə» və «qeyri-adiliyə» eyni

dərəcədə maraq olmayıb. «Sıravi»nin «qeyri-adiyə» çevrilməsi prosesi sovet yazıçılarını düşündürdüsə, «qeyri-adilər» heç vaxt «sıraviləşmirdilər». Yəni bu üsul trafaret halına keçmişdi. «Qeyri-adilər» məlum şablon üsullarla əsərdən-əsərə adlayır, «sıravilər» isə həmin obrazlar üçün müəyyən fon yaradırdılar. Lakin 50-ci illərin axırlarından başlayaraq bədii nəsrdə sadə insanların sıravi adamların həyatına, mənəvi dünyasına meyl artırdı. İstedadlı yazıçılar «sıravilərdən» «müstəsna» qəhrəman yaratmaq istəmirlər. Təsvir olunan ədəbi qəhrəmanlar bəzən çıxılmazlıq içində çabalayaraq, gündəlik qayğıları ilə vurnuxur, hətta bir çox «ictimai» məqamlarda çox passiv nəzərə çarpırdılar. Ancaq müəlliflər çalışırdılar ki, həmin qəhrəmanların daxili aləminin zəngin olduğunu, öz mənəvi saflığını qoruyub saxladıqlarını göstərə bilsinlər. Fəalliq, mübarizlik bəzən onlarda lazımi dərəcədə – sovet ideologiyasının tələb etdiyi şəkildə müşahidə olunmurdu və hətta bəzi tənqidçilər belə obrazlar yaratdıqları üçün yazıçıları qınayırdılar. Ancaq bu tendensiya heç nəyə baxmadan inkişaf edirdi (çünki əsl ədəbiyyatı yaradan istedad bunu tələb edirdi!). Bu baxımdan «altmışıncılar»ın – «Yeni Azərbaycan nəsri»nin araya-ərsəyə gətirdiyi, qəhrəmanları müxtəlif aspektlərdən təhlilə cəlb edərək maraqlı nəticələr əldə etmək olar və həmin ədəbi nəslin ən istedadlı nümayəndələrindən biri olan Elçinin ədəbi qəhrəmanlarının timsalında biz bunu aydın görə bilərik. Elçinin yaratdığı qəhrəmanlara sosializm realizmi prinsipləri ilə yanaşmaq mümkün deyil və əgər belə bir qruplaşma aparılsa belə, bir nəticə hasil etmək mümkün deyil. Çünki Elçinin ədəbi qəhrəmanları nə sinfi mənsubiyyətləri, nə əmək prosesi ilə bağlılığı, nə də mübariz və döyüşkən xüsusiyyətlərinə görə yaradılıb – onlar sadəcə olaraq canlı insanlardır. Bu obrazlar, təbii ki, cəmiyyətin müəyyən zümrəsinə mənsubdurlar, əsasən sadə zəhmət adamları, ziyalılardır, hətta bəzən döyüşkən və mübarizdirlər, lakin müəllif bu «mübarizliyi» və ümumiyyətlə, hər hansı bir xüsusiyyəti heç bir əsərində ideya ruporuna çevirmir. Yəni demir ki, «bax bu Ağababa («Dolça» povesti) obrazı... şoferdir, zəhmətkeşdir, çox xeyirxah insandır, öz əlinin zəhməti ilə dolanır – ailə saxlayır, yeri gələndə şərə qarşı mübarizə aparır». Elçin bu xüsusiyyətləri və insani məziyyətləri obrazın hərəkət və əməllərində hiss etdirir. Ədəbi qəhrəmanlara ictimai-sosial planda baxış çox zaman onların cəmiyyətdə tutduğu mövqe və yaşadıqları mühitdə necə dərk olunmaları ilə bağlı olur. Burada mühitin böyük rolunu ön plana çəkməliyik və biz bu prinsipdən çıxış etsək, görərik ki, Elçinin hər



hansı bir qəhrəmanı yaşadığı mühitin əxlaqının, mənəviyyatının daşıyıcısı kimi diqqəti cəlb edir. O qəhrəman ya həmin mühitə tam layiqdir, ya da öz əxlaq və davranışları ilə o mühitə yaddır, yabançıdır. Yaradıcı dövrdə – 70-ci illərin əvvəllərində Azərbaycan nəsrinə tamamilə orijinal və yeni bir nəfəs gətirən «Bir görüşün tarixçəsi» povestində doğulduğu, boya-başa çatdığı məhəllənin pozulmaz əxlaq qanunlarının təcəssümü kimi verilən Məmmədağa özgə arvadı Məsməxanıma münasibətində də bu «kişi qanunlarını» pozmur. Məsməxanımla bir gecədəki tanışlığına, ünsiyyətinə gəlincə, burada əsas rolu yüksək humanizm duyğusu oynayır. Çünki kişilikdə heç bir adı olmayan Mizoppadan fərqli olaraq o, bu qadına onu alçaldacaq səviyyədə yanaşmır, sanki neçə ilin tanışı, ürək qızdırdığı bir insan kimi lütfkarlıq göstərir. Onların ikisi də hiss edir ki, dünyada insanları bir-birinə yaxınlaşdıran müqəddəs duyğular var: «Aydın məsələdir ki, Məsməxanımla Məmmədağa bir-birinin nə fikirləşdiklərindən xəbərsiz idilər, amma ən maraqlısı da elə bu idi ki, həmin qəribə yay gecəsi onlar ikisi də tez-tez eyni şey barədə fikirləşirdi». Məsməxanımın düşdüyü mühit onu bir insan kimi alçaldarkən (bazar həyatı, təhqirlə, söyüşlə ürcah olduğu ər evi), birdən-birə hər gün xəyala dalaraq arzuladığı bir insan – «sehrli nağıl aləminin qəhrəmanı qarşısına çıxır. Zuğulbada dəniz sahilindəki həmin o qəribə yay gecəsi onun qəlbindəki işığın o mühit içində hələ də sönmədiyini sübut edir. Dünya ədəbiyyatında «sehrli nağıl aləminin qəhrəmanı» mövzusu ənənəvi bir mövzudur və adətən, «Zoluşka» sonluqları ilə bitir, lakin Elçin bu ənənəvi mövzunu tamamilə özününkü edə bilmişdir. Biz «Zoluşka» əhval-ruhiyyəsini yox, Elçinin qələmi üçün doğma olan son dərəcə koloritli Abşeron mühitini görürük və ən qəribəsi də budur ki, o mühitin bir sıra hallarda eybəcərliyindən çiyrinsək də, bir sıra məqamlarda tragizminin şahidi olsaq da, içimizdə o Abşeron mühitinə (Elçin mühitinə) qarşı bir hərarət yaranır, biz o mühitə bağlanırıq, onunla doğmalaşırıq.

Elçinin digər hekayə və povestlərində də qəhrəmanların taleyində mühitin rolu həm sosial-ictimai, həm də mənəvi-psixoloji faktor kimi diqqəti cəlb edir. Oxucuların böyük məhəbbətini qazanan «Baladadaşın ilk məhəbbəti» və «Baladadaşın toy hamamı» hekayələrində də qəhrəmanın mühiti tipik Abşeron kəndlərində formalaşan adət-ənənələrlə, davranış tərzi ilə bağlıdır (Bu cəhəti biz yazıçının, yuxarıda dediyimiz kimi, «Bir görüşün tarixçəsi», eləcə də «Toyuğun diri qalması», «Dolça» povestlərinə də şamil edə bilərik). Baladadaş o

mühitdə tərbiyə alıb ki, buradakı sadəlik-sərbəstlik, daxili azadlıq, sözü üzə şax demək sağlam qürur hissi ilə yoğrulub və bu xüsusiyyətlər Elçinin hekayələrində yüksək bədii-estetik səviyyədə öz ifadəsini tapıb. Yəqin elə buna görə də Baladadaş – kiçik bir hekayə qəhrəmanı oxucular tərəfindən bu dərəcədə qəbul edildi, sevildi, 70-ci illərin ən populyar ədəbi qəhrəmanına çevrildi və o populyarlıq bu gün də davam edir. Bu xüsusiyyətlər Baladadaşın Sevilə münasibətində də əsas rol oynayır. Baladadaş – ilk baxışda öz «aerodrom» kepkası ilə gülüş doğuran bu gənc Sevilə vurulur. Xəyalında Sevillə dənizi birləşdirən, dəniz saflığını Sevillə eyniləşdirən Baladadaş az sonra yanıldığını sövq-təbii dərk edir. Çünki on səkkiz yaşlı gözəl qız tamamilə başqa bir aləmin, fərqli bir mühitin yetirməsidir. Baladadaş üçün fərqi yox idi ki, bu on səkkiz yaşlı gözəl qızın yanında bığıburma zırpı bir oğlan dayanıb və həmin oğlanın təptəzə qırmızı «Moskviç»i var və Baladadaşın gözlərini bərəldib beləcə qıza baxmağı bu oğlanın xoşuna gəlmir».

Beləliklə, Baladadaşın işıqlı, təmiz romantikası ilə Muradın və Sevilin bu romantikanı anlamayacaq «reallığı» üz-üzə gəlir. Bu «qarşıdurmada» isə tərəflərin heç birini suçlu hesab etmək doğru olmazdı. Məhəbbət, gözəllik və romantika barədə hər bir mikromühitin öz təsəvvürləri və baxışları ola bilər. Elçin, bir müəllif kimi, «tərəfkeşlik» etmir, sadəcə olaraq göstərir (lakin yüksək bədiiliklə göstərir) və həmin «tərəfkeşlik» oxucunun ixtiyarına buraxılır.

«Baladadaşın toy hamamı» hekayəsində həmin «aerodrom» kepkalı qəhrəmanın yetkinləşdiyinin, şərə, naqisliyə qarşı fitri barışmazlığının şahidi oluruq. Baladadaş bütün kənd camaatının qarşısında varlı-karlı Gümüş Maliklə Ələkbərə cavab qaytarır, toy günü onlara işi düşməsin deyə, çimmək üçün hamama yox, dənizə üz tutur.

Baladadaş haqqındakı hekayələrin böyük müvəffəqiyyətini şərtləndirən bir cəhət də bu idi ki, oxucu Azərbaycan ədəbiyyatındakı baladadaşları gülünc, bəzən də ucuz satira qəhrəmanları, kütbeyin, dünyadan xəbərsiz, savadsız tiplər kimi tanıyırdı və həmin oxucu birdən-birə lirik-romantik ab-havalı, səmimi, təmiz bir məxluqla – tamamilə yeni və gözlənilməz Baladadaşla rastlaşır.

Mühitin qəhrəmanına təsiri və bu iki aləmin qarşılıqlı münasibəti Elçinin «Dolça» povestində daha qabarıq nəzərə çarpır. Azərbaycan povestinin ən kamil nümunələrindən biri olan bu əsərdə iki aləmin, əslində dünyabaxışı etibarilə bir-birindən tamam fərqli iki mühitin mənəvi qarşıdurması diqqəti cəlb edir.



Elçinin yaradıcılığını daima izləyən tənqidçi Aydın Məmmədov «Dəniz, dolça və cüllüt» adlı məqaləsində yazırdı: «Ağababa öz mühitinin övladıdır; bu mühitin öz qəribəlikləri, öz təkrarolunmazlıqları var və həmin qəribəliklər, təkrarolunmazlıqlar sərxoş Əmirquluda, onun arvadı Xeyransada, söz gəzdirən Zübeydədə, quş vuran Fazildə, qarovulçu Həsənullada müxtəlif xasiyyətlər, xobbilər şəklində təcəssüm olunaraq, həm koloriti birləşdirib panoramanı tamamlayır, həm də dolayısıyla Ağababanın və onun ailəsinin qabarıqlaşıb ön plana çəkilməsi üçün bədii rənglər rolunu oynayırlar. Ağababa və onun qonşularının hər biri haradasa, psixologiyanın hansı çalarındasa, fərdidirlər, hətta bu fərdilik onların itlərinə də, evlərinin divarlarına çəkdikdikləri rəsmlərə də sirayət edib; lakin bununla belə, həmin fərdlər öz tərzlərinin, dünyagörüşlərinin, həyata, insanlara, ailə, namus, böyük-kiçik kimi insani keyfiyyətlərə yanaşma bucaqlarının elə daxili qatlarında kəsişirlər ki, bu kəsişmə də onların birgə yaşayışının əsasını təşkil edir».

Aydın Məmmədovun çox doğru olaraq qeyd etdiyi bu xüsusiyyətlər həmin mühitin yazılmamış qanunlarıdır, «ağır adam» olan Ağababa evini kirayə verdiyi adamlarda tamam əks xüsusiyyətlər gördükdə onlar, təbii ki, bu həyətdən uzaqlaşmalıdır. Lakin yad mühitin – əks mühitin neqativ təsiri ilə Dolça – həyətin iti dəyişir, sümsük itə çevrilir.

Bədii-emosional təsirinə görə unikal bir əsər olan «Dolça» povestinin təhlili zamanı belə bir nəticə çıxarmaq olardı: müəllif sanki bununla belə bir fikri təlqin edir ki, öz doğma mühitinə yabançılaşan, müqəddəs duyğuların üstündən keçən hər kəsi Dolçanın aqibəti gözləyir.

Bu, əlbəttə, prinsip etibarilə düzgün fikirdir, ancaq «Dolça» povestinə şamil edildikdə, primitivdir. Əsas nəticə budur: sovet cəmiyyəti o qədər eybəcər bir vəziyyətə düşüb ki, hətta itin – Dolçanın da tərbiyəsini pozur.

Əgər biz nəzərə alsaq ki, əsər 1978-ci ildə – sovet ideologiyasının şahlıq tacında olduğu bir dövrdə yazılıb, o zaman müəllifin yazıçı-vətəndaş cəsarəti barədə, elə bilirik ki, aydın təsəvvür yaranır.

Elçinin bədii nəsrində təsvir olunan hər hansı bir mühit öz təbii-əzəli xüsusiyyətləri, əxlaqi təsəvvürləri ilə canlandırılır, lakin bu o demək deyil ki, mühit hər hansı bir təsirdən, kənar, yad əxlaqi baxış və təsəvvürdən təcrid olunur. Bu mənada, istənilən bir mühit hər hansı təsirə məruz qala bilər. Mühiti eyni tərzdə fikirləşən, eyni əxlaqi təsəvvürə malik insanlar kimi də düşünmək sadəlövhlükdür. Yaxşı

mühitdə həmin mühitə layiq olmayan insanlar olduğu kimi, pis mühitdə də gözəl insanlar olması təbiidir.

Elçinin «Ağ dəvə» romanında, əsasən, bir məhəllənin adamları təsvir olunur, lakin diqqət yetirsək, görəcəyik ki, bu məhəllə sakinləri müxtəlif əqidəyə, dünyagörüşünə malikdirlər. Xanım xala, Cəfər, Adil, Əbdüləli, Qoca, Cəbrayıl, Ağarəhim, «pravadnik» Ağakərim, Ələkbər, Əsmər, Əliabbas kişi, Əminə xala, Balakərim, Meyranqulu əmi, Gülağa, Sona...

Bu obrazların hər biri öz taleyini yaşasa da, biri digərindən fərdiliyi ilə seçilsə də, onların hamısını bir məhvər ətrafında birləşdirəcək xüsusiyyətləri müəyyənləşdirmək çətin deyil – yaxşılıq, səmimilik, öz halal əməyinə, təmiz ürəyinə güvənmək, xeyirxahlıq, ən çətin anlarda bir-birinə həyan olmaq, dərd, yaxud sevinc ortaqlığı...

Ancaq Fətulla Hatəm, İbadulla, Muxtar, Məmmədbağır bu məhəllənin adamları olsalar da, tamam başqa ruhda böyüyüblər. Onlar sadəcə «pis adam» yox, ümumiyyətlə, bəlkə də genetik olaraq, şərə, bədxahlığa daha yaxındırlar, antimühit yaradan adamlardır və Elçinin bir yazıçı kimi fərdi xüsusiyyəti ondan ibarətdir ki, o, «yaxşı»nı da, «pis»i də, akvarellə işləyib, «mühit» ilə «antimühit» arasında münasibətləri sovet ədəbiyyatındakı bədnam «müsbət» və «mənfi» qəhrəmanlar çərçivəsində yox, «insan mürəkkəbdir, ziddiyyətlidir» prinsipi əsasında təsvir edib.

Qəhrəman və mühit probleminə bir az da geniş ölçüdə yanaşsaq, Elçin nəsrində «əsrlərin sınağından çıxan nəcib adət-ənənələrimizi, sosial həmrəylik hissi ilə aşılanan qonşuluq münasibətlərini, ictimai davranışın etik ölçü və mizanlarını, «kişilik» təsəvvürlərini, abır-həya duyğusunu, birgə yaşayışımızın qədim və sabit formaları kimi kənd və məhəllə mühitini – milli müəyyənliyimizin bu mənəvi və maddi təsisatlarını» (Nadir Cabbarov) kompleks halında görə bilərik.

Qəhrəmanların ictimai mövqeyi, fəal vətəndaşlıq duyğusu da Elçinin yaratdığı obrazları ictimai-sosial planda səciyyələndirən mühüm xüsusiyyətlərdən biridir. Elçin heç bir əsərində qəhrəmanlarını açıq şəkildə, plakat yolu ilə təbliğ etmir, sadəcə olaraq, seçdiyi və sevdiyi qəhrəmanlarının həyat yolunu, bu ömrün dönüş mərhələsini bədii tədqiq obyektinə çevirir, onların daxili dünyasının gizlinlərini sözün işığına çıxarır.

Bu prosesdə oxucu Elçinin qəhrəmanlarının ictimai mövqeyi, həyat və cəmiyyət haqqında fikir və duyğuları, fəal vətəndaşlıq durumu barədə də aydın təsəvvür hasil edir.



Bu mənada, Elçin nəsrindəki bədii konfliktlər də öz müxtəlifliyi ilə seçilir. Əgər qruplaşdırma aparsaq, bu konfliktləri aşağıdakı qaydada təqdim edə bilərik.

1. Açıq: tərəflərin üz-üzə, qarşı-qarşıya mübarizəsini əks etdirən konfliktlər.

2. Gizli: obrazların qarşıdurmasını daxili dünyabaxışların mübarizəsi kimi əks etdirən konfliktlər.

Biz öncə qeyd etdik ki, Elçin nəsri düşüncələr, hisslər, emosiyalar üzərində qurulub və bu mənada, Elçin «Yeni Azərbaycan nəsri»nin məhz o nümayəndəsidir ki, insan qəlbində gedən prosesləri, insanın mənəvi aləminin, daxili dünyasının gizlin qatını, məqalə və müsahibələrində tez-tez işlətdiyi ifadə ilə desək, xisləti bədii tədqiq obyektinə çevirir.

Elçin nəsrində bədii konfliktlər daxili aləmi əhatə edir. Lakin elə nümunələr var ki, mübarizə, konflikt açıq şəkildə cərəyan edir. İlyas Əfəndiyevin «Mahnı dağlarda qaldı» faciəsinin motivləri əsasında yazdığı «Aman ovçu, vurma məni» kinopovestində, «Ox kimi bıçaq»da, «Ağ dəvə» və «Ölüm hökmü» romanlarında bədii konfliktlər tərəflərin, mənafelərin, bir-birinə zidd qüvvələrin açıq mübarizəsi şəklindədir.

Detektiv janrda yazılan «Ox kimi bıçaq» kinopovestində mühüm işlər müstəntiqi, ədliyyə müşaviri Gündüz Kərimbəylinin respublikanın ucqar bir rayon mərkəzinə təşrif gətirməsi, burada ağır bir cinayət hadisəsinin izinə düşməsi, nəhayət, qatili ifşa etməsi təsvir olunur.

Qatil çox uzaqda deyil, Gündüz Kərimbəylinin hər gün gördüyü, rastlaşdığı, qonaq evinin baxıcısı Fəttah kişidir. Ancaq detektiv əsərlərin bir çoxunda olduğu kimi, qatilin ifşa edilməsi yalnız sonda, qəfil və gözlənilməz olur, gizlin, naməlum qatil çoxsaylı əməliyyatlardan sonra yaxalanır.

Bu əsərdə qatilin kimliyi, şəxsiyyəti yalnız sonda müəyyənləşsə də, əslində konflikt üzdədir. Bu – Xeyir və Şərin mübarizəsidir. Əsərin finalında Fəttahla Gündüz Kərimbəylinin əlbəyaxa döyüşü təkcə güc, qüvvə nümayişi deyil, həm də həmin tərəflərin qarşılıqlı kininin, nifrətinin üz-üzə gəlməsidir.

«Ağ dəvə» romanında da bədii konflikt tərəflərin mübarizəsi, qarşıdurması səciyyəsini daşıyır və burada mübarizə aparan qüvvələrin meydanı daha genişdir. Tənqidçi Vaqif Yusifli yazır: «Romanda («Ağ dəvə» nəzərdə tutulur – N.R.) işıqlı, xeyirxah qüvvələrin mövqeyi aparıcıdır və bu, ayrı-ayrı surətlərin şərə və mənfiliklərə qarşı

mübarizəsində hiss olunur. Romandakı hadisələr, insan səciyyələri, təsvir olunan dövrün özünəməxsus bədii mənzərəsi uzun müddət unudulmur».

Tənqidçi bu romanın əsas problemi kimi insan və zaman problemini qeyd edir. Doğrudan da, romanda zamanlar və nəsillər qarşılaşdırılır. Hadisələr, əsasən, müharibə illərində cərəyan etsə də, müharibədən sonrakı illər, bəzi məqamlarda isə 30-cu illərin repressiya dövrü də xatırlanır. Bir məhəllənin adamları nəsil-nəsil gözlərimiz qarşısından keçir – atalar, oğullar, nəvələr...

Eləsi var ki, 30-cu illərdə – repressiyanın tüğyan elədiyi dövrdə öz amansızlığı, rəhmsizliyi ilə ad çıxarıb, müharibə başlanır və bu adamlar yenə öz xasiyyətlərini dəyişmirlər, çünki rejimin itaətkar icraçıları idilər (Fətullah Hatəm, Muxtar). Lakin 80-cı illərdə bu adamlar artıq bir heçə dönüblər, amma yenə həmin qorxulu illər gəlsə, əməllərini davam etdirəcəklər.

Elələri də var ki, zamanın hər hansı dönüşündə dəyişmir, başqalaşmırlar, işıqlı, xeyirxah hisslər onları heç vaxt tərk etmir, dünyadan köç etsələr də, o mənəvi sərvət – yaxşılıq, xeyirxahlıq, məhəllə-yurd sevgisi övladlarına miras qalır (Xanım xala, onun oğlanları və məharətlə təsvir olunan o koloritli məhəllənin başqa gözəl insanları).

Biz Elçinin təsvir etdiyi qəhrəmanların xarakterini, ictimai mövqeyini, vətəndaşlıq duyğusunu daha artıq nəzərə çarpdırmaq üçün, «Ağ dəvə»dəki müharibə faktoruna diqqət edək. Müharibə, görünür, elə bir meyardır ki, insana xas olan ən gözəl keyfiyyətləri üzə çıxardığı kimi, ən naqis, ən yaramaz cəhətləri də, kimin kim olduğunu da aşkarlayır.

«Ağ dəvə» romanı yalnız Azərbaycan ədəbiyyatında yox, ümumiyyətlə, sovet ədəbiyyatında müharibə psixologiyası, müharibənin insanlarda oyatdığı hisslər barədə yazılan ən yaxşı əsərlərdən biridir. Ən maraqlı cəhət odur ki, romanda müharibə ilə bağlı bircə səhnə belə təsvir edilmir, lakin romanın hər səhifəsində müharibə əhval-ruhiyyəsi duyulur. Sanki müəllif oxucuya böyük müharibənin içindəki «müharibəni» göstərir. Bu kiçik müharibə silahsız, topsuz-tüfəngsiz, şüurlarda, mənəviyyat aləmində gedən müharibədir.

«Ağ dəvə» romanında müharibə dövrünün acı, sərt həqiqətləri cavablandırılıb və Elçin heç bir bəzək-düzək vurmadan (başqa əsərlərdə olduğu kimi, «sovet xalqının nikbinlik pafosunu, qələbəyə inamını» bütün hadisələrin leytmotivinə çevirmədən) qarşı-qarşıya



duran tərəflərin mövqeyini, bir-birinə münasibətini bədii inandırıcılıqla əks etdirir.

Bu xüsusiyyəti biz Elçinin «Ölüm hökmü» romanında da görürük. Romandakı hadisələr zaman etibarı ilə böyük bir dövrü əhatə edir. Azərbaycan ictimai-siyasi həyatında çox mühüm rol oynayan hadisələr, xüsusi ilə 30-cu illərin faciələri, 70-80-cı illərin mürəkkəb olayları, xəlvət iqtisadiyyatda gedən gizlin proseslər, bütün bu hadisələr fonunda acınacaqlı insan taleləri, onların başına gətirilən müsibətlər süjetdə, bədii konfliktin mahiyyətində böyük bədiiliklə əks olunur.

Çoxsaylı surətlər romanı kimi qavradığımız «Ölüm hökmü»ndə xalqın müxtəlif ictimai zümrələrinin taleyi ümumiləşdirilir. Romanda bədii-psixoloji boyalar, rənglər sərt və qatıdır, yazıçı məlum həqiqətlərin arxasındakı gizlinləri aşkara çıxarır, həqiqəti olduğu kimi təsvir edərək Azərbaycanın 1929-cu ildən üzü bəri ictimai-siyasi, mənəvi mənzərəsini bədii sözün işığına çıxarır.

Romanda «baş qəhrəman kimdir» sualına cavab arasaq, bəlkə də konkret olaraq Xosrov müəllimin adını çəkmək olardı, lakin bu suala, bizcə, ən düzgün cavab belədir: baş qəhrəman bütün o uzun-uzadı illərin hər cürə repressiyalarına, ədalətsizliklərinə, haqsızlıqlarına düçar olan, lakin ümidini, inamını, insanlığını tamam itirməyən faciəvi Azərbaycan ziyalısı!

Təsadüfi deyil ki, Elçin repressiya zindanında əzab çəkən insanları konkret olaraq öz adları ilə nişan vermir: «Şair, Dramaturq, Ədəbiyyatşünas, Folklorçu, Filosof, Dilçi, Müəllim, Kitabxanaçı, Redaktor və i.a.». Qəsdən verilən bu ümumiləşdirici adlar əslində ona işarədir ki, Stalin repressiyası tək bir, yaxud bir qrup adamın deyil, ümumiyyətlə, xalqın, xüsusən də onun yaradıcı simalarının, təfəkkür sahiblərinin əleyhinə çevrilən terrorçu akt olub, qədim bir milləti başsız qoymaq kimi genosid məqsədi güdüb» (Bəkir Nəbiyev).

Konkret olaraq, Xosrov müəllim surətinə gəldikdə isə, bu surət vasitəsi ilə Elçin həm bir insanın – bir ailə başçısının, bir işıqlı ziyalının faciəli həyat yolunu canlandırıb, həm də onu 80-cı illərə gətirib çıxarmaqla repressiyaların indi başqa şəkildə davam etdiyini, namuslu insanların yenə maddi və mənəvi əzablar içində çırpındığını, yenə Şərin dağıdıcı missiyasının rolunu nəzərə çarpdırıb.

Ümumiyyətlə, Xosrov müəllim surəti özünün mənəvi-psixoloji məzmununa və bədii-estetik təqdimatına görə Azərbaycan nəsrinin ən kamil bədii surətlərindən biridir.

Elçin bu romanda faktoloji sənədliliyə istinad edərək, yüksək bədii-estetik boyalarla o vaxtkı SSRİ və Azərbaycan partiya rəhbərlərinin, tanınmış dövlət xadimlərinin, sənətkarların da obrazlarını yaradır. Xüsusilə Mircəfər Bağırovu Azərbaycandakı siyasi repressiyaların baş icraçısı, eyni zamanda, canlı insan kimi təqdim edir, onun Stalin və Beriya ilə bağlılığı, cəllad xisləti sənədli faktlardan istifadə edilərək təqdim olunur, lakin o, müqəvva yox, insani keyfiyyətlərə malik, bəlkə də faciəvi bir qəhrəmandır.

Müəllif böyük ustalıqla bədii konfliktin dairəsini genişləndirir, ölkədə gedən sinfi-siyasi qarşıdurmalar ən əvvəl «mikroölkədən» – ailədən, sonra bir məktəbdən, daha sonra rayon miqyasından sürət götürür, bu kiçik konfliktlər isə, əslində böyük konfliktin – ölkə və SSRİ miqyasındakı qarşıdurmaların ilkin təkanlarıdır.

Böyük yeraltı təkanlar çox zaman xırda, o qədər də hiss edilməyən kiçik titrəyişlərdən başlanır. Məktəb direktoru, Mircəfər Bağırovun uşaqlıq yoldaşı Ələsgər müəllim 10 yaşlı qızı Arzunun ad gününü keçirir. Bu ad günündə hər dəfə tamada Arzunun sağlığına badə qaldırmaq istəyir, lakin Xıdır müəllim buna mane olur, əvvəlcə Stalinin, sonra Bağırovun şərəfinə sağlıq deyir. Xosrov müəllim isə buna dözmür, Xıdır müəllimin sözünü kəsir və beləliklə, məclisdə əsl qarşıdurma yaranır.

Məsələ elə həmin axşam ÇEKA-ya, oradan da Bağırova çatdırılır. Ələsgər müəllimin qızı Arzu isə evdə divar qəzeti buraxır, sinfi düşmənləri «ifşa» edən məqalə yazır, atasını da sinfi sayıqsızlıqda təqsirləndirir. Beləliklə, ağzı qanlı repressiya baltası üçün qurbanlar hazırlanır.

Bu hadisələrin təsvirindən sonra müəllif «durğunluq dövrü» kimi xatırladığımız illərə üz tutur, repressiyanın indi başqa formada, gizli şəkildə cərəyan etdiyinin şahidi oluruq. Elçin bu səhnələrdə boyaları daha da tündləşdirir, tülkügəldi Qəbristanlığı idarəsindəki mafioz qüvvələri təsvir etməklə, gözlərimiz qarşısında daha dəhşətli mənzərələr canlandırır.

Bu, əslində, cəmiyyətin öz mənzərəsidir. Əbdül (söhbət romanın ən maraqlı surətlərindən biri olan qəbristanlıq rəisi Əbdül Qafarzadədən gedir) dünyanın ən müqəddəs bir məkanında çirkin işlərlə məşğuldur, insan faciəsindən gəlir mənbəyi kimi istifadə edərək təkcə özünün deyil, mənsub olduğu mafioz qüvvələrin də heç bir əndazəyə sığmayan «ehtiyaclarını» ödəyir.



Əlbəttə, üz-üzə duran tərəflərin gücü, qüvvəsi eyni deyil. Şər qüvvələr daha üstündür, çünki zaman onların zamanıdır, ictimai quruluş – sovet gerçəklikləri onların çiçəklənməsi üçün münbit zəmin yaradır və romanda bir ümidsizlik ovqatı hökm sürür. Oxucu səhifədən səhifəyə görür ki, o qüvvələrə qalib gəlmək, onlarla mübarizə aparmaq ağlasığmaz işdir.

Əzmək, hökmranlıq etmək, əzaba, işgəncəyə düçar etmək birincilərin məqsədi, əzilmək, mənən təhqir edilmək, faciələrə düçar olmaq ikincilərin qismətidir. Elçin böyük bir sənətkarlıqla tarixin yaxın keçmişi ilə bu günü arasında təkrarlanan, bir-birinə bənzəyən hadisələri, taleləri canlandırır.

Obrazların qarşıdurmasını daxili aləmlərin, dünyabaxışların mübarizəsi kimi əks etdirən bədii konfliktlər («gizlin konfliktlər»!) Elçin nəsrində aparıcı yer tutur. Qeyd edək ki, bu tipli konfliktlər əks olunan əsərlərində Elçin öz qəhrəmanlarını daha çox düşüncə, fikir, hisslər əhatəsində əks etdirir.

Yeni nəsrdə fərdin, şəxsiyyətin istək və arzuları ön plana keçir, əksər hallarda bu istək və arzular böyük çətinliklərlə üz-üzə gəlir, bunları gerçəklikdə reallaşdırmaq mümkün olmur, o səbəbdən də obrazın keçirdiyi hiss və həyəcanlar, əzablar, sarsıntılar daha çox bədii tədqiq hədəfinə çevrilir.

Elçinin 80-ci illərdə meydana gələn bu üç romanı ilə bərabər, hələ gənclik çağlarından etibarən yazdığı «Beş qəpiklik motosikl», «Dəyişmə», «Günlərin bir günündə», «Şuşaya duman gəlib», «Qış nağılı», «Talvar», «Ayaqqabı», «Hönkürtü», «Bozluq içində iki nəfər», «Ömrün son səhəri», «Beş dəqiqə və əbədiyyət», «Bir görüşün tarixçəsi», «Toyuğun diri qalması», «Dolça» kimi hekayə və povestləri də Azərbaycan psixoloji nəsrinin formalaşmasında mühüm rol oynayıb. Bu əsərlərdə personajların daxili aləmi, hiss-həyacanları, duyğu və düşüncələri daha artıq diqqət mərkəzindədir. Təqdim olunan qəhrəmanlar hər özünütəhlil (özünə boylanma, öz hərəkətlərini qiymətləndirmə) məqamlarında, həm də müəllif təhkiyəsi vasitəsi ilə səciyyələnir.

Məlum məsələdir ki, bu prosesdə ziddiyyət, münaqişə obrazların öz anlaq tərzi, şüur səviyyəsi baxımından həm ətraf mühiti, cəmiyyətdə baş verən hadisələri, həm də öz hərəkətlərini (daha çox keçmişlə bağlı) təhlil edir. Konflikt qəhrəmanla cəmiyyətin ayrı-ayrı fərdləri, ya da iki «mən» arasında baş verir. Dramatizm, faciəvi görünən məqamlar,

ziddiyyətlər açıq şəkildə yox, «gizli» – içəri aləmin ifadəsi kimi diqqəti cəlb edir.

«Toyuğun diri qalması» povesti bədii konfliktin «gizli» formada, daxili aləmdə cərəyan etməsi baxımından Azərbaycan povestinin ən uğurlu azsaylı nümunələrindən biridir. Bu əsərdə konflikt heç də «tüfeyli, ləçər, əxlaqsız» bir qadın kimi ad çıxaran Zübeydə ilə yeniyetmə Ağagül və Nisə arasında baş vermir (povestdə o qədər də əhəmiyyət daşımayan bu münaqişə sakitliklə həll olunur).

Məsələ burasındadır ki, Zübeydə gəncliyini puç edib, kefdə-damaqda keçirib, onu sidq-ürəklə sevən Zakirin məhəbbətini cavabsız qoyub və indi birdən-birə cavanların mehr-ülfətini gördükdə ömrünün fənaya uğradığını hiss edir.

Povestin sonunda Zübeydə artıq bizim «tüfeyli, ləçər, əxlaqsız» kimi tanıdığımız Zübeydədən fərqlidir, çünki biz onun hissiyyat aləminə yaxından bələd olduq. Zakirlə – «ilk məhəbbəti» ilə bağlı xəyallara dalmaq, özünün vaxtı ilə sevildiyini düşünmək, gözəl əsgər məktublarını yenidən oxumaq bu insanın qəlbində sönməkdə, öləziməkdə olan duyğuları tərpətmiş oldu, «tüfeyli, ləçər, əxlaqsız» Zübeydə ilə insan Zübeydə arasında gedən o «müharibədən sonra ikinci Zübeydə daha dəqiq və daha dərindən görünməyə başladı.

«Gizli» – daxili konfliktlər əks olunan əsərlərdə obrazın keçirdiyi ruhi həyəcanlar, özünün və başqalarının taleyi ilə bağlı düşüncələr, dünya, cəmiyyət və həyat haqqında mühakimələr, heç şübhəsiz, bu obrazın fikri inkişafından xəbər verir. Elə bu düşüncələr axınında qəhrəmanın öz keçmişi ilə bağlı gəldiyi qənaətlər onun hazırki durumuna bir aydınlıq gətirir, gələcək həyat yolunun da perspektivini müəyyənləşdirir.

Qəhrəman – daxili ziddiyyətlər içində çırpınan, tərəddüdlər burulğanında özünə rol arayan insan «katarsis» prosesi keçirir, həyatda öz sosial mövqeyini, yaxud mənəvi-əxlaqi platformasını seçməyə can atır. «Şuşaya duman gəlib» hekayəsində yeniyetmə Cavanşir, «Ayaqqabı» hekayəsindəki Bəbir, «Baladadaşın toy hamamı»nda Baladadaş məhz bu dilemma qarşısında idilər və onlar qərar qəbul etməyi bacarırlar. Cavanşir Mədinə xanım dünyasına yad bir adam olduğu üçün, ondan qaçır. Bəbir öz qəlbini, mənəviyyatını sıxan restorandan birdəfəlik çıxıb getməyə içində tapər tapır.

Ancaq Elçinin elə qəhrəmanları da var ki, bu cəsarəti özlərində tapa bilmirlər. Doğrudur, onların iç dünyasında həmişə dərin bir



narahatlıq, əzab, əndişə duyulur, ancaq mövcud durumu, düşdükləri vəziyyəti dəyişmək mümkün deyil.

Məsələn, «Hönkürtü» hekayəsinin qəhrəmanı çinar ağaclarını görürkən, uşaqlığını və o illərdəki təmizliyini yada salır, ancaq illər kepçir və həmin o çinar ağaclarını sevən uşaq indi tamam başqa adamdır və bəd əməllər sahibidir, günahkardır. O, bunları dərk edir, lakin onu da anlayır ki, hönkürtüdən başqa heç nəyə gücü çatmayacaq, dəyişmək, başqalaşmaq, o təmizliyə, o saflığa qayıtmaq daha mümkün deyil.

«Beş dəqiqə və əbədiyyət» hekayəsində də eyni tipli obrazla qarşılaşırıq – Mərdan Dadaşlı «TU-154»də ölüm təhlükəsi qarşısındadır və ola bilsin, beş dəqiqədən sonra o da təyyarənin digər sakinləri kimi məhv olacaq. Həmin o beş dəqiqədə Mərdan Dadaşlı olub-keçənləri xatırlayır və məlum olur ki, o da «Hönkürtü» hekayəsinin qəhrəmanı kimi uşaqlığında, gəncliyində çox təmiz imiş, lakin mühit, şərait o təmizliyi heçə çıxarıb, yerində laqeyd, daş ürəkli bir insan yaradıb. Bütün bunları xatırlayır və təəssüflənir. Ancaq təyyarə qəzası baş vermir və Mərdan Dadaşlı çox arxayınlıqla nəfəs alıb yenə həmin adama çevrilir.

Metomorfoza – dəyişmə, başqalaşma Elçinin adıçəkilən bu hekayələrində baş vermir, lakin hər halda, oxucu, obrazların psixoloji sarsıntıları, bir anlıq da olsa, keçirdikləri ruhi həyəcanları ilə tanış ola bilir.

Daxili mübarizə – iki «mən»in üz-üzə gəlməsi Elçinin «Beş qəpik-lik motosikl» hekayəsində də bariz nəzərə çarpır. Yeri düşmüşkən, qeyd edək ki, ümumittifaq oxucusunun Elçin yaradıcılığı ilə ilk tanış-lığı 1971-ci ildə, məşhur rus tənqidçisi İqor Zolotusskinin tərcüməsi ilə «Drujba narodov» jurnalında dərc olunan bu hekayədən başlayır.

Hekayənin qəhrəmanı Sabir Məlikov Azərbaycan hekayəsində diqqəti ən çox cəlb edən personajlardan biridir. O, bir insan kimi pis adam deyil, lakin həyatını öz istədiyi kimi qura bilməyib, xarakteri zəifdir, ətalətin qurbanıdır. Amma bir az təşəbbüskar və iradəli olsaydı, yəqin tamam başqa cür yaşayardı... «Hər şey insanın özündən asılıdır, insanın həyatı öz əlindədir, özü öz həyatını dəyişə bilər – bunlar hamısı yaxşıdır, amma bütün bunlar üçün gərək həvəs olsun, məndə isə belə bir həvəs yoxdur, çünki bunda bir məna görmürəm və bütün bunlar barədə də fikirləşmirəm».

Elçinin qəhrəmanlarını şərti olaraq «mübariz», yaxud «passiv» qəhrəmanlar bölgüsü ilə təqdim eləmək səmərəsiz cəhd olardı. Belə bir

bölgü təqdim olunan qəhrəmanların sosial fəallığına mütləq bəraət qazandırmaq, yaxud qeyri-fəallığına irad tutmaq qədər gülünc görünərdi.

Elçinin yaratdığı obrazların hər birinin fəallıq dərəcəsi, yaxud «passivliyi» onların fikri-mənəvi səviyyəsi və anlaq tərzi ilə bağlıdır. Əgər «Beş qəpiklik motosikl» hekayəsindəki obraz özünün cəsur və mübariz olmadığını dərk edirsə və öz həyat və mövqeyini bu baxımdan özünüdərk və təhlil hədəfinə çevirirsə, bu proses real və inandırıcıdır.

Elçinin obrazlarını ictimai-sosial planda – qəhrəman və mühit, qəhrəman və həyat – ziddiyyətlər fonunda nəzərdən keçirməklə belə bir ümumi nəticəyə gələ bilərik ki, yazıçının bədii nəsrində ictimai-sosial həyatın müxtəlif mənzərələri əks olunub. Təbii ki, yazıçı təqdim olunan qəhrəmanları yaşadıqları mühitdən təcrid etmir, mühitin qəhrəman üzərindəki təsirini də unutmur, hətta bəzi məqamlarda bunu qabarıq şəkildə nəzərə çarpdırır.

Digər tərəfdən, qəhrəmanın həyatda qarşılaşdığı çətinlikləri, onun bir insan kimi mürəkkəbliyini və ziddiyyətli olduğunu da gizlətmir. Bu çətinliklər, qarşıya çıxan maneələr onun əsərlərində müxtəlif səciyyəli bədii konfliktlərin meydana çıxmasına səbəb olur. Birbaşa qarşıdurmalar, tərəflərin açıq mübarizəsi ilə yanaşı, obrazların öz daxili aləmindəki təzadlar və ziddiyyətlər də bədii konfliktlərin müxtəlif tiplərini meydana çıxarır.

Elçinin yaratdığı bədii surətlər qalereyası artıq keçmişdə qalmış XX yüzil Azərbaycan ədəbiyyatının prinsipial nailiyyətləridir və əsl istedadın bəhrəsi olduqlarına görə bu qəhrəmanlar XXI əsrdə də müasir və seviləndirlər, onlar bu gün də eyni bədii təsir gücünə malikdirlər.

*«525-ci qəzet», 1,2,3,6 may 2003-cü il.*



Nərgiz PAŞAYEVA

## MƏNƏVİ – ƏXLAQİ AXTARIŞLAR

**(Elçinin 60 illik yubileyi münasibətilə)**

Xalq yazıçısı Elçinin bədii nəsri "mənəvi-əxlaqi axtarışlar" nəsri kimi böyük maraq doğurur. Məlumdur ki, mənəvi-əxlaqi axtarışların əks olunduğu əsərlərdə ədəbi qəhrəman problemi həmişə diqqət mərkəzində olur. Buna səbəb təsvir olunan qəhrəmanların həyatda, məişətdə, gerçəklikdə yaranan yeniliyi ifadə etməsində, bu yeniliyin təcəssümünə çevrilməsindədir. Tənqidçi Yaşar Qarayev doğru qeyd edir ki, tarix boyu hüquqla həmişə alimlər, əxlaqla isə daha çox şairlər, yazıçılar məşğul olmuşlar. Cəsarətlə demək olar ki, bizdə çadra əleyhinə mübarizədə heç bir təbliğat "Sevil" qədər iş görməmişdir.

60-cı illərin bədii nəsrində bir çox ədəbi qəhrəmanlar məhz yenilikçi, novator ruhu ilə seçildilər. İlyas Əfəndiyevin "Korpüsalanlar" povestindəki Səriyyə isə Azərbaycanın bədii nəsrində qadın emansipasiyasının təcəssümünə çevrildi və ədəbi prosesdə qızğın mübahisələrə səbəb oldu.

Azərbaycan ədəbi tənqidində ayrı-ayrı fikir və mülahizələr səsləndi ki, guya bu obraz Azərbaycan əxlaq və mənəviyyatına yaraşmayan hərəkətlər edir, milli adət-ənənələrimizi qorumur. Elçinin "Tənqid və nəsr" monoqrafiyasındakı "Səriyyə məsələsi" bölməsində bu ədəbi-ictimai hadisə ilə bağlı maraqlı mülahizələrlə, faktlarla qarşılaşırıq.

Müəllif yazır ki, çox zaman Azərbaycan ədəbi tənqidində milli ənənə məfhumu ilə ədəbi ənənə məfhumu bir-birinə qatışdırılırdı, lakin milli ənənə ilə ədəbi ənənə bir-birinin eyni deyil, milli ənənə ilə ədəbi ənənə vəhdət təşkil etməklə bərabər, müəyyən hallarda eyni olmaya da bilər; ədəbi ənənə milli ənənənin əksinə inkişaf edə bilər və nəticədə illər keçdikdən sonra həmin ədəbi ənənənin silinib aradan qaldırılmasına səbəb olar.

Elçin, çox doğru olaraq, qeyd edir ki, qadın və qadına münasibət məsələsi bir hadisə kimi İslam dininin yaranması, Azərbaycanda hakim dinə çevrilməsilə, bir dövr kimi isə feodal-patriarxal dövrü ilə əlaqədardır. Lakin, görünür, daha əvvəlki dövrlərdən gələn milli adət-ənənələrin təsiri böyük və güclü olduğundan, Azərbaycanda bu məsələ

birtərəfli, yəni yalnız qadın köləliyi platformalı yox, ziddiyyətli, ədəbi ənənə ilə təzadlı olmuşdur. Belə ki, bir tərəfdən, bütün Şərq aləmində olduğu kimi, Azərbaycanda da qadın, əsasən, hüquqsuz və səlahiyyətsiz olmuş, digər tərəfdən isə, el ədəbiyyatında, eləcə də Nizamidən tutmuş bütün böyük sənətkarların yaradıcılığına qədər, yazılı ədəbiyyatda qadına hörmət, qadın ülviyyəti, qəhrəmanlığı mühüm yerlərdən birini tutmuşdur.

Ədəbi tənqid yaradılan qadın obrazlarına münasibətdə çox zaman ifrat "milli əxlaq" normalarından yanaşmış, onların hərəkətlərini "ata-baba adət-ənənələrinə hörmət" meyarı ilə qiymətləndirmiş, misal üçün, "Körpüsalanlar" povestindəki Səriyyə "adi əxlaq normalarını pozmaqda təqsirli bilinmişdir.

Qeyd edək ki, 60-cı illərə qədər qadın problemi bədii nəsrdə daha çox ictimai-sosial həqiqət baxımından işıqlandırılırdı, sovet qadınından mübarizlik, cəsarət, mətinlik tələb olunurdu və əgər bu xüsusiyyətlər onda zəif nəzərə çarpırdısa, yazıçı bu obraza görə mütləq tənqid olunurdu. Lakin "Körpüsalanlar"dan sonra, 60-cı illərdən başlayaraq ədəbi mənzərə dəyişməyə başladı.

60-cı illər bədii nəsrində qadın emansipasiyası problemi mübahisələr və etirazlarla qarşılansa da, 70-ci illərdə artıq bu problem bədii nəsrdə öz yerini tapdı. Yəni, "qadın mövzusu" sırf sosial problem olmaqdan çıxıb, qadının fərdi, subyektiv, hətta ilk baxışda adət-ənənə ilə uyuşmayan xüsusiyyətləri diqqət mərkəzinə çəkildi.

Elçinin hekayə və povestləri Azərbaycan ədəbiyyatında bu janrların parlaq nümunələri kimi həmişə diqqəti cəlb edib. Bu hekayə və povestlərdə biz mənəvi-əxlaqi axtarışlar mövzusunun bəhrəsi kimi məhz yenilikçi, daxilən üsyankar və mənəvi azadlığa can atan və yüksək bədiiliklə yaradılmış obrazlarla qarşılaşırıq. Həmin obrazların təxmini təsnifatını aşağıdakı şəkildə qruplaşdıra bilərik.

I. İnsan hisslərinin emansipasionunu (azadlığını) əks etdirən obrazlar. Bu tipli obrazlara biz Elçinin «Bir görüşün tarixçəsi», «On ildən sonra», «Hotel «Bristol»», «Şuşaya duman gəlib» və başqa əsərlərində rast gəlirik.

Bu əsərlərdə təsvir olunan obrazların sanki cəmiyyətlə, yaşadıqları mühitlə bir elə bağlılığı yoxdur. Onlar məhz bu asılılığı qəbul etmək istəmirlər, ürəklərinin hökmü ilə hərəkət edir, bəzən adət-ənənələrə, milli əxlaq ölçülərinə sığmaq istəmirlər.

«Bir görüşün tarixçəsi» povestində Məmmədağa ilə Məsməxanımın tanışlığı, bu tanışlığın anbaan səmimi ünsiyyətə, doğmalığa



çevrilməsi insan hisslərinin azadlığa, sərbəstliyə can atmasına ən parlaq misaldır.

«Bir görüşün tarixçəsi»ndə Elçin sanki iki qəlbin poeziyasını vərəqləyir. Son dərəcə ciddi, ağıllı, qadınlara da milli əxlaq təsəvvürüncə yanaşan 30 yaşlı subay Məmmədağa ilə ərli qadın – ilk baxışda bəlkə də prozaik təsir bağışlayan Məsməxanımın görüşü oxucuda məhz romantik, duyğulu bir təəssürat yaradır. Bu iki nəfərin heç özləri də bilmirdi ki, həyatda nə qədər gözəlliklər, hisslər, duyğular varmış və bütün bunlar Zuğulbanın bir yay gecəsində birdən-birə onların ürəklərinə hakim kəsilir...

Məsməxanımın düşüncələri qadın hissiyatının, qadın qəlbinin oxunmamış səhifələridir ki, Elçin əsl sənətkar məharəti ilə onları üzə çıxarır. Bu görüşə qədər hər iki gəncin həyatında bir boşluq, bir nigarançılıq vardı və həmin yay gecəsindəki görüşdən sonra bu boşluq və nigarançılıq öz yerini gözəl hisslərə, duyğulara təhvil verir.

«On ildən sonra» hekayəsində təsvir olunan oğlan və Sənubər də hisslərini bir-birindən gizlətmir. Bu yeniyetmələrin qəlbində yaranan məhrəmanə hisslər son dərəcə təbii verilmişdir və əslində bu hissiyatı qəbul edən Sənubər isə xəyalında gələcək ailə həyatının modelini yaradır, oğlan isə istəyir ki, bu xəlvəti görüş həmişə beləcə davam eləsin: «O, bütün ömrü boyu beləcə dayanmağa hazır idi, evlərini də, məktəbi də, uşaqları da yadından çıxarıb, heç hara getməyib, heç nə eşitməyib, heç nə etməyib, bütün ömrü boyu beləcə dayanmağa hazır idi, təki bu barmaqlar həmişə saçlarında gəzəydi, təki bu balaca ürəyin çırpınmasını həmişə beləcə hiss edəydi, təki bu nöyüt piltəsi beləcə yanaydı həmişə...».

Bəli, bu, məhəbbət idi! Elçinin bir çox povest və hekayələrində, eləcə də «Ağ dəvə», «Mahmud və Məryəm» romanlarında böyük bir ilhamla, poetik ustalıqla təsvir edilmiş məhəbbət, adi insani duyğu... Lakin bu məhəbbət dastanlarda olduğu kimi ənənəvi vüsal-toy səhnəsi ilə başa çatmır.

«On ildən sonra» hekayəsində iki təmiz, saf yeniyetmə qəlbindən kükrəyib qalxan çeşmə öz məcrasını dəyişir. Sənubər tanınmaz-bilinməz, özündən xeyli yaşlı və tamam prozaik bir tip olan Ağahüseynə ərə gedir. Və beləliklə, oğlan üçün o məhəbbət romantikası bitir, sona çatır: «On ildən sonra... o, başa düşürdü ki, on ildən sonra, doğrudan da, Sənubərlə görüşə bilər, lakin sövq-təbii hiss edirdi ki, o vaxt nə bu küçə bu cür olacaqdı, nə balaca otaqlarını bu cür sevəcəkdi, nə də həmin nöyüt piltəsi bu cür yanacaqdı. O, hiss

edirdi ki, on ildən sonra bugünkü kimi bu boyda dünyada heç kəsi yox, ancaq və ancaq bircə nəfər Sənubəri olmayacaqdı, amma o istəyirdi ki, həmişə bircə nəfər Sənubəri olsun».

«Hotel Bristol»» hekayəsində qadın emansipasiyası problemi bir qədər fərqli şəkildə qoyulmuşdur. Burada mənən zəngin bir qadının onu əhatə edən mühit tərəfindən necə qarşılanması, dərk edilməsi ilə onun bu münasibətlərdən fərqli bir insan olması arasında təzad diqqəti cəlb edir. «Hotel «Bristol»» – Məleykə xanım çox açıq-saçıq qadındır, hətta kiminləsə eşq macərası da keçirə bilər, hamı ona məhz bu prizmadan baxa bilər. Ancaq eyni zamanda o, bütün bu hərəkətləri ilə bərabər, son dərəcə səmimidir, zəngin biliyi və mədəni davranışı ilə hamını heyrətdə qoya da bilər.

II. Təklik, tənhalıq faciəsini yaşayan obrazlar da Elçinin yaradıcılığında güclü bir silsilə təşkil edir. Bu tipli obrazlar öz fərdi həyatlarına qapanaraq retrospektiv duyğularla yaşayır, bəzən də gələcək haqqında xoş xəyallara dalırlar. Lakin özləri də dərk edirlər ki, təklikdən və tənhalıqdan xilas ola, arzular aləmindən gerçəkliyə, həyatın qoynuna, gözəlliklərə, sevincli, işıqlı günlərə qovuşa bilmirlər.

«Poçt şöbəsində xəyal» (müəllif bu əsərin janrını yeddi şəkil və epiloqdan ibarət dramatik povest kimi müəyyənləşdirib) əsərində Elçin – tənha bir qadını – Ədiləni oxucuya təqdim edir. Bu qadın mənəvi ehtiyaclar burulğanında yaşayır, onun daxili aləminin alt qatlarında təmiz və işıqlı duyğular mövcuddur.

Ədilə həyatın yeknəsəkliyindən, cansıxıcılığından bezib və mühitdəki o yeknəsəklik, cansıxıcılıq ətaləti onu tənhalığa sürükləmişdir. Ədilə buna görə yalnız öz xəyallarına tapınır və onun xəyalındakı simvolik Kişi surəti gələcək həyatı üçün işıq rolunu oynayır. Bu surət tənhalıq iddiasına və faciəsinə qapılan Ədiləyə intəhasız və geniş dünyanı nişan vermək istəyir, ancaq bundan bir şey çıxacaqmı?

Elçin bu suala cavab vermir və əlamətdar olanı, Elçinin yaradıcılığını səciyyələndirən, onu tamam fərdiləşdirən cəhət də məhz burasındadır ki, belə bir «cavabsızlıq», əslində, bu çox orijinal əsərin yüksək bədiiliyinin nəticəsidir. Burada, Elçinin digər əsərlərində də olduğu kimi, yazıçı hökmü, müəllif təhriki, ideologiya yoxdur.

«Günlərin bir günündə» hekayəsinin qəhrəmanı Səmayə də həsrətin, tənhalığın qoynundadır və yəqin bu tənhalıqdan xilas olmaq naminə onun ən böyük arzusu naməlum sevgilisiylə Bakının



küçələrini, bağlarını, dəniz kənarını gəzməkdir, bircə o istəklə ki, bütün ətrafda quşbaşı qardan başqa heç nə olmasın.

«Bir vaxt vardı – o vaxt ki, hələ Fatma dünyada yox idi və Səmayə özü də Fatmadan bir-iki yaş böyük olardı, elə beləcə gözəl-göyçək bir qız idi – bax, beləcə dayanardı köhnə evlərinin pəncərəsi qarşısında, bayırda yağan qara baxardı və o zaman da ürəyində həmin dəli həvəsin həsrəti var idi, amma o həsrət bol-bol işıq içində idi, sevincli həsrət idi, əslində həsrət yox, ürək tıppıltısı ilə gözlənilən gələcək idi; onda sıxıntı yox idi, gözləmə var idi, nəyinsə ərəfəsi idi.»

Amma Səmayənin gənclikdəki bu dəli həvəsi, bu həsrəti aldanışla başa çatır, əri onu atıb gedir. Beləliklə, o həsrətin işığı tamam tükənir. İndiki tənhalıq da o işıqsızlıqdan yaranıb. Amma o gümüşü günləri xatırlamağın özü də, əlbəttə, mənəvi saflığın onun varlığındakı həmişəliyindən soraq verir, çünki o günlərdə yaşanılan təmiz hisslər, sonrakı illər üçün də öz ətrini itirməmişdir.

Təklik və tənhalıq problemini Elçin başqa bir əsərində – «Qatar. Pikasso. Latur. 1968» adlı məşhur hekayəsində də başlıca mövzuya çevirir. Bədii şərtilik əsasında qələmə alınmış bu hekayədə təklik və tənhalığın mənəvi ünsiyyətə çevrilməsi prosesi izlənmişdir. Əziz Mirəhmədov yazır: «Hekayənin əvvəlində müəllif dilindən deyilən «insanı başa düşəcək yeganə adam – o özüdür, hansı mənadasa hamı bir-birinə yaddır» müddəası sonluqda süjetin gətirib çıxardığı məntiqi nəticə kimi «nə üçün bizə elə gəlir ki, ən yaxşı müsahibimiz, ən yaxın doğma adamımız özümüzük?» – sualı ilə inkar edilir».

Hekayənin qəhrəmanları – Kişi və Məleykə xanım bir yerdə işləsələr də, bir sənətin sahibi olsalar da bir-birinə yad adamlardır. İş elə gətirir ki, onlar Moskvaya, sənətşünasların beynəlxalq müşavirəsinə yollanırlar. Qatarda bir neçə gün yol gedəsi olan bu iki nəfər – bu «yadlar» özləri ilə mühit arasında tam bir sədd yaratmışlar. Əvvəllər onları bezdirən, usandıran tənhalıq az qala həyatlarının özəl xüsusiyyətlərinə çevrilib.

«Mən tənhalıqdan qorxmuram. Mən belə fikirləşirəm: tənhalıq – təkbətəklikdir, insanın özü ilə özü arasındakı təkbətəklik; mən bu təkbətəklikdən zövq alıram, çünki mənim ən yaxşı müsahibim mən özüməm; çünki özümdən başqa heç kəs məni başa düşməz, necə ki, mən başqalarını özləri kimi başa düşə bilmirəm; tənhalıq deyilən anlayış insan ömrünün tələbatıdır – bunu dərk etmədikdə faciə baş verir, dərk etdikdə isə hər şey öz qaydasına düşür. Bax, elə Məleykə xanım. Bizim hisslərimizdə, həyəcanlarımızda, düşüncələrimizdə nə

yaxınlıq ola bilər – heç nə – biz yadıq. Ümumiyyətlə, hansı mənadasa hamı bir-birinə yaddır və yadlığa öyrənmək lazımdır.»

Qəhrəmanların həyat məramına çevrilmiş bu «tənhalıq fəlsəfəsi» tezliklə gözlənilməz bir ünsiyyətin dalğası ilə vurulub dağılır. Təsadüfi yol yoldaşlığı zamanı həyatda heç vaxt ola bilməyəcək bir hadisə (!) bu «yadları» doğmalaşdırır və onlar bir-birlərinə heç kimə ürək qızdırıb demədikləri sirrləri açırlar. Ancaq onlar tənhalıqdan yaxa qurtaracaqlarmı?

III. Daha çox «düşüncə» və etiraf qəhrəmanları – bir tipli obrazları səciyyələndirən başlıca cəhət onların öz ömür yolu, bu günü və gələcəyi barədə düşüncələridir. «Fikir narahatlığı, düşüncə təbəddülatı – müasir ədəbi qəhrəmanın ən qabarıq mənəvi cizgisi kimi üzə çıxır» (Nadir Cabbarov). «Əsas budur ki, həmin qəhrəmanlar daha çox düşüncə, fikir, müşahidə qəhrəmanlarıdır. Bəzən həddindən çox düşünmək, götür-qoy etmək onları öz real vəziyyətləri daxilində yalnız «hərəkətsiz» görməyə imkan verir. Lakin burada bir cəhəti unutmaq olmaz: son illərin nəsri məhz qəhrəmanların düşüncələrindəki «hərəkəti», irəliləyişi, inkişafı əks etdirməklə maraqlıdır» (Vaqif Yusifli).

Əlbəttə, «fikir narahatlığı», «düşüncə təbəddülatı» yeni nəsrin qəhrəmanını «duyum, yaşama və ürək qəhrəmanı» (T.Əlişanoğlu) olmaq sırasından da çıxarmır, çünki «düşüncə» qəhrəmanı olmaq sırf rasional qəhrəman olmaq deyil, bu düşüncələr, «fikir narahatlığı» elə ürəklə, qəlblə, daxili aləmlə, gerçəkliklə, mühitlə, cəmiyyətlə bağlıdır.

«Düşüncə» qəhrəmanları ilə Elçinin, demək olar ki, bütün bədii yaradıcılığında qarşılaşa bilərik. Yuxarıdakı bölgülərdə təqdim etdiyimiz qəhrəmanların bir çoxunu da bu sıraya qatmaq olar. Ancaq düşüncəlik, rasionallıq Elçinin bütün qəhrəmanlarında eyni ampluada deyil.

Düşüncəliyin, rasionallığın «miqdarı» obrazın özünün dünyanı, gerçəkliyi dərketmə səviyyəsindən asılıdır. Oxucu, həmçinin, bu «düşüncə» qəhrəmanının son anda «əməl qəhrəmanına» çevrildiyini də izləyə bilər. Məsələn, «Qırmızı ayı balası» hekayəsində C.Səlimov – balaca qızı Leylanı anır, boşandıqları üçün anası Leylanı götürüb gedib, bu ailə draması indi faciəyə çevrilməkdədir. C.Səlimov təsəllini Leylaya aldığı qırmızı ayı balasından – kukladan alır, çünki bu qırmızı ayı balası Leyla ilə birlikdə olanda həmişə gülərdi, həmişə Leyla ilə oynayardı, bu qırmızı ayı balası Leylanın ilk dostu idi.



C.Səlimovda yaranan qəmli-kədərli əhval-ruhiyyə get-gedə nostalgiyaya çevrilir. Əlbəttə, C.Səlimov bu ailə dramasını faciəyə çevirməmək üçün həyat yoldaşına zəng edib, ya da gedib barışa bilər. Lakin getmir və əvəzində düşüncələrə qapılır: «Hər şey baş verənəcəndir – trolleybusda bir qadının ayaqlarını basdalamaq da, bir adamı öldürmək də: baş verdikdən sonra hər şey qurtarır, sınır, çilik-çilik olur hər şey. Biz hamımız şüşədənik, çoxumuz bunu bilmirik ki, biz şüşədənik, amma biz şüşədənik, bəzimiz sınıb çilik-çilik olanda da çoxumuz bunu hiss etmir, amma sınıb çilik-çilik oluruq, sınıb çilik-çilik olandan sonra bəzən təzədən yapışırıq, bütöv oluruq, amma çoxumuz bu bütövlükdəki yapışqanı, ləkələri, xırda şüşə qırıntılarını hiss etmirik».

C. Səlimovun bu düşüncələri baş verən hadisəyə onun subyektiv münasibətindən doğur, onun fikrincə, insani münasibətlər, xüsusilə ailə münasibətləri bütöv olmalıdır, bütövlük isə «yapışqanı», «ləkələri» sevmir və bu məntiqlə də qərara alır ki, hər şeyə birdəfəlik son qoysun və ümumiyyətlə, baş götürüb haralarasa çıxıb getsin.

Lakin hekayənin sonunda ağlabatmaz bir hadisə baş verir. C.Səlimov öz vaqonuna tərəf gedəndə qırmızı ayı balası qaça-qaça gəlib onu geri qaytarır. Beləliklə, C.Səlimov psixoloji sarsıntılardan və onun yaratdığı qəmli nostalgiyadan xilas olur, dəstəyi götürür və arvadına zəng edir. Düşüncələr sona yetir və qəhrəmanın bu ailə draması qırmızı ayı balasının sayəsində faciəyə çevrilmir.

Təbiət təsvirlərinin, kolorit yaradılmasının, səmimiliyin, hisslər aləmindəki təmizliyin yüksək bədii ifadəsi baxımından ən gözəl Azərbaycan hekayələrindən biri olan «Şuşaya duman gəlib» hekayəsində də biz eyni prosesi izləyə bilərik. Hekayənin qəhrəmanı Cavanşir həmyaşıdı Dürdanənin ona münasibətinə, bu münasibətdən doğan ilk məhəbbət qığılcımlarına biganədir, Şuşada – bu gözəl təbiət qoynunda o, gəncliyinin tənhalığından qaçmağa can atır və Mədinə xanımla tanış olur.

Mədinə xanım ondan xeyli yaşlı olsa da, gözəlliyini, şuxluğunu itirməyib və dünyanın çox gizli mətləblərinə yaxşı bələd olan, özü də ziyalı bir qadındır. Və elə ilk tanışlığında Mədinə xanım bu cavan oğlana çox real məzmunlu görüş təyin edir. Cavanşir üçün bu, qəfil və gözlənilməz olur, amma o, Mədinə xanımla görüşə gedir:

«Mədinə xanım Cavanşirin qolundan tutmuşdu və hərdən ayağı büdrəməsin, yoxuşu enəndə otun üstü ilə sürüşməsin deyə, Cavanşirə qısılırdı».

Cavanşirin boğazı tamam qurumuşdu və siqaret də çıxarıb yandıra bilmirdi və Cavanşir, əslində, bunu da bilmirdi ki, belə bir həyəcanın səbəbi sevinməyindəndi, çəkinməyindəndi, ya nədəndi.

Mədinə xanım cığırın kənarındakı alça ağacının yanında ayaq saxladı.

- İkimizin bir yerdə içəri girməyi yaxşı deyil, - dedi. – Hər halda Şuşa Şuşadı, Karlovı-Varı deyil, - dedi və gülümsədi. Bax, o qıraqdakı ikimərtəbəli binanı görürsünüz, bax, sol tərəfdən lap birinci pəncərə mənimdi, ikinci mərtəbədə, - dedi. – Gördünüz?

Cavanşir:

- Hə, görürəm... - dedi.

Mədinə xanım:

- Qoyun əvvəlcə mən gedim, - dedi. – Sonra... beş-altı dəqiqədən sonra siz gəlin... qapını açıq qoyacağam... - Mədinə xanım gülümsədi. – Oldu? – soruşdu.

Cavanşir:

- Hə... - dedi».

Oxucu elə güman edir ki, az sonra erotik, ya da hissi-bayağı bir səhnənin şahidi olacaq. Amma Cavanşir bu təklifdən sonra, elə bil ki, heç özündən asılı olmayaraq, gəncliyinin həmin «qəti addımından» – Mədinə xanımın o açıq qapısından imtina edir və bu gənc oğlan birdən-birə sövq-təbii olaraq dərk edir ki, içindəki yağış həsrəti – bu həsrəti isə Elçin böyük sənətkarlıqla oxucuya göstərə bilib – çirkaba bata bilər; Mədinə xanımın gözəlliyi fiziki bir təzyiqlə özünə çəkirsə də, Cavanşir o görüşdən qaçır.

«Ayaqqabı» hekayəsindəki Bəbir üçün isə yaşadığı, öyrəşdiyi mühitdən, bu vaxtacan qəbul etdiyi əxlaq normalarından birdən-birə imtina eləmək, başqalaşmaq daha artıq bir çətinliklə başa gəlir. Məsələ burasındadır ki, Bəbir – Toylu stansiyasında bir qarnı ac, bir qarnı tox yetimçiliklə böyüyüb Bakıya gələn, buradakı restoranların birində işləyib özünə çətinliklə bir güzəran düzəldən bu insan əslində, ona çox yad bir mühitə düşüb.

Doğrudur, o, özünü xoşbəxt hesab edir, hətta tək-tənha qalmış anasına hər ay pul da göndərir, kooperativ mənzilə də yazılıb, ancaq günlər keçdikcə o da sövq-təbii hiss edir ki, kənddən, Toylu stansiyasından gətirdiyi və hələ də özündə yaşatdığı təbii, insani hisslərdən uzaqlaşır. Və günlərin birində Bəbir təkcə onu sıxan ayaqqabılarından yox, varlığını, mənəviyyatını, təmiz ruhunu bürüyən ikiləşmədən də xilas olur.



Beləliklə, «Ayaqqabı» hekayəsindəki Bəbir də Elçinin digər qəhrəmanları kimi (C.Səlimov, Cavanşir) öncə «düşüncə» qəhrəmanı təsiri bağışlasa da, sonda «əməl qəhrəmanına» çevrilir. Ancaq bu «proses» – düşüncəliliyin arxasınca qəti bir qərara gəlib konkret bir hərəkət proqramı seçimi Elçinin heç də bütün qəhrəmanlarına şamil edilə bilməz.

Məsələn, «Ömrün son səhəri» hekayəsində təsvir olunan əyyaş, «alkaş» (vaxtilə bu adam görünür, xoşbəxt idi, cərrahiyyə sahəsində məşhur alim olmuşdu) həyatda heç bir çıxış yolu tapa bilmir, son anda onun varlığına hakim kəsilən kədərli nostalgiya hisslərinin təsiri ilə özünü doqquzuncu mərtəbədən yerə atır.

Xüsusilə qeyd etmək lazımdır ki, müasir Azərbaycan ədəbiyyatının ən istedadlı nümayəndələrindən biri, xalq yazıçısı Elçinin yaradıcılığı və eləcə də «Yeni Azərbaycan nəsri»nin ortaya çıxardığı digər ən yaxşı əsərlər məhz sosialist realizminin, «müsbət qəhrəman» konsepsiyasının tədricən süquta uğramasında böyük rol oynadı.

Elçinin hekayə və povest qəhrəmanlarını iki aspektdə – ictimai-sosial və mənəvi-əxlaqi planda təhlil etmək bizə daha səmərəli göründü. Yəni ədəbi qəhrəmanlara ictimai-sosial planda baxış ilk növbədə, bu qəhrəmanların həyatla, yaşadıqları ictimai mühitlə bağlılıqlarını əks etdirirsə, mənəvi-əxlaqi yönümdə şərhi isə bu qəhrəmanların sırf daxili, mənəvi aləmini açıqlayır və hər iki halda Elçinin bədii nəsri dolğun, maraqlı və orijinal ədəbi qəhrəmanlarla zəngindir.

Biz Elçinin yalnız hekayə və povest qəhrəmanlarından yığcam şəkildə bəhs etdik, onun Azərbaycan romanının ən kamil nümunələrindən olan «Mahmud və Məryəm», «Ağ dəvə», «Ölüm hökmü» kimi əsərlərinin, son illərdə yazdığı və milli komedioqrafiyamızda yeni bir mərhələ açmış komediyalarının qəhrəmanları isə daha ətraflı tədqiq və təhlil obyektidir.

*"Yeni Azərbaycan" qəzeti, 4 may 2003.*

**Kamal ABDULLA**

# ELÇİN HAQQINDA SÖZ

## (Elçinin 60 illik yubileyi münasibətilə)

Bu sözü demək mənim üçün çox asandır. Əvvələn, ona görə ki, sevdiyin, şəxsiyyətinə hörmətin olan bir adam haqqında nə üçün də çətinə düşməlisən?! İkincisi, həyatda həmişə gözü-könlü rahat adamlar, mən elə bilirəm ki, Allahın inayət etdiyi adamlardır və onlar barədə eyni rahatlıqla danışmaq, danışmaq, danışmaq olar. Danışmaq, yazmaq üçün isə nə qədər desən mətləb var.

Gənc yaşlarımdan ədəbiyyat mühiti həmişə məni özünə çəkib və Elçin o zaman bizdən yaşca böyük nəslə mənsub olan və sonralar da uzun zaman gənc nəslə aid edilən (təbii ki, qoca ədəbi nəsil tərəfindən) yazıçı kimi bu cazibə məkanının maqnit mərkəzlərindən biri olub. O biri mərkəz Anar idi, İsi Məlikzadə idi, Əli Kərim idi, Fikrət Qoca idi...

Və ilk yazılarından Elçinin diqqətini və xeyirxah münasibətini hiss eləmişəm. Yazıçılar İttifaqının katibi, gənc, istedadlı, artıq Azərbaycandan kənarda tanınan Elçin məni bir dəfə yanına dəvət etdi və tənqid kitabımı çap etdirməyi təklif etdi. Qəzet-jurnal məqaləsini böyük həvəslə gözləyən gənc üçün bu təklif təxminən velosipedi maşınla dəyişmək kimi səsləndi. Mənim çap işlərim o zamandan yeni bir orbitə – Kitab orbitinə qədəm qoydu.

«Müəllif – əsər – oxucu» kimi kitabıma önsözü də özü yazdı və uzaqgörən bir fəhmlə o, önsözün adını «Qorqud məhəbbəti ilə» qoydu.

Sonralar bizi onun və mənim ortaq dostlarım birləşdirdilər, yəqin onu da demək lazımdır ki, bəzən də ayırdılar. Amma qəlbimizdə bir-birimizə məhəbbət, düşünürəm ki, heç vaxt əskik olmayıb. Çünki elə şeylər var ki, o, münasibəti məhz uzaqda formalaşdırır. Məsələn, uşaq yaşlarında birinin tez, birinin gec, amma eyni küçələrdən, məhlələrdən, meydanlardan keçməsi. Məsələn, təxminən eyni mənəvi mənbələrdən qidalanmaq. Eyni universitetin eyni fakültəsi və eyni müəllimlər: Məmməd Cəfər, Mir Cəlal, Əli Fəhmi, Yusif Ziya, Muxtar Hüseynzadə, Əlövsət Abdullayev...



Elçin yeni baxış bucağının yazıçısıdır. Onun hər hansı əsəri bəzən çox üst qatda, bəzən də ən dərin qatda yüksək intellektual potensialın bərqərar olduğu bir bədii məkandır.

Elçin ədəbiyyatşünaslıqda görülməyən işləri görən bir sahmanlayıcıdır. Onun sözün əsl mənasında titanik və yorulmaz fəaliyyəti çoxumuz üçün ibrətli və eyni zamanda mənəvi-məntiqi boşluqları doldurmağa yönəlmiş işıqlı bir energiyaya qoşulub.

Və, nəhayət, Elçin Sözünün arxasınca düşüb haralara getmək mümkün imiş... Elçin ötürücüdür. Böyük dünya mədəniyyətinə, saflığa, işığa yönəldən dramaturqdur.

Elçin Azərbaycan ədəbiyyatından Ədəbiyyata sıçrayış etməyi bacarmış bir sənətkardır. Adı artıq Azərbaycan ziyalılığının qızıl fonduna düşmüş bir şəxsiyyətdir.

60 yaşa qədər və 60 yaşdan sonra. Edə bildiklərinin və etmək istədiklərinin qovuşduğu nöqtə.

Yəqin, bir az kədər də qarışır bu sevincin içinə. Heç şübhəsiz, qəhərli anı da yox deyil. Amma bütövlükdə əzəmətli məqamdır. Və həm də əzəmətin bütövlüyüdür.

Sənətkar kimi bütövlüyüdür.

Şəxsiyyət kimi bütövlüyüdür.

Elçin sözünün bütövlüyüdür.

Bu bütövlüyə dərin hörmət və məhəbbətlə,

**Kamal Abdulla**

***Redaksiyadan.***

Bir daha görkəmli sənətkarımızı 60 yaşının tamam olması və Prezident Heydər Əliyev tərəfindən yüksək dövlət mükafatına layiq görülməsi münasibətilə ürəkdən təbrik edir, ona möhkəm cansağlığı, uzun-uzun illər, Söz naminə fədakar ömür arzulayırıq.

*«Ruh» qəzeti, 4-11 may 2003.*

## ELÇİNİN «ƏDƏBİ DÜŞÜNCƏLƏR»İ

### (Elçinin 60 illik yubileyi münasibətilə)

Dünya ədəbiyyatının təcrübəsi göstərir ki, yazıçının yaradıcılıq yolunu müəyyənləşdirən, onun inkişafı və formalaşmasında fitri istedadla bərabər, mühüm rol oynayan amil mütaliədir. Mütaliə, dünya ədəbiyyatına dərindən bələdlik yazıçıya nə verir?

Bu suala müxtəlif cavablar verilə bilər. Lakin ən obyektiv cavab, zənnimizcə, budur: mütaliə geniş mənada yazıçının professionallıq səviyyəsinin ən yüksək göstəricisidir. Əlbəttə, söhbət fitri istedad sahibindən gedir.

Xalq yazıçısı Elçin belə geniş mütaliə miqyasına malik yazıçıdır, onun mütaliə dairəsi o qədər əhatəli və ciddi məzmunludur ki, heyrət doğurur.

Yazıçının geniş mütaliəsi əgər onun həyatı, gerçəkliyi daha dərindən duymasına, cəmiyyətdə baş verən ictimai-siyasi prosesləri düzgün, obyektiv mövqedən qiymətləndirməsinə, hətta gələcək haqqında qabaqcadan proqnozlar verməsinə gətirib çıxarırsa, bu, onun yaradıcılığında mühüm əhəmiyyət kəsb edir.

Nasir Elçin klassik və müasir dünya nəsrinin şedevrləri ilə çox mükəmməl tanışdır, bu barədə çox yazıb, klassik dünya ədəbiyyatı nümunələrini tədqiq və tərcümə edib. Azərbaycanda ilk dəfə klassik yapon ədəbiyyatı nümunələrindən ibarət kitab hazırlayaraq nəşr etdirib («Nərgizin bircə ləçəyi», Bakı, 1979), XX əsr dünya hekayəsindən və dramaturgiyasından seçmə əsərləri tərcümə və tərtib edib («Necə oldu ki, Pyer Duş məşhurlaşdı?» Bakı, 1982).

Dramaturq Elçin klassik və müasir dünya dramaturgiyasının ən gözəl nümunələrini dönə-dönə mütaliə edir, hətta Şekspirin, Molyerin, Tolstoyun, Şoloxovun yaradıcılığına aid məqalələr yazır, Molyerdən və Pirandelodan tərcümələr edir, Azərbaycan səhnəsində tamaşaya qoyulan Qərb dramaturqlarının pyesləri və ümumiyyətlə, müasir Qərb dramaturgiyası haqqında məqalələr yazır.

Tənqidçi – ədəbiyyatşünas Elçin rus və dünya ədəbi-nəzəri fikrinə yaxşı bələddir, bu səbəbdən də dünya bədii-estetik fikrinin ən gözəl nümunələrini yetərincə qiymətləndirə bilir.



Bu baxımdan, fikrimizcə, «Ədəbi düşüncələr» Elçini tanımaq, dərk etmək və onun bir sənətkar kimi püxtələşməsini, kamilləşməsini izləmək üçün çox qiymətli mənbədir.

«Ədəbi düşüncələr» janr baxımından tamam yeni bir hadisədi, bu mülahizələr, düşüncələr yalnız Azərbaycan ədəbiyyatşünaslığında yox, ümumiyyətlə, ədəbiyyatşünaslıqda ədəbi tənqiddə təsadüf olunmayan bir formaya malikdir. Müəllif özü onları «esseciklər» adlandırır və bəlkə də bu uğurlu bir addır, ancaq «Ədəbi düşüncə»lərdə elə yazılarla rastlaşırıq ki, onların daxili bədii-estetik və fəlsəfi kütləsi, onların məzmun dərinliyi sanki bu «essecik» sözünün çərçivələrinə sığışmır.

Ədəbi ictimaiyyətin hələ çox illər bundan əvvəl qəbul və təsdiq etdiyi kimi, xalq yazıçısı Elçin professional tənqidçi, professional ədəbiyyatşünasdır, ancaq bizim fikrimizcə, Elçin nə qədər professional, nə qədər nəzəri hazırlığa malik olsa da, «Ədəbi düşüncələr»i bu şəkildə, yəni bu qədər ətli-qanlı, bu qədər canlı bir təhkiyə ilə yaza bilməzdi, bunun üçün o, ilk növbədə yazıçı olmalıydı və həqiqət də belədir.

«Ədəbi düşüncələr» Elçinin bu etirafı ilə başlayır: «Uzun illərdən bəri, ağlıma gələn cürbəcür fikirləri, düşüncələri, rastlaşdığım hadisələri, düşüncələri, rastlaşdığım hadisələri, mənə təsir edən epizodları, oxuduğum kitablar haqqında təəssüratları harda oldu və hara gəldi, qeyd etmişəm: siqaret qutusunda, salfetkada, qəzet kənarında, iclas sənədində, cürbəcür proqram və dəvətnamələrdə, hətta trolleybus biletində (!) və bu yaxınlarda arxivimi saf-çürük edəndə, bu cürə tələsik qeydlərdən ibarət on-on beş yekə qovluq kağız-kuğuz yığıldı.»

Ancaq necə, nə cür, haraya yazılmağından asılı olmayaraq, «Ədəbi düşüncələr» bitkin bir sənətkar ömrünün dünya, cəmiyyət, ədəbiyyat haqqında yığcam və dəqiq fikirlərini əks etdirir, Elçinin mütaliə və şəxsi müşahidə qabiliyyətindən xəbər verir.

Bəzən bir neçə cümlədən, bəzən iki-üç abzasdan, nadir hallarda isə yarım səhifədən ibarət olan bu qeydlər bir yerə toplandıqda dünya ədəbiyyatı və mədəniyyəti haqqında, ədəbi-estetik fikrin tarixi barədə ensiklopedik bir kitabı xatırladır.

Əlbəttə, «Ədəbi düşüncələr»dəki fikirlər, təəssüratların əksəriyyəti Elçinin sırf şəxsi müşahidə və qənaətlərinin məhsulu kimi diqqəti cəlb edir. Məsələn, «Mənim üçün rus ədəbiyyatının ən böyük romanı «Hərb və sülh»dür. Mən bu cümləni yazdım və fikrimdə beş böyük rus romanı canlandı: «Hərb və sülh», «Oblomov», «Sakit Don», «Ustad və Marqarita», «Peterburq». Qəribədir (bəlkə burada qəribə bir şey yoxdur? – N.P.) mənim bu siyahımda Dostoyevski yoxdur».

Yaxud: «Ostrovski dramaturgiyası, elə bil ki, ağır bir daşdır, səni dənizin dibinə çəkir, batırır.

Çexov dramaturgiyası isə elə bil ki, xilasedici kəmərdir, səni suyun üzündə saxlayır, batmağa qoymur.

Baxmayaraq ki, Çexov dramaturgiyası başdan-başa kədərin, yeknəsək həyatın, boğucu ömrün, darıxdıran ürəyin ifadəsidir.

Çexov sirri – bu, açılmamış bədii-estetik bir sirdir».

Aydındır ki, bu fikirlər Elçinin bir yazıçı kimi şəxsi, subyektiv düşüncələrindən doğub. Bu fikirlərlə mübahisə etmək də olar, razılaşmaq da. Ancaq «Ədəbi düşüncələr»də ən maraqlı cəhət burasındadır ki, geniş oxucu kütləsi daha artıq ədəbi məlumat və informasiya əldə edir, bu esselərin əksəriyyəti müxtəlif ədəbi hadisələr və şəxsiyyətlər haqqında ilkin təsəvvür yaradır, yaxud məlum təsəvvürü daha da genişləndirir.

Məsələn, Azərbaycan oxucularının çox az qismi yapon yazıçısı Kobo Abe ilə tanışdır. Elçin isə nəinki bu təsəvvürü yaradır, həm də onu daha artıq genişləndirir və dəqiqləşdirir: «Kobo Abe nəsrinin qəhrəmanları (xüsusən «Qumsallıqda qadın» romanında və «Qul ovu» pyesində) həyatda özlərini axtarırlar və onlar qəti surətdə bunun fərqində deyillər ki, əhatə olunduqları cəmiyyət «burjua cəmiyyəti»dir, ya «sosialist cəmiyyəti», monarxiyada yaşayırlar, yoxsa hansısa seçkili bir respublikada.

Abe qəhrəmanlarının mənəvi axtarışları və mənəvi ağrıları bu cür siyasi-ictimai təsnifatların fövqündədir və onların hisslərini, həyatda özlərinə yer tapa bilməməsini, onların mənəvi vurnuxmalarını siyasi-ictimai müstəviyə endirmək, onlara siyasi formasiya intriqaları bucağından baxmaq – onların mənəvi dünyasını cılızlaşdırmaq, primitivləşdirməkdir.

Abenin qəhrəmanları, bəli, qəfəsdədir, onlar bu qəfəsin içində çırpınırlar, amma həmin qəfəsin dəmir barmaqlığını burjua və yaxud qeyri-burjua cəmiyyəti yaratmayıb.

Bu dəmir barmaqlıqlar – həyat, yaşayış mənasızlığının çox sərt bədii ifadəsidir».

Bu tipli esselərdən «Drüon gerçəklikdən qorxdu», «Moriak və Morua haqqında», «Konrad sirri», «Şelmufski», «Prustu yenidən vərəqləyərkən», «Yuri Semoliçin və Quts, siz kimsiz?», «Fildinq və Molyer» və b. oxuculara dolğun və olduqca orijinal ədəbi informasiya vermək baxımından çox əhəmiyyətlidir.



Yaxud elə yazıçılar var ki, onlar artıq unudulmaqdadırlar. Elçin həmin yazıçılar haqqında öz təəssüratını ifadə edir və bu yazıçı, elə bil ki, oxucu üçün yenidən kəşf olunur. Məsələn:

«Elə yazıçılar var ki, haqsız unudulur, yəni onların istedadı, ədəbiyyatda gördükləri iş, ədəbiyyatın inkişafında oynadıqları rol belə unutqanlığa layiq deyil, ondan artıqdır.

Bu mənada mənim üçün, haqsız olaraq kölgədə qalmış, hətta unudulmuş istedadlı rus nasirlərindən biri Vasili Najernidir.

... Mən bu fikirdəyəm ki, rus ədəbiyyatında parlaq Qoqol qəhrəmanları qalereyasının yaranmasında, ümumiyyətlə, Qoqol hadisəsində «Rus Jilbrazi» romanı az rol oynamayıb və bu roman rus ədəbiyyatında aparıcı xətlərdən birinin – rus çinovnikçiliyinin, rus «samodurluğunun» ədəbiyyata gətirilməsinin başlanğıcını qoyub».

«Ədəbi düşüncələr» dünya ədəbiyyatının tanınmış, yaxud çox az tanınan klassikləri və müasirləri haqqında sonsuz sayda orijinal informasiyalar sərgisini xatırladır.

Burada mövzu o qədər geniş və rəngarəngdir ki, müəyyən qruplaşdırmalara ehtiyac duyulmur. Çünki bir ədəbi şəxsiyyətdən, yaxud ədəbi hadisədən söhbət bəzən bir mətləbə gətirib çıxarır.

Elçin dünya ədəbiyyatları arasındakı qarşılıqlı bağları və əlaqələri hiss edir, görür və səriştəli bir qələmlə bu haqda danışır.

O, ədəbiyyat tarixinin bir-birindən uzaq dövrləri arasında da varislik axtarır, bunu tapır, bu haqda söz açır.

Elçin bir ədəbiyyat nəzəriyyəçisi kimi ayrı-ayrı ədəbi janrları, onların əsrlər boyu inkişafı, taleyi haqqında professional söz deyir.

O, yazıçı və zaman, sənət və cəmiyyət kimi problemlərə bir daha münasibət bildirir, sovet quruluşunun, SİSTEMİN məhv etdiyi istedadların tərəfindən danışır.

O, dünyanın böyük sənətkarlarının əsərlərindəki nəhəng ədəbi obrazları kiçik detallarla xarakterizə etməyi bacarır və həmin xarakteristikadan istifadə edərək, oxucunu, ümumiyyətlə, ədəbiyyatın missiyası haqqında düşündürür.

«Ədəbi düşüncələr» Elçinin ədəbi aforizm ustalığı haqqında da yaxşı təsəvvür yaradır. Aşağıda misal gətirdiyimiz ayrı-ayrı fikirlər ədəbi aforizmin ən yaxşı nümunələri sayıla bilər:

- İstedad bəzən Uelsin qəhrəmanı kimi, gözəgörünməz olur.
- Bəzən kitab oxucunu zorlayır. Bəzən də əksinə olur.
- Xalq kasıblaşdıqca qrafoman şairlərin sayı artır.

- Folkner böyük bir dağdır, onun bütün cizgiləri dəqiq görünür, o, tərpənməz və əbədidir.

- A.Fadeyev başda olmaqla SSRİ Yazıçılar İttifaqı Stalinin «Timur və onun komandası» idi.

- Poeziyanı gərək hiss edəsən, onu misralarla birlikdə yaşayasan. Bunun üçün isə o dillə doğulmaq lazımdır. Poeziya ilə insan arasında genetik doğmalıq olmalıdır.

- Ədəbiyyatın missiyalarından biri də genetik yaddaşı qoruyub saxlamaqdır.

- Yazıçı, məlum məsələdir ki, özünü ifadə edir. Əgər söhbət istedadlı yazıçıdan gedirsə, o özü ilə bərabər xalqını da ifadə edir. Böyük yazıçılar bəşəri ifadə edir. Bu mənada mənim üçün ən böyük bəşəri yazıçılar: Qoca Tolstoy, Şekspir, Servantesdir.

- Fikirləşirəm ki, bizim bu dünyamızda əslində iki dünya var: Ölü Dünya və Canlı Dünya. Və iki tip də yazıçı var: Ölü Dünyadan yazan yazıçılar və Canlı Dünyadan yazan yazıçılar.

- Ədəbiyyat üçün maraqlı olmayan insan yoxdur.

- Həyatla kitabı qarşı-qarşıya qoymaq cəhalət və nadanlıq göstəricisidir.

Və s.

«Ədəbi düşüncələr» Elçinin təkcə geniş mütaliə dairəsi haqqında deyil, həyatda, cəmiyyətdə, bədii ədəbiyyatda və incəsənətin digər sahələrində rastlaşdığı müxtəlif hadisələrə özünün yazıçı dünyaduyumundan qiymət verməsi, orijinal münasibəti baxımından da maraqlı təsir bağışlayır. Təbii ki, bütün bunlar yazıçının zəngin müşahidə qabiliyyətindən soraq verir. Ancaq bütün bu müşahidələrin əvvəli-axırı yenə ədəbiyyatla bağlıdır.

«Mən çox yuxu görürəm və ən çox yuxuma girən adamlar – ədəbi surətlərdir: Anna, Otello, Don Kixot, Yaqo, Məcnun, Kral Lir, Nataşa Rastova, Pyer, Jan Valjan, Taraskom, Luiza Poyndekster, Tenardye, Aksinya, Javer, III Riçard...

Qəribədir, Robinzon və Xolms həmişə – xüsusən cavanlıq çağlarında – fikrimdə olub, amma heç vaxt yuxuma girməyib».

Bu yuxu ilə bağlı adi həqiqətdir, amma «adi yuxu» yox, «ədəbi yuxu» faktdır.

Yaxud, yenə başqa bir mövzu: «Yazıçının sevmək haqqı varmı?» Zahirdən qeyri-adi görünməyən (yazıçı da insandır, o da sevə bilər və burada təəccüb doğuran heç nə yoxdur! – N.P.) bu sualın arxasında izah olunmalı çox həqiqətlər durur. Ancaq söhbət intim sevgidən



getmir (bu mövzuda isə nə qədər istəsən danışmaq olar – N.P.) söhbət geniş bir müstəviyə keçirilir: «Sevgi – geniş, əhatəli bir məfhumdur və mən hərdən özümə sual verirəm ki, yazıçının sevmək hüququ varmı?

Əlbəttə, bu sual ilk baxışda çox iddialı, bəlkə də süni görünə bilər, çünki yazıçı da insandır və dünyada sevgi hissiyatı olmayan insan yoxdur.

Ancaq mənə görə, yazıçının sevgisi yalnız təbiətlə bağlı bir sevgi ola bilər, yəni o, qadını sevə bilər, hansısa rəngi, yaxud fəsli sevə bilər, dənizi, yaxud meşəni sevə bilər və s.

Belə bir yazıçı (insan) məhəbbəti əsərin obyektivliyinə ziyan gətirmir, ancaq yazıçı məhəbbəti hansısa siyasi-ictimai bir hadisə ilə bağlıdırsa, bu zaman o obyektivlik itir və bunun zərbəsi ilk növbədə bədiiliyə dəyir.

Misal üçün, yazıçı bir könüldən min könülə kommunizmə aşiq olubsa, o, antikommunisti obyektiv təsvir edə bilməyəcək, yox, əgər yazıçı antikommunistdirsə, o zaman, əsərin səhifələrinə gətirdiyi kommunistə münasibəti obyektiv olmayacaq».

Bu tipli misalların sayını yenə artıra bilərik. Ancaq bizcə, elə bu misallar da sübut edir ki, Elçin bir yazıçı kimi geniş müşahidə qabiliyyətinə və mədəniyyətə malikdir. Bu müşahidələr isə heç şübhəsiz ki, onun nəsr, dram və ədəbi-tənqidi yaradıcılığında təsvir etdiyi həyat səhnələrini, təqdim etdiyi obrazları daha dərindən duymasına imkan yaradır.

Elçinin «Ədəbi düşüncələr»i XXI yüzilin başlanğıcında Azərbaycan bədii-estetik fikrinin əldə etdiyi prinsipial səciyyəli nailiyyətdir.

*«Kaspi» qəzeti, 8 may 2003.*

## EL ÜÇÜN YAŞAYIB YARADAN ELÇİN

Xalq yazıçısı Elçinin 60 yaşı tamam olur. Ləyaqətlə yaşanmış bir ömrün 40 ildən artıq müddətini ədəbiyyata həsr edib Elçin, çağdaş nəsrimizin, dramaturgiyamızın, tənqidimizin aparıcı şəxsiyyətlərindən biri kimi geniş şöhrət qazanıb. Elçinin ad günü yalnız onun özünün, mehriban ailəsinin, doğmalarının, dostlarının, Azərbaycanda və müxtəlif ölkələrdə minlərlə oxucusunun bayramı deyil, həm də çoxəsrlik ədəbiyyatımızın, mədəniyyətimizin bayramıdır. Son 40-45 ilin Azərbaycan ədəbiyyatını, ədəbi prosesimizi Elçinsiz təsəvvür etmək mümkün deyil.

Eyni zamanda, Moskva nəşriyyatlarında çap olunmuş əsərləriylə, Moskva mətbuatında dərc edilmiş povestləri, hekayələri, məqalələriylə, layiq görüldüyü Ümumittifaq mükafatlarla Elçinin keçmiş Sovet İttifaqının ədəbi həyatında da önəmli yeri vardır. Son zamanlar «Drujba narodov» jurnalının mötəbər redaksiya heyətinə üzv seçilməsiylə Azərbaycan yazıçısının beynəlxalq səviyyədə mövqe tutduğu bir daha təsdiq olundu.

Bu gün Elçin Türkiyədə də geniş tanınan, mükafatlandırılan yazıçılarımızdandır, kitabları bu ölkədə dönə-dönə nəşr olunur, pyesləri qardaş məmləkətin səhnələrində tamaşaya qoyulur. Əsərləri dünyanın çeşidli dillərinə çevrilir, neçə-neçə ölkədə oxunur.

Bütün bunlar Elçinin də, bir sıra başqa Azərbaycan yazıçılarının da guya ki, Yevlaxdan o yana tanınmamaları haqqında gülünc iddiaları danılmaz faktlarla təkzib edir. Əlbəttə, hər bir yazıçının doğma vətənində – Biləcəridən Kəlbəcərəcən tanınması, əsərlərinin həvəslə və maraqla oxunması, sevilməsi onun ən böyük iftixar mənbəidir. Amma, bununla belə, çağdaş Azərbaycan ədəbiyyatını sərhədlərimizdən çox-çox uzaqlarda təmsil etmək də hər yazıçıya nəsib olan səadət deyil.

Elçinin, istər Yazıçılar İttifaqında katib olduğu zaman, istər «Vətən» Cəmiyyətinin sədri kimi, istərsə da Baş nazirin müavini kimi səmərəli fəaliyyəti göz qabağındadır. Amma, şübhəsiz, onun elimiz, xalqımız qarşısında ən böyük xidməti – ədəbiyyat sahəsində çalışmalarıdır.

Elçin ədəbiyyatımızın son 40-45 ildə ən görkəmli yaradıcılarından biri, eyni zamanda, bu ədəbiyyatın ardıcıl araşdırıcısıdır. Söz



sənətimizi həm yazdığı bədii əsərlərlə zənginləşdirən, həm də başqa yazıçılarımızın, o sıradan gənc qələm sahiblərinin yazılarını mütəmadi izləməsiylə, onları obyektiv və nüfuzlu dəyərləndirməsiylə seçilən ədəbiyyat adamıdır. Müxtəlif işlərdə çalışmasına rəğmən vaxt və imkan tapıb mətbuatı bu qədər diqqətlə izləməsi, Azərbaycanda, Rusiyada, Türkiyədə çıxan kitabları mütaliə etməsi, dünya ədəbiyyatının həm klassik, həm ən yeni örnəklərinə dəyişməz marağı – Elçinin qibtə ediləcək özəlliyidir.

Digər bir önəmli cəhətinə – nə yazıq ki, mənim özümdə olmayan bir keyfiyyətinə də qibtə edirəm – bu da onun yazıçılıq dissiplini, nizam-intizamıdır. Elçin hər bir şəraitdə, bəzən ədəbiyyatdan uzaq mühitdə, idarədə, evdə, səfərdə, yaradıcılıqdan kənar iş ritmində sırf yazıçılıq fəaliyyətindən bir gün belə aralı düşmür. Mən «bir gün də bir sətirsiz keçməməlidir» devizini bütün nəsildaşları arasında ilk öncə Elçinə şamil edərdim.

Hər bir istedadlı sənətkar kimi, Elçin də sağlam yaradıcılıq yarışı həvəsindən, hətta sözün yaxşı mənasında «bəhsə-bəhs» hissindən xali deyil. Amma, məhz istedadına güvənən, sağlam yarışdan qorxub çəkinməyən bir yazıçı kimi bu duyğuda heç vaxt ədəbi qısqanclıq çaları olmur. Bu kiminsə uğuruna göz yummaq deyil, özünü təsdiq etmək naminə başqalarını inkar etmək cəhdinə də çevrilmir.

Vaxtilə Elçinin yaradıcılığından «Nəsrin fəzası» adlı yazımda geniş bəhs etmişdim. Bu yazıdan keçən müddət ərzində çox şey dəyişdi – quruluş dəyişdi, bir çox dəyərlər dəyişdi, dünya dəyişdi. Amma Elçinin sovet dövründə yazdıqlarının bədii və əxlaqi dəyəri dəyişmədi. Ona görə ki, bəzi bədxahlarımızın güman etdiyi kimi sovet dövründə yaranmış ədəbiyyat heç də ucdantutma «sovet ədəbiyyatı» deyildi. O dövrdə də Elçin «sovet ədəbiyyatı» bədnam «sosialist realizmi» ehkamlarına və qəliblərinə uyğun gələn süni «ədəbiyyat» deyil, böyük hərflərlə yazılan Ədəbiyyat, estetik dəyəri bu gün də baqi qalan ədəbiyyat yaradırdı.

Ola bilsin ki, Elçinin də, başqa nəsildaşları kimi, bütün əsərləri eyni səviyyədə, eyni kamillik dərəcəsində deyil. Amma heç bir yazısında o dövrün rəsmi ideoloji tələblərinə uyğun yalan və saxtakarlıq yoxdur.

Odur ki, Elçinin «Mən o dövrdə yazdıqlarımı bu gün də ixtisarsız, təshihsiz çap etdirə bilərəm» – deməyə mənəvi haqqı var. Hamının – yaşından asılı olmayaraq – öz yazıları barəsində eyni sözləri söyləməyə haqqı çatarmı?

Hər şeyi zamanın ayağına yazmaq düz deyil. Çətin şəraitdə belə həqiqətə üz tutularaq və bədii amillərə üstünlük verilərək yazılan əsərlər əsl sənətçilərin qələm məhsuludur.

Elçin məhz belə əsərlərin yazarıdır. Buna görə, onun sovet dövründə yazdıqlarıyla müstəqilliyimiz illərində yaratdıqları arasında heç bir uçurum, heç bir ziddiyyət, heç bir kardinal təzad yoxdur. Əlbəttə, zaman ötdükcə, həyat qarşımıza təzə problemlər və təzə personajlar çıxardıqca, müşahidələr aləmi zənginləşdikcə, yaradıcılıq da inkişaf edir, yeni mövzular, yeni boyalar, yeni çalarlar qazanır. Lakin bu yeniləşmə öz keçmişindən üz döndərmək, dünən dediklərinə bu gün dönük çıxmaq hesabına olmur, əksinə, gənclikdən qəbul etdiyin ictimai və estetik ölçülər təməlində yüksəlir.

Son günlərdə Elçin mənə iki yeni pyesinin əlyazmasını verdi. Biri «Böyük şir» adlı komediya, ikincisi «Qatil» adlı dram idi. Hər iki əsəri maraqla və ləzzətlə oxudum. Sevindim ki, Elçin bugünkü həyatımızın mühüm və yeni problemlərini qələmə alır, yeni dövrün situasiyalarını və personajlarını səhnəyə gətirir, eyni zamanda ömrü boyu onu yazıçı kimi narahat edən məsələlərə də tamamilə yeni baxışla yanaşır. Sırf dramaturji ustalıq, səhnə sənətinin incəliklərinə qədər mənimsənilməsi hər iki pyesi yazıçının yaradıcılığında daha yüksək bir mərhələ kimi qiymətləndirməyə əsas verir. Elçinin mənsub olduğu nəsli arxivə verməyə can atan və tələsənlər çətin ki, haçansa bu dərəcədə müasir, gərəkli və istedadlı əsərlər meydana qoya bilələr.

Bütün bu ağır sınaq illərindən Elçinin sədaqətli, etibarlı dost kimi çıxdığını da məmnunluq hissiylə xüsusi qeyd etmək istərdim.

Bu yubiley yazısında, bəlkə də, ilk dəfə olaraq Elçini bir sənətkar kimi, şəxsiyyət kimi, vəfalı dost kimi layiqincə qiymətləndirdiyimi bildirməyə mənəvi ehtiyac duyuram.

Elçini yüksək dəyərləndirməyimin bir səbəbi də onun oğulluq borcunu qeyrətlə və bu qədər zəhmət bahasına ödəməsidir. Atası – böyük yazıçımız İlyas Əfəndiyev oğullarını – Elçini və Timurçini anasız böyütmüş, onlara həm ata, həm ana olmuşdur. Onların vətəndaş və ziyalı kimi yetişməsində hər cür fədakarlıq göstərmişdir. Oğulları da hədd-buluğa çatandan sonra atalarının hər qayğısını səbrlə və əzmlə çəkiblər. Bu gün Elçin İlyas Əfəndiyevin əsərlərinin nəşr olunması üçün, onun haqqında kitabların çıxması üçün böyük əmək sərf edirsə, bu nəyə görə kiminsə narazılığına səbəb olmalıdır? Elçinin atası barədə kitab yazmasına nə səbəbdən kimsə mız qoymalıdır?



Dünyasını dəyişmiş valideynlərə övlad qayğısı, övlad hörməti haçandan qəbahət sayılır? Bunun əksini – ata-analarımızın xatirələrinə biganəliyi, laqeydliyi, yəni naxələfliyimi təqdir və təbliğ etməliyik?

Yazıçı ata haqqında onun ömrünün və yaradıcılığının çeşidli ayrıntılarına hamıdan yaxşı bələd olan yazıçı oğuldan daha dəqiq kim yaza bilər ki? Nə qədər obyektiv olmağa çalışsan belə, müəyyən aludəçilik – ləyaqətli ömür sürmüş, ədəbi dəyərini itirməmiş əsərlər yazmış bir adama, həm də əbədi itirdiyin ən yaxın adama aludəçilik təbii deyilmi?

Hərdən bir ərklə Elçinə müəyyən iradlarımı bildirəndə və dost mübahisəsində arqumentlərim qurtaranda ona: - Axı mən səndən beş yaş böyüyəm, - deyirəm. Bu sözlərdən axır səbri tükənən Elçin:

- Yaxşı, nə vaxtacan sən bu yaş imtiyazından istifadə edəcəksən – qarşılığını verir. Cavabında: - Həmişə – deyirəm – və bizim yaşca bərabərləşməyimizin tək bircə yolu var, amma yəqin sən bunu istəməzsən... Əlbəttə yox, - deyir.

Əzizim Elçin! Çox illər bundan öncə qırx yaşım ərəfəsində «qocalıq gəlir» – deyə əndişələnirdim. Elə o zaman Türkiyədə bir kitab gördüm, aldım. Adı beləydi: «Həyat qırxdan başlar».

İndi, 25 il sonra tam hüquqla: «Həyat əllidən, altmışdan, altmış beşdən başlar» – deyirəm. Bu özünətəsginlik deyil, həqiqətdir.

Bizim peşəmizin həqiqətidir. Yazıçının qələmi cavan qaldıqca, o özü də, kim nə deyir desin, qocalmır. «Mən nə qədər qoca olsam da, dəyərəm min cavana» ariyasının sözləri də musiqisi kimi gözəldir. Gənclərin xətrinə dəymək istəmirəm. Bircə onu unutmasınlar ki, bütün qocalar cavan olublar, amma cavanlar hələ ki, yaş təcrübəsinə vaqif olmayıblar.

Şübhəsiz, gənclik həyatın ən böyük nemətlərindəndir. Amma gənc yaşında şöhrət, vəzifə, rəyasət arzusuyla cavan olmadan qocalanlar, gün gələcək bütün bu şeylərin həyatda heç də o qədər əhəmiyyətli olmadığını dərk edəcəklər.

Qələmin yaşı olmur.

El üçün yaşayıb-yaradanlar əbədi cavanlardır.

Əziz dostum! Qələmin də, özün də həmişə cavan qalın.

Altmış yaşın mübarək!

**21 mart 2003, İstanbul.**

*«Ədəbiyyat» qəzeti, 9 may 2003.*

## ABSURD, ABSURD, ABSURD...

Doğrusu, «absurd» kəlməsini bu sərlövhəyə çıxarmaq barədə fikirləşməmişdim. Ancaq Elçin nəsrində – 90-cı illərin başlanğıcında həm forma, həm də məzmun baxımından yeni keyfiyyət dəyişiklikləri diqqəti cəlb edir. Görməmək, hiss etməmək mümkün deyildi ki, «absurd» adı ilə təqdim etdiyi hekayələr onun dünyaya, gerçəkliyə tamam yeni bir müşahidə bucağından yanaşdığından xəbər verir. Əlbəttə, ədəbi tənqid bu hekayələrin isti-isti çap olunduğu 90-cı illərin əvvəllərində və sonrakı illərdə də susmağı üstün tutdu. Ola bilsin, «absurd» hekayələr lazımınca dərk olunmadı (hər bir ədəbi yenilik vaxtında etiraf edilmir), yaxud bu tipli hekayələrin daxil olması və bu üslubda keyfiyyətcə yeni bir çalarda nəzərə çarpması çoxlarına qəribə göründü. Üslubda, gerçəkliyə fərdi yanaşmada müəyyən bir dəyişiklik – yeniləşmə nəzərə çarpırsa, onu niyə qəbul etməyəsən? «Dünya belə sürətlə dəyişir, dondan-dona, rəngdən-rəngə düşürsə, üsluba nə gəlib?» (Tehran Əlişanoğlu). Ancaq 90-cı illərin sonlarında nəhayət, «absurd» hekayələr etiraf olundu («Elçinin absurd hekayələri»). Bu məqalələr təkcə Elçin nəsrində deyil, ümumən çağdaş Azərbaycan nəsrində bu tipli əsərlərin mahiyyətini açıqlamaq baxımından da maraqlı səsləndi.

Bizim fikrimizcə, «mənasız söz», «cəfəngiyyat», «boş fikir» mənalarını ifadə edən «absurd» kəlməsi sənədə bu mexaniki təfsirlə izah oluna bilməz. Doğrudur, absurd teatrda yaxud absurd üstündə köklənən nəsrdə mənasızlıqlar, cəfəngiyyatlar, boş fikirlər üst-üstə qalanır, yəni təsvir olunan hadisənin, situasiyanın məğzi, mahiyyəti mənasızlıqdan, boş bir fikirdən ibarətdir, obrazın hərəkətləri də, düşüncə tərzi də çox zaman real məntiqə söykənmir, hadisələrin təsvirində də bəzən müxtəlif zamanlar bir-birinə qarışır və bir-birinin içində əriyir, məkanın dəqiq koordinatları məlum olmur və s. Ancaq bütün bu absurd olan şeylər sonda müəyyən bir fikrin, ideyanın yaranmasına gətirib çıxarır, necə deyərlər, mənasız görünən şeylər sonda konkret bir mənanı dilə gətirir.

Elçinin «absurd» hekayələrində üslubi mənalar da mütləq rol oynayır. Bu hekayələrdə emosional güc və gerçəklik hiss ediləcək dərəcədə aydın nəzərə çarpır: bu gərginlik gah nəsrə axıb gələn dialoqlarda, hətta remarkalarda, gah zaman-məkan ardıcıllığının qəfil



dəyişmələrində, gah da situasiyaların tez-tez təkrarlanmasında özünü büruzə verir. Təbii ki, bu hekayələrdə absurd teatrından gələn poetika az rol oynamır, lakin təqlid, yamsılama, imitasiya səviyyəsinə enmir, mütləq mənada «millilәşir».

«Ordenli yazıçı ilə görüş» fars-novella adlanır. Yəni Elçin sonu qəfil hadisə ilə bitəcək gülməli bir məzhəkə – parodiya yaratmışdır. 1989-cu ilin 12 dekabrında yazılmış bu fars-novellada müəllif köhnə dünya adamlarından ibarət personajları gülüş hədəfinə çevirir. Burada məşhur bir kəlam yada düşür: «Bəşəriyyət öz keçmişindən gülə-gülə ayrılır». İştirakçılar kimlərdir: Yoldaş Kərimzadə – rayon partiya komitəsinin 1-ci katibi, Azərbaycan KP MK-nın üzvü, Azərbaycan SSR Ali Sovetinin deputatı, iki Lenin ordenli (başqa orden və medalları da var), yerli diktator, təxəllüsü «Kişi».

Yazıçı Alpaslan Qulamzadə – Stalin mükafatı laureatı, əmək qabaqcıllarının xoşbəxt güzəranından, şən və azad kolxoz həyatından, MTS quruculuğundan, Qırmızıçay SES-in fəaliyyətindən bəhs edən əsərləri məktəb dərsliklərinə salınıb, qəzetlərdə tez-tez şəkli çıxır, ordenli yazıçıdır.

Əliquliyev – komsomoldan rayon partiya komitəsinə təlimatçı vəzifəsinə irəli çəkilib, yeganə arzusu indi işlədiyi təbliğat şöbəsinin müdiri olmaqdır.

Nəhayət, Cəfər Ağa – taksi sürücüsü.

Hadisə 1952-ci ilin bir payız gecəsi, rayon Mədəniyyət Evinin Papanin adına klubunda baş verir. Burada yazıçı Alpaslan Qulamzadə ilə rayon zəhmətkeşlərinin görüşü keçirilir.

Elə əsərin başlanğıcında – iştirakçıların təqdimində qatı bir ironiya ilə qarşılaşırıq. Daha sonra parodiya elementləri özünü göstərir. Klubun divarlarından qırmızı parça üzərində ağ hərflərlə yazılmış şüarlar nəzərə çarpdırılır: «ŞANLI RƏHBƏRİMİZ, ATAMIZ STALİNƏ EŞQ OLSUN!», «XOŞBƏXT HƏYATIMIZ ÜÇÜN ƏZİZ ATAMIZ STALİN YOLDAŞA MİNNƏTDARIQ» və s. Bir sözlə, burada hər bir detal, hər cizgi Stalin dövrünün zamanına və məkanına uyğun tərzdədir. Absurd tamaşa başlanır: belə güman etmək olardı ki, o payız gecəsində baş verəcək hər hansı hadisədə dövrün (əlbəttə, 1952-ci ilin) ritminə, tempinə uyğun davam edəcək. Amma belə olmur. RİTM və TEMP birdən-birə pozulur – «absurd» bir situasiya yaranır. Birdən taksi sürücüsü Cəfər Ağa görünür (o Cəfər Ağa ki, heç bir orden və medalı yoxdur. Böyük Vətən Müharibəsinin iştirakçısıdır və ondan soruşanda ki, o boyda

müharibədən gəlmisən, bircə dənə də medalın yoxdur, belə cavab verir ki, canımı salamat gətirmişəm, medaldan azdır?. O, Əliquliyevin hədə-qorxusuna, etirazına baxmayaraq zala dürtülür, taxta döşəməni cırıldada-cırıldada orta sıralarda özünə yer tapıb oturur. Bundan sonra yoldaş Kərimzadənin birinci katib olduğu bu rayonda Cəfər Ağa kimi bir taksi sürücüsünün gəlib şərəfətli bir məclisdə iştirak etməsi də absurddur, ancaq bu absurd situasiya başqa bir absurd situasiyanın reallaşmasına zəmin yaradır. Əvvəlcə yoldaş Kərimzadə bu şərəfətli məclisi korladığı üçün bir rəhbər və bu rayonun «Birinci kişisi» olmaq etibarilə Cəfər Ağanı divara dirəyir, bir neçə dəfə ona «Qalx!», «Otur!» əmrini verir, bu hərəkəti və ədası ilə zalı sükuta qərq edir.

Sonra söz Alpaslan Qulamzadəyə verilir və əsl həngamə – «absurd» situasiya bundan sonra baş verir. Alpaslan Qulamzadə uzun sürən alqışlardan sonra xitabət kürsüsünün arxasına keçir. Amma hər dəfə «Mənim əziz qəhrəmanlarım!» deyə nitqinə başlayanda Cəfər Ağa bərkdən qışqıra-qışqıra ayağa qalxır, Stalinin silahdaşlarının adlarını (hər dəfə birini) çəkib bütün zalı ayağa qaldırır. Təbii ki, rayonun «birinci kişisi» də buna – taksi sürücüsünün bu alqışına qoşulmalı olur. Beləcə, 1952-ci ilin o payız gecəsi Rayon Mədəniyyət Evinin klubundan xeyli müddət sürəkli alqışlar eşidilir. Beləliklə, absurd tamaşa tamamlanır. Gözlənilməz, qəfil bir situasiya ilə Dövrün (52-ci ilin o payız gecəsinin) mənzərəsi absurd bir mənzərə ilə sona çatır.

«Mehmanxana nömrəsində görüş», sonra «Xüsusi sifariş» hekayələri də sırf absurd hekayələr kimi qələmə alınmışdır. Hər ikisində iştirakçıların sayı məhduddur (birincisində Birinci qonaq, İkinci qonaq, ikincisində Birinci kişi, İkinci kişi).

Hər iki hekayədə zaman və məkan koordinatları dəqiq müəyyənləşdirilir. Birincisində zaman – 1990-cı ilin aprel ayı, günorta saat 11 ilə 12 arası, ikincisində 1990 və 2090-cı illərin avqust ayı. Birincisində məkan – Bakı şəhəri, mehmanxananın doqquzuncu mərtəbəsində iki otaqlı nömrə, ikincisində sadəcə Bakı şəhəri.

Əvvəlcə birinci hekayə haqqında. Burada eyni situasiya bir neçə dəfə təkrar olunur. Birinci qonaq bu şəhərə ezamiyyətə gəlib və göründüyü kimi mehmanxananın doqquzuncu mərtəbəsində, iki otaqlı nömrədə istirahət edir. Bu zaman yataq otağından öskürək səsi eşidilir və məlum olur ki, bu otaqda başqa bir adam da var, onun çətiri burada yaddan çıxıb qalıb. Vəssalam! Burada absurd heç nə yox!

Amma ikinci qonaq çətirini götürüb gedəndən az sonra yenə yataq otağından öskürək səsi eşidilir və ikinci qonaq əlində qara çətir



yataq otağından çıxır. «Absurd oyunu» başlanır. İkinci qonaq çətirini yaddan çıxardığını və bura onun üçün gəldiyini söyləyir. Ancaq burada bir fərqli təfərrüat diqqəti cəlb edir, birinci dəfə o, tualetin yaxşı işlədiyini söyləmişdi, amma indi yaxşı işləmədiyindən şikayətlənir.

Təbii ki, bu iki gəliş birinci qonağı təşvişə salır və o, yataq otağına keçib başqa bir qapının olub-olmadığını yoxlayır. Yox, hər şey yerindədir. Divanda uzanıb rahatca mürgüləmək istərkən yenə yataq otağından öskürək səsi gəlir. Üçüncü dəfə də situasiya təkrar olunur, amma bu dəfə birinci qonaq ittihamçı kimi hərəkət edir, ikinci qonağın əvvəl dediklərini birbəbir onun yadına salır. Deyəsən ikinci qonağı inandıra bilmir və odur ki, taqətsiz halda divanda oturur.

«Absurd oyunu» isə daha iki dəfə davam edir. Situasiya beləcə psixoloji zəmində, birinci qonağın iki əlilə boğazını tutduğu anda sona yetir.

Absurd tamaşada eyni situasiyanın bir neçə dəfə təkrar olunması, hər iki qonağın xarici görkəminin («40 yaşlarında, ağ plaş geyib, boz şlyapa qoyub, əlində qəhvəyi portfel var») eyni olması, lakin hər dəfə bir və bir neçə fərqli cəhətin meydana çıxması «hər şeyin izahı var» qənaətini doğursa da, burada «absurd oyununun» bütün prinsiplərinə riayət olunmuşdur. Əslində, hər şeyin izahı olsa da, burada nəyisə izah eləmək, şərhini vermək mümkün deyil.

Bu, absurddur!

Ancaq əsl absurd tamaşa – «absurd oyunu» «Xüsusi sifariş» hekayəsində baş verir. Burada iki zaman – 1990 və 2090-cı illər qarşı-qarşıya gəlir. 1990-cı ilin təmsilçisi – XX əsrin adamıdır, bizim kimi adi insandır, arvadı, uşaqları var, həyati qayğılarla, problemlərlə yaşayır. 2090-cı ilin təmsilçisi – XXI əsrin adamı isə robot tiplidir, çörək yemir, iki həb tronsmorkormobonit kifayətdir, hər bir məsələyə, hətta insani münasibətlərə də kompüter, proqramlaşdırma qanunları ilə yanaşır. Deməli, 1990-cı ildə 2090 il, yaxud 2090-cı ildə 1990-cı ili «görmək», XX əsrin sakini və XXI əsrin sakinini qarşılaşdırmaq və təbii ki, 100 il əvvəl 100 il sonranın mənzərəsini canlandırmaq (adətlər-ənənələr, insani münasibətlər və s. baxımından) sadəcə absurddur. Amma bu absurdun özündə real məntiq durur.

XXI əsrin adamı kimi XX əsrin adamını inandırmağa çalışır ki, «özünüz özünüzü yalançı tragediyalara məruz qoymusuz! İnsan gərək özü üçün yaşasın! – Siz bunu başa düşməlisiz... Siz balalarınız üçün yaşamalıydız, çünki primitiviydiz, çünki əslində insan ilə heyvanın

fərqi yox idi. İnstinktlə yaşayırdız, boğazınızdan kəsib uşaqlarınıza yedizdirirdiz. Öz həyatınız isə heç oldu! Ömür insana bir dəfə verilir – bunu başa düşürdüz. Ancaq orasını başa düşmürdüz ki, o ömür insanın özü üçün verilir, başqası üçün yox!»

Bəs XXI əsrdə nəsil, insan yaşayışı, həyat necə davam edir? «İndi uşaqları laboratoriyalar istehsal edir. Həm demoqrafik tənzim var, həm də ki, a-zad-lıq. Ata-ana məfhumu qurtarıb daha, insan azad olub. Kompüterlər donorlar seçir, genləri yoxlayır, hesablamalar aparır, mayalanma üçün ən yaxşı proqnozlu toxumalar ayırır. Hərə öz sahəsində işləyir və özü üçün işləyir».

XXI əsr adamının sözləri nə dərəcədə həqiqət olacaq; doğrudanmı hər şey imitasiyadan ibarətdir, doğrudanmı XX əsrin qurtaracağında bu barədə fikirləşməyin özü absurddur. Amma hər halda, XIX əsrin sonlarında yaşasaydıq, indi nail olduğumuz bütün bu texniki nailiyyətlər, kosmosun fəth olunmağı, yüksək idarəetmə, insanın fikri-zehni-intellektual səviyyəsi bizə bir absurd təsəvvürü bağışlayardı.

Amma hər halda, XXI əsrin sonunu görməsək də, gələcək haqqında absurd da olsa, fikirləşməyə dəyər!

*«Ədalət» qəzeti, 9 may 2003.*





## YAZIÇIDAN ARTIQ MƏSULİYYƏT YÜKÜ DAŞIYAN SƏNƏTKAR

Uzun illərdən bəridir ki, rus ədəbi-ictimai fikrində rast gəldiyim bir fikrin həqiqət tutumu məni düşündürməkdədir: «V Rossii poet bolşe çem poet». Postulat səviyyəsində bu həqiqət eyni ilə və bəlkə bir az da artıq Azərbaycan gerçəkliyinə də aiddir. Azərbaycan cəmiyyətində ədəbiyyat, bədii söz insanın estetik kamilliyindən daha çox, cəmiyyətin, rejimlərin təkamül yolu ilə, bir çox hallarda, hətta, inqilabi yolla dəyişməsi, ədalət prinsiplərinin bərqərar olması uğrunda, sosial zülmə qarşı, şərə və pisliyə qarşı mübarizənin başında dayanıb. Sözün həqiqi mənasında klassika sırasına saldığımız yazıçı və şairlər ölkə və xalq üçün «yazıçıdan artıq yazıçı» funksiyasını yerinə yetiriblər. Uzun əsrlər boyu bu böyük missiyanın daşıyıcısı olan bədii söz sənətkarlarının həmin yöndə fəaliyyət göstərən nümayəndələrini sovet dövründə tüğyan edən sosializm realizmi «prinsipləri» də öz yolundan döndərə bilmədi. Sürgünlərə və dar ağaclarına aparan yolu onlar yaltaqlıq və məddahlıqla qazanılan «şöhrətə» aparan yoldan şərəfli tutdular. «Cəmiyyətin, insanın boğulduğu, təqib olunduğu çağlarda bədii ədəbiyyatı xalqın iniltisini eşitməyə imkan yaradan yeganə tribuna» (A.Gertsen) kimi qiymətləndirən bu sənətkarlar elə bir ənənə qoyub getdilər ki, ənənə onların özündən sonra gələn nəsillərə məktəb oldu. Ancaq hamıya yox. Azərbaycanda «yazıçının yazıçıdan artıq olduğunu» duymağa qadir olanlar, - ancaq belələri özündən əvvəlki namuslu klassikanın məktəbinə söykənə bildilər. Qəribədir ki, «yazıçının yazıçıdan artıq olduğu» Rusiyada üç əsr dalbadal həmin əsrlərin 60-cı illəri demokratik dəyərlərə can atma məqamı kimi ortaya çıxmış və bu canatmada bədii ədəbiyyat ilk sırada durub: 1760-cı illər, 1860-cı illər, 1960-cı illər. 1760-cı illər bir az istisna olmaqla Azərbaycan ədəbi mühiti 1860-cı illərdən daha ciddi fəlsəfi axtarışlarda, həqiqət axtarışında olub. Bu gün rus elmi-ədəbi leksikonundakı «şestidesətniki» – «altmışıncılar» anlayışında elə Azərbaycanın M.F.Axundovu, S.Ə.Şirvanisi, H.B.Zərdabisi, Mirzə Kazım bəyi və sairələri də öz ifadəsini tapır.

Yüz il daha keçdi və 1960-cı illərin ədəbi-bədii hərəkatı «altmışıncılar» anlayışını yenidən gündəmə gətirdi. Bu dəfə Azərbaycan

altmışıncıları daha hansısa «altmışıncılar»ın tərkibində deyil, özləri olaraq, ayrıca milli-mənəvi dəyərlərin, ayrıca etnosun təmsilçiləri kimi ortaya çıxdılar. Bu nəsli az-çox gənc türkçülər hərəkatı ilə müqayisə etmək olardı. Lakin burda da nəzərə alınmalıdır ki, gənc türklərin ictimai, bədii, dil (!) hərəkatı bir ölkənin – doğma və yad Türkiyənin tərkibində baş verirdisə, Azərbaycan «altmışıncılarının» yeni düşüncəsi, yeni və xüsusilə milli özünüqayıdış məqamlarına ünvanlanan bədii hərəkatı böyük bir imperiya daxilində, bu imperiyaya meydan oxumaq təhdidi ilə üzə çıxırdı. Əlbəttə, yenə də hər şey ustad sələflərə, inkişafa təkan verən ənənələrə söykənirdi. Lakin bu «altmışıncılar» hər şeydən artıq sənətkarlığa söykənməyi üstün tutdular. Xüsusi istedadın, özünəməxsus orijinallığın gücü ilə ortaya çıxan yeni yazıçıların «yeni nəsri», bəlkə də spontan şəklində, bütöv məktəb səviyyəsinə yüksəldi. Mən burada «məktəb» sözünü işlədərkən, əlbəttə, opponentlərimi mütləq düşünürəm. Ancaq onu da yəqin bilirəm ki, 1960-1970-ci illər Azərbaycan «yeni nəsrinin» müəllifləri bu gün olmasa da, sabah mütləq məktəb kimi qiymətləndiriləcəklər: Anar, Elçin, Ə.Əylisli, S.Əhmədov, İ.Məlikzadə, M.Süleymanlı... Allaha şükür ki, bu siyahını artırmaq olar. Bu yeni nəsrin məktəbliyini belə bir fakt sübut edir ki, ən güclü təzyiqlərə, sinəsi ulduzlu neçə qocaman yazıçıların hücumlarına baxmayaraq, özünü təsdiqlədi, özünü qəbul etdirdi. Bu yeni nəsrin özünütəsdiqi iki böyük amillə şərtləndi: sənətkarlıq, sözə qiymət və zorla tətbiq olunan, bundan əvvəlkilərin bir çoxunun həvəslə qəbul etdiyi hər cür «izmlərdən» uzaqlaşmaq bacarığı. İkincini, əlbəttə, elə birinci şərtləndirirdi – çünki, sözün həqiqi mənasında sənətkar olub hansısa «izmlərin» diqtəsi ilə yaratmaq mümkün deyil. Mən Azərbaycan bədii söz sənətinin 1960-cı illərdən başlayan bu yeni keyfiyyətində Elçinin yerini ayrıca rakursda, iri planda görürəm.

Zamanın və rejimin dəyişməyi həmişə mümkündür. Zamana və rejimə işləmək başqa növ yaradıcılıqda mümkün görünə bilər. Lakin bədii söz zamana və rejimə sığınanda o, yalnız bir zamanın və bir rejimin olur. Zaman və rejim dəyişən andan həmin sözün sahibinin – indiki kontekstdə yazıçının faciəsi başlayır. Sovet dövrü sovet rejiminə sığınan əsərlərin bu gün hansı faciələri yaşadığı – kitabxanalarda bozarması, dərsliklərdən atılması (haqlı!), məsxərəyə qoyulması göz qabağındadır. Lakin rejimə və «izmlərə» deyil, sözə və sənətkarlığa söykənən əsərlər elə bu gün də qürurla dayanıb və özünün bədii-estetik tərbiyə keyfiyyətini göstərməkdədir. Elçinin istisnasız olaraq, bütün hekayə və povestləri, romanları 70-ci illərin də, bu günün də, yəqin ki,



sabahın da oxucularına ünvanlanır. Bu obrazların, istisnasız olaraq, hamısı mənim müasirlərim idi, bugünkü nəslin müasirləridir, sabahkı nəslin də müasirləri olacaqlarına şübhə yeri qoymurlar.

Mən Elçinin bütün əsərlərini oxumuşam, mənim kitabxanamda bu əsərlərin ayrıca taxçası da var. Elçinin 2000-ci ildə nəşr olunan «Baladadaşın ilk məhəbbəti» kitabı da bu taxçadadır. Özünün yeni sənətkarlıq çağını, nasir gücünü yaşayan Elçin düz otuz iki il əvvəl (kitabın nəşri tarixi hesabı ilə) yazdığı və elə o adda haçansa çap etdirdiyi bir hekayənin adını 2000-ci ildə, məncə, özünə çox əziz olan bir kitaba yenidən qoyur: «Baladadaşın ilk məhəbbəti». Bunun səbəbini Azərbaycan nəsrini az-çox izləyən bir adam kimi, əlbəttə, mən bilirəm. Ancaq müəllif özü 32 il bundan əvvəlki Elçini bugünkü Elçinlə müqayisə edərək kitabın ön sözündə belə bir nəticəyə gəlir: «Və bir də mən öz yazıçı taleyimdən razıyam ki, 32 ildən sonra bu hekayələrdə bircə sözə belə toxunmadan onları vaxtı ilə necə yazıb və necə çap olunmuşdursa, eləcə də yenidən nəşr etdirirəm.

Epoxalar dəyişdi, siyasi-ictimai münasibətlər dəyişdi və mən – oxucudan gizlətmirəm – daxili bir qürur hissi keçirirəm ki, bu hekayələrdə bu gün mənim gizlətmək istəyəcəyim, xəcalət çəkəcəyim, unutmağa çalışacağım bircə söz də yoxdur». Mən Elçinin, bəlkə də bir az narahat olub özü haqqında dediyi bu fikrin altından bütün məsuliyyətimlə və həm də xüsusi bir qürur hissi ilə imza atıram. Ona görə həm də xüsusi bir qürur hissi ilə ki, mən də 1970-ci illərin sonlarında məqalələrimin birində bu hekayələrin və povestlərin bütün zamanlar üçün – nə qədər ki, bədii söz qüvvədədir, o qədər yaşarı olacağını qətiyyətlə vurğulamışdım.

Sənətdə, ələlxüsus da bədii söz sənətində ideya, material, yoxsa sənətkarlıq dilemmasının az qala sənətin özü qədər yaşı var. Rus altmışıncıları və eləcə də Azərbaycan altmışıncıları nəsrdə materialdan çox sənətkarlığa üstünlük verdilər. Bu yazıçılar sırasında Elçinin indi də alnıaçıq, başı uca görünməyə haqqı var. Mən bu məqamda Elçinin yeni kitablarından birində – «Nəsr və tənqid» kitabındakı ədəbiyyatşünas, tənqidçi obrazını xatırlatmaq istərdim. Bugünkü filologiya elmləri doktoru Elçinin otuz iki, otuz üç il bundan əvvəl filologiya elmləri namizədi alimlik dərəcəsi adı almaq üçün yazdığı dissertasiyanın mətnini ifadə edən bu kitabda elmdə də saxta ideologiyaya xidmətdən çox-çox uzaq olan bir tədqiqatçının öz obrazı var. Mən Elçinin bu əsərini 1975-ci ildə Moskvanın Lenin adına kitabxanasının Ximki adlanan qəsəbəsindəki filialında başdan ayağa

oxumuşam. İndi həmin dessertasiya bir kitab halında 1999-cu ilin nəşri olaraq qarşımdadır. Dissertasiya o zaman yazıldığı şəkildə – eyni ilə çap edilib. Və bu kitab elə dissertasiya şəklində də maraqlıdır. Ona görə ki, birincisi, Elçin yenə də heç bir ideoloji kanona, qadağalara məhəl qoymadan 1945-1965-ci illər arasındakı zaman kəsiyində özünü göstərən Azərbaycan tənqidinin elmi təhlilini verib. İkincisi, Elçin bədii nəsrində olduğu kimi, elmi əsərlərində də özünəməxsus, bizi mütləq elə yazı manerasına görə də cəlb edən bir üslubun sahibidir. Və yenə də, əlbəttə, ən əsası odur ki, bu əsər də zamanın sınağından üzüağ çıxdı. Mən bu yerdə Elçinin öz kitabına yazdığı «Bir neçə söz» başlıqlı girişdəki məhz bu sətirlərinin altında da öz imzamı qoymağa hazıram: «... Və oxucudan gizlətmirəm, bu gün bu kitabı ona təqdim etmək mənim üçün xoşdur və hətta mən o cavan Elçinin (gənc tədqiqatçının!) yerinə bir az elə bil ki, gururlanıram...

Qürurlanıram ona görə ki, hakim və hikkəli partiya ideologiyasının fironluq etdiyi dövrdə, estetikanı, sənəti, o cümlədən ədəbiyyatı «sosializm realizminin» cansıxıcı, boz və şablon qəliblərinə pərçim etməyə çalışan (və əsas etibarı ilə buna nail olan!) nəzəriyyəçiliyin hökmranlıq sürdüyü bir zamanda bu əsəri yazarkən... mütləq mahiyyətli bir konyukturadan nəinki uzaq olmuşam, hətta əsas götürüb dəstəklədiyim prinsiplər o konyukturaya qarşı tam müxalifətdə durub». Bu, Elçinin 1960-cı illərin ortalarından başlayan yaradıcılıq prinsiplərinin təsdiqidir. Sənət, bədii ədəbiyyat üçün konyukturanın nə qədər faciəli olduğunu təkcə fəhmlə deyil (yazıçı kimi), ham də elmi həqiqət səviyyəsində duyduğu üçün (alim kimi, filoloq kimi) o heç vaxt pis əsər yaza bilməzdi. Ya yazmazdı, ya da mütləq elə Elçin kimi yazardı. O, ikinci yolu seçdi: Sənətkarlığı. Estetik ideallarıın təqdimində, ifadəsində ən ideal yolu seçdi və bu əsərlər onun zamanının ədəbi tənqidinə də söz demək imkanı verdi.

Vətəndaş Elçin girəvə düşən kimi öz vətəndaşlıq sövqeyini göstərməyi bacarır. Böyük C.Məmmədquluzadənin məslək dostu Ö.F.Nemanzadənin əsərləri toplusu ona bu ciddi publisistik irsin fonunda əsl vətəndaşın öz milləti yolunda borcunu ifadə etməyə imkan yaratmışdı. Moskva tənqidçisi Korobovla dialoqunda Korobov o zaman ölkədə ideoloji mahiyyət daşıyan BAM (Baykal-Amur) tikintisinin nəsr üçün çox maraqlı, qlobal bir mövzu kimi qabartdığı anda Elçin belə mövzuların sifariş xarakterinə işarə edərək onların sənətə dəxli olmadığını bəyan etmək cəsarətini özündə tapırdı...



... Və Elçin üçün «partiya-sovet» mövzuları deyil, adi insanın psixoloji qatlarının açılması, milli-mənəvi dəyərlərin bədii sənət dünyasına gətirilməsi əsas idi. O, elmi-tənqidi düşüncəsindəki postulatlarını şəxsən özünün nəsr sənətində gerçəkləşdirməklə ədəbiyyatımıza, söz sənətimizə öz xidmətini göstərirdi. Onun özünün sənətkar konsepsiyası vardı və 1960-cı illərin axırlarından yaranan bu konsepsiyaya indiyə kimi sadiq qalıb: millilik və bəşərilik. Elçin milli və bəşəri olan sənətkarları ancaq oxucuya deyil, bütövlükdə xalqa göstərməyi sevən adamdır. C.Cabbarlı haqqında populyar-publisistik bir monoqrafiyasının ilk bölməsi: «Cabbarlı bəşəridir». Və dərhal əsərin ikinci bölməsi: «Cabbarlı millidir» – hökmü ilə təqdim olunur. Bütün yaradıcılığı boyu özünün də tutduğu bu yolun yolçuları Elçinə əzizdir, qiymətlidir. Etiraf edək ki, C.Cabbarlı haqqında heç də az tədqiqat aparılmayıb. Elçini bu böyük sənətkara yenidən qayıtmağa sövq edən ondakı bəşəriliyin milli kökləridir. Bu bəşərilik və millilik isə ilk növbədə bədii obrazlarda ifadə olunur. İlk hekayəsindən başlamış sonrakı povest və romanlarınadək Elçin özü də insanı, obrazı çətin sınaqlardan çıxarır, milli-mənəvi dəyərlərə sığınan, deməli, həm də bəşəri dəyərləri özündə birləşdirən mükəmməl, kamil vətəndaş modeli yaradır.

Elçinin nəsri zamanasığmaz sənətlə yoğrulub. Vaxtı ilə ədəbi tənqidin hadisə kimi qarşıladığı «Dolça» povestinin həm bədii, həm də problematik qayəsi bu gün bəlkə dünənkindən daha aktual səslənir. Müəllif povestdə iki ailəni, iki müxtəlif psixologiyanı qarşılaşdırır. Mən hələ təxminən 20 il əvvəl bu əsər barədə dediyim sözün üstündə dururam: «Əslində bu iki ailə fonunda namusluluq, halallıq, vicdansızlıq və ədalətsizlik aktları qarşılaşdırılır. Bu qarşılaşmada birincilərin – ilk baxışda gücsüz və aciz, imkansız və yazıq, qayğılı görünən birincilərin işığı çox güclüdür. Həyatda tutduğu imkanlı mövqeyə və yerə görə qürrələnənlərə sənətkarın nifrəti insan və it qudurğanlığını paralel aparmaqla üzə çıxır». İyirmi ilin arxasında qalan bu sətirlərə indi onu əlavə etmək olar ki, cəmiyyətin bu gün imkanlılara və imkansızlara daha çox bölündüyü bizim çağda «Dolça» daha yeni məzmun, daha yeni səmərə ilə üzə çıxır.

Elçin «Mahmud və Məryəm», «Ölüm hökmü» və s. kimi fundamental nəsrində də öz etik modelinə sadiq qalır və yalnız insanın, yalnız cəmiyyətin kamilləşməsinə gedən yolun salınmasında fəal iştirakını göstərir.

Azərbaycanda yazıçı yazıçıdan artıqdır – Elçin bu həqiqəti bəlkə indi daha çox qəbul edir. Milli-mənəvi dəyərlərin, insan ləyaqətinin xeyli dərəcə öləzidiyi, Qərb mədəniyyəti qarşısında pərəstiş epogeyə qalxdığı, milli mədəniyyətin reklamlara qurban verildiyi indiki çağda xalqın ənənələrini, millətin milliliyini qorumaq, ona qarşı çıxanlara üsyan səsini ucaltmaq bəlkə indi bütün vaxtlardan daha artıq güc tələb edir. Lakin çoxunun susduğu, inkarın xor kapellası qarşısında «mənə nə» bədnam fəlsəfəsinə söykənməsi də göz qabağındadır. Otuz-otuz beş il bundan əvvəlin Elçini o ağır illərdə milli dəyərlərə necə qahmarlıq edirdisə, bu gün də eləcə fəaldır. Elçin bir sənətkar kimi qətiyyən zamanın dəyərlərinə, müvəqqəti populyarlığa meyl edən yazıçı deyil. O, informasiyalı cəmiyyətin bədii sözə yaratdığı müvəqqəti etinasızlığı qıraraq qələmini yerə qoymadı, «Qırmızı qərənfil gülləri «Pera Palas» otelində qaldı», «Göy üzünün ulduzlu vaxtları», «Sarı gəlin» kimi hekayələrini, çoxsaylı esselərini yazdı. Bu hekayələrin hamısı, xüsusi ilə «Sarı gəlin» müasir ədəbi-ictimai fikirdə hadisə kimi qiymətləndirildi. Çünki «Sarı gəlin» Elçinin vətəndaşlıq narahatlığının bədii ifadəsi olaraq ayrıca təsir qüvvəsini göstərdi: bu əsər ilin hekayəsi kimi yüksək qiymətləndirildi.

Elçinin obrazlarının məcazi mənada yaşarlığı bir çox halda zamandan-zamana düşmək, yəni sözün müstəqim mənasında yaşamaq prosesi keçirir. 2002-ci ilin «Sarı gəlin»indəki Fətulla uzun illər bundan əvvəl yaranan və dərhal hadisəyə çevrilən «Dolça»dakı Ağababanın yeni çağdakı taleyidir. «Dolça»da qoyulan milli-mənəvi dəyərlərin zaman deformasiyası bazar münasibətləri fonunda daha də dərinləşir. «Sarı gəlin» bu dərinləşməyə çalınan həyəcan təbilidir. Müəllif göstərir ki, zamanın sərtliyi, amansızlığı Fətullanı yüz illərin yadigarı olan balabanı – ata-baba əmanətini pula dəyişməyə məcbur edir. Həm də Fətulla bu yadigara elə-belə, ötəri baxan adam olsaydı, həyəcan təbilinə ehtiyac qalmazdı. Balabanı pula dəyişməyi milli-mənəvi dəyərlərin qədrini bilən Fətullanı zaman məcbur edir. Fətulla bütün dəyərlərə, hətta müqəddəs milli dəyərlərə biznes gözü ilə baxan yeni zamanın qurbanıdır. Əyilməz Fətullanı zamanın dəyişən sərt qanunları sındırır. Bax, faciə budur; müəllif bu faciələrin səbəbi barədə düşünməyə çağırır. Bu çağırış çox vaxtındadır. Nə qədər ki, gec deyil – həyəcan məhz bu gün qaldırılmalıdır.

Lap cavan çağlarından öz yaradıcılığında vətəndaşlıq və Azərbaycançılıq mövqelərindən çıxış edən, dünya bədii təcrübəsinə xüsusi bələdçiliyi ilə seçilən, bəşəri dəyərlərə hörmətlə yanaşan, amma



bu dəyərlər sırasında öz millətinə məxsus üstün cəhətlərə söykənən Elçinin 60 yaşı tamam olur. Doğrusu, mən bu informasiyanı alanda qəribə hisslər keçirdim. Çünki Elçin təfəkkürünün müdrik məntiqi mənim üçün 60 yaşı çoxdan ötüb. Və doğrusu, mən bu təfəkkür sahibini heç vaxt cavan kimi təsəvvür edə bilməmişəm: əsl sənətkar elə əzəldən müdriklik yaşında olur. Elçin əsl sənətkardır. Elçin ustad yazıçıdır. Yazıçı isə, Azərbaycan gerçəkliyində yazıçıdan artıq məsuliyyət yükü daşıyan ictimai xadimdir.

*«525-ci qəzet», 9 may 2003.*

Afaq MƏSUD

# HƏQİQƏTLƏR UÇURUMUNUN ƏBƏDİ YOLÇUSU

**• Elçinin – daim gümrahlıq və yenilik saçan bu doğma insanın artıq 60 yaş həddinə – müdrik ağsaqqallıq dövrünə qədəm qoyması bizi, amansız sürətlə böyür-başımızdan ötə-ötə saçlarımıza, qəlblərimizə dən salan qüdrətli Zaman barədə bir də, daha dərindən düşünməyə vadar edir...**

İnsanların maddiləşdiyi, həyati proseslərin bizləri aramla Mənəvi Ölümə sürüklədiyi bu qorxunc dövrdə, həyat eşqini, söykəndiyi gümrah, işıqlı dayaqları itirmədən mənəviyyata, fikrə, hissə, bir sözlə, Böyük Ədəbiyyata işləyən bu sayaq işıqlı insanların bizlərlə olduğuna, hardasa yaxınlıqda yaşayıb yaratdığına sevinməyə bilmirsən.

Qıvraq yerişiylə, çevik, gözlənilməz fikirləri ilə daim ətrafdakılarda qəribə, anlaşılmaz səfərbərlik hissi, xoş həyat enerjisi yaradan bu ziyalının keçdiyi zamanca çox qısa, ədəbi bioqrafiya baxımındansa uzun-uzadı, sanballı ömür yoluna nəzər salsaq, onun, artıq çoxdannan bəri, hələ lap gənc yaşlarından görkəmli ədib titulunu qazandığını etiraf edərik.

İri həcmli romanlar, xalqın yaddaşına hopmuş təsirli hekayələr, tənqidşünaslıq və ədəbi nəzəriyyəmiz üçün örnək olan qiymətli elmi əsərlər, iri həcmli monoqrafiyalar, kinossenarilər, dram əsərləri Elçinin keçib gəldiyi böyük, keşməkeşli ədəbi yolun silinməz səhifələridir.

Ömrünü ədəbiyyata, elmə, maarifə həsr edən, Azərbaycan ədəbi fikrinə xüsusi bir səmimiyyət, sözün əsl mənasında demokratik ab-hava gətirən bu yazıçının ədəbiyyata, sənətə sonsuz sevgisini, təmənnasız sədaqətini nə ölkəmizdə son illər baş verən sürüşkən hadisələr, nə bütün ölkəni və ictimai fikri dönə-dönə dağılıb yenidən quran müxtəlif səpkili, ziddiyyətli ab-hava növbələnməsi, nə də quru məmurluq həyatı dəyişə bilmədi... Elçinin üzü də, gözünün ağıllı ifadəsi də bütün bu ləngərli hadisələr burulğanında dəyişilməz qaldı... Gənclik illərindən gözlərinin dərinliyindən oxunan ağrı, dərin Həqiqətlər Uçurumunun sehrli xofu silinmədi...

Bütün bu eniş-yoxuşlarda, insanı, mənəviyyatı məhv edib alçaldan zaman oynamalarında Elçin təmkinini, öz ali yazıçı mövqeyini qoruyub saxlaya bildi...



Hadisələr məngənəsindən keçib düşdüyü və artıq neçə illərdən bəri işlədiyi Nazirlər Kabineti də onun bu sabit mövqeyini dəyişə bilmədi. Dəhlizlər şahlığını andıran Nazirlər Kabinetində də, həmin bu havasızlıqda da Elçin Ədəbiyyatla bağlandığı müqəddəs kələfin ucunu itirmədi, gündə-gündə gördüyü insanların obrazlarını, düşdüyü komik vəziyyətləri yazdı, yaratdı...

Dövlət işində, ədəbiyyatda qazandığı uğurlar, baş gicəlləndirən vəzifə havası, rahat məmurluq həyatı Elçinin yazıçı narahatlığını, yalnız həqiqi ədəbiyyatçıya xas olan nisgilli ovqatını da yuyub apara bilmədi.

Əksinə, üzünün, Ədəbiyyat institutunda, sonradan Yazıçılar Birliyində işlədiyi dövrlərdəki həyatsevər ifadəsi darısqal məmurluq mühitində elə bil bir xeyli soldu.

Bəlkə də bu ifadəni tamam ayrı, bizə məlum olmayan digər səbəblər soldurdu?!..

... Uzun bir dövr Azərbaycanın ictimai, ədəbi mühitində özünəməxsus, ılıq mühit yaradan, qocaman Ədəbiyyatın özünə bənzəyən İlyas Əfəndiyevin yoxluğu, erkən ağsaqqallıq missiyası, bayaq dediyim, nəhəng dibsiz Həqiqətlər Uçurumunun dərinliklərində açılan yeni-yeni qara dəliklər...

... Bəzən Nazirlər Kabinetinin nəhəng binası önündən ötərkən, bu binanın səliqəli müşavirə zallarında, bir yığın yad adamın içinə əsir düşmüş kimi oturub darıxdırıcı iclaslar aparan, ədəbiyyata, kövrək yazıçı dünyasına dəxli olmayan maraqsız dövlət işləri ilə məşğul olmaq məcburiyyətində qalan Elçinin üzünü xatırlayıram...

Çətin, həlledici məqamlarda şücaətli və qüvvəli olan bu insanın burda – bütün bu mənasızlığın içində, üzünün balaca, köməksiz uşaq zəifliyinə heyrətlənməyə, həmin bu böyük zəifliyə görə onu sevməyə bilmirəm...

... Heç bir şeyə uymadan, xırdalanmadan, yönünü, yolunu dəyişmədən, dayanmadan işləmək, yazmaq, daim nəyisə dəyişməyə, insanlara, düşüncələrə təsir etməyə tələsmək, bu yolda yorulmadan, usanmadan, narahatlıqla çalışmaq – Elçinin qüvvətli, şücaətli olduğu ali məqamlar bunlardı.

Elçinə daim məhz bu məqamlarda yaşamağı, bu heysiyyətli məqamların bitib tükənmədiyi əbədi ədəbi ömür yolu arzulayıram...

*«525-ci qəzet», 9 may 2003.*

## AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN RƏHBƏRLİYİNƏ

Türk dünyasının böyük yazarı professor-doktor Elçinin anadan olmasının 60 illik yubileyini ürəkdən təbrik edir, bu böyük mədəniyyət, sənət və siyasət adamına neçə-neçə belə illər arzulayır, Azərbaycan Yazıçılar Birliyi vasitəsilə ona ən böyük sevgi və sayğımızı çatdırırıq.

Vurğulamaq istəyirik ki, Elçin, yüzilin yetirdiyi, həm də sadəcə Azərbaycan xalqının deyil, böyük insanların duyğularını dilə gətirmiş önəmli bir şəxsiyyətdir. Türkiyədə çap olunan «Mahmud və Məryəm», «Ağ dəvə», «Ölüm hökmü», «Şuşa dağlarını duman bürüdü», «Sarı gəlin» kitabları ilə yanaşı, Ankara, Ərzurum, Konya Dövlət Teatrlarında səhnəyə qoyulan «Mənim sevimli dəlim», «Mən sənin dayınam» və «Mənim ərim dəlidir» adlı pyeslər də xalqımızın böyük məftunluqla oxuduğu və tamaşa etdiyi əsərlərdəndir.

Hörmətli Elçinin əsərlərinin KİVATEK-in tərkibindəki bütün ölkələrdə çap olunması, böyük yaradıcılığından xüsusi gənc istedadların yararlanması üçün qurumumuz öz səylərini davam etdirməkdədir. Biz yaxşı bilirik ki, Elçinin yaradıcılığı çağımızın dərin dərdlərini dərk etmək baxımından çox önəmli əhəmiyyətə malikdir.

KİVATEK-in orqanı olan «Durnalar» dərgisinin hazırlanmaqda olan 11-ci nömrəsinin Türk dünyasının bu böyük sənətkarının 60 illik yubileyinə ərmağan olaraq çıxacağını da bildirmək istəyirəm.

Türk xalqları ədəbiyyatının ulduzu, ortaq qürur qaynağımız professor – doktor Elçini anadan olmasının 60-cı ildönümündə ürəkdən təbrik edir və bu sevinc duyğularımızı ona çatdırdığına görə qardaş Azərbaycan Yazıçılar Birliyinə təşəkkür edirik.

**Metin TURAN,**
**Kipr - Balkanlar - Avrasiya**
**Türk Ədəbiyyatları Kurumu**
**(KİVATEK) Türkiyə Başqanı**

*«525-ci qəzet», 9 may 2003.*





Elçin bizim çox istedadlı yazıçımızdır, gənc vaxtlarından çox dəyərli əsərlər yazıbdır. Amma son illər o, eyni zamanda, teatr üçün də əsərlər yazıbdır. Deyəsən, keçmişdə bu olmamışdı. Çünki bu məsələ ilə əsasən onun atası məşğul olurdu. Atası rəhmətlik İlyas Əfəndiyev bu işlərlə çox uğurla məşğul olurdu və çox da gözəl əsərlər yaratmışdı. Elçin isə daha çox nəsr əsərləri yazırdı və dəyərli əsərlər yaratmışdır. Ona görə də gənc vaxtlarından 60-70-ci illərdə gənc yazıçılar, gənc şairlər sırasında idi. Hətta xatirimdədir ki, Yazıçılar İttifaqının ən gənc katibi Elçin oldu, o seçildi. Amma son zamanlar görürəm ki, o, eyni zamanda pyeslər də yazır və onlar bizim Milli Dram Teatrının səhnəsində tamaşaya qoyulur, uğurla göstərilir. Beləliklə də bizim teatr həyatı yaşayır.

**Heydər ƏLİYEV**

Elçində bədii dərk duyğusu güclü və cəlbedicidir. Müxtəlif əhval-ruhiyyəli, müxtəlif fərdi həyat yolları keçən adamların mənəvi aləminə eyni səviyyədə dərindən nüfuz etmək qabiliyyəti onun yazıçılıq istedadının ən qüvvətli cəhətidir. Onun müxtəlif sənət sahibləri olan surətləri... nəinki mənəvi - əxlaqi keyfiyyətləri – arzuları, əməlləri, həm də peşə və yaşlarına görə də qocası qoca, cavanı cavan, uşağı uşaq kimi inandırıcıdır, realdır. Elçin varlığı, hadisə və insan səciyyəsini canlandırmaqda bir-birini tamamlayan bədii nüfuz üsullarından istifadə edir. Göz önündə aşkar olan reallığın təsviri ilə yanaşı, obyekt üçün pərdəli, ancaq subyektin özü üçün aşkar olan daxili aləmi də – əgər bu aləm gözəl isə gözəlliyini, ziddiyyətli isə ziddiyyətlərini də – daxili nitq, surətin öz- özünü mühakiməsi, xəyal, xatirə, yuxu və s. vasitələrlə əyaniləşdirməkdə ustalıq göstərir...

Elçin ömrün uşaqlıq və yeniyetməlik dövrünü fərdi xarakter və temperamentin bünövrəsini təşkil edən bir dövr kimi göstərməyi, xüsusi nəzərə çatdırmağı sevir. Əgər qəhrəman ahıl, qocadırsa yığcam poetik ricətlər, detallarla onun ötən günlərinə – gəncliyinə, gəncdirsə yeniyetmə dövrünə, yeniyetmədirsə uşaqlıq dövrünə qayıdır.

şəxsiyyətin, xarakterin formalaşmasına ömrü boyu xüsusi təsir göstərən mühiti gözdən keçirir.

Məhz bu poetik ricətlərin, xəyal və xatirələrin, yığcam detalların nəticəsidir ki, Elçinin obrazları canlı, ətli-qanlı çıxır və hər tipin, fərdin həyatı bütövlükdə oxucunun nəzərində canlana bilir.

**Məmməd CƏFƏR**

Elçinin hekayə və povestlərini oxuyanda qələmindəki özünəməxsusluğun bədii cizgiləri dərhal nəzərə çarpır... Elçinin laboratoriyasında yerində istifadə oluna bilən bir çox vasitələr vardır. Hazırla keçmişi, ayıqlıqla yuxunu, həqiqətlə xəyalı, real hadisələrlə nağılı, əfsanəni yanaşı təsvir etmək, daxili dialoqlardan, öz-özü ilə söhbətdən, dramaturji səhnələrdən, mozaik parçalardan, mübaliğə, şişirtmə üsulundan istifadə etmək təsvirlərinin emosional qüvvəsini artırır, fikrimizi də bir qədər hərəkətə gətirir... Nüfuzedici bir nəzərlə uzaqlara və dərinliklərə dalmaq, gözə görünən və görünməyən ara pərdələri qaldırıb əsl mahiyyətə, nüvəyə çatmaq meyli bu yazıçıya xas bir keyfiyyətdir. Adi məişət əhvalatlarını Elçin adilikdən çıxarıb xüsusiləşdirməyi, hətta qəribələşdirməyi bacarır. Buna yazıçı öz xüsusi görmə, duyma, təhlil və qiymətləndirmə məharəti ilə nail olur.

**Məmməd ARİF**

Elçin müasir həyatdan, uşaq vaxtlarından bələd olduğu adamlardan və mənbələrdən yazır. Təsadüfi deyildir ki, Abşeron bağları və kəndləri, Xəzər dənizi onun əsərlərində poetikləşdirilir, zahirən o qədər də parlaq və cazibədar olmayan, hətta ilk nəzərdə cansıxıcı görünən dar və əyri-üyrü küçələr, dalanlar, ağ neft pilitəsilə qızdırılan balaca otaqlar, boz, nahamar daş divarlar belə şairanə rənglər kəsb edir, gözümüzdə yeni, xoş görkəmlə canlanır. Bizi əhatə edən xarici aləm, yaşadığımız evlər, gəzdiyimiz dəniz sahilləri, Bakı bağlarının sarı qumu, dadlı üzüm gətirən meynələri, çadır kimi kölgə salan ağacları, çılpaq qayaları Elçinin hekayə və povestlərində daim insan hisslərinin hərarətini, insan ürəyinin romantik çırpıntılarını əks edir; çünki yazıçı



onları təsvir xatirinə deyil, qəhrəmanlarının həyəcan və iztirablarının, dərin hisslərinin tərcümanı kimi əsərə daxil edir. Bu təsvirlərin yığcamlığı və təbiiliyi bizi o qədər cəlb edir ki, gözlənilmədən özümüzü başqa aləmdə hiss edirik.

**Mirzə İBRAHİMOV**

Mənim bir neçə yaxın dostum var, hamısı mənə əzizdir, onları heç vəchlə bir-birinə qarşı qoymaq istəməzdim. Amma atamın vəfatı günündə də, anamın keçindiyi gecədə də yadıma ilk düşən Elçin oldu.

**ANAR**

Elçin ədəbiyyatşünaslığımızı bu gün də məşğul edən, ayrı-ayrı hallarda sənətşünaslıq və estetika elmləri ilə sərhədlənən problemləri iki aspektdə – həm bədii nəsrin təcrübəsində, həm də onun tədqiqində diqqət və ehtiramla araşdırır, müqayisələr aparır, bədii əsərləri və tənqidi fikirləri, müxtəlif müəlliflərin rəylərini tutuşdurur, nəticə çıxarır, yüksək səviyyəli elmi xülasələr əldə edir... Elçin saxtanı həqiqətdən, elmi-nəzəri mülahizəni doqmatizmdən, ehkamçı və subyektiv fikirlərdən seçməyi bacarır. Belə hallarda o, cəsarətlə tənqid edir, amma ehtiram və təvazökarlıq cızığından da kənara çıxmır.

**Mehdi MƏMMƏDOV**

Elçin müasir Azərbaycan nəsrinin görkəmli nümayəndələrindən biridir. Bədii yaradıcılıq sahəsində onun nailiyyətləri göz qabağındadır... Elçin tənqidi fəaliyyətə də yazıçı kimi başlamışdır. Lakin tənqidi əsərləri öz canlılığı, kəsəri, aktuallığı ilə həmişə ümumi maraq oyatmışdır... O, müasirliyi aktuallıqla eyniləşdirməyi, hər iki estetik kateqoriyadan sənətkarlıq hesabına sui-istifadə etməyi müasir ədəbiyyatın ən yaralı yeri sayır və bədii ədəbiyyatın sənətkarlıq məsələlərini, tənqidi həmişə onlarla vəhdətdə aparır. Bu məqsədlə

Elçin müasirliyin əsas ideya-estetik mündərəcəsini açır, inandırır ki, həqiqətən müasirliyi, zamanın böyük məsələlərinin daxili ictimai, fəlsəfi, əxlaqi keyfiyyətlərini açmadan onların həqiqi, real, dərin təsvirinə nail olmaq mümkün deyil; əgər müasirlik bugünkü fəlsəfi-əxlaqi yüksəklik səviyyəsində dayanmağı tələb edirsə, sənətkar müasirliyi həmin fəlsəfi-əxlaqi yüksəkliyə daha ucadan baxmağı bacarmaq istedadı deməkdir.

**Kamal TALIBZADƏ**

Elçin istedadlı yazıçılarımızdan biridir. Onun hekayə və povestləri, müasir ədəbiyyatımızın mühüm problemlərinə həsr olunmuş tədqiqat məqalələri sovet ədəbi tənqidinin, geniş oxucu kütlələrinin diqqətini cəlb etmişdir...

Elçin müasir Türkiyə ədəbiyyatından və ədəbi prosesdən bəhs edərkən belə bir fikri əsas götürür ki, ədəbiyyat dövrün mühüm siyasi-ictimai problemlərindən kənarda qalmamalı, həmişə öz xalqının ictimai marağı keşiyində dayanmalıdır, bilavasitə həyatdan bəhrələnməlidir. O, qabaqcıl dünya ədəbiyyatından faydalanmaqla birlikdə milli ədəbi ənənələrinə arxalanmalıdır... Elçin «Yaxın, uzaq Türkiyə» əsərində özünü işgüzar bir təşviqatçı kimi göstərir. Türkiyədəki kitabxanalardan, arxivlərdən əldə etdiyi məlumat, dövri mətbuatı hərtərəfli nəzarətdən keçirməsi nəticə etibarilə onun oçerklərinin elmi və faktik sanbalını daha da artırır.

**Həmid ARASLI**

Elçin daha çox dirijoru xatırladır, o, hisslərdən öz məqsədinə uyğun şəkildə istifadə edir, onları öz istəyinə uyğun axara yönəldir. Elçində «Niyə?», «Nə səbəbə» sualları xüsusi dəyər kəsb edir, o, insanların ən «şəxsi» sirlərini belə xırdalamağı xoşlayır. Buna görə də Elçinin əsərlərində ən xırda, gözəgörünməz



obraz belə az və ya çox dərəcədə, öz dünya tutumunda filosofdur. Hər kəs nəyi isə anlamağa, açmağa çalışır və buradan da Elçin yaradıcılığının geniş səpkili, analitik təmayüllü dil dünyası yaranır...

**Aydın MƏMMƏDOV**

Müasir Azərbaycan nəsrində Elçinin yeni prizma altında yeni rakursdan baxıb təzədən və tamamilə orijinal şəkildə kəşf etdiyi mühit – Abşeron kəndləridir... Elçin yaradıcılığının əsas xüsusiyyətlərindən biri obrazların reallığı, dinamikliyidir. Hər obrazın konkret həyat mövqeyindən, sosial mənsubiyyətindən, mənəvi və psixoloji axarından asılı olaraq rəngarəng poetik vasitələr seçilir, detal və təfərrüatlar mühitə, obrazın siqlətinə uyğunlaşdırılır, daha doğrusu, hər poetik ştrix situasiyanın özündən törəyir.

**Yusif SƏMƏDOĞLU**

Elçin möcüzələri sevir, o zərif və mehriban nağılçıdır, o kədərli bir sehrkardır, bərq vuran, qızılı, gümüşü rənglərə üstünlük verən impressionistdir...

**Lev ANNİNSKİ**

Elçin rəmzdən, bədii-fəlsəfi şərtilikdən, kəskin məcazdan cəsarətlə istifadə edir, psixoloji əhvali-ruhiyyəni detalda əyaniləşdirən mizanlar və cizgilər axtarır, onları görümlü, baxımlı obrazlara çevirən epitetlər tapır. Məhz bu epitetlərin təşkil etdiyi bir mozaikada bəzən nağıl və hekayə, əfsanə və həqiqət bir-biri ilə barışa və qaynayıb-qarışa bilir... Elçin məhz mənəvi zənginlik və ucalıq mövqeyindən psixoloji yekrənglik və birtərəfliliyi tənqid edir, adi adamların həyatında müşahidə etdiyi qeyri-adiliyin gözəlliyi, şeriyyəti haqqında hekayələr söyləyir, «gözəllik uzaqda deyil, həyatımızda, məişətimizdədir»

prinsipi ilə hərəkət edərək adi adamların daxilən gizlədib xəlvətdə saxladığı mənəvi keyfiyyətləri hamımız üçün estetik sərvətə çevirir.

**Yaşar QARAYEV**

Yazıçı (şair) dövrün bədii-estetik meylini görür və həmin səviyyəyə qalxa bilirsə, əbədi prosesi qavrayır və onun axarına düşürsə, eyni zamanda, bu meyl və prosesin istiqamətləndirici işığını öz fərdi yaradıcılıq linzasında sındırmağı və toplamağı bacarırsa, o, sənətkardır. Bu ümumi və fərdini bağlamaq qabiliyyətidir ki, həqiqətən yalnız sənətkarlıqla qazanılır. Elçin bu adı qazanmaq xoşbəxtliyinə çatıb.

**Tofiq HACIYEV**

Elçin 60-cı illərdə ədəbiyyatımıza gəlmiş və tez bir zamanda əsərlərinin poetik gücü ilə oxucu kütləsinin hörmətini qazanmış yazıçılarımızdan, Azərbaycan nəsrinin «əbədi təəssüb» hissində daha çox xalqımızın milli tarixi təəssübünü qoruyub saxlayan nümayəndələrindəndir. Onun əsərləri mövzusundan, ideya və məzmunundan asılı olmayaraq daim ədəbi həqiqəti xalqın həqiqətindən ayırmamışdır. «Ölüm hökmü» romanının təhlili bizim cəmiyyətimizin təhlilidir. Və bizim xalqımızın tarixi taleyi və gələcək taleyi haqqında söz demək, düşünmək, dünya və ölkə kontekstində Azərbaycan fenomeninin varlığını, mahiyyətini dərindən-dərinə, bütün qatları, baxış bucaqları ilə araşdırmaq, idrak etmək, sabaha gedən yolumuzu düzgün müəyyənləşdirmək üçün imkan verən və bilavasitə bu səbr və düşüncəyə, araşdırma və təhlilə çağıran ibrətli sənət əsəridir.

**Kamil VƏLİYEV**

Elçinin ədəbi-tənqid məqalələri ədəbi-bədii fakta analitik münasibət nümunəsidir, mən bunu bütün məsuliyyəti ilə deyirəm, bu məqalələrdə təhlilin sosial planı da var, zaman həssaslığı da; milli



əyanilik də var, fərdi üslub faktına ehtiram da; nəhayət, müəllifin öz təbiri ilə desək, iddia da var, imkan da. Şübhəsiz bunların hamısından çox bir şey var, onu böyük hərflərlə yazıram: VƏTƏNDAŞLIQ!..

**Nizami CƏFƏROV**

Elçin bizim ədəbiyyatımızda öz səsi, istedadı ilə özünəməxsus yer tutur. Oxucularla qarşılıqlı ünsiyyətə görə başqalarına bənzəmir. Yazıçı onda xoşbəxt hesab olunur ki, oxucular ona qarşı diqqətli olur və onunla ünsiyyətdə olmağa çalışırlar. Buna görə də yazıçı bütün həyatı boyu sanki oxuculara «borc» içərisində yaşayır.

**Mark PEYZƏL**

Həmişə Elçinin duzlu, Abşeron günəşilə dolu hekayələrini oxuyanda uşaqlıq illərim yadıma düşür. Bakı şanısı kimi şirin, sahil qumutək isti, Xəzərin suyu kimi ılıq... Xatirələr məni qoynuna alıb sənətdə ilk addımlar atdığımız zamanlara aparır.

Elçin, yaradıcılığı kimi, özü də parlaq, səmimi bir insandır. Çoxlu dostları, tanışları var. Ev-eşiyi həmişə qonaq-qaralı olub. Ona görə «olub» deyirəm ki, ictimai, dövlət vəzifələri onu yaxınlarından, dostlarından, hətta yaradıcılığından belə qismən uzaq salıb.

Məni, bir ziyalı kimi, eləcə də Elçinin dostu kimi sevindirən ən ümdə cəhət onun böyük dövlət vəzifəsində olduğu zaman belə dostları üçün əvvəlki kimi mehriban qalması, eyni zamanda yaradıcılıqla məşğul olmasıdır.

Bu yaxnlarda S.Vurğun adına Rus Dram Teatrı Elçinin «Zdravstvuyte, ya vaşa dyadya!» («Salam, mən sizin əminizəm») pyesini tamaşaya hazırlayıb. Əsərin ilk tamaşası böyük müvəffəqiyyətlə keçib. Pyesin ilk tamaşasına gedəndə onun respublikamızın mədəni həyatında maraqlı bir hadisəyə çevriləcəyinə tamaşaçılar, teatrsevənlər tərəfindən rəğbət qazanacağına zərrə qədər belə şübhə etmirdim.

Çünki, bu əsər Elçinin qələmindən çıxıb. Gözəl ədəbi ənənələri olan ziyalı bir ailənin nümayəndəsi, yazıçı, dövlət xadimi, gözəl və səmimi insanın – Elçinin.

**Fərhad BƏDƏLBƏYLİ**

Əgər Elçinin nəsrimizdə yerini nəzərə alsaq, bu qədər müxtəlif janrlarda paralel şəkildə və uğurla işləməyin müasir ədəbi inkişaf qanunauyğunluqları ilə bağlı olduğunu etiraf etməliyik.

**Sabir RÜSTƏMXANLI**

Bu bir xoşbəxtlikdir ki, eyni ailə Azərbaycan ədəbiyyatına, mədəniyyətinə iki parlaq istedad bəxş etmişdir: İlyas Əfəndiyev və Elçin. Mənim əziz dostum İlyas Əfəndiyev və Elçin. Mənim əziz dostum İlyas Əfəndiyev böyük dramaturq və nasirdir, onun müasir Azərbaycan ədəbiyyatının və teatr sənətinin inkişafında müstəsna xidmətləri var, o, ən çox oxunan, sevilən Azərbaycan yazıçılarından biridir. Elçin isə başqa bir orijinal istedaddır və təsadüfi deyil ki, Elçinin romanları, povestləri, hekayələri böyük tirajlarla rus dilində, digər xarici dillərdə çap olunmuş, Azərbaycan ədəbiyyatına şöhrət gətirmişdir. O, həm də çox sanballı bir alim-ədəbiyyatşünas və tənqidçidir. İlyasın Azərbaycan mədəniyyətində öz xüsusi yeri, Elçinin isə öz xüsusi yeri vardır. Bir cəhəti də qeyd etmək istəyirəm: İlyas Əfəndiyev canı ilə, qanı ilə ədəbiyyata, sənətə bağlılığı ilə bərabər, həm də görkəmli ictimai xadimdir. Elçin tutduğu rəhbər ictimai vəzifələrdə, yüksək dövlət vəzifələrində həmişə böyük səriştə və enerji ilə, xeyirxahlıq, eyni zamanda prinsipiallıqla geniş mənada Azərbaycan mədəniyyətinə xidmət etmişdir. bu isə o deməkdir ki, doğma xalqımıza xidmət etmişdir. Bu ata və oğul doğma Azərbaycan xalqımıza xidmət etmişlər. Bu ata və oğul Azərbaycan mədəniyyət tarixində unikal hadisələrdən biridir.

**Tofiq QULİYEV**

Elçin möcüzə sevir. İncəsənətin bir dili var: hisslərin və həyəcanların dili. Lakin Elçin üçün möcüzə yalnız fantastika deyil. Bu – narahat, axtarışda olan canlı insan qəlbidir, həyatı dərindən dərk edən saf və xeyirxah insani münasibətlərdir. Yazıçı çox böyük həssaslıqla və incəliklə öz qəhrəmanlarının ən adi bir hərəkətini, əhval-ruhiyyəsini, hiss və fikirlərini duyub təsvir edən rəssam kimidir.

**Yevgeni ŞKLOVSKİ**



Azərbaycan nəsrində müşahidə olunan maraqlı keyfiyyət dəyişikliyi prosesində özünü təsdiq etmiş Elçin xüsusi yer tutur. Elçinin povest və hekayələri bu cəhətdən səciyyəvi olub, nəsrimizdəki məzmun və sənətkarlıq axtarışlarının bəzi cəhətləri haqqında aydın təsəvvür oyatmağa kömək edir.

Elçin adamların xarakterindəki keçici, ötəri yox, mühüm, təyinedici cəhətləri görür, işıqlandırır və bu işıq altında da onun yaddaqalan obrazını yaradır... Biz inanırıq ki, onun əsərləri gələcəkdə daha böyük yaradıcılıq uğurları qazanacağından xəbər verir.

**Bəkir NƏBİYEV**

Folklor elementləri mifoloji təfəkkür ünsürlərinin üstünlük təşkil etdiyi bir sıra nəsr əsərlərinin meydana çıxması nasirlərimizin varlığın obrazlı təsviri yolunda yeni-yeni addımlar atdığını göstərir. Elçinin folklor motivləri əsasında yazılan, lakin tamamilə orijinal və özünəməxsus keyfiyyətləri ilə seçilən «Mahmud və Məryəm» romanı şərti çalarların üstünlük təşkil etdiyinə baxmayaraq, hadisənin reallığı və qaldırılan problemlərin aktuallığı baxımından diqqətəlayiqdir. Onun müasir mövzuda qələmə aldığı bir sıra povest və hekayələri təkcə Azərbaycanda deyil, bütün dünyada geniş oxucu kütləsinin böyük rəğbətini qazanmışdır. Yazıçının əsərləri bir çox xarici dillərə tərcümə olunmuş və olunmaqdadır. Elçin özünəməxsus, orijinal bir tərzdə müasirlərimizin mənəviyyat tarixçəsini araşdırmış, əsasən gənclərin həyatından, onların bir şəxsiyyət kimi formalaşmalarından bəhs edən bir sıra maraqlı, düşündürücü povestlər yazmışdır. Ümumiyyətlə, yazıçının yaratdığı surətlər bir sıra hallarda bir qədər qəribə görünsələr də, onların hamısında həyatın güclü nəfəsi duyulur. Elçin təsvir etdiyi insan xarakterlərinə hazır münasibət və təsəvvürlə yanaşmır, obraz haqqında birbaşa hökm vermir, ilk baxışdan «mənfi» adlandırıla biləcək bir surətin də daxili aləmin tapmağa çalışır və çox zaman da buna nail olur. Onu başqa ziddiyyətləri ilə göstərməyə meyl edir. Elçinin müasir qəhrəmanları ən adi adamlar olsalar da, müəllif bu «adilərin» təbiətindəki qeyri-adiliyi, gözəlliyi və romantikanı görə və göstərə bilir.

**Vilayət QULİYEV**

Elçin xeyirxah qəhrəmanını gözəllik və ülvilik arzusu ilə və bunların həyata keçirilməsi ümidi ilə yaşadır.

Elçin «Qeyri-fantastik hekayələr» silsiləsində göstərir ki, möcüzə təkcə nağıllarda yox, həm də real həyatda baş verə bilər; əsl səadət və gözəllik insanın mayasındadır – onun vicdanında, özünə və mənəvi borclarına sədaqətli olmaq bacarığındadır.

Elçin sağlam varlığa çıxış yolunu əxlaqi-etik planda da axtarır, bunu insanın özü üzərində fantastik, möcüzəli qələbəsində görür.

**Zoya KEDRİNA**

Elçinin əsərlərində insana böyük məhəbbətlə yanaşı, böyük inam da ifadə olunur. Təsadüfi deyil ki, oxucu onun qəhrəmanlarının çoxunun varlığında, içində bir insaniyyət işığı ilə rastlaşır. Elçin bir yazıçı kimi insanda bu işığın varlığına nəinki inanır, buna oxucusunu da inandıra bilir...

Tarixi fakt və hadisələrə, tarixi adlara tam bir bələdliklə yanaşan yazıçı hətta ayrı-ayrı adların, misal üçün, deyək ki, Hippokratın adının əsərdə əks olunan dövrdə Azərbaycanda necə işlədildiyini axtarıb tapmış və buna dair izah da vermişdir.

**Tofiq HÜSEYNOV**

İqtidarın yüksək eşalonunda fəaliyyət göstərən, gözəl hekayələri, romanları, pyesləri ilə mənəviyyat tariximizi zənginləşdirən Elçinin siyasi mənsubiyyəti nə oxucunu, nə də tamaşaçını maraqlandırır. Çünki, hamıya aydındır ki, o, bədii-siyasi təfəkkürü ilə millətə xidmət edir.

**İmamverdi ƏBİLOV**

Elçinin ədəbi hadisələrə obyektiv yanaşması, yeri düşdükcə kəskin polemikalara girməsi, işin ağırlığından qorxmaması, mühüm elmi-bədii problemlərə nəzəri əsaslarla yanaşması əsərinin («Tənqid və nəsr») sanbalını xeyli artırmış, bu əsəri layaqətli bir tədqiqata çevirmişdir.



Elçin hələ universitetdə təhsil alarkən, mənim tələbəm olmuş, geniş dünyagörüşü, istedadı, fəallığı ilə diqqətimi cəlb etmişdir. Sonralar aspiranturada oxuyarkən, onun bu keyfiyyətləri daha da inkişaf etmiş və o, yaxşı bir müasir ədəbiyyatşünas-mütəxəssis kimi yetişmişdir.

**Mir CƏLAL**

Elçinin məşhur «Ölüm hökmü» romanı Azərbaycanın düşmənlərinə ölüm hökmü oxuyursa, o böyük epik əsər həm də keyfiyyətcə parlayırsa, siz nə cəsarətlə (müasir ədəbiyyata) ölü deyirsiniz?!

**İsa HÜSEYNOV**

Yeni Azərbaycan nəsrinə tələbat bizim üçün çox böyükdür. Maqsud və Rüstəm İbrahimbəyovların, Anarın, Elçinin pyesləri «Teatr» jurnalında dərc olunurdu, mən orada təxminən 20 il işləmişəm. Münasibətlərimiz səmimi idi və heç kim bizə ideoloji cəhətdən öz hökmünü qəbul etdirmirdi.

**Mixail ŞVIDKOY**

Xalq yazıçısı Elçinin «Ölüm hökmü» romanı çap olunan vaxtdan oxucuların böyük rəğbətini qazanmışdı. Təsvir olunan hadisələrin geniş əhatə dairəsi, real coğrafi məkanı, dinamik inkişafı, surətlərin milli xarakter zəminində təsvir olunan psixologiyası, çox mühüm problemlərin həlli yollarının araşdırılması, orijinal təhkiyə üslubu, lakonik, koloritli ədəbi dil baxımından bu əsər son illər ədəbiyyatımızın ən dəyərli nümunələrindən biri kimi qiymətləndirilir.

**Cahangir MƏMMƏDOV**

Elçinin güclü əsərləri var, məsələn, «Toyuğun diri qalması» çox gözəldir, burda bədii informasiyanın təzəliyi var, sırf Elçinin özünə aid olan ədəbiyyat var.

**Əkrəm ƏYLİSLİ**

Mən gözəl yazarımız Elçinin bu hadisəni (rəhmətlik Vidadi Məmmədovun avtomobil qəzasına düşməsini) eşidən kimi xəstəxanaya getməsini və xəstəxana günlərində ona necə kömək etdiyini xatırlamasam vəfasızlıq olar.

**Tofiq ABDİN**

Bu yaxınlarda mən «Literaturnıy Azerbaydjan» jurnalının köhnə nömrələrini yerbəyer edirdim və B.Portnovun tərcüməsində Elçinin «Mahmud və Məryəm» romanını yenidən oxudum. Çox böyük zövq aldım, birinci dəfə olduğu kimi, yenə də birnəfəsə oxudum. Bu – Azərbaycan Romeo və Cülyettasıdır.

**Yevgeniya NEVMERJİTSKAYA**

Elçinin əsərlərini qismən və təkrar oxuya-oxuya anladım ki, məhz 60-90-cı illər Azərbaycan ədəbi dilinin formalaşması və yeniləşməsi baxımından ən uğurlu zaman kəsiyi imiş, indi yaranan yeni nümunələr də həmin bitkin dil üzərində formalaşır – başqa cür ola bilməzdi.

Məhz Elçinin əsərlərini oxuya-oxuya mən o dövrü bərpa edir, görməyə başlayırdım. Məhz bu əsərlərdə mən təkcə dövrü deyil, ədiblərin kompromisə getdiyi məqamları da aydınlaşdırırdım, onların yaratdığı qəhrəmanların çox vaxt inama, sirrə, Allaha «gəlib çatmadıqlarının», çatıblarsa da bunu çatdırmadıqlarının şahidi olurdum.



Yazıçı Elçinin yaradıcılığının erkən dövründəki «Qatar. Pikasso. Latur. 1968», «Beş qəpiklik motosikl», «Qırmızı ayı balası» hekayələri, nə vaxtsa «XX əsr dünya hekayələri antologiyası» tərtib olunarsa, bizə orda yer ayrılarsa, «Paraselsin gülü» (X.L.Borxes), «Sərnişin» (V.Nabokov), «Sonsuz baxçalar» (X.Kortasar), «Yazıçının sirri» (D.Butsatti) kimi hekayələrlə bir sırada dayanaraq həmin antologiyaya daxil olacaq.

**Səlim BABULLAOĞLU**

1998-ci ildə göstərilən «Mənim sevimli dəlim» tamaşasında Elçinin «sevimli» mənəvi dəliləri boy artımına çıxmışdılar. 2000-ci ildə tamaşaya qoyulmuş «Diaqnoz «D»...» («Mənim ərim dəlidir») tamaşasında ədib müdrik sənətkar qətiyyəti ilə mənəviyyatsızlar cəmiyyətinə öz diaqnozunu verdi. Mən bunu mənəvi tariximizə Elçin baxışı kimi dəyərləndirirəm. Elçinin pyeslər dördlüyü («Poçt şöbəsində xəyal», «Ah, Paris, Paris!..», «Mənim sevimli dəlim», «Diaqnoz «D», yaxud («Mənim ərim dəlidir») otuz iki illik bir dövrdə mənəviyyatımızın dəyişmə mərhələlərinə ən aydın çıraq tutan ədəbi hadisələrdi... Zaman göstəricisi çox önəmlidi Elçinin dramaturq ruhunu, Elçinin sənətkar cəzarətini, Elçinin vətəndaş ləyaqətini... tam anlamaq üçün.

**İlham RƏHİMLİ**

Düzdür, mən Elçinin heç bir pyesində iştirak etməmişəm, amma o, mənim ən çox sevdiyim bir dramaturqdur.

**Həsənağa TURABOV**

Ömrünün çox hissəsini böyük ədəbiyyata sərf etmiş xalq yazıçısının həyat və yaradıcılığına təkrar qayıdanda qəribə bir qanunauyğunluğu müşahidə edirik: Elçin – milli söz sənətimizin müəyyən dövründə əsl ciddi nəsrə ehtiyac duyulanda – hekayə və povestlərini

yazdı; Avropa səviyyəli roman qıtlığı görünəndə – iri prozaya keçdi; dünyada kino dövrü başlayanda – bir-birinin ardınca ssenarilərini qələmə aldı, onların ekran taleyini həll etdi; ədəbi tənqidimiz zəifləyəndə – filoloji elmimizin qeydinə qaldı; tərcümə problemi aktuallaşanda – yapon xalq şerini, Molyeri dilimizə çevirdi; teatrımız axsayanda – istedadını komediya janrında sınadı... Çağdaş Azərbaycan ədəbiyyatında Elçin qədər çox az-az yaradıcı şəxs tapmaq mümkündür ki, milli söz sənətinin zənginləşməsinə xüsusi təkan verən bu qədər sənət axtarışlarına, ədəbi eksperimentçiliyə baş qoşsun. Ömrünün 60 yaşı ilə alnıaçıq, casarətlə vidalaşan Elçinin, bu baxımdan, çağdaş ədəbiyyatımızın inkişafında əhəmiyyətli, nüfuzedici rolu var. Məhz bu cəhətinə görə, sənətkarı neomaarifçi də hesab etmək mümkündür. Lakin biz onun əsl milli intellektual sənətkar, başqa sözlə, bəşəri səviyyəli yaradıcı şəxsiyyət kimi – xaricdə çıxan çoxsaylı kitabları bunu ürəklə deməyə imkan yaradır – qəbul etdiyimizdən qəlbimizdəkilərin cüzi hissəsini bu yarımçıq essenin içinə yığmağa çalışırıq...

**Aydın XAN (ƏHMƏDOĞLU)**

*«Yeni Azərbaycan» qəzeti, 16 may 2003.*



## SÖZÜN SEHRİ

**«Cəmi üç sözdən ibarət bir sual bəzən gecələrin yuxusunu qaçırır, düşündürür və düşündürür: Mən nə üçün yazıram?**

**Bu sual çox vaxt tərəddüdlər yaradır, şübhələr baş qaldırır, amma...**

**...Amma yenə qələmi ələ alırsan və yazırsan».**

Bu sözlər ömrünün 45 ilini söz sənətinə həsr eləyən, hekayələri, romanları, kinossenariləri, dram əsərləri, ədəbi düşüncələri geniş oxucu kütləsinin məhəbbətini qazanan xalq yazıçısı ELÇİNƏ məxsusdur.

Böyük təvazökarlıqla zaman-zaman «Mən nə üçün yazıram?» sualına cavab axtaran yazıçının əsərləri dünyanın neçə ölkəsində nəşr olunub, dram əsərləri dəfələrlə Türkiyə teatrlarında tamaşaya qoyulub.

Azərbaycanın söz-sənət adamları Elçin yaradıcılığının ədəbiyyatımızda yerini yüksək qiymətləndiriblər.

Mayın 13-də Elçinin 60 yaşı tamam olur. Televiziyanın «İncəsənət və teatr» redaksiyası bu münasibətilə «SÖZÜN SEHRİ» adlı bədii proqram hazırlayıb. Verilişdə sənət adamlarının Elçin haqqında maraqlı fikirləri ilə tanış olacaq, əsərlərindən fraqmentləri izləyəcək və təbii ki, yazıçının özü ilə görüşmək imkanı qazanacaqsınız.

Ssenari müəllifi Mailə Muradxanlı, rejissor Tariyel Vəliyev, operator Aydın Mansurov sizə maraqlı bir ekran görüşü vəd edirlər.

*«Ekran-efir» qəzeti, 12-18 may 2003-cü il.*

## 60 YAŞIN ZİYASI

**• ... O əsərlərində oxucunu gah yetkinlik illərinə aparır, gah həyatın dolanbac yollarından keçirir, gah da möcüzələr dünyasına baş vurdurur. Bu dünyada isə çox şeylərlə qarşılaşır, müxtəlif talelər, başqa-başqa xarakterli insanlarla tanış olursan. Elə buna görə də yazıçı Elçini insana, həyata yaxın yazıçı sayırlar.**

Çünki o, əsərlərindəki obrazları bütöv bir xarakter olaraq ziddiyyətləri, düşüncələri, həyata keçirdikləri, buraxdıqları səhvləri ilə bizə tanış olan doğma insanlar kimi yaradıb. Onun yaratdığı obrazların bəzisi bəlkə də kimin üçünsə ideal qəhrəman ola bilər. Çünki bu qəhrəmanlar xeyirə, saflığa, gözəlliyə bağlıdır. Onlar vicdanları ilə hərəkət edir, lazım gəldikdə özlərini fəda verirlər. Belə qəhrəmanlar şər işlərə getmir, tez-tez insanlığını yada salır. Yazıçı onu müvəqqəti hisslərdən təmizləyir və o, öz gücü, zəkası ilə oxucunu heyrətləndirir. Eyni zamanda onların arasında mənfi çalarları ilə yaddaşa köçən, xisləti pis, əqidəsi düşkün, riyakar insanlar da var. Onlar oxucuya çox şeylərdən danışıb, onu müxtəlif məqamlardan xəbərdar edir. Bütün bunları düşünəndə, ələlxüsus həyatın reallıqlarını bədii əsərlərdə tapanda oxucu öz-özlüyündə yazıçının ünvanına belə bir kəlməni vurğulayır: «Elçin yazmaya bilməz». Yazıçı özü də belə fikirləşir və bunu bir növ borc sayır. Belə olmasaydı, bir vaxtlar atası, xalq yazıçısı İlyas Əfəndiyevin dilindən çıxan kəlmələrə cavab verə bilməzdi:

«Bir dəfə atam – xalq yazıçısı İlyas Əfəndiyevlə iş otağında əyləşib onunla söhbət edəndə o, əli ilə divar boyu düzülmüş kitab dolablarını, rəfləri göstərib dedi:

- Dünyada ki, bu qədər böyük yazıçılar var, bu qədər böyük əsərlər yazılıb, biz nə üçün yazırıq? Biz ki, onlardan artığını yaza bilməyəcəyik.

Dolablarda, rəflərdə Firdovsinin, Şekspirin, Molyerin, Nizaminin... əsərləri vardı. Atamın bu sözü məni sarsıtdı».

Yazıçı əvvəlcə atasının bu sualını adi qəbul etməyib, cəmi üç sözdən ibarət olan bir sual onun gecələrinin yuxusunu qaçırıb,



düşündürüb. Bu sualın cavabında tərəddüdlər yaranıb, qətiyyət azalıb, şübhələr baş qaldırıb. Buna baxmayaraq yazıçı yenə də yazıb, yaradıb. Sonralar isə həmin sualla bağlı belə yazıb: «Yazıçı yazarkən yalnız bir insan, bir fərd kimi özünü ifadə etmir. Hərgah yalnız belə olsaydı, onda doğrudan da Füzulidən, Balzakdan, Tolstoydan sonra yazmağın mənası yox idi. Lakin hər bir yazıçı özü ilə bərabər öz xalqını da ifadə edir. Hər hansı bir yazıçının yerinə başqası gəlib onun xalqının hiss və həyəcanlarından, psixologiyasından, gələcəyi naminə keçmişindən və bu günündən yazmayacaq. Bu yalnız həmin xalqın öz doğma oğlunun işidir».

Yazıçı Elçinin ilk hekayəsi 1959-cu ildə «Azərbaycan gəncləri» qəzetində işıq üzü görüb. Həmin hekayənin ayağı bir növ sayalı olub. Çünki bundan sonra saysız-hesabsız hekayələri yazılıb və çap olunub. Bu hekayələrin böyük əksəriyyətinin süjeti bizə tanışdır. Ona görə ki, əsərdə hər gün qarşılaşdığımız həyat, müxtəlif xarakterli insanlar əks olunub. Bu isə yazıçının düşündüklərindən irəli gəlib. Elçin fikirləşib ki, yazıçı üçün bədii əsərdə, sənətdə xalqı ifadə etmək və bu ifadəni özünütəsdiq səviyyəsinə qaldırmaq, eşitmək vacibdir. Daha vacibi isə başa düşmək, dərk etməkdir. Bu baxımdan yazıçı həmişə istibdadın, milli hüquqsuzluğun düşməni, xalqına sadiq, etibarlı və milli təəssübkeş olub.

Elçin yazıçı həyatını isə sehrə bənzədib. Amma bu sehr məşəqqətli, əzablı, dəhşətli maqnit gücünə malikdir. Elə yazıçının yaradıcılığına baş vuranda da elə bil sehrli aləmə düşürsən. Xüsusən də «Baladadaşın ilk məhəbbəti», «Şuşaya duman gəlib», «Baladadaşın toy hamamı», «Dolça», «On ildən sonra» hekayə və povestlərindəki adamların həyatı ilə tanış olduqca, ələlxüsus saf adamların düşüncələrini oxuduqca bunu yenidən təkrarlamaq istəyinə düşür və əvvələ qayıdırsan. Çünki bu əsərlər xalqın ruhunda və onun ana dilində yazılıb. Bu barədə yazıçının özünün düşündüyü və qələmə aldığı fikirlər belədir:

«Yazıçı o şəxsdir ki, öz ana dilini yaşadır və inkişaf etdirir. Bundan böyük, müqəddəs vəzifə ola bilərmi? Xalqın ruhu ilə, ayların, illərin zəhməti ilə yazıb son nöqtəsini qoyduğun əsərdən sonra öz doğma ana dilində yenidən gələcək əsərlər barədə düşünmək, beyində müxtəlif insan surətləri canlandırmaq, onlarla birgə sevmək, sevilmək, cavan, qoca olmaq, küsmək, barışmaq, qəhrəmanlarla birlikdə etiraz etmək, mübarizə aparmaq... yazıçı üçün bundan uca və istəkli nə var?»

«Mahmud və Məryəm» romanına qədər oxucu Elçini müasir yazıçı kimi tanıyırdı. Amma bu roman onun istedadının yeni çalarlarını açdı. Bununla o, insan möcüzəsi haqda ədəbiyyat üçün yeni olan söz dedi. Əsərin süjeti bir eşq yoludur. Bu yol isə ürəyin tarixindən başlayır. Roman haqda tanınmış filoloq Kamil Vəli Nərimanoğlu belə yazır: «Roman boyu yazıçı təbiətin həqiqətini cəmiyyətin həqiqətindən süzərək tarixi gerçəkliyi məntiqdən keçirərək qoca Şərqi, Nəsimini, Füzulini düşündürən onlarca fərdin cavabını gözəl verdi: Azadlıq nədir? Daxili azadlıq, tənhalıq, sevgi... Müəllif eşqin yollarında insanı bir neçə baxımdan göstərir, dərdə dərddən baxır. Kədəri kədərdən keçirir. Qüdrətlə qüdrəti, şöhrətlə şöhrəti üz-üzə qoyur. Elçinin idealı aydındır. Müharibələr, oğurluqlar edən, qan-lar tökən, başlar kəsən bir yerdə dünyanı sevindirən, təbiəti ovundu-ran, möcüzələr yaradan, ağıl, sevgi dolu insan da yaşayır... Bu insanın işığı müqəddəsdir. Bu işığı anlamaq, dərk etmək, duymaq, yaşatmaq, həyatın mənasıdır. Sənətkar əslində insanın bəşəri hisslərinin tədqiqatçısıdır. Bu romanda məhz həmin tədqiqat görünür».

Elçin bu əsərdə qəribə bir möcüzə yaradıb. Onun qəhrəmanları kainatın ən uca bir varlığından, dünyanın yüksək mənəvi sərhəddindən keçərək eşq səltənəti adlı bir dünya qururlar. Bu dünyada rəzalət də var, təqiblər də çoxdur. Amma buna baxmayaraq Elçinin qəhrə-manları bu dünyada özləri üçün uca eşq mənəviyyatı yaratmağı bacarırlar. Həmin mənəviyyatı kimin necə qarşılaması və qəbul edib-etməyəcəkləri onları maraqlandırmır. Onları düşündürən müqəddəs sandıqları eşq dünyasını qoruyub saxlamaq, bu yolda özlərini fəda etməkdir.

Yazıçının «Ölüm hökmü» romanı barədə isə ilk öncə düşünürsən, yəqin ki, bu əsərdə məhkəmə qurulacaq, kiməsə haqq-nahaq hökm oxunacaq və sonra da icra ediləcək. Lakin əsərlə tanış olanda görürsən ki, belə deyil. Buna baxmayaraq oxucu əsəri oxuduqca mənəvi, fiziki sıxıntılar, ağrılar, psixi sarsıntılar keçirir. Burada otuzuncu illərin repressiya dövrünün müdhiş mənzərələri ilə tanış olduqca adam həmin məşəqqət dolu ab-havanı duyur. Eyni zamanda durğunluq dövrünün ağ yalanı, acınacaqlı vəziyyəti ilə tanış olursan. Elçin bir-birindən uzaqda dayanan bu illəri bağlayaraq insani münasibətlərin ziddiyyətli qatlarına enib və bunu açaraq oxucuya göstərib. Hadisələr repressiyadan durğunluğa doğru keçdiyimiz bir dövrün müəyyən mərhələlərinin realist, canlı mənzərəsini əks etdirməklə iki zaman kəsiyində qurulub. Həmin əlaqələri yazıçı o qədər uyğunlaşdırıb ki, hər



bir məqam yerli-yerindədir. Az qala oxucu burada haqsızcasına boğulanların, əqlini itirənlərin, məhv olanların yerinə haray salmaq, haqq-ədaləti köməyə çağırmaq, tarixi yatmış yuxudan ayıldıb silkələmək istəyir. Oxucu bu dünyanın eybəcərliyini bütün çalarları ilə görür və daxilən hiss edir. Əsər dövrün ruhundan, ab-havasından yaranan bədii ittihamdır, desək, yanılmarıq.

Elçin həm də mənəvi-əxlaqi problemlərə həsr edilmiş ssenarilərin, ədəbi tənqidi məqalələrin müəllifidir. Elçin öz üslubunu yaradıb, formalaşdırmağı bacarıb. Əbəs deyil ki, onu öz arqumentləri olan yazıçı sayırlar. Yazıçı təkcə Azərbaycanda deyil, ölkədən kənarda da tanınıb, şöhrət tapıb. Çünki o, bütün ədəbi prosesləri diqqətlə izləyib, məsələyə incəliklə yanaşıb. Elçinin yaradıcılığı genişdir. Təbii ki, bu yubiley günlərində onun bütün yaradıcılığından söz açıb bir yazıya sığışdırmaq mümkün deyil. Ömrünün kamillik zirvəsində olan yazıçıya 60 yaşın mübarək deyib, yeni yaradıcılıq sevincləri arzulayırıq.

*«Paritet» qəzeti, 13 may 2003.*

Şamil QURBANOV

# MİLLİ FACİƏNİN BƏDİİ SALNAMƏSİ

Hörmətli yazıçımız Elçinin ilk kitabı 1966-cı ildə çap olunmuşdur. Bir neçə hekayədən və «Əsli və Kərəm» adlı lirik-yumoristik kiçik povestdən ibarət olan həmin kitab o qədər xırda formatda idi ki, onu döş cibində də gəzdirmək olardı. Amma bu kitab, sözün həqiqi mənasında, gələcək böyük yolun başlanğıcı və zəngin yaradıcılığın ilk pilləsi oldu. Kitabdakı ilk hekayə də elə beləcə adlanırdı: «Nərdivanın birinci pilləsi».

İndi o vaxtdan çox keçir. Əsl istedad üçün bu, əlbəttə, az müddət deyil. Sevindirici cəhət burasındadır ki, qələm dostumuz həmin nərdivanları çox inamla, böyük və səmərəli yaradıcılıq uğurları ilə addımlamış, ədəbiyyatımızı zənginləşdirən, nüfuz və şöhrətini artıran çoxlu hekayə, povest və roman yaratmışdır.

Elçinin son böyük ədəbi nailiyyəti «Ölüm hökmü» romanıdır. Dövri mətbuatdan bir hissəsi ilə tanış olduğumuz bu romanı «Yazıçı» nəşriyyatı 80 min tirajla nəfis şəkildə çap edib oxucuların sərəncamına vermişdir.

İndiki qarışıq və mürəkkəb dövrümüzdə sovet tarix elminin yalan, saxta və uydurma əsaslarının aşkar edildiyi və laxladığı bir zamanda yaranan hər bir bədii əsər sənətkarlıq siqlətindən, ideya tutumundan asılı olmayaraq birinci növbədə insan ağlına, şüuruna təsir göstərməli, onun diqqətini daha çox milli və bəşəri problemlərə yönəltməlidir. Artıq elə bir dövr gəlib çatmışdır ki, oxucunu qondarma pafosdan, hay-küydən, uydurma macəra yükündən xilas etmək, ona yaxın keçmişin və dövrün acı həqiqətini göstərmək, ağrılı-acılı günlərin bədii salnaməsini vermək tələb olunur.

Elçinin son romanı məhz belə bir həqiqətdən bəhs edir. Bu roman sırf tarixi əsər deyil, onu sırf müasir mövzuda yazılmış əsər də adlandırmaq olmaz, «Ölüm hökmü» romanı Azərbaycan xalqının son 70 ildə keçdiyi enişli-uçurumlu yollardan, fəlakətli, faciəli, hüznlü-kədərli günlərdən danışır.

Bu romanda yazıçı üçün fərqləndirici üç əsas cəhət diqqəti cəlb edir. Tarixi mənbələrə, arxiv sənədlərinə bələdlik, yüksək elmi mühakimə və bədii yaradıcılıq bacarığı. Bunlar ayrılıqda həmin



hadisələr haqqında bəlkə lazımi effekti verə bilməzdi, amma birləşəndə daha təsirli və daha cəlbedici bir bədii məhsul yarada bilmişdir.

Elçinin işini çətinləşdirən bir cəhət də orasındadır ki, onun qələmə aldığı yaxın keçmişin çılpaq həqiqəti hər bir oxucuya tanışdır. Hadisələr yaşlı nəslin gözləri qarşısında cərəyan etmişdir, hamı onun acısını dadmış, fəlakətini, faciəsini görmüşdür. Çünki 20-30-cu illərin hadisələri Azərbaycan xalqı üçün zəlzələdən, taundan dəhşətli fəlakət idi ki, onun zərbəsi bütün ağıllı adamları dağ başında da yaxalayırdı (əsrin millət başçılarının hamısının aqibəti kimi).

Romanın təhlilinə keçməzdən əvvəl onu da deyim ki, xalqımızın başına gəlmiş bu fəlakətlər onun günahı yox, bədbəxtliyi idi. Tale belə yazmışdı. Odur ki, bütün dünyanın mədəni xalqları tarixi keçmişindən gülə-gülə ayrılsa da, bircə biz ağlaya-ağlaya ayrıldıq.

Əsrin əvvəllərində Əlibəy Hüseynzadə kimi dünya şöhrətli bir adam «Ucundadır dilimin həqiqətin böyüyü» desə də, əsl həqiqəti deyə bilməmişdi. Nəriman Nərimanov kimi bir dahi, rusun xristian təəssübkeşliyi haqqında rəmzlə danışmışdır («Bir kəndin sərgüzəşti»).

Onlar heç olmasa həqiqəti aça bilmədiklərini deyə bilirdilər. Amma Sovet hakimiyyəti illərində böyük və qədim bir millətin başına, daha doğrusu, başçılarının başına elə bir müsibət, elə bir dəhşət gətirildi ki, xalqın inkişafının heç bir mərhələsində belə bir vəhşilik olmamışdı. Uzun müddət buna etiraz edən də tapılmadı.

Bizi ən çox aldadan «həqiqət günəşi» 1920-ci ildə doğdu və millətin ayrı-ayrı düşüncəsiz üzvləri bu «həqiqətə» aldana-aldana, uya-uya, dünənə qədər bizi vəhşicəsinə çalıb-çapan dinayrı «dostlarımızı» özləri üçün arxa bilib ona söykənə-söykənə (cahilliyə bax!!!) özümüzünkülərin «başına əngəl-kələf» olmuşdur, üzdə olanları bir-bir güdaza verə-verə, özləri də sonra güdaza getmişlər. İndi onlar bəraət qazanandan sonra hər ikisinin - güdaza verənin də, güdaza gedənin də daş heykəllərinə baxıb, Allah bilir, hansı hissləri keçirirlər. «Ay rəhmətliklər, axı niyə növbə ilə bir-birinizi düşmən əli ilə yox edib milləti bu günə saldınız, niyə?!» - deyə fəryad edirik.

«Ölüm hökmü» romanını oxuduqca bu acı həqiqətləri bir də yaşamalı oluruq, qəzəb və qəhər xıltı yığılır boğazımıza, bizi yandırıb-yaxmağa başlayır.

Vaxtilə N.V.Qoqolun «Ölü canlar» əsərinin ilk çapı meydana çıxan kimi A.İ.Gertsen bu əsəri «Rusiyanın xəcalət çığırtısı» hesab edirdi, çünki indiyə qədər böyük ciddi-cəhdlə nəzərdən yayındırılan ictimai qüsurlar yazıçı tərəfindən ustalıqla faş edilmiş, daha onları ört-

basdır etməyə imkan qalmamışdı. «Ölüm hökmü» də belədir. 70 ildir ki, gözlərimizi yumub ağzımızı açmışıq, bəşər mədəniyyətinin yüksək zirvəsində dayandığımızı, xoşbəxt ölkənin xoşbəxt vətəndaşı olduğumuzu dünyaya car çəkmiş, haqqın, ədalətin, beynəlmiləlçiliyin, humanizmin ancaq bizdə olduğuna inanmışıq. Başqa ölkələrdə isə ancaq bunların əksini təsəvvür etmişik. Sovetlər İttifaqında sosialist humanizmi pərdəsi altında baş verən ən böyük vəhşiliyi humanizm, düşmənçiliyi dostluq, qanunsuzluğu qanun sanmışıq. Beləcə baş alıb getmiş, alnımız divara dəyənə qədər ayılmamışıq. Hər şeyi malalamış, cırıqları yamamış, sökükləri tikməyə çalışmışıq. Nə kələyimiz varsa, hamısını xalq adından həyata keçirmişik. Yazıq xalq! Nəticədə həyatımızda, mənəviyyatımızda üfunət yaranmış, nəsil cırlaşmış, korlanmışdır. Xalqın adından danışa-danışa xalqa divan tutulmuşdur.

«Ölüm hökmü» elə ilk sözlərdən bizdə vahimə yaradır. Bu da bədii yaradıcılıqda nadir hallardandır ki, əsər, sərlövhəni nəzərə almasaq belə, ölümlə başlayır, ölümlə də qurtarır. Daha doğrusu, qəbiristanlığın təsviri ilə başlayır, dəmir yol relsləri üzərində parçalanmış cəsədlə sona yetir.

Dünya ədəbiyyatı təcrübəsində ölümü, qəbiristanlığı diqqət mərkəzinə çəkib gətirmək təzə məsələ deyildir. Dədə Qorqud hələ neçə-neçə əsr bundan əvvəl «Gəlimli-gedimli dünya, son ucu ölümlü dünya» deyə övladlarını belə bir əbədi və əzəli həqiqətə səsləyirdi ki, ölüm deyilən həqiqət vardır və o, mütləq gələcəkdir; ona doğru gedən yolda şərəflə yaşamaq lazımdır. Ruslar içərisində ilk Nobel mükafatı laureatı, Oktyabr inqilabının qatı düşməni, Stalin dövrünün Sovetlər İttifaqını «Əcinnələr ölkəsi» adlandıran və ömrünün axırına qədər bu fikrindən dönməyən İvan Bunin də əsərlərinin çoxunu «gəlimli-gedimli» dünyanın gəlim ucundan yox, gedim ucundan başlayır. Çünki həyatın son ucundan qəhrəmanın keçdiyi yola nəzər salmaq xüsusi məna daşıyır. İnsana bir dəfə verilən bu həyatı necə yaşaması, birtərəfli yolun son ucuna qədər necə keçdiyi yazıçını maraqlandırır və onda belə bir bədii sual meydana çıxır: nə etmisən, nə kimi xeyirli işlər görmüsən və yaxud görə bilmisənmi, gücünü-qüvvəni nəyə sərf etmisən?

Elçində isə həmin həqiqətin bədii mahiyyəti başqadır. Əvvəla, o ölümlə bağlı hadisələri, bizim dövrümüzdən - səksəninci illərin ortalarından başlayır, sonra iyirminci illərə qayıdır və o illərin əhvalatlarını izləyə-izləyə yenidən gəlib 1986-cı ilə çıxır. Romanda təsvir olunan ölüm də, həyat da konkret olaraq bir-iki nəfərlə, yaxud



təkcə canlı insanla bağlı deyil. Yazıçının elmi təfəkkürünün və tarixə bələdliyinin onun karına gəldiyi hər səhifədə hiss olunur. O, xalqın zəngin mifologiyasını da, fəlsəfi düşüncə tərzini və yozumunu da tarixi hadisələr və faktlarla elə bağlayır ki, məlum olanlarda da oxucu yeni məna və yozum çaları görür. Bütün bunların fonunda xalqın müsibətləri, boş hay-küy, quru vədlər, axmaq aldadan bayraqlar və ordenlər arxasında əriyən iniltiləri dayanır. Bu mənada Elçinin romanı xarakterlər romanı olmaqla bərabər, həm də rəmzlər romanıdır. Rəmz, simvol bizim yazıçı üçün ehtiyatdan yox, zərurətdən doğmuşdur. Belə ki, hadisələrin başladığı qəbiristanlıq səhnəsində oxucuya təqdim olunan ilk obraz da, relslər üzərində parçalanan da itdir – Gicbəsərdir. Həmin itin özünə, hərəkətinə uyğun başqa adı da ola bilərdi. Amma o, məhz Gicbəsərdir. Bu da rəmzdir, yəni gicbəsərliyin, manqurtluğun həyat məsafəsi və tale yolu ancaq belə olmalıdır. Milli kökündən, əslindən və soyundan ayrılmış insan da Gicbəsər kimi, nə qədər sığallanıb tumarlansa da, «süd, kolbasa, sosiska», hətta pirojna ilə bəslənib böyüsə də, günlərin birində son tikəsi ağzından çıxarılacaq, döyülüb, isti yuvasından qovulacaq, güllə qabağına gətiriləcək, canını xilas edə bilməyəcəkdir. Qəbiristanlıqda tapılan və qəbiristanlıq idarəsinin rəisi Əbdül Qafarzadənin göstərişi ilə bəslənən Gicbəsərin də həyatı belə olmuşdur.

Romanda dolğun obrazlar və onlarla bağlı hadisələr çoxdur. Bunların içərisində tarixi şəxslər və hadisələr də var, müəllifin bədii təxəyyülünün məhsulu olanlar da. Bunlar bir-biri ilə üzvi şəkildə bağlanır və ustalıqla ümumi inkişafa qoşulur. Bu, həm hadisələrin inkişafına, həm də obrazların xarakterinin açılmasına kömək edir.

Bunların içərisində diqqəti ən çox cəlb edən Xosrov müəllim və Əbdül Qafarzadə ilə bağlı olan hadisələrdir. Bu iki obraz bir-biri ilə tamam əks qütblərdə dayanır və müvafiq olaraq hər biri həyatın işıqlı və kölgəli, nəcib və nanəcib, pak və napak, sağlam və qeyri-sağlam tərəflərini təmsil edir.

Əbdül Qafarzadə yaxşı işlənmiş və yaddaqalan obrazdır. Bakının bütün çirkin və nanəcib işləri onun əli ilə görülür. İlk baxışda o, gözdən və diqqətdən kənarda dayanan adamdır, vəzifəsi də həsəddən, qibtədən uzaqdır. O, adicə qəbiristanlıq idarəsinin rəhbəridir. Amma şəhərin, geniş mənada ölkənin çox işlərində onun barmağı vardır. Xüsusən həyatın kölgəli səhnələri, böyüklərə ötürülən rüşvətdən tutmuş qadın alverinə, kef məclislərinə, qumar oyunlarına qədər, raykom katiblərinin külli miqdarda yığdığı pulu qızıla çevirməkdən

tutmuş intiqam almağa, adam döydürməyə qədər, ali məktəbə tələbə qəbulundan tutmuş kitab nəşrinə qədər, medal verdirməkdən tutmuş əmək qəhrəmanı etməyə qədər hər şeyə qadirdir.

Ona boyun əyməyənləri «eşşək kimi» döydürmək, otağa qapayıb günlərlə yemək verməmək də əlindən gəlir. Onun üzünə ağ olan Sultanmuradı da bu günə saldırmış, döydürüb şalvarını da çıxartdırmışdı.

Əbdül Qafarzadə sovet cəmiyyətində «işin içində olan, işdən baş çıxaran təcrübəli bir adam idi». O, yeni quruluşun mahiyyətini, işıqlı və kölgəli tərəflərini çox yaxşı bilirdi. Onu da bilirdi ki, artıq bütün ölkədə «İctimai əxlaq pozğunluğu baş verib», yalan, rüşvət ayaq tutub gedir.

Onun sovet rəhbərləri haqqında fikirləri də aydın idi və buqələmun kimi hər şəraitə uyğunlaşırdı. Onun fikri belə idi: «Stalin cəllad idi – əlbəttə, buna söz ola bilməz. Xruşşovun da ipinin üstünə odun yığmalı deyildi, - bu da məlum məsələdir. Ən yaxşısı, şübhəsiz ki, bu, Brejnev idi: təriflə, öz işini gör». O, «işini görənlərdən» ən məharətlisi idi. Onunla yaxınlığa, qohum olmağa, kölgəsinə sığınmağa çoxları can atırdı. Sovet dövlətinin cikinə-bikinə bələd olan bu adam bilirdi ki, «Sovet İttifaqında raykom katibindən yaxşı vəzifə yoxdur». Onun özü bu vəzifəyə çata bilməsə də, hüquq fakültəsində oxuyan mərhum oğlu Orduxanı katib etmək qərarına gəlmişdi.

Əbdül Qafarzadə ayıq adam idi və hər bir şəraitdən baş çıxarmağı bacarırdı. Zatı qırıq olduğundan murdar yolla sərvət qazanmaq işində pərgar idi. Vaxtilə orta məktəbdə idman müəllimi işləyən, danosbazlıqda tayı-bərabəri olmayan böyük qardaşı Xıdır da belə idi. Bu qardaşları yaxşı tanıyan dünyagörmüş Kələntər müəllim hələ 1938-ci ildə deyirdi ki, bunlar «nəsillikcə pis adam olublar. Bunların atası hambal Orduxan, deyirlər, bir kasa bozbaşdan ötrü hazırmış bütün Bakını satsın». Bu, irsən Əbdül Qafarzadəyə də keçmişdir.

O zaman Əbdül kimilərin həyat devizi belə idi: «Bu canavar dünyada yem yox, yeyən olmaq» gərəkdir. Yem yox, yeyən olanlardan biri də Əbdül idi. O, alçala-alçala yüksəlir, alçala-alçala da yeyirdi. O, bir şeyi gözəl bilirdi ki, Sovet İttifaqında «hökuməti də, camaatı da aldada-aldada nə qədər istəsən şəxsi varidat qazanmağa şərait var», amma varidatı açıq xərcləməyə imkan yoxdur.

Ona görə də Əbdül Qafarzadə qızıllarının sayı-hesabı olmasa da, nahar vaxtı katibə qızın dükandan aldığı pendir-çörəklə keçinir, eyni rəngdə, eyni ölçüdə bir neçə kostyumu birdən alırdı ki, deməsinlər kişi



gündə bir kostyum dəyişir. Qoy elə bilsinlər ki, onun elə bircə dəst kostyumu var. Amma cavan oğlunun meyitini otaqda qoyub «kiçik qızıl sikkələri gözü ilə görmək», görəndən sonra saymaq fikrinə düşəndə onun xarakteri bütünlüklə açılır. Bu «onun üçün qarşısıalınmaz bir ehtiras idi, bu ehtirası heç cür boğmaq mümkün deyildi».

Gecəykən qızıl sikkələrin bir hissəsini büllur qabda oğlunun təzəcə qazılmış qəbrində gizlətməsi də onun mənəvi boşluğundan xəbər verir. Hətta sonralar oğlunun qəbrini ziyarət edərkən bura yalnız onun xatiri üçün gəldiyinə özünü əmin etməyə çalışsa da, içərisindən qəfil bir səs baş qaldırır: «Yox, təkcə oğluna görə gəlmirsən bura!» Bu səs nəbz kimi hey vurur, onun qulaqlarında təkrar olunur və «II Nikolayın sapsarı donmuş sifəti» oğlu Orduxanın qəbri üstündə ucalan «o çəhrayı qranitin üzərinə həkk olunurdu».

Bu idi Əbdülün əsl sifəti. O, Bakıda camaatın gözü qabağında pendir-çörəklə keçinsə də və «bir kostyumla dolansa da, pozğunluğunu kənarda edirdi. Özü də necə? Vasilinin tapıb gətirdiyi cavan rus qızları ilə ya xudmani və sakit otaqlarda, ya da Moskva mehmanxanalarında. Moskvada keçirdiyi «Rozalı günlər» onun uzun müddət yadından çıxmırdı. «O beş gündə o üç otaqlı nömrədə dişarıdakı həyatı təkcə Vasili Mitrofonovun zəngləri yada salırdı. Vasili də həmin mehmanxanadakı nömrələrin birində qalırdı və hər gün bir dəfə səhər, bir dəfə də axşam zəng eləyirdi. Belə zənglərin birində Əbdül Qafarzadə öz sadiq köməkçisinə bildirir ki, «ürəyimə kamança düşüb». Səhər Bakıya uçan Vasili axşam reysi ilə məşhur kamança çalan Əhməd Şirkərimlə birlikdə Moskvaya qayıdır. Əhməd Şirkərim Rozanın hüzurunda Əbdül Qafarzadə üçün çaldığı «Segah», «Sarı bülbül», «Kəsə şikəstə»yə görə on dənə şax yüzlük qazanır. Roza isə üç min manat puldan əlavə, Xalq Təsərrüfatı İnstitutunun qiyabi şöbəsinə qəbul edilir ki, «gələcəkdə ixtisaslı iqtisadçı olsun».

Bu idi yeni cəmiyyəti quranların və yaşatmağa çalışanların müqəddəs idealları və xalq adından adamlarını xalq düşmənləri kimi güdaza verənlərin əxlaq kodeksi. Əbdül Qafarzadənin «Tülkü gəldi» qəbiristanlığına rəhbərlik etməsi də rəmzi məna daşıyır: bu o deməkdir ki, o, cəmiyyət də artıq tabut iyi verir: üfunətin, xıltın, pozğunluğun, əyyaşlığın, çürümənin son pilləsidir. Təsadüfi deyil ki, sağlamlığı ilə, gənclik ehtirası və gücü ilə öyünən və fəxr edən Əbdül Qafarzadə «it dəftərində də adı olmayan» yazıçı qudası Mürşüd Gülcahaninin professor yerlisi Mürsəlbəylinin klinikasında növbəti müayinədən nikbin qayıtsa da, səhər professor öz həmyerlisinə bildirir ki, Əbdül

Qafarzadə xərçəngdir, bir-iki aydan sonra dəhşətli əzabla öləcək. Oğlunun vəfatından sonra ölüm döşəyinə düşən arvadı Qaratel də son günlərini yaşayırdı. «Göydə Allah gördü atanın da, oğlunun da pozğunluğunu, cəzalandırdı onları».

Bunu Əbdülün qudası desə də, həqiqəti deyirdi. Bu həqiqət isə Əbdül Qafarzadələrin və onların havadarlarının günahsız insanları işkəncələrə, dəhşətlərə, gedər-gəlməzlərə düçar etmələri idi. Qan yaddaşımızda həkk olunmuş həmin müdhiş anları yazıçı bəzən tarixi hadisələr fonunda verir. Belə hadisələrdən biri də Hadrutda taun epidemiyasının yayılması və onun qarşısının alınması üçün professor Zilberin rəhbərliyi altında aparılan işlərdir. Bu da tarixi hadisədir və ona başçılıq edənlərin əksəriyyəti tarixi şəxsiyyətdir. Bu barədə istənilən qədər rəsmi sənəd var. Amma Elçinin məharəti orasındadır ki, o, tarixi faktların əsiri olmur, onlardan yaradıcı şəkildə istifadə edir.

Yeni cəmiyyətin ilk illərində Azərbaycan torpağında baş verən bu müdhiş hadisəni gələcəyin ümumi fəlakətlərinin başlanğıcı kimi də qəbul etmək olar (taun 1930-cu ildə olmuşdur). Ona görə yox ki, Hadrut taunu sonra sözün həqiqi mənasında bütün Azərbaycana yayılmalı idi. Yox, bu, sözün məcazi mənasında mənəvi taundan xəbər verirdi. Əvvəla, həmin hadisə ermənilər yaşayan zonada baş versə də, Azərbaycanda idi, 30-cu illərin qırğını və repressiyası da çox yerdə ermənilərin əli ilə həyata keçirilirdi.

İkincisi, romanın əsas aparıcı xətlərindən biri olan Xosrov müəllimin bütün ailəsi - arvadı Şirin, oğlanları altı yaşlı Səfər, dörd yaşlı Aslan və iki yaşlı Azər taundan məhv olmuş və odda yandırılmışlar. Bu hadisədən sonra müvazinətini də, hissiyatını da, nitqini də itirmiş Xosrov müəllimə Zilberin bağışladığı kitaba yazdığı «Çeloveku uvidevşemu i perejivşemu ad» sözləri sonra onun sürgün edilməsi üçün əsas səbəblərdən biri olur; belə çıxır ki, «sən də sosialist cəmiyyətini cəhənnəm hesab edirsən» (Zilber də xalq düşməni kimi sürgün edilmişdi).

Üçüncüsü, Azərbaycan torpağına taunun düşmən tərəfindən «sinfi təxribat» kimi gətirilməsinə şübhə etməyən, həyatda inqilaba xidmət etməkdən başqa heç bir müqəddəs ideal tanımayan, nəsli-törəməsi olmayan cavan Murad İldırımlı (tələbə Murad İldırımlı onun bacısı oğludur, o da dayısı haqqında ancaq anasının söhbətlərindən eşitmişdir) kimi çekistlərin və onların Mircəfər Bağırov kimi qəddar rəhbərinin ilk hədələri buradan başlayır. Mircəfər Bağırovu ilk dəfə görən və onunla təmasa girən Zilberin «Vay o günə ki, belə adam



hakimiyyət başına gələ» sözləri də təsadüfi deyil. O da təsadüfi deyil ki, belə bir adamın məddahı olan yazıçı Mürşüd Gülcahanı sonralar azad fikir söyləyənlər haqqında deyirdi ki, «Mircəfər baş barmağı ilə bunları taxtabiti kimi elə sıxardı ki, heç yerlərində izləri də qalmazdı».

Bizi ağrıdan da odur ki, Mircəfər Bağırovun «taxtabiti kimi» sıxdığı adamlar xalqın düşünən beyni, görən gözləri idi. Yeni cəmiyyət qurmaq adı ilə başlayan «təmizləmə» prosesi nəticəsində üfunət və səfalət yayılmış, xılt və çöküntü əmələ gəlmiş, yeriyən qəbiristanlıq yaranmışdır. Artıq indi, əsrimizin sonlarında bu həqiqət bütün çılpaqlığı ilə hiss olunur və heç kəs faktdan sükutla yan keçməyə cəsarət etmir. «Ölüm hökmü» indi ünvanını dəyişib bumeranqa çevrilmişdir.

«Ölüm hökmü»nün xarakterik obrazlarından biri olan Xosrov müəllim əsrin yaşıdı idi. Qazaxda seminariya bitirmiş və 1920-ci ildən Hadrutda rus dili müəllimi işləyirdi. O, Hadrut hadisələrindən və özünün şəxsi faciəsindən sonra Bakıya gəlir və Mircəfər Bağırovun yerlisi Ələsgər müəllimin müdir olduğu məktəbdə dərs deyir. Xosrov müəllim, nəhayət, həyatını dəyişməyə razılıq verir, baxçada tərbiyəçi işləyən Gülzar xanımla evlənir. Bu nəcib qadın ərinin ağır dərdini unutdurmaq üçün ona «əri və övladı kimi xidmət edirdi». Hadrut və Hadrutdan sonrakı illər «Xosrov müəllimi o qədər əzmiş, o qədər yormuş, incitmişdi ki, indi həmin yorğunluğun, həmin acının yavaş-yavaş bədənindən çıxmasını az qala cismani hiss edirdi». Amma 30-cu illərin həyatı elə qurulmuşdu ki, işkəncədən can qurtarmaq istəyənlərə də istədiyi ölümü vermirdilər (təpik zərbələrinə dözməyən qoca və xəstə Ömər Faiq müstəntiqin stəkanını parçalayıb venasını kəsmiş, «Mən sizin kimi alçağın əlində ölmərəm, özüm özümü öldürrəm» demişdir. Bəs yüzlərlə, minlərlə qeyrətli oğullar nə demişdir?!). Taun fəlakətindən sonra Xosrov müəllim üçün isə yeni fəlakət yaxınlaşırdı. Bu fəlakət Ələsgər müəllimin qızı Arzunun on yaşı qeyd olunarkən baş verdi.

Yeni ideologiya məktəbdə hamının istedadlı bir şagird kimi tanıdığı və əsrin «Sofya Kovalevskayası» adlandırdığı Arzuya bir peyvənd kimi vurulmuşdu. Bu, ideologiya uğrunda Arzu ata-anasını da tapdalayar, heç uf da deməzdi. Onun tərtib etdiyi sorğuda «ən çox sevdiyin adam», «ən böyük insan kimdir?» suallarına bircə cavab almalı idi: Stalin! Buna şübhə edənləri o, didib-parçalamağa hazır idi, hətta öz evlərində divar qəzeti çıxarıb orada ata-anasını ifşa etməyi, məktəbdə isə «nifrət» obyektinə çevirməyi qarşısına məqsəd qoymuşdu. O, «Koroğlu» operasının müəllifi Ü.Hacıbəyovu da ona

görə ifşa etməyə hazır idi ki, nə üçün bu boyda bəstəkar müasir mövzuda yaxşı əsər yazmayıb, istedadını tarixi mövzuya sərf edib. Belə çıxır ki, o, bizim qurduğumuz cəmiyyəti bəyənmir.

Nəslin belə tərbiyə olunmasına baxmayaraq, Ələsgər görüb-götürmüş adamdır. Himayəsində olan müəllimlərin hamısını yaxınlaşan dalğanın zərbindən qoruyub-saxlamağa çalışır. Amma gözlərinin qabağında baş verənləri, haqsızlığı, nanəcibliyi görəndə dözə bilmir, öz-özü ilə danışırmış kimi «ay əclaflar, ay vicdansızlar, ay nankorlar, ay adını yeni həyat qurucusu qoyub həyatı dağıdanlar», deyə yanıb-yaxılırdı. O, ölkə və respublika rəhbərliyinə qarşı kin-küdurət bəsləsə də, ürəyindən keçənlərin birini də dilinə gətirmir, amma ürəyində onların hamısı haqqında belə bir yekdil rəyə gəlirdi: «Bunların mayasında dağıtmaq, sökmək, kor qoymaq, yerlə yeksan eləmək, ocaqları söndürmək var idi, Bunların etiqadı şeytanadır... Oğul atanı satır, qardaş-qardaşı ifşa edir, qız anadan imtina edir, arvad ərindən partiya təşkilatlarına şikayət yazır, komsomol iclaslarında bacı-bacıdan casusluq edir, məscidlər, kilsələr dağıdılır, adam gecə arvadı ilə danışanda siyasi səhv buraxmaqdan ehtiyat edir, bunun axırı nə olacaq, xudaya? Bu necə zəmanədir, bu necə ölkədir, bu necə quruluşdur? İnsan başı ilə toyuq başının fərqi yoxdur. İnsanın başını da toyuq başı kimi haçan istəsələr, onda da üzə bilərlər... Hansı məmləkətdə belə şey olub, hansı dövrdə bu qədər günahsız qan axıdılıb, bu qədər qorxu olub?! Marks belə demişdi? Engels belə demişdi? Lenin belə demişdi?

Belə desələr də, belə deməsələr də, bütün fəlakətlərin hamısı onların adı ilə «gələcək xoş günlərin naminə» həyata keçirilirdi.

Arzunun ad günündə bütün badələrin «millətlər atası»nın sağlığına qaldırılmasına etiraz edən, «Niyə qoymursuz səhərdən bəri bu gözəl qızın sağlığına içək, bu gözəl qızı təbrik edək?», - deyən Xosrov müəllimin bu sözləri həmin məktəbin bütün kollektivinin (hətta satqınların da) fəlakətinə səbəb olur. Ələsgər müəllim deyəndə ki, «Arzu özümüzünküdü, qaçmır ha», buna birinci etiraz edən Arzunun özü olur: məgər Stalin bizimki deyil? Məsələ böyüyəndə Ələsgər müəllim qızına yaltaqlanmağa başlayır, onu yoldan çəkindirmək istəyir. Bu xoşagəlməz məsələnin ondan əvvəl yuxarı çatdırılacağından ehtiyat edib özü qabağa düşür, rayon partiya komitəsinin şöbə müdiri Cümşüdlüyə xəbər verir.

Özü nifrət etdiyi hərəkətə özü yol verir. Başqa cür olsaydı, o, fəlakətdən yaxa qurtara bilməzdi. Özü demişkən, «yeni həyat



quranlar» insanların məhvi üçün müəyyən mülahizəyə, prinsipə əsaslanmırdılar. Onlar üçün bir qanun var idi, şübhələndiklərinin hamısını öldür, məhv et. Yeni həyatın prinsipi bu idi. Bundan nə qadın, nə uşaq, nə qoca yaxasını qurtara bilərdi. Bu, mənəvi təmizlik yox, mənəvi puçluq, boşluq, pozğunluq yaradırdı. Bizim ürəyimizin başından ağır daş kimi sallanan, bizə mənəvi əzab verən də budur. Seçdiyimiz bu həyat yoluna baxanda adamı dəhşət götürür. Həmin dövrün məktəb və cəmiyyət tərbiyəsini görmüş Arzunun və Arzu kimi milyonların ağlamalı aqibəti bütün milli fəlakət kimi göz önündə canlanır.

Sibir sürgünündən ancaq 1956-cı ildə qayıdan və 70-ci illərin axırına qədər qəzet köşkündə işləyən Xosrov müəllim bir gün həmin Arzu ilə rastlaşır. O, vaqon bələdçisi işləyirdi. Məlum olur ki, «yeni həyat» Arzunu da xoşbəxt günə çıxarmamış, əksinə, üfunətə, çirkaba bulamış, həyatını pozmuş, psixologiyasını da, insanlara münasibətini də büsbütün dəyişmişdir. Budur onun etirafı, keçdiyi «yolun» ürəkaçan mənzərəsi: «Atamdan sonra axı bizim evi aldılar, anamnan məni də atdılar küçəyə...».

Hələ bu harasıdır. O, Xosrov müəllimə divardan asılmış və başqa-başqa kişilərdən olan və indi qaçıb dağılmış oğullarının şəkillərini göstərərək deyir: «Bunu görürsən, bunun atası Cümşüdlüdür... Yaduva gəlir? Siz işləyən məktəbin raykomunda işləyirdi, əyyaşın, pozğunun biriydi oğraş!.. Məktəbdə izhari-nifrət mitinqlərində gəlib mənə əl çalırdı, məni nümunə göstərirdi. Sonra guya bizə yazığı gəldi, anamı dəlləkxanaya süpürgəçi düzəltdi... O vaxtdan elə gözü varıymış məndə köpək oğlunun, anam ölən kimi, müharibənin axırlarında, gəlib tapdı məni... 15-16 yaşım var idi. Hə, bunun atası o oğraş idi, gorbagor oldu. Öləndə heç üstünə gələn də olmadı. Özünün arvad-uşağı vardı, ayrıca da bir ev kirayə edib məni saxlayırdı... Pozğunun biri idi! Məndə sağ yer qoymamışdı oğraş! Göydən düşmüşdüm də əlinə, gözünə təpirdi məni, doymaq bilmirdi köpək oğlu...».

Bunlar daxili monoloq da olsa, acı, yandırıcı etiraf da olsa, həqiqət idi, yeni həyat quranlar o həyatı beləcə qururdular. Arzunun söyüşü də, bizim boğazımıza yığılıb yandıran qəzəb və qəhər xıltı da o nankorların ünvanına yönəldilmişdi.

20-30-cu illərin nəcib, yetgin, sağlam və ağıllı bir nəsli vəhşicəsinə yox edildi, xanimanı dağıdıldı, külü göyə sovruldu. İnsanlıq mücəssəməsi olanların heç birinə insani münasibət göstərilmədi, onlar qanmazların, qanacaqsızların, insan adına ləkə gətirənlərin qurbanı

oldu. Bu cəhətdən romanın ən dəhşətli yerlərindən biri Keşlə həbsxanası səhnəsidir. Onların bəzilərinin son həyat səhnələri belə idi: «familiyanı çağırıb heç nə əlavə etmirdilərsə, bu o demək idi ki, məhbusu güllələməyə aparırlar. Məhbus bunu bilirdi, qışqırırdı, özünü yerə çırpırdı, təqsirkar olmadığını deyirdi, kameradakı o biri məhbusların əlindən, ayağından buraxmaq istəmirdi. Hətta sidiyi, nəcisi şalvarını bulayırdı və onu qollarından yapışıb bağırda-bağırda, sürüyə-sürüyə kameradan çıxarırdılar».

Bu, Stalin repressiyası dövründə bütün həbsxanalarda baş verən ümumi hal idi. Romanda bundan daha konkreti var. Məsələn, Mircəfər Bağırovun hüzurunda Xalq Daxili İşlər Komissarı məşhur adamların həbsxanalarda necə təhqir olunduğunu, ələ salındığını, alçaldıldığını bir-bir xəyalından keçirərkən yazıçı onu da əlavə edir ki, «Azərbaycanın keçmiş partiya və dövlət rəhbərlərinin istintaq zamanı döyülüb nə günə düşdüyünü komissar öz gözləri ilə görmüşdü. Zaqafqaziyada Xalq Komissarları Sovetinin sədri Qəzənfər Musabəyov səs eşidən kimi kameradakı dəmir çarpayının altına girərdi və onu oradan çıxarıb növbəti istintaqa aparmaq müsibət olurdu».

Bu, Stalin hakimiyyəti illərində Azərbaycan xalqı üçün ağlın, kamalın faciəsi idi. Bunlar indi bizi yandırıb-yaxsa da, o zaman bundan ləzzət alanlar da az deyildi. Yalançı təbliğatın nəticəsində aşağı təbəqə, zəhmətkeş kütlə əzabla öldürülənlərin simasında özləri üçün, Azərbaycan «xoşbəxt gələcəyi üçün» düşmən obrazı görürdü. Əslində düşmən yerini dəyişmiş, xalqın xoşbəxtliyinə çalışan əsl insanları ittiham edən olmuşdu. Bu ittiham Stalin ölənə qədər davam etdi. Bundan sonra cəmiyyətdə yeni çirkinlik, yeni mənəvi pozğunluq, rüşvətxorluq, yerlipərəstlik, proteksionizm, savadsızlıq, cırlaşma, medal dəliliyi başlandı. Bütün bunlar da «Ölüm hökmü» romanının tənqid və ifşa hədəflərindəndir. Odur ki, «Ölüm hökmü» təkcə repressiyalar və onun nəticələrindən bəhs edən roman deyildir. Durğunluq dediyimiz Brejnev dövrünün çirkinlikləri haqqında çox adamın bildiyi, lakin çoxlarının demədiyi və deyə bilmədiyi şeyləri Elçin dedi. Elə buna görə o, hər cür tərifə və alqışa layiqdir, roman isə Azərbaycan bədii nəsrinin hələlik son nailiyyəti, ədəbi yaradıcılıqda isə hadisədir.

*«Azad Azərbaycan» qəzeti, 13 may 2003.*



Ruqiyyə ABDULLAYEVA

## HƏDDƏN BU TƏRƏFDƏKİ ÖMÜR

**(Elçinin 60 illik yubileyi münasibətilə)**

- **Deyəsən, zaman əriyir axı. Bizim anlarımızı, dəqiqələrimizi, günlərimizi uda-uda özü də bir başqalıq, naməlum dərkolunmazlıq tərəfindən udularaq əriyir. Hissə-hissə yox olaraq müəyyən bir həddən əvvələ toplanır. Həmin həddən əvvəldə ötənlər, olanlar, əriyənlər cəmləşir. Arzulayıb boylandıqda, diqqətlə nəzər saldıqda onları sanki yenidən yaşamaq olur. Xatırlayıb diriltmək olur zamanı. Yenidən və yenidən...**

Bu virtual həddən əvvələ toplananların toplusu bir göstəricini formalaşdırır. Ötən ömrün göstəricisi olur bu. Adına yaş deyirlər. Onun tutumunda hər an bir dəyişiklik olur. Əriyən zaman artdıqca, o da həcm genişlənməsinə məruz qalır. Böyüyür. Ancaq virtual həddən əvvələ yığılanlarla kifayətlənməmək böyük əksəriyyətə xasdır. «Hələ bunlar nədir ki» deyir çox dillər.

Onun «hesabına» artıq 60 il yığılıb. Bu ömrün böyük hissəsi düşünməyə, axtarmağa və istedadın ifadəsinə həsr edilib. Və imzalar içində imza yaranıb: Elçin. Bu ad gah povestin, gah hekayənin, gah məqalənin, gah da oçerkin dərkənarında görülüb. O yaradıb, yaratdıqca da təhlil edilib. Onun təhlilçilərinin böyük qismi bu yaradıcılığın xarakterini müəyyənləşdirərkən dönə-dönə «özünəxas», «özünəməxsus» sözlərini hallandırırlar. Fikirlər toqquşur? Deyəsən, belədir. Ancaq səbəbsiz nəticə olmur axı. Toqquşmalar reallıqdan çıxış etmənin, mövcud olanın qoyduğu izin, təsirin sayəsindədir.

O seçilmək üçün öz qanuni haqqından da istifadə etməyib, ona söykənməyib. Onun yaradıcılıq nümunələri Elçinə aid edilib. Elçin Əfəndiyevə yox. Familiya yalnız rəsmi təqdimatlar üçün istifadə olunub, imza üçün ad kifayət edib. Gah **«Mahmud və Məryəm»**, **«Ölüm hökmü»**, **«Ağ dəvə»** kimi romanlar yazılıb, gah **«Mənim ərim dəlidir»** kimi müvəffəqiyyətlə səhnələşdirilən ssenari, gah da **«Ömrün son səhəri»**, **«Xüsusi sifariş»**, kimi hekayələr. Onun yaratdıqlarını vərəqləyəndə «təbiət istedadlı insanların övladlarının çiyinlərində

dincəlir» fikrinin aksiom qismində təqdimi ilə razılaşmamaq üçün tutarlı əsas qazanırsan. Əlbəttə, təbiət dincəlmək üçün istədiyini seçə bilər. Seçimin xüsusi özünüifadə ilə seçilənlərin şəcərəsindən olanların üzərinə düşməsi, düşəcəyi heç vəchlə istisna edilmir. Ancaq bu, mütləq deyil. İstedad ikinci, üçüncü və daha neçənci nəslə ötürülə, bu və digər formalarda özünü biruzə verə bilir. Qəlblərdən süzülən, qəlbləri isidən, hisslərin, məhrəm duyğuların ən gözəl ifadəsini yaradan bir qələm mahirinin – Bəxtiyar Vahabzadənin müraciətini xatırlamamaq olmur. Bu müraciət «Ölüm hökmü» romanının qoyduğu təəssüratından doğub. Şair yazıçının təsvirlərinə heyrətləndiyini deyir. **«Əzizim Elçin, sən qələminin qüdrətilə o illəri bir daha mənim qəlbimdən keçirib məni bir oxucu kimi sarsıda bildinsə, demək burada təsvir etdiyin hadisələrin təbiiliyinə görə, sənətin sehrinə və istedadın gücünə heyrətlənmək lazımdır. Beləliklə, sən məni qələminlə bir daha istedadın gücünə və sənətin qüdrətinə inandırdın».**

**«Ömrün son səhəri»** kitabına toplananları vərəqləyirəm. Nə qəribə qəhrəmanları var Elçinin. Onlar əllərindən alınan sevgililərini geri qaytarmaq üçün siyirmə qılınc olan cəngavərlər, ömrünü yüksək ideyaların tətbiqi, həyata keçməsi üçün səxavətlə xərcləyən fədailər, evlər yıxıb, qəlblər parçalayan gözəllər deyil. Ən çox oxunan bədii əsər növü hesab edilən povest və hekayələrin özünə aidlərinə Elçin o qədər həyati, daha dəqiqi, insani obrazlar yığıb ki... Hərəmizdən bir nəsə var onlarda. Hərəsinin öz dünyası, öz səhvləri, öz qüsurları, öz nisgilləri var. Bəzən qələm gedişlərinə təəccüblənir, obraza aid edilənlərin seçiminə heyrətlənirsən. Az qala «belə də adi qəhrəman olar» deyirsən. Axı kimin qəhrəmanı evinə rəngli televizor alınması üçün yığılan pulu (810 manat) bir qonaqlığa sərf etmək hünərini özündə tapdığına görə həyatında heç nəyə sevinmədiyi qədər sevinər, bundan heç nədən məmnun qalmadığı qədər məmnun qalar? Ağlını, mühakiməni şə salıb, **«Gül dedi bülbülə»** povestinin bu baş qəhrəmanına – Əlipaşaya belə bir statusun (yəni baş qəhrəman statusunun) verilməsinin mahiyyətini anlamağa çalışırsan. Birdən o qədər doğma gəlir ki, bu obraz sənə. Çünki ona bənzərlər əl uzatsan çatacaq qədər yaxın məsafədə qərarlaşıb. Bir insan tipinin qəlbi, içi açılır bu povestdə. Onun düşüncələri, arzuları, meylləri ilə tanış olursan. Onun kimilərinin Konstitusiyası, həyat fəlsəfəsi bəlli olur sənə. Xarakterin açılışına, təyininə heyran qalırsan. **«Nüfuzedici bir nəzərlə uzaqlara və dərinliklərə dalmaq, gözlə görülən və görünməyən ara pərdələri qaldırıb əsl mahiyyətə, nüvəyə çatmaq meyli bu yazıçıya xas bir keyfiyyətdir. Adi**



**məişət əhvalatlarını Elçin adilikdən çıxarıb xüsusiləşdirməyi, hətta qəribələşdirməyi bacarır. Buna yazıçı öz xüsusi görmə, duyma, təhlil və qiymətləndirmə məharəti ilə nail olur»** deyir Məmməd Arif.

Azərbaycan dilinin xüsusiyyətlərini, imkanlarını araşdırmaq istəyənlər üçün zəngin bazalardan biridir Elçinin yaratdıqları. Bu yaradıcılıq nümunələri yalnız zamanlar, ideyalar, fikirlərin toqquşması, obrazların məharətlə açılması ilə yadda qalmır. Bir stereotip parçalanır onları oxuduqca. Adətən irihəcmli, fikirlərin birindən digərinin doğması hesabına yarandıqca yaranan cümlələr oxucunu yoran detallardan sayılır. **«Fikirlər nə qədər lakonik, cümlələr nə qədər qısa olsa bir o qədər yaxşıdır»** deyirlər ədəbi təhlilçilər, tənqidçilər. Ancaq paytaxt əhlinin danışdığı tərzə çox yaxın bir üslubda yazılan bu cümlələr iriliyinə, tutumluğuna rəğmən yormur səni. Bir «ki» bağlayıcısından o biri «ki» bağlayıcısınadək olan məsafəni bir su içimində qət edir nəzərlərin. Çünki Elçin qələminə xas axıcılıq, zahiri üslub sadəlövhlüyü sənə bələdçilik edir. Artıq alışdığı menyüsündən çox fərqlənən qidaları ona təklif edən kirayəşinlərə mehri getdikcə artan, ancaq bu sabit menyünü təklif edən ev sahiblərini gördükdə nədənsə utanan, qüssələnən ev itinin – Dolçanın («Dolça» povesti) gözlərindəki kədər sənin gözlərin önündən keçir və gözlərinə hopur. **«Xüsusi sifariş»** hekayə-pyesinin rəmzi qəhrəmanının – birinci kişinin hətta ən yaxın doğmaların belə yadlardan yada dönəcəyi zamanın yetişəcəyi fikri ilə keçirdiyi sarsıntı sənə də sirayət edir. Ümumiyyətlə, onun obrazlarının hisslərinə, duyğularına bigânə qalmaq olmur. Çünki bu obrazlar o qədər sənə, ona, bizə, onlara bənzəyir ki...

«...O, heç kimi təkrar etmir, epiqonçu deyişmələrin yenidən söylənməsi ona yaddır, o, öz orijinal yaradıcılıq yolu ilə gedir. Bir tərəfdən «Ölüm hökmü» kimi Azərbaycan ədəbiyyatında yeni hadisə olan dərin ictimai məzmunlu, fəlsəfi roman yazır, digər tərəfdən isə kiçik uşaqlar üçün bir səhifəlik səmimi hekayələr qələmə alır. Bir tərəfdən Mahmud və Məryəmin faciəli həyatını özünə mövzu seçir, o biri tərəfdən «Salam, mən sizin əminizəm» kimi şən, oynaq komediya yazır. Bir tərəfdən sırf elmi monoqrafiyalar, bir tərəfdən Üzeyir Hacıbəyov və Bülbül haqqında elmi-kütləvi kitablar yazır, o biri tərəfdən də klassik yapon poeziyasını doğma dilimizə tərcümə edir. «Və bütün bunların hamısını da parlaq istedadla» yazır Polad Bülbüloğlu.

Onun özü haqqında söz demək qədər özünü yaxından tanıyan, bələd olanların (Anar, Tofiq Quliyev, Vaqif Arzumanlı, Fərhad Bədəlbəyli və başqaları) səciyyələndirmələri əsərlərin müəllif haqqında formalaşdırdığı təəssüratı təsdiqləyir. İnsanı dəyişdirən və yenidən formalaşdıran amil olan kürsünün, vəzifə öhdəliyinin belə (baş nazirin müavini) dəyişdirib özgələşdirmədiyi səmimi, təvazökar insan canlanır təsəvvürdə. Bu insan həmin həddən əvvələ artıq 60 illik ömrünü sığışdırıb. Yaşayıb, işləyib, yazıb, yaradıb, təsirlənib, təsirləndirib. İstedadlı və çox sevilən atanın tutqun kölgəsinə təkrarlanmasına dönməyib, öz cığırını seçib. Çox erkən gənclikdən – 16 yaşından. Totalitar rejim adlandırılan dövrə təsadüf edən yaradıcılığından belə xofu, sovet prinsiplərinə sadiqliyi keçirməyə bilib. Ərdəbili, Təbrizi xatırladıb, Məmməd Əmin Rəsulzadənin məzarını ziyarətindən yazıb, sovetsayağı yox, insansayağı obrazlar yaradıb.

Həddən bu tərəfə də nə qədər ideyalar, fikirlər, obrazlar qalıb. Onlar həyata keçiriləcək, yazılacaq, yaradılacaq...

Azərbaycan dilinin mükəmməl mənimsəyicisi, dahilik zirvəsindən enməyəcək təkrarolunmazın müdaxiləsayağı mühakiməsi yada düşür. «Elçinin məşhur «Ölüm hökmü» romanı Azərbaycanın düşmənlərinə ölüm hökmü oxuyursa, o böyük epik əsər həm də keyfiyyətcə parlâyırsa, siz nə cəsarətlə müasir ədəbiyyata ölü deyirsiniz?!» deyə etirazını bildirir İsa Hüseynov...

*«Olaylar» qəzeti, 13 may 2003.*



## ELÇİN ÖMRÜ...YAXUD ALTMIŞINCILARDAN BİRİNİN ALTMIŞI

- Elçinin 60 yaşıdır, nə yazaq?
- 60 oldu?..
- Hə...
- Nə tez?..
- Doğrudan da, yaman tez 60 oldu...

Həmkarımla aramızda olan bu kiçicik dialoqdan sonra onun söylədiyi fikirlər Elçin müəllim haqqında yazacaqlarıma rəvac verdi. «İlyas Əfəndiyevin böyüklüyü ondadır ki, o, ədəbiyyatımız üçün böyük, həmişəyaşar ədəbi əsərlər yaratmaqla yanaşı, cəmiyyətimiz və xalqımız üçün çox dəyərli övladlar tərbiyə etdi». Düşündüm ki, yəqin bu fikirləri hansısa tanınmış bir ədib deyib, indi də həmkarım təkrarlayır. Amma arxasınca ondan da maraqlı fikirlər söylədiyinin fərqinə varandan sonra başa düşdüm ki, öz düşüncələrini bölüşür. «Elçin deyəndə həm də Anar düşür, Vaqif düşür yadıma. Çünki onların ataları bir ədəbi nəslin nümayəndələridir, özləri isə daha «cavan» ədəbi nəslin. Və ən maraqlısı da odur ki, onların heç biri ədəbiyyata atalarının çiyinləri üzərindən boylanmadılar, atalarının cızdığı yolla yox, öz yolları ilə gəldilər və bu yolda onların hər birinin öz izi, üslubu, yeriş tərzi var».

Bəzən 60-cılar da deyirlər onlara. Azərbaycanda yeni nəsrin nümayəndələrindən biridir Elçin. Deməyəcəm yazıçı, dramaturq, publisist Elçin filan əsərlər qoyub ortaya, filan yeniliklər edib. Buna heç bir ehtiyac yoxdur. Elçin ədəbiyyatımıza özünün möhürünü vurub. Odur ki, onu oxuculara ətraflı təqdim etmək yerinə düşmür...

Elçin böyük ədəbiyyatın adamıdır. «Baladadaşın ilk məhəbbəti» kimi sadə məişət povestindən tutmuş, «Mahmud və Məryəm», «Ölüm hökmü» kimi fundamental əsərlərinə qədər, «Dolça»dan tutmuş, «Göy üzünün ulduzlu vaxtları», «Sarı gəlin», «Min gecədən biri», «Açıq pəncərə», «Bu dünyadan qatarlar gedər», «Beş dəqiqə və əbədiyyət», lap son vaxtlar teatrların səhnəsində qoyulmuş «Ah, Paris, Paris», «Mənim ərim dəlidir», «Poçt şöbəsində xəyal», «Ağ dəvə»yə qədər nəsrin və dramaturgiyanın bu günü, yeni nəfəsidir Elçin yaradıcılığı. Onun yaradıcılığında hansısa quruluşun, ictimai formasiyanın, yaxud hər hansı bir partiyanın, iqtidarın, müxalifətin mədhiyyəsi yoxdur. Onun yaradıcılığında yersiz tənqid də yoxdur. Elçin dövrün, zamanın

fövqündə insan münasibətlərini, insani hisslərini, insanın deformasiyaya uğramasını göstərir. Onun üçün nə sinfi mənsubiyyət var, nə də milli, yalnız insan məfhumu var.

Elçin bu gün ömrünün altıncı onilliyini tamamlayır. Qarşıda isə hələ çox onilliklər var.

## TANINMIŞLARIN ELÇİN HAQQINDA MÜXTƏLİF VAXTLARDA SÖYLƏDİKLƏRİNİ NƏZƏRİNİZƏ ÇATDIRIRIQ. ZƏNNİMİZCƏ, BU FİKİRLƏR BÖYÜK YAZIÇIMIZ HAQQINDA BİTKİN TƏSƏVVÜR FORMALAŞDIRMAQ ÜÇÜN YETƏRLİDİR...

Çox hörmətli qələm dostumuz Elçin!

İcazə verin Moskva Dramaturqlar Assosiasiyası, «Sovremennaya dramaturgiya» jurnalının idarə heyəti, Yazıçılar İttifaqının Dramaturgiya şurası və Rusiya Dilçilik Akademiyası adından Sizi ad gününüz münasibətilə təbrik edim.

Siz bu illər ərzində özünüzə elə bir yazıçı adı qazanmısınız ki, bu adı dünyanın bir çox ölkələrində tanıyır, hörmət və ehtiramla çəkirlər. Biz fəxr edirik ki, bu yaxınlarda jurnalımızda sizin parlaq əsəriniz – «Mənim sevimli dəlim» pyesiniz dərc olunub. Sizə xoşbəxtlik və uzun ömür arzulayıram.

**Hörmətlə,**
**Nikolay Miroşniçenko**
**«Sovremennaya dramaturgiya» jurnalının baş redaktoru, Yazıçılar İttifaqının katibi, Rusiya Dilçilik Akademiyası İdarə Heyətinin üzvü, Dövlət mükafatı laureatı, Rusiya Federasiyasının Əməkdar incəsənət xadimi**



«Elçin altmışıncı illərdə yalnız ədəbiyyatımıza yox, ümumiyyətlə, mədəniyyətimizə gəlmiş yaradıcı nəslin ən parlaq simalarından biridir. O bütün varlığı ilə doğma Azərbaycan mədəniyyətinə, mənəviyyatına bağlıdır. Eyni zamanda dünya mədəniyyətinə yaxından bağlıdır. Elçinin istedadı milli ilə bəşərinin vəhdətini ifadə edir, buna görə də onun yazıçı qələmi məhəlli məhdudiyyətdən çox uzaq olduğu kimi, kosmopolitçilikdən, snobçuluqdan da çox uzaqdır. O heç kimi təkrar etmir, epiqonçuluq, deyişmələrin yenidən söylənməsi ona yaddır, o öz orijinal yaradıcılıq yolu ilə gedir və heç kimə bənzəmir. O, bir tərəfdən «Ölüm hökmü» kimi Azərbaycan ədəbiyyatında yeni hadisə olan dərin ictimai məzmunlu, fəlsəfi roman yazır, digər tərəfdən isə kiçik uşaqlar üçün bir səhifəlik səmimi hekayələr qələmə alır. Bir tərəfdən Mahmud və Məryəmin faciəli həyatını özünə mövzu seçir, o biri tərəfdən «Salam, mən sizin əminizəm» kimi şən, oynaq komediya yazır. Bir tərəfdən sırf elmi monoqrafiyalar, bir tərəfdən Üzeyir Hacıbəyov və Bülbül haqqında elmi-kütləvi kitablar, o biri tərəfdən də klassik yapon poeziyasını doğma dilimizə tərcümə edir. Və bütün bunların hamısı da parlaq istedadla... Bir sözlə, ədəbi-mədəni həyatımızda harda Elçinin adı varsa, orada yaradıcılıq uğuru var».

**Polad Bülbüloğlu**

*«Üç nöqtə» qəzeti, 13 may 2003.*

Təranə MƏHƏRRƏMOVA

# BU DÜNYAYA QAPANIB QALMAYAN ELÇİN

Bu dünyaya özümüzlə ayrı bir dünya da gətiririk. Bir ömür içərisində ayrı bir ömürtək yaşanacaq dünya. Yalnız bizim olan bu dünya Yer adlanan dünyadan daha əsrarəngiz, daha gözəldir. Əslində bu da Tanrının bir lütfü, insanlığa bir mərhəmətidir. Həyatın əzaba çevirdiyi anlarda, sevincimizi, duyğularımızı kimsəylə paylaşmaq istəmədiyimiz vaxtlarda qaçmaq istədiyimiz bir yer var. Ancaq öz dünyamızla baş-başa qalmaq üçün onun sirli qapısından keçmək də asan deyil. Xalq yazıçımız Elçin də könül dünyasını öz rəngində görmək, öz səsi ilə eşitmək üçün çox maraqlı, həm də çətin yol seçib. Ancaq o, bu dünyaya qapanıb qalmayıb. Onun sirli qapılarını hamıya açıb. Bir də insan hansı sahədə çalışmasından asılı olmayaraq, məhz o vaxt hörmət sahibi olur, o vaxt qəbul edilir ki, sözü ilə şəxsiyyəti bir-birini tamamlasın. Elçin də məhz bu ölçülərə cavab verən qələm sahibidir. Heç şübhəsiz, o kəslər sənətin zirvəsinə ucalır ki, onlar bu zirvəni hər şeydən əvvəl məhz bir insan kimi fəth edə bilirlər.

İlk dəfədir ki, müsahibimlə görüşmədən fotoşəklini qabağıma qoyub yazı yazıram. Ancaq mən onu təkcə şəkillərdən və ya ekranlardan, ədəbi məclislərdən və ya tədbirlərdən tanımıram. Onunla tanışlığımın konkret zaman ölçüsü, vaxt hüdudu yoxdur. Sadəcə bir vaxt duymuşam ki, içimdə ona qarşı bir sevgi var və əslində bu sevgidən başlayıb sözə, qələmə, ömrünü sözlə əridən, sözlə dostluq edən, sözlə yol gələn insanlara hörmətim.

... Onun adını ilk dəfə nə vaxt eşitdiyim də yadıma gəlmir. Sadəcə bir vaxt hiss etmişəm ki, üzünü görüb səsini eşitmədiyim, amma sevgisinə bələndiyim bir yazıçı var dünyada.

... Onun yazarlığını da kimsə məxsusi anlatmayıb mənə. Sadəcə bir gün görmüşəm ki, evimizdəki çox da böyük olmayan şəxsi kitabxanada onun müəllifi olduğu bir kitab var: «Mahmud və Məryəm». Sonralar onun roman, povest və hekayələrini qəribə bir maraqla oxumuşam.

... Məni onunla xüsusi olaraq tanış eləyən də olmayıb. Və əsərlərini oxuyub, yaradıcılığına yaxından bələd olandan sonra tanımışam onu.



İllər sonra Bakıda görmüşəm onu, təbii ki, illərin sınağından keçmiş durumda. Yenə də yazı dilindən tanımışam onu. Mən qənaətimdə israrlıyam: onun nəsrinin də, bədii publisistikasının da gücü dilindədir.

Ümumiyyətlə, mənə elə gəlir ki, dil insanın ən mükəmməl xarakteristikasıdır. Dili bütöv olmayan kəs bütöv ola bilməz. Dilin bütövlüyü üçünsə hər şey bütöv olmalıdır: elm də, savad da, mütaliə də, dünyaya baxış sistemi də, ən nəhayət... nəfs də... Nəfsin bütövlüyü ondan əvvəlkilərin vəhdətindən doğur. Və bu zirvəyə yetişmək elə kamillik deyilən şərafətin özüdür. Elçin yetdi bu şərafətə. Çünki onun bütövlüyü əslində hər şey deməkdir, dili bütöv olan şəxs belə də olmalıdır.

Ürəyinin başında insanlıq, məhəbbət, ülfət haqqında böyük söz çələngi gəzdirən insandır o. Bütün məziyyətlərinin kökündə onun əsl insanlığı və bir də hər şeydən əzəl sözə olan hədsiz dərəcə sadiqliyi, məsuliyyəti və fədakarlığı dayanır. Buna hələ neçə illər əvvəl ədəbi dərgilərdə nəşr olunan əsərlərini oxuyandan sonra qərar verirsən. Və bu günlə tutuşduranda qənaətində yanılmadığını görürsən. Bunu tək mən – adi bir oxucu demir, söz sərrafları, yüksək ədəbi zövqü, mizan-tərəziyə yaxşı bələdçiliyi olanlar etiraf edirlər.

Cəmiyyətdə qəribə bir fikir formalaşıb: «Vəzifə insana hörmət gətirir, imkan verir». Qəribə deyim, qəribə məntiqdir. Amma nədənsə əksini heç vaxt düşünmək istəmirik. Bəlkə vəzifəyə bacarıqlılar gəldiyi üçün vəzifə hörmətli olur? Şəxsi kontekstdə olmasa da, cəmiyyətin psixoloji tarazlığı baxımından bu suala aydınlıq gətirilməsi olduqca zəruridir. Elçin ilk növbədə yazıçıdır. Özü də vətəndaş yazıçı. Şərqin ulu mütəfəkkiri, türk fəlsəfi tarixinin əbədi qüdrət sahibi Bəhmənyar dövlət və dövlətçilik elmi barədə qənaətlərini konkret bir kəlamla yekunlaşdırır: «Qövm ruhən özünə yaxın, fikrən istedadlı, zatən alicənab, əməldən işgüzar, mənən təmiz insanları qiymətləndirib önə çıxardıqca böyük olur». Bu sözlərdə böyük hikmət var, yəni ulu mütəfəkkir qüdrətli dövlət istəməzdən öncə öz içindən çıxmış, əsl-nəcabət tərbiyəsinə şübhə olmayan işgüzar insanlarını tanımağı tövsiyə edir xalqa. Xalq da əməlisaleh insanlarına layiq olduğu qiyməti verir.

Mən xalq yazıçımız Elçinlə şəxsən tanış olmasam da, yaradıcılığı onun haqqında mənə çox söz deyir. Əgər yaşadığı dövr bütün ağrı-acıları, sevincli-kədərli günləri ilə sənətkarın yaradıcılığında izlər sala bilməyibsə, deməli, o, həmin illərdə tam yaradıcılıq eşqi ilə yaşamayıb. Bu, ədəbiyyatda da, rəssamlıqda da, musiqidə də belə olub. Bu baxımdan Elçin xoşbəxt sənətkardır. Ona görə ki, onun əsərlərində

yaşamağın yanğısı duyulur. O, ürəyinin hay-harayını dinləyə-dinləyə, qəlbinin çağırışına qulaq asa-asa həyata nüfuz etməyi bacarır. Ona görə də onun bütün əsərləri xalq həyatı, xalq ruhu ilə nəfəs alır. Əgər desək ki, müəyyən mənada şairlər, yazıçılar, rəssamlar və digərləri mənəvi həkimlərdir, bəlkə də səhv etmərik. Elçin də öz əsərləri ilə bizi öz sirli təsiri altına, qəlbimizi, həyat dünyamızı həm dalğalandırıb, həm də durulдanda, qarşımızda əlçatmaz dünyalar açanda, bizə yaşama sevinci, həyat eşqi aşılayanda könlümüzün həkiminə çevrilmirmi? Bu mənada yazıçılar, şairlər milyonlarla oxucunun dostu, sirdaşı və dayaqlarıdır. Leninqrad blokadasında yaşayanlar qeyd edirlər ki, bədii əsərlər bizə həm çörəyi, həm sobanı əvəz edirdi. Yazıçılar, şairlər insan qəlbinin qurucularıdır, mənəvi köməkləridir.

Mən xalq yazıçımız Elçini eyni vaxtda iki böyük sistemin arasında canlı bir körpüyə bənzədirəm: Baş nazirin müavini kimi böyük və məsuliyyətli vəzifə daşıyır. Həm də nəsrini, publisistik yazılarını, dramaturgiya sahəsindəki xidmətlərini saysam böyük bir siyahı alınar. Bu iki sistemin müasir Azərbaycan teatrı ilə bağlı qoyduğu problemlərin həllində xidmətləri danılmazdır.

## MƏN NƏ ÜÇÜN YAZIRAM?

«Bir dəfə mən atamın, xalq yazıçısı İlyas Əfəndiyevin iş otağında oturub onunla söhbət edirdim. Birdən atam əli ilə divar boyu düzülmüş kitab dolablarını, dəftərləri göstərib dedi:

- Dünyada ki, bu qədər böyük yazıçılar var, bu qədər böyük əsərlər yazılıb, biz nə üçün yazırıq? Biz ki, onlardan artığın yaza bilməyəcəyik. Dolablarda, rəflərdə isə Homerin, Firdovsinin, Nizami, Dante, Şekspir, Molyerin kitabları yan-yana düzülmüşdü.

Doğrusu, atamın həmin sualı o anlarda məni sarsıtdı.

Yazıçı yazarkən yalnız bir insan, bir fərd kimi özünü ifadə etmir. Hərgah yalnız belə olsaydı, onda bəlkə doğrudan da Firdovsidən, Balzakdan, Tolstoydan sonra yazmağın mənası olmazdı. Lakin hər bir yazıçı özü ilə bərabər, öz xalqını ifadə edir. Hər bir yazıçının yerinə başqası gəlib onun xalqının hiss və həyəcanından, psixologiyasından, əməl və arzusundan, gələcəyi naminə keçmişindən və bu günündən yazmayacaq. Bu yalnız həmin xalqın öz doğma oğlunun işidir».

Bu sözləri Elçin söyləyib. Və həmişə yazılarında da, daşıdığı vəzifədə də sözü ilə əməlinə sadiq qalıb.



Elçin Nizamini də, Füzulini də, Şekspiri də, Danteni də böyük məhəbbətlə sevir. Ancaq o, bu klassikləri müasirimizə çevirir. Elçin çağdaş Azərbaycan ədəbiyyatında Söz qarşısında öz ədəbi tarixi vəzifəsini şərəflə yerinə yetirir. Bu gün Elçinin adı hər bir azərbaycanlı üçün tanışdır, doğmadır.

## BÖYÜK SƏNƏT OCAĞININ ÖVLADI

Elçin uşaqlıqdan ailələrində sözə, şerə, sənətə böyük hörmət görmüşdü. Azərbaycan ədəbiyyatına böyük töhfələr vermiş rəhmətlik atası İlyas Əfəndiyev dövrünün görkəmli şəxsiyyətləri – Səməd Vurğun, Sabit Rəhman, Rəsul Rza, Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Soltan Hacıbəyov kimi böyük sənətkarlarla dostluq edib, onlarla yaxından yaradıcılıq əlaqələrində olub. Elçinin uşaqlıq illəri tez-tez gördüyü həmin görkəmli şəxslərin əhatəsində keçib. O, dünyaya göz açanda İlyas Əfəndiyevi yazı masasının arxasında görüb, onun ömrünü, coşqun istedadını zəhmətlə, fasiləsiz yaradıcılıq axtarışları ilə mənalandırdığının canlı şahidi olub. İlyas Əfəndiyevin «Sən həmişə mənimləsən», «Unuda bilmirəm», «Mahnı dağlarda qaldı», «Qəribə oğlan», «Söyüdlü arx», «Geriyə baxma, qoca», «Üçatılan» və s. kimi milyonların rəğbətini qazanmış əsərlərinin bəlkə də ilk təsirinə düşən elə Elçin olub. O, atasından həyatı dərindən duymağı, insan taleyinə, insan mənəviyyat və psixologiyasına sənət qayğısı ilə yanaşmağı, oxucunun zövqü və yüksək tələbi səviyyəsində dayanmağı öyrənib. Azərbaycan nəsr və dramaturgiyasında yeni və orijinal bir teatr məktəbinin ünvanı İlyas Əfəndiyevin adı ilə bağlıdır. Azərbaycan ədəbiyyatı tarixində lirik-psixoloji romanın ilk nümunələrini də o, yaradıb. İlyas Əfəndiyev novator yazıçı idi. Elçinin bir yazıçı və insan kimi yetişməsində böyüdüyü mühitin böyük təsiri şübhəsizdir. O bu gün də «mən həmişə İlyas Əfəndiyev yaradıcılığından öyrənirəm» deyir.

Elçin 1959-cu ilin 5 iyulunda «Azərbaycan gəncləri» qəzetində «O inanırdı» adlı ilk hekayəsini dərc etdirəndə atasının sənət dərsi qolundan tutmuşdu. İlk qələm təcrübəsi ona uğursuzluq gətirmədi.

Bu hekayə Elçin ünvanlı poetik işıqdan xəbər gətirmişdi. Sonralar ilk yazıları onun adını həmişəlik sevgi ünvanı etdi. Qorki demişkən, ədəbiyyat insanşünaslıqdır. Sənət insan duyğularının tərcümanına çevrilirsə, o, bütün dövrlər üçün yaşar olur. Elçinin

əsərləri də belə. İlk hekayəsini çap etdirəndə artıq ədəbiyyatımıza təzə nəfəsli, təzə ətirli baharın gəldiyi duyulmuşdu. Onda hələ məktəbli idi. Köksündə çağlayan ürəyi ilə dağımızı isitməyə, aranımıza sərinlik gətirməyə qanadlanırdı. Çox keçməyəcəkdi ki, o, sənət dünyamızda təzə söz deyəcək, öz ətri və nəfəsi ilə insanları heyrətləndirəcək, öz duyğu və düşüncələrinə bizi ortaq edəcəkdi. Elçin ustadlardan öyrənir, amma dünyaya öz gözləri ilə baxır, həyatı öz düşüncələri ilə dərk edir və öz diliylə anladırdı. Buna görə də heç kəsin görmədiyini o, görə bilirdi. O, sənət aləmində öz açdığı yolla gedirdi. Elçin uşaqlıqdan xalqa yaxın olduğundan, onun mənəviyyatını duyduğundan, xalqın qəlbinə yol tapa bilirdi.

Elçin də ön cərgədə olmaqla «altmışıncılar» nəsri ədəbiyyatımızın inkişafında mühüm bir mərhələnin başlanğıcını qoydu. Bu əsərlərdə mənəvi saflığa çağırış var. Bu əsərlərin qəhrəmanları mənəvi işığa can atırlar. Əsl böyük sənət məhdud fikirlər və düşüncələr çərçivəsinə sığmaz, orada insan həyatı və mənəviyyatı rəngarəng və mürəkkəb təzahürünü tapar. Elçinin də sənəti belədir. O, sənət aləmində özü kimi yeriyir, özünə sadiq qalır.

1966-cı ildə Elçinin «Min gecədən biri» adlı ilk hekayələr kitabı işıq üzü gördü. Adətən ilk kitabları ilə ədəbi aləmdə tanınmaq, oxucuların diqqətini cəlb eləmək çox çətindir. Axı birinci kitab istedadın püxtələşməsindən xəbər verir. 70-ci illərdə bir-birinin ardınca yazdığı: «Bir görüşün tarixçəsi», «Toyuğun diri qalması» və «Dolça» adlı üç gözəl povesti ilə Elçinin yaradıcılığında povest janrı yeni bir mərhələyə qədəm qoydu. Onda Elçin çox gənc idi. Ancaq bu povestlərdə həyat, gerçəklik, insanlar, mənəvi münasibətlər çox gözəl işıqlandırılmışdı.

80-cı illərdə isə Elçinin yaradıcılığında daha bir məhsuldar dövr başladı. Bu illərdə bir-birinin ardınca «Mahmud və Məryəm», «Ağ dəvə», «Ölüm hökmü» romanları işıq üzü gördü. Bu əsərləri bədii nəsrimizdə hadisə adlandırmaq olar.

Yazdıqlarının hamısında qəhrəmanlarının ağrı-acılarını, dərd-sərlərini ürəyindən keçirən, onları yaşayaraq, duyaraq qələmə alan, səmimi, kövrək qəlbli bir insandır Elçin müəllim. Bu kövrəklik, bu insanpərvərlik onun irili-xırdalı bütün əsərlərində var. Onun qəhrəmanları birbaşa həyatdan gəlir. Onlar oxucuya çox yaxındır, çox doğmadır, çox tanışdır. Lap elə ürəklərinə yatıb, könüllərində yer alan insanlar qədər. Həyatın sevinci-kədəri, fərəhli-ağrılı anları köçüb bu əsərlərə. Bu obrazların keçirdiyi hiss və həyəcanları inanmıram çoxları



yaşamamış olsun. Müəllif yazdıqlarını qəlbinin süzgəcindən keçirərək qələmə alır. Elçinin həyat, məhəbbət və ölümlə bağlı düşüncələrini əks etdirən əsərləri yaddaqalandır, insan ruhuna, insan mənəviyyatına ziyarət edəndir. Humanist duyğular onun bütün əsərlərinin mayasını təşkil edir. Bu əsərlər oxucuya mütləq yeni nəsə deyir.

Elçin həyatımızın mürəkkəb hadisələrini özünəməxsus bir tərzdə oxucuya təqdim edir. Həyatın iki zidd qütbünün – xeyirlə şərin, yaxşılıqla pisliyin, humanizmlə vəhşiliyin, işıqla zülmətin, yaşamaqla ölümün qarşılaşmasında işıqlı amalların qalib gələcəyinə oxucunu inandırır. Şübhəsiz ki, hər bir sənətkarın yaradıcılığında, onun həyata və gerçəkliyə münasibətində şəxsiyyət amili mühüm rol oynayır. Ona görə də hər hansı sənətkarın yaradıcılığını küllən nəzərdən keçirdikdə, ilk növbədə onun şəxsiyyəti gözlərimiz qarşısında canlanır. Bədii keyfiyyətindən asılı olmayaraq hər bir əsərdə sənətkar şəxsiyyətinin bu və ya digər cizgisi ilə qarşılaşırıq. Onun həyata münasibəti, dünya və cəmiyyət haqqında fikir və duyğuları da əsərlərindəki bu cizgilərdən hasil olur. Çağdaş Azərbaycan nəsrinin inkişafında özünəməxsus layiqli yer tutan xalq yazıçısı Elçin də məhz şəxsiyyəti əsərlərində əks olunan sənətkarlardandır.

Elçin müasir həyatla yaşayır, onun axarını dərindən duyur, insanların arzularını, duyğu və düşüncələrini ifadə edir.

Elçin müasir ədəbi prosesi bir yazıçı-tənqidçi kimi yaxşı duyur.

Elçinin nəsri ilə onun dramaturgiyası bütöv bir yaradıcılığın qoşa qanadlarıdır desək, səhv etmərik. O, zamanın böyük həqiqətlərini sənət dilinə çevirir. Bu gün Elçinin əsərləri olmasa, milli teatrımızın səhnəsi boş görünər. Onun əsərləri milli teatrın inkişaf axarına öz təsirini göstərib. Təsadüfi deyil ki, prezident Heydər Əliyev onun teatr tariximizdə xidmətlərini dəyərləndirərək: «Elçin bizim çox istedadlı yazıçımızdır, gənc vaxtlarından çox dəyərli əsərlər yazıbdır. Amma son illər o, eyni zamanda, teatr üçün də əsərlər yazıbdır. Deyəsən, keçmişdə bu olmamışdı. Çünki bu məsələ ilə əsasən onun atası məşğul olurdu. Atası rəhmətlik İlyas Əfəndiyev bu işlərlə çox uğurla məşğul olurdu və çox da gözəl əsərlər yaratmışdı. Elçin isə daha çox nəsr əsərləri yazırdı və dəyərli əsərlər yaratmışdı. Elçin isə daha çox nəsr əsərləri yazırdı və dəyərli əsərlər yaratmışdır. Ona görə də gənc vaxtlarından, 60-70-ci illərdə gənc yazıçılar, gənc şairlər sırasında idi. Hətta xatirimdədir ki, Yazıçılar İttifaqının ən gənc katibi Elçin oldu, o seçildi. Amma son zamanlar görürəm ki, o, eyni zamanda, pyeslər də yazır və onlar bizim Milli Dram Teatrının səhnəsində tamaşaya

qoyulur, uğurla göstərilir. Beləliklə də bizim teatr həyatı yaşayır» – deyib.

**YÜZƏ DOĞRU YOLUNUZ DA AÇIQ OLSUN, ELÇİN MÜƏLLİM!**

«Ömrümüzdən ömür qoparır, yaşımıza yaş gətirir sevinclə qeyd etdiyimiz ad günləri...» – nə vaxtsa belə demişdim. Qəlbimdə aylardan bəri yol gələn, yazıçı Elçinin 60 yaşına ünvanladığım yazımda bu fikrimi yenə təsdiqləyirəm. Amma indi təəssüflə yox, sevinclə deyirəm... Çünki artıq tarixə dönən 60 il hədər getməyib. Bu illərin sevinci daha böyükdür. Çünki arxada çətinliklərlə dolu olsa belə, mənalı, gözəl bir dünən qalıb. Geriyə boylanıb qürurla: «Nə yaxşı ki, bu ömrü mən yaşayıram» deməsinə haqq qazandıran bir dünən. Həmin günlər onu sənətlə bağlı bütün arzularına qovuşdurub. İndi işinin çoxluğuna baxmayaraq, vaxtının çox hissəsini yaradıcılığa həsr etməsinə uzun illərin adəti kimi yox, azalmaq bilməyən istə, bitib-tükənməyən istedad kimi baxmaq lazımdır. Çox az sadaladığım işlərini 60 yaşlı yazıçının ömrünə və elə bu 60 rəqəminin sayına sığışdırmaq olmur... Əslində, bu cəfakeşlik ölçüyəgəlməzdir. Faktlar da bu böyük həqiqəti təsdiqləyir. Elçin müəllimin ədəbiyyatımızda və teatrımızda xidmətlərinə bütövlükdə nəzər salanda düşünürsən ki, o, zirvələri çoxdan aşıb və tarixdə yer alanların sırasındadır. Tarix isə hər kəsə bu sırada yer ayırmır... Amma qarşıda hələ açılası qapılar çoxdur...

Mən xalq yazıçımız Elçinin 60 illik yubileyinə bir ovqat yazısı hazırlamaq istədim. Buna nə dərəcədə nail olduğumu deyə bilmərəm. Söhbətimin sonunda Elçinin iki il bundan əvvəl Vaqif Yusiflinin «Siz özünüzü XXI əsrdə necə görürsünüz?! – sualına verdiyi cavabı xatırlamaq istəyirəm:

- Mən özümü XXI əsrdə də XX əsrdən qalmış, XX əsrin adamı olan bir insan kimi görür və hiss edirəm. Həyat sürprizlərlə doludu, amma mən heç vaxt XXI əsrin adamı olmayacağam. Allah lazım bilsə XXI əsrdə yaşayacağam, amma XXI əsrdə yaşaya-yaşaya XX əsrin adamı olub qalacağam.

Mənsə belə deyərdim: Siz bütün əsrlərin adamısınız, Elçin müəllim! Çünki yazdıqlarınız hər zaman qalacaq. Əsərləriniz adınızı heç zaman bitməyəcək, unudulmayacaq bir sevgi ünvanı edib. Azərbaycanın həmişəyaşar Elçini olmusunuz bu əsərlərlə. Bu əsərlər fikrinizin karvanı kimi zamanın dalğalarında yol gedəcək, bütün zamanlarda oxunacaq.



***SİTAT***

«Həyatın acı həqiqətlərindən danışanda da şirin, səmimi, xeyirxah dillə danışmaq sinəsində şəfqətli sənətkar ürəyi gəzdirənlərə qismət olur ki, Elçin də onların cərgəsindədir».

*Əziz Mirəhmədov*

*«Kaspi» qəzeti, 13 may 2003.*

Səyavuş MƏMMƏDZADƏ

## PƏNCƏRƏYƏ SƏPƏLƏNƏN QAR DƏNƏCİKLƏRİ

**(Elçinin 60 illik yubileyi münasibətilə)**

Elçin erkən yaşlarından özünü ifadə etməyə və özünütəsdiqə nail olmuş, qısa müddətdə çağdaş nəsrin aparıcı nümayəndələri ilə bir sırada yer tutmuşdur. Eyni uğuru dramaturgiya, ədəbi tənqid, publisistika, bədii tərcümə sahəsində də qazanmışdır. Bu, tükənməz, əməklə daha da çağlayan, parlayan istedadın, öz işinə vurğunluğun, sözə sevginin sayəsində mümkün olmuşdur.

Körpəlikdən o, ədəbi mühitlə nəfəs almışdır. Atasının – böyük və qüdrətli qələm sahibinin, nasir və dramaturq İlyas Əfəndiyevin mənzilinin qapısı dostları, məsləkdaşları üçün həmişə açıq olmuşdur.Onların qonaqpərvər və xeyirxah doğma ocağı ana istisindən çox tez məhrum oldu: ölçüyəgəlməz, əvəzolunmaz itki iki qardaş – Elçin və Timurçinin körpə qəlblərini yandırıb yaxdı. Bu vaxt İlyas müəllim balacaları isti qanadlarının altına aldı, onların qəlbindəki gözəgörünməz boşluğu doldurmağa çalışdı. Tale fərdin böyüməsinə, xarakterin formalaşmasına təkan verir. İlk əsərin mətbuatda dərc edilməsi, ilk kitab, ilk sevinclər. Artıq «60-cılar»ın – Anar, Maqsud və Rüstəm İbrahimbəyov qardaşları, Yusif Səmədoğlu, Əkrəm Əylisli və başqa istedadlı nasirlərin adı guruldayırdı. Özü də bu «guruldamaq» mətbuatda həm də sifarişli hücumlarla, qərəzli tənqidlərlə müşaiyət edilirdi.

Elçin yaşca nisbətən kiçik olsa da, yeni, təzə mühitə inamla daxil oldu. O, yaşlı həmkarlarının Anara, Əylisliyə, Maqsud İbrahimbəyova, Fikrət Qocaya yönəldilmiş haqsız hücumlarını görürdü. Xruşşov dövrünün mülayimliyi tezliklə yeni soyuqlaşma ilə əvəz olunmağa başladı. Lakin artıq «buz sınmışdı», sosrealizmdə çatlar yaranmışdır. Elə həmin dövrdə (indiki kimi) yaradıcı ziyalılara son dərəcə qayğı ilə yanaşan Heydər Əliyev respublikaya rəhbərlik etməyə başladı...

Gənc Elçin nədən yazırdı? Gördüyü, bildiyi, yaxşı duyduqları haqqında. Köhnə Bakı məhəlləsinin adamları, Abşeron qəsəbəsinin yeniyetməsi, dəmir yolunun kənarındakı kənddəki romantik arzulu uşaq onun povest və hekayələrinin personajıdır. Lakin yaradıcılıq naturadan çəkilən foto deyil. Burada təsvirlər, fantaziya, sənətkarlıq



məharəti lazımdır. Qorki deyirdi ki, toyuğun nələr çəkdiyini bilmək üçün qazanda onunla birlikdə qaynamaq lazım deyil. Ona görə də «Gümüşü fayton»dakı Balaqədeş qəlibdən çıxan natura deyil, bədii xarakterdir. Eləcə də Abşeron restoranlarında yemlənən it («Dolça») adi itlərdən deyil, obrazdır. Buninin («Snax Çanqa») iti kimi,Tolstoyun («Xolstomer») atı kimi.

Sonralar Elçinin qələmindən «Mahmud və Məryəm», «Ağ Dəvə», «Ölüm hökmü» kimi irihəcmli povest və romanlar çıxmışdır. «Mahmud və Məryəm» romanında Əsli və Kərəm haqqında xalq dastanındakı mövzu tamamilə yeni, orijinal fəlsəfi fikirlərlə zənginləşdirilmişdir. Bütün bunlarla paralel (bu sözün Elçin yaradıcılığı üçün nə qədər yerinə düşdüyünü bilmirəm) Elçin ciddi ədəbi tədqiqatla məşğul olur, mətbuatda tənqidçi kimi çıxış edir. Yapon nəğmələrini tərcümə edir. Eyni zamanda, respublika Yazıçılar Birliyinin katibi, «Vətən» Cəmiyyətinin sədri kimi faydalı ictimai fəaliyyətlə məşğul olur, son illər ərzində isə müstəqil Azərbaycan Respublikasının Baş nazirinin müavini vəzifəsində uğurla çalışır.

Son dövrdə Elçin dramaturgiyası haqqında tez-tez eşidirik. Onun pyesləri bizim və qardaş Türkiyə teatrlarının səhnəsində oynanılır. O bu yaxınlarda «Drujba narodov» jurnalının redaksiya heyətinə seçilmişdir. Yaxşı ki, «Drujba narodov» sərhəd dirəklərindən bu tərəfi unutmamışdır, sevindiricidir ki, orada bizi Elçin kimi layiqli və nüfuzlu qələm dostumuz təmsil edir.

Elçini bir çox dünya xalqlarının dilində oxuyurlar. Onun yaradıcılıq fəaliyyəti çox sayda fəxri adlara və mükafatlara layiq görülmüşdür. Yubilyarın insani və şəxsi dəyərlərindən danışmaya bilmirəm. Elçinin qələm sahiblərinə, xüsusilə gənclərə qarşı həssaslığı, diqqəti, qayğısı fərqləndirir. O, daha bir cəhəti ilə də - məsuliyyəti, sözünün sahibi olmaq bacarığı ilə seçilir. Bu sətirlərin müəllifinin ən ağır dəqiqələrində Elçin bir insan kimi, Baş nazirin müavini kimi onun yanında olmuşdur.

Bildiyim kimi, Elçin «Böyük aslan» komediyasını və «Qatil» adlı dramını bitirmişdir. Şübhə etmirəm ki, onların uğurlu səhnə təcəssümünün şahidi olacağıq. Nizaminin 840 illik yubileyi ilə bağlı Leninqrada səfərimizi xatırlayıram. Qabil, Araz Dadaşzadə də bizimlə idi. Leninqradda Nəriman Həsənzadə bizə qoşuldu. Vaqonumuz qarla örtülmüş bütün ölkəni – hələ alovlanmamış Çeçenistanı, Minvodu (biz oradan Bakılıların yay ziyarətgahını - Kislovodski xatırlayaraq, bu xeyirxah diyara əl etdik) dolaşaraq, Şimala doğru hərəkət edirdi. Elçin

nümayəndə heyətinin rəhbəri idi. Biz qəlbimizdə Cənub hərarətindən pay aparırdıq. Orada da soyuqluq hiss etmədik. Qatar hələ də narahat planetdə külək və qarı dəf edərək «gözəl və kədərli dünyada» (A.Panov) şütüyür və biz qələm dostları yenə bir yerdəyik və gözəl irigözlü, şəvə saçlı gənc dostumuz da buradadır. Onun saçları indi ağarmışdır, görünür, günahkar qatarın pəncərəsindən içəri dolan, səpələnən qar dənəcikləridir.

*«Бакинский рабочий» qəzeti, 13 may 2003.*





## ƏBƏDİ VƏ DOĞMA QANAD SƏSLƏRİ

Min illər bundan öncə yazıçı Elçin öz yazı masasını mənə bağışlamışdı. Ona da bu masanı min illər öncə İlyas müəllim vermişdi. Mən o masanı dünyanın ən gözəl və ən böyük sarayı adlandırdığım otağımın düz ortasına qoydum. O masaya qədər mənim sarayımda quru döşəmədə uzanıb baxışlarımla bir neçə mərtəbəli tavanları deşib otağıma buraxdığım göyüzündən və ulduzlardan başqa heç nə yox idi. Döşəməyə uzandığım o anlarda mənim sarayım yerüzünün yox, göyüzünün davamına çevrilirdi.

Mən ilk öncələr o masanın altında oturub dizimin üstündə yazırdım. Bir zaman ulduzların altında oturub yazdığım kimi. Yəni o masadan göyüzü kimi istifadə edirdim. Sonralar masanın üstünə uzanıb yazmağı kəşf elədim. Bunu vaxtilə buludların üstünə uzanıb yazdığım yadıma düşəndə tapdım. Yazdıqca o masa uzanıb məni göyüzünün Şer qatına, ordan da Allahın Ətəyi qatına, ordan da Sevgi qatına qaldırırdı. Bu kəşfdən sonra mən daha o masadan düşmədim. Elə o masanın üstündə yaşayırdım, yazırdım, sevirdim. Düzdür, bəzən onun altına düşmək, girmək də mənə ləzzət eləyirdi.

Şer yazdıqca o masanın uzandığını görürdüm. Tezliklə onun ucları divarları yarıb keçdi, heç kəsə görünmədən şəhərlərin, dağların, dənizlərin üstündən uzandı və sevgiylə dünyanı qucaqlayıb saysız sayda dünyaya dolandı. Dünya mənim sevgimin yumağına çevrildi. O masadan uzaq-uzaq ulduzlara, göylərə, dünyalara da qollar, qanadlar açıldı və o qollar, qanadlar min-min illər sonra yenidən dünyamızı dolanmaq üçün geri qayıtdılar.

Hər bir yazı masası gözə görünən dünyanın kiçik modelidir. Onun üstündə və ya altında yazıldığı andan o, gözəgörünməz dünyanın modelinə çevrilməyə başlayır. Beləcə, yazıçı, şair gözlə görünməyən dünyanın üstündə, ya da altında yaradır. Əslində gözlə görünən və görünməyən hər iki dünya isə bir olan Allahın bir olan yazı masasıdır. Allah hamımızı o masanın altından, üstündən, yanından qanadlanmağa və ya sürünməyə yaradır.

Əziz İlyas müəllim! Əziz Elçin bəy! Mənə sevgiylə bağışladığınız o masayla qanad-qanada verib uçduqca Sizin də qanadlarınızın səsini

eşidirəm. O qanadların səsi mənimçün dünyanın ən əbədi və ən doğma səslərinin içindədir. Suyun, işığın səsi kimi.

*«525-ci qəzet», 13 may 2003-cü il.*





## ZAMANSIZ ÖMRÜN YİYƏSİ

Mənim üçün Azərbaycan nəsri M.F.Axundovun «Kəmalüddövlə məktubları» ilə başladı. Orta məktəb dərsliyi çərçivəsində çıxan bu əsər illər boyu beynimin divarlarında təbaşirlə yazılan yazı kimi qaldı, daşlaşdı, kitabələşdi. Milli ədəbiyyatımızı dərk etmək, sevmək üçün M.F.Axundova borcluyam. Həmişə elə düşünürəm ki, dahilər, böyüklər, ucalar qocala bilməzlər, onlar zaman boşluğunda, vakuumda məskunlaşıblar və onların varlığı zamanın hüdudlarından kənardadır. İndi də elə fikirləşirəm...

Çox qəribədir ki, mənim dövrümün ədəbiyyatında (söhbət milli ədəbiyyatdan gedir) biri-birinə oxşayan ədiblər var. Bəlkə də bu oxşarlığı mən özüm üçün uydurmuşam, ola bilər, amma mən onları eyni ruhun, eyni əxlaqın, eyni intellektin yiyələri olduqları üçün sevmişəm.

1999-cu ildə Vaqif Səmədoğlunun 60 yaşı olan ərəfədə mən həbsdə idim. Tale elə gətirdi ki, alın yazımın düşərlik dövrünün o mərhələsi şair qardaşımın yubileyinə təsadüf etdi və elə «525-ci qəzet»də Rəşad qardaşım «Vaqif Səmədoğluna boş skamyaların birindən açıq məktub» adlı yazımı çap elədi və imkan daxilində Vaqif bəyin ad gününə təbrikimi yetirdim. Ancaq, indi də inanmıram ki, Vaqifin 60 yaşı, 70, 100 yaşı ola bilər. Mənim üçün Vaqif həmişə 30 yaşında, ilk şerini «Ulduz» jurnalından oxuduğum Vaqif Vəkilov yaşda qalaraq durur. Eynən Anar, eynən Yusif Səmədoğlu, Ramiz Rövşən, Seyran Səxavət, Vaqif Bayatlı və təbii ki, Elçin!

... 70-ci illərdə ekranlarda «Baladadaşın ilk məhəbbəti» adlı qısametrajlı bir film göründü. Hamı sevə-sevə baxırdı o filmə. Mən də... Sonra nə vaxtsa Elçinin «Bu dünyadan qatar gedər» kitabını oxudum və «Baladadaşın ilk məhəbbəti» hekayəsinə rast gələndə sevinərək, içimdə qışqırdım ki, mən bu filmə baxmışam. Elə lovğalanırdım ki, hamının yanında. Deyərdim ki, sizin baxdığınız kinonu mən həm də oxumuşam. Qəribə idi, Bakı kəndlərinə bağlılıq, bağ mövsümü, dəniz, Abşeronun əvəzsiz sahil zolağı və duyğusal insanların sadəlövh, çirkabsız taleləri məni bu kitablara bağlamışdı. Elçin bir-birinin davamı olan «Dolça», «Toyuğun diri qalması» kimi povestləri ilə Bakı kəndlərini, Abşeronun xarakterik xüsusiyyətlərini

sevdirdi bizlərə. Və mənim dövrümün şəhər ədəbiyyatı belə yaranırdı, mənim kimi yüzlərlə oxucu üçün.

Elçinin yumoru özünəməxsusdur. Əslinə qalanda bu yumoru qəhrəmanın düşdüyü vəziyyət, ətraf aləmə münasibətin özü yaradır. Bir vaxtlar çoxumuzun dilindən düşmürdü «Şapkama and olsun ki, şollar suyudur» zarafatı.

Mənim aləmimdə şəhər həyatını yazmaq, kənd həyatını yazmaqdan məsuliyyətli və çətindir, düzdür professional üçün bu böyük əhəmiyyət kəsb etmir, ancaq hər halda şəhər mühitində bir darlıq var, qapalılıq var. Hamı yığışıb öz evinə və öz ömrünü yaşayır. İki, üç, dörd, lap olsun beş otaqlı mənzillər, dəmir qapılar, vəssalam. Kənddə isə məkan daha böyükdür, həyat göz önündədir. Şəhər həyatında qəribə bir soyuqluq var, kənddə isə birlik, hərarət. Amma böyük yazıçılar şəhər mövzusunun özündəki hərarəti axtarıb tapa bilirlər.

Mən Elçin haqqında heç də tənqidçi kimi, ədəbiyyatçı kimi yazmaq fikrində deyiləm. Bu məsələ peşəkarların işidir, mən oxucu kimi Elçin Əfəndiyevin 60 yaşı ərəfəsində özümə hesabat vermək istəyirəm ki, Elçin mənə nə verib? İlk növbədə qələm və kağız qarşısında səmimi olmağı. Əsas olan da budur.

Elçinin qəhrəmanlarını onun hekayələrindən daha yaxşı tanımaq olur. Onlar zəhmətkeş, bir çox hallarda qayğıdan, diqqətdən kənar qalıb gözə görünməyən, amma içlərində böyük bir ürək daşıyan, arzularla, xəyallarla yaşayan insanlardırlar. Onları kəşf etmək lazımdır. Belə götürəndə Bakının özü ilə kəndləri arasındakı məsafə bir neçə kilometrlərlə ölçülür, ancaq həmin o bir neçə kilometrlər insanların həyat tərzinə, mənəviyyatına ciddi təsir göstərir. Şəhərdə inkişaf gedir, tərəqqi ev-ev, küçə-küçə gəzir. Bakı kəndi isə köhnə düşüncənin, köhnə fikirlərin cəngindən yaxa qurtara bilmir. Elçin bu paralelləri verməklə, dövrün məntiqsizliyini bütün çılpaqlığı ilə göstərir. Şəhərli, hansı ki, beş il əvvəl ucqar dağ kəndindən gələn, şəhərdə oxuyan, qalıb işləyən şəhərli ömrü boyu şəhərin bir addımlığında yaşayan köklü şəhərlini istehza ilə qarşılayır, özünü zorla şəhər tərbiyəsinə sığə etmək istəyərək «kənd» tərbiyəsini bəyənmir. Oxucu isə yazıçının xarakterləri açmaq məharətinə söykənib, zorən intilligenti deyil, necə varsa, elə görünən sadə şəhərliləri sevir.

Elçin «Mahmud və Məryəm», «Ağ dəvə», «Ölüm hökmü» kimi romanları ilə də gənc nəslin ədəbi dünyagörüşünə ciddi təsir göstərə bilib. Şəxsən mən «Ağ dəvə» romanında müxtəlif hissləri oxuyarkən



insan vəhşiliyi qarşısında göz yaşlarımı saxlaya bilməmişəm. Stalinizmin dəhşətləri və yenə Bakıda yaşayan müxtəlif taleli insanların həyatı oxucu olaraq mənim sinirlərimin içindən keçib. Nə isə...

Mən çox yaxşı bilirəm ki, Elçin kimi yazıçılar dünya ədəbiyyatının bir parçaları olaraq qəliblər dünyaya. Ancaq mən tam səmimiyyətlə deyirəm ki, Elçinin 60 yaşı yoxdur. Heç onun 50 yaşı da olmayıb. Heç 150 yaşı da ola bilməz. Elçin min ildən sonra da öz oxucusu üçün 20-30 yaşlı gənc nasirdir. Adam var ki, zamanın içərisindən keçir, zamana təsir edə bilmir. Adam var ki, zaman ona təsir etmək istəyir, zaman onun içindən keçmək istəyir. Mənim aləmimdə Elçinin zamana deyil, zamanın ona dəxli var. O ki, qaldı ad gününə – **Ad günün mübarək Elçin müəllim!** Sizə zamansız bir ömür **arzulayıram.**

*«525-ci qəzet», 13 may 2003.*

## QATAR, PİKASSO, KAMYÜ, ELÇİN VƏ YABANÇI

### (Paris qatarında xəyal)

... Gecə. Qatar. Qatar qaranlığa girir. Dörd nəfərlik kupe. Kupedə dörd kişi var. İspan rəssamı Pablo Pikasso. Pikassonun cin gözləri.

Pikasso sevdiyi qadınlardan danışır. Gülümsəyir. Yalnız Pikasso belə gülümsəyə bilər.

Pikassonun rəsmlərində gül-qadınlar, qadın-güllər təsvir olunur. Pikassonun əsərlərində qadınlar gülə-çiçəyə, güllər-çiçəklər isə qadınlara çevrilir.

Pikasso sehrbazdı, möcüzə sevir.

Kupenin havasından tütün qoxusu asılıb – Əlcəzair tütünü. Alber Kamyü Əlcəzairdən gəlir. Qafasında lənətə gəlmiş suallar.

Elçinin gözlərində Abşeron nisgili işarır. Elçin çantasından bir dəstə məktub çıxarır. Məktublardan birini açıb oxuyur. Elçinin pıçıltı ilə öz ana dilində oxuduğu məktubu Pikasso ispan, Kamyü isə fransız dilində eşidir.

bir parisli müsyö kimi
qəribəm bu şəhərdə
nə paris əyyaşıyam
nə də sürrealist rəssam

mirey matye oxuyur radioda
qürbət dözülməz oldu bu axşam

bu şəhərdə də bir qobsek ata var
həmin bu qobsekin evində
kirayədə yaşayıram
fələklərin mələklərin çiçəklərin
ağacların yağmurların quşların küləklərin
dilini anlayıram
ha çalışdım bu qobsekin
dilini bilmədim dostum



yapon balıqları saxlayıram akvariumda
yapon balıqlarına şerlər oxuyuram
balıqların səsindən qobelen toxuyuram
onları yemləyəndə unuduram aclığımı

sağlığımda nekroloqumu oxumaq istəyirəm
paris qəzetlərindən
parisdə yaşayırmıştək yaşayıram qürbətdə
qara frak geyirəm
sol döşümdə qızılgül
şlyapamı çıxarıb salamlayıram
şərq şairlərinin heykəllərini

* * *

Yabançı adam qürbətdən qürbətə gedir. Yabançı adam mənəm. Bu məktubu Elçinə mən yazmışam. Uzun illər elə bilmişəm ki, məktublarım ünvanına yetişməyib. İndi Elçin mənim məktublarımı oxuyur.

Alber Kamyü gözaltı bilmədiyi dildə yazılmış məktuba baxır. «Yalnız bir fəlsəfi məsələ mövcuddu – intihar məsələsi» deyir. Sönmüş qəlyanını alışdırır. Dərin bir qullab vurur. Kamyünü Kamyü kimi anlamaq üçün bəlkə də ötən əsrin əvvəllərində Əlcəzairdə doğulmuş bir fransız yazıçısı olmaq lazımdı.

* * *

Qatar gecənin içiynən gedir. Gecənin içində dəmir yolu vağzalı – gecənin içində ilk dayanacaq. Vağzalın öləziyən kədərli sarı işıqları.

Pəncərənin qara kvadrat çərçivəsində ansızın bir işıq parıltısı alışıb sönür.

Yabançı adam Kazimir Maleviçin supermatik «Qara kvadrat» kompozisiyasını xatırlayır. Onun taleyi də Maleviçin qara kvadratına bənzəyir. Orda nə bir mutluluq işartısı, nə də bir ümid qığılcımı var.

Yabançı adam mənəm. Bu gecə ölümdən başqa bir sevdaya yer yoxdu mənim içimdə.

Kamyünün başı qafasının içini, beynini yeyən öz lənətə gəlmiş suallarına qarışıb. Kamyünün ağlına gələnlər başına gələcək. Mən onun Parisdə bir avtomobil qəzasında həlak olacağını bilirəm. Pikasso da, Elçin də bunu bilir. Bəlkə o özü də bunu öncədən duyur. Amma indi özünü elə göstərir ki, guya bu ölümdə bir ədalət var.

«Mənə bir balaca tənhalıq, bir az ədəbiyyat lazımdır, insanlarla çox yaşaya bilmirəm» - deyə müsyö Kamyü öz-özünə danışırmış kimi düşündüyünü söyləyir.

İkinci məktubu açan Elçin: «İnsanı başa düşəcək yeganə adam o özüdür» deyir.

İkinci məktub:

parisdə bir körpü altında
oturmuşam bu gecə
sena çayı təzəcə əridilmiş
qurğuşun kimi axìr
bu gün parisdə talesiz bir türk şairi olmaq
çox zor çox ağır
müsyö adil deyir mənə
parisin səfilləri
göyüzünə baxıram
göyüzündə bodlerin gülləri
pikassonun qadınları qeyb oldu ömrümdən
huşumdan çıxıb dostum
bu gün ayın neçəsidi
bu gün miladdan sonra neçənci ildi
bu gün hansı fəsildi
bəlkə mən də qogen kimi
bir gəmiyə bilet alıb
parisə orvuar deyim
bəlkə təzəcə əridilmiş qurğuşun kimi axan
senada boğum özümü
bəlkə ölüm mələyinin qapısını döyüm
cibimdə telefon nömrəsi
ev ünvanı



senaya baxır pəncərəsi
eyvanı
parisdə bir körpü altında oturmuşam
uğursuz bir gecədi
dostum bakıda
fəvvarələr bağında hava necədi

* * *

Pikasso elə bil dünyada heç nəyin fərqində deyil. O, şərabdan və gül qadınların sevdasından yüngülcə sərxoş kimidi.

Pikasso deyir: «Mən dünyanı gördüyüm kimi deyil, düşündüyüm kimi təsvir edirəm».

Alber Kamyü düşündüyü kimi yaşayır.

Elçin yaşadığı kimi düşünür.

Pikassonun düşündüyü kimi yaratdığı dünyada mən yabançı olduğumu anlayıram. Ürəyimə dəhşətli bir ağırlıq çökür. Mən daha gözəl bir dünyanın şairi olmalıydım.

Pikasso elə bil ki, nəsə axtarır. «Nə axtarırsınız» – Alber Kamyü soruşur. «Mən axtarmıram, tapıram» – Pikasso gülümsəyir. Yalnız Pikasso belə gülümsəyə bilər.

* * *

Qatar. Pikasso. Kamyü. Elçin və mən.

Qatar bir qaranlıqdan çıxıb başqa bir qaranlığa girir. Hamımız eyni qaranlığın tənhalığı içindəyik.

Pikassonun bir önəmli əsəri var. O əsərdə kafedə oturmuş kişi və qadın təsvir olunub. O əsərdəki kişi mənəm. Elçində o əsərin reproduksiyası var. Uzun illər öncə ömrümün ən acı, ən ümidsiz gecələrinin birində o rəsmdən çıxıb Elçinin qapısını döymüşdüm. O gecə mənim ömrümdə bir möcüzə baş vermişdi. Mən yenə hər səhər dünyadan möcüzə gözləyirəm. Sonra Elçinə Parisdən məktublar yazdım. Elçinə üçüncü məktubum:

senanın sahilindən
məktub yazmışdım sənə
o məktubu aldınmı
aldınsa niyə susdun

bəlkə bir macəra var başında
parisdə Azərbaycan səfirliyinin
qarşısında
özümü yandırsam bir gün
dünya dəyişərmi sənin gözündə
amma şerlərim qapını döyəcək hərdən
indi piqal meydanında
şabalıd ağaclarının kölgəsində
pikassonun göyərçinlərini yemləyirəm
fransız kökəsiynən
aylardan may ayı
günlərdən çərşənbə
28 may 1997
istiqlal gününü
bayram eləyirəm göyərçinlərlə

bu yay yolun düşsə parisə gəlsən
nar çiçəyi gətir mənə vətəndən

* * *

...Vağzal. İşıq dirəyi. İşıq dirəyinin altında bir adam. Bu adamı hardasa görmüşəm. Amma harda?.. Bəlkə Pikassonun rəsmlərində, bəlkə də Elçinin hekayələrində rastlaşmışıq.

Bu dünyada hər şey dəyişir. Dünya fırlanır, zaman dəyişir. Qaranlıq da həmçinin. Bəs dəyişməyən nədi?

Dəyişməyən nədi?.. Dəyişməyən... Allah dəyişmir.

Qatarın pəncərəsində Pikassonun surəti. Pikasso pəncərədə görünən rəsminə baxır. Qara fonda Pikassonun cin kimi baxan gözləri. Onun gözlərində dahiliklə divanəlik bir-birinə qovuşub. Pikasso xəyali avtoportretinin son cizgilərini tamamlayır. Rəsm hazırdı, indi bircə rəssamın öz rəsminə oxşamağı qalır.

Hardansa bir kəpənək peyda olur. Kəpənək uçub pəncərəyə qonur. Elçin yapon şairi Bosyodan bir hokku deyir:

Eh, kəpənək!
Oyan yuxudan,
Mənə yoldaş ol!



Pikasso gülümsəyir. Yalnız Pikasso belə gülümsəyə bilər.
Elçin də gülümsəyir. Yalnız Elçin belə gülümsəyə bilər:

Payızda da yaşamaq istəyir
bu kəpənək:
xrizantem şehini tələsik içir.

Pikasso Bay-Şi yaradıcılığını yüksək qiymətləndirir. Rəssam üzünü Elçinə tutub: «Mən çinli doğulsaydım, yəqin ki, rəssam deyil, yazıçı olardım» - deyir.

* * *

Yenə bir gecə vağzalı. Yenə işıq dirəyi. Yenə işıq dirəyinin altında bir adam dayanıb qatar pəncərələrinə baxır.

Yabançı adam bir gecə vağzalında qatardan düşəcək. Yaşıl cildli bir şer dəftəri yadından çıxıb qatarda qalacaq. Kamyü bilmədiyi yazılmamış şerləri oxuyacaq, amma gülümsəyə bilməyəcək.

Kamyü şer dəftərini Elçinə verəcək. Dəftərin arasından bir məktub düşəcək. Şer dəftərinin arasından çıxan məktubun özünə ünvanlandığını görəndə Elçin heyrətlənəcək. Gülümsəyəcək. Yalnız Elçin belə gülümsəyə bilər.

Şer dəftəri arasındakı məktub:

metropol yuxuları görürəm parisdə
uyuşmadım parisin metropol həyatına
axşamları güzgülərə çəkildim
durub durub könül açammadım
bir gül qadına
başqa özəllikləri də var parisin
indi sənə yaza bilmirəm
yəqin sənin gözündə mən
parisdə bir lümpenəm
fikir vermə qəmin kəm
amma keçmişlərimi unutmamışam
bu halımda yalnız əski röyalar

tutunacaq bir budaqdı
geri dönümmü dedin
bağışla çox uzaqdı
burdan görünmür məmləkət
burdan görünmür Allah
batan gəmidi ömrüm

* * *

Gecə, vağzal saatı. Vağzal saatının əqrəbləri tərpənmir.

Elçinin iş otağında Pikassonun bir rəsmi var, daha doğrusu, əsərin reproduksiyası var. Mən o rəsmin içindəyəm.

Elçin möcüzə sevir.

Hər açılan səhər möcüzədi.

*«Palitra» qəzeti, 14 may 2003-cü il.*





## ADİLİYİN QEYRİ-ADİ BƏDİİ TƏCƏSSÜMÜ

- **30-35 il bundan əvvəl Elçin dilinin gözəlliyi-təzəliyi, süjetlərinin orijinallığı, üslubunun əlvanlığı ilə diqqətimizi çəkirdi. Bu əlamətlər bu qələm sahibinin yazıçı gələcəyinə inam təlqin edirdi. Bununla da Elçin hələ çox cavan yaşında, ilk yaradıcılıq nümunələrindən istedadını elan etdi. O, bu gün – 60 yaşın tamam olduğu bir dövrdə də bizi heyrətləndirir – yaradıcılığının monumentallığı ilə. Fasiləsiz, həm də üzücü ictimai işlər, bir-birindən ağır vəzifə bürokratiyaları qaya salları kimi yaradıcılıq axarının qarşısını almaq təhlükəsi ilə hədələyəndə bədii düşüncəsinin seli onun qələmini dəyirman timsalında işlədib.**

Gərgin vəzifə işləri, həm də milli mədəniyyət, dövlətçilik üçün vicdanla görülən işlər və bununla yanaşı cild-cild kitablar – Elçinin həyat yolu belə əlamətlənir. Bu, tək-tək insanlara qismət olan keyfiyyətdir. Telefon dəstəyi ilə qələmi növbələşdirmək də böyük istedad istəyir. Bu iki iş Elçinin şəxsiyyət bütövlüyüdür. Mən böyük istedad sahibi yazıçı və alimlər tanıyıram ki, vəzifələri onların yaradıcılığına buxov olub. Mən elələrini qınamıram. Deməli, onların gücü buna çatır. Ancaq qınanmalı odur ki, həmin adamlar ədəbiyyata və elmə daha çox xeyir verə bilərdilər. Hər halda beləlləri vicdan sahibləridir ki, elmi və ədəbiyyatı stola qurban verirlər, ancaq oturduqları stolu yarıdırlar. Çünki mən elələrini də tanıyıram və dəhşətli də budur ki, vəzifə stolunda oturub ancaq öz yaradıcılıqları ilə məşğuldurlar.

Yaxşı ki, Elçinin istedadında hər iki qanad var və təbii ki, qoşa qanadla hər iki işi yarıdır. Heç olmasa, Elçinin cild-cild bədii əsərləri ilə yanaşı, cild-cild elmi kitablarını yadımıza salaq. Bu elmi yaradıcılıqda Elçin böyük sənət, mədəniyyət, ədəbiyyat adamlarının əsərlərini və şəxsiyyətlərini təhlil edir, onların milli tarixi və gündəlik xidmətlərini geniş ictimaiyyətə çatdırır. Bu elə onun daşıdığı vəzifənin borcudur. Deməli, Elçin vəzifə işini böyük professionallıqla yerinə yetirir. Elçinin bu yöndə işlərinin də ümumxalq dəyəri olub – onun

məsul kürsülərdən söylənmiş dolğun çıxışlarını, milli əhəmiyyətli tədbirlərdəki təşkilatçılığını xatırlayaq.

Doğrudur, hər iki işi istedadla görür, ancaq mədəniyyət tariximizdə Elçinin yazıçı istedadının bəhrəsi qalacaq. Və necə deməyək ki, bütün gücünü bu işə vermiş olsaydı, onun Tolstoy, Drayzer həcmində irsi qalardı. Əlbəttə, bu, Elçinin yaradıcılıq məhsuldarlığından şikayət deyil. Sadəcə, bu qədər əlavə işlə (təbii ki, yazıçı olan kəs üçün bunlar məhz əlavə işdir) bu səviyyədə monumental bədii yaradıcılığın qarşısında heyrətimizi və bu heyrətin doğurduğu düşüncəni dilə gətiririk. Elçinin bədii yaradıcılığının monumentallığında kəmiyyət və keyfiyyət birləşir. Onun əsərləri içərisində bədii kamilliyi ilə bir-birinə güzəştə getməyən romanlar, povestlər, dramlar var.

Ancaq bu da var ki, Elçin kiçik həcmli iki-üç əsəri ilə də ədəbiyyatımızda öz mübahisəsiz sənətkar yerini tuta bilərdi. Elçin hər əsərində Elçindir, hər əsərində sənətkardır, əsərlərinin hər birində mükəmməl söz ustasıdır, gözəl, aydın və məhz özünün olan üslub sahibidir.

«Dolça» yığcam bir povestdir. Ancaq ədəbi-psixoloji təəssüratı ilə nəhəng bir yaradıcılıq faktıdır. Buradakı obrazlar həyatda var. Hərə oradakı epizodlardan birinin şahididir. O insanlardan hər biri kiminsə qonşusudur və onu tanıyır. Ancaq bu insanlara Elçin qonşu kimi yanaşmır, yoxsa subyektivliyə qapılardı, hansı detalısa verəndə qonşuluqdan, qonşuluq hörmətindən keçməyə bilərdi. Ona görə də Elçin bu insanları obyektivlik nöqtəsinə qədər özündən uzaqlaşdırır, müxtəlif yönlərdən təhlil edir, beyninin sınağından keçirdikdən sonra ürəyinin səsverməsinə buraxır – rəyinə yatırsa, düşüncəsilə razılaşır.

Birincisi ictimai faktordur, ikincisi, oxucu adlanan xalqın rəyi və deməli, xəlqilikdir. Epizodlar – hadisələr də həmin qayda və ölçü ilə seçilir. Və yəqin, o qədər olub ki, başqa epizoddakı bir obrazı bu hadisənin içinə gətirir. Buna estetikada tipikləşdirmə deyirlər. Elçin «Dolça»dakı hadisə və obrazları o qədər dəqiqliklə seçmiş (yəni tipikləşdirmiş) ki, ədəbiyyatımızda tapıntı sayılan bir sənət əsəri yaranmışdır. Heç şübhəsiz, bu obrazlar içərisində ən üstdə duranı Dolçanın özüdür. Dolça dünyəviləşmiş Mumu obrazı ilə bir ədəbi müstəvidə dayanır. Təkcə ona görə ki, onların hər ikisi itdir. Əksinə, bunlar, bu itlər öz düşüncə tərzinə, insani duyğularına görə yaxındır. Və bu da maraqlıdır ki, Dolça öz psixoloji məzmununa görə Mumudan yüksəkdədir.



Əslində, Mumunu psixolojiləşdirən Gerasimdir. Gerasimin dilsizliyi, lallığı Mumunun duyğularını, insaniliyini fəallaşdırır. Dolça isə dillilərin içərisində xarakter göstərir. Gündə neçə dəfə «Dolça! Dolça!» çağıra-çağıra, onu sığallamaqla, ona yaltaqlanmaqla iti itliyindən çıxarırlar. İt öz mənindən çıxaraq insaniləşir – tamahkar olur, nəfsinin quluna çevrilir. Dolçanın xarakterindəki ictimai mühitin fəal diktəsindən gələn bu ziddiyyətlər onu bir ədəbi portret kimi Mumudan daha mükəmməl edir. Və Dolça dünyəvi sənət nümunəsinə çevrilir. Bir daha aydın olur ki, marksistlər demişkən, mühit hər şeydir. «Dünyanın əşrəfi» insanı hər şəklə salan mühit bütün canlılarınkı kimi itin də iradəsini elastikləşdirə bilir, - onu it də edə bilər, itlikdən də çaxarar, itliyini əlindən ala da bilərmiş.

Dolça onun yaşadığı mühitin iç üzünü açır, cəmiyyəti təhlil edir. Dolça nəhəng bir güzgüdür ki, onda təkcə Abşeronun bir yay kəndi əks olunmur, bu itin sahibi Ağababanın sürdüyü avtobusun marşrutu boyunca bütün həyat, Ağababanın evini yay istirahəti üçün kirayələyən ziyalı ailələrin davranışları, cəmiyyətdə nə az, nə çox – xeyli yer tutan belə insanların həyat yolunun payızı, qışı əks olunur. Sadə insanların həyatının gözəlliyi açılır, kasıb ailədən əsgərliyə getmiş oğulun savadsız məktubunda vətənpərvərliyin, etnik əxlaqın müqəddəsliyi heç bir savadlının ifadə edə bilməyəcəyi səmimiyyətlə əks olunur. Və Dolça belə bir ailə mühitində it olmuş bir küçükdür. Buna görə Dolça tamahsız-nəfssizdir, yalnız itin yeyəcəyi şeyləri yeyir və tərbiyəli it olur.

Povestdə insanı insanlığından çıxaran harınlıq nəticə etibarilə iti də itliyindən çıxarır. Dolçanın portreti insan şəxsiyyətindəki qeyri-insani sifətlə heyvanın xasiyyətindəki heyvani müvazinət arasındakı təzad üzərində ucalır. Bəlkə, insanın vəhşiliyini daha da qabartmaq üçün Elçin Dolçanın tərbiyəsini saxlamalıydı? Yox, onda süni alınardı, bu gözəllikdə təbii effekt verməzdi. Məsələnin bədii həllinə söz yoxdur. İnsanın heyvanı duyması humanizm zirvəsinin zilidir. Bu, «Mumu»da belədir. Heyvanın öz şəxsiyyətini qoruması psixoloji idrakın ən ilahi qatıdır – fövqəladə faktdır, «Dolça»da belədir. Lal Gerasim itlə psixoloji duyğu ilə dil tapır. Dolça insanlara yaxınlaşdıqca, onlarla dil tapdıqca onlardan iyrənir, tədricən insaniləşib simasızlaşır.

Elçinin ədəbiyyatımızda yaratdığı Dolça portreti, nədənsə, mənə türkün məşhur Boz Qurd obrazını xatırlatdı. Dolça türkün düşüncəsindəki tarixi Boz Qurd heykəli kimi mükəmməldir. Dolça da ədəbi müstəviyə gəlməyinin ilk mərhələsində müdrikdir. Nəhayətdə, Boz Qurd tarixi əzəmət heykəli olaraq qalır, Dolça yazıqlıq, mütilik

abidəsinə çevrilir. Boz Qurd türkün əcdadıdır. Dolça bugünkü təəssüratdır. Boz Qurd imperator türkün, Oğuz kaqanın qlavuzu – bələdçisidir. Dolça müstəmləkə türkün ardınca ağzının suyunu axıda-axıda gəzən bir süləngidir. Yazıçı bu heykəllərarası düşüncə müstəvisində öz millətini, müstəmləkə Azərbaycan türkünü düşüncəyə daldırırdı. Bu gidi dünyanın pişiyi pələngə, əniyi tulaya döndərə bilmək fəlsəfəsini açır, Dolçanın tərcümeyi-halı ilə cəmiyyətə müdaxilə edən Elçin insanları məsləkə, etnik tarixə və əcdad əxlaqına çağırırdı. Beləcə, Elçin gözəgörünməz adiliklərin heç nəyindəki fəlsəfəni aşkar edir və adi bir şeydən sənət nümunəsi hazırlayır.

«60-cılar nəsli» adlanan yazıçılarımızla bizdə adi insan və adi hadisə ədəbiyyatı yarandı. Mirzə Cəlildən sonra, usta Zeynallar, Novruzəlilər silsiləsindən sonra adi ədəbiyyatın yeni mərhələsi gəldi. Vaxtilə ədəbiyyatın sərkərdələrin, bəy-xanların, kralların və ümumiyyətlə, seçmələrin meydanı olmaq ənənəsinə qayıdan sabah ədəbiyyatı Novruzəlilər silsiləsini qırdı, yenidən seçmələr ədəbiyyatda hökm sürməyə başladı: kommunist, raykom, fəhlə, kolxozçu, zərbəçi, neftçi, komsomol obrazları baş alıb gedirdi. «60-cılar» bu gedişi dayandırdılar. Ədəbiyyat yenidən öz qapısını adi insanların üzünə açdı. Bu yolda Elçin xüsusi istedad göstərdi. Kimsə hərdən bir adiyə bədii obraz pasportu verəndə Elçin bu adi insanları əsərlərinə dəstə-dəstə gətirdi. Adiliyin estetikasını özününküləşdirdi. Adiliyin fəlsəfəsini oxudu və üzə çıxardı, adiliyin poeziyasını duydu və qələmə aldı. Nəticədə, adilik təməlində qeyri-adi ədəbiyyat yaratdı. Bu, Elçinin zəngin üslub cizgilərindən biri oldu. «Baladadaşın ilk məhəbbəti», «Baladadaşın toy hamamı» və Abşeronun, Bakı kəndlərinin mənzərəsini canlandıran neçə-neçə belə hekayə və povestləri son 50 illik ədəbiyyatımızın həmişəyaşarlıq fondunun vəsiqəsini almışdır.

Elçinin adi ədəbiyyat yaradıcılığında bədii dili xüsusi iş görür. Yazıçı elita deyilən zümrəni kənara qoyub cəmiyyətin alt qatına, saf, təmənnasız, zəhmətkeş, torpaq kimi əməksevər insanlara üz tutanda onlarla öz gündəlik ailə-məişət dillərində ünsiyyətə girir. Ədəbilik möhürü ilə aliləşdirilən, bəlağətlə saydırılan nitqin üzündən, necə deyərlər, ənliyini-kirşanını silir. Abşeron camaatının evdə, küçədə, məclisdə işlətdiyi danışığın dadını-duzunu eynən çatdıran təbiiliyi saxlayır. Ədəbilik pərdəsinin parıltılı cilasını təmizləyir və canlı dil Mirzə Cəlil dilinin sadəlik gücü ilə görünür. Elçinin irihəcmli əsərlərində süjet ustalığı, hadisə-kompozisiya sənətkarlığı kimi faktorlarda onun yazıçı istedadı daha çox diqqəti çəkir – bu halda dil,



sanki, arxa planda dayanır. Hərçənd, o keyfiyyətlərin özü də bədii dilin gücü ilə reallaşır, ancaq həcmli əsərdə, məsələn, romanda o qədər müxtəlif ədəbi-estetik, dramatik-kompozisiyalı quruculuq işləri gedir ki, onların içərisində dil əməyi, sadəcə, tərkib hissələrindən biri kimi bütöv arxitekturaya xidmət göstərir, sistemdə qabarmır. Ancaq xırda hekayələrdə dil ədəbi-estetik idarəçiliyi ələ alır.

Əsərin gücü oxunuşundadır. Rəvan oxumaq, həvəslə oxumaq, əziyyətsiz oxumaq Elçin istedadına rəvac verən əsas gücdür. Süjeti quraşdırmaq, obrazı uydurmaq olar, ancaq dil təbiilik üstündə köklənməsə, çətin oxunar. Yazıçı ana dilinin bilicisidir. Elçin də istedadlı söz ustası kimi, təbii ki, azərbaycan türkcəsinin bütün zəriflik və gözəlliklərinə bələddir. Ancaq, deyək ki, İlyas Əfəndiyevin Qarabağ danışığına bələd olduğu incəliklərlə Elçin Abşeron şivələrini bilir. Əlbəttə, bu da istedadın ədalətidir ki, incəliklərinə bələd olduğun dilə girişəsən. Buna görə də Elçinin Abşeron mövzuları ədəbiyyatımızın şedevrlərindən sayılır.

Əsərlərindəki obrazlardan biri də Elçin özüdür. O, obrazları ilə yazıçıdan çox, həmkar kimi danışır. Elçin hər əsərinə görə, hətta bir əsərdəki hər obraza görə özünü, öz dilini xüsusi kökləyir. Ona görə Elçin çox oxunan yazıçılardandır. Ənənəvi ədəbiyyatımızda buna xəlqilik deyiblər. Əgər yaradıcılığın boyu min obraz yaradıb hərəsini öz dili ilə danışdırırsansa, deməli, sən min adamla dil tapa bilmisən, onun ürəyinə girmisən, onun dərdinə çarə tapmısan, ya dərdinə şərik olmusan, deməli, min nəfərin düşüncə aləminə girə bilmisən. Bu, humanizmdir, psixoloq səriştəsidir – yazıçının əsl yazıçı keyfiyyəti də humanizmdir, psixoloq idrakıdır. Elçin bu keyfiyyətə gəncliyindən yiyələnib, məhz bu xüsusiyyəti ilə də oxucularını ətrafından seyrəlməyə qoymayıb.

Elçin hər mövzuya görə dilini xüsusi kökləyə bilir – dedik. Onun «Bülbülün nağılı» adlı bir lirik hekayəsi var, dilinə görə ona şer də demək olar. Bu məşhur şerdə «kədərin gözün dibinə çökməsi» kimi ayrıca bir şer yükü daşıyan ifadə var. Burada sarı bülbülün ayağından zəncirlənməsini ilk dəfə görürük – heç demə, qəfəsə min şükür. Füzulinin Məcnunu ahunu ovçudan satın alıb təbiətə buraxdığı kimi, bir Allah bəndəsi xeyirxahlıq məcnunu da bu bülbülü zəncirdən xilas edir. Guya, ona azadlıq verir: güllü-çiçəkli bir bağçada qızıl qəfəsə salır. Bülbül ən qəmli nəğmələrini bu qızılın içində oxuyur. Elə oxuyur, səsilə hər tərəfə elə dərd, qəm səpələyir ki, bağçanın yayın istisindən,

payızın çiskinindən solmayan ,ülləri, çiçəkləri bülbülün bu nəğmələrinin hüznündən saralıb-solur.

O xeyirxahlıq məcnunu da bu sızıltıya dözməyib bülbülü qəfəsdən buraxır və onu izləyir: bülbül uzun yollar keçib bir qoca palıd ağacının oyuğundakı yuvasına girir. Taqətdən düşmüş bülbül ətrafındakı doğmalığa baxıb, bütün gücünü toplayıb oxumağa başlayır. Bülbül ölümü ilə üz-üzə dayanıb oxuyur. Ölüm qarşısında o, ən şən nəğməsini oxuyur. Sevinc firavan həyatda, dərd əzablı yaşayışda deyilmiş. Sevinc azad olmaqda, dərd qandallı olmaqda imiş. Elçin bu həqiqəti demir, əyani şəkildə göstərir: bülbül azad nəğməsini oxuyub sevinc içində ölür.

Bu, dəhşətli bir məcnunluq lövhəsidir. Buna dramaturqlar, məsələn, Şekspir, İlyas Əfəndiyev tragediya deyərdilər, ancaq bu dəhşətli faciəyə Elçin nağıl deyir, - «Bülbülün nağılı». Təbii ki, bütün ecazkar keyfiyyətlərin hamısı «nağıl»ın içində var. Bu nağıl da Elçin qələminin möcüzəsidir. Oxuyan uzun zaman bu nağılın təəssüratı ilə yaşayır. Bədii ədəbiyyat, bədii dil budur, yazıçılıq da buna deyərlər...

Elçin ədəbiyyatşünasdır, tənqidçidir, istedadlı alimdir. Onun alim, tənqidçi peşəsi ədəbiyyata nəzarət etmək, uğuru təhlil edib yaymaq, çatışmazlığı da diqqətə çatdırmaqdır. Bu peşəsini də hünərlə yerinə yetirir. Bunun bir əyani nümunəsi öz yaradıcılıq uğurlarıdır: deməli, Elçin filoloji biliyi ilə öz yaradıcılığına da nəzarət edir.

*«Xalq qəzeti», 14 may 2003.*





## «ALTMIŞINCILAR» NƏSLİNİN SÖZƏ SADİQİ

Elçin Azərbaycan ədəbiyyatında öz yeri, mövqeyi olan qələm sahibidir. «Altmışıncılar» ədəbi-bədii nəslinin içərisində öz dəst-xətti ilə seçilən Elçin yaradıcılığı Azərbaycan nəsrinin dünya miqyasında tanınmasında əhəmiyyətli rol oynayıb. Onun əsərlərinin nəşr olunduğu ölkələr dediklərimizi təsdiqləyəcək faktordur. Bu nəsli fərqləndirən əsas xüsusiyyətlərdən biri də onların milli-mənəvi dəyərlərin təmsilçiləri kimi ortaya çıxmalarıdır. Elçinin ilk yaradıcılıq nümunələrindən başlayaraq son illərə qədər yazdığı bütün əsərləri milli ruhla doludur. Bizləri də özünə çəkən, acgözlüklə oxuduğumuz bu əsərlərin cazibə qüvvəsini mən çox sonralar başa düşdüm. Azərbaycan oxucusunun yeni sözə, yeni fikrə, ən əsası da «yeni nəsrə» ehtiyacı, tələbatı vardı. Bu ehtiyacı, tələbatı «altmışıncılar nəsli»ni təmsil edən Anar, Elçin, Ə.Əylisli, S.Əhmədov, İ.Məlikzadə, M.Süleymanlı və digərləri öz əsərləri ilə ödəyirdilər.

Bu gün çoxumuzun «demokratiya», «fikir plüralizmi» kimi dəyərləndirdiyi anlayışlar, mühit Azərbaycan ədəbiyyatında 60-cı illərdə mövcud idi. Xüsusi istedad, özünəməxsus orijinallıq və ən əsası da sənətkarlıq onları fərqləndirən xüsusiyyətlər idi. XX əsrin «altmışıncıları» özlərindən yüz il əvvəl yaşayan «altmışıncılar» nəsli kimi milli oyanışda mühüm rol oynadılar. Onlar maarifçilik, özünə qayıdış missiyasını şərəflə yerinə yetirdilər və yazıb-yaratdıqları ilə neçə-neçə nəsillərin formalaşmasına böyük təsir göstərdilər. Milliliyin yayılmasında, hərəkata çevrilməsində 1960-cı illərdə boy göstərən, formalaşan Azərbaycan bədii söz sənətinin özünəməxsus yeri və rolu var idi. Bu yeni bədii söz sənətində isə Elçinin yalnız özünəməxsus olan mövqeyi var. Hansı ölçü ilə yanaşsaq bu yer dəyişməz qalacaq.

2001-ci ilin yay günlərində bir neçə dəfə yazıçı ilə müsahib olmaq, görüşmək imkanım yaranmışdı («İki sahil» qəzeti üçün müsahibə hazırlayırdım). Söhbətimiz zamanı Elçin bildirdi ki, ilkin yaradıcılığa başladığı vaxtlardan bu gün kimi yazdıqlarının heç birində bir sözü belə dəyişmək fikrində deyil və heç vaxt da konyuktura xətrinə nəsə yazmayıb. Və həqiqətən də Elçin həmişə öz sözünü yazıb.

2000-ci ildə nəşr olunan «Baladadaşın ilk məhəbbəti» kitabının ön sözündə müəllif 32 il əvvəlki Elçinlə bugünkü Elçini müqayisə edib, qənaəti isə belədir: «Və bir də mən öz yazıçı taleyimdən razıyam ki, 32 ildən sonra bu hekayələrdə bircə sözə belə toxunmadan onları vaxtı ilə yazıb və necə çap olunmuşdursa, eləcə də yenidən nəşr etdirirəm.

Epoxalar dəyişdi, siyasi-ictimai münasibətlər dəyişdi və mən oxucudan gizlətmirəm – daxili bir qürur hissi keçirirəm ki, bu hekayələrdə bu gün mənim gizlətmək istəyəcəyim, xəcalət çəkəcəyim, unutmağa çalışacağım bircə söz də yoxdur».

Elçinin söylədiyi fikirlərin altından mən də məsuliyyətlə və məmnuniyyətlə imza ataram. Çünki həmişə yaradıcılığını müntəzəm izlədiyim, hər əsərinin dərcini səbrsizliklə gözlədiyim yazıçının əsərləri Söz qədər yaşarılılıq qazanıb.

«Baladadaşın ilk məhəbbəti» hekayəsini 13-14 yaşlarım olanda da, tələbəlik illərimdə də və daha sonra 2001-ci ildə də oxumuşam. Həmişə də eyni fikirlər, duyğular keçib könlümdən. Bu balaca əsərdəki bitkin kompozisiya, kolorit və ən əsası da sözlə rəssam tablosu yaratmağın mümkünlüyü məni cəlb edib, heyrətləndirib. Daha sonra «Dolça»nı da oxudum, o vaxtlar üçün yazıçının sətiraltı mənada dediyi fikirləri ilə bağlı bir müddət müzakirələr də apardıq.

«Mahmud və Məryəm», «Ağ dəvə», «Ölüm hökmü» romanlarının, bir sıra hekayələrin, povestlərin müəllifi olan Elçin həm də ədəbiyyatşünas alim, ədəbi tənqid ustası kimi də bir çox sahələrdə fəaliyyət göstərib və bu gün də göstərir. «Altmışıncılar» nəslinin 60 yaşlı Elçini həmişə bədii sözə sədaqəti ilə seçilib. Bu gün də sözlə, qələmlə baş-başadır.

Yazıçı Elçin həm də sözün həqiqi mənasında vətəndaşdır. Onun Azərbaycançılıq missiyasını şərəflə yerinə yetirən «Vətən» Cəmiyyətindəki fəaliyyət dövrünü xatırlamaq kifayətdir ki, dediklərimiz təsdiqini tapsın. Ömər Faiq Nemanzadənin publisistik irsini toplu halında nəşr etdirməsi bu mövqedən irəli gəlirdi. Elçin həm də çoxsaylı dram əsərlərinin müəllifidir. Azərbaycan dramaturgiyasında İlyas Əfəndiyevdən sonra yaranan boşluğu dolduran «Mənim sevimli dəlim», «Poçt şöbəsində xəyal», «Mənim ərim dəlidir», «Mən sənin dayınam» və digər dram əsərləri teatrlarımızda uğurlu səhnə həllini tapıb. Bu tamaşalar barədə deyilən fikirlər də bunu təsdiqləyir.

Publisist Elçin cəmiyyətdə baş verənlərə vətəndaş mövqeyindən yanaşaraq öz münasibətini bildirir. Və onun da sözü həmişə sambalı, ağırlığı, ünvanlılığı ilə seçilib.



Son illər oxuculara təqdim etdiyi «Qırmızı qərənfil gülləri «Pera Palas» otelində qaldı», «Göy üzünün ulduzlu vaxtları», «Sarı gəlin» kimi hekayələri ədəbiyyatımızda hadisə kimi dəyərləndirilir. Xüsusilə də «Sarı gəlin»in ilin hekayəsi seçilməsi bu hekayədə cəmiyyətdəki narahatlıq ovqatını olduğu kimi əks etdirməsi ilə bağlıdır. Bu hekayələrin dərci həm də ədəbi mühitə bir canlanma gətirməkdədir. Elçin bu mənada həmişə qələminə və yaradıcılığına sadiq adamdır, pillə-pillə ucalığa yüksələn sənətkardır, ustaddır.

Əsərlərinə müdriklik, millilik ruhu hakim kəsilən Elçinin 60 yaşı tamam olur. Əslində çoxdan o müdrikliyin zirvəsində idi. Böyük ədəbiyyata işləyən, yazan, yaradan, xalqına xidmət edən ustad yazıçını əlamətdar yubileyi münasibəti ilə ürəkdən təbrik edir və bir oxucusu kimi bildirirəm ki, bizlər ondan yeni-yeni əsərlər gözləyirik.

*«İki sahil» qəzeti, 14 may 2003.*

ŞƏRİF

## ADAMIN HEÇ İNANMAĞI GƏLMİR...

### (Elçinin 60 illik yubileyi münasibətilə)

Elçin 60-cı illərdə ədəbiyyata gələn istedadlı qələm sahiblərindən biridir. Və sovet dönəmində formalaşan, Kommunist ideologiyasına canla – başla xidmət edən mədhiyyə ədəbiyyatından ciddi və əsl ədəbiyyata doğru addım atan yazarlarla bir sırada duran və çiyin-çiyinə addımlayan yazıçıdır. Doğrudur, ədəbiyyatsevərlər bu son prosesləri birmənalı dəyərləndirmirlər və məncə bu belə də olmalıdır. Çünki sənətin üfüqləri genişdir və orada hər kəsin fikrini səbrlə dinləmək lazım gəlir. Amma o da faktdır ki, sənətdə nəsə söz demiş kimsəni sənət tarixindən silib atmaq mümkünsüzdür.

Elçin Azərbaycan ədəbiyyatı üçün nəsə etdi. Müxtəlif səpkili janrların, mövzuların varlığını bizə anlatdı, başa saldı və ən əsası bundan çəkinmədi. Ona görə çəkinmədi deyirəm ki, sovet məfkurəsindən kənara çıxan bu üslublar və 60-cı illərdə təpki və təzyiqlərlə qarşılanırdı.

Elçinin mübarizə etmək üçün potensial imkanı və ictimai mövqeyi vardı və o bir yazar olaraq bu imkanlardan ədəbiyyatımız üçün istifadə etdi. Nəticədə qazanan sənət oldu.

* * *

Elçin hazırda Baş nazirin müavini vəzifəsində çalışır. Eyni zamanda ədəbi yaradıcılıqla məşğul olur və əsərləri dövri mətbuatda vaxtaşırı çap olunur. Ən maraqlısı isə, bu əsərlər yenə də tənqidin diqqət mərkəzindədir. Yazıçının dram əsərləri şəhər teatrlarında mütəmadi oynanılır, əsərləri xarici dillərə tərcümə olunub dünyanın müxtəlif ölkələrində yayınlanır. Eyni zamanda Elçin respublikanın mədəni aləmində baş verən ciddi yeniliklərə həssaslıqla yanaşır, ayrı-ayrı müəlliflər barədə fikirlərini bölüşür, müxtəlif əsərlər barədə məqalələr yazıb mətbuatda çap etdirir.



Elçinin qələmindən çıxan kitablar çoxdur – «Min gecədən biri» (1966), «Açıq pəncərə» (1969), «Bu dünyadan qatarlar gedər» (1974), «Bir görüşün tarixçəsi» (1977), «Tənqid və ədəbiyyatımızın problemləri» (monoqrafiya və məqalələr – 1981), «Bülbülün nağılı» (1983), «Mahmud və Məryəm» (1983), «Beş dəqiqə və əbədiyyat» (1984), «Ağ dəvə» (1985), «Ölüm hökmü» (1987) və s.

Yazıçının ötən il «525-ci qəzet»də çap olunan və çoxsaylı mükafata layiq görülən «Sarı gəlin» hekayəsini çağdaş ədəbi prosesə ciddi təsir edən əsər kimi xarakterizə edirlər.

Əlbəttə, kiçik bir yazıda 40 illik yazıçı fəaliyyətini dəyərləndirmək heç cür mümkün deyil. Biz sadəcə bəzi faktları qeyd etməklə Elçin şəxsiyyəti barədə ümumi təsəvvürlər yaratmağa çalışdıq və ən əsası isə 60 yaşının tamam olduğu gün onu yada salıb təbrik etmək qərarına gəldik. İnanırıq ki, yazıçı da, qəzetimizin oxucuları da səmimiyyətimizə inanacaqlar.

İstedadlı yazıçımızı, həmişə gənc görməyə alışdığımız Elçini yubileyi münasibəti ilə təbrik edirik, ona cansağlığı diləyirik. Arzu edirik ki, növbəti doğum gününü doğma Füzuli torpağında qarşılasın.

*«Yeni Azərbaycan» qəzeti, 15 may 2003.*

## «LİTERATURNAYA QAZETA»NIN TƏBRİKİ

May ayının 13-də Azərbaycanın xalq yazıçısı, nasir və dramaturq, eyni zamanda, görkəmli ictimai və dövlət xadimi, Azərbaycan Respublikası Baş nazirinin müavini Elçinin 60 yaşı tamam oldu. Yazıçı Lev Anninski yazır: «Elçin möcüzələri sevir, o, zərif və mehriban nağılçıdır, o, kədərli bir sehrkardır, bərq vuran, qızılı, gümüşü rənglərə üstünlük verən impressionistdir...». Romançı və dramaturq Elçin yeddi bədii filmin ssenari müəllifidir. O, ədəbiyyatşünas alim, filologiya elmləri doktoru və professordur. Elçinin əsərləri bir çox xarici dillərə tərcümə edilmişdir. O, bir sıra ədəbi mükafatların laureatıdır. «Literaturnaya qazeta»nın əməkdaşları yubilyarın dostlarının və həmkarlarının təbriklərinə qoşulurlar.

*«Literaturnaya qazeta», 14-20 may 2003.*



## ELÇİN - 60

Onun yaradıcılığının sübuta ehtiyacı olmayan mühüm bir özəlliyi var – bir çoxlarının sosialist realizmi civarında özünü çox rahat hiss etdiyi və bu səbəbdən də ornamental, bəzək-düzək parametrlərinə üstünlük verdiyi bir vaxtda, o, həyatı və real həyatda doğan dünyaduyumunu qələmə alırdı. Elə təkcə bunu əsas tutaraq, digər faktorlarla birgə Elçinin XX əsrin sonu Azərbaycan nəsrinin yeni reallıqlara uyğun istiqamətlənməsi və formalaşması yönümündə rolu danılmazdır.

Milli gerçəklik və dünya həqiqətləri, köklərə dayanıqlı yeni toplum tipinin yaranışı problemləri – bütün bunlar Elçinin bədii üslubunun, yaradıcılıq tərzinin zəminləridir. Odur ki, hörmətli yazıçımızın bir çox dünya xalqlarının dilinə çevrilmiş əsərləri hər yerdə öz oxucusunu tapır. Başqa cür ola bilməzdi.

Azərbaycan Mədəniyyət Fondunun rəhbərliyi və «Ruh» qəzetinin yaradıcı heyəti ömrünün çox hissəsini ədəbiyyata həsr etmiş xalq yazıçısı Elçini 60 illik yubileyi münasibətilə təbrik edir. Nəsrimizin görkəmli nümayəndəsinə cansağlığı və uzun ömür arzulayır.

*«Ruh» qəzeti, 14-21 may 2003-cü il.*

## AH, PARİS, PARİS...

### (Tamaşa barədə tamaşaçı sözü)

- **Mayın 13-ü tanınmış yazıçı və ictimai xadim Elçinin doğum günü idi. O, ömrünün 60-cı baharının əllərini sıxdı. Bu münasibətlə Azərbaycan Dövlət Dram Teatrında yazıçının səhnəyə qoyulan əsərlərindən biri – «Ah, Paris, Paris...» komediyası növbəti dəfə nümayiş olundu.**

Tamaşadan öncə Azərbaycan Respublikasının mədəniyyət naziri Polad Bülbüloğlu çıxış edərək yubilyarı təbrik etdi və ona tər çiçəklər bağışladı. Daha sonra Azdramanın direktoru və bədii ərhbəri, xalq artisti Əliabbas Qədirov, Elçinin sözü gedən teatrda səhnəyə qoyulan beş əsərindən üçündə əsas rolları ifa edən, xalq artisti Səyavuş Aslan və «Ah, Paris, Paris...» tamaşasının quruluşçu rejissoru Azər Paşa Nemətov çıxış etdilər və Elçin müəllimin yaradıcılığı və ictimai fəaliyyəti barədə fikir-mülahizələrini bölüşdülər. Çıxışlardan məlum oldu ki, Akademik Dövlət Dram Teatrında yazıçının «Mənim ərim dəlidir», «Mənim sevimli dəlim», «Ah, Paris, Paris...», «Poçt şöbəsində xəyal» pyeslərindən başqa daha bir əsəri də səhnələşdirilir. «Qətl» adlanan bu səhnə əsərini «Poçt şöbəsində xəyal» pyesinə uğurlu səhnə yozumu verən rejissor Mehriban Ələkbərzadə hazırlayır.

* * *

«Ah, Paris, Paris...» hər şeydən öncə maraqlı və sona qədər dəyişməyən səhnə quruluşu ilə diqqəti cəlb edirdi. Bu səhnə divarı Leninin, Stalinin portretləri ilə bəzənmiş adi quruluşlu bir ev idi. Amma evdən fərqli olaraq arxa hissəsində mətbəxi xatırladan daha bir artırma var idi və hadisələr gah qarşı tərəfdə cərəyan edir, gah da arxaya, nisbətən alaqaranlıq və ya mübhəm müstəviyə çəkilirdi. Bəzən isə tamamilə fərqli – səhnənin hər iki «səthində» hadisələr eyni vaxtda davam edir, arxadakı donuq və ləng hərəkətlər öndəki səhnəciklərə maraqlı fon verirdi. Səhnələrin biri-birinə qarışan vaxtları da olurdu



ki, bu tamaşanın quruluşunun peşəkarcasına hazırlanmasına eyham vururdu. Əsər özü aktual olduğundan və maraqlı işləndiyindən uğurlu yozum bu təqdirəlayiq halı birə-beş artırır, doğrudan da tamaşaçını əsl tamaşaya baxdığını etiraf etməyə məcbur edirdi.

* * *

İlk səhnədə – yəni Leninin və Stalinin portretləri ilə bəzənmiş yarıqaranlıq evdə görünənlər şəhər əhli, o cümlədən müxbirlər, dediqodu ustaları idi... Dörd nəfər gənc aktyorun – Mətləb Abdullayev, Rövşən Kərimduxt, Aslan Şirinov və Kazım Həsənquluyevin ifa etdiyi bu obrazlar geyimlərinə və hərəkətlərinə görə ilk öncə zamanı və məkanı təyin etməkdə tamaşaçını çaş-baş saldı. Bir yandan da radio xarici dildə nəsə qırıldadır, aramsız musiqi intizarı bir az da artırırdı. Birdən tanış səs – saatın tamamını bildirən qırıq-qırıq fitlər və «Danışır Bakı» kəlməsi... Elə zamanı da xəbər verən radio oldu: «Bu gün sentyabrın 3-ü 1991-ci ildir» Ardınca son xəbərlər... Bakını mitinq dalğası bürüyüb, hər tərəfdən «İstefa! İstefa!» – deyə hayqıran kütlənin səsi gəlir. Belə anda hər şey öz kəsb etdiyi əhəmiyyətini dəyişir. Köhnə siyasi büroçular vəlvələyə düşürlər. Xalq hakimiyyətə kimi gətirəcək, yeni iqtidar onlarla necə rəftar edəcək, qazandıqları pulu əllərində saxlaya biləcəklərmi? Doğrudanmı SSRİ dağılır və kommunist ideologiyası iflasa uğrayır? Təbii ki, ət kombinatının direktoru Əsədullanı da, Kommunist Partiyasının fəallarından olan İsgəndərzadəni də, həmin məhəllədə yaşayan Polyaniçkonu da narahat edən bu məsələdir və hazırkı situasiya üçün «ən gözəli» çıxıb xarici ölkələrdən birinə getmək və illər uzunu yığdıqları pulu orada xımır-xımır yeməkdir.

Belə bir vaxtda Parisdən Əhməd adlı bir milyonçu Bakıya gəlir ki, öz məmləkətində bir halal süd əmmiş tapıb onunla ailə qursun və özü ilə Fransaya aparsın. Tərs kimi Əsədullanın da, İsgəndərzadənin də, Polyaniçkonun da Əhmədə bab qızları var və onlar belə gözlənilməz fürsəti əldən vermək istəmirlər. Əhməd isə vətənə böyük arzularla gəlib. O hamıdan yaxşılıq və səmimiyyət görmək və hamıya yaxşılıq və səmimiyyət göstərmək istəyindədir. Amma öz ana dilini yaxşı bilmir və tamaşanın bir çox komik məqamları bu ziddiyyət üzərində qurulub. Tamaşanın sonuna doğru o ana dilini nisbətən öyrənir. Amma ana dili

ilə yanaşı, məmləkətindəki xudbin adamların iç üzünü də öyrənir və onlardan usanır. Hətta küçəni süpürən yaşlı qoca da dul xalasını Əhmədə vermək istəyir. Bu zaman Əhməd "Bu millətə nə gəlib belə?" – deyərək özünü səhnənin fonundakı lövhəyə çırpır və onu parçalayıb o biri üzə keçir. Yırtılan yerdən bir projektor işığı düşür və səhnədəki korazehin insanların üst-başını işıqlandırır.

Əlbəttə, bunu daha çox simvolik jest kimi dəyərləndirmək olar. Amma adi bir detalla fikri səlist açmaq baxımından xeyli əhəmiyyətlidir. İşıq uzaqlardadır və o işıqdan ötrü əsədullalardan, isgəndərzadələrdən və dedi-qoduçu şəhər sakinlərindən qaçıb harasa çırpılmaq lazımdır.

* * *

Tamaşada komik gəzişmələr üçün geniş imkanlar var. Amma aktyorlar vulqar ifadələr işlətsələr belə, ucuz gülüşə getmir, bacardıqca əsərin əsl qayəsini açmağa çalışırdılar. Əsərin əsl qayəsində isə, bütün komediyalarda olduğu kimi faciə vardı... Bir xalqın, bir millətin faciəsi...

* * *

Tamaşadakı aktyor oyununu yubilyar üçün əsl sürpriz saymaq olardı. Doğrudan da, istər Səyavuş Aslan (Əsədulla), istər Yaşar Nuri (İsgəndərzadə), istər Elxan Ağahüseynoğlu (Polyaniçko), istərsə də digər aktyorlar Telman Adıgözəlov (Əhməd), Hacı İsmayılov (Mehdiqulu), Cəfər Namiq Kamal (Eynşteyn) gözəl oyun nümayiş etdirdilər. Kübrabəyim Əliyeva (Firəngiz) ilə Səyavuş Aslanin ər-arvad cütlüyü isə tamaşaçılara əməlli başlı ləzzət verdi. Hansı ki, biz bu cütlüyü televiziya tamaşalarından çox seyr etmişik və alınan duet hər yeni situasiyada kifayət qədər maraq doğurur.

Bu qədər... Biz əslində tamaşanın bizə görünən tərəflərindən söz açdıq. Ən gözəli isə vaxtınıza qızırqalanmadan Akademik Dövlət Dram Teatrının afişalarını izləməyinizdir.

*«Yeni Azərbaycan» qəzeti, 15 may 2003.*





## ZAMANIN BİZLƏ QALAN ANLARI
### (tamamlanmamış esse)

Artıq tarixə qovuşmuş XX əsr bəşəriyyətin yaddaşına olduqca mürəkkəb bir dövr kimi həkk olunacaq.

Necə ki, ötən yüzilliyi adlandırdıq: atom əsri... Kibernetika əsri... genetika əsri... kosmos əsri... kimi dəyərləndirilən bu zaman kəsiyi hər yeni kəşfiylə insanı sarsıtdı... qorxutdu... ilhamlandırdı... səfərbərliyə vadar etdi. Amma yenə də bizləri əbədi dəyərlərin dəyişməz hökmündən azad edə bilmədi. Çünki ta yaranışdan bu yana Söz və onun içində var olan sehrli enerji gözümüzün önündə sayrışan olaylara işıq salır, «düzü düz, əyrini əyri», hadisələrin mahiyyətini «hamarvari» qələmə alıb Dünya Ədəbiyyatı Səhifələrinə yazırdı. Bu, möhtəşəm Kitabənin səhifələrini vərəqləyib üzərində həkk olunmuş yazılarını oxuyarkən anlayırsan ki, sonu olmayan vahid bir rəvayətin müxtəlif variasiyaları insanların ortaq mənəvi dəyərlərini təcəssüm və tərənnüm edir. SEVGİ... GÖZƏLLİK... SƏDAQƏT... BORC... VƏZİFƏ... CƏHƏNNƏM... CƏNNƏT... VƏTƏN... AYRILIQ... GÜNAH... ÜMİD... ÜMİD... ÜMİD və yenə də ÜMİD.

«Dünya ədəbiyyatı» adlandırılan əsrarəngiz salnamə dəyişən dünyada dəyişməz dəyərlərin gərəkliyini, önəmini və ... kövrəkliyini çeşidli dil və üslublarda təsvir, tətbiq, təbliğ və tərənnüm etməyindədir...

Məhz iyirminci yüzillikdə Azərbaycanın milli mədəniyyət və incəsənət təfəkkürünə «belletristika» anlayışı və təcrübəsi daxil oldu. Klassik şer ənənəsinə söykənən ədəbiyyatımız «ədəbi nəsr», «dramaturgiya», «publisistika», «ədəbi tənqid», «ədəbi tərcümə» və «esseistika» kimi prinsipcə yeni janr və üslublarla zənginləşdi.

Bəlli tarixi səbəblərdən hələ XIX əsrdən təkan alıb hərəkət başlayan milli ədəbi proses sərbəst, üzvü şəkildə, yalnız öz qanun və Qanunauyğunluqlarına cavab verərək inkişaf edə bilməmişdi. Buna baxmayaraq, milli ədəbi düşüncə və onun təcrübi təzahürü olan müxtəlif əsərlərin təməlində çağdaş Azərbaycan milli ədəbiyyatı bərqərar olundu. Elə bərqərar oldu ki, bu gün onu həm milli yaradıcı düşüncə kontekstində, həm dünya ədəbi prosesi parametrlərində qavrayıb dəyərləndirə bilirik.

XX əsr Azərbaycanın milli ədəbiyyat və incəsənət prosesini çağdaş, dünyavi və insani keyfiyyətlərini müəyyənləşdirən, ədəbiyyatımızı məhəlləçilikdən qopararaq ona yüksək status qazandıran, belletristikamızın «qızıl fondu»nu zənginləşdirən, ən ümdəsi «insan amili»ni canlı, təzadlı, mürəkkəb insan obrazlarında tərənnüm edən yazıçı, dramaturq, ədəbiyyatşünas və milli yaradıcı düşüncənin ardıcıl təəssübkeşi Elçin artıq örnək, klassik sayıla biləcək əsərləriylə həm tarixi ZAMANA, həm də bu gün... sabah və inşallah, həmişə hərəkətdə olan var olmanın hər ANINDA öz SÖZÜnü deyəcək, hayqıracaq, pıçıldayacaq.

Və mücərrəd qədər canlı olan Zamanı həm də, deməli, bizlər eşidəcəyik!..

**ZAMANIN ƏDƏBİ MODELİ**

*«...Zaman getmir, Zaman durub:*
*ötüb keçən bizlərik!»*
***Qədim Kitabədən***

İlahi qüdrətdən və təbiətdən istedadlı doğulan bütün Sənətkarlar kimi Elçini də elə ilk yaradıcılıq təcrübəsindən başlayaraq ZAMAN fenomeni özünə cəlb etdi. Elə bu gün insan və yazıçı kimi yaşadığı müdriklik qatlarında da onun düşüncəsi zamanla məşğuldur.

Elçinin novellistikası – hekayə, povest və romanlarından görükən zaman modeli öz zahiri sadəliyiylə daxili strukturunun mürəkkəbliyini, sinkretikliyini və milli özəlliyini sanki yumşaltmaq, bununla da oxucu qavrayışını rahat etmək məqsədini güdür. Müxtəlif modern üslubların dəb basqısına tab gətirmiş Elçinin yaradıcı metodu bu, olduqca aktual, dolaşıq məsələni spekulyativ predmetə döndərmədi. Milli ədəbi düşüncənin bazisli prinsiplərinə söykənən yazıçı Elçin məsələnin Şərq düşüncəsi istiqamətində həllinə qalxaraq göstərilən düsturu təftiş etdi: Elçinin qavradığı ezistensiza RUH-MƏKAN-İDRAK-ZAMAN müstəvisində ədəbi təzahürünü tapır. Göründüyü kimi, Avropa düşüncəsindən fərqli olaraq, Elçinin ədəbi-fəlsəfi strukturu bir növ «əbədi halda» formasını alır ki, burada RUH və ZAMAN əks qütblər deyil. «Çərxi-fələk» fəlsəfi-poetik obrazında hər mühüm nöqtə əbədi hərəkət-



dir və məhz bu modelin mütəhərrik xassəsi yarana biləcək bütün dünyagörüşü təzadlarını, qarşıdurmalarını, antoqonist, barışmaz konfliktdən azad edir. Elçindən də ötrü «dünya bir pəncərədir. Elçin özünü də əbədi yolun yolçusu kimi dərk edir. Odur ki, ruhunu «çıxılmazlığ»a salmadan, varisi olduğu əcdadları kimi o da zaman pəncərəsinə «baxır keçir» və sonra duyub-anladıqlarını öz sözləriylə bizlərə danışır.

Yazıçı Sözünü eşitmək iqtidarında olan oxucu Elçinin prozası ilə tanış olandan sonra mütləq o sehrli pəncərənin önündən keçmək həvəsinə düşür...

**«ATALAR VƏ OĞULLAR»**

*Oğul dəxi neyləsin, ata ölüb mal qalmasa?*
*Ata malından nə faidə başda ağıl olmasa?*

***Dədəm Qorqudun Kitabından***

Çağdaş Azərbaycan milli dramaturgiyamızın klassiki, teatr sənətimizin aparıcı istiqamətlərindən olan lirik-psixoloji üslubun banisi İlyas Əfəndiyevin yaradıcı irsini şərti olaraq üç mərhələyə bölmək olar: gənclik mərhələsi, püxtələşmə dövrü və zamansızlıq məqamı.

Bütün qüdrətli sənətkarlar kimi İlyas Əfəndiyev də yaradıcılığa qədəm basanda gəncliyə xas olan çılğın hisslərini, işıqlı arzularını və güclü, istedadlı, özünə güvənən gənc sənətçiləri sıradan seçən, ayıran maksimalizmini yazdığı əsərlərin təməlinə hördü.

İlyas Əfəndiyevin püxtələşmə dövrü fəlsəfi düşüncələr, ciddi təhlil və zamanın suallarına cavab verməkdən daha çox yeni sualların qoyuluşu ilə səciyyələnir. Dramaturgiyada sual vermək cavablardan daha səmərəli vəziyyət kimi dəyərləndirilir. Çünki bu hal dramaturji əsərin, pyesin səhnə yaşamının ömrünü müəyyənləşdirir. Hər yeni dövrün teatr sənətçiləri pyesdə qoyulan suallara öz cavabını verməyə çalışır.

Qüdrətli yazıçımızın sonuncu yaradıcılıq mərhələsi onun aktual dövrün, zamanın fövqündə durmasının təzahürüdür. Bu mərhələdə yazılmış pyeslərdə araşdırılan məsələlər artıq ədəbiyyatın fonunda, zamansızlığın ovqatında öz bədii-estetik həllini tapır. İlyas Əfəndiyev

yaradıcılığının üçüncü mərhələsini təşkil edən dram əsərlərində Zamanın özü personajlardan birinə dönür. Tarixi Zaman mühakimə olunur, hadisələrə təsir göstərir, insanın ona münasibəti nəticəsində müsbət də olur, mənfi də, romantik də olur, mürtece də, həyatverici də olur, ölümcül də.

Elçinin yaradıcılığına bu aspektdən nəzər salanda «atalar və oğullar» probleminin fərqli nəticələrini seçmək mümkündür. Belə ki, bir sənətçi kimi təbii olaraq bambaşqa, bir çox göstəricilərə görə prinsipcə yeni yaş nəslinin nümayəndəsi olan Elçin atası ilə yalnız qan qohumluğuna görə deyil, həm də düşüncə və ruh varisi kimi yaradıcılığını İlyas Əfəndiyevin şərti göstərdiyimiz ikinci mərhələsindən başladı. Bəlkə də yaşadığı dövrün təsirindən Elçin elə ilk yazılarında mənəvi, psixoloji, müəyyən mənada fəlsəfi, intellektual suallar verməyi tərcih etdi. Bunun nəticəsində Elçin kifayət qədər uzun bir müddət atasıyla yaradıcı «həmyaş» olaraq öz yaradıcılığının indiki mərhələsinə ardıcıl olaraq addımlayırdı.

Bugünkü Elçin atası İlyas Əfəndiyevdən fərqli olaraq, Zamandan ayrılmır, ondan imtina etmir, Çağımızın tam səlahiyyətli nümayəndəsi olan Elçin dünya ədəbiyyatında fəaliyyət göstərən yaradıcı həmyaşlarıyla birlikdə zamanın içinə varmaq, dünyaya və insana Zamanın sehrli, bir çox məqamlarında isə dərk edilməz qatlarından baxmaq əzmindədir.

Avropalı həmfikirlərindən fərqli olaraq, Elçin yaradıcı axtarışlarını heç bir ədəbi cərəyanın, fəlsəfi-ideoloji «izm»in çərçivələriylə məhdudlaşdırmır. Hərçənd ki, bu cür durum onun önündə daha çox əngəllər qoyur, irəliyə hərəkətini çətinləşdirir. Ümumiyyətlə, öz Sözünə, öz düşüncəsinə, öz yaradıcı metoduna sadiq qalanların hamısı kimi Elçin də onu böyüdüb ərsəyə gətirən, hər an onu qidalandıran doğma torpağına güvənir, milli yaradıcı təfəkkürün enerjisindən faydalanır, klassik poeziyamızın sehrli havasıyla nəfəs alır.

Atalar və oğullar vahid münbit zəminə köklənəndə aralarındakı münasibəti varislikdən başqa təsəvvür etmək mümkünsüzdür...



## VİRTUAL DÜNYANIN GERÇƏKLİKLƏRİ

*«Teatr tamaşası – açıq gözlə baxdığımız yuxulardı.»*

***Maksimilian Voloşin***

Milli sənət təfəkkürümüzdə teatr düşüncəsi və praktikası, yəni dramaturji yaradıcılıq və onun səhnə təcəssümü ən gənc sənət hadisələridir.

Sənətşünaslığın önəm verdiyi məsələlərdən biri sayılan «ənənə və novatorluq» problemi uzun müddət milli dramaturgiyamız üçün aktual olmadı. Maarifçiliyin məqsəd və vəzifələrindən qurtula bilməyən milli dramaturgiyamızın əksər nümunələri mənəvi-əxlaqi dəyərlərin təbliği və tərənnümü ilə fəal məşğul olaraq dünya teatr prosesində baş verən mühüm tendensiyalara biganə qaldılar. Bu vəziyyət çox az istisnalarla Azərbaycan sovet dramaturgiyasında da qorundu. «Formaca milli məzmunca sosialist» tələbinə uyğun olaraq dramaturgiyamız bir çox mühüm problemlərin həllindən imtina etmişdi.

Ədəbiyyata 1960-cı illərdə gələn Elçinin intellektual səviyyəsi və dünya sənət proseslərinə üzvü bağlılığı onun dramaturgiyasının özəlliyini müəyyənləşdirdi. Sosialist realizminin ortodoksal tələblərindən azad olan Elçin teatr sənətinin özəl mahiyyətini erkən anlayıb dünya mədəniyyətində dramaturgiya ilə bağlı olan postulatı – «pyes tamaşanın ədəbi əsasıdır» prinsipini qəbul etdi. Məhz buna görə Elçinin dram əsərləri sadəcə «mükalimәli lövhələr» deyil, həmçinin onun teatr üçün yazdığı əsərlərini «oxunuş üçün pyeslər» zümrəsinə aid etmək mümkün deyil.

Elçinin dramaturji metodu eyni dərəcədə Qərb və Şərq teatr düşüncəsinə bağlıdır. Hər iki ənənədə səhnə oyun məkanıdır. Məhz oyun stixiyasında ən mürəkkəb, ən mərhəm məsələlər öz adekvat təzahürünü tapır. Elçindən ötrü dramaturji əsərin fabulası sözün tam mənasında uydurulub quraşdırıla bilər, süjet hətta hər cür valyuntarist əməliyyatlarla tərtib oluna bilər, personajlar müxtəlif prototiplərdən yapıla bilər... Ancaq bütün bunlardan pyes yalnız udur. Uydurulmayan, quraşdırılmayan, yapılmayan ünsür insan qəlbinin məhrəm çırpıntılarıdır ki, bunları təsvir edən Elçin son dərəcə səmimi etiraflarda olur.

Səhnənin virtual, xəyali zaman-məkanında sıralanan Elçinin pyesləri hər an gerçəkləşməyə hazır olan, amma həmişə potensiya halında qalan insan varlığının sirli məqamlarıyla özünə cəlb edir. Müxtəlif yozumlara geniş imkan yaradır. Ancaq yenə də yuxu kimi təsirli ola-ola məntiqi qənaətlərə gəlmir. Janrından asılı olmadan Elçinin dramaturji qurğuları ilk növbədə elastikliyi ilə fərqlənir. Onun dramları asanca komediyaya dönə bilər, çünki üzücü olayların qatı boyalarına müəllif yumorun qığılcımlarını qatıb. Onun komediyaları istənilən nöqtəsindən dramatik xarakter ala bilər, çünki komik situasiyaları quraşdıran müəllif gerçəkliyin sərt məqamlarına göz yummur. Onun faciələri fars dərəcəsinə enə bilər, farsları isə faciə qədər yüksələ bilər, çünki, dediyimiz kimi, Elçindən ötrü janr strukturları əsərin yalnız zahiri, formal səciyyələrini müəyyənləşdirir. Əsərin mahiyyəti isə ruhun məkanında anlaşılır və heç bir dəqiqləşdirməyə ehtiyac duymur.

Elçinin dramaturgiyası milli oyun zəminində «öz kökü üstə bitir», teatr sənətinin iqlimində boy atır, çiçəklənib bar verməsi isə yalnız və yalnız tamaşaçının təxəyyülündə baş verir.

Özü də tamaşa bitəndən sonra...

## OBYEKT VƏ SUBYEKT: YARADAN ELÇİN VƏ ELÇİNİN YARADICILIĞI

*«Bir «mən» var məndə «məndən» içəri.*

***Yunis İmrə***

XX əsrin inqilabi əhəmiyyətli elmi kəşfləri bədii ədəbiyyatın qarşısına yeni prinsipial məsələlər qoydu. Bu vaxta qədər yazıçı, gerçəkliyi, o cümlədən təsvir etdiyi insanı obyekt kimi qavrayır və onu mövcud olan obyektiv, bəzən isə mütləqxassəli qanun və qaydaların məzmun çərçivəsində yaradıcılıq predmetinə çevirirdi. Baxış bucağı da bu «obyekt-obyekt» sistemliyi ilə müəyyənləşdirilirdi. Yəni, yazıçı həyatı obyektiv gerçəklik kimi qəbul edərək onu yalnız və yalnız öncədən dəqiqləşdirdiyi gerçək mövqedən və rakursdan işıqlandıra



bilirdi. Deməк artıqdır ki, dil ifadə vasitələri də bu sərt və prinsipial əsaslarla məhdudlaşdırılırdı. Məzmun və ideya yazıçının dilini «bağlayıb» yalnız müəyyən üslubda «naxış düzməyə» izn verirdi. Normativ poetikanın sərt göstərişlərini cəsarətlə pozan Elçin əski ozanlar kimi «gecə olan işləri gündüz yozan» mövqeyini seçdi. Yəni, obyekti gerçək zaman-məkan kontinuumundan öz subyektiv yozum sahəsinə ötürən Elçin ədəbiyyatımız üçün yeni olan prinsipial yaradıcılıq əsaslarını gətirdi. Bunu «subyekt-subyekt» münasibəti kimi ifadə etmək olar. İlk baxımdan paradoksal görünən bu sistemlik nəticədə obyekti daha dolğun və ifadəli tərzdə rekonstruksiya etmək imkanını verir. Elçinin əsərləri son dərəcə subyektiv olaraq dövrün... insanların... hadisələrin obyektiv mənzərəsini yaratmağa nail olur.

Ədəbiyyatımızda suveren hüquqlara malik olan «Elçin dünyası» tarixi Zamanın içində öz bənzərsizliyini qoruyaraq həssas oxucuya «vətəndaşlığı» təklif edir və oxucunun da yaradıcılıq hüquqlarını tanıyır.

## GÜNDƏLİKLƏRİN GÜNDƏMİ

*«Yazıya pozu yoxdur.»*

***El deyimi***

Sənətşünaslardan kimsə zarafatyana deyib ki, əsl yazıçının sözün əsl mənasında özü üçün yazdığı gündəlik yoxdur. Ən məhrəm duyğularını qeyd edən yazıçı yenə də onları Kitab halında görür. Belə olan surətdə Elçinin mətbuatda nəşr etdirdiyi gündəlik yazıları əslində öncədən esse kimi düşünülən və uzun illər özü-özündən tərtib olunan bir kitabdır. Elə kitab ki, tərkibində «daranmamış», «ütülənməmiş» fikirlərlə yanaşı, esseistikanın bitkin nümunələri sıralanmaqdadır.

Məsələ ondadır ki, qarşınızdakı yazının müəllifi də illər uzunu Elçinin yaradıcılığını izləyərkən öz gündəliklərində qeydlər aparıb. Bu qeydlərin çoxu sonradan məqalələrdə, kitablarda istifadə olunub, amma bir qismi sanki uyğun, əlverişli məqam gözləyirdi ki, Elçinin konkret əsərinin təhlilində və dəyərləndirməsində daha geniş məsələləri əhatə etmək mümkün olsun.

Budur, Elçin də öz 60-cı yaş pilləsinə yüksəldi. Yüksəldi və onun yaradıcılığını sevənlərə «imkan verdi» ki, bu rəqəmin əslində kifayət qədər şərti sərhədlərindən sənətkarın yaradıcı dünyasının təməli əsaslarına nəzər sala bilsinlər.

Sənətkarlar var ki, yubiley postamentindən keçdikləri yollar aydın görünür. Elələri də var ki, yuvarlaq rəqəmin işığında qarşılarında açılan yeni parlaq üfüqləri görmək olur.

Elçin yaradıcılığının növbəti mərhələsi bizlərə hələ çoxlu kəşflər, gözlənilməz əsərlər və yeni suallar vəd edir.

Odur ki, qarşınızdakı esse də hələ tamamlanmayıb...

*«525-ci qəzet», 15 may 2003.*



Flora XƏLİLZADƏ

## İSTEDAD VƏ SƏNƏTİN QÜDRƏTİ

- **Ömrünün erkən çağlarından yazıçı oğlu olduğunun qürur və məsuliyyətini yaşayan, İlyas Əfəndiyev kimi bir atadan, nasirdən həm həyat, həm də sənət dərsi alan, 16 yaşından kiçik hekayələri ilə yaradıcılığa başlayan Elçin müasir nəsrimizin görkəmli nümayəndələrindən biridir. Azərbaycan ədəbiyyatında, ədəbi tənqidində, teatr və kino sənətində özünəməxsus yer tutan Elçinin çoxşaxəli yaradıcılığı ilə yalnız Azərbaycan oxucuları tanış deyillər. Onun İsveçrə, Çin, Macarıstan, İraq, İran, Almaniya, Slovakiya, Rusiya, Qazaxıstan, Tacikistan, Afrika ölkələrində kitabları nəşr olunub və bu proses indi də davam etməkdədir. Təkcə elə son illərdə Türkiyədə xalq yazıçımızın 10-dan çox kitabı nəşr edilib, 4 pyesi qardaş ölkənin teatrlarında tamaşaya qoyulub.**

XX əsr Azərbaycan ədəbiyyatının banilərindən Hüseyn Cavid, Səməd Vurğun, Mir Cəlal, Mirzə İbrahimov, Rəsul Rza, Süleyman Rəhimov, Əli Vəliyev, İlyas Əfəndiyev və digərlərinin poeziya və nəsrimizdəki ənənələrini ləyaqətlə davam etdirən, mənəvi və həqiqi varislərin parlaq yaradıcılıqları ədəbi-mədəni həyatımıza yeni məzmun, yeni bədii keyfiyyət, bütöv xarakterlər, zəngin və orijinal cizgilərlə səciyyələnən mənəvi dəyərlər bəxş edib. Bu sırada Yusif Səmədoğlu, Turan xanım Cavid, Anar, Elçin, Vaqif Səmədoğlu, Şamo Arif, Afaq Məsud və başqalarının ədəbi fəaliyyəti məhz Azərbaycan mənəviyyatına, mədəniyyətinə bağlıdır. Adətən yaradıcı şəxslər haqqında danışanda onları səmimi, istedadlı, fəal mövqeli vətəndaş, millətini, vətənini, dövlətini canından artıq sevən, onun yolunda hər cür fədakarlığa hazır olan, zəngin simalar kimi xarakterizə edir və bu fikirlərin təsdiqi üçün onların yaradıcılığından bariz nümunələr gətirilir. Deyək ki, bu mənəvi cəhətlərin hamısı Elçinə xas olan məziyyətlərdir. Amma bir fikri onun həmkarları da, tənqidçilər də səmimiyyətlə etiraf edirlər ki, Elçin müxtəlif janrlarda paralel şəkildə və uğurla işləməyi bacaran və bu ədəbi fəaliyyətində də öz yolu, duyğu və düşüncələri, hadisələrə münasibəti ilə seçilən istedadlı qələm sahiblərindəndir. Fikir verin, o, bir tərəfdə hekayə, roman, pyes, esse, eləcə də digər kamil nəsr

nümunələri, portret-oçerklər yazır, ədəbi mühitə fəal tənqidçi müdaxiləsi edir, elmi əsərlər üzərində işləyir, müxtəlif tədqiqatlar aparır, digər tərəfdən isə, pedaqoji fəaliyyətlə məşğul olur. Əsərləri müxtəlif teatrlarda tamaşaya qoyulur. Elçin kinossenarist kimi də diqqət çəkir. Onun ssenariləri əsasında «Baladadaşın ilk məhəbbəti» qısametrajlı, «Arxadan vurulan zərbə», «Mən hələ qayıdacağam», «Gümüşü furqon», «Bağ mövsümü», «Sonsuz gecə» adlı tammetrajlı bədii, eləcə də bir sıra sənədli və cizgi filmləri çəkilmişdir.

Elçinin ilk çap olunmuş hekayəsi «O inanırdı» adlanırdı. 1959-cu ildə «Azərbaycan gəncləri» qəzetində dərc edilmiş bu hekayə Elçinin Azərbaycan nəsrində inamlı ədəbi addımı oldu. Yeddi ildən sonra ilk kitabı – «Min gecədən biri» nəşr edildi. O zaman Elçinin 23 yaşı vardı. 1971-ci ildən başlayaraq bədii əsərləri müxtəlif dillərə, xüsusilə də rus dilinə tərcümə olunub. İlk romanı «Mahmud və Məryəm» 1983-cü ildə çapdan çıxmışdır. Bu janr da Elçinin yaradıcılığında uğurlu yer tapdı. Oxucular onu maraqla qarşıladılar. Kitab demək olar ki, əllərdə gəzirdi. Elçin öz oxucularına yeni romanlarını – «Ağ dəvə»ni, «Ölüm hökmü»nü də bağışladı. Unudulmaz tənqidçimiz Məmməd Cəfər Elçinin bədii yaradıcılığını yüksək dəyərləndirərək yazırdı: «Elçində bədii dərk duyğusu güclü və cəlbedicidir. Müxtəlif əhval-ruhiyyəli, müxtəlif fərdi həyat yolları keçən adamların mənəvi aləminə eyni səviyyədə dərindən nüfuz etmək qabiliyyəti onun yazıçılıq istedadının ən qüvvətli cəhətidir. Elçinin müxtəlif sənət sahibləri olan surətləri... nəinki mənəvi-əxlaqi keyfiyyətləri, arzuları, əməlləri, həm də peşə və yazılarına görə də qocası qoca, cavanı cavan, uşağı uşaq kimi inandırıcıdır, realdır. Elçin varlığı hadisə və insan səciyyəsini canlandırmaqda bir-birini tamamlayan bədii nüfuz üsullarından istifadə edir. Söz önündə aşkar olan reallığın təsviri ilə yanaşı, obyekt üçün pərdəli, ancaq subyektin özü üçün aşkar olan daxili aləmi də – əgər bu aləm gözəl isə gözəlliyini, ziddiyyətlidirsə ziddiyyətlərini də – daxili nitq, surətin öz-özünü mühakiməsi, xəyal, xatirə, yuxu və vasitələrdə əyaniləşdirməkdə ustalıq göstərir...».

Elçin hər şeyin dəyişdiyi məqamda öz təmkinini, həyat həqiqətinə sadiqliyini saxlamağı bacaran, sözün həqiqi mənasında, xoşbəxt yazıçılarımızdan biridir. Bizə elə gəlir ki, ədəbi irsin bir qismindən, yaxud da hamısından imtina etmək qeyri-ciddi bir addım və yaxud da əsl yazıçıya xas olmayan xüsusiyyətdir. Elçinin bu məsələyə'də maraqlı münasibəti var: «Yazmısansa, səninkidir və bunun o biri tərəfi yoxdur. Amma başqa məsələdir ki, yazıçı hansısa bir ideya sarsıntısından,



rəncideyi-hallıqdan, boş bir şeydən yazmasını dərk etməsindən doğan pərişanlığından sonra yazdıqlarından mənən imtina edə bilər, bu, onun hüququdur. O ki qaldı mənə, heç bir bədii yazımdan imtina etmirəm. Əsərlərimin pisi də, yaxşısı da mənimdir».

Bu, faktdır ki, Elçin ən çox xarici dillərə tərcümə olunmuş yazıçılarımızdandır. Tərcümə ilə məşğul olmaq onun ədəbi fəaliyyətində mühüm yerlərdən birini tutur. Klassik yapon poeziyasından tərcümə etdiyi «Nərgizin bircə ləçəyi» kitabı, Qərb yazıçılarından dilimizə çevirdiyi «Necə oldu ki, Pyer Duş məşhurlaşdı», eləcə də F.Fitsceralddan, R.Bredberidən, A.Moruadan və başqalarından də tərcümələr etmişdir. Tərcümə sahəsində Elçinin son işi Molyerin komediyaları olub. İstedadlı yazıçımız hər bir tərcümə kitabına da ön söz yazaraq bütövlükdə xarici ölkə ədibləri haqqında da Azərbaycan oxucularına geniş məlumat verməyi unutmayıb.

Elçin tənqiddə və ümumən yaradıcılıqda şəxsiyyət faktoruna mühüm əhəmiyyət verir. Bəllidir ki, bu gün ədəbiyyatımızda xoşagəlməz hallar diqqət çəkir. Yaza bilən də, bilməyən də kitab müəllifinə çevrilir. Zəif və bəsit mətnlərə mahnılar yazılır. Əxlaqımıza, mənəviyyatımıza zidd əsərlər meydana çıxır. Bu məsələyə də Elçin Əfəndiyevin münasibəti kəskindir: «Bunlar əsl ədəbiyyat, poeziya nümunələri yox, antiədəbiyyatdır, antipoeziyadır. Azərbaycan mətbuatında ədəbiyyatla bağlı yazıları nəzərdən keçirdikdə mənə elə gəlir ki, estetik dəyərlərimiz, bədii meyarlarımız öz yerini yenidən uşaqlıq mərhələsinə təhvil verib. Mənim təsəvvürümdə «ədəbi kəmfürsətsizlik» deyilən bir qara əxlaq göstəricisi var və çox təəssüf ki, Azərbaycan mətbuatına ayaq açıb... Vulqarlıq sənətə zidd bir şeydir. Bizim ədəbi prosesdə lyümpençilik yaranıb... Dəhşət budur. Mən sidq ürəkdən arzu edərdim ki, yaradıcılıqla ancaq istedadlı insanlar məşğul olsunlar və hər bir tənqidçi ədəbiyyatın təəssübünü çəksin, hər əsərə, ədəbi hadisəyə münasibət bildirsin. Biz ədəbiyyata xidmət etməklə yanaşı onun keşiyində də dayanmalıyıq».

Elçin Əfəndiyev həm də xeyli müddətdir Azərbaycan Respublikası Baş nazirinin müavinidir. Cavan yaşlarından müxtəlif vəzifələrdə çalışmasına baxmayaraq, yaradıcılığı üçün ayırdığı vaxt toxunulmaz qalıb. Hər gün səhər saat 5-6 arası yuxudan durur və öz vərdişini yerinə yetirir. İlk iş yerinə – yazı masasının arxasına tələsir. Amma bizim üçün maraqlıdır ki, dövlət vəzifələrində çalışmaq yazıçı Elçinə mane olmur ki? Aldığımız cavablardan bu qənaətə gəldik ki, vaxt baxımından yazıçı Elçinin həqiqətən korluğu var. Elçin ümumiyyətlə,

hər bir işində məsuliyyətlidir. İstər vəzifə başında olsun, istərsə də yazı masasının arxasında. Fərqi yoxdur, Elçin birinci növbədə yazıçıdır.

Özünün söylədiklərindən: «Burada mən çox insanlarla rastlaşıram. Bir tərəfdən həm vəzifə adamlarını tanıyıram, həm də onlardan kömək uman insanlarla ünsiyyətdə oluram. Müxtəlif sifətlərlə, xarakterlərlə üzləşirəm. Vəzifədə bir cür, vəzifədən gedəndə başqa cür olanlar tanıyıram. Bu, mənə yeni mövzular verir. Vəzifə özü bir sınaqdır. Mən burada vəzifə dəyişən, vəzifədə özünü məhv edən insanlar görmüşəm. Bir var bunları kimdənsə eşidəsən, bir də var hər şey sənin gözlərinin qarşısında baş verə. Eyni zamanda vəzifədə də, vəzifəsiz də dəyişməyən insanlar var. Əlbəttə, söhbət təkcə vəzifədən getmir. İnsan xislətini görmək, tanımaq üçün burada imkan var. Bir də vəzifə mənim üçün çox sadə bir şeydir. Qəti surətdə özünü təsdiq, ifadə edən vasitə deyil. Vəzifə mənim üçün son dərəcə məsuliyyətdir. Vəzifəyə gəlməyimə də, gedə biləcəyimə də çox sadə baxıram. Təkrar edirəm, mən ilk növbədə yazıçıyam. Amma bu gün belə bir vəzifədə çalışmağımın çox tarixi bir məqamı var. Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinin, bu yolda mübarizə aparılmasının müşahidəçisi yox, iştirakçısıyam. Şübhəsiz ki, gələcəkdə bu barədə mütləq yazacağam. Hər gün qeydlərimi aparıram».

Elçin həm də istedadlı tənqidçi və ədəbiyyatşünas alim kimi diqqət çəkir. İstər sovet dövründə, istərsə də müstəqillik illərində onun ədəbiyyatımızın aktual problemlərinə həsr olunmuş elmi-nəzəri məqalələri, kitabları çap olunmuşdur. O, bir tənqidçi kimi də son dərəcə dəqiq və diqqətlidir. Elçinin Azərbaycanın görkəmli tənqidçi və ədəbiyyatşünasları haqqında yazdığı «Fikrin karvanı» kitabında böyük mütəfəkkir filosof Mirzə Fətəli Axundovdan tutmuş müasir tənqidçi ədəbiyyatşünaslara qədər Azərbaycan ədəbi tənqidinin ən görkəmli nümayəndələri haqqında yığcam portret-oçerklər toplanmışdır. O, bütün yaradıcılığı boyu ədəbi mühitə fəal tənqidçi münasibəti bəsləyib.

İstedadlı yazıçımız Elçin qələminin qüdrəti ilə hər dəfə bizi heyrətləndirməkdə, qəlbimizdən keçənləri sözün minbir rəngində yenidən bizə çatdırmaqda çox mahir bir ustaddır. Yazımı Lev Anninskinin sözləri ilə bitirmək istərdim: «Elçin möcüzələri sevir. O, zərif və mehriban nağılçıdır. O, kədərli bir sehrkardır, bərq vuran, qızılı, gümüşü rənglərə üstünlük verən impressionistdir...».

*«Azərbaycan» qəzeti, 15 may 2003.*



## BƏDİİ DƏRK DUYĞUSU GÜCLÜ VƏ CƏLBEDİCİ ELÇİN

Müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri, tanınmış ictimai xadim, xalq yazıçısı Elçinin anadan olmasının 60 illiyi münasibətilə Milli Dram Teatrında görüş keçirilmişdir.

Teatrdan AzərTAc-ın müxbirinə demişlər ki, görüşdə mədəniyyət naziri Polad Bülbüloğlu, Milli Dram Teatrının bədii rəhbəri və direktoru, xalq artisti Əliabbas Qədirov, Teatr Xadimləri İttifaqının birinci katibi, xalq Artisti Azər Paşa Nemətov, xalq artisti Səyavuş Aslan və başqaları çıxış edərək, bədii dərk duyğusu güclü və cəlbedici olan Elçinin yaradıcılığına xas psixoloji dərinlikdən, təhkiyə əlvanlığından, tarixi-fəlsəfi zənginlikdən, qələmə aldığı mövzuların milli səciyyəsindən, özünəməxsus yazı mədəniyyətindən və texnikasından söz açmışdır.

Qeyd olunmuşdur ki, yazıçının lirikası, ən incə hissləri bədii cəhətdən parlaq ifadə etmək bacarığı, müxtəlif tipli xarakterlər qalereyası yaratması, ciddi sosial-ictimai və əxlaqi problemlər qaldırması onu dünyanın bir çox ölkələrində də məşhur etmişdir. Onun əsərləri müxtəlif xarici dillərə tərcümə olunmuş, bədii və sənədli filmlər çəkilmişdir. Filologiya elmləri doktoru Elçin çoxlu elmi-nəzəri, ədəbi-tənqidi məqalələrin, monoqrafiyaların, kitabların, tərcümə əsərlərinin müəllifidir.

Sonra xalq yazıçısı Elçin görüş iştirakçılarına minnətdarlığını bildirmişdir.

Axırda teatrın aktyorlarının ifasında görkəmli ədibin «Ah, Paris, Paris...» komediyasının tamaşası göstərilmişdir.

**AzərTAc**

*«Xalq qəzeti», 16 may 2003-cü il.*

**Firuz MUSTAFA**

## ZƏNGİN YARADICILIQ YOLU

...Ədəbiyyat həm də üslubi rəngarəngliyin, daha doğrusu, müxtəlif üslubların məcmusudur. Yazıçı öz üslubunu «yaradıb» formalaşdıra bilmirsə, polifonik ədəbi «orkestrdə» onun «solo»su eşidilmirsə böyük ədəbiyyat və ciddi ədəbi sima haqqında söhbət gedə bilməz. Elçin öz üslubu, öz ifadə və təhkiyə tərzi olan yazıçıdır. Əgər belə demək caizsə, o, yazıçı-stilistdir.

Ədəbiyyat həm də mövzuların rəngarəngliyi, çeşidli hadisələrə müxtəlif bucaqlar altında baxmağın bədii-estetik formalarından biri, habelə, sözün müəyyən mənasında, ədəbi iddiası olan adamın öz mövzu «monopoliyasına» malik olması deməkdir. Elçin «öz mövzusu» olan yazıçıdır. Onun ədəbi personajlarının – qəhrəmanlarının əksəriyyəti heç də böyük xarüqələr yaradan «qəhrəmanlar» deyil. Lakin bu «qəhrəman» olmayan (və ya ola bilməyən) qəhrəmanlar (obrazlar) məhz Elçinin təqdimatında orijinal təsir bağışlayır. Doğrudur, ədəbi təsərrüfatda Elçinə qədər də həmin obrazlara müraciət edilib. Lakin, etiraf etmək lazımdır ki, bu cür «qəhrəmanların» əksəriyyəti o vaxtacan başqa «platforma» və ampluada təqdim olunub; belə ki, qəzet-jurnal səhifələrində, ekran-efir dalğalarında, məsələn, «aerodrom» kepkalı mirzoppalar, mirzağalar, baladadaşlar uzun illər tənqid və istehza hədəfinə çevrilib. Məhz Elçinin təqdimatında oxucu bu «antiqəhrəmanları» yeni rakursdan seyr etmək, onlarla yaxın(dan) tanış olmaq imkanı əldə edib. Və əgər bu cür ifadə etmək mümkünsə, bir çox ənənəvi «mənfi qəhrəmanları» Elçin ədəbiyyata təzə «xasiyyətnamə» ilə təqdim edib; yazıçı özünün o vaxtacan ittiham olunan, «təqib olunan» qəhrəmanlarına bir növ «ədəbi reabilitasiya» verib.

Ədəbiyyat – həyatın bədii inikası deməkdir. Elçinin qəhrəmanları (hətta mifoloji və ya tarixi personajları belə) diri, canlı və həyatidir.

Elçinin ayrı-ayrı əsərləri haqqında ədəbi tənqiddə vaxtaşırı söhbət açılıb. Mən bu müxtəsər yazıda yazıçının yaradıcılığının yalnız ümumi məziyyətlərinə toxunaraq qısaca onu deyə bilərəm ki, Elçin öz dəst-xətti, öz mövzusu, öz qəhrəmanları, öz stixiyası və özünəməxsus ədəbi arqumentləri olan yazıçıdır. Onun roman, povest, hekayə, esse, dram və oçerkləri bir sıra dillərə tərcümə olunub, müxtəlif məmləkətlərdə çap edilib.



Elçinin həm də ədəbi prosesi (geniş spektrdə) diqqətlə izləyən tənqidçidir. Əgər o, bədii əsərlərində hadisələrin «induktiv tədqiqinə» daha çox diqqət yetirirsə, ədəbiyyatşünaslığa aid əsərlərində «deduktiv təhlilə» üstünlük verir. O, bədii yazılarında «detallarla», elmi-tədqiqat xarakterli əsərlərində isə paradiqmalarla «danışmağı» sevir.

Və kiçik bir haşiyə (xatirə):

1978-ci ildə mən Uzaq Şərqdə – Vladivostok şəhəri yaxınlığındakı hərbi hissələrdən birində – tank alayında xidmət edirdim. Həmin ilin qışında xəstələnib hospitala düşmürdüm. Məni müalicə edən həkim ziyalı bir adam idi; ədəbiyyatla ciddi maraqlanırdı. Amma ən çox oxuduğu rus klassikləri idi. Mən onunla tez-tez mübahisə etməli olurdum. Məsələ burasında idi ki, həkimin digər xalqlar, o cümlədən Azərbaycan xalqı və onun ədəbiyyatı haqqında təsəvvürü sıfıra bərabərdi.

Mən müalicə olunduğum müddət ərzində həkim «dostum»a ədəbiyyatımız barədə xeyli informasiya verdim. Hospitalın kitabxanasından əldə etdiyim (rus dilində çap olunmuş) kitabları – Mirzə Cəlilin, Çəmənzəminlinin, Mirzə İbrahimovun, İsmayıl Şıxlının əsərlərini az qala zorla ona oxutdurub rəyini öyrənməli oldum. Elə həmin günlərdə «Yunost» jurnalının bir sayı əlimə keçdi; orada Elçinin «Gümüşü furqon» əsəri çap olunmuşdu. Səhv etmirəmsə orijinalda vaxtilə «Bir görüşün tarixçəsi» adı ilə çap edilmiş həmin povesti də hospitaldakı «ədəbiyyat aşiqinə» oxutdurdum. Əsər onun xoşuna gəlmişdi. Hətta, özünün dediyinə görə həkimlərin «beşdəqiqəlik» yığıncağında fürsət tapıb təzəlikcə tanış olmağa başladığı Azərbaycan ədəbiyyatı və o cümlədən, adını ilk dəfə eşitdiyi yazıçı Elçinin Moskvada «Yunost» jurnalında çap olunmuş yeni əsəri barədə xoş təəssüratını bildirmişdi.

... Bəzən sənət əsəri böyük bir təbliğat maşınının görə bilmədiyi işi görür. Elə sənətin bir məziyyəti də bundan ibarətdir.

Elçinin altmış yaşı tamam olur. Bu, gəncliyin ahıllıq, ahıllığınsa gənclik çağı deməkdir. Biz iki «epoxanın» (ahıllıq və gəncliyin) qovşağında yaşayan yazıçıya yeni yaradıcılıq sevincləri arzu edirik.

*«Ədalət» qəzeti, 16 may 2003.*

**Qeyd.** Məqalənin digər variantı «Mədəniyyət» qəzetində çap olunub (9 may 2003).

## ÖMÜR

Hörmətli Elçin müəllim!

Sizi – görkəmli nasir, dramaturq və ədəbiyyatşünas alimi 60 yaşınızın tamam olması münasibətilə təbrik edirik.

Ədəbiyyata ötən əsrin 60-cı illərində gəlmisiniz. Elə ilk əsərlərinizdən nəinki respublikamızın, həmçinin keçmiş İttifaqın ədəbi ictimaiyyətinin diqqətini cəlb etmisiniz. Siz ümumittifaq ədəbi prosesində fəal iştirak edir, bir-birindən dəyərli bədii nümunələrlə oxucu auditoriyanızı ildən-ilə genişləndirirdiniz. Sizin qələminizdən çıxan «Ölüm hökmü», «Ağ dəvə», «Mahmud və Məryəm» romanları əsl hadisə kimi qarşılanmış, povest və hekayələriniz qiymətli nəsr nümunələri kimi milli ədəbiyyatımıza daxil olmuşdur. Yaradıcılığınızda əsas yerlərdən birini dramaturgiya tutur. «Poçt şöbəsində xəyal», «Mənim sevimli dəlim», «Mən sizin dayınızam» və s. pyesləriniz ölkəmizdə və onun hüdudlarından kənarda müvəffəqiyyətlə səhnələşdirilmişdir.

Kino sahəsində də fəaliyyətiniz diqqətəlayiqdir. Ssenarilərinizin əsasında yeddi film çəkilmişdir.

Çoxşaxəli yaradıcılığınızın bir qolu da ədəbiyyatşünaslıqdır. Klassik və müasir ədəbiyyatımızın aktual problemlərinə həsr olunmuş monoqrafiya, elmi-nəzəri əsərləriniz ədəbiyyatşünaslıq elmimizə və ədəbi tənqidimizə layiqli töhfədir. Siz filologiya elmləri doktoru, professorsunuz.

Əsərləriniz bir çox xarici dillərə, o cümlədən ingilis, alman, fransız, çin, fars, ərəb, macar, çex və s. dillərə tərcümə olunmuşdur.

Sizin ədəbiyyatımız sahəsindəki xidmətləriniz yüksək qiymətləndirilmiş, Azərbaycanın xalq yazıçısı, əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüş, çoxlu sayda ədəbi mükafatlar almısınız.

Əmək fəaliyyətinə Nizami adına Ədəbiyyat İnstitutunda başlamısınız. 1975-1988-ci illərdə Azərbaycan Yazıçılar Birliyinin katibi olmusunuz. «Vətən» Cəmiyyəti sizin rəhbərliyinizlə fəaliyyətə başlamışdır.

1993-cü ildən Azərbaycan Respublikası Baş nazirinin müavini kimi məsul vəzifədə çalışırsınız.

Hörmətli Elçin müəllim, sizi yubileyiniz münasibətilə təbrik edir, sizə cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**
*«Ədəbiyyat qəzeti», 16 may 2003.*



## TAMAŞADAN ÖNCƏ...

Azərbaycan Dövlət Milli Akademik Dram Teatrında xalq yazıçısı Elçinin bir neçə əsəri müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur: «Ah, Paris, Paris...», «Mənim sevimli dəlim», «Mənim ərim dəlidir», «Poçt şöbəsində xəyal».

Mayın 13-də – yubilyarın doğum günündə Teatrda Elçinin «Ah, Paris, Paris...» pyesi göstərilirdi. Tamaşa başlanmazdan qabaq Respublikanın Mədəniyyət naziri Polad Bülbüloğlu tanınmış yazıçı və dramaturqun, ictimai xadimin sənət və mədəniyyətimizin inkişafındakı dəyərli xidmətlərindən danışdı, ona uzun ömür, yeni-yeni yaradıcılıq uğurları arzuladı, tər çiçək dəstələri təqdim etdi. Sonra yubilyarın sənət dostları – Milli Dram Teatrının direktoru, xalq artisti Əliabbas Qədirov, xalq artistləri Səyavuş Aslan və Azər Paşa Nemətov Elçini səmimi qəlbdən təbrik etdilər.

*«Ədəbiyyat» qəzeti, 16 may 2003.*

Məryəm ƏLİZADƏ

## SƏNƏTDƏ YAŞAMAĞIN YAŞI

Görkəmli rus yazıçısı Yuri Olyoşadan sənətdə yaşın əhəmiyyəti haqqında soruşanda o, kədərlə yoğrulmuş – müdrik bir cavab vermişdi:

- Əslində, sənətdə yaş yoxdur – təcrübə var. Amma heç kim məni başa sala bilmir: nəyimə gərəkdir bu təcrübə?!

İlk baxışdan paradoksal yumor və hazırcavablıq təsiri bağışlayan bu cavab əslində, sənət və sənətkardan ötrü olduqca vacib bir sualdır, onun üzərində düşünməyin özü səmərəli və müəyyən mənada məsuliyyətli bir işdir. Bir şərtlə – sənətkarın «yaş» və «təcrübə» səciyyələri yüksək və dolğun olmalıdır! Bir düzəlişlə – sənətkarın yaradıcı irsi o qədər zəngin olmalıdır ki, kəmiyyət göstəricisi mənsub olduğu mədəniyyət üçün keyfiyyət meyarı kimi həm sənətkarın özünü, həm yaşadığı dövrü, həm bütövlükdə təmsil etdiyi sənət növünün tarixini dəyərləndirməkdən ötrü «işlək olsun». Aydın məsələdir ki, söylənilən «şərt» və «düzəliş» hər cür subyektiv dəyərləndirmələrin qabağını kəsərək sənətkarın obyektiv, hardasa mütləq qiymətini verməyə qadirdir.

Sənətkarın yaşı və təcrübəsi bəlli bir yaşam nöqtəsinə çatanda artıq mədəniyyət və incəsənətin faktına çevrilir: bu faktda bir damcı suda olduğu kimi, milli mədəniyyətin özü əks olunur.

* * *

Görkəmli sənətkar, yazıçı-dramaturq, publisist, sənətşünas və ictimai xadim Elçinin 60 illik yubileyi milli sənət düşüncəmiz, yaradıcı təcrübəmiz və onun elmi dərk edilməsindən ötrü həmin o «həqiqət anı»dır ki, bu rəqəmdə «yaş» və «yaşamaq» anlayışları yalnız Elçindən ötrü əlamətdar və həlledici sayılmaz; ömrünün qırx beş ilini fəal yaradıcılıq şəraitində keçirən yaradıcı şəxsin nailiyyətləri eyni zamanda mədəniyyətimizin durumunu əks etdirən aynadır.

Şəxsi münasibəti müvəqqəti kənara qoyub bir teatrşünas kimi «peşə maraqları» prizmasından Elçin şəxsiyyətinə, Elçin yaradıcılığına və Elçin fenomeninin Azərbaycan milli teatr prosesinə təsirini formulizə edəndə ilk növbədə sənətçi qeyrəti, səmimiyyət, intellektuallıq və təbəssüm arxasında gizlənən ciddi və hardasa ağrılı düşüncələrin katalizator təsirini konstatasiya etməliyəm.



Elçin dramaturgiyası və onun səhnə təcəssümləri milli teatr prosesimizə dünya teatr düşüncəsinin mühüm problemlərini qatdı ki, bu, zamanın, dövrün tələbi və «yaradıcı sifarişi» idi. Bəlkə də çox dramaturqumuz bu tələbi duydu-eşitdi, amma məhz Elçin öz dramaturji yaradıcılığıyla dövrün çağırışına adekvat cavab vermiş oldu.

Milli teatr prosesimizin mərkəz təsisatı olan Akademik Dram Teatrının yaradıcı tarixi uzun müddət dramaturgiyamızın klassiki İlyas Əfəndiyevin teatr poetikasının səhnə təcəssümüylə bağlı olub. İlyas Əfəndiyevin silsilə pyesləri dövrün mühüm, aktual olduğu qədər əbədi mənəvi problemlərini həll edən dramatik lövhələr kimi teatr prosesinin dinamikasını təmin etməyə qadir oldu.

Mənə elə gəlir ki, uzun müddət Elçin öz dramaturji istedadını bir növ «buxovlayıb»: hələ altmışıncı illərdə yazılmış «Poçt şöbəsində xəyal» dramatik elegiyası yalnız günlərimizdə səhnə işıqlarını gördü. İstedadlı və çox maraqlı rejissorumuz Mehriban Ələkbərzadə bu əsərin günlərimizin aktual problemləriylə səsləşməsini həssaslıqla duydu və zaman paradokslarıyla zəngin olan pyesin maraqlı bir səhnə ekvivalentini yaratmağa müyəssər oldu. Milli Akademik Dram Teatrı «öz müəllifi» ilə səmərəli əməkdaşlığa başladı...

Elçinin teatra gəlişi son dövrdə müasirlərinin istəklərinə cavab verməyə çətinlik çəkən bu sənət məbədinə isti nəfəs, can, qan və dirilik suyu gətirdi...

Yazıçı-dramaturq Elçinin hər üç pyesini («Ah, Paris, Paris...», «Mənim sevimli dəlim», «Mənim ərim dəlidir») trilogiya (və ya triptix) kontekstində araşdırmaq ən azı üç məqsədə çatmaq üçün münbit şərait yaradır: birincisi, bu cür araşdırma sənətkarın yaradıcı metodunu daha aydın görməyə kömək edir. Yəni aydın olur ki, dramaturgiya Elçindən ötrü təsadüfi və ya müvəqqəti «məşğulat» deyil və ədəbiyyatşünas, nasir Elçinin özəl dramaturji poetikası mövcuddur ki, onun predmetini, baxım bucağını və ifadə vasitələrini dramaturq dünya komedioqrafiya məkanından əxz edərək milli ədəbi və teatr prosesinə daxil etmiş, ona güclü inkişaf təkanı vermişdir. Müəllif xalq gülüş mədəniyyətinin (qaravəlli) zəminində milli klassik dramaturgiyamızın nailiyyətlərini dünya mədəniyyətinin inciləri sayılan komedi del-arte (italyan) və vəziyyətlər komediyası (fransız) ilə ustalıqla sintez edərək özünəməxsus komik bir üslub yaratmağa nail olub.

İkincisi, trilogiya çərçivəsində təhlil mövzunu daha geniş, əhatəli və eyni zamanda konkretikada qavramaq işində yardımçı olur. Belə ki, «Ah, Paris, Paris!..», «Mənim sevimli dəlim» və («Mənim ərim

dəlidir») komediyalarını şərti olaraq «Kimdir dəli?» adı altında birləşdirən vahid mövzunu «gerçəklik və mənəvi-əxlaqi sağlamlıq» problemi kimi qəbul etsək, məsələnin inkişaf istiqamətini aşkarlaya bilərik: «dəliliyə, şizofreniyaya oxşar gerçəklik» («Ah, Paris, Paris!..»), «patoloji dəlilik və onun gerçəklikdə inikası» («Mənim sevimli dəlim»), «patoloji gerçəklik və onun sağlam olanlarda inikası» («Mənim ərim dəlidir»).

Üçüncüsü, müəllifin ənənəyə sadiq olmasına və söylədiyi fikirlərin ölçülüb-biçilməsinə, təfəkkür süzgəcindən keçirilməsinə inanmağımız qaçılmazdır. Elçinin elmi və ədəbi nailiyyətləri, yaradıcı metodu və özəllikləri düşünüşlü və ardıcıl şəkildə dramaturgiyada öz ekvivalentini tapmışdır.

Bütün fərqli münasibətləri istisna etmədən, Azərbaycan milli teatr prosesini kifayət qədər uzun müddət və dərindən araşdırmağa cəhd edən teatrşünas kimi tam məsuliyyətlə söyləməliyəm ki, Elçinin trilogiyası bu gün teatr prosesimizə nə qədər təsir göstəribsə, bir o qədər də inkişaf istiqamətlərinə və gələcəkdə baş verəcək teatr hadisələrinin keyfiyyətlərinə təsir göstərəcəkdir.

Elçinin güclü gülüş potensialına malik olan komediyalarını diqqətlə oxuyandan, səhnədən dəfələrlə izlədikdən sonra yavaş-yavaş dramaturqun gizli məramını duyub anlamağa başlayırsan. Bu duyğu gücləndikcə, Elçinin bütün yaradıcılığına müraciət etməli olursan, çünki komedioqrafiya onun üçün istisna və müstəsna hal deyil, çünki Elçin kimi dərin düşüncə sahibini kimlərisə güldürmək və ya kimlərinsə bostanına daş atmaq heç zaman qane edə bilməz. Belə olan surətdə bu qənaətə gəlməli olursan: Elçin üçün «dəlilik» anlayışı hər iki mənada və eyni dərəcədə, eyni mənada mövcuddur. Odur ki, dramaturqun üç komediyasında bərq vuran ali mətləbləri də görməliyik. Başqa məsələ ki, bunu adi gözlə görmək mümkün deyil, aydın məsələdir ki, ötərgi emosiyalardan imtina edib «sənət gözüylə» baxmaq gərəkdir. Yalnız o halda Elçinin milli sənətimiz üçün etdiklərini təhrifsiz görüb özünü də, əsərlərini də doğru dəyərləndirmək olar.

Məncə, mədəniyyət tariximizi bəlkə də hamımızdan yaxşı bilən Elçinin özü də çox gözəl anlayır ki, onun əsərləri artıq öz həyatlarıyla yaşamağa başlayıblar və insanlardan fərqli olaraq ömürləri gerçək amillərdən asılı deyil…

Zaman göstərdi ki, «öz həyatıyla» yaşayan sənət əsərlərinin taleyi insanların hökmlərindən asılı olmur. Mistikaya qapılmaq istəməsəm də deməliyəm ki, əsl istedadlı əsərlərin yaşam tarixi hələ də dərk



etmədiyimiz, bəlkə də çox sadə olan, amma adi gözlə görünməyən qanunlarla tənzimlənir.

Elçinin «Ağ dəvə» romanı ədəbiyyatımızda geniş vüsət tapmış romanistika janrının parlaq hadisəsi kimi öz zamanında yüksək qiymət almış və ədəbi prosesə güclü təsir göstərmiş sənət hadisəsi oldu. Bu romanın potensiyasında cəm olmuş yaradıcı enerji günlərimizin çağırışını eşidərək teatr prosesinin də cari problemlərinin həllinə qoşuldu. Gənc Tamaşaçılar Teatrının baş rejissoru, istedadlı sənətkar və düşünən şəxs kimi özünü təsdiqləməkdə olan Loğman Kərimov «Ağ dəvə» romanına müraciət etdi, onu «dramatik fraqmentlər» formasında səhnəyə gətirdi. Tamaşanın şəksiz uğurunu konstatasiya edərək yenə də sual qarşısında durmalı oluruq: niyə, hansı səbəblərdən roman işıq üzünü görəndə teatrımız onun parlaq səhnə imkanlarını görmədi? Nə vaxtsa bu məsələyə geniş bir analitik yazıda qayıtmağımızı ehtimal edib, burada sərt bir qənaətimizi söyləməliyik: sözügedən biganəlikdən ilk növbədə ziyan görən məhz teatr prosesimiz oldu. Elçinin yaradıcı potensialı isə özünü ədəbiyyatın müxtəlif janr və növlərində realizə etməyə geniş imkan tapdı. Yubiley yazısında bu cür neqativ məqama yer verməklə bayram ovqatını pozmaq niyyətində deyiləm – sadəcə, məhz yubiley zirvəsindən daha aydın, daha sərt görünən məsələlərdən növbəti dəfə vaz keçmək istəmədim. Çünki Elçinin ədəbi irsi teatr prosesinin ədəbi-bədii potensialını zənginləşdirmək iqtidarındadır.

* * *

Böyük filosoflardan biri demişdir ki, insan yalnız o zaman insandır ki, oynaya bilir və oynamaq bacarığının dərəcəsi onun insanlıq dərəcəsini müəyyənləşdirir, dəqiqləşdirir və təsdiqləyir. «Oyun» söz-anlayışını «gülüş»lə əvəz etsək, məsələ daha da kəskinləşər, çünki bu halda bədii-estetik zövq, intellektual başlanğıc və tarixi məsuliyyət meyarlarının mənası birə-on artır, yalnız fərdin mədəni keyfiyyətlərini deyil, mənsub olduğu milli-etnik kosmosun mübaliğəsiz mövcud olan bütün səciyyələrinin qiymətini vermiş olur.

Komediya ilə, ümumiyyətlə, gərək ehtiyatlı olasan: doyunca gülürsən, həyatın «mənfi halları»na, «mənfi obrazları»na istehza edirsən və… birdən kənardan (ya içindən – fərqi yoxdur) səs eşidirsən: «Kimə gülürsən? Özünə gülürsən…». Bu səs Molyerin,.. Qoqolun... Mirzə Fətəlinin,.. Mirzə Cəlilin də ola bilər, qonşunun da, Haqqın da, o «məndən içəri»dəki «Mən»in də, və utanclığın bulanıq burulğanında

dumduru mənəvi havadan bir udum nəfəs alan təki üzünü səs yiyəsinə tutub «Allah atana rəhmət eləsin!» deyirsən. Və bu məqamda «mənfi halları» öz silahına döndərmiş komediyanın əbədi vəzifəsini anıb müsbət rəydə bulunmaqdan başqa özgə bir variant görmürsən.

Klassik komediya janrı bir qayda olaraq sərhədlərin pozulmasına dözmür: sintetik komediya növləri XX əsrin novasiyasıdır ki, dövrün aparıcı meylləriylə üst-üstə düşür. Qədim Yunanıstanda yaranıb Avropa teatr sənətinin inkişaf prosesində formalaşan klassik komediya büsbütün məsələləri xarakterlər (tiplərlə qarışdırmayaq!) vasitəsi ilə həll etmək iqtidarına malik oldu. Komik (satirik) səpkidə təsvir olunan xarakterlər mövcud olduqları zaman problemlərini əbədi, ümumbəşəri problemlər səviyyəsinə yüksəldərək bütün mədəniyyətlərdən ötrü örnək, nümunə, klassik əsər əhəmiyyətini qazanır.

Bu aspektdə Elçinin «Ah, Paris, Paris!..» komediyası klassik komediya janrında yazılan müasir səhnə əsəridir: komediyanın ali məqsədi, ifşa pafosu, başlıca problemi, konflikt-münaqişəsi və s. məhz dolğun, canlı, çoxqatlı komik xarakterlər sistemliyində həll olunur. Xarakterlərin sistemliyini müəllif süni olaraq qurmayıb: hər dövrün sistemliyini həyat özü yaradır, bu sistemlik əbədi sistemlə uzlaşır, amma bu «üzdə olan» sistemləri görüb estetik biçimə salmaq hər yazıçı-dramaturqa müyəssər olmur. Bu keçilməz tələblərin sırasında klassik ənənəni gözəl bilmək və onu inkişaf etdirmək bacarığı gərəkdir.

Elçinin əsərində «və başqaları» ümumiləşdirilmiş personaj olmasaydı, «Ah, Paris, Paris!..» komediyasını klassik variant adlandırıb müəllifin mükəmməl bilgilərinin qeydi ilə kifayətlənə bilərdik: «və başqaları» klassik komediyaya publisistik xassə qoşaraq onun milli komedioqrafiyamızda üzvi şəkildə inkişafından xəbər verir...

Milli Akademik Tetrımızın səhnəsində öz parlaq təcəssümünü tapmış «Ah, Paris, Paris!..» komediyası milli rejissuramızın potensialını da əyaniləşdirdi: rejissor Azər Paşa Nemətovun yozumu dram əsərinin müstəqil dəyərlərini qoruyaraq onun səhnə imkanlarını birə-on artırdı.

Azər Paşa Nemətov bir rejissor kimi qəlibləşmiş stereotipi kökündən qırdı: məlum oldu ki, xarakterlərin publisistik komediyası sistemliyində bol, şən gülüşə də yer var, dərin, taleyüklü problemlərə də, incə lirizmə də, acı təəssüflərə də...

Burada xüsusilə vurğulamaq istədiyim bir mətləb var: rejissor müəllifin fikrini həssaslıqla duyub, anlayıb tamaşanın fəlsəfi-lirik-publisistik qatını məhz «...və başqaları» adlanan kütləvi personajın



vasitəsi ilə qurmağa müvəffəq oldu. Çünki özünü də «başqalarından» ayırmadı: hamıya güldüyü halda, özünə də istehza etməkdən çəkinmədi...

* * *

«Sənətkarın yaşı» məsələsi rəqəmlərlə müəyyənləşdirilən bir çox hal və hadisələr kimi, əslində, mücərrəd və şərti göstəricilərlə açıqlanan və prinsip etibariylə qeyri-müəyyən əməliyyatdır.

Elçinin 60 illik yubileyi dediklərimizə əyani sübutdur: doğum gününü dəqiqləşdirən bu rəqəm onu təmkinli həyatın acısını-şirinini bolluca dadmış ağsaqqal kimi təqdim edir ki, bu həqiqətdir. Yaşının ahıl çağında yazdığı əsərlərdən fışqıran yaşam sevinci Elçini ruh baxımından gənc dünyanın sirlərini açmaq əzmində bulunan bir dəliqanlı kimi təsvir edir ki, bu da həqiqətdir. Həmkarlarının, ələlxüsus gənc həmkarlarının yaradıcılığına olduqca həssas münasibət bəsləyən, ədəbi prosesi diqqətlə izləyib hər maraqlı, ümidverici fakta həmin andaca reaksiya verən Elçin istəsə də, istəməsə də öz yaradıcı potensialını açıqlamış olur, səngimək bilməyən yaratmaq zövqünü nümayiş etdirmiş olur və bununla özünün hələ fəth edilməmiş zirvələrini açıqlayır ki, bu da həqiqətdir. Çünki bütün əsl istedada malik olan sənətkarlar kimi o inanır ki, ən gözəl, ən parlaq uğuru hələ irəlidədir.

Elçinin 60 illik həyat və yaradıcılığının qeyri-şərti göstəricisi isə ondan ibarətdir ki, bu «yuvarlaq» rəqəmin göstərdiyi zaman kəsiyində milli sənət təfəkkürümüzdə, ədəbi və teatr prosesimizdə «Elçin» adlandırdığımız «insan amili» öz məhsuldar işini görüb, görür və inşallah, hələ uzun bir müddət zəhmətini əsirgəməyəcək.

Bizlər isə Elçin zəhmətindən həmişə olduğu kimi, faydalanacağıq, atasına rəhmət diləyəcək, özünə və əzizlərinə cansağlığı və uzun ömür arzulayacağıq.

Elçinin yaratdığı sənət əsərlərinə nə isə diləmək bizim iqtidarımızda deyil – onlar çoxdandır ki, sənət aləminin zaman və məkanında öz həyatlarını yaşayır və zaman baxımından bircə göstərici tanıyır – *əbədiyyət*...

*«Ədəbiyyat qəzeti», 16 may 2003.*

# TƏBRİKLƏR

Əzizim Elçin!

Budur, sən də 60 yaşın zirvəsinə çatdın!
Bizim birgə Müəllimimizin 80 illiyi fonunda sənin yubileyin cavan kimi görünə bilər. Ancaq biz bilirik ki, bu yaş uğurlu ədəbi yaradıcılıq onilliklərinin və XX əsrin sonu, XXI əsrin başlanğıcı kimi çox maraqlı bir tarixi dövrdə dövlət xidmətinə həsr etdiyin illərin toplamıdır. Bütün bu iş, əmək və xidmət illərini doğma Azərbaycan naminə böyük xidmət dövrü adlandırmaq olar. Müstəqil dövlət qurulucuğunda bu qədər fəal iştirak etmək kimi çətin bir xoşbəxtlik sənin heç də hər müasirinə nəsib olmayıb.
ıBelə gündə doğma insanlar nə arzu edirlərsə, sənə, əziz dostum və qardaşım, onların hamısını arzulayıram – cansağlığı, ailə səadəti və uğurlar. Arzu edirəm ki, sənin dağ yollarına bənzəyən həyat yolun nə qədər çətin olsa da, həmişə yeni yaradıcılıq zirvələrini fəth etməyə özündə güc tapasan!
Səni bağrıma basıram.

**Sənin Oljas SÜLEYMENOVUN,**
**13.05.2003.**

Böyük dostum Elçin bəy!

Ad gününüzü ürəkdən təbrik edirəm.
Tanrı Sizə bu qədər də ömür versin. Çox yaşayın və ölümsüz əsərlərinizin sayını artırın.
Sizə salam, Sizə sayğı, Sizə sevgi.

**Namiq Kamal ZEYBƏK,**
**Mütevelli Heyət Başqanı**



**Azərbaycan Yazıçılar Birliyinə**

Dünyada və xüsusilə Türk topluluqlarında çox böyük ehtiram qazanan sayın Elçinin 60 illik yubileyini təbrik edir, ona uzun ömür, sağlam həyat, Türk dünyasına və insanlığa göstərdiyi xidmətlərin davamını diləyirəm.

**Hörmətlə,**
**Əli DOĞRAMACI,**
**Bilkənd Universitetinin rektoru**

Əziz Elçin! «Drujba narodov» jurnalının redaksiya heyəti Sizi – görkəmli yazıçı və dövlət xadimini, dostumuzu, jurnalımızın etibarlı müəllifini və Redaksiya Şurasının üzvünü şanlı yubileyiniz münasibətilə ürəkdən təbrik edir. Sizə səmimi qəlbdən xoşbəxtlik, cansağlığı arzu edirik. Yeni-yeni əsərlər yazasınız! Biz şübhə etmirik ki, həmin əsərlər «Drujba narodov»un çoxmillətli oxucuları üçün hadisə olacaq.

**Redaksiya heyəti adından**
**Aleksandr EBANOİDZE,**
**«Drujba narodov» jurnalının**
**Baş redaktoru**

Hörmətli Elçin! «Ölüm hökmü» romanını həvəslə, amma tələsmədən – hər mətləbi, hər eyhamı içə-içə, ağıl və hiss süzgəcindən keçirə-keçirə oxudum. Yaşadığım acı illəri, qorxu və təlaş dolu illəri yenidən yaşadım və dərhal sənin yaşını düşünüb heyrətləndim. Çünki əzab, işgəncə, qorxu və təlaş dolu o illəri sən bir insan kimi yaşamamısan, amma yazıçı kimi yazmısan. O amansız və dəhşətli illəri bu qədər təbii və bu qədər inandırıcı şəkildə qələmə ala bildiyinə təəccübləndim. Sən o illərin müsibətlərini o qədər təbii qələmə almısan

ki, bunlar özündən yaşlıların söhbətlərindən deyil, yalnız şəxsi müşahidənin məhsulu ola bilər – qənaətinə gəlmək olmur... Əzizim Elçin, sən qələminin qüdrətilə o illəri bir daha mənim qəlbimdən keçirib məni bir oxucu kimi sarsıda bildinsə, demək burada təsvir etdiyin hadisələrin təbiiliyinə görə sənətin sehrinə və istedadın gücünə heyrətlənmək lazımdır. Beləliklə, sən məni qələminlə bir daha istedadın gücünə və sənətin qüdrətinə inandırdın.

**Bəxtiyar VAHABZADƏ**

Hörmətli Elçin İlyas oğlu!

Şanlı yubileyiniz münasibətilə mənim ən xoş, ən səmimi təbriklərimi qəbul edin.

Bu ötən illər ərzində Siz dolğun yaradıcılığınızla həm ədəbiyyat, həm böyük siyasət sahəsində həqiqətən də məftunedici nəticələr əldə etmisiniz.

Bu gün Sizin bütün dostlarınız, eləcə də Sizinlə işləmək və dostluq etmək səadətinə nail olmuş hər bir kəs şərəfinizə deyilən çoxsaylı sağlıqlara qoşulur və xoşbəxtliyiniz naminə badə qaldırır.

İcazə verin, Sizə möhkəm cansağlığı, tükənməz enerji, yaradıcılıq uğurları, gələcək həyatınızda sevinc və müvəffəqiyyətlər arzulayıram.

Hörmətlə,

**Sizin M.Y.ŞVIDKOY,**
**Rusiya Federasiyasının**
**mədəniyyət naziri**

*«Ədəbiyyat qəzeti», 16 may 2003.*



**Fikrət QOCA**

## ALTMIŞ YAŞIN MÜBARƏK

Adı ömür olsa da,
ağır işdən gəlirsən;
Şərəfli bir həyatdı,
sən döyüşdən gəlirsən.
Bundan sonra yenə var
yollar, döyüşlər, işlər;
Təriflənəsi dillər,
sındırılası dişlər.
Ömrü boyu çalışan,
yazan, yanan, yandıran...
Qələminin ucunda
dünyanı dolandıran
dostumuz, qardaşımız! –
El yanında üzün ağ,
Dünyanı seldə boğar
bir damla göz yaşımız
(onu görməyəcəklər).
Bu gün başına yağır
sənin güllər, çiçəklər;
Qocalığın gəncliyi
altmış yaşa deyirlər.
Səni istəməyənlər
başın daşa döyürlər.
Dostlar sənə əl çalır:
«- Yaşa! Yaşa!» – deyirlər.
Hələ qılınc kimisən,
maşallah, hələ cağsan.
Allah qoysa, sən hələ
yüz il yaşayacaqsan!
Sən yaşa, biz də görək!
Hələlik, dostum Elçin,
Altmış yaşın mübarək!

*«Ədəbiyyat qəzeti», 16 may 2003.*

Aydın XAN

## ELÇİN

XX əsr Azərbaycan ədəbiyyatına nəzər saldıqda çoxlu müəllifin maraqlı əsərlərini görmək olar. İlk baxışdanca aydın olur ki, ötən yüzilliyin ikinci yarısının ədəbi nümunələri dünya ədəbi-bədii normalarının tələblərinə tam cavab verir.

Müasir ədəbiyyat tariximizdə böyük iz qoymuş çoxsaylı nasirlər haqqında danışdıqda hökmən Elçin – yaradıcılığında özünəməxsus estetik-fəlsəfi istiqaməti olan yazıçı yada düşür.

60 yaşlı qələm ustasının yaradıcılığına hər dəfə müraciət etdikdə, özümüz üçün yeni-yeni suallara cavab tapırıq, bunun digər ədəbiyyatçılar üçün də maraqlı olacağını nəzərə alıb, diqqətinizə bu essedən parçaları təqdim edirik.

Ötən əsrin 50-ci illərinin sonunda Azərbaycanın da daxil olduğu SSRİ adlanan böyük imperiyada çox mürəkkəb proseslər baş verirdi. Diktator Stalinin ölümündən sonra Kommunist Partiyasının yeni katibi N.S.Xruşşov şəxsiyyətə pərəstiş epoxasını ifşa etməyə başladı. Belə gərgin dövrdə ədəbi mühitə yeni yaradıcı gənclərin axını gücləndi. Bu nəslin – «60-cılar»ın biri də öz istedadı ilə yaşıdlarından fərqlənən gənc və perspektivli nasir Elçin idi. Yaradıcılığının ilk dövründən o bir neçə istiqamətdə mübarizə aparmaq məcburiyyətində qalmışdır. Bir tərəfdən rəsmi sovet ideologiyası və senzurasını aldatmağa çalışan və artıq aktuallığını itirmiş Stalin dövrünün bədii-estetik prinsipləri ilə mübarizəyə qalxan, digər tərəfdən «O, İlyas Əfəndiyevin oğludur, atasının şöhrətini xərcləyir, onu unudacaqlar» – deyərək öz fərdililiyini sübut etməyə çalışan adamlarla, lakin ən əsası isə Azərbaycan sovet ədəbiyyatına əyalət düşüncəsinin orta keyfiyyətli nümunəsi kimi baxan Moskvanın rəsmi ədəbi elitası ilə sözün bütün mənalarında mübarizə edən Elçin milli ədəbi-bədii səhnəyə mürəkkəb dövrdə gəlmişdir.

Gənc Elçinin qələmindən çıxan bədii əsərlər ona qısa zamanda şöhrət qazandırmışdır. Elçinin bədii tənqidin və oxucu auditoriyasının diqqətini çəkən iki hekayəsi gənc yazıçını yeni uğurlu əsərlər yaratmağa ruhlandırmışdır.

Elçin intellektual nəsrin mahir ustasıdır. O, əsərlərində milli-ruhu, bir qədər də dəqiq desək, tarixin müəyyən qatlarındakı milli mənəvi mühiti əks etdirməyə və onu gələcək nəslə ötürməyə çalışır. Elçinin



irsinə nəzər salanda görürük ki, o, hekayə və povestləri ilə Qərblə bir cərgədədir, «Mahmud və Məryəm» ilə şərqlilərin sırasındadır, dramları ilə avropalıdır, ədəbi araşdırmaları ilə rus, yaxud alman mühiti ilə qovuşur. Biz yazıçının elə hekayə və novellaları ilə qarşılaşırıq ki, orada ədib işıqlı nəzərləri ilə insan qəlbinin dərinliklərinə, fərdin daxili dünyasına nüfuz edir. Bu hekayələr məşhur Amerika nasiri Ceroma Devid Selincerin əsərləri ilə səsləşir. Elçinin Abşeron mövzusundakı povestləri Nobel mükafatı laureatı Qabriel Markeslə birlikdə dünya ədəbiyyatı antologiyasına salınmağa layiqdir. Müqayisələri davam etdirmək mümkündür, lakin... «öz Vətənində peyğəmbər olmaq çətindir».

İstedadlı nasirin irsi çoxlu rəngi və qatları ilə fərqləndiyindən, tədqiqatçı bir neçə kulturoloji problem üzərində dayanmalıdır. Əgər tədqiqatçının intellektual və bədii-estetik səviyyəsi Elçin kimi küclü və qeyri-adi düşüncə sahibinin yaradıcılığını təhlil etmək üçün kifayət deyilsə, onun bu cəhdindən sonra ortada zəif təəssüratın solğun nəticələri qalacaq.

Milli ədəbiyyatımızda ciddi reformatorlardan sayılan Elçinin yaradıcılığının hansı axına – realizmə, yaxud romantizmə, modernizmə, yaxud postmodernizmə yaxın olduğunu təyin etmək çox çətindir. 30 ildən artıqdır ki, bu yazıçının məzmunca milli, formaca bəşəri, səviyyəcə ölməz əsərləri dəyərləndirilir. Hər dəfə qiymətlər yeni prizmadan, fərqli baxışlardan təzə düşüncə ilə verilir. Elçinin – əsl intellektual yazıçının əsərləri köhnəlmir, əksinə, zamanın dağıdıcı dalğalarına sinə gərir. İnanırıq ki, bu əsərlər milli ədəbiyyatımız durduqca yaşayacaq, öz bədii-estetik təravətini qoruyacaq.

Öz həyatının böyük hissəsini ciddi ədəbi yaradıcılığa həsr edən yazıçının irsini izləyərkən biz qəribə qanunauyğunluq müşahidə edirik: ədəbi aləmdə ciddi nəsrə tələbat olanda Elçin povest və hekayələrini yazır, yüksək səviyyəli Avropa tipli romana ehtiyac yarananda Elçin iri həcmli romanlarını qələmə alır, bütün dünyada kino epoxası başlananda Elçin bir-birinin ardınca kino-ssenarilər yazır, onların ekranlaşdırılması qayğısına qalır, ədəbi tənqid zəifləyəndə o, ədəbiyyatşünaslığa üstünlük verir, tərcümə problemi aktuallaşanda Yapon poeziyasını və Molyeri dilimizə çevirir, teatr axsayanda özünü komediya janrında sınayır... Müasir Azərbaycan ədəbiyyatında Elçin kimi qələm sahibləri az tapılar ki, öz novatorluğu ilə ədəbiyyatın zənginləşməsinə belə güclü təkan vursun. Müasir milli ədəbiyyatımızın

inkişafında Elçinin rolu əvəzolunmazdır. Bütün bu xidmətlərinə görə, onu neomaarifçi adlandırmaq da olar.

* * *

***Redaksiyadan.***

Bütün ədəbiyyatı sevənlər adından Elçin müəllimi 60 illiyi münasibətilə ürəkdən təbrik edirik. Ondan yeni böyük əsərlər gözləyirik.

*«Yeni Azərbaycan» – «Seqodnya», 16 may 2003.*





## «AĞ DƏVƏ»NİN İZİ İLƏ

- **Adətən öz səhnəsində maraqlı, yaddaqalan bir tamaşa görmək arzusunda olan kollektiv, ilk növbədə, dramaturji material olan pyeslərin seçimində götür-qoy edir, hansı pyesin səhnə variantında daha dinamik, rəngarəng olacağını müəyyənləşdirir. Ancaq elə də olur ki, rejissor nəsr əsərini səhnələşdirməyi qərara alır və bu zaman geniş, əhatəli təsvirə malik olan romanı, povesti, hekayəni mütləq dramatik qəliblərə uyğunlaşdırmaq, sözün miqyasını hərəkətin çərçivəsində məhdudlaşdırmaq lazım gəlir.**

Gənc Tamaşaçılar Teatrının səhnəsində artıq bir neçə müddətdir ki, bu ənənə rejissor Loğman Kərimovun iş prinsipinə çevrilib. O, əvvəlcə yazıçı-dramaturq Elçinin «Mahmud və Məryəm», az sonra «Ölüm hökmü» romanlarını səhnələşdirmişdi. «Ağ dəvə» tamaşası isə demək olar ki, həmin silsilənin davamı kimi nümayiş olunur. «Ağ dəvə» yaşadıqları məkan eyni, taleləri müxtəlif olan adamların başına gələn hadisələrin düzümüdür. Bu düzüm sıralandıqca ümumi görüntünün arxasında gizlənən ayrı-ayrı həyat nüansları, fərdi dünyalar açılır. Bədbəxt Balakərimin (Ağaxan Salmanov) balabanının və həzin musiqi ahənginin (musiqi tərtibatçısı Fəxrəddin Dünyamalıyev) sədası altında balaca Ələkbər (Əmrah Əmrahov) bu kiçik dünyaların bəlkə də həyatlərinə sığmayan böyük dərdlərini görür, eşidir və uşaqkən yaşlaşır. Əsər özü də, onun səhnə variantı da, elə bu günündən uşaqlığına boylanan bir şəxsin ağrılı xatirələri, hələ dünən yaşadığı bu gününün təsviridir. Təbii ki, obrazın təbiətindən doğan tələblərə və dramaturji yükünə kiçik aktyor qismən, mizanların düzgün yerinə yetirilməsi arzusu ilə əməl edir. Elə buradaca, Ələkbərin xatirələrinin canlanması quruluşçu rejissora kömək edir ki, öz ənənəvi iş prinsipinin digər bir tərəfindən də istifadə etsin: bu, hadisələri səhnə arxasından ətraflı şəkildə səsləndirməkdən ibarətdir. Psixoloji məqamların, fərdi duyumların dəqiq təsviri Elçin nəsrinin əsas xüsusiyyətlərindəndir. Bunlar da ki, teatrda xüsusi effektlərin (tərtibat, musiqi) köməyilə açıla bilər. Rejissorsa effektlərin ən sadəsini seçir. Fikrimcə, hər hansı səhnə əsərində əgər aparıcı nağılı və ya bu qəbildən

olan müəyyən obraz, gedişata müdaxilə etməklə nəinki hərəkətverici rol oynayır, əksinə, canlılığa xələl gətirir.

Yazıçının nəsrinə vurğunluğu duyulan rejissor hadisələri qısaltmağa ürək eləmir, əvəzində isə böyük təsvirlərdən qısaldılmış xırda epizodlar süjeti natamamlığa sürükləyir. Obrazların çoxu nəsr variantında müəyyən funksiyaya malik olan, səhnədə isə yalnız üzərindən xətt çəkilməmək xatirinə (romanda mövcud olduqları üçün) görünən aktyorların (onlar kifayət qədərdir) ifasında çox vaxt fəaliyyətsizdirlər. Yerinə düşdükdə isə, gedənlərin bir daha qayıtmaması kimi çətin dərdə tab gətirən, qapısında ağ dəvə görünən evlərin sakinlərini – Ağakərimi (Ramiz Sərkərov), Sonanı (Kəmalə Hüseynova), Xanım xalanı (Solmaz Qurbanova), Məşədixanım (Firəngiz Şərifova), İbadullanı (Nicat Kazımov), Əminə xalanı (Lətifə Əliyeva), Molla Əsədullanı (Rahib Əliyev), Gülağanı (Elşən Rüstəmov), Gülağanın arvadı Sonanı (Şəbnəm Babayeva) və b. ifa edən aktyorlar o dövrün və həmin məkanın adamlarının xarakterlərini, səmimi və xəbis xüsusiyyətlərini təsirli əks etdirə bilirlər.

Qeyd etdiyim və nəzəri-diqqətimdən kənarda qalan səbəblərin mövcudluğundandır ki, «Ağ dəvə» epik mənzərəsini dramatik görüntüyə dəyişə bilmir. Baxmayaraq ki, tamaşanın janrı dramatik fraqmentlər kimi təyin olunur, ancaq mənə elə gəlir ki, Ələkbərin hər xatırlamasından sonra işıq sönür və yeni bir səhnəyə keçid alır ki, bu da kinomontaj elementlərinə yaxındır deyə, istər hadisələrin təsvir, istərsə də epik düzülüş prinsipindən çıxa bilməyən rejissor bir ovqatdan digərinə keçidlərdə müəyyən arayış və ya replikadan çəkinir deyə, bu səhnə əsəri kinovari, yarımçıq və yaxud sənədli fraqmentlər kimi yadda qalır. Bu tamaşa sanki romanın sadəcə, təsvirlər əlavə olunmaqla, yenidən oxunuşunu xatırladır.

«Ağ dəvə» müharibə illəri Bakısının sakinlərinin yaşadığı sarsıntıları özündə ehtiva edən epik kompozisiya xarakteri daşıyır.

*«Paritet» qəzeti, 16 may 2003.*



ZİYAD SƏMƏDZADƏ
ƏFQAN

## VƏTƏNƏ, XALQA VURĞUN ZİYALI

- **Xalq yazıçısı Elçinin 60 yaşı tamam olmuşdur. Həm rəqəm böyükdür, həm də Elçinə oxucu hörməti. Elə bu səbəbdən respublika mətbuatında yazıçı, dramaturq Elçin haqqında yubiley məqalələri dərc edilir. Altmış yaş kamilliyin zirvəsidir. Bu zirvədən keçmiş yol da görünür, irəlidəki arzular da. Xalq yazıçısı Elçin üçün altmış yaş təkcə xronoloji mərhələ deyil, həm də şöhrət zirvəsidir. Onu hekayələr, povestlər, romanlar, pyeslər müəllifi kimi təkcə respublikamızda deyil, Azərbaycandan uzaqlarda da tanıyırlar və bu gün Elçinin aldığı təbriklərin ünvanı, çox güman ki, sərhədsizdir.**

Elçini iki cür tanımaq olar: birincisi – əsərləri vasitəsilə; ikincisi – şəxsən. Əlbəttə, hər bir yazıçının qiymətini yaratdığı əsərlərlə ölçürlər. Buna heç bir şəkk-şübhə yoxdur. Sənətkarın yaşarılığını da onun yaradıcılıq məhsulu təyin edir. Bu barədə söhbətimiz olacaq. Ancaq ilk növbədə «Elçin necə mühitdə yetişmişdir?» sualına cavab vermək istəyirik. Bu gün xalq yazıçısı Elçin dedikdə, İlyas Əfəndiyev adı da sonsuz ehtiramla xatırlanır. Elçini yaxından tanıyanlar bu əziz gündə onun bütün əsərlərindən əvvəl Azərbaycanın görkəmli nasir və dramaturqu İlyas Əfəndiyevin ruhu qarşısında baş əyirlər. Bu, müqəddəs ehtiramdır, səcdədir, bəlkə, daha artıqdır. Çünki İlyas Əfəndiyevlə iki övladı Elçin və Timuçinin ata-oğul tarixi ən güclü bədii əsərlərdən də təsirli və ibrətamizdir. Atalar və oğullar mövzusu qədimdən qədim olsa da, İlyas Əfəndiyevin ata fədakarlığı nümunələr nümunəsidir. Yaxından tanıyanlar bilirlər ki, Elçin və ondan kiçik qardaş Timuçin annalarını çox erkən itirmişlər. Onlar üçün ata qayğısı da, ana nəfəsi də İlyas Əfəndiyev şəxsiyyətində cəmləşmişdir. Adətən, ailədə ata və ana vəzifələrini evin çölü və içi ilə müqayisə edirlər. İlyas Əfəndiyev iki övladı üçün evin həm çölü olmuşdur, həm də içi. Xalq yazıçısı İlyas Əfəndiyev ölməz romanlar, povestlər, pyeslər yaratmışdır. Qətiyyətlə demək olar ki, bu gün yubileyini qeyd etdiyimiz Elçin də, onun kiçik

qardaşı elmlər doktoru, professor, böyük bir dövlət universitetinin rektoru Timuçin Əfəndiyev də İlyas müəllimin şah əsərləridir.

Elçin xoşbəxt insandır ki, onun İlyas Əfəndiyev kimi valideyni, atası, müəllimi və ustadı olub. İlyas Əfəndiyev də xoşbəxt atalardandır ki, ocağında iki əvəzsiz əvəzi qalıb!

Elçin yaradıcılığa hekayə janrı ilə başlamışdır. İlk kitabı 1966-cı ildə çıxmışdır.

Ümumiyyətlə, Elçinə və onunla həmyaşıd gənc qələm sahiblərinə rəmzi olaraq «altmışıncı illərin yazıçı nəsli» adını vermişlər. Onlar «otuz yeddi» xofundan ilk çıxmış, yaradıcılıqda «sosializm realizmi» termini çərçivəsini daha cəsarətlə sındırmışlar.

Elçin bədii ədəbiyyata öz seçilən dəst-xətti, orijinal mövzuları ilə gəlmişdir. İlyas Əfəndiyevi oxucular ən axıcı, şirin dili olan yazıçı kimi tanıyırlar. Elçin də atasının yolu ilə gedərək, doğma dilə son dərəcə qayğı ilə yanaşır. Bu səbəbdən Elçinin nəsr əsərləri maraqla oxunur, obrazları canlı çıxır. Oxucu sanki əsər oxuduğunu unudur, özünü Elçin obrazlarının əhatəsində hiss edir. Elə bu səbəbdən yazıçının hekayələri, povest və romanları, xüsusən «Baladadaşın ilk məhəbbəti», «Baladadaşın toy hamamı», «Dolça», «Mahmud və Məryəm», «Ağ dəvə» əsərləri sevilə-sevilə oxunurlar.

Onun ssenariləri əsasında neçə-neçə kinofilm çəkilmişdir. Elçin son illər teatr dramaturgiyası sahəsində də fəallaşmışdır. Demək lazımdır ki, Milli Dram Teatrımızda uğurlu səhnə əsərləri Elçinin də adı ilə bağlıdır. Yüksək insani münasibət və dərin psixologiya Elçin dramaturgiyasının əsasıdır. Onun pyesləri əcnəbi ölkələrdə də müvəffəqiyyətlə tamaşaya qoyulur.

Elçin tərcüməçidir. Elçin ədəbiyyatşünasdır. Bir sözlə, Elçinin bədii sənət sahəsində fəaliyyəti geniş və rəngarəngdir.

O, bir sıra nüfuzlu mükafatların laureatıdır. Lap bu yaxında Moskvada çıxan «Drujba narodov» jurnalının Redaksiya heyətinin üzvü seçilmişdir.

Elçinin yaradıcılığı haqqında Mirzə İbrahimov, Mir Cəlal, Həmid Araslı, Məmməd Arif, Məmməd Cəfər, Yaşar Qarayev kimi müqtədir fikir sahibləri söz demişlər. Onun əsərləri bir sıra dünya dillərində, Rusiyada, Türkiyədə və başqa ölkələrdə çıxmışdır. Pyesləri Azərbaycandan kənarda da tamaşaya qoyulur.

Xalq yazıçısı Elçin ictimai xadim kimi də yorulmaz fəaliyyət göstərir. O, Azərbaycan Yazıçılar İttifaqının katibi, neçə-neçə mətbuat vasitəsinin redaksiya heyətinin üzvü seçilmişdir.



Elçin nüfuzlu Vətən Cəmiyyətinin sədri olmuş, azərbaycançılıq ideyalarının yayılıb-yaşamasında müstəsna fəaliyyət göstərmişdir. Azərbaycan dilinin, milli-mənəvi sərvətlərimizin qorunmasında, mədəniyyətimizin təbliğində və inkişafında bir yazıçı, bir alim və bir ziyalı kimi Elçinin səmərəli fəaliyyəti danılmazdır. Tarixi keçmişimizə və bu günümüzə aid elə bir tədbir yoxdur ki, oradan Elçinin səsi gəlməmiş olsun.

Azərbaycan Respublikasının dövlət müstəqilliyi uğrunda mübarizələrdə yazıçı Elçin ön cərgələrdə getmiş və getməkdədir.

Bu gün Elçinə Azərbaycan Respublikası Baş nazirinin müavini kimi məsul vəzifə etibar edilmişdir. Mədəni həyatımızın hərtərəfli inkişafında xalq yazıçısı Elçinin də tutarlı-sanballı payı vardır.

Həzrət Əli (ə) alimi, ziyalını Allahın Yer üzündə çırağı adlandırmışdır. Ziyalının rütbəsi rütbələrin ən ucasıdır.

Bu gün dünyanın sürətlə qloballaşdığı, ədalət və ədalətsizliyin toqquşduğu, zalim və məzlum probleminin heç də hər yerdə tam həll edilməməsi, terrorizm və zorakılığın dəhşətli fəlakətlərə səbəb olması, milli mənəviyyatların ağır güzəranla üzləşdiyi bir dövrdə yazıçı, alim, ziyalı sözünə böyük ehtiyac vardır ki, xalq yaxşını yamandan, xeyiri şərdən daha tez və yerində ayıra bilsin.

Elçin də xalqa doğru yol göstərən, el gözündə ziyaya çevrilən yazıçılardandır. Elçin el dərdinin nə olduğunu yaxşı bilir. Əsli-kökü Qarabağdan olan bu xalq yazıçısının kənd-kəsəyi düşmən işğalı altında, neçə-neçə yaxını, qohumu köçkün vəziyyətindədir. Bu gün bütün xalqımız, o cümlədən xalqın çırağı olan ziyalılar müsəlləh əsgər kimi Vətənin xilasına qalxmışlar.

Sevimli yazıçımız Elçin də bu müsəlləh əsgərlər sırasında həm sözü, həm də əməli ilə mübarizə aparır.

İnsan arzusunun, insan fəaliyyətinin ən şirin meyvəsi, yaşamağın mənası Qələbədir.

Sənə bütün həyat yollarında qələbələr arzulayırıq, dostumuz Elçin!

**«İqtisadiyyat» qəzetinin yaradıcı kollektivi sevimli yazıçımız Elçini 60 yaşı münasibətilə təbrik edir, ona uzun ömür və daha böyük yaradıcılıq uğurları arzulayır.**

*«İqtisadiyyat» qəzeti, 17 may 2003.*

## ÖMRÜN DOĞMA VƏTƏNƏ HƏSR OLUNMUŞ İLLƏRİ

***Bu günlərdə görkəmli nasir, xalq yazıçısı Elçinin ünvanına çoxlu sayda təbrik məktubları və teleqramları gəlir – onun 60 yaşı tamam olur və bu ömrün 40 ili Azərbaycan ədəbiyyatına həsr olunub***

Bu illər ərzində Elçin həmişə məsul vəzifələrdə çalışıb: Yazıçılar Birliyinin katibi, «Vətən» Cəmiyyətinin sədri, Azərbaycan Respublikası Baş nazirinin müavini... Bununla belə, o, yaradıcılıqdan, doğma ədəbiyyatın problemlərindən bir an da uzaq olmayıb və bunun sayəsində fəxr edə bilər ki, bu gün ölkəmizin ən populyar yazıçılarından birinə çevrilib. Onun kitabları hazırda təkcə Azərbaycanda deyil, Türkiyədə, Rusiyada, eləcə də dünyanın bir sıra ölkələrində dönə-dönə nəşr olunur.

Bildiyimiz kimi, Elçinin Jan Pol Sartrın manerasında yazılmış «Mahmud və Məryəm», «Ağ dəvə», «Ölüm hökmü» romanları və digər povest və hekayələri ona böyük şöhrət qazandırıb.

Elçinin yaradıcılığında dramaturgiya da mühüm yer tutur. Onun «Mənim sevimli dəlim», «Mən sənin əminəm», «Mənim ərim dəlidir» və digər pyesləri ölkəmizin teatr həyatına əsaslı surətdə daxil olub. Elçinin pyesləri Ankaranın, Ərzurumun, Konyanın teatr səhnələrində tamaşaya qoyulub. «Mənim sevimli dəlim» pyesi isə bu günlərdə Rusiyanın «Sovremennaya dramaturgiya» jurnalında dərc olunub. Jurnalın Baş redaktoru Nikolay Miroşniçenko həmin əsəri dramaturgiyanın parlaq nümunəsi kimi qiymətləndirib.

Oljas Süleymanov öz təbrik məktubunda yazır: «...Biz bilirik ki, bu yaş uğurlu ədəbi yaradıcılıq onilliklərinin və XX əsrin sonu, XXI əsrin başlancığı kimi çox maraqlı bir tarixi dövrdə dövlət xidmətinə həsr etdiyin illərin toplamıdır. Bütün bu iş, əmək və xidmət illərini doğma Azərbaycan naminə böyük xidmət dövrü adlandırmaq olar. Müstəqil dövlət quruculuğunda bu qədər fəal iştirak etmək kimi çətin bir xoşbəxtlik sənin heç də hər müasirinə nəsib olmayıb».

«Ayna» və «Zerkalo» qəzetinin əməkdaşları bu təbriklərə qoşulur və yazıçı Elçinə uzun ömür və yeni-yeni yaradıcılıq uğurları arzulayır.

*«Zerkalo» qəzeti, 17 may 2003-cü il.*





**Hörmətli Elçin müəllim! Sizi, görkəmli Azərbaycan ədibi və mədəniyyət xadimini 60 yaşınız münasibətilə təbrik edir, Sizə cansağlığı, yaradıcılığınızda bol-bol uğurlar arzulayırıq.**

**Məqsəd Nur**
**Tehran Əlişanoğlu**

**T.Mustafayevin «Ədəbiyyat söhbəti»ndən**

«Demokratiyanın nəfəsi Elçinin «hekayə-dialoqlar»ında («Azərbaycan», 1991, № 5) daha barizdi. Absurd – təzə janr, təzə məzmun gətirir. XX əsrin adamı yüz il sonra – XXI əsrin adamı ilə üz-üzə («Xüsusi sifariş»): sənmi məni uydurmusan, mənmi səni?! Anın metafizikası düşündürür, eyni zamanda çağa xas soyuq məntiqi ilə üşüdür: «Bəlkə proqramlaşdırılan mən yox, sənsən?»

*«Press-fakt», 1-8 sentyabr, 1995*

«Vaxt vardı ədəbiyyatda şəhərin canlı nəfəsini duymaqdan ötrü Baladadaşların, Məmmədağaların, Mirzoppaların adidən-adi sərgüzəştlərinə necə bir qısqanclıqla maraq göstərərdik...»

*«Press-fakt», 21-27 sentyabr, 1995*

«60-cıların Onu (mifik boşluğu) yenə-yenə daha realist, ayıq, həssas (Ə.Əylisli), komik-parodik (Elçin), rasional-fəlsəfi (Anar) mövqelərdən yenməsi, Məntiqə çağırması baradaca...»

*«Press-fakt», 17-23 yanvar, 1997*

«Bizdə 60-cılar ədəbiyyatı bəsbəlli real təməl üzərində durur və bu isə, məsələn, Anarın, Ə.Əylislinin, M.İbrahimbəyovun, Elçinin... nəsrində, V.Səmədoğlunun poeziyasında ilk əvvəl yalnız yuxugörmələr, mistik sızmalar, fantasmaqoriya və s. poetik ünsürlər şəklində peyda olur, bu gün demokratiya, demokratiya şəraitində, əl-əlbət, daha maraqlı axtarışlarına rəvac verir».

*«Press-fakt», 28 fevral – 6 mart, 1997*

**Təhran Əlişanoğlu**
**«Absurd, absurd, absurd»**
**məqaləsindən:**

«Elçin nəsrinin ilin-günün bu çağında niyə məhz absurda müraciətini, sadəcə tətbiq məqamı, guya hüdudların yarılması ilə dərhal dünya ədəbiyyatı uğurlarına yetişkənliyə yozmaq azdır; bələdlik öz yerində, yazıçı bunun həqiqətini uzun zaman içində daşımalıdır ki, beləcə məqamında ortaya qoya bilsin...»

*«Rezonans» qəzeti, 4-6 noyabr, 1998*

**«Azərbaycan yeni nəsri»**
**monoqrafiyasından:**

«Emansipasion – azadlıq deməkdir: asılılıqdan, tabeçilikdən, hər cür yanlış və yıpranmış təsəvvür və adətlərdən. Elçin məqamın dramatizmdən, ağrılı, təzadlı, münaqişəli kataklizmlərdən uzaq, sırf poeziyasına dalmağı, «azadlıq» deyilən insan hissinin təmiz, buxovsuz,



məhz asılılıqdan, tabeçilikdən, cəmiyyətlə bağlı hər cür ilgilərdən kənar varlığını duymağı «qərara alır». Bunun üçün cəmiyyətdən kənarlıq illüziyası yaradan şərti məkan və zaman, aydındır ki, təbiətin özüdür – dəniz, dəniz sahilinin səhra genişliyi, qayalar, gecə... bütün bunların insan təbiətinin «azadlığ»ı – təklik, tənhalıqla qafiyələnməsi».

*Bakı, «Elm», 1999, s.55*

**«Onlar» kollajından:**

«Biz o içi görmüşdük; adi və gözəl idi; ... gerçəklər tək, cüzvən trivial; ya da: «Bu mənim əqidəmdir ki, başqası ilə söhbətdə heç zaman dərinə getmək lazım deyil, hissləri, həyəcanları başqalarının yanında çılpaqlaşdırmaq lazım deyil, çünki...» az, az, az Sən vardın, İnsan».

*«Press-fakt» qəzeti, 19-20 may, 2000*

**Aydın Talıbzadə.**
**«Loğman (bir təyinatın teatral**
**sədası)» məqaləsindən:**

«Digər tərəfdən isə nəsrin epik genişliyinə konkret və adekvat səhnə həlli tapmaq zorxana bir iş. O da ola «Mahmud və Məryəm» kimi mürəkkəb bir roman: polifonik və fantosmaqorik. Burada yazıçının dünyanı görükdürmə bucağı məqamı yetişincə dəyişir, bir reallığın, yaşam tərzinin şərtiliyi başqası ilə əvəzlənir: prototipləri dastan qəhrəmanları olan personajlar elə dastan gerçəkliyindəcə doğulub, görüşüb, ayrılıb, birdən-birə müsəlman mifologiyasının içinə girirlər və müdhiş, faci karnavalın iştirakçılarına çevrilirlər».

*«Bizim əsr» qəzeti, 10 aprel, 2002*

**«Şəhər və qəbiristanlıq (məhəllə rapsodiyaları)» məqaləsindən:**

«Qara emadin və Ağ dəvə. Rənglərin kontrastı. Dünyanın şahmat taxtası. Bakının ekzotik məhəllə panoramı. Mark Şaqal üslubunda çəkilmiş bir tablo. Qərinələrin və mədəniyyətlərin vizual dialoqu. Ötəri və əbədinin simvolları. Qara emadin maddi aləmin rəmzidir, vəzifəni, pulu, hökmü, nüfuzu, Qərb üyğarlığını və onun dəyərlərini eyhamlaşdırır; Ağ dəvə isə iki dünya arasındakı əlaqənin konkret obrazıdır, ruhidir, topa-topa buludlar kimidir, Şərqin fəlsəfi partiturasının iç ahənginin məkan müstəvisində plastik görkəmidir, müsəlmanın mövcudluq ritminin zühur formasıdır, ölüm səltənətinin təmiz, pak kəcavəsidir; məqamı yetişəndə növbə ilə bir-bir hamının qapısında yatacaq və bir dəfə də qara «emadin»in sahibini maşından düşürdüb özü ilə aparacaq. Onun üçün hamı eynidir, kəfənə tutulmuş bərabərhüquqlu sərnişindir. Son mənzilə gedən yolda heç kimin fərq nişanəsi yox. «Ağ dəvə». Roman. Müəllifi xalq yazıçısı Elçin...»

*«Bizim əsr», 27 mart, 2003*

*«Yeni Azərbaycan» qəzeti, 18 may 2003*





## AD ÖZÜNÜ DOĞRULDANDA VƏ YA ELÇİN DÜNYASI

**(esse)**

Onunla ilk tanışlığım yadıma gəlmir... Bəlkə «Ağ dəvə» rəvayətini, «Mahmud və Məryəm» dastanını lap uşaq yaşlarımdan kəndimizin qocalarından, ağsaqqallarından, ağbirçəklərindən eşidən vaxtlardan tanımışam onu? Bəlkə poçt şöbəsində işləyən ilk sevdiyim qızın yanında dayanıb və sevgimi ona deməkdən utanaraq, xəyallara daldığım vaxtdan yaranıb bu tanışlıq?.. Bəlkə Baladadaş yaşında ilk sevginin acısını daddığım vaxtdan tanımışam onu?.. Bəlkə Dolça adlı itimizin özgə çörəyi ilə qudurub, bizi qapdığı vaxtdan yaranıb bu tanışlıq?.. Bəlkə teatr adlı bir dünyada özümüz-özümüzə gülüb, şəbədə qoşduğumuz vaxtdandır bu tanışlıq?.. Bəlkə «Bülbülün nağılı»nı oxuyub, yazıçının inci kimi sözləri bir-birinə düzüb, zərli, qiymətsiz bir boyunbağı yaratdığına mat qaldığım vaxtdan tanımışam onu? Bəlkə bu kiçik əsərin qalın-qalın kitablar qədər olan fəlsəfəsi məni heyran etdiyi vaxtdandır bu tanışlıq? Bəlkə...

Bilmirəm. Bircə onu bilirəm ki, bu görüşün tarixçəsi çox qədimdir. O vaxtlar nə Şuşaya duman gəlmişdi, nə də bu dünyamızdan qatarlar da getmirdi... Nə par-par parıldayan Yuqoslaviya ayaqqabımız, nə ox kimi bıçağımız yox idi. Nə də «İki çal Papağın və bir qara Kepkanın nağılı»nı oxumamışdıq ki, bu keşməkeşli dünyada özümüzü Qara Kepkalardan qorumağı öyrənək... «Ölüm hökmü»nün də nə olduğunu bilmirdik... Beş dəqiqə də əbədiyyətdə yaşamamışdıq. Mərdan Dadaşlı kimi. Hər şeyə romantik hisslərlə baxırdıq, Baladadaş kimi...

Yazıçı Elçinin hekayələrində, esselərində, povestlərində, romanlarında, pyeslərində... El üçün yanan, El üçün düşünən, El üçün həyatını şam kimi əridənlər dələduzlarla, yaltaqlarla, xəbislərlə, milli mənsubiyyətini satanlarla, millətinə düşmən olanlarla vuruşub, gah müdrik, gah yumorlu sözlərlə, eyhamlı cümlələrlə, fikirlərlə, hadisədən-hadisəyə, zamanda-zamana keçərək yabançıları ram eləyir, onların əsil simasını müəllifin dililə bizə göstərir və inandırırlar. Bütün yaradıcılığında haqqı, haqq işi, kişiliyi, mərdliyi müdafiə eləyən Elçin

isə ən yüksək zirvədə dayanıb, bu hərc-mərclik, vuruş dünyasında müsbət qəhrəmanlarının qələbə çalmasını izləyir, gözləyir... Millətin dərdini öz dərdi bilir...

Ömrünün yarım əsrini qatlayanlar və onlardan cavan olan yazarlar və ədəbiyyat oxucuları, milli ruh, istək, dilək üstündə köklənmişlər üçün, Elçin dili inci zərgərliyi ilə sözləri sözlərə, fikirləri fikirlərə calaması və özünün də lap cavanlıqdan sifətindəki nur, gözlərindəki mərhəmət onu bizə çox yaxın eləyib. Sevdirib. Biz də ilk yazılarımızda onu təqlid eləyib, onun yaradıcılığından bəhrələnmişik. Onun dünyasına varıb, özümüzü ona oxşatmağa çalışmışıq... Elçinsə, El üçün yaza-yaza, öz cığırını, yolunu yaradıb, öz dünyasını yaşayıb və yaşayır...

Əlində tutduğu fanarla yaratdığı yolu işıqlandırıb, bizi də ardınca aparır. Bizə dünya mədəniyyətindən, ədəbiyyatından inciləri öz dilimizdə təqdim eləyir... Dünyanın ən böyük dahilərini, dühalarını bizə tanıdır... Beləcə El çin yanan, El çin düşünən müdrik Elçin, əlindəki fanarla milləti qaranlıqdan işıqlığa, camurluqdan laləzara aparır...

Hər dəfə mən, böyük yazıçı Elçinlə görüşəndə, onunla söhbət eləyəndə neyçünsə yadıma «Qış nağılı» adlı qədim bir el rəvayəti və bu rəvayətin baş qəhrəmanı, El ağsaqqalı Kərim kişi düşür... Əlbəttə, Bakıda qarlı-çovğunlu qış səhərinin açılmasına pəncərədən məyusluqla baxan və Bilgəhdəki bağında zəncirli qalan iti, Nabran üçün nigaran olan Kərim kişini demirəm.

Belədir həmin rəvayət.

Belə nəql eləyirlər, bir obaya, bir elə Ulu Tanrı o qədər qar yağdırır ki, bu obanın, bu elin başqa obalarla yolları, irizləri tamam bağlanır. Bir ay yağan qar bu obada heç kimdə azuqə qoymur. Hamının taxçası, boxçası boşalır... Uşaqlar, xəstələr çörək istəyir... Heç nəyə çarə tapa bilməyən həmin elin camaatı, obanın ağsaqqalının evinə yığışıb, ondan imdad, kömək diləyirlər...

Ağsaqqal Kərim kişi hamıya diqqətlə qulaq asıb, özünəməxsus qalın səslə, aramla deyir:

- Sizin hamınızın həyəcanını başa düşürəm... Bu bəladan qurtarmaq üçün bircə yol var. Bu günün işini sabaha saxlamamaq şərtilə, elə bu gecə, obanın qoçaq, igid kişiləri hərə bir heybə götürsün, mənimlə birlikdə gedib, qonşu obadan çörək, azuqə gətirək. Onu da bilirsiz ki, bizim obamızla qonşu obanın yolu çox uzaqdır. Və yollar da qurd-quşla doludur...



İmdada, köməyə gələnlər, hərə bir bəhanə ilə evlərinə dağılışdı. Heç kim bu qarlı-çovğunlu gecədə, yolları çaqqal-çuqqalla dolu olan bir məmləkətdə həyatını bada vermək istəmədi...

Ağsaqqalın, Kərim kişinin məyus olduğunu görən madar oğlu, Cavanşir dözməyib dedi:

- Gəl mənimlə gedək, ata, ölməmişəm ki. Mən hazır. Hərəmizə bir heybə çörək gətirsək, heç olmasa uşaqlara, xəstələrə bir günə çatar. Sonrasına da Allah Kərimdir...

Özündən sonra, onun çırağını, ocağını yandıracaq, bircə madar oğlunun bu sözlərilə ağsaqqal razılaşmaq istəmədi.

- Yox, oğlum, - deyə o, oğlunun üzünə heyranlıqla baxıb dedi. Mən tək, özüm gedəcəm. Əgər mənə bir şey olsa, həyatım sona yetsə, qurda-quşa qismət olsam, heç olmasa sən mənim çırağımı, ocağımı sönməyə qoymazsan... Əgər gedib qonşu obaya çıxa bilsəm, orda çətin günlərimin dostları var. Onlar yəqin ki, mənə kömək eləyərlər, bu obaya bir neçə heybə çörək gətirərik...

Oğul atası ilə razılaşmaq istəmədi və dedi:

- Mən də səni tək getməyə qoymayacağam. Sən öz çırağını, öz ocağını hələ əlli il də özün yandırmalısan... Ancaq belə gecədə tək getsən...

Ata-oğul çox mübahisə eləyirlər... Axırda çar-naçar qalan ağsaqqal Kərim kişi oğlu Cavanşirlə razılaşır. Razılaşır ki, oğlu da onunla getsin. Ona kömək, arxa olsun.

... Heybələri çörəklə dolu ata və oğul alatoranda qonşu obadan öz obalarına dönürlər. Uzaqdan canavarların ulaşması eşidilir. Tufan, çovğun onlara yeriməyə mane olur. Bir yandan da eşidilən vahiməli səslər...

Oğluna ürək-dirək vermək üçün hərdən müdrik qoca deyirdi:

- Yorulmamısan, oğlum? Bir az da döz, obamıza az qalıb. Çatmışıq...

- Mən sənin oğlunamsa, dözümlüyəm, ata. Arxayın ol. Səninlə dünyanın hər çətinliyinə, dərdinə dözüb, hara lazımsa gedərəm. Təki xalqın sənə olan inamı itməsin, - deyə oğul da öz növbəsində, qabaqda gedən atasına ürək-dirək verirdi.

Beləcə qarlı-çovğunlu qış gecəsində ata ilə oğul yol gedir və hər biri öz dünyasında, öz içində, öz-özünə təskinlik, inam verərək, obalarına tələsirlər...

Ata fikirləşir ki, bircə qurda-quşa rast gəlməyəydik. Onlara yem olmayaydıq. Belə bir hadisə baş versə, gərək özümü qurban verim, oğlum qaçıb qurtara bilsin. Çırağım sönməsin...

Oğul da qurdun-quşun səsini qulaq ardına vurub fikirləşir ki, qabaqda dağ boyda atam gedir. Qurd-quş mənə neyləyə bilər?.. Atamın qorxusundan onlar bizə yaxınlaşmazlar...

Bu vaxt birdən atanın ayağı büdrəyir və yerə yıxılır. Belində olan heybənin ağzı açılır və çörəklər qarın üstünə səpələnir. Oğul cəld atasına kömək eləyib, onu qarın üstündən qaldırır. Köməkləşib, çörəkləri heybəyə yığırlar...

İndi hər ikisi pərt, pəjmürdə yol gedirlər. Hər ikisi də öz aləmində, öz dünyasında...

Ata fikirləşir:

- Nə pis oldu. Heç kimin qarşısında yıxılmayan mən, oğlumun qarşısında yıxıldım. Axı o, məni bir dağ bilirdi. Dağsa uçar, ancaq yıxılmaz...

Oğul da öz növbəsində fikirləşir:

- Mənim atam niyə yıxılmalıydı? Axı, mən onu məğrur, uca bir dağ bilirdim...

Bu vaxt, birdən oğlunun gözü atasının əlində olan tək fanara sataşır. Sən demə... Sən demə yol boyu ata, əlində olan tək fanarla, arxasında gələn oğlunun ayağını, yolunu işıqlandırırmış. Özü isə qaranlıqda gedirmiş. Demək ata fikirləşirmiş ki, özü yıxılsa da olar. Onsuz da bu keşməkeşli həyatda o çox yıxılıb, durub. Ancaq ata Kərim kişi istəmirmiş ki, oğlu Cavanşir yıxılsın...

Bax, Elçin də ömrünün bu ağsaqqal, müdrik çağında əlində tutduğu tək fanarla özündən cavan ədəbi dünyanın yazarlarının ayaqlarını, yolunu işıqlandırır və bu sözlərlə onlara öz cığırlarını tapmaqda kömək eləyir... Və deyir:

- Yazıçı yazarkən yalnız bir insan, bir fərd kimi özünü ifadə etmir. Hərgah yalnız belə olsaydı, onda bəlkə doğrudan da Füzulidən, Balzakdan, Tolstoydan sonra yazmağın mənası yox idi. Lakin hər bir yazıçı özü ilə bərabər, öz xalqını da ifadə edir. Hər hansı bir yazıçının yerinə başqası gəlib onun xalqının hiss və həyəcanlarından, psixologiyasından, əməl və arzularından, gələcəyi naminə keçmişindən və bu günündən yazmayacaq. Bu yalnız həmin xalqın öz doğma oğlunun işidir.

Yazıçı o şəxsdir ki, öz ana dilini yaşadır və inkişaf etdirir. Və bundan da böyük, müqəddəs bir vəzifə ola bilərmi?..



Yazıçı həmişə istibdadın, milli hüquqsuzluğun düşməni olmuşdur. Yazıçı həmişə öz xalqının ən qızğın və sadiq, etibarlı, milli təəssübkeşi olmuşdur.

Milli təəssübkeşlik işığını yaşadan **YAZIÇI ELÇİN,** işığınız mübarək! Ey böyük **İNSAN**, ziyalı, müdrik şəxsiyyət, filosof, alim, dövlət xadimi, xalq yazıçısı, el üçün yazan, onun məşəqqətlərini, dərdlərini bədii şəkildə yazıya köçürüb, gələcək nəsillərə ərməğan eləyən **ELÇİN** müəllim!

Gün o gün olsun ki, sizin əlinizdə tutduğunuz bu tək fanar elə bir gur işıq saçsın ki, **QARABAĞ** torpağını da işıqlandırsın...

**AMİN!..**

*«Azad Azərbaycan» qəzeti, 18 may 2003.*

**Rafiq TAĞI**

## ƏFƏNDİYEV SOYADLI DOSTUM ELÇİN

### Onun hər yubileyində təzədən qayıdacağım yazı

Dostlarım vəzifədə ucaldıqca, mən onları «itirirəm». Onlar məndən əl üzməsələr də, mən «faydalılıq əmsalı» artan dostlardan hökmən əl üzürəm. Məncə, vəzifə – münasibətlərdə əxlaq defekti törədir. Mənim dostlarla ayrılığım ancaq vəzifə ayağında olur. Onlar sonra teleekrandan gözümə dəysələr də, onsuz artıq gözdən uzaq kimidirlər.

* * *

İnsan – öz illüziyalarında qiymətlidir. Hərdən elə bilirəm ki, mənim gəncliyimdən yaxşısı olmayıb. Yaşa dolduqca, tez-tez gəncliyimi, eləcə hökmən də onunla bağlı Əfəndiyev soyadlı dostum Elçini xatırlayıram. Qocalığımdasa o, ədəbi həyatımın başlanğıcında dan ulduzu kimi parlaq görünəcək. Məni qınamayın, nəsrdə ilk məhəbbətim Maksim Qorki olmuşdur. Ancaq Sovet «quyu»sunun dibindən böyük ədəbiyyata Elçinin əlindən tutub çıxmışam. Yalandan yox, o mənə sidqi-ürəkdək əl uzatmışdı. Tərcüməni andıran ilk hekayələrimin oxucusu məhz Elçin müəllim olub. Təəccüblüdür, o mənim ilk təcrübələrimə gülmədi. «Tərcümə»lərimin içindən məni görə bildi. Əlbəttə, biganə deyilsənsə, görəcəksən. Halbuki biganəliyə ixtiyarı vardı. «Fəlsəfə»ylə dolu həmin ilk «tərcümə»lərimə indi özümün də gülməyim tutur. O, 1978-ci ildə rayondan Bakıya – gənclərin Zuğulbadakı yaradıcılıq seminarına məni də çağıranda, sevincdən az qalmışdı quş olub uçam. Sovet dövründə sevinc güclü olurdu. Ad çəkməyəcəyəm, mən Elçin müəllimdən savayı ünsiyyətdə olduğum ədəbi «general»ların hamısını təmənnalı, hətta rüşvət ehtiraslı gördüm. Onların səmimiyyəti də cinayət tərkibli idi. Ancaq axı mən də elə-belə oğlan deyiləm: bütün cinayətkar xidmətlərə yox dedim. Ömrüm boyu üç-beş sözlə belə xəyanət etmədiyim ədəbiyyatda saxtakarlığı xoşlamamışam. Ədəbiyyatdan qazanc güdməmişəm.



Ədəbiyyat dolanışıq üçün deyil. Ədəbiyyat şöhrət üçün də deyil. Əksinə, mən şöhrəti şair, ya nasiri qarabaqara izləyən «parparaççi» sayıram. Hə, yaradıcı gəncə sağmal inək kimi baxmaq bağışlanılmaz günahdır. Mən açıq deyirəm, üstündə bu günahı olanlar Sirat körpüsündən dombalaq aşacaqlar. Absurda bax, ha çalışdımsa, 80-ci illərin Azərbaycan əbədi jurnallarında çap oluna bilmədim. Onda orda-burda işıq üzü görmüş adda-budda hekayələrimin taleyi yalnız Elçin müəllimlə bağlıdır. «Sokolniki parkı» – bu adda hekayəmi «Azərbaycan gəncləri» qəzetində öz təqdimatında dərc elətdirmişdi. Ancaq hələ o da yarasa kimi axşamlar üzə çıxan «Bakı» qəzetinə verdiyi hekayəmin çapına nail olmamışdı. Moskvadakı qərib üçün bu cəhdlərin qiyməti yoxdu. İlk kitablarım da onun köməyi sayəsində işıq üzü görüb.

Elçin müəllim əbədi-ədəbi həqiqətlərin gəldiyi səmtə həmişə güzgü tutub. Ədəbiyyatın gələcəyini gənclərdən gözləyib. Gənclər onun gözəlliyidir. Ona başucalığı da gənclərdən gəlib. Vaqif Cəbrayılzadə, Baba Vəziroğlu, Saday Budaqlı, Maarif Soltan, Xeyrulla Xəyal, elə mən özüm – o, «pişim-pişim»lə rəftar etdiyi idbar Sovet dövlətini yaxşı tanıdığından, üzü daim bizlərə olurdu. Biz də onun istəyənləri idik və bu istək heç vaxt əskilən deyil. Əlbəttə, qaş-gözümüzə aşiq deyildi – o bizi Azərbaycanı istədiyindən istəyirdi. Bu onda fəhmlə bağlı şeydi. Özündən soruşsan, bəlkə bunun niyəsini deyə bilməzdi də.

O, Azərbaycanı deklarativ sevməyi bacarmır.

Mən yol qeydlərinəcən onun bütün əsərlərini oxumuşam. Abşeron koloritli ilk hekayə və povestlərinin, həmçinin 80-ci illərdə yazdıqlarının, romanları və absurd-hekayələrinin, komediyalarının dadı indiyəcən damağımdadır. Mən şəxsi arxiv mədəniyyətini, şəxsi kitabxana təşkili işini, vaxtdan dəqiqəsinəcən istifadə və əsas işi qeyri-əsasdan ayıra bilmək bacarığını ondan öyrənmişəm. Biz onun Hötedən tutmuş «Azərbaycan dəmiryolçusu» qəzetinə qədər hər şeyi oxumasına mat qalardıq. Moskvaya gələndə, iki gün qatarda son həftələrin oxuyub qurtardığı bir qucaq qəzetini verərdi ki, mən də oxuyum.

Elçin 90-cı illərin ictimai-siyasi təbəddülatlarında korlanmadı. Təmiz adını saxladı. Bu elə-belə də iş deyil: ad təmiz Azərbaycana həmişə gərəkdir. Zaman onu yemədi. Yeyə bilmədi. Belə görükür, artıq yeməz də. Gücü çatmadığından, Zaman onu əbədiyyətə aparmağa məcburdur.

* * *

Mənim işim Allaha qalıb, dostlar vəzifədə ucaldıqca, onları «itirirəm». Bəlkə də ona görə ki, mənim onlara hayan durmağıma ehtiyac qalmır. Hakimiyyət münasibətləri korşaldır: mən ucalan dostlarımdan sanki utanır və çəkinirəm. Düzdü, hərdən Don Kixot kimi Elçin müəllimi «Nazirlər Kabineti» qəfəsindən qurtarmaq da könlümdən keçir. Ancaq sonra bunu istəmirəm…

Mən niyə beləyəm, dostlardan quyu dibindəkilərinə əlim çatır, dağ başındakılarasa – yox. Eybəcərin birisiyəm, əlim aşağıya uzundur, yuxarıya – qısa.

*«525-ci qəzet», 20 may 2003.*





## MƏNİM SEVİMLİ DƏLİM

**(Elçinin 60 illik yubileyi münasibətilə)**

Bazar günü yazıçı Elçinin «Mənim sevimli dəlim» komediyasının növbəti nümayişi oldu.

Tamaşa başlanan kimi rejissor Azər Paşa Nemətovun dəsti-xətti o saat hiss olundu. Söhbət rejissorun yazıçı Elçinin digər əsərlərinə də verdiyi quruluşdan gedir. Əslində əsərlərin qayəsi, rejissor işi və aktyor oyunu tamamilə fərqlənsə də, «Mənim sevimli dəlim» öz səhnə dinamikliyinə və zamanın ritmini tutan çevik intonasiyasına görə «Ah, Paris, Paris…» komediyasına çox bənzəyirdi. Bu oxşarlıq aktyorların eyniliyi faktı ilə daha da qabarıq görünürdü. Amma aktuallıq baxımından haqqında söz açacağımız komediya əvvəlkindən kifayət qədər fərqlənirdi. Birincidə söhbət bəlli məkandan və konkret zamandan gedirdisə, burada hadisələr daha mücərrəd və ümumi planda baş verir, daha uzun zamanları öz məzmununda ehtiva edirdi. Ümumilik səhnə tərtibatından başlayırdı: qara fon, «tavanın» ən uzaq bucağında sıra ilə düzülən projektorlar, vəzifə stolu, adi işçi stolu, katibə stolu – üstündə makina, hər stola uyğun digər iş ləvazimatları və səhnənin ortasından öz şahanə görkəmi ilə sallanan kəndir, bir kəndirəcən ucalan pilləkən… Döşəməyə isə payız yarpağı kimi səpələnən cırcındır. Hansı ki, tamaşa boyu ifaçıların ayağına dolaşırdı və əsərin ümumi ruhuna izah edilməsi müşkül olan abstrakt mənalar əlavə edir.

* * *

«Ah, Paris, Paris…» komediyası ilə daha bir bənzəyiş və stil oxşarlığı müşahidə olundu bu tamaşada. Səhnədə baş verən hadisələrə müdaxilə edən, pyesin remarkalarını aparıcıymış kimi mikrofonla tamaşaçının diqqətinə çatdıran və əslində səhnədəki hadisələrin həqiqi qayəsinə hopmayan ifaçılar da vardı tamaşada və eynən əvvəlki tamaşa kimi «Mənim sevimli dəlim»i də bu ifaçılarsız təsəvvür etmək çətin idi. Bu «köməkçilər» eyni zamanda əsərin epizodik rollarını ifa

edirdilər. Məsələn, polis nəfəri, xəstəxana işçiləri və s. Gənc aktyorlar Rövşən Kərimduxt və Aslan Şirinovun ifa etdikləri bu obrazların proqrama görə görəcəkli digər işlər isə belə adlandırılıb – Tamaşanı başlayan, davam etdirən, bitirən, ona bədii ruh verən, səsləndirən və s.

* * *

Tamaşa necə başladı? Sadəcə bir elanla… «N» saylı xəstəxanadan bir dəli qaçır və xəstəxananın professoru şəfqət bacısı ilə birlikdə bu dəlinin axtarışına başlayır.

Səhnədə hadisələr iki süjet boyu cərəyan edir. Birincisi professorun axtarış əməliyyatı, ikincisi qəzet redaksiyasında baş verən komik hadisələr.

Professor öz dəlisini hökmən tapmalıdır. Çünki o, illər uzunu bu dəli üzərində apardığı təcrübələri yekunlaşdırıb elmi əsər şəklinə salmalıdır. Yoxsa bütün zəhməti puça çıxa bilər. Professor dəlini hara-Larda axtarır? Bu yerdə müəllifin əlinə tamaşaçını düşünməyə vadar edən trayektoriya cızmaq şansı düşür; metro keçidləri, bazar, küçələr, hətta kanalizasiya quyuları… Bir sözlə, cəmiyyətin bir çox sahələri. Və buradan aydın olur ki, «dəli» sözünü sözün hərfi mənasında anlamaq lazım deyildir. Söhbət Mirzə Cəlilin məlum əsərindəki dəlilərin zamanımızda yaşayan xələflərindən gedir. Professor həyəcan içində öz sevimli dəlisini axtarır. Qəzet redaksiyası isə dəlilərlə doludur və demək olar ki, baş redaktordan başqa bu redaksiyada çalışan hər kəs özünü doğru-dürüst idarə etmək iqtidarında deyil. Redaksiyanın ədəbi işçisi (Cəfər Namiq Kamal) səhnədəki pilləkənə dırmaşıb özünü asmaq istəyir və intihardan əvvəl iş yoldaşlarını başına toplayıb vida nitqi söyləyir, üstəlik sevgilisi Simuzər barədə yazdığı epopeyanın yarımçıq qalacağını ürək ağrısı ilə bəyan edir, məsul katibin (Hacı İsmayılov) həyatı cibindəki araq şüşəsindən asılıdır, siyasi icmalçı (Ələsgər Məmmədoğlu) köhnə sovet KQB-sinin gərgin fəaliyyətinin hələ də davam etdiyinə inanır və hər kəsə şübhəli nəzərlərlə baxır, üstəlik dünyada baş verən bütün hadisələrin bu təşkilatla birbaşa bağlı olduğu barədə xəstə moizələr oxuyur, şöbə müdiri (Yaşar Nuri) başına antenna bağlayaraq yad planetlilərlə anlaşılmaz dildə danışır və hərdən «Venera»ya səfər edib onların geniş yığıncaqlarında iştirak etdiyini bəyan edir, Panteleymon Polikarpoviç (Elxan Ağahüseynoğlu) milliyyətcə rus ola-ola Təbrizdə dindar ailəsində doğulduğuna və seyid olduğuna hamını inandırmaq istəyir, katibə özünü qırqovul hesab edir və s.

Göründüyü kimi, tamaşaya dinamiklik verən ziddiyyətlər üçün kifayət qədər səbəb var və maraqlısı odur ki, bu ziddiyyətlər həm obrazlar arasında, həm də tamaşanın iki süjeti arasında inkişaf edir və finala doğru start götürür. Finalda isə süjetlər birləşir və daha böyük ziddiyyət meydana çıxır; professor axtardığı dəlini tapır. Bu dəli kim olsa yaxşıdır? Tamaşanın ağlı başında olan yeganə obrazı – baş redaktor.

* * *

Baş redaktoru xalq artisti Ramiz Novruzov ifa edir. O redaksiyaya topladığı «dəlilərin» halına acıyır, onlara rəhmi gəlir və bütün bu faciələr üçün onları yox, zamanı qınaq obyektinə çevirir. Çünki zaman öz dözülməz sınaqları və ağır stressləri ilə çoxlarının mənəvi dünyasını alt-üst edib, onları müəllifin dili ilə desək, ağıllı dəlilərə çevirir. Şöbə müdiri zamanın ağırlığını daha komik ifadə edir. O danışdığı anlaşılmaz dili «Sarsaqlar dili» adlandırır və inanır ki, yaxın gələcəkdə bütün insanlar bu dildə səlist danışacaqlar.

* * *

Tamaşa müəllifin digər səhnə əsərlərindən fərqli olaraq qısadır. Heç iki saat çəkmir. Amma az vaxtda çoxlu informasiya vermək xüsusiyyəti ilə diqqəti cəlb edir. Ən əsası isə yaşadığımız dövrün qayəsini asanlıqla aça bilir. Əsərin əsas süjeti ətrafında çoxsaylı jestlər və atmacalar vardır ki, hər biri haqda ayrıca yazmağa saatlarla vaxt lazımdır. Bu jestlər və tutarlı atmacalar pyesə bədii qida verir, onu faktlarla zənginləşdirir, mahiyyətini açmağa yardımçı olur.

Əsərin yeganə ağıllı iştirakçısının sonda hamı tərəfindən dəli elan edilməsi məşhur nağıllarımızdan birini yada salır. Güclü bir leysandan sonra məmləkətin bütün insanları su içib dəli olurlar. Vəzir əvvəlki sudan padşah üçün və özü üçün ehtiyat saxlayıbmış. Ona görə onlara heç nə olmur və çıxıb üz verən fəlakəti məmləkət əhlinə başa salmaq istəyirlər. Hamı onları «dəli olublar» deyə daş-qalaq edir. Əlacsız

qalan şah vəzirdən kömək istəyir. Vəzir: «yağışın suyundan da ehtiyat götürmüşəm, gəl içib ağıllanaq» – deyir.

Hamının halına yanan aqibətdə halına yandıqlarının daşqalağına düçar olur. «Mənim sevimli dəlim» komediyası da əsrlərin sınağından çıxan bu acınacaqlı həqiqətlə başa çatır.

Tamaşadakı aktyor oyunu da qənaətbəxşdir və görünür, doğrudan da, məşqdə çox tər tökən «döyüşdə» az «qan» itirir.

*«Yeni Azərbaycan» qəzeti, 20 may 2003.*



## ELÇİNİN MÜSAHİBƏLƏRİNDƏN NƏZƏRİ SEÇMƏLƏR

**(Elçinin 60 illik yubileyi münasibətilə)**

**• Xalq yazıçısı Elçin əsərlərində bədii yaradıcılıq təcrübəsini və nəzəri təfəkkürü uğurla birləşdirən nadir istedad sahibidir. O, bəşəri meyarlarla düşünən, ciddi milli müəyyənlik hissinə malik, tizfəhm bir şəxsiyyətdir. Müasirlik onun estetik meyarlarında önəmli yer tutur. Onun son vaxtlar, konkret desək, istiqlal dövründə çap olunan müsahibə və məqalələrində yazıçılıq təcrübəsindən nəşəf edən dəqiq və maraqlı mülahizələr var. «Ədəbi nəsil və ədəbi proses» mövzusunda tədqiqatımla bağlı Elçinin yaradıcılıq təkamülünü izlədiyim üçün az qala nəzəri-estetik düstur tutumunda olan belə mülahizələri toplayıb oxuculara tədqim etməyi lazım bildim.**

*Vəfa ƏLİYEV*

* «Yazıçı üçün ideal şərait vaxtını yazı masasının arxasında keçirməkdir».

* «Mən indiyə qədər tutduğum bütün vəzifələrdə yalnız və yalnız Azərbaycan xalqına, mədəniyyətinə, ədəbiyyatına, mənəviyyatına xidmət etmişəm və bundan sonra da öz işimi bu yöndə təsəvvür edirəm».

* «Mən bu günə qədər yazdığım əsərlərin heç birinin müəllifliyindən imtina etmək fikrində deyiləm. Öz əsərlərimi həmişə qəlbimin iradəsi ilə və səmimi şəkildə qələmə almışam».

* "Mənim üçün vəzifə qəti surətdə məqsəd deyil. Mən indiki vəzifəmə qədər kim idimsə, indi də həmin adamam və bu vəzifədən gedəndən sonra da həmin adam olacağam".

*"Mən o tərbiyənin, o əxlaqın yiyəsi deyiləm".

*«Azadlıq» qəzeti, 3 fevral 1996-cı il.*

* "Mən həmişə sözü üzə demişəm, heç kimdən çəkinməmişəm. Hörmət etmişəm, etiqad göstərmişəm və bu, qarşılıqlı olub. Bu yaşa

gəlib çatmışam, amma bu günə qədər heç kimin qarşısında mənim gözüm kölgəli deyil və çox zaman əksinədir".

* "Əlbəttə, kimisə tənqid etmək üçün özün də nəyinsə sahibi olmalısan".

* "Səviyyəsiz mətbuat səviyyəsiz də oxucu yetişdirir və bu, faciədir".

«Mən həmişə sözü üzə demişəm»,

*«525-ci qəzet», 2 mart 1999-cu il.*

* "Əslində gərək dostluğun o zamanı, bu zamanı olmasın. Dostluq əbədi bir məfhumdur".

* "Yetmişinci illərdə, səksəninci illərin xüsusən birinci yarısında Azərbaycan ədəbi prosesi yaxşısı ilə, pisi ilə bərabər, canlı bir orqanizm idi və nəticə etibarilə millətə xidmət edirdi, milli təfəkkürün inkişafı üçün münbit zəmin yaradırdı".

* "Azərbaycan ədəbiyyatının Azərbaycan milli-azadlıq hərəkatına çox ciddi təsiri gün işığı kimi aydın bir həqiqətdir və bu mənada o illərin ədəbi prosesi müstəsna xidmətlərə malikdir. Bir tərəfdə hakim ideologiya və bu ideologiyanın həyata tətbiqi keşiyində dayanmış ədəbiyyat generalları, zabitləri, sıravilərı, o biri tərəfdə isə istedad və əsl ədəbiyyat fədailəri – mənzərə, bax, belə idi".

* "Qəzet nədir? Qəzet – yüksək amallar naminə əhli-qələmin min bir əzab-əziyyətlə ərsəyə çıxartdığı yaradıcılıq məhsuludur. Bəs bizim bəzi qəzetlər? Əhli-qələm gərək böhtana yol verməsin, çirkabdan faydalanmasın".

* "Əhli-qələm gərək böhtana yol verməsin, çirkabdan faydalanmasın".

*«525-ci qəzet» 7 mart 1998-ci il.*

* "Mən ədəbiyyatı qarşıma məqsəd qoyub gəlməmişəm. Yəni, mən özümü tanıdığım vaxtdan yazmışam".

* "Hər bir yazıçı öz xalqının taleyinin, tarixinin kontekstindən qiymətləndirilməlidir".

* "Oxucunun nəyi həzm edib, nəyi həzm etməməsi yazıçı üçün meyar olmamalıdır. Kütləni nəzərdə tutsam, onda gərək hind filmi yazam".

* "Yazıçı əsərdə oxucuya deyəcəyinin, söz kütləsi baxımından, minimumunu deməlidir. Yəni başqa cür desək, bədii ədəbiyyatın mənim aləmimdə ən böyük keyfiyyət göstəricisindən biri ondan ibarətdir ki, deyilməyən deyiləndən artıq olsun. Bu mənimçün ədəbiyyatın meyarlarından biridir və çox prinsipial məsələdir".



* "Mənimçün əsərdə yeganə meyar onun bədii-estetik səviyyəsidir".

* "Mən Azərbaycan dövlətinin qurulmağında, müstəqilliyinin möhkəmlənməsində müşahidəçi deyiləm, iştirakçıyam".

* "Dünyada nə qədər yazıçı varsa, bir o qədər də yaradıcılıq psixolojisi var".

«Elçinlə Elçin və ədəbiyyat haqqında»,

*«Cümə» qəzeti, «Xalq qəzeti»nin əlavəsi, 4-10 sentyabr 1998-ci il.*

* "Azərbaycanda "60-cılar"ın sənəti sovet rejiminin, hakim sovet ideologiyasının üstündən həm öz milli ədəbi-estetik əvvəlinə, bünövrəsinə, dayaqlarına, həm də müasir dünya ədəbiyyatına, bəşəri dəyərlərə, hərgah belə demək mümkünsə, bədii-mənəvi körpü saldı və bu, Azərbaycan sovet ədəbiyyatının tarixində unikal bir hadisə olduğu qədər də, Azərbaycan ictimai fikrinin milli oyanış və özünəqayıtma prosesində əhəmiyyətli bir hadisə idi".

«Müasir dövrdə Azərbaycan ədəbi tənqidinin yaradıcılıq problemləri»,

*«525-ci qəzet», 28 noyabr 2002-ci il.*

* "Mən ədəbi tənqidi də ədəbiyyat naminə yazmışam, sistem naminə heç nə yazmamışam".

* "Bəşərilik bədiiliyin əsas meyarlarından biridir, amma milli olmadan bəşəri olmaq mümkün deyil".

«Ali sadəlik»,

*«525-ci qəzet», 23 mart 2002-ci il.*

* "Hər şeyi istedad müəyyənləşdirir. Əgər o Allah vergisi varsa və sən professionalsansa, deməli, yazıçısan, yox, əgər o vergi yoxdursa, sən də professionala çevrilmisənsə, o zaman quru nəsihətçilikdən, danq-danq danqıldayan mülahizələrdən, şit laqqırtıdan o tərəfə getməyəcəksən. Birinci, şübhəsiz ki, istedaddır, amma professionallığa da kinayə ilə, lağla yanaşmaq olmaz".

"O külək bir də əsəcək",

*"Azərbaycan" jurnalı, 1993, № 5-6.*

*«Mədəniyyət» qəzeti, 21 may 2003.*

## ELÇİN YEDDİTƏPƏ UNİVERSİTETİNİN FƏXRİ DOKTORU ADINA LAYİQ GÖRÜLÜB

Xalq yazıçısı, filologiya elmləri doktoru, professor Elçin Türkiyənin məşhur Yedditərə Universitetinin fəxri doktoru adına layiq görülüb. Universitetin rektoru, professor Əhməd Serpilin Elçinə göndərdiyi teleqramda onun böyük sənətkar kimi nüfuzunun, elm aləminə verdiyi töhfələrin ölkələrimiz arasındakı münasibətlərin inkişafında mühüm rol oynadığı önə çəkilib.

Teleqramda Elçinin türk dünyasında ədəbiyyat və elm sahəsində gördüyü böyük işləri, apardığı dəyərli araşdırmaları, bunlarla yanaşı, Azərbaycan və dünya siyasi həyatındakı xidmətləri nəzərə alınaraq, ona Yedditəpə Universitetinin Senatı tərəfindən 2003-cü il 15 may tarixli 19 saylı qərarla fəxri doktor adı verildiyi bildirilib. Həmçinin Ə.Serpilin teleqramında Elçinin insanlığın inkişafı yolunda xidmətlərinin bundan sonra da davam etməsi arzulanıb.

*«525-ci qəzet», 22 may 2003-cü il.*



Mədət ƏYYUBOĞLU

## YAXŞILIQLARI ƏSƏRLƏRİNƏ HOPAN YAZIÇI

**İstər yaxşılıq olsun, istərsə də pislik, fərqi yoxdur, insanın həyatında unudulmayan hadisələr çox olur. Bəlkə də nə vaxtsa sənə qarşı edilən pislikləri yaddan çıxara bilərsən. Lakin yaxşılıqlar heç vaxt səni tərk etmir.**

Mənim də, bütün orta məktəbi yenicə qurtaranlar kimi, ürəyimdə sonsuz arzularım vardı. İstəyimə uyğun olaraq, sənədlərimi Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinə təqdim etmişdim. Yüksək nəticələr əldə etməyimə baxmayaraq, o dövrün qanunlarına görə, iş təcrübəm olmadığından universitetə daxil ola bilmədim. Məni universitetin filologiya fakültəsinə qəbul etmək istədilər. Jurnalist olmaq istədiyimdən bu təklifdən imtina etdim.

O zaman yaşımın elə bir dövrü idi ki, cəmiyyətin qoyduğu qanunlara baxmayaraq, hamıdan kömək umurdum. Yazılarım ardıcıl şəkildə mərkəzi mətbuatda – «Ulduz» jurnalında, «Sovet kəndi», «Azərbaycan gəncləri» və digər qəzetlərdə çap olunurdu. Yazdıqlarımın mətbuat səhifələrində işıq üzü görməsi içimdəki həvəsi daha da artırırdı. Buna görə də bir gün Yazıçılar İttifaqına üz tutdum. İttifaqın katibi İsaq İbrahimovun xeyirxahlıqlarını ömrüm boyu unutmayacağam. O mənim yazılarımla, şerlərimlə tanış olandan sonra Respublika Hərbi Komissarlığına hərbi xidmətimi Bakıda keçirmək üçün İttifaqın adından məktub göndərdi. Respublika Hərbi Komissarlığı bunu nəzərə aldı.

1977-78-ci illərdə olub mənim yazıçı Elçinlə görüşüm. Bu bir təsadüfün nəticəsi idi. Onu İttifaqın binası qarşısında görəndə yaxınlaşmağa cürət eləmədim. Sonra bildim ki, o, zahirən göründüyü kimi deyil. Ona yaxınlaşmaq istəyimi anlayıb, Elçin müəllim özü mənə yanaşdı. Birlikdə onun otağına qalxdıq. Çox qayğıkeşliklə yazılarıma baxdı və mənə 3 gündən sonra gəlməyi tapşırdı. Bəziləri məni yazılarımı ona verdiyim üçün qınadılar da. Çünki onlar elə fikirləşirdilər ki, Elçin müəllimin mənim yazılarıma baxmağa vaxtı olmayacaq. Lakin belə olmadı. Elçin müəllim mənim üçün o vaxt

hamının oxumaq istədiyi Patris Lumumba adına Xalqlar Dostluğu Universitetinə öz adından məktub yazdı. Lakin yenə, işləmədiyim üçün, universitetə daxil ola bilmədim.

Sonra isə istəyimə çatdım, VDU-nun jurnalistika fakültəsinə daxil oldum. Korrektordan tutmuş, KİV-in baş idarəsinin rəisi vəzifəsinə qədər müxtəlif işlərdə çalışdım, bir-birinin ardınca kitablarım nəşr olundu. Lakin indi də qazandığım heç bir qələbəm Elçin müəllimin mənim üçün verdiyi o kiçik zəmanətdən əziz olmayıb. 25 ildir ki, onun mənə bəxş etdiyi sevinci həmişə yaşamaq üçün əziz xatirə kimi həmin məktubu saxlayıram. Onun kimi belə xeyirxah işlər görən insanlara, çox zaman hörmət, ehtiram əlaməti olaraq, «köhnə kişilər» deyirlər. Mənim kimi neçələri isə ona həmişə duaçıdırlar.

Ulu Tanrı bu günlərdə ömrünün altıncı onilliyini arxada qoyan Elçin müəllimi özü, ailəsi və millətimiz üçün daima qorusun!

*«525-ci qəzet», 23 may 2003.*



A.İSMAYILOĞLU

## «ONUN QƏHRƏMANLARI MƏNƏ DOĞMADIR»

Dünyanın bir çox teatrlarında tamaşaya qoyulan xalq yazıçısı Elçinin dram əsərləri Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının səhnəsində də uğurla hazırlanır. Teatrın baş rejissoru, respublikanın xalq artisti Aleksandr Şarovski yazıçının dörd pyesinə səhnə həyatı vermişdir. Əməkdaşımız rejissorla görüşündə rus dilli tamaşaçıların bu əsərləri necə qavraması haqqında məlumat verməyi xahiş etmişdir. O demişdir:

- Bilirsiniz, böyük sənətdə dil məsələsi o qədər də əhəmiyyətli deyil. Milli mövzu özü belə insan hisslərini, duyğularını, düşüncələrini əks etdirmək üçün bir vasitədir. Dərd, kədər, sevinc, məhəbbət, ayrılıq, ölüm... ayrı-ayrı xalqlar üçün deyil, bütün insanlar üçün xarakterikdir. Elçinin pyeslərinə də bu aspektdən, bu səpkidən yanaşmaq lazımdır. Belə cəhətlər isə əsərləri ilə dünyanı dolaşan böyük sənətkarlara xasdır. Bu xüsusiyyətlər Elçin dramaturgiyası üçün də xarakterikdir.

Mən Elçinin dörd pyesini Azərbaycan Dövlət Rus Dram Teatrında tamaşaya hazırlamışam: «Salam, mən sizin dayınızam», «Mənim sevimli dəlim», «Mənim ərim dəlidir», «Poçt şöbəsində xəyal». Ona görə də onun yaradıcılığı, qəhrəmanları mənə doğmadır. Elçin qəhrəmanlarını qeyri-adi şəraitdə verir. Ətrafdakılar arasında bu qəhrəman qeyri-adi, bəzən qeyri-normal görünür. «Salam, mən sizin dayınızam»da hadisələr partiyakratlarla mübarizə dövründə, sosial dəyərlər dəyişən vaxtda baş verir. Bu cəhət «Mənim sevimli dəlim», «Mənim ərim dəlidir» əsərlərində də öz əksini tapıb. Hadisələr başqa-başqa məkanda baş versə də.

Baxın «Mənim ərim dəlidir» tamaşasında ata ailədə normal yaşamaq istəyir. Amma ailə ehtiyac girdabında boğulur, onunsa əlindən heç nə gəlmir. Onda Ata zəmanənin tələblərinə uyğun oyun oynamaq qərarına gəlir. O özünü dəliliyə vurur. Öz istəklərini, arzularını dəli bir şəxsin adından, dilindən verir. Qəribə orasındadır ki, cəmiyyət «dəlini» başa düşməyə başlayır. Kimi ona pul, kimi hədiyyə

verir. Yalnız axşam tənha qalanda Ata özünə qayıdır, həqiqəti söyləyir. Bizim tamaşada «dəli» axşam evin damına qalxıb tarda təmizlik, paklıq melodiyası çalır. Nəhayət o, hadisələrin bu məcrada inkişafına dözmür, həqiqəti açıb deyəndə arvadının ona – ağıllı olma, biz belə daha rahat yaşayırıq – sözlərinin şahidi oluruq. Bu sözlər hamımızı – məni də, tamaşaçıları da, ifaçıları da kədərləndirir.

Həmin tamaşaları hazırlayarkən mən Elçin müəllimdən məhəbbət mövzusunda pyes istədim. Günlərin birində o mənə «Poçt şöbəsində xəyal» pyesini təqdim etdi.

Bu pyesin qəhrəmanı qadındır. Onun daxili aləmində Elçinin dramaturgiya yaradıcılığına xas olan böhranlı vəziyyət mövcuddur. Belə insanlar Şekspirin dililə desək, dövrlər arasında əlaqə itdiyi bir vaxtda özlərini normal hiss edə, necə yaşamaq lazım olduğunu bilmirlər. Bu pyesin poçtda işləyən qəhrəmanı da ətrafla əlaqəsini itirib. Onu nə əri, nə rəfiqələri, nə də iş yoldaşları başa düşürlər. Qadının xəyalında ideal insan təzahür edir. Pyesin adından göründüyü kimi, əhvalatlar ona görə poçt şöbəsində vaqe olur ki, məhz poçta müxtəlif xarakterli insanlar gəlirlər. Qadın xəyallarında poçt şöbəsinə gələn bir nəfərlə söhbətləşir, onu sevir. Qadına elə gəlir ki, məhz o onu anlayır, başa düşür. O hər şeyi – işini, ərini, rəfiqələrini atır. Personaj alleqorik şəkildə özünə qayıdır. Bu isə o deməkdir ki, bizi isidən ürəyimizdir, biz onu başa düşməliyik.

Bu xətt Elçin dramaturgiyasının əsas yaradıcılıq istiqamətlərindəndir. Belə hərəkət insanın öz-özü ilə razılığı, harmoniyasıdır. Bu cür insanlar cəmiyyətin ümumi qanunları ilə yaşamaq istəmirlər. Cəmiyyət onları başa düşmədiyindən onunla konfliktdə yaşayırlar.

Məncə, Elçinin sənətkar kimi, həyata baxışı, dramaturgiyası qeyri-adi olduğu üçün teatrlar ona müraciət edirlər. Onu da deyim ki, Elçinin pyeslərinin öz tamaşaçısı, publikası var. Onlar çox incəliklə Elçinin qəhrəmanlarının nə düşündüklərini bilirlər.

Mən yeddi ildir ki, Elçinlə yaradıcılıq əlaqəsi saxlayıram. Amma bizi təkcə yaradıcılıq deyil, dostluq əlaqələri də birləşdirir. Bu yubiley günlərində dostuma cansağlığı, yaradıcılıq uğurları arzulayıram.

*«Ədəbiyyat qəzeti», 23 may 2003.*





## «ELÇİN MÜASİRLƏRİMİZİN ÖMÜR YOLUNA, TALEYİNƏ VƏ QAYĞILARINA TƏRCÜMANLIQ EDƏN YAZIÇIDIR...»

- **Uzun illər öz oxucusunu ətrafında saxlayıb, qələminin təbiiliyinə, səmimiliyinə inandırıb arxasınca aparmağı yazıçının sənət aləmində öz xoşbəxtliyini tapması kimi qiymətləndirmək mümkündür. Azərbaycan ədəbiyyatında sənətin belə şirinliyini duya-duya yaşayıb-yaradan yaradıcı şəxslərimiz kifayət qədər var. İlk əsəri işıq üzü görəndən etimad və hörmət qazanıb ədəbiyyata yeni nəfəs gətirən şəxslər zamanın fırtınalı, burulğanlı illərində belə, yalnız sənətə, xalqa xidmət edərək, amalı hər şeydən üstün tutmuşlar. Əks halda yaratdığı sənət nümunəsində hər şey sönük, qeyri-səmimi təsir bağışlayardı.**

Keçən əsrin 60-cı illərində – sənətin qızğın çağında ədəbiyyata yeni bir nəfəs gəldi, öz yazı üslubu, deyimi ilə fərqlənən Elçin üslubu. Həmin illərdə nəhəng sənətkarların söz meydanında çox gənc olan Elçin yaradıcılığına diqqətin yönəlməsi onun əsərlərində insan idrakına, düşüncəsinə təsir edə biləcək mövzuların qabarıq şəkildə işıqlandıra bilmək bacarığından irəli gəlirdi. Təmiz hisslərin, duyğuların emosional şəkildə təzahürü, o dövrün gənclərinin ideal obrazını yaradaraq, həyata, cəmiyyətə olan münasibətini ifadə etmək bacarığı bir yazıçı kimi Elçinlə oxucu arasında mənəvi körpü yaratmaya bilməzdi. Bu gün mövcud reallıqlar çərçivəsində tez-tez səslənən, ifadə olunan bir fikirlə Elçin kimi sənətkarların yaradıcılığını mütaliə edərək, heç cür razılaşa bilmirsən: sovet dövründə yaradılan ideal insan obrazları hədsiz dərəcədə şişirdilmiş, cansız insan təsəvvürü belə yaradır. Axı, öz prinsiplərini həyata keçirmək istəyində olan bir gəncin daim mübarizədə olması, vətəninin, xalqının işıqlı gələcəyi üçün dövrün haqsızlıqları ilə amansız olub, mübarizlik göstərməsində qeyri-təbii bir halla rastlaşmırsan. Əksinə, belə qəhrəmanları mütaliə edə-edə insanda milli qürur, iftixar hissi, mənəvi-əxlaqi dəyərlər formalaşır. Belə məzmunlu əsərlərlə ədəbiyyata gələn Elçin bir çox sənətkarlar kimi fərdi insan taleyinə xüsusi maraqla və çox ehtiyatla yanaşıb, ətraf

aləmdə cərəyan edən hadisələrin müəyyən axarında qəhrəmanını digər insanlardan fərqləndirərək, onu ideal olan bir səviyyəyə yüksəltmişdir. Bu qəhrəmanlar xəyaldan, romantik hisslərdən yaranan insan obrazları deyil, həyatda İnsan adına layiq olan şəxslərin tipikləşdirilmiş surətidir. Qeyd edim ki, yaradıcılığa kiçik həcmli əsərlə-hekayə ilə başlayan Elçin çox keçmir ki, zəngin təxəyyülün nəticəsi olaraq, daha dərin məzmunlu nümunələri ilə ədəbiyyatımızda ciddi nəsr əsərlərinin müəllifi kimi tanınır. O, «Baladadaşın ilk məhəbbəti», «Bir görüşün tarixçəsi», «Dolça», «Toyuğun diri qalması», «Şuşaya duman gəlib», «Bozluq içində iki nəfər», «Hönkürtü», «Baladadaşın toy hamamı», «Qış nağılı» kimi hekayə və povestləri ilə yanaşı, «Mahmud və Məryəm», «Ağ dəvə» kimi romanlarında milli adət-ənənələrimizə uyğun olan, milli mənlik hissini hər şeydən uca tutan bütöv insan xarakterlərini yaratmışdır. Təbii ki, yazıçı öz qəhrəmanının cəmiyyətdə mənəvi toqquşma və qarşıdurmada müqavimətini göstərərək, onu ideallaşdırır. Onun qələmə aldığı əxlaqi münaqişələr, meşşanlığa, qəddarlığa olan münasibət birtərəfli verilməmişdir. Müəllif insan mənəviyyatını alçaldan, çürüdən bütün mənfi hallara yaradıcılığında fəlsəfi yanaşaraq, qəzəb və nifrətlə münasibətini ifadə etmişdir. Xüsusi mülkiyyət hərisliyi olan insanların nə qədər faciələr törətdiyinin şahidi olmuşuq. Mənəvi naqislik insanı cilddən-cildə salaraq, tüfeyli bir həyata yol açmasına şərait yaradır. Yaşamaq yolunu düzgün seçməyib, həqiqəti dərk etməyən şəxslər cəmiyyətdə öz nüfuzunu itirməklə yanaşı, neçə-neçə ayrı-ayrı fərdlərin həyatı ilə oynayıb, uçurum qarşısında qoyurlar. Elçin həyatın hər iki üzünü – ağ və qara zolağını işıqlandırarkən, müxtəlif xarakterli insan obrazları vasitəsi ilə öz əsərinə rəng, çalar, orijinallıq gətirir. Elçin istər kənd, istərsə də şəhər həyatından bəhs edən əsərlərində hər sahənin, ixtisasın sahiblərini özünə qəhrəman seçir. Belə ki, Elçin yaradıcılığında, əsas olaraq, insan və mənəvi-əxlaqi dəyərləri ciddi tərzdə əsər boyu göz önündə canlanır.

Elçin yaradıcılığı məzmun, ideya, dil və üslub xüsusiyyətləri baxımından heç vaxt diqqətdən kənarda qalmamışdır. Tanınmış yazıçı və jurnalistlər onun sənət yolunu daim işıqlandıraraq, ədəbi mühitdə olan rolunu, mövqeyini səciyyələndirmişlər. Onun yaradıcılığı haqqında söylənilən bir fikir xüsusi maraq doğurur: «Elçin müasirlərimizin ömür yoluna, taleyinə və qayğılarına tərcümanlıq edən yazıçıdır, həyatımızın, mənəviyyatımızın böyük və zəruri məsələləri üzərində düşündürən, həyəcanlandıran və fəaliyyətə sövq edən



sənətkardır... bu yaradıcılığa boya-boy nəzər salanda, onun təkmilini və artımını sənətkar şəxsiyyətinin ictimai, milli və estetik fikir vüsəti fonunda izləyən bir həqiqətə də qəti inanırsan ki, Elçin əlinə qələm aldığı gündən tapındığı, inandığı və arxalandığı ideallara sədaqətində həmişə möhkəm, sabit və ardıcıldır. Milli heysiyyat, sosial ədalət duyğusu, mənəvi paklığın təntənəsinə inam Elçin nəsrinin bədii əxlaqı üçün həmişə dəyişməz aparıcı keyfiyyət olaraq qalmaqdadır. Bu nəsrin bədii silqəti və ciddiyyəti də elə bundadır». Bəli, belə yaradıcılıq qayəsinə malik olan Elçin Məmməd Arif, Həmid Araslı, Məmməd Cəfər, Mehdi Məmmədov kimi ədəbiyyatşünasların süzgəcindən keçərək, bədii cəhətdən təhlil olunurdu. Təbii ki, ədəbiyyatşünasların fikri yaradıcı şəxsin gələcək inkişafına bir cığır idi. Ədəbi tənqid olmayan yerdə inkişafdan söz açmaq mümkün deyil. Yazıçının düzgün istiqamətlənməsində tənqidin rolu danılmazdır. Təbii ki, söhbət sağlam düşüncədən, tənqiddən gedir.

Elçin bu gün çağdaş ədəbiyyat aləmində çoxşaxəli yaradıcılıq imkanlarına malik olan şəxs kimi özünü təsdiqləyib. Belə ki, o, uzun illərdir ki, nəsrlə yanaşı publisistika, tənqidlə, ədəbiyyatşünaslıqla da ciddi məşğul olur. Azərbaycan ədəbi, ictimai və mədəni fikir tariximizdə xüsusi rolu və mövqeyi olan dahi bəstəkar Üzeyir Hacıbəyov irsinə müraciəti və apardığı monoqrafik tədqiqat işi nəticəsində silsilə məqalələrin yazılması Elçin yaradıcılığının potensial gücündən xəbər verir.

Elçinin adı ssenarist kimi də bu gün kino sənətində hallanır. Onun «Baladadaşın ilk məhəbbəti» böyük əks-səda doğurmuşdu. Beləcə, kövrək, cəsarətli addımlar Elçini mərhələ-mərhələ yüksəldərək, sənətkar zirvəsinə qədər qaldırdı. Daim axtarışda, qayğılarla əhatə olunan Elçin öz qəhrəmanlarının həyatını yaşaya-yaşaya ömrün kamil bir zirvəsinə – 60 yaşa çatmışdır. Onun gənclik eşqi, duyğusu ilə çırpınan qəlbi yenə də həmin hərarətlə, məhəbbətlə döyünür. Milli-mənəvi ləyaqətin bədii təbliğində ardıcıl, şüurlu və məqsədli addım atmışdır. Milli simasızlıqla barışmayan Elçin öz yaradıcılığını, məhz klassik mənbələrə istinadən davam etdirir.

Elçinin əsərləri artıq neçə illərdir ki, Azərbaycan teatrında özünəməxsus yer tutur. 130 illik tarixə malik olan peşəkar milli teatrımız İlyas Əfəndiyevin əsərlərini uzun illər repertuarına daxil edərək, inkişaf etmişdir. Çəkinmədən deyə bilərik ki, Azərbaycan teatr sənətində İlyas Əfəndiyevin xüsusi yeri və payı vardır. Belə bir dramaturqun soy adının daşıyıcısı olan Elçin, teatr sənətində öz

sözünü deyə bilən dramaturq kimi möhürünü vurmuşdur. Onun «Ağ dəvə», «Mahmud və Məryəm», «Poçt şöbəsində xəyal», «Mənim sevimli dəlim» kimi əsərlərində sənətsevərlər müəllifin fikrini çox asanlıqla qavradıqlarından, bədii təsvir inandırıcı və təbii olduğundan tamaşaların hər birinin uğurlu səhnə taleyi oldu. Elçin bu gün də teatrla sıx təmasdadır. Azərbaycan teatr səhnəsinin Elçin kimi yazıçılara böyük tələbatı vardır. Elçini xalqa, ədəbiyyata belə yaxın edən, onu sevdirən, məhz qəlbinin hərarəti, vətəndaşlıq heysiyyatı olub.

Elçin bu gün ömrünün 60-cı baharını yaşayır. Bu zaman nisbətində keçdiyi ömür yoluna nəzər yetirsək görərik ki, Elçin bu gün sənətkar kimi püxtələşdiyi yolun təməlini gənclik dövründən qoymuşdur. O, elə sovet dövründə, gənc ikən, Ümumittifaq Lenin Komsomolu mükafatı laureatı olmuş, «Drujba narodov», «Nedelya», «Smena», «Literaturnaya qazeta» kimi mötəbər jurnal və qəzetlərin ən yaxşı əsərlərinə görə təsis etdiyi mükafatları almışdır. Onun gözəl, bitkin əsərləri dünya xalqlarının dilinə çevrilib. Məzmun, ideya, forma, janr müxtəlifliyi ilə zəngin yaradıcılığa malik olan Elçin uğurlu sənət yolu müqabilində müxtəlif fəxri adlara layiq görülmüşdür. Bir çox ictimai vəzifələrin daşıyıcısı olan Elçin bu gün Azərbaycanın həyatında xüsusi rolu olan nüfuzlu bir şəxsiyyətdir.

*«525-ci qəzet», 24 may 2003.*



## TƏBRİK EDİRİK

Bir çox roman, povest və hekayələri, səhnə əsərləri, elmi-nəzəri məqalələri ilə çağdaş ədəbi-tarixi prosesin önündə gedən Elçin öz orijinal yaradıcılıq üslubuna, bənzərsiz yazı manerasına, ümumbəşəri mövzularına görə artıq dünya miqyasında nüfuzlu bir yazıçı kimi tanınmışdır. O, həm də milli-mənəvi dəyərlərimizin, dövlətçilik prinsiplərinin və ənənələrinin qorunmasında sistemli fəaliyyəti ilə diqqəti cəlb edən dövlət xadimidir.

Möhtərəm Prezidentimiz Heydər Əliyev cənabları Elçinin çoxcəhətli və çoxşaxəli elmi-ədəbi, ədəbi-bədii və ictimai-siyasi fəaliyyətini layiqincə qiymətləndirərək onu «İstiqlal» ordeni ilə təltif etmişdir.

Bu münasibətlə Elçini təbrik edir, ona uzun ömür, cansağlığı arzulayırıq.

*«Ədalət» qəzeti, 31 may 2003-cü il.*

## TÜRKİYƏNİN FATİH UNİVERSİTETİNDƏ XALQ YAZIÇISI ELÇİNİN YUBİLEYİ KEÇİRİLMİŞDİR

İyunun 11-də İstanbulun Fatih Universitetində xalq yazıçısı Elçinin 60 illik yubileyinə həsr olunmuş mərasim keçirilmişdir.

Universitetin idarə heyətinin sədri, professor Əli Bayram, universitetin rektoru, professor Turqut Balkaş, professor Əli Yavuz Akpinar, filologiya elmləri doktoru Yusif Gədikli, dramaturq Tuncər Cücənoğlu, şair Aydın Hətiboğlu, Azərbaycan Təhsil Nazirliyinin Türkiyədəki nümayəndəsi Nəcibə Nəsibova mərasimdə çıxış edərək, xalq yazıçısı Elçinin həyat və yaradıcılığından, əsərlərinin bədii-estetik və sosial-ictimai mahiyyətindən söhbət açdılar. Elçinin yazıçı, tənqidçi, dramaturq olmaqla yanaşı, ölkəmizin ictimai və siyasi həyatındakı fəaliyyətindən danışdılar, ona yeni yaradıcılıq müvəffəqiyyətləri arzuladılar.

Sonra xalq yazıçısı haqqında sənədli film göstərildi.

Professor Turqut Balkaş yubilyara fəxri mükafat – universitetin xatirə plaketini təqdim etdi.

Xalq yazıçısı Elçin ona göstərilən hörmət və ehtiram üçün universitetin rəhbərliyinə təşəkkürünü bildirdi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyədə zərb-məsəl olan «Bir millət - iki dövlət» sözlərini xatırladan yubilyar məhz Türkiyədə, İstanbulda aldığı mükafatın onun üçün xüsusi əhəmiyyət daşıdığını vurğuladı. O, hələ SSRİ dövründə Türkiyəyə səfərləri haqqında xatirələrini də bölüşdü.

Fatih Universitetinin tələbələrinin yazıçının «Mahmud və Məryəm» əsərindən səhnələşdirdikləri parça maraqla qarşılandı.

Fatih Universitetinin rektoru Turqut Balkaş Azərbaycan baş nazirinin müavini Elçin Əfəndiyevi təhsil ocağının fəaliyyəti, burada aparılan elmi tədqiqatlarla tanış etdi.

Mərasimdə Azərbaycan Respublikasının İstanbuldakı baş konsulu İbrahim Yaqubov, İstanbul Böyük Şəhər Bələdiyyəsinin mədəniyyət məsələləri üzrə müşaviri, professor Tofiq İsmayılov iştirak edirdilər.

**Tural RZAYEV,**
**AzərTAc-ın xüsusi müxbiri.**
***İstanbul***

*«Ədəbiyyat qəzeti», 13 iyun 2003.*



Sevda NURUQIZI

## ELÇİNİN KİNO YARADICILIĞI

Müstəqillik dövrünün bizə verdiyi imkanlar, milli-mənəvi ehtiyaclarımız tələb edir ki, mədəniyyətimizin zənginləşməsində xüsusi xidmətləri olmuş sənətkarlarımızın bədii irsi və kino fəaliyyətləri yenidən öyrənilib tədqiq olunsun.

Xalq yazıçısı Elçinin kino yaradıcılığının çağdaş kinoşünaslığımızın elmi-nəzəri kontekstindən və yeni təfəkkür arsenalından tədqiqi xüsusi tədqiqatın obyektidir. Milli kinomuzun böyük bir mərhələsinin inkişafı, ideya-bədii istiqaməti, məzmunca zənginliyi onun adı ilə bağlıdır. Yazıçının dramaturji məharətindən xəbər verən konflikt yaratma ustalığı, həyat hadisələrinə konseptual baxış, şəxsiyyətin daxili «mən»i və s. ədəbi keyfiyyətlər yüksək peşəkarlıq səviyyəsi ilə seçilir. Bu filmlər mənəvi-əxlaqi keyfiyyətləri aşılamaqla, milli düşüncəmizə, sosial dünyagörüşümüzün təkmilləşməsinə də öz təsirini göstərdi.

Məlum həqiqətdir ki, filmin çıxmasında güclü ssenari bazasının həlledici rolu var. Elçinin elə bir ssenarisi olmayıb ki, hansısa rejissor onu çəkəndə uğursuzluğa məruz qalsın. Onun kinonu gözəl bilməsi, kinodramaturgiya sənətinə dərindən bələd olması hadisələrin dərin qatlarına sirayət etmək ustalığı ilə güclüdür.

Yazıçının ssenariləri əsasında ekranlaşdırılan «Baladadaşın ilk məhəbbəti» (1974), «Arxadan vurulan zərbə» (1977), «Gözlə məni» (1981), «Gümüşü furqon» (1982), «Bağ mövsümü» (1986), «Sahilsiz gecə» (1989) filmləri onu nəinki kino aləminə doğmalaşdırdı, həm də kino sənətinin vurğunlarına sevdirdi. Bu filmlər kino sənətimizdə yeni milli mədəniyyət hadisəsi kimi qiymətləndirildi.

Əsrlər boyu «qadın» və «ailə» anlayışları bir-biri ilə ayrılmaz surətdə bağlı olub. 70-ci illərdə Qərbdə getdikcə artan qadın hərəkatı dünya kinematoqrafiyasının da diqqət mərkəzində oldu. Bir çox qadınlar az əmək haqqı olan işi ağır ev işlərindən üstün tutaraq evdarlığın «daşını atdılar». Bu yolda hətta bəziləri ailələrini də dağıtdı və beləliklə, cəmiyyətdə boşanma halları çoxaldı. Sosiologiyada bununla bağlı xüsusi termin əmələ gəlir: «Ailəni dağıdan qadınların emansipasiyası». Bu proses dünya kinematoqrafçılarının yaradıcılığına yeni bir ideya istiqaməti verdi. Amerikada Martin Skorsezə, İtaliyada Vittorno de Ceks, Fransada Jan Lui Bertuçelli və s. kinematoqraflar

cəmiyyətdə öz şəxsi əqidələrinə görə fərqlənən sosial fenomenləri – xüsusi qadınları ekrana gətirdilər.

70-ci illərdə Azərbaycan kinosunda belə sosial fenomenlərin ilk yaradıcısı Elçin oldu. Böyük dramaturqumuz C.Cabbarlının kinoya bəxş etdiyi güclü, «ipə-sapa yatmayan» qadın obrazlarından sonra kinodramaturgiyamızda bir-iki maraqlı qadın obrazı istisna olmaqla, demək olar ki, yox dərəcəsində idi. Azərbaycan kinematoqrafiyasında ən güclü dominant sima – kişi obrazı uzun onilllikləri adlayıb bu günə qədər hegemonluğunu əldən verməyən əsas obrazdır. Elçinin kinoya gəlişi bu ənənəni kökündən dağıtdı. C.Cabbarlının («Almaz», «Sevil», «Od gəlini», «Aydın» və s.) əsərlərində istiqamətləndirdiyi qadın-ana, qadın cəmiyyətin ən yüksək varlığı, qadın-mübariz insan kimi aktual mövzularının istiqamətini Elçin tamamilə dəyişdi. Elçin qadını onun bütün nöqsan və səhvləri ilə, zəif cəhətləri və dərdi ilə birgə əks etdirdi.

Bir sıra kinodramaturqlardan fərqli olaraq, Elçinin kino qəhrəmanları qadınlardır. Yazıçının maraq obyekti bu və ya digər səbəblərdən cəmiyyətdən təcrid olunan qadınlardır. Qadın dünyası – onun xüsusi psixologiyası, «uşaqlıq» dünyası, heç kiminkinə bənzəməyən «nağıllar aləmi» («Gümüşü furqon»), heç kiminkinə bənzəməyən kədərli, bəzən də faciəli taleyi («Sahilsiz gecə», «Gözlə məni») yazıçını düşündürən və bu səpkidə yazmağa vadar edən maraqlı, hələ də kəşf olunmayan sirli sahələrdir. Elçinin qadın obrazları bəzən uşaq kimi sadəlövh olsalar da, (Mədinə – «Gümüşü furqon») onların zəngin mənəvi aləmi, xüsusi parlaq fantaziyalarla dolu romantikası və istedadı var. Mədinə çıxışsızlığa mübtəla olan tənha qadındır. Lakin bu məcburi tənhalığın obyektiv səbəbləri var. Retrospektiv hadisələr axarında tamaşaçı Mədinəni tədricən təkliyə mübtəla edən səbəblərlə tanış olur. Sonra ailə həyatı qurması, əri tərəfindən sevilməsi, sevimli peşəsi ilə (xalça toxumaqla) məşğul olması filmin rəvan və xoşbəxt görünən üst səthini təşkil edir. Bütün bu xoşbəxt örtük arxasında onun həm özünə, həm də sevdiyi adama bədbəxtlik və təcrid olunma gətirən təkliyi gizlənib. Bu üzücü və illərlə davam edən təkliyin vulkan kimi püskürüb bir gün üzə çıxması üçün bir amil lazım idi. Yazıçı bu amili əsərin dramaturji xəttini inkişaf etdirən və ilk baxışdan diqqəti cəlb etməyən bir hadisə ilə bağlayır. Öz adi, üzücü, monoton həyatı ilə yaşayan kəndə bir gün səyyar kukla teatrı gəlir. Və Mədinə təsadüfən həmin teatrın rəhbəri Rəsulla tanış olur. Məhz bu tanışlıq Mədinənin köz bağlayan yarasını qanadır. İllərlə sonsuzluğunu özünə dərd edən və bunun üzündən ərinin içkiyə



qurşanmasına və hər dəfə də onu ittiham etməsinə, təhqirlərinə dözən Mədinə özünə məhrəm bildiyi Rəsula etiraflar «kitabçasını» açır. Və retrospektiv formada başına gələn hadisələri xatırlayıb Rəsula danışır. Mədinənin iki dünyası var: Biri yaşadığı ailə dünyası, biri də xəyalında qurduğu müqəddəs ideal dünya. «Müqəddəs dünya»da o, hər an Rəsulu görür. Onunla həmsöhbət olur. Uşaqlar kimi gümüşü furqonun gəlməsini intizarla gözləyir. Onun üçün bu furqon ümid furqonudur. Bu furqonun kəndə hər gəlişi Mədinənin həyatında dəyişikliyə səbəb olur. Onun ömür yolunu təzələyir.

İnsanların mürəkkəb psixoloji aləminə nüfuz etmək, gərgin dramaturji situasiyalar yaratmaq Elçin yaradıcılığının əsas xüsusiyyətidir. Bəzən yazıçının qadın obrazları ömrünü fənaya uğradan, gününü eyş-işrət və kef məclislərində keçirən, öz həyatını istədiyi kimi yaşayan, fəqət daxilən dəyişən və təəssüflü xatirələrə dalan (Zübeydə – «Sahilsiz gecə») sosial tiplər olur. Elçin özünəməxsus psixoloji ustalıqla qadını bu vəziyyətə gətirib çıxaran səbəbləri araşdırır və onun sosial köklərini üzə çıxarır. Filologiya elmləri namizədi Nərgiz Paşayeva doğru qeyd edir: «Təbii ki, yazıçı (Elçin – S.N.) təqdim olunan qəhrəmanları yaşadıqları mühitdən təcrid etmir, mühitin qəhrəman üzərindəki təsirini də unutmayır, hətta bəzi məqamlarda bunu qabarıq şəkildə nəzərə çarpdırır».

Filmdə Zübeydənin həyatını zəhərləmiş mühit ön plana çəkilir. Atası xalq düşməni kimi aparılarkən o uşaq yaşlarında idi. Filmdə bu məqama xüsusi diqqət yetirilir. Arabaya minəndə kişinin papağı yerə düşür. Nəzarətçilər isə «o bir də sənə lazım olmayacaq» deyərək papağı götürməyə icazə vermirlər. Fikrimizcə, bu, filmdə uğurlu tapıntıdır. Zübeydənin əsl faciəsi də elə uşaqlıqdan başlanır. Müəllif Zübeydənin faciəsinin əsas səbəbini onu doğuran sosial mühitdə axtarır. 37-ci ilin repressiyası milli mədəniyyətimizə, mənəviyyatımıza ağır zərbələr vurdu.

Bu film ekranlarda gedəndən sonra bir müddət diqqət mərkəzində oldu, müxtəlif fikirlər söyləniIdi. Hətta müəllifləri qınayanlar da oldu. Naşı fikirlər, məqsədsiz hücumlar və s. film haqqında əsassız mülahizələrin səslənməsinə rəvac verdi. Mahiyyəti tam dərk etmədən yazıçıya (həm də rejissora) qarşı bu hücumlar əsassız olduğu qədər də yersizdi. Ömrü xalqın azadlıq və istiqlaliyyət mücadiləsində keçən, yaradıcılığını xalqın elm və mədəniyyətinin yüksəlməsinə həsr edən, əsərlərində milli-mənəvi keyfiyyətləri, tarixi keçmişimizin dəyərli çalarlarını yaşadan, böyük hörmət və söhbət

qazanan və xalqın qəlbində özünə yer tutan böyük şəxsiyyətin miqyaslı fəaliyyətini standart qəliblərə salmaq olmaz.

Elçinin filmlərindəki qadın obrazları öz orijinallığı ilə seçilir. Bu qadınlar arzuları, sadəlövhlükləri, romantikaları ilə yanaşı, nöqsan və səhvləri, hiss və duyğuları ilə yadda qalırlar. Bəzən cəmiyyət tərəfindən onlar cəza da alırlar. Təklik, qocalıq, təəssüflü xatirələr, təcrid olunma onların nəsibi olur. Lakin müəllif pessimist deyil. O, bir həkim kimi xəstəliyi xəstəliyə gətirib çıxaran səbəblərlə «müalicə edir». Elçinin qəhrəmanlarının «həkimi» də, «xəstəsi» də qəhrəmanların özləridir.

Mədinə dərdini yaratdığı sənət əsərlərilə, dünya miqyasında tanınan toxuduğu xalçalarla sağaltmağa çalışır. Zübeydə keçdiyi həyat yoluna acıyır, öz səhvlərini dərk edir, dərdinə «xatirələrlə» məlhəm tapmaq istəyir...

Bu obrazların öz rənglər dünyası var. Tənqidçi Vaqif Yusiflinin yazdığı kimi, **«ancaq dünyanın özü kimi bu dünyanın adamları da bir rəngdə, bir işıqda deyil və təbii ki, Elçinin nəsrində də Dünya kimi insanlar da növbənöv xarakterlərə, səciyyələrə malikdirlər».**

Elçin öz filmlərində qəhrəmanın fərdi xüsusiyyətlərinin, həyata baxışlarının mənəvi psixoloji aləminin, sirli qadın dünyasının tədqiqatçısı kimi çıxış edir.

*«525-ci qəzet», 16 iyun 2003.*



**Seyfəddin EYVAZOV**

## ELÇİN – ALİM, TƏNQİDÇİ, İCTİMAİ XADİM VƏ BÖYÜK ŞƏXSİYYƏT

Bugünkü ədəbi-mədəni həyatımız üçün Elçin yaradıcılığı bir ehtiyaca, zərurətə çevrilib. Hər bir yazıçı ilk təəssüratdan ədəbiyyatdakı hansı janra isə daha yaxın görünür. Bədii yaradıcılığa nəsrlə başladığındandır ki, oxucular yaxın vaxta qədər onu daha çox nasir kimi tanıyırdılar. Amma aydındır ki, Elçin təkcə nasir deyil. 60 yaşı tamam olmuş «İstiqlal» ordenli xalq yazıçısı, filologiya elmləri doktoru, professor Elçinin ədəbi-mədəni aləmimiz üçün dəyərli olan digər yaradıcılıq sahələrindən də danışmaq lazım gəlir. Elçin nasirdir, dramaturqdur, publisist, ssenarist və tərcüməçidir, bədii dəyəri olan səyahətnamələr müəllifidir.

Elçin – alimdir, tənqidçidir.

Elçin – ictimai xadimdir, böyük şəxsiyyətdir.

44 illik yaradıcılıq yolu boyu onun çoxlu nəsr kitabları işıq üzü görüb. «Min gecədən biri» (1968), «Açıq pəncərə» (1969), «SOS» (1969) kitabları şərti olaraq ilk yaradıcılıq dövrünün yekunu kimi xarakterizə oluna bilər. Bu dövrdə və bundan sonra Elçin mətbuatda bədii və elmi əsərlərini, demək olar ki, paralel olaraq çap etdirib. «Gümüşü, narıncı...» (1973), «Bu dünyadan qatarlar gedər» (1974), «Pervaya lyubov Baladadaşa» («Molodaya qvardiya», 1975) kimi kitabları həcmcə əvvəlki kitablarından fərqlənir. Bu illərdə bir sıra ədəbi məclislərdə, o cümlədən gənc yazıçıların birinci beynəlxalq müşavirəsində (Moskva 27-30 sentyabr 1977) iştirak edir. «Bir görüşün tarixçəsi» (1977), «Povestlər» (1979), «Bülbülün nağılı» (1983), «Mahmud və Məryəm» (1983), «Beş dəqiqə və əbədiyyət» (1984) kitabları onu geniş oxucu auditoriyasına güclü bir nasir kimi tanıdıb. Əvvəlcə «Azərbaycan» jurnalında (1989), sonra isə ayrıca kitab kimi çap olunan «Ölüm hökmü» romanı haqqında belə bir subyektiv fikir yürütmək olar ki, «Ölüm hökmü»nə gedən yol «Ağ dəvə» əsərindən keçib gedir. Yəni bu tipli mövzu, cəmiyyətdəki haqsızlıqlara bədii etiraz «Ağ dəvə»də sərt qoyulub.

1998-ci ildə çap olunmuş «Dəlixanadan dəli qaçıb» adlı kitabı müəllifin həmin ilə qədər yazdığı pyesləri əhatə edir.

Nəsr əsərlərində Elçin geniş bir əhatə dairəsinə malikdir; həm forma cəhətdən – buraya hekayə, povest və romanlar daxildir, həm məzmun cəhətdən – Elçin yaradıcılığı həyatın müxtəlif sahələrindən bəhs edir, həm də sənətkarlıq cəhətdən – Elçində zəngin obrazlar qalereyası var, insanın daxili aləminə güclü nüfuz var, nəsrin daxili dinamizmi onun dramatik yükünü artırır, şərtilikdən özünəməxsus şəkildə və bacarıqla istifadə isə onu yazıçı, sənətkar kimi oxucuya bağlayır.

Elçin yaradıcılığı – şərtiliyin romantikası ilə realizmin dərinliyinin qarşılaşdığı, qovuşduğu müstəvidir. Elçin yaradıcılığı vətəndaş cəsarətinin yüksək bədiiliklə birləşdiyi geniş meydan, oxucusundan diqqət, savad və dünyagörüşü tələb edən humanist bir yaradıcılıqdır.

Elçinin qəhrəmanları fəlsəfi düşüncələrində narahat, eynilikdən bezikən-qaçan insanlardır. «Dəyişmə»də belədir, «Beş qəpiklik motosiklet»də də. Bu hekayələrdə insan həyatının mənası haqqında fəlsəfi düşüncə yükü mövcuddur. Burada «qeyri-adi» əhvalatlar – şərti həqiqətlər, real arzular – bədii həqiqətlər səviyyəsinə qaldırılır: insanın xeyirxahlıq müqaviməti zirehə çevrilir («Zireh»).

Elçin qəhrəmanlarını həyatın müxtəlif qütblərindən götürməkdən qorxmur, əksinə, qəssabdan da, çayçıdan da, dülgərdən də, alverçidən də... yaxşıdan da, - həyatdan – yaxşılı-yamanlı bir tam kimi eyni bir ehtiras və sənətkarlıqla danışır. Müəllif qəhrəmanlarını həmişə mənəvi sınağa çəkir və onları mənəvi-əxlaqi yüksəliş platformasında təsvir edir. «Şuşaya duman gəlib» əsərində də Cavanşir mənəvi sıxıntı və tərəddüddən birdən xilas olur. Şəxsiyyətin mənəvi-əxlaqi özünüdərki başlanır... Obrazlar mənəvi sınağa çəkiləndən sonra özlərini sanki bir də tanıyırlar. Bu «tanımaq» iki cür ola bilər: «tanınan» bu tanımadan sonra öz həyat yolunu yenidən qura da bilər, bu tanıma sadəcə etiraf olaraq qala da bilər. «Toyuğun diri qalması»nda Zübeydə özünü axırda tanıyır, «Beş dəqiqə və əbədiyyət»də də M.Dadaşlı qəza vaxtı özünü tanıyır. Qəhrəmanı başqaları səhv də tanıya bilər:

« – Mən sizi tanıdım. Xalam qızının toyu sizin restoranda idi. Sonra bu konduktor qız gülümsədi, elə bil dünyanın bəxtəvəri idi!» («Ayaqqabı»). Axı qız Bəbirin iç dünyasından xəbərsiz idi...

« – Mən sizi görən kimi tanıdım, Mərdan müəllim. Mənim üçün şərəfdir ki, sizinlə bir yerdə gedirəm». («Beş dəqiqə və əbədiyyət»). Bu xəcalətli tanıma mənəvi dönüşün bir hissəsinə çevrilə bilər.



Hekayələrinin bir çoxu maskaları yırtıb nüvəyə yol açan mənəvi-estetik tutum ifadə edir.

Elçinin obrazları yaddaqalandır. Mirzə Cəlil də kiçik insanlara müraciət edirdi, amma bədii obraz kimi onlarda yeni-yeni keyfiyyətlər tapırıq. V.Puşkinin pyeslərinin birində «Prostoy çelovek» obrazı var. Elçinin də sadə insanları hafizəmizdə yaşayırlar. Bir maraqlı məqam da yazıçının bir əsərindəki obrazının o biri əsərlərində də görünməsidir. Bircə misal. Baladadaşın Amurski oblastdan gəlməyi «Dolça» povestində də qeyd edilir.

Elçin yaradıcılığında insanın mahiyyətini açan bir dəst-xətt var və onu yazıçının bütün əsərlərində görmək mümkündür. «Mahmud və Məryəm» tarixi romanı da belə bir fəlsəfi-psixoloji mündəricəsi ilə seçilir. «...Ziyad xan özünün də, oğlunun da sabahının qayğısını çəkirdi, əlindən gələni edirdi: lazım olanda qəzəblənirdi və yaltaqlanırdı (bütün seyrəltmələr mənimdir – S.E.), lazım olanda düşmənin başını bədənində saxlayırdı və dostunun başını qurban verirdi» («Seçilmiş əsərləri» 2-ci cild, səh.9).

«Bülbülün nağılı»nda isə həmin müəllif fikrinin bir başqa məqamını izləmək olar: «... Hələ bu uşağın xəbəri yox idi ki, ağına-bozuna baxmadan, insaflı və insafsız yollarla, yaltaqlıqla və hədə-qorxu ilə, ayaq öpməklə və baş kəsməklə, yalandan gülməklə və yalandan ağlamaqla bütün ömrü boyu mal-dövlət yığacaq...» (Seçilmiş əsərləri 1-ci cild, səh.145).

Yazıçının yaradıcılığından qırmızı xətt kimi keçən bir fikir müəyyən rakurslarda təkrar olunur: «İnsanı başa düşəcək yeganə adam – o özüdür» – «Qatar, Pikasso, Latur. 1968» hekayəsində Mələykə xanım belə düşünür. «Hönkürtü» hekayəsinin duyğulu qəhrəmanı da bu cür düşünür:

... İnsanların arasında insanı başa düşən həmin insanın özüdü, başqası deyil». («Seçilmiş əsərləri» 1 cild, səh.31, səh.203).

Xalq – özünütəmizləyən çaylara bənzəyir – murdar şeyləri kənara atır və bu mənada mənəvi-əxlaqi mövzular xalqın daim dəyəri olan mövzulardır. Bu amala yüksək şəkildə xidmət edən «SOS» kimi əsərlər günümüzdə yenidən aktuallaşır. Yazıçı şərtiliklərin və adiliklərin qoynunda «SOS»dan Baladadaşın hekayətinə zahirən keçir. Əslində «SOS» həyəcan siqnalı davam edir. Axı Baladadaş da mənəvi eybəcərliklə toqquşmuşdu – Murada rast gəlmişdi. Leyla Rövşənlə (Rövşənin simasında rövşənlərlə), Məsməxanım Mirzoppa ilə «Bir görüşün tarixçəsi»ndə toqquşan kimi. Bu toqquşmaların maraqlı

cəhəti vardır. Məlum olur ki, bu toqquşmada qəhrəman məğlub olsa da, qalibdir. Məsələn, Leyla qalibdir, məğlub olsa da. Məğlubda qalibi görmək sənətkarlıq qələbəsidir.

Elçinin kino üçün yazdığı ssenarilərin yeddi olduğu məlumdur. «Ox kimi bıçaq» («Arxadan vurulan zərbə»), «Baladadaşın ilk məhəbbəti», «Dolça» və s. bu qəbildəndir. Abşeron camaatının əxlaqı milli əxlaq – kişi əxlaqı kimi nəsr əsərlərinin və kinossenarilərin şah mövzusudur. İtin timsalında («Dolça») harın əxlaqın insanlara ikrahedici təsiri və bu mənada elə əxlaqsızlıq olduğunun bədii təqdimini görürük.

Səyahətnamələrində yazıçı Elçin həm də güclü publisistdir. «Yaxın, uzaq Türkiyə» adının özü bizə çox mətləblər deyir. Əsərdəki güclü üslub, fakt, təcrübə ilə bərabər, yazıçının və onu üzvü şəkildə mənimsəyən oxucunun Türkiyəni öyrənmək – fikir yürütmək marağı üst-üstə düşür. 62 səhifəlik səyahətnamədə bir neçə sahəni əhatə edən məlumatlar oxucunu, sözün həqiqi mənasında maarifləndirir. «Palma ülfəti» (Tunisdən notlar), «Dunayda «Amur» üzürdü», «Dyula Çak ilə söhbət», «Qabrovo görüşləri» də oxucuya maraqlı görünən əsərlərdir. Əslində Azərbaycan ədəbiyyatında belə bir ənənə var və Elçin də onu ləyaqətlə davam etdirir. (Bax: Mehdi Hüseyn, Həsən Seyidbəylinin və b. yazıçıların yol qeydləri).

Çoxşaxəli bir yaradıcılığa malik olan görkəmli qələm ustası söz sənətinin bir çox sahəsində olduğu kimi, ədəbiyyatşünaslıq və tənqiddə də öz sözünü demişdir. «Qoşa qanad» Azərbaycan çapında işlənən ifadədir. Çox zaman bədii və elmi istiqamətləri özündə birləşdirən şəxsiyyətlər haqqında işlənir. Yazıçı müsahibələrinin birində deyir: «Bu barədə mən özüm də çox fikirləşmişəm. Mənə elə gəlir ki, nəsr dünyanın obrazlı qavranılması deməkdir, tənqid isə obrazların obrazlı təsvirinə cəhd etmək deməkdir. Əslində baxanda, bunlar başqa-başqa şeylərdir. Lakin mənim üçün bunların hər ikisi özünüifadə vasitəsidir». Bu haqda danışarkən Elçini heç kəslə müqayisə etmək olmaz. O, hər iki istiqamətdə görünən şəxsiyyətdir. Onun yaradıcılığının bədii istiqaməti haqqında çox danışılıb. Elmi istiqaməti haqqında söz açmağa isə ehtiyac var. Ədəbi tənqid və ədəbiyyatşünaslıqda da Elçin sözü həmişə kəsərli olub.

1984-cü ildə çap olunmuş «Fikrin karvanı» məqalələr toplusunu tərtib edən, redaktoru və önsözün müəllifi Elçindir.

1987-ci ildə Elçinin «Klassiklər və müasirlər» kitabı işıq üzü görür. Bu kitab ədəbiyyatşünas və tənqidçilər üçün dəyərli bir



mənbədir. Kitabdakı məqalələrdə həm nəzəri istiqamət, həm ayrı-ayrı ədəbi şəxsiyyətlərin yaradıcılığı, həm də bir sıra əsərlərin öz vaxtında qiymətləndirilməsi vardır. Elçin tənqidi həm elmi kəsəri, həm də xeyirxahlıq niyyəti ilə yadda qalır. Elçinin başqa bir məqamda dediyi ön sözlərini özünə də şamil etmək olar: Onun «elmi dili oxunaqlı və aydındır, ... Müəllif oxucu ilə maraqlı həmsöhbətə çevrilə bilir» («Klassiklər və müasirlər» səh.290).

«Klassik aşıq poeziyasında «Dünya obrazı» kitabı isə bizim ədəbiyyatşünaslıqda ilk təşəbbüsdür.

Ümumittifaq tənqidi səviyyəsinə çıxan tənqidçilərimizdən biri, birincisidir Elçin. «Molla, mənə kömək et», («Molla, pomoqi mne») irihəcmli məqaləsində («Drujba narodov» № 10, 1976, səh.252-260) müəllif həm keçmiş ittifaqdakı ədəbi prosesə yaxından bələdliyini nümayiş etdirir (məqaləni ruscaya da müəllif özü tərcümə edib), həm də ümumittifaq nəsri fonunda Azərbaycan nəsrini, daha dəqiq – hekayəsini yüksək peşəkarlıqla təhlil edir. Bu məqalədə hekayə axını, istedadlı Azərbaycan hekayəçiləri, ənənəyə münasibət, janrın yaşam xüsusiyyətləri, ayrıca olaraq Ə.Əylislinin «Ürək yaman şeydir» hekayəsi, R.İbrahimbəyovun «Vermişel» hekayəsi, hekayədə lirizm və onun sərhədləri və başqa məsələlər öz əksini tapmışdır.

Ədəbi tənqidi görüşləri tənqidçinin dövri mətbuatda gedən çoxlu məqalələrində qərar tutub. «Daha dərin qatlara» («Literaturnaya qazeta» № 5, 31 yanvar 1979), «Tənqid və ədəbiyyatşünaslığımızın yaradıcılıq məsələləri» (1981), «Ədəbi proses: olum ya ölüm» (1991) və s. ədəbi prosesimiz üçün çox gərəkli qənaətləri özündə birləşdirən yazılardır. Elçin müəllimin açıq ürəklə öz müasirlərini qiymətləndirdiyi məqalələr içərisində «Quyu» müəllifinə məktub» (1977) çox qiymətlidir. Elçin müəllim gənc tənqidçiləri də (indi onlar daha gənc deyillər) vaxtında xeyirxahlıqla dəyərləndirib. Onun bir sıra məqalələri yeni tədqiqatların açarı rolunu oynaya bilər. «Sübh şəfəqlərinin işığı» (Hüseyn Cavid yaradıcılığı və Avropa intibahı) məqaləsi belə bir tutuma malikdir («Ədəbiyyat və incəsənət» 17.09.1982).

Ümumittifaq mətbuatında bir azərbaycanlı kimi, vətəndaş cəsarəti ilə yüksək səviyyəli çıxışlarında Elçin xalqımıza başucalığı gətirir. «Pravda, tolko pravda» məqaləsində («Literaturnaya qazeta» 3.02.1988 № 5) Elçin keçmişin qiymətli cəhətlərini oxucuya təqdim edir, mühacirət ədəbiyyatını göz önünə gətirir – Ümbülbanu, Əhmədbəy Ağayev, Əli bəy Hüseynzadə, Qazi Bürhanəddin kimi görkəmli şəxslərin yaradıcılığını təkcə keçmiş ittifaq oxucusuna yox,

elə özümüzə də maraq doğuracaq dərəcədə başa salır. Məhz Elçin qələmində bir keçmişə qeyri-normal münasibətin təkcə bizdə yox, elə rusdilli ədəbiyyatda da təzahürünü izləyirik. Adamın ürəyindən tikan çıxaran bir məntiqlə Elçin Cavidin və Bulqakovun eyni müstəvidə günahlandırıldığını göstərir – biri panislamizmdə, o biri xristianlığı müdafiədə.

Elçin həm uşaq ədəbiyyatının problemləri, qayğıları ilə yaşayır, onu təsdiq edir («Azərbaycan uşaq ədəbiyyatı haqqında» 1982), həm də uşaq nəsri yaradır («Günay, Yalçın, Nigar, bir də Səlim» 1979) ki, əslində bunlar eyni qayənin tamamlanmasıdır: uşaqlar üçün böyük ədəbiyyat – uşağın səviyyəsinə enə bilən ədəbiyyat yaratmaq lazımdır.

Elçinin əvvəlcə «525-ci qəzet»də, sonra isə ayrıca çap olunmuş «Ədəbi düşüncələr»i bizim ədəbiyyatda yenilikdir. Bu ədəbi esselər məncə, alim-yazıçı qələminin üzvi sintezidir. Belə yazıları ədəbiyyat aləmini dərindən bilən bir yazıçı yaza bilər ki, o da yazıb.

«Nərgizin bircə ləçəyi» kitabı üçün haqlı olaraq Yaponiya səfiri T.Uomoto yazıçıya təşəkkür edib (1980). Yapon xokkularından ibarət bu kitabın tərcüməçisi, tərtibçisi və önsözün müəllifi Elçindir.

Bir ictimai xadim kimi Elçinin nüfuzu böyükdür. «Xaricdə yaşayan həmvətənlərlə Azərbaycan mədəni əlaqələr cəmiyyəti» – «Vətən» Cəmiyyəti Rəyasət Heyətinin sədri işləyərkən cəmiyyətin çox maraqlı qəzeti ilə kifayətlənməyən Elçin müəllim respublikanın aparıcı mətbuatında çıxışlar edir, Azərbaycan mühacirətini ilk dəfə bizlərə göstərir – özü dediyi kimi «kəşf edir». «Vətən»: qarşılıqlı anlaşma və etimad körpüləri («Kommunist» q., 29.01.1988), «Əzizim vətən yaxşı» («Kommunist» 12.08.1989), «Dünya tanısın Azərbaycanı» («Azərbaycan müəllimi» 15.03.1991) dialoqları bu qəbildəndir ki, o dövrdə bütün bunlar qeyri-adi görünə bilərdi.

Xalqımıza qarşı erməni məkri başlayanda bir ziyalı kimi sinəsini qabağa verib onlara elmli, səriştəli cavab verir Elçin müəllim: «Hirs ancaq ziyan gətirər» («Kommunist» 22.08.1989), «Siyasi naşılıq nümunəsi» («Ədəbiyyat və incəsənət» 15.12.1989).

Hansı mövzuda olursa-olsun onun yazıları səmimiliyi ilə seçilir. «Doktor Cavad Heyət haqqında dost sözü» («525-ci qəzet» 01.08.2000), «Həmişə nurlu olasan, şəhərim» («Bakı» 21.09.1978) yazıları, «Dünyanın min rəngi» («Sovet kəndi» 16.03.1989) müsahibəsi bu qəbildəndir.

Elçin müəllimin çoxlu mükafatları var. Onların ən mühümünə – bu günlərdə 60 yaşın sevincinə qarışmış «İstiqlal» ordeninə qədər çoxlu



ədəbi və rəsmi mükafatları vardır. «Smena» jurnalının 1977-ci ildə dərc edilmiş ən yaxşı əsər üçün mükafatını «Talvar» hekayəsi almışdır. 1982-ci ildə Ümumittifaq Komsomolu mükafatına «Əncir ağacı» povesti və hekayələr məcmuəsi layiq görülmüşdür. SSRİ Yİ-nin «Nedelya» həftəlik qəzetinin ən yaxşı hekayə mükafatını «Baladadaşın toy hamamı» hekayəsi almışdır. Bu günlərdə yubilyar Türkiyənin Yedditəpə Universitetinin fəxri doktoru adına layiq görülmüşdür.

Elçin haqqında mötəbər ədəbiyyatşünas və tənqidçilər – M.Arif, M.C.Cəfərov, Y.Qarayev, M.İbrahimov, Ə.Mirəhmədov, Y.Seyidov, Ş.Salmanov, A.Hacıyev, K.Vəliyev, V.Quliyev, H.Quliyev, V.Yusifli, N.Şəmsizadə, İ.Həbibbəyli, N.Cabbarov, Ş.Alışanov, həmçinin L.Anninski, Z.Kedrina, Yücel Feyzioğlu və başqaları söz demiş, bu yaradıcılığın müxtəlif cəhətlərini təhlil süzgəcindən keçirmişlər.

Bir neçə il bundan əvvəl Elçin müəllim Naxçıvana gəlmişdi. Dövlət tədbirlərinin məşğulluğu içində çətinliklə onu tapıb «iki daş arasında» Naxçıvan televiziyası üçün müsahibəyə razı sala bildik. Bu lentin çəkilməsi zamanı Elçin müəllimin nə qədər həssas və dəqiq adam olması hamımızı heyran qoydu.

60-cı illər nasirlərinin bir nümayəndəsinin də yaşı 60-a çatdı. Yaş öz sözünü dedi. Amma sözün yaşı 60-la ölçülmür. Sözün yaşı əbədidir.

60 yaşlı sənətkarı, alim və ictimai xadimi biz də təbrik edir, ona yeni-yeni yaradıcılıq uğurları, cansağlığı və səadət arzulayırıq.

*«Azad Azərbaycan» qəzeti, 17 iyun 2003.*

# XALQ YAZIÇISI ELÇİNƏ İSTANBULUN YEDDİTƏPƏ UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMU TƏQDİM EDİLMİŞDİR

İyunun 12-də İstanbulun Yedditəpə Universitetində Azərbaycanın xalq yazıçısı Elçinin 60 illiyi münasibətilə yığıncaq keçirildi.

Universitetin qurucusu və sahibi Bədrəddin Dalan, təhsil ocağının rektoru, professor Əhməd Sərpil, professorlar Əli Yavuz Akpinar, Nadir Dövlət və Turan Yazqan çıxış edərək Elçinin bədii yaradıcılığından, dost və qardaş ölkələrimiz arasındakı tarixi, mədəni əlaqələrdən söhbət açdılar.

Sonra yazıçı haqqında sənədli film göstərildi.

Rektor Əhməd Sərpil xalq yazıçımız Elçinə universitetin fəxri doktoru diplomunu təqdim etdi.

Ona göstərilən diqqətə və ehtirama görə universitetin rəhbərliyinə və yığıncaq iştirakçılarına təşəkkürünü bildirən yazıçı Prezident Heydər Əliyevin Azərbaycan-Türkiyə əlaqələrinin inkişafına daim xüsusi əhəmiyyət verdiyini vurğuladı. Universitetə hədiyyə olaraq Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün portretini bağışladı.

Cənab Bədrəddin Dalan isə Elçinə onun öz portretini - universitetin müəllimi, rəssam Rafiq Əzimovun çəkdiyi əsəri hədiyyə etdi.

**Tural RZAYEV,**
**AzərTAc-ın xüsusi müxbiri.**
***İstanbul***

*«Ədəbiyyat qəzeti», 20 iyun 2003.*





# TÜRKİYƏDƏ ELÇİNİN YUBİLEYİ TƏNTƏNƏ İLƏ QEYD OLUNUB

**Bədrəddin DALAN: «İstanbulda Füzulinin heykəlinin ucaldılması Elçinin mənə.dediyi sözdən başladı».**

*Xalq yazıçısı, filologiya elmləri doktoru, professor Elçin Türkiyədə ən çox çap olunan və sevilən müasir yazıçılardan biridir. Elçinin Türkiyədəki oxucu auditoriyası çox genişdir. Onun «Ölüm hökmü», «Ağ dəvə», «Mahmud və Məryəm» romanları, povest və hekayələri, eləcə də dramaturgiyası Türkiyədə çox populyardır və türk ədəbi ictimaiyyətinin diqqət mərkəzindədir. Bu əsərlər artıq xüsusi elmi-tədqiqat obyektlərinə çevrilib, onların bədii-estetik və fəlsəfi xüsusiyyətləri görkəmli türk ədəbiyyatşünas alimləri tərəfindən araşdırılır. Təsadüfi deyil ki, Elçinin Türkiyədə 14 kitabı nəşr olunub, üç pyesi Dövlət Teatrlarında tamaşaya qoyulub və o, bir sıra yüksək səviyyəli, nüfuzlu uluslararası, eləcə də milli ödüllərə layiq görülüb.*

Elçinin 60 illiyi Türkiyədə böyük hörmətlə qeyd edilib. Bir sıra mətbuat orqanları, televiziya kanalları bu yubileylə bağlı materiallar dərc edib, süjetlər göstərib.

İyun ayının 11-də və 12-də isə Elçinin yubileyi İstanbul elmi və ədəbi-ictimai həyatında əsl hadisəyə çevrildi.

İyunun 11-də İstanbulun məşhur Fatih Universiteti Elçinin 60 illiyinə həsr edilmiş böyük və təntənəli mərasim keçirdi.

Universitetin geniş zalında Türkiyənin tanınmış elm, ədəbiyyat xadimlərinin, siyasi və ictimai xadimlərin, tələbələrin iştirakı ilə keçirilən bu mərasimdə ilk çıxışı idarə heyətinin sədri, görkəmli türk jurnalisti və ictimai xadimi, professor Əli Bayramlı etdi. O, Elçinin yalnız Azərbaycanın deyil, bütün türk dünyasının böyük yazarlarından biri olduğunu, eyni zamanda mötəbər elmi və ictimai söz sahibi kimi də türk dünyasında tanındığını, hörmət qazandığını xüsusi qeyd etdi. Natiq Elçinin Türkiyə ilə Azərbaycan arasında elmi, ədəbi və mədəni əlaqələrin inkişafındakı müstəsna xidmətlərini də ön plana çəkdi.

Sonra Elçinin həyat və yaradıcılığı haqqında Türkiyədə hazırlanmış sənədli film nümayiş olundu. Daha sonra isə rəsmi hissədəki çıxışlar başladı.

Yubiley münasibətilə İzmir Universitetindən xüsusi dəvət olunmuş professor Əli Yavuz Akpinar Elçin yaradıcılığının əhəmiyyətindən danışaraq dedi: «Elçini böyük yazar kimi səciyyələndirən bir xüsusiyyət də budur ki, o, həmişə ürəyinin, yazıçı qəlbinin dediyini yazıb. Bu gün Elçinin qəhrəmanları kimdirsə, sovet ideologiyasının tüğyan etdiyi vaxtlar onlar həmin qəhrəmanlar idi. Elçinin romanları, pyesləri, hekayələri xalqın güzəranından bəhs edirdi və yüksək bədiiliklə yazıldığına görə xalqın ürəyinə yol tapırdı. Elçin xoşbəxt yazıçıdır, çünki onun əsərləri kommunizm ideologiyasının üzərindən adlaya bildi, çünki bu romanlar, pyeslər və hekayələr əsl sənət nümunələridir, onlar doğma xalqı ifadə edən milli-mənəvi dəyərlərdir».

Elçinin «Ölüm hökmü» romanını, hekayələrdən ibarət «Şuşa dağlarını duman bürüdü» və «Sarı gəlin» kimi oxucuların masaüstü kitablarını türkcələşdirmiş doktor Yusif Gədikli çıxış edərək Elçin yaradıcılığının özəl xüsusiyyətləri üzərində dayandı, tərcümə zamanı bu yazıçının nə dərəcədə zəngin yaradıcılıq imkanlarına malik olduğunu bir daha əyani şəkildə gördüyünü dedi.

Müasir Türkiyənin ən görkəmli dramaturqlarından biri olan Tuncər Cücənoğlu öz çıxışında Elçinin dramaturgiyası üzərində dayandı, onun sonuncu əsəri olan «Qatil» pyesinin artıq türkcələşdirildiyini, bu əsərin yalnız türk dilli ədəbiyyatlarda yox, müasir dünya dramaturgiyasında hadisə olduğunu söylədi. Tuncər Cücənoğlu dedi: «Elçin azsaylı türkdilli yazarlardan biridir ki, öz sənəti ilə Avropaya yol açıb. Parisdə keçiriləcək Beynəlxalq Teatr Festivalına hazırlıq üzrə Fransa Ekspert Komissiyası bu yaxınlarda işini başa vuraraq tamaşaya qoyulmaq üçün türk dilli dramaturqların yalnız iki əsərini seçmişdir. Onların da biri Elçinin «Mənim sevimli dəlim» komediyasıdır. Çıxışının sonunda Tuncər Cücənoğlu türk dilində «Qatil» pyesinin ilk nüsxəsini müəllifə hədiyyə verdi.

Görkəmli türk şairi Aydın Hətiboğlu çıxış edərək artıq 25 il müddətində Elçinlə səmimi dostluqlarından, Elçinin hələ sovet dövründə Türkiyə ilə əlaqələr yaratmaq və inkişaf etdirmək sahəsindəki böyük xidmətlərindən danışdı və fəxr etdiyini bildirdi ki, onun əziz dostu bu gün Türkiyədə də Azərbaycanda olduğu qədər tanınır və sevilir.



Fatih Universitetinin rektoru, Türkiyənin məşhur elm adamı, professor Turqut Balkaş xitabət kürsüsünə qalxaraq dedi: «Biz bu gün bizim universitetdə böyük yazar, ictimai xadim, dövlət adamı, professor Elçinin 60 illik möhtəşəm yubileyinin bu cür hörmət və məhəbbətlə keçirilməsindən qürur duyuruq».

Rektor yubilyara fəxri mükafat – universitetin Xatirə Plaketini təqdim etdi.

Fəxri mükafatda bu sözlər yazılmışdı: «Qələmiylə qardaş azəri və türk xalqı arasında kultur körpüləri quran türk dünyasının böyük yazarı və dövlət adamı sayın Elçinə böyük sənətinə duyulan sayğının nişanəsi olaraq, altmış yaşını idrakı münasibətiylə bu Tədbir Fərmanını təqdim etməkdən şərəf duyuruq. Prof. Dr. Turqut Balkaş, rektor».

Bu sözlər zala toplaşanların hərarətli alqışlarına səbəb oldu.

Rəsmi hissənin sonunda xalq yazıçısı Elçin çıxış etdi. O, Fatih Universitetinin rektorluğuna, professor-müəllim heyətinə ən səmimi təşəkkürlərini bildirdi və ona göstərilən diqqəti, hörməti, bütün Azərbaycan ədəbiyyatına, elminə, mədəniyyətinə göstərilən diqqət və hörmət kimi, Azərbaycan xalqına məhəbbətin ifadəsi kimi qəbul etdiyini dedi. Eyni zamanda Elçin universitet tələbələrinə öz tövsiyyələrini söylədi.

Rəsmi hissədən sonra bədii hissə başladı. Universitetin müəllim və tələbələrinin ifasında «Mahmud və Məryəm» romanı əsasında tamaşa göstərildi. Tamaşanın quruluşu Sarıyer Bələdiyyə Teatrının baş rejissoru Hilal Mahmudoğluna məxsus idi. Tamaşa salona toplaşanların hərarətli alqışlarını qazandı.

Bədii hissə bədii qiraətlə sona yetdi. Universitetin tələbələri böyük həvəslə Elçinin «Aydınlıq gecələr» hekayəsini mərasim iştirakçılarına təqdim etdilər.

Bədii hissədən sonra Elçinin kitablarının «müəllif imzalaması» mərasimi başladı. Müəllifin imzaladığı bu kitabları əldə etmək üçün müəllim və tələbələrdən ibarət uzun bir növbə düzülmüşdü. «Ötükən» nəşriyyatı isə Elçinin «Mahmud və Məryəm», «Ağ dəvə» və «Ölüm hökmü» romanlarının, eləcə də «Şuşa dağlarını duman bürüdü» və «Sarı gəlin» kitablarının hər birindən 20 nüsxə Universitet kitabxanasına hədiyyə etdi.

İyunun 12-də isə Türkiyənin böyük və nüfuzlu ali təhsil ocaqlarından biri olan Yedditəpə Universitetində Elçinə Fəxri

Doktorluq diplomunun təqdimetmə mərasimi keçirildi. Mərasim xüsusi olaraq sevimli yazıçının altmış illik yubileyinə şamil edilmişdi.

Yedditəpə Universitetinin Senatı 15 may 2003-cü il tarixli 19 nömrəli Qərarı ilə yekdilliklə Elçini bədii ədəbiyyat, ədəbiyyatşünaslıq və ictimai-siyasi fəaliyyətinə görə Universitetin Fəxri Doktoru seçib.

Qeyd etmək lazımdır ki, Elçin, ümumiyyətlə, ilk Azərbaycan yazıçısıdır ki, Türkiyə universitetlərinin fəxri doktoru seçilir.

Universitetin təsisçisi, Türkiyənin görkəmli siyasi və ictimai xadimi, İstanbul şəhərinin keçmiş Bələdiyyə başqanı Bədrəddin Dalan çıxış edərək Elçin yaradıcılığının müasir türk dünyasında çox önəmli bir yer tutduğunu, onun bir yazıçı, ədəbiyyatşünas-alim, ictimai-siyasi xadim kimi böyük nüfuza malik olduğunu qeyd etdi. O dedi: «Bunun səbəbi ilk növbədə, əlbəttə, Elçinin böyük istedadıdır, böyük qabiliyyətidir. Bu istedadı da, bu qabiliyyəti də ona Allah verib. Ancaq Elçinin bir xüsusiyyəti də var. O, harda olursa-olsun, özü üçün çalışmır, öz xalqı üçün çalışır, milli dəyərlərimiz naminə çalışır. Bir hadisəni sizə söyləmək istəyirəm. Mən Elçinlə ilk dəfə 1986-cı ilin yayında tanış olmuşam. O zaman mən İstanbul Bələdiyyə başqanı idim. Elçin isə İzmir Bələdiyyə başqanı B.Özfaturanın dəvəti ilə Bakıdan Moskvaya, oradan İstanbula gəldi. Buradan da İzmirə gedəcəkdi. Mən Elçin haqqında hələ o zaman çox eşitmişdim, ona görə də Özfatura ilə birlikdə Hava limanına gedib Elçini qarşıladım. Onunla qısaca söhbətimiz zamanı Elçinin türk tarixi, türk ədəbiyyatı haqqında bilgiləri, söylədiyi mülahizələr, onun hələ sovet zamanı gizlətmədiyi, cəsarətlə bildirdiyi siyasi dünyagörüşü, türk dünyası barədə düşüncələri mənə elə təsir etdi ki, heç olmasa bir gün mənim qonağım olmasını israr etdim. Doğrudan da bir gün mənim qonağım oldu. Axşam söhbət əsnasında söz Füzulidən düşdü. Mən Füzulidən dedim, Elçin Füzulidən dedi, gözəl bir axşam keçirdik. Səhər onu İzmirə yola salarkən soruşdum ki, mənə nə tapşırığı var, nə şəxsi istəyi var? Elçin dedi: «Bədrəddin bəy, siz ki, bu qədər Füzuli babamızı sevirsiz, bəs nə üçün İstanbulda Füzulinin heykəli yoxdur?» Bu söz mənə təsir etdi, dedim: «Elçin bəy, əziz qardaşım, siz gələn dəfə İstanbula gələndə Füzulinin heykəli olacaq!» Belə də oldu. Bəbəkdə Füzulinin möhtəşəm heykəlini ucaltdıq. O heykəlin ucaldılması Elçinin mənə dediyi o sözlərdən başladı. Bizim elə professorlarımız, alimlərimiz var ki, İstanbulda yaşayırlar, ancaq hələ gedib o heykəli görməyiblər. Elçin isə, mən bilirəm, İstanbula hər gəlişində Füzuli babamızın heykəlini ziyarət edir».



Bədrəddin Dalan Yedditəpə Universiteti Senatının yekdil Qərarı ilə Elçinin Fəxri Doktor seçilməsindən qürur duyduğunu söylədi.

Professor Turan Yazqan Elçinin Türkiyə–Azərbaycan əlaqələrinin inkişafındakı böyük idmətlərindən danışdı və belə bir faktı da xüsusi qeyd etdi ki, o böyük bir familiyanın ləyaqətli davamçısıdır. Hələ sovet zamanı Türkiyəyə qastrola gəlmiş Azərbaycan Akademik Milli Dram Teatrı Elçinin atası, Azərbaycan ədəbiyyatının klassiki, unudulmaz İlyas Əfəndiyevin böyük cəsarətlə yazılmış «Sevgililərin cəhənnəmdə vüsalı» və «Bizim qəribə taleyimiz» əsərlərinin tamaşalarını göstərdi. O tamaşalar Türkiyə vətəndaşlarına stalinizm istibdadı, sovet sistemi haqqında müstəsna bilgilər verdi, qardaş Azərbaycan kulturunun zirvələr əldə etməsindən xəbər verdi. Bu gün bu işi Elçin şərəflə davam etdirir.

Professor Əli Yavuz Akpinar Elçinin həyat və yaradıcılığı haqqında məruzə etdi. O dedi: «Sovet sistemi Türkiyəyə və türkçülüyə qarşı düşmən mövqedə idi. Belə bir zamanda Elçin 1979-cu ildə ilk dəfə Türkiyəyə gəldikdən sonra, «Yaxın, uzaq Türkiyə» adlı kitab yazdı. Bu kitab Türkiyəyə böyük məhəbbətin açıq-aydın və olduqca cəsarətli ifadəsi idi.

Professor Nadir Dövlət müasir dünyada beynəlxalq vəziyyət, türk dünyasının dünya birliyi arasındakı yeri və bu baxımdan böyük qələm sahiblərinin, ictimai-siyasi xadimlərin, o cümlədən Elçinin fəaliyyəti haqqında məruzə etdi.

Universitetin rektoru, professor Əhməd Sərpil çıxış edərək Senatın Qərarı haqqında məlumat verdi, özünün ürək sözlərini söylədi və Fəxri Doktor diplomunu Elçinə təqdim etdi.

Söz Yedditəpə Universitetinin Fəxri Doktoru Elçinə verildi.

Xalq yazıçısı bu fəxri ada görə şərəf duyduğunu, bunu öz bioqrafiyasının işıqlı bir səhifəsi hesab etdiyini söylədi və universitetin Senatına, rektorluğuna təşəkkürünü bildirdi. O dedi:

«Bu gün mənim üçün çox xoşdur ki, burada, sizin qarşınızda mən öz müstəqilliyini bərpa etmiş və müstəqilliyin qorunması, daha da möhkəmlənməsi uğrunda mübarizə aparan, sosial-iqtisadi durumunu daha da inkişaf etdirməyə çalışan, ərazi bütövlüyünü, Ermənistan tərəfindən təcavüzün nəticəsində qaçqın həyatı keçirmək məcburiyyətində qalmış bir milyon insanın öz doğma yurd-yuvasına qayıtmasını təmin etməyi qarşısına məqsəd qoymuş azad bir ölkənin – Azərbaycanın vətəndaşı kimi çıxış edirəm».

Elçin türk xalqlarının tarixinə kiçik bir ekskurs edərək, bu gün qarşıda duran vəzifələr, ilk növbədə isə türk xalqlarının, yeni yaranmış türk dövlətlərinin inteqrasiya prosesinin və bu prosesin dünya birliyindən, xüsusən inkişaf etmiş Qərb ölkələrindən təcrid olunmadan aparılmasının əhəmiyyətini xüsusi qeyd etdi.

Yazıçı çıxışının axırında Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkün yağlı boya ilə çəkilmiş portretini Yeddităpə Universitetinə hədiyyə verdi.

Mərasimin sonunda cənab Bədrəddin Dalan Elçinə, onun rəssam Rəfiq Əzim tərəfindən çəkilmiş portretini hədiyyə verdi.

Yeddităpə Universitetində də Elçinin kitablarının «müəllif imzalaması» böyük sevinc və maraqla qarşılandı. Elə oradaca Elçin Türkiyədə təhsil alan tələbələrlə səmimi görüş keçirdi.

Bu mərasimlər İstanbulda həqiqi ədəbiyyat bayramına çevrilmişdi.

Elçinin yubileyi ilə bağlı hər iki universitetdə keçirilən tədbirlər Türkiyə informasiya vasitələrinin diqqət mərkəzində idi.

«Tərcüman» qəzeti 12 iyun 2003-cü il tarixli nömrəsində yazır: «Ünlü Yazar Elçin universitet öyrəncilərinə xitabən: «Gənclər, 300 milyonluq Türk Dünyasına xidmət edin. Bütün dünyaya və bəşəriyyətə də xidmət edin. Sadəcə, millidə qapanıb qalmayın. Dünyadan xəbəriniz olsun... Xəbəriniz olmazsa, öz millətinizə yetərincə xidmət edə bilməzsiniz».

Biz də İstanbuldan bu reportajı sevimli yazıçımızın həmin sözlərilə bitiririk.

**İstanbul**

*«525-ci qəzet», 25 iyun 2003.*



## ELÇİNİN YUBİLEYİ TÜRKİYƏDƏ GENİŞ QEYD EDİLİB

Xalq yazıçısı Elçinin 60 illik yubileyi qardaş Türkiyədə də geniş qeyd olunmuşdur. Bu münasibətlə ayrı-ayrı mətbuat orqanları, televiziya kanalları bu yubileylə bağlı materiallar dərc etmiş, süjetlər göstərmişdir.

Qeyd edək ki Elçin Türkiyədə ən çox çap olunan və sevilən yazıçılarımızdandır. Belə ki, yazıçının indiyədək bu ölkədə 14 kitabı nəşr edilmiş, üç pyesi dövlət teatrlarında tamaşaya qoyulmuşdur. Eyni zamanda yazıçı Türkiyənin bir sıra nüfuzlu uluslararası və milli mükafatlarına layiq görülmüşdür.

Bu günlərdə İstanbulun məşhur Fatih Universitetində Elçinin yubileyi ilə bağlı təntənəli mərasim keçirilmişdir. Yubiley mərasimində ölkənin tanınmış elm və ədəbiyyat, siyasi və ictimai xadimləri iştirak və çıxış etmişlər.

Türkiyənin böyük və nüfuzlu təhsil ocaqlarından biri olan Yeddităpə Universitetində isə Elçinin bədii ədəbiyyat, ədəbiyyatşünaslıq və ictimai-siyasi fəaliyyətinə görə fəxri doktor adına layiq görülməsi barədə diplomun təqdimat mərasimi keçirilmişdir.

Hər iki tədbir İstanbulda ədəbiyyat bayramına çevrilmişdir.

*«Zaman» qəzeti, 16 iyun 2003.*

## TƏBRİK EDİRİK!

Ötən ay Azərbaycanın xalq yazıçısı, görkəmli dramaturq, ədəbiyyatşünas və tənqidçi, tanınmış dövlət xadimi Elçinin 60 yaşı tamam oldu. Onun çoxyönümlü yaradıcılığı, ədəbi ictimaiyyətimiz və xalqımız tərəfindən həmişə yüksək qiymətləndirilmiş və təqdir olunmuşdur.

Bu şanlı yubileyi münasibətilə möhtərəm Prezidentimiz Heydər Əliyev cənablarının sərəncamı ilə ölkəmizin ən ali mükafatı – «İstiqlal» ordeninə layiq görülməsi də yazıçıya olan ümumxalq məhəbbətinin, dövlət etimadının dəyərli bir ifadəsidir.

Elçin ədəbiyyata gəldiyi ilk gündən öz iti, kəsərli qələmi ilə əsl səlahiyyət sahibi kimi çıxış etmiş, qanıyla, ruhuyla sənətə bağlı olduğunu sübuta yetirmiş, ədəbiyyatımızı ölkəmizin hüdudlarından çox-çox uzaqlarda tanıdan ağsaqqal nüfuzu qazanmışdır. Elçinin son illərdəki ədəbi uğurları xalqımıza fəxarət və başucalığı gətirmiş, dünyanın bir çox ölkələrində müstəqil Azərbaycanımızın adına, ünvanına yeni-yeni töhfələr bəxş etmişdir. O bu gün ömrünün ən müdrik, yaradıcılığının ən məhsuldar bir dövrünü yaşayır. Əsil gənclik ehtirasıyla yazır-yaradır.

Biz də onu 60 illik yubileyi və qazandığı saysız ədəbi uğurlar münasibətilə ürəkdən təbrik edir, möhkəm cansağlığı arzulayır, ədəbiyyatımızın sabahı, xalqımızın gələcəyi naminə deyirik:

Əziz Elçin müəllim!

Tanrı sizi bu xalqa, bu millətə çox görməsin! Allahdan diləyimiz budur ki, Siz 70-80 yaşın pillələrini çıxa-çıxa, xidmət etdiyiniz böyük Sənəti daha görümlü pillələrə, daha möhtəşəm ucalığa çıxarasınız.

Bu yurdun, bu torpağın Sizin kimi namuslu qələm sahibinə hələ çox ehtiyacı var.

*«İncəsənət» jurnalı, iyun 2003.*



## TÜRKİYƏDƏ YUBİLEY TƏNTƏNƏLƏRİ

Müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, istedadlı nasir, dramaturq, tənqidçi, filologiya elmləri doktoru, professor, «İSTİQLAL» ordenli xalq yazıçısı Elçinin 60 illik yubileyi Türkiyədə böyük təntənə, əsl sevgiylə, həqiqi ümumxalq sevinci, ümumtürk məhəbbətilə qeyd olundu. «Ölüm hökmü», «Ağ dəvə», «Mahmud və Məryəm» adlı fundamental romanları, bənzərsiz povest və hekayələri, ədəbiyyatımızın həlalik son böyük hadisəsi olan orijinal dramaturgiyası ilə dünyanı fəth edən Elçin qardaş Türkiyədə doğma, sevimli, populyat sənət adamı, ədəbi zirvələrin əbədi ev sahibi kimi qarşılandı. Türkiyədə on dörd kitabı nəşr olunan, üç pyesi bu ölkənin dövlət teatrında tamaşaya qoyulan, bir sıra yüksək səviyyəli, nüfuzlu mükafatlara layiq görülən Elçinin 60 illik yubileyi qardaş məmləkətdə əsl sənət bayramına döndü. Bu baxımdan İstanbulun məşhur Fatih Universitetindəki yubiley təntənələri xüsusilə seçildi. Universitetin böyük salonunda təntənəli yubiley mərasimində ilk çıxışı idarə heyətinin sədri, görkəmli türk jurnalisti və ictimai xadimi, professor Əli Bayramlı etdi.

Fatih Universitetinin rektoru, Türkiyənin məşhur elm adamı, professor Turqut Balkaş yubilyara fəxri mükafat, universitetin Xatirə Plaketini təqdim etdi.

Dünya miqyasında tanınan, sevilən, təqdir olunan məşhur sənətkar, görkəmli yazıçı-dramaturq Elçinin 60 illik yubiley tədbirləri Türkiyənin Yedditəpə Universitetində davam etdirildi. Qardaş ölkənin ən böyük və nüfuzlu ali təhsil ocaqlarından olan Yedditəpə Universitetində Elçinə doktorluq diplomunun təqdimolunma mərasimi yubiley təntənələrinin yaddaqalan hadisələrindən idi. Elçin Türkiyə universitetlərinin fəxri doktoru seçilən ilk Azərbaycan yazıçısıdır.

Yedditəpə Universitetinin təsisçisi, İstanbul şəhərinin keçmiş bələdiyyə başqanı Bədrəddin Dalan Elçini təbrik etdi.

*«Ekran-efir» qəzeti, 7-13 iyul 2003-cü il.*

## MÜSAHİBİMİZ XALQ YAZIÇISI ELÇİNDİR

- Elçin müəllim, ilk öncə sizi bir daha 60 illiyiniz, «İstiqlal» ordeni ilə təltif olunmağınız münasibətilə, yubileyinizlə bağlı digər xoş hadisələrə görə ürəkdən təbrik edirik.

- Çox sağ olun.

- Axır vaxtlar çox şikayət edirdik ki, ədəbiyyata maraq azalıb, sənətkarlarımıza etinasız yanaşırlar. Lakin sizin 60 illiyiniz göstərdi ki, yox, belə deyil. Sizin yaradıcılığınız haqqında onlarla məqalələr yazıldı, bu məqalələrin müəllifləri arasında yaşlı nəslin də nümayəndələri var idi, lap gənc nəslin də. İqtidarda olanlar da vardı, müxalifətdə olanlar da. Deməli, belə bir nikbin fikir irəli sürmək olar ki, əsl sənət heç vaxt kölgəyə qalmır, unudulmur. Əsl sənətə verilən qiymət yüksələn xətlə gedir, aşağı düşmür.

- Mən də fürsətdən istifadə edib tanıyıb və tanımadığım həmin müəlliflərin hamısına, məni təbrik edən yüzlərlə dost-tanışa, oxuculara dərin təşəkkür və minnətdarlığımı bildirirəm.

*«525-ci qəzet», 10 iyul 2003 il.*
*«Ədəbiyyat» qəzeti, 18 iyul 2003 il.*



## MOSKVADA ELÇİNİN YENİ KİTABI NƏŞR EDİLMİŞDİR

Xalq yazıçısı Elçin xarici ölkələrdə ən çox çap olunan sənətkarlardan biridir. Onun roman, povest və hekayələri, eləcə də pyesləri müxtəlif ölkələrdə nəşr edilir, tamaşaya qoyulur və geniş oxucu auditoriyalarının rəğbətini qazanır.

Bu günlərdə Moskvanın məşhur və nüfuzlu «Avvallon» nəşriyyatı Elçinin «Ölüm hökmü» adlı yeni kitabını nəfis şəkildə çapdan buraxmışdır. Kitaba yazıçının «Mahmud və Məryəm», «Ağ dəvə» və «Ölüm hökmü» romanları daxildir.

Xatırladaq ki, bu romanlar Moskvada dəfələrlə nəşr olunmuşdur və Rusiya oxucuları onlarla yaxşı tanışdır. Lakin «Avvallon» nəşriyyatı ilk dəfə olaraq onları bir kitab halında buraxmışdır.

Nəşriyyat Elçinin romanlarını «müasir ədəbiyyatın böyük hadisələri» kimi qiymətləndirir və yeni kitabı yazıçının 60 illiyinə töhfə etmişdir.

**AzərTAc**

*«Azərbaycan» qəzeti, 22 avqust 2003-cü il.*

## ELÇİN - 60

Bu yaxınlarda «QAPP-Poliqraf» Nəşriyyatında xalq yazıçısı Elçinin anadan olmasının 60 illiyi münasibətilə «Elçin-60» adlı metodik vəsait çapdan buraxılmışdır. 62 səhifəlik həcmində olan bu nəşr Elçin yaradıcılığının mədəni-maarif müəssisələrində təbliği üçün nəzərdə tutulmuşdur. Vəsaitin müəllifi Bəybala Ələsgərov, buraxılışına məsul Leyla Qafurova, redaktoru Dilsuz, naşiri Qoşqar İsmayıloğlu, bədii redaktoru İlham İsmayılov, Akif Dənzizadə, korrektoru Rəfiqə Qəmbərqızı, operatoru Məlahət Qurbanova, çapa məsul Anar Abdullayevdir.

Müəllif vəsaiti əvvəlki vəsaitlərdən fərqli olaraq xüsusi bir quruluşda hazırlanmışdır. Belə ki, nəşr 7 sərlövhədən ibarətdir.

Birinci sərlövhədə Elçin İlyas oğlu Əfəndiyevin «İstiqlal» ordeni ilə təltif edilməsi haqqında prezident H.Əliyevin fərmanı öz əksini tapmışdır.

İkinci başlıq prezident H.Əliyevin «Xalq yazıçısı Elçinə» adlanır və burada prezidentin məktubu öz əksini tapmışdır.

Növbəti başlıq «Ön söz»ü ilə başlayır və B.Ələsgərov xalq yazıçısı Elçinin yaradıcılığını qısa şəkildə şərh edir və oxucuları məlumatlandırır.

Beşinci bölmə xüsusi ilə diqqəti cəlb edir və «Ədəbiyyat, incəsənət və dövlət xadimləri, oxucuları Elçin haqqında» adlanır. Burada Heydər Əliyev, Məmməd Cəfər, Məmməd Arif, Mirzə İbrahimov, Mehdi Məmmədov, Bəxtiyar Vahabzadə, Əziz Mirəhmədov, Nizami Cəfərov, Fərhad Bədəlbəyli, Polad Bülbüloğlu, Anar, Oljas Süleymenov, Bəkir Nəbiyev, Vilayət Quliyev, Mir Cəlal, Ağamusa Axundov və digər görkəmli şəxslərin fikirləri oxuculara çatdırılır.

Növbəti başlıq Elçinin «Həyat və fəaliyyətinin əsas tarixləri» adlanır və burada həyatının yaddaqalan illərinin əsas tarixləri işıqlandırılır.

Vəsaitin əsas cəlbedici hissələrindən biri də «Elçin yaradıcılığının mədəni-maarif müəssisələrində təbliği» adlanır. Burada həqiqətən də Elçinin yaradıcılığının mədəni-maarif müəssisələrində təbliğinin xüsusi metodikası verilmişdir. Belə ki, müəllif kütləvi tədbirləri, oxucu konfranslarını, sual-cavab və ədəbi-bədii gecəsinin keçirilməsinin formalarını geniş şəkildə izah edir.



«Elçin-60» adlı kitab sərgisinin, haqqında olan sitat sərgisinin sxem formaları xüsusilə diqqəti cəlb edir. Burada həmçinin kino sahəsindəki və tövsiyə olunan ədəbiyyat sərgisinin də sxem formaları öz əksini tapmışdır.

Sonuncu başlıq «Ədəbiyyat siyahısı» adlanır. Burada Elçinin öz kitabları (kiril və latın qrafikasında), haqqında olan kitablar, dövri mətbuatda çap olunmuş ədəbiyyat (müəllifləri göstərməklə) öz əksini tapmışdır.

*«İmpuls» qəzeti, 22-28 avqust 2003-cü il.*

## BƏYBALA ƏLƏSGƏROV

## NƏSRİMİZİN FƏXRİ

**«QAPP-Poliqraf» Nəşriyyatında xalq yazıçısı Elçinin anadan olmasının 60 illiyi münasibətilə metodik vəsait çapdan buraxılmışdır. 62 səhifəlik bu nəşr Elçin yaradıcılığının mədəni-maarif müəssisələrində təbliği üçün nəzərdə tutulmuşdur. Vəsaitin müəllifi Bəybala Ələsgərov, buraxılışına məsul Leyla Qafurova, redaktoru Dilsuz, naşiri Qoşqar İsmayıloğludur.**

«Mən nə xoşbəxt, nə də bədbəxtəm, taleyin mənə ayırdığı vaxt müddətində bu dünyanın adi qonağıyam».

Bu sözlərin müəllifi Elçin ədəbi fəaliyyətə 1959-cu ildə «Azərbaycan gəncləri» qəzetində çap olunan «O inanırdı» hekayəsi ilə başlamışdır. Bundan sonra, müntəzəm olaraq dövri mətbuatda hekayə, povest, roman və ədəbi tənqidi məqalələrlə çıxış etmişdir.

1960-cı ildə orta məktəbi bitirib Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olmuş, 1965-ci ildə ali təhsilini başa vurmuşdur. 1965-69-cu illərdə Azərbaycan EA Nizami adına Dil və Ədəbiyyat İnstitutunun aspiranturasında oxumuşdur.

Əsasən müasir mövzulara müraciət edən Elçin yaradıcılığı realist səpkili lirik-psixoloji üslubda formalaşıb. Elçinin nəsri ən kədərli anlarda belə, nikbindir. Bu nəsr adi insanların, bizim müasirlərimizin mənəvi zənginliklərini axtarıb üzə çıxarmaq istiqamətində daim axtarışdadır. Elçində həyatı, hadisələri, insanları realist, doğrucul boyalarla təsvir etmək bacarığı var, bu, lirik duyğularla həyat və insanlar barədə düşünmək və mühakimələrlə, predmetin dərinliklərinə enmək, onu mənalandırmaq, cazibələrlə dolu canlı aləmin sirlərini dərk etmək meyli ilə bağlı olduğundan oxucunu cəzb edir, təsir altına alır. Bu baxımdan povestləri maraq doğurur.

Hər bir ədəbi əsərin fikir aydınlığını, axıcılığını, bədii təsir gücünü müəyyən edən cəhətlərdən biri və vacibi bədii dildir. Elçinin əsərləri danışıq dilinə çox yaxındır.

Elçinin seçilmiş əsərləri iki cilddə nəşr olunmuşdur. Onun «Ölüm hökmü» romanı təxminən 60 illik bir dövrün salnaməsidir. Yazıçı həmin ziddiyyətli dövrlərlə bağlı həqiqəti deməkdən çəkinməmiş, şəxsiyyətə pərəstişin cəmiyyətimizə vurduğu mənəvi və maddi zərbələrin insan talelərindəki əksini yüksək bədii boyalarla ifadə etmişdir. Romanda həm 20-30-cu illərlə, həm də müasir dövrümüzlə bağlı faktoloji sənədlilik, dəqiqlik, bədii təxəyyül əksini tapmışdır.



Elçinin böyük şəxsiyyətlərin həyatına həsr edilmiş kitabları da diqqəti cəlb edir. Ölməz sənətkarlardan Bülbülə, Üzeyir Hacıbəyova, Azərbaycan Demokratik Cümhuriyyətinin banisi Məmməd Əmin Rəsulzadəyə həsr olunmuş məcmuələr buna misaldır.

Elçin respublikamızda xarici dillərə ən çox tərcümə olunmuş yazıçılardan biridir. Tərcümə onun ədəbi fəaliyyətində mühüm yerlərdən birini tutur. Onun klassik yapon poeziyasından, qərb yazıçılarından tərcümə etdiyi hekayə və povestlər uğurlu nəşrlərdir.

Yazıçı Elçin, həmçinin, istedadlı tənqidçi və ədəbiyyatşünas alim kimi də məşhurdur. O, xalq yazıçısı, əməkdar incəsənət xadimi, filologiya elmləri doktoru və professordur. Elçin müxtəlif dillərdə 91 kitabın və 2000-ə yaxın məqalənin müəllifidir.

Azərbaycan və keçmiş sovet ədəbiyyatının aktual problemlərinə həsr olunmuş bir çox elmi-nəzəri məqalələri neçə illərdir ki, respublikamızdan kənarda da çap olunur. Onun H.Cavid, V.Şekspir, N.Nərimanov, Ü.Hacıbəyov haqqında elmi məqalələri, «Azərbaycan bədii nəsri ədəbi tənqiddə», «Tənqid və ədəbiyyatımızın problemləri», görkəmli Azərbaycan tənqidçi və ədəbiyyatşünasları haqqında «Fikrin karvanı», «Klassiklər və müasirlər» kimi elmi-nəzəri kitabları maraqla oxunur. Bundan əlavə «Üzeyir Hacıbəyovun publisistikası», «Üç qəhrəman qərənfil», «O işıq əsla sönməz», «Dəyişməzlik», «Cəfər müəllim», «Tənqidçinin «məni» və tənqidin problemləri», «Xalqa xidmət əzmi ilə» və s. əsərləri də diqqəti cəlb edir.

Bu gün Elçin Azərbaycanın milli mənəviyyatını və ədəbi-mədəni mühitini müəyyən edən şəxsiyyətlərdən biridir, onun dövlətçilik və bədii yaradıcılıq fəaliyyəti bir-birini ahəngdar şəkildə tamamlayır.

* * *

**Bu günlərdə görkəmli yazıçımız Elçinin anadan olmasının 60 illiyi tamam olur. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Fərmanı ilə Azərbaycan ədəbiyyatının inkişafındakı böyük xidmətlərinə görə Elçin İlyas oğlu Əfəndiyev «İstiqlal» ordeni ilə təltif olunmuşdur. Çoxsaylı oxucularımız adından yubilyarı ürəkdən təbrik edir, ona uzun ömür, möhkəm cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.**

*«Samur» qəzeti, 29 avqust 2003.*

**BƏYBALA ƏLƏSGƏROV. ELÇİN-60, BAKI, «QAPP-POLİQRAF» KORPORASİYASI, 2003, - 64 SƏH.**

Bu metodik vəsait xalq yazıçısı Elçinin anadan olmasının 60 illiyi münasibətilə nəşr olunmuşdur. Elçin yaradıcılığının mədəni-maarif müəssisələrində təbliği üçün nəzərdə tutulmuş vəsaitin müəllifi Bəybala Ələsgərov, buraxılışına məsul Leyla Qafurovadır.

Kitab Elçin İlyas oğlu Əfəndiyevin «İstiqlal» ordeni ilə təltif edilməsi haqqında Prezident Heydər Əliyevin fərmanı ilə başlayır. Burada möhtərəm Prezidentimiz Heydər Əliyevin «Xalq yazıçısı Elçinə» adlı məktubu da öz əksini tapmışdır.

Kitaba müəllifin yazdığı «Ön söz»də xalq yazıçısı Elçinin yaradıcılığı qısa şəkildə şərh edilir.

«Ədəbiyyat, incəsənət və dövlət xadimləri, oxucuları Elçin haqqında» başlığı altında müəllif görkəmli yazıçı haqqında deyilən ürək sözləri ilə oxucuları tanış edir. Burada Heydər Əliyev, Məmməd Cəfər, Məmməd Arif, Mirzə İbrahimov, Mehdi Məmmədov, Bəxtiyar Vahabzadə, Yusif Səmədoğlu, Niyazi Mehdi, Lev Anninski, Yaşar Qarayev, Əziz Mirəhmədov, Nizami Cəfərov, Fərhad Bədəlbəyli, Polad Bülbüloğlu, Anar, Oljas Süleymenov, Bəkir Nəbiyev, Vilayət Quliyev, Mir Cəlal, Ağamusa Axundov və digər görkəmli şəxslərin fikirləri oxuculara çatdırılır.

«Həyat və fəaliyyətinin əsas tarixləri» başlıqlı yazıda Elçinin həyatının yaddaqalan illərinin əsas tarixləri işıqlandırılır.

Kitabın sonunda verilmiş «Ədəbiyyat siyahısı»nda Elçinin öz kitabları (kiril və latın qrafikasında) haqqında dövri mətbuatda çap olunmuş məqalələr (müəllifləri göstərilməklə) öz əksini tapmışdır.

*«Respublika» qəzeti, 15 sentyabr 2003-cü il.*



**ELÇİN - 60**

Bu yaxınlarda «QAPP-Poliqraf» nəşriyyatında xalq yazıçısı Elçinin anadan olmasının 60 illiyi münasibətilə «Elçin-60» adlı metodik vəsait çapdan buraxılmışdır. 62 səhifəlik həcmində olan bu nəşr Elçin yaradıcılığının mədəni-maarif müəssisələrində təbliği üçün nəzərdə tutulmuşdur.

Müəllif vəsaiti əvvəlki vəsaitlərdən fərqli olaraq xüsusi bir quruluşda hazırlamışdır. Belə ki, nəşr 7 sərlövhədən ibarətdir.

Birinci sərlövhədə Elçin İlyas oğlu Əfəndiyevin «İstiqlal» ordeni ilə təltif edilməsi haqqında prezident H.Əliyevin fərmanı çap edilmişdir.

İkinci başlıq Prezident H.Əliyevin «Xalq yazıçısı Elçin» adlanır və burada prezidenti məktubu öz əksini tapmışdır.

Növbəti başlıq müəllifin «Ön söz»ü ilə başlayır. Müəllif B.Ələsgərov xalq yazıçısı Elçinin yaradıcılığını qısa şəkildə şərh edir və oxucuları məlumatlandırır.

Beşinci bölmə xüsusi ilə diqqəti cəlb edir. Bu bölmədə «Ədəbiyyat, incəsənət və dövlət xadimləri, oxucuları Elçin haqqında» deyilən ürək sözlərini oxuya bilərlər. Burada Heydər Əliyev, Məmməd Cəfər, Məmməd Arif, Mirzə İbrahimov, Mehdi Məmmədov, Bəxtiyar Vahabzadə, Əziz Mirəhmədov, Nizami Cəfərov, Fərhad Bədəlbəyli, Polad Bülbüloğlu, Anar, Oljas Süleymenov, Bəkir Nəbiyev, Vilayət Quliyev, Mir Cəlal, Ağamusa Axundov və digər görkəmli şəxslərin fikirləri oxuculara çatdırılır.

Növbəti başlıq Elçinin «Həyat və fəaliyyətinin əsas tarixləri» adlanır və burada onun həyatının yadda qalan illərinin əsas tarixləri işıqlandırılır.

Vəsaitin diqqəti cəlb edən hissələrinldən biri də «Elçin yaradıcılığının mədəni-maarif müəssisələrində təbliği» adlanır. Müəllif həqiqətən də burada Elçinin yaradıcılığının mədəni-maarif müəssisələrində təbliğinin xüsusi metodikası verilmişdir. Belə ki, kütləvi tədbirlərin, oxucu konfranslarının, sual-cavab və ədəbi-bədii gecəsinin keçirilməsinin formalarını geniş şəkildə izah edir.

Sonuncu başlıq «Ədəbiyyat siyahısı» adlanır. Burada Elçinin öz kitabları (kiril və latın qrafikasında), haqqında olan kitablar, dövri

mətbuatda çap olunmuş məqalələr (müəllifləri göstərilməklə) öz əksini tapmışdır.

*«Mədəniyyət» qəzeti, 17 sentyabr 2003-cü il.*





## SÖZ SƏNƏTİMİZƏ PARLAQ XİDMƏT

Azərbaycan xalq yazıçısı Elçinin ilk mətbu əsərləri belə dərhal əks-səda doğurur, maraqla qarşılanırdı. Elçin ədəbiyyat aləminə yeyin, inamlı addımlarla, nüfuzlu adlardan, məhşur qələm sahiblərinin zəhmindən çəkinməyərək daxil oldu, əlbəttə, bu bir sadəlövh şan-şöhrət arzusundan irəli gələn həvəs deyildi, hərçənd özünütəsdiq əzmi uluların, dahilərin gəlib keçdiyi yola qədəm qoyan bir cavan qələm əhlinə heç də ziyanlı sayıla bilməz. Elçin artıq gənclik illərində ali həyat və ədəbi təhsilini doğma evində, ata ocağında almışdı (hələ rəsmi təhsili demirəm). Onun ilkin müəllimi, istadı doğma atası, görkəmli yazıçı İlyas Əfəndiyev olmuşdur ki, onun yüksək ziyalılığı, ədəbi kosmosa – Mirzə Cəlildən tutmuş Semyüel Bekketə qədər, Şekspirdən tutmuş Natəvanadək – geniş marağı bir canlı örnək idi... Ən ünlü sənətkarlarımız gəlib-getdiyi bu ocağın ab-havası ədəbiyyat, sənət üstə köklənmişdi. Və Elçin öz həssas ürəyilə, övlad-oğul yaddaşıyla bu ab-havanı, bu narahat, yaradıcı düşüncə ovqatını əxz etmişdi. Onun əli, demək olar ki, genetik fəhmlə qələmə sarıldı... Yaşca nisbətən cavan olsa da, o, tezliklə danılmaz ədəbi hadisəyə çevrilməyə başlayan «altmışıncılar» sırasında yer tutdu. Erkən mətbu əsərlərindən «Qatar, Pikasso, Latur. 1968» hekayəsi yadıma düşür, - burada realistik axarlı təhkiyyə birdən fantastik olayla «partladılır», - personaj tabloda təsvir olunmuş müqəddəs Sebastyanın bağrına sancılmış oxu dartıb çıxarır... Fantastik ünsürlər, gedişlər Elçinin bir sıra başqa əsərlərində də, məsələn, «Zireh» hekayəsində işlədilir və onu «magik realizm» tərəfdarlarına yaxınlaşdırır. Ümumiyyətlə, Elçinin nəsrində uzun zaman təlqin edilmiş bədnam «sosrealizm» stereotip və ehkamlarını qırmaq,onun dar qəliblərindən çıxmaq əzmi uğurlu bədii bəhrələr vermişdir.

Elçin haqlı olaraq deyir: «Mən indi də o zaman yazdıqlarımı ixtisarsız, düzəlişsiz çap etdirə bilərəm». Bu həqiqətən də belədir və bu, yazıçıya şərəf gətirən müstəsna bir faktdır. Sovet dövrünün bir çox, hətta ən istedadlı söz ustaları həyat həqiqətlərinə xilaf çıxmalı, onların üstündən keçməli, ya bəzəmək məcburiyyətində qalmışlar.

Elçin nəsrinin məziyyətləri – həm lirizm, həm sərrast, duzlu-şirəli söz rəngkarlığı («Baladadaşın ilk məhəbbəti»ni yada salaq), həm də fəlsəfi-əxlaqi tutumlu epik vüsətdir... Bu politonik yaradıcılığa orijinal, müasir ruhlu, satirik-qrotesk çalarları və tragik qatları ilə fərqlənən dramaturgiya, ədəbi prosesin mühüm qayğılarıyla bağlı ədəbi-tənqidi fəaliyyət, gənclər haqqında məqalələr, ekranda canlandırılmış kinossenarilər də daxildir... Bütün bu çoxcəhətli, bol bəhrəli yaradıcılığın ictimai fəaliyyətlə, məsul vəzifə işlərilə (yaxın keçmişdə Yazıçılar Birliyinin katibi, «Vətən» Cəmiyyətinin idarə heyətinin sədri, son illər və hazırda respublika hökumətinin Baş nazirinin müavini...) uğurlu uzlaşmasını düşünərkən, Elçinin fenomenal enerjisinə, çoxcəhətli istedadına, vaxtın qədrini bilməyinə, daxili intizamına heyrətlnməyə bilmirsən. Altmışıncı baharını adlayıb keçsə də, gur şəvə saçlarına yaşın qarı ələnsə də, bu ağaran saçlar qələm dostumuzun cavan görkəmi, tükənməz, qaynar enerjisiylə uyuşmayan kimi görünür. Bir çox halal mükafatların, ödüllərin sahibi olan, dünyanın neçə-neçə dillərində həvəslə oxunan və tanınan Elçin bədii sözümüzün nüfuzunu uca tutur, qələm çalmaqda davam edir, söz sənətimizə, xalqımıza, Azərbaycana başucalığı gətirir, eşitdiyimə görə, yazı masasının üstündə yenicə bitirdiyi «Böyük sirr» və «Qatil» pyesləri var və şübhəsiz ki, oxucu, tamaşaçı tərəfindən bu əsərlər də maraqla, rəğbətlə qarşılanacaqdır.

Əziz Elçin, altmış yaşın mübarək olsun, canın sağlam, qələmin iti, indən belə də sənət yolun sayalı-uğurlu olsun!

*«Литературный Азербайджан» jurnalı, 2003, № 4.*



İntiqam QASIMZADƏ

## ZAMAN SƏDDİNİ AŞMIŞ SƏNƏTKAR

- **Müasir Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndələrindən birinin - Elçinin bu günlərdə 60 yaşı tamam oldu. Düzü, adamın çətin inanmağı gəlir, çünki Elçin haqqında «istedadlı gənc yazıçı» kimi danışıldığı elə bil dünəndi; bu gün isə o, ustadlıq səviyyəsinə yüksəlmiş köklü-köməcli bir yazıçı, müdrik bir sənətkardır. Müdriklik səlahiyyəti ona kimsə tərəfindən bir töhfə və ya ağ saclarına görə xüsusi imtiyaz titulu kimi verilməyib – özü qazanıb; altmış illik bir ömrün enişli-yoxuşlu yollarında yuxusuz gecələr hesabına qazanıb.**

Elçin ədəbi fəaliyyətə düz 44 il öncə – 1959-cu ildə başlayıb desəm, yəqin ki, səhv etmərəm. O, çox erkən, hələ 16 yaşında yazdığı «O inanırdı» hekayəsi ilə taleyini həmişəlik bədii yaradıcılığa bağlayıb və bu günə kimi də öz seçiminə sadiq qalıb.

Tez-tez eşidirik, deyirlər: «Elçin xoşbəxt taleli sənətkardır». Bəli, elədir. Amma bu xoşbəxtliyi yalnız ilahi bir qüvvənin adı ilə bağlamaq düzgün olmazdı. Əlbəttə, Allah vergisi deyilən istedaddan ona da pay düşüb, özü də böyük bir pay düşüb. Amma Allah payı olan bu istedadın parlaması Elçinin öz gücünə olub, zəhməti hesabına olub. O, istedadının kölgəsində mürgü vurmayıb, inadla öz «söz mülkünü» qurub, yaradıb. Əsl sənətkarlıq zirvəsinə aparan dolanbac yolları isə yalnız bu cür qət etmək mümkündür. Elçinin də buna gücü və hünəri çatdı. Yaradıcılıq aləminə, dediyim kimi, çox erkən atılan Elçin sürətlə, az bir vaxtda öz dəst-xətti olan bənzərsiz bir yazıçı kimi diqqəti cəlb etdi. Artıq 25-30 yaşlarında onun haqqında, məsələn, belə yazırdılar: «Nüfuzedici bir nəzərlə uzaqlara və dərinliklərə dalmaq, gözə görünən və görünməyən ara pərdələri qaldırıb əsl mahiyyətə, nüvəyə çatmaq meyli bu yazıçıya xas bir keyfiyyətdir». Bu sözlər o dövrün ən mötəbər ədəbiyyatşünas-alimi, məşhur tənqidçi Məmməd Arifə məxsusdur. Ədəbi zövqü, yüksək intellektual səviyyəsi ilə seçilən başqa bir görkəmli alim Əziz Mirəhmədov isə Elçin haqqında belə deyirdi: «Həyatın acı həqiqətlərindən danışanda da şirin, səmimi, xeyirxah dillə

danışmaq ancaq sinəsində şəfqətli bir sənətkar ürəyi gəzdirənlərə qismət olur ki, Elçin də onların cərgəsindədir». Verilən qiymət göz qabağındadır, xırdalamağa, zənnimcə, ehtiyac yoxdur.

İllər ötdükcə Elçinin əsərləri Azərbaycanın sərhədlərindən çox-çox uzaqlara çıxdı və diqqətsiz də qalmadı. Məsələn, Rusiyanın ədəbi-ictimai mühitində Elçin böyük maraqla qarşılandı. Belə ki, onun hekayə və povestləri yalnız mövzusu, faktura yeniliyi, koloriti ilə deyil, həm də (özü də daha artıq dərəcədə) sənətkarlığı ilə onları məftun etmişdi. Moskvanın elitar sənət sərraflarından sayılan Lev Anninski hətta Elçin qələminin incəlikləri qarşısında heyrətini gizlətməyib belə ifadə etmişdi: «Elçin möcüzələri sevir, o, zərif və mehriban nağılçıdır, kədərli bir sehrkardır, bərq vuran qızılı, gümüşü rənglərə üstünlük verən impressionistdir...». Bu sözlər o zaman hələ çox gənc olan bir yazıçının sənətinə verilən sadəcə yüksək qiymət deyildi, bu sözlər onun geniş bir məkanda, özü də böyük ənənələri olan rus ədəbi mühitində etirafı demək idi.

Elçinin uğurlarından danışanda adətən onun yazıçı ailəsində dünyaya göz açmasını, sevimli sənətkarımız, unudulmaz İlyas Əfəndiyevin oğlu olmasını xüsusi vurğulayırlar. Heç şübhəsiz, ustad bir yazıçının ocağında, ədəbi mühitdə böyüyüb boya-başa çatması onun yazıçı taleyini müəyyən edən şərtlərdəndir. Lakin xalqının məhəbbətini qazanmış son dərəcə populyar bir yazıçı olan İlyas Əfəndiyevin cazibəsinə düşüb onun təkrarına çevrilmək təhlükəsi də var idi axı... Yəni, sevimli bir atanın, böyük bir sənətkarın sehrindən çıxmaq özünü sənətə həsr etmək həvəsinə düşmüş bir gənc üçün zor bir işdi və Elçin özündə belə bir qüvvə tapdı; çünki istedadla bərabər, onda yalnız şəxsiyyətlərə xas fərdi ləyaqət hissi var idi. Beləliklə də, Elçin bir para adamların ortaya atdığı «ədəbiyyatımızda atalılar və atasızlar» problemini (bu, «atalar və oğullar» probleminin bizdə qondarılmış eybəcər variantıdır) hələ lap gənc yaşlarında çox uğurla həll etdi. İlyas Əfəndiyev yaradıcılığına böyük ehtiramla yanaşsa da, onu yamsılamadı, təkrar etmədi, ədəbiyyatda öz bənzərsiz yolunu saldı.

Elçin, ümumiyyətlə, yaradıcılıq prosesində sənət adamları qarşısına mütəmadi olaraq çıxan sədləri çox cəsarətlə aşır, çərçivələri, hətta yaza-yaza özünün qurduğu qəsrləri – forma, üslub modellərini belə ara-sıra bir kənara qoyub yenilərini yaradır. Bunu etməkçün isə daim axtarışda olmaq, yeniləşməyi bacarmaq lazımdır. Fikir verin, dediyim kimi, öncə o, ailə çərçivəsində (yaradıcılıq mənasında) qalmaq



istəmədi, sonra milli sədləri (həm ədəbi ehkamlar, həm də coğrafi məkan mənasında) aşdı. Ən önəmlisi isə onun, artıq bu gün, dünənki uğurlarla kifayətlənməmək, onların özlərini də üstələmək cəhdidir. Belə olmasaydı, Elçin də kifayət qədər tanınmış bir çox yazıçılarımız kimi keçmiş şöhrətinin kölgəsində uyuyub keçən əsrdə qalardı, XXI əsrə adlaya bilməzdi. Elçin isə bütün yaradıcılığı boyu ona xas olan ən gözəl xüsusiyyətini, müasirlik duyğusunu qoruyub saxladığı üçün zaman səddini də aşdı. Və nəinki aşdı, hətta çox mürəkkəb və çətin bir dövrdə ədəbiyyatımıza bələdçilik etmək missiyasını da öz üzərinə götürdü. Əminəm ki, 70, 80, 90 yaşlarında da o, bir ədəbiyyat fədaisi kimi, uzun illərdən bəri tutduğu haqq yolundan dönməyəcək, ədəbiyyata, sənətə xidmət etmək əzmi ilə yaşayacaq və yazıb yaradacaqdır.

Əziz dostum və qardaşım Elçini 60 yaşı münasibətilə öz adımdan və «Azərbaycan» jurnalı redaksiyasının bütün əməkdaşları adından təbrik edir, ona uzun ömür və cansağlığı arzulayıram.

*«Azərbaycan» jurnalı, № 5, 2003.*

**Əsəd CAHANGİR**

## ƏDƏBİ DÜŞÜNCƏLƏR

### (Elçinin 60 illik yubileyi münasibətilə)

Yazıçı da hamı kimi insandır, onun yazdıqlarının oxucuya doğma gəlməsi bu yöndən təbiidir və istənilən bir yazıçını oxucuya doğmalaşdıran cəhətlər var. Amma elə yazıçılar var ki, onların fikirləri sənə naməlum, yad və hətta qəribə görünür, sonradan – illər keçdikcə səninkinə çevrilir. Elə yazıçılar da var ki, elə ilk oxunuşdanca bu doğmalığı hiss edirsən: elə bil ki, o, sənin dilinin ucunda olan, həm də ağlına gəlməyən sözləri yazır. Hətta adama elə gəlir ki, bu sözlər özününküdür. Elçin mənim üçün ikinci tip yazıçılardandır. Görünür, milyard-milyard insanları eyni düşüncə qruplarında birləşdirən nəsə intellektual, psixoloji, əxlaqi, mənəvi, estetik kodlar var. Yazıçı və oxucunun kodları üst-üstə düşəndə və ya yaxın olanda daha anlaşıqlı olurlar. Olsun ki, elə zövq deyilən bir şeyin psixogenezisində də bu durur. Buna görə bir oxucunun sevdiyi, anladığı və bəyəndiyinə ikinci oxucu tamam əks qütbdən yanaşır. Elçin mənim anladığım yazıçılandandır.

* * *

Hər bir insanda olduğu kimi, mənim də həyatımın psixoloji komplekslər dövrü olan ilk gənclik illərində onun əsərlərini utancaqlıq dolu ağrı, əzab bahasına oxumuşam. Elə bil ki, kimisə çılpaq halda küçəyə ötürüb evin qapısını bağlayırsan, qayıdıb içəri girə də bilmir, anlayır ki, geriyə yol yoxdur, öz daxili zəifliyindən doğan əzabları, iztirabları yara-yara ancaq irəli getmək olar. Ta ki özünə təzə «geyəcək» tapana qədər. İndiyə qədər özünə qaranlıq olan daxilinin sanki bir projektorla işıqlandığını hiss edirsən və bu işıq həm də nə qədər qaranlıq içində olduğunu sənə başa salır.

* * *



Yeniyetməlik illərimdə idealım, dostum təvazökar, iddiasız, eyni zamanda mərd və məğrur mustanger – Moris Cerald olub, yaşıl otları dizə qədər qalxan Amerika savannalarının qara atlı cəngavəri, sarışın, məğrur Luizanın sevgilisi, qaragözlü İsidoranı qısqanclıq əzabları içində yaxıb-yandıran vəhşi at ovçusu, Mayn Ridin «Başsız atlı» romanının qəhrəmanı. Maraqlıdır ki, Elçin də «Ədəbi düşüncələr»ində təxminən eyni fikri söyləyir. Görünür, Morisin xarakterindəki mərdanəlik yeniyetməlik dövrünün romantik təsəvvürləri ilə gözəl uzlaşır və bu ekzotik Meksika geyimli məğrur irland gəncini bədii ədəbiyyatla maraqlanan hər bir yeniyetmənin idealına çevirir. Və yeniyetmələr Morisə bənzəmək istəyir. Özümlə ruhi-mənəvi yaxınlıq duyduqlarım isə başqa qəhrəmanlar idi: özü də fərqinə varmadan əsəbiliklə çiçəklərin ləçəklərini yolub atmasından tutmuş, bütün sonrakı taleyinə qədər Artur-Etel Lilian Voyniçin «Ovod» romanının qəhrəmanı... Bir də kitablar dünyasına qapılıb dünyadan, həyatdan təcrid olunmuş, xan atası Ziyad və xanım anası Qəmərbanunun gizli dərdinə çevrilmiş Mahmud, Elçinin «Mahmud və Məryəm» romanının qəhrəmanı...

* * *

Məncə, yeniyetməlik illərində insan tənha olur: uşaqlıq dostları artıq yavaş-yavaş ondan ayrılır (daha dəqiqi, hər oxuduğun kitabın son səhifəsini qapadıqca özünün də onlarla ünsiyyətinin səhifələrini qapadığını, onlardan sürətlə ayrıldığını şüuraltı bir ağrı, dumanlı bir kədərlə hiss edirsən), gənclik, cavanlıq dostları isə hələ qarşıdakı illərdə hansısa bir təsadüfi bəhanə edib yolunu gözləyirlər. Bəlkə buna görə o illərdə kitablar və onların qəhrəmanları insanın ən yaxın həmdəminə çevrilir. Bəlkə də başqalarının bu dövrü tamam başqa cür xarakterizə edəcəyini düşünmək olardı. Amma Elçinin Mahmudu göstərir ki, bu fikirlər sadəcə bir şəxsin fərdi yaşantılarından doğmayıb, ən azı, müəyyən qrup adamların timsalında özünü doğruldur.

* * *

Atam gənclik illərindən qalmış bir vərdişindən – kitab oxumaqdan son günlərinə qədər əl çəkmədi. Eynəyini taxıb əlinə keçən kitabları oxuyardı. Uşaqlıqda mən onun yığdığı kitablardan öyrənirdim, bir az keçəndən sonra isə o mənim. Bir dəfə onu əlində «Mahmud və Məryəm» romanını tutmuş gördüm. Kitabı oxuyub qurtarmışdı. Eynəyini çıxarıb yaşarmış gözlərini sildi və «Axırı çox təsirlidir, məni kövrəltdi» dedi. Mən onun Ziyad xan olduğunun onda da fərqində idim. Bunu sonralar sadəcə bütün çılpaqlığı ilə anladım. O da məni Mahmud sayırmış. Bunu da onda indiki qədər dərinliyi ilə başa düşmürdüm. Atalar və oğullar arasındakı anlaşılmazlıq, Edip, Hamlet, Yevgeni Bazarov, Ovod ağrıları insanlığın, xüsusən də bizim xalqın deyəsən ədəbi problemlərindəndir. Bunun da hələ onda indiki qədər fərqində deyildim.

* * *

Mənim Elçinlə yazıçı-oxucu ünsiyyətim Mahmudun dünyaya heyrətlə açılan iri gözlərindən başlayıb. Doğrudur, bu gözlər mənim dünyaya gözümü açmadı. Əvəzində gözlərim öz içimə açıldı, özünütədqiqə başladım. Deyəsən, bədii sözün işi elə budur axı. İnsanın həyata gözünü isə elə həyatın özü aça bilər. Amma bədii söz bu işdə daxili-psixoloji hazırlıq işi görür. Elçin təkcə "Mahmud və Məryəm" romanı yox, "Sarı pencək", "On ildən sonra", "Talvar", "Parisdə avtomobil qəzası", "Gül dedi bülbülə" hekayələri, "Bir görüşün tarixçəsi", "Toyuğun diri qalması", "Dolça" povestləri, "Ağ dəvə", "Ölüm hökmü" romanları və adını çəkmədiyim, demək olar ki, bütün əsərlərində ümummilli psixoloji komplekslərdən azad olmaq problemini ən xırda təfərrüatlarına qədər əks etdirən və bu baxımdan bəlkə də analoqu olmayan yazıçıdır. Məsələn, nəinki Azərbaycan nəsri, hətta Elçinin özünün də yaradıcılığında psixoloji incəliklərin bir zərgər dəqiqliyi ilə işlənməsi baxımından "Gül dedi bülbülə" ilə yanaşı qoyulası ikinci bir hekayə, ümumən nəsr nümunəsini yada salmaq çətindin. Dünya və milli nəsrimiz tarixində bir qonaqlıq və ya hüzr məclisinin milli psixoloji komplekslərin bədii ifadəsi kimi ümumiləşdirilməsi, "milli məclis" kimi mənalandırılması səhnələri az deyil: təkcə efə Dostoyevskinin "Cinayət və cəza" romanında Marmeladovun dəfn mərasimi və ya Ü.Hacıbəyovun "O olmasın, bu olsun" komediyasındakı məşhur qonaqlıq səhnəsini yada salmaq olar. Məncə, "Gül dedi bülbülə" hekayəsindəki qonaqlıq səhnəsi bu silsiləyə



öz müəllifinin layiqli əlavəsidir. Və yaxud, "Sarı pencək" hekayəsinin kəskin, həlli zəruri psixoloji komplekslər içində olan qəhrəmanı, öz fərdi eqosuna qapanıb, dünyadan, reallıqdan təcrid olunmuş bəstəkar S.Qayıblı görəsən niyə məhz 28 yaşında təsvir olunub? Şübhəsiz ki, bu bir təsadüfi rəqəm olmayıb, yaş psixologiyasının (xüsusən yaradıcılıqla məşğul olan adamlarda) ağır böhran dövrü ilə bağlı numeroloji göstəricisidir və kökü qədim ezoterik təlimlərə gedib çıxan, mifoloji mətnlərdə öz ifadəsini tapan, dünyanın ən böyük söz ustalarından Vergili, Nizami, Dante, Hötenin əsərlərində bu və ya digər şəkildə öz əks olunan inisiasiya mərasiminin çağdaşımızın həyatında kortəbii təkrarlanmasının ifadəsidir. O çağdaşımız ki, qədim insanın Ariadna sapı rolu oynaya biləcək möhtəşəm bilgilərindən uzaq düşüb, buna görə də psixoloji labirintlərin qaranlıqlarında azıb. Ümumiyyətlə, psixoanalitik tədqiqlər üçün Elçin qədər material verən yazıçılarımız azdır. Bəlkə də yanıla bilərəm, ancaq məncə, bu cəhətdən qətiyyətlə daha bir yazıçının – Afaq Məsudun adını çəkmək olar. Belə tədqiqlərdən isə hələ ki əsər-əlamət də yoxdur.

* * *

Elçindən əvvəl İlyas Əfəndiyevin əsərlərini oxumuşam. "Mahnı dağlarda qaldı" ilk baxdığım teatr tamaşasıdır: gecənin qaranlıq bir aləmində qulluqçusuna itlərin qabağına ət atdırıb evdən çıxan bəy qızı Şahnazın bir kəndli oğluna qoşulub qaçmasından 6 yaşlı uşaq səbəbi özünə məlum olmayan əzab çəkir, elə bil ki, qorxulu yuxu görürdü. O çox istəyirdi ki, qızın hikkəli qardaşı arvadı Fəxrəndə xanım yuxudan oyansın, əri Böyük bəyi də oyatsın və Şahnazı geri qaytarsınlar. O altı yaşlı uşaq üstündən illər keçəndən, tamaşaya təkrar-təkrar baxandan sonra anladı ki, qızı baltaçı oğluna qısqanırmış. Buna görə Baltaçı oğlu Nicatın yox, Böyük bəylə Fəxrəndə xanımın tərəfində durubmuş. Bir az da keçdi və o anladı ki, bunun səbəbi təkcə özünün Şahnaza olan uşaqlıq sevgisi deyil, həm də özü bəy nəslindən olan dramaturqun da bəylər tərəfində durması, böyük bir faciə ilə süquta uğrayan bəylik xanədanının ağrılı xatirələri ilə yaşaması imiş. Ən maraqlısı isə budur ki, Sovet hökumətinin qılıncının dalının da, qabağının da kəsdiyi o illərdə necə olub ki, bəylik quruluşuna açıq-aşkar müəllif rəğbəti ruhunda olan bu əsərin səhnələşdirilməsinə icazə verilib? Hətta tamaşa

quruluşçu rejissor Əliheydər Ələkbərov başda olmaqla SSRİ Dövlət mükafatına layiq də görülüb.

* * *

O uşaq mən idim və aylı-ulduzlu yay gecəsi bir-birinə qoşulub dünyanın o başına, nəsə məchul bir aləmə üz tutan, bu yolda qarşılaşacaqları çətinlikləri bir cavanlıq coşqunluğu ilə dəf edəcəklərini zənn edən, hətta bu yolda ölümü belə qəbul etməyə hazır olan iki istəkli gəncin yarımçıq kəsilmiş, dağların kəkotulu yamacları və Cıdır düzündə qalmış, Xəznə qayasında əks-səda verən mahnısı yaddaşımda ömürlük qaldı: teatr xəstəsinə çevrildim. İndi hərdən dostlarıma, qohumlarıma qəribə gəlir ki, ayın-ilin bu vaxtında bu nə teatr azarıdır belə?

«Söyüdlü arx»da Səadətin, rəqibəsi Nuriyyənin üzünə sillə vurub dediyi «Dərələrin iti, ordan bura gəlmisən ki, iki kəndin arasına qan salasan, atanı baladan edəsən?!» sözlərindəki koloritdən tutmuş, «Dağlar arxasında üç dost»da gözlərindən gülən qarabuğdayı Ayna, şıltaq, ərköyün Güləbətin, qız-qadınların yaraşıqlı, boy-buxunlu Şahları görəndə başlarını aşağı salması, nəhayət, əlisilahlı qaynı ilə oğlundan ötrü döş-döşə gələn, bütün dünyanı balasının başından düşən bir tükə qurban verməyə hazır olan dişi canavar – Gülnisənin xarakterinə qədər hər şey – İlyas bəyin əsərlərində doğma, tanışdır. Bu , mənim doğulub, böyüdüyüm, hər gün rastlaşdığım həyatın özü idi. «Üçatılan», «Geriyə baxma, qoca» romanlarındakı həyat barədə isə Sara nənəm, Ayaz dayım, Mina mamam, Gülü xalam və anamdan eşitmişdim.

Elə bil ki, mənim oxucu taleyim bu iki yazıçının arasında bölüşdürülüb. Uşaqlığımı, ilk gənclik illərimi, mənsub olduğum nəslin keçmişini ata, Bakıya oxumağa gəldikdən sonra gördüyüm dünyanı isə oğul qələmə alıb.

* * *

Tələbəlik illərimi Yasamalda keçirmişəm, unversitetə yaxın olduğu üçün. Elçinin əksər əsərləri, hətta sonuncu hekayələrindən olan



"Göy üzünün ulduzlu vaxtları"nda məharətlə canlandırdığı "dağlı məhəlləsinin" həyatı buna görə mənə də doğmadır və məncə, Elçin bu həyatı ardıcıl olaraq, realistcəsinə sənətə gətirən təkcə ilk yazıçımız deyil, hələ ki, yeganə yazıçımızdır. Bu həyatın Elçinin əsərlərindəki təsviri – Bakının dəniz sahilindəki kəndlərindən birində, tut ağacının dibində oturub şimaqədər yonan Baladadaşın aerodrom kepkasından tutmuş ("Baladadaşın ilk məhəbbəti"), Xanım xalanın qara kəlağayısına oxşayan zahirən tünd, ciddi, sərt, daxilən şəffaf, səmimi, büllur təbiəti, pəhləvan kimi canlı-cüssəli altı oğlunun getdikcə daha çox sarsılmaqda olan "köhnə" əxlaq kodekslərinin dayağı olan bu Abşeron "puritanka"sının əmrlərinə infantil itaətinə ("Ağ dəvə") qədər hər şey hansısa soyuqqanlı ingilis və ya azadlıqsevər fransız üçün bəlkə də Şərq ekzotikası kimi maraqlıdır. Amma mənim üçün uzun illər içində olduğum, tədricən öyrəndiyim və hiss olunmadan uyğunlaşdığım həyatın özü kimi. İlyas Əfəndiyevin "Dağlar arxasında üç dost" romanının qəhrəmanı Şahlar birdən-birə gözünü açıb özünü bu yerlərdə necə hiss edərdisə, mən özümü "qartallı dərələrdən" çıxıb birdən-birə qapalı müsəlman "monastırına" düşən kimi zənn edirdim. Bu adamlardakı zahiri etinasızlıq, bəzən lovğalıq həddinə çatan ciddiyyət, qapalılıq əvvəlcə qəribə görünüb mənə. Özümlə bu adamların arasında həmişə bir sədd dayandığını hiss etmişəm. Yalnız illər keçəndən sonra anlamışam ki, deyəsən, bu sədd artıq yoxdur, bu həyatın da öz romantikası, öz şeriyyəti var və hər şey ilk baxışdan göründüyü kimi deyil.

* * *

Elçinin əsərlərinin dilində də Abşerona, Xəzər dənizinə məxsus nəsə var: o mənada yox ki, onun Məmmədağası, Məsməxanımı, Ağababası, yaxud da Baladadaşının "ikimərtəbəli" adları, nitqlərində isə dialektizmlər var. O mənada ki, yazıçının axıcı sintaksisi, bir-birini təqib edərək son nöqtəyə can atan cümlələri dalğaların sahilə aramsız can atmasını xatırladır: bir-birini dabanqırma qovaraq elə hey tələsir, tələsir, arada nəfəslərini dərir, di gəl, mənzil başına çata bilmirlər ki, bilmirlər! Ta ki, son nöqtə qoyulana qədər... Bəlkə birnəfəsə yazıldığı üçün yazıçının kitabları elə birnəfəsə də oxunur. Gah incə qaynatmalarla bəmə enən, gah da şaqraq zəngulələrlə zilə qalxan muğamat kimi. Belə birnəfəsə oxunmaq keyfiyyətini Elçindən daha

əvvəl mən yenə də İlyas Əfəndiyevin əsərlərinin mütaliəsi zamanı hiss etmişəm.

* * *

Bir neçə il olar... "Azərbaycan" jurnalında mənimlə bir otaqda işləyən nasir dostum Mübariz Cəfərli Elçinin "Mahmud və Məryəm" romanını oxuduğumu görüb, "O romanın birinci səhifəsində bir cümlə var, təkcə elə onu oxumaq da kifayətdir" - dedi.

* * *

Adətən belə hesab edirlər ki, şer ilhamla yazılar, bu söz nəsrə o qədər də aid deyil. Amma məncə, nasirin də öz ilhamı var və nəsr də ilhamla yazılmalıdır. Bir dəfə televiziya ilə çıxışlarından birində Elçinin dediyi bir söz yadımdadır ki, o, "Mahmud və Məryəm"i cəmi on səkkiz günə yazıb. Bir neçə yüz səhifədən ibarət romanı on səkkiz günə ancaq ilhamla yazmaq olardı. Romanı oxumağa başlayan oxucunun son nöqtə qoyulana qədər òndan ayrıla bilməməsinin başlıca psixoloji səbəbini mən bunda görürəm. Yazı prosesində müəllifin ağıl və hisslərini bir nöqtədə birləşdirən və canlı bir mexanizmə çevirən yaradıcılıq ehtirası, Belinskinin dili ilə desək, mənəvi ehtiras və ya pafos oxucunu da tutur və öz aurasına salır, ta ki, son səhifəni qapayana qədər. Bəzən o, bu auradan günlər, aylarla çıxa bilmir. Bəzən isə bu ovqatdan onda ömrü boyu nələrsə qalır.

* * *

Elçinin "Bir görüşün tarixçəsi" povestindəki bu parçanın doğurduğu ovqatı, üstündən neçə il keçməsinə baxmayaraq, hələ də duyuram: "Kitabullanın meyitini maşından düşürüb Dar dalanla aparanda birdən axırıncı həyətin qapısı açıldı, başıaçıq, ayağıyalın bir qız, arvadların əlindən qopub tabuta tərəf cumdu, vəhşi kimi, qabağındakı kişiləri aralayıb iki əli ilə tabutun taxtasından yapışdı, var gücü ilə dartdı; tabutu çiyinlərində saxlayan kişilərin ayağı titrədi, bu qızın dəli baxışlarının qabağında irəliləyə bilmədilər; qız tabutun



taxtasını bir də dartdı, az qaldı meyit tabutun içindən yerə düşsün və kişilər onu eləyə bildilər ki, tabutu cəld çiyinlərindən düşürüb yerə qoydular; tabutu yerə qoymaqla qızın özünü meyitin üstünə atmağı bir oldu və onun sinəsindən qopan şivənlə bütün bu gecə izdihamının köksündən çıxan nalə də bir oldu.

Məhəllənin adamları Tamillanı birinci dəfə belə gördü".

Məncə, bir-birini qova-qova kitabın sahilinə can atan bu dalğavari cümlələr son nöqtə qoyulandan sonra da bitmirlər. Dənizin dalğaları sahildə də bitmədiyi kimi...

* * *

Tamillanın böyük qaynının arvadı Fatma iki körpəsini də qoltuğuna vurub gedir atası evinə, zavallı qızın kəbinini isə öz əri Yadullaya kəsdirir: "Fatma deyirdi ki, Tamilla mənim bacımdır. Yadulla da day bundan sonra mənim qardaşımdır. Hamı bilirdi ki, Fatma Tamillaya görə belə elədi...". Nağıllardakı kimi romantik bir eşqə bu qədər adi, cansıxıcı, bayağı və dəhşətli "prozaik" nöqtə qoyulur. Hamısı da kiçik bir təsadüfün üzündən. Amma bu təsadüfü karmik bir zərurətə çevirən, qaçılması vacib olsa da, hələ də mümkün olmayan milli psixoloji komplekslərdir. Və müəllifin əsas hədəfi də nə cəmi 40 günə Kitabullanı "unudan" Tamilla, nə öz əcayib dərəcədə qeyri-adi altruizmi ilə kiçik qaynının nişanlısını ömürlük əzaba məhkum edən Fatma, nə də taleyin bu qəribə hədiyyəsini çoxdan gözləyirmiş kimi dərhal qəbul edən Yadulla yox, ilk növbədə onların hər üçünü öz məngəsində boğan milli psixologiyanın bu neqativ cəhətləridir.

* * *

Təxminən 1923-24-cü illərdən söz gedir. Qaryagin mahalının Qaraxanbəyli kəndinin qənirsiz gözəli sayılan nənəm Sara öz igidliyi ilə İlyas Əfəndiyevin "Üçatılan" povestinin qəhrəmanı Ərşadı xatırladan Məcidə ərə gedir. (O vaxt gözəllər, deyəsən, igidlərin qisməti olurmuş.) Bir ildən sonra Məcid yağışa düşüb sətəlcəmdən öldüyündən "Gəlin

evdən kənara çıxmasın" deyə dul qalmız gənc Saranı Məcidin kiçik qardaşı Baxışa ərə verirlər və bu vaxt Tamillanın Yadullaya ərə getməyə razı olub-olmaması ilə maraqlanmadıqları kimi, onun da rəyi ilə hesablaşmırlar. Deyilənlərə görə, nənəm ikinci izdivaca qətiyyən razı deyilmiş. Bu izdivacdan Baxışla Saranın altı övladı, o cümlədən anam dünyaya gəlir.

* * *

"Bir görüşün tarixçəsi" povestindən gətirilən yuxarıdakı parçanı ilk dəfə gənclik yaşlarımda oxuyanda hansı hissləri keçirdiyim yadımdadır. Belə cazibədar, maqnit kimi çəkici faciələrə bədii mətndə sonralar da çox rast gəlmişəm. Amma daxilində sıxılmış yay kimi gərgin bir dramatizm yaşadan bu cür gözəl müsibətə çox az...Ləngərlənən, dalğalanan cümlələrlə birlikdə elə bil ki, oxucu da dəhşətli bir faciənin zirvəsinə doğru qalxdığını hiss edir: görəsən sonra nə olacaq? Öz toy günündə maşın qəzasından ölmüş, qızıl dişli, bütün məhəllənin gözü, yarlı-yaraşıqlı şofer Kitabullanın nişanlısı gözəl Tamillanın fəryadları doğrudanmı nakam cavanı tabutdan qaldırmayacaq? Doğrudanmı, Allah bu qədər dəhşətli ağrıya rəhm etməyəcək, ifadəsi axıra qədər mümkün olmayan, yalnız duyula biləcək nəhayətsiz yanğıya biganə qalacaq?..

Belə bir möcüzənin doğrudan da baş verəcəyinə dünyada mənim üçün ən əziz adamı maşın qəzasından ədəbi olaraq itirdiyimi eşidəndə də inanmaq istəmişdim. Möcüzə baş vermədi! Əvəzində o, mənim daxilimdə baş qaldırdı: illərdən bəri yatmış idrakımın gözü açıldı, düşüncəmin iyirmi üç illik qaranlıqlarına nazik bir işıq şüası düşdü – ədəbiyyətə inam hissim yarandı. Anladım ki, insan əbədidir, itkilər isə fani. Ömürlük ayrılıqdan başqa bir şey olmayan ölüm bizi əzizlərimizdən uzaqbaşı ömrümüzün sonuna qədər ayıra bilər. Fikirlərim əvvəlcə özümə də sadəcə təsəlli kimi görünürdü. Sonralar isə islah edilməsi heç cür mümkün olmayan dərin daxili inama – imana çevrildi.

* * *



Yeri heç nə ilə doldurula bilməyən, əvəzolunmaz itkilərin müqabilində belə sən demə insan nəsə tapa bilirmiş və sözün daha dərin mənasında tapdıqları itirdiklərindən böyük olurmuş. İnsanı itirib Allahı tapmaq kimi...

* * *

Həyatda möcüzələr baş vermir artıq. Amma vaxtilə dünya başdan-başa möcüzələrlə dolu olub axı. Musa əleyhissəlam əsasını daşa vurmaqla su çıxarır, İsa əleyhissəlam ölüləri diriildir. Məhəmməd əleyhissəlam barmağının bir işarəsi ilə Ayı iki yerə bölürdü... Möcüzəsiz, boz, "prozaik" bir dünyada yaşayırıq. İndi möcüzələr ancaq insanın arzuları, xəyallarındadır. İndi onlar həyatdan sənətə, varlıqdan bədii mətnə keçib. Bəlkə də əksinədir, bədii mətnə keçdiyi üçün ölüb möcüzələr. Çünki nəyinsə mətnə keçməsi onun həm də söz tabutuna qoyulması, ən yaxşı halda sözlə mumiyalanması deməkdir.

Elçinin əksər əsərlərində adi, boz, usandırıcı, yeknəsəq reallığın fövqünə qalxan bir möcüzə duyumu, bu duyumu əks etdirmək üçün reallıqla daban-dabana, paradoksal şəkildə zidd olan şərti-metaforik ifadə üsulları var. Bu möcüzə reallığın içindən sudan baş qaldıran delfin kimi görünüb sonra da yox olur, yerində sakitcə dalğalanan adilik qalır. Bu qəfil görüntü reallıqda böyük bir problemə çevrilmiş müəyyən məsələnin, ən azı, psixoloji, bəzən isə real həllini verir və bizə başımızı utancaqlıqla bulayıb fikirləşmək qalır: gör bir nəyin üstündə baş sındırırmışıq, hər şey isə, əslində, nə qədər sadə imiş.

* * *

Hər şeyin əsli sadədir, mürəkkəblik surətdə olur...

* * *

Qəfil möcüzənin sərt reallığın sərhədlərinə daxil olması, onun üzvi tərkib hissəsinə çevrilməsi faktına Qoqol və Dostoyevskinin bir çox əsərlərindən tutmuş Balqakovun "Usta və Marqarita" romanı,

dünyanın ünlü yazıçılarından Frans Kafkanın "Çevrilmə", Coysun "Uliss", Folknerin "Hay-küy və qəzəb" əsərlərində də təsadüf etmək mümkündür. Möcüzə ilə reallığın bu cür üzvi sintezi klassik realizmin, Flober romanının sərt həyatauyğunluq tələblərini dağıdır, bədii mətnin həyatı əks etdirmək imkanlarını hədsiz dərəcədə genişləndirirdi. Dünya nəsrində özünə dərin kök salmış bu ənənələrin Azərbaycan nəsrinə gəlməsində ilk addımları atanlardan biri də, şübhəsiz ki, Elçindir. Və məncə, 60-cı illərdə ədəbiyyata gəlmiş Anar, Yusif Səmədoğlu, eləcə də Elçinin milli "floberlərlə" qarşıdurmasında başlıca səbəblərdən biri də 60-cıların realizm anlayışına fərqli baxışları, özlərindən əvvəlkilərdən fərqli bədii-estetik platformalarda durması olmuşdur.

* * *

"Qırmızı ayı balası" hekayəsinin qəhrəmanı gəmi təmiri zavodunda mühəndis işləyən Səlimov bir neçə aydan bəri küsüb atası evinə getmiş arvadı Şəfiqə, xüsusən də dörd yaşlı qızı Leyladan ötrü nə qədər darıxsa da, barışıq üçün ilk addımı atmağı kişilik qüruruna sığışdırmır, evindən, işindən əl çəkib başqa bir şəhərə yola düşmək üçün qatara minir və bu vaxt möcüzə baş verir; qızın oyuncağı – qırmızı rəngli ayı balası birdən-birə hamının gözü qabağındaca qatarın perronunda peyda olur, atanın əllərini duz kimi yalayaraq, min bir oyundan çıxaraq yersiz qürurdan doğan bu gedişin mümkünsüzlüyünü ona başa salır. Səlimov hələ tam dərk etməsə də, hiss edir ki, əsl kişilik, hər işdə olduğu kimi, barışıqda da ilk addımı atmaq məsuliyyətini öz üzərinə götürməkdən ibarətdir. Beləliklə, ən böyük möcüzə oyuncağın canlanması, hərəkət etməsi yox, insanın özünün daxilindəki istəyin alt qatdan baş qaldırıb hər cür oyuncaq əqli konstruksiyalara üstün gəlməsi, onları alt-üst edib, qəlbin, ürəyin diqtəsini həyata keçirməsindədir. Ən böyük möcüzə insanın daxilində, qəlbin ən dərin laylarından baş qaldıran səmimiyyətin hər cür qondarma stereotiplərə qalib gəlməsindədir. Başqaları tərəfindən yaradılmış bu stereotiplərə əsir olan, öz daxilindən gələn vicdan və səmimiyyətin səsini boğan adam isə oyuncaqdan daha cansızdır.

* * *



İnsan öz davranış və münasibətlərində nəyi əsas götürməlidir: əsrlərdən bəri trafaretləşmiş, şablonlaşmış və mənəvi rahatlıq yolunda psixoloji komplekslə buxova çevrilmiş konstruksiyaları, yoxsa öz qəlbinin həqiqətini? O, başqalarınınmı diqtəsinə qulaq asanda daha ağıllıdır, yoxsa öz içindən gələn səsə? Bu, mif dövründən üzü bəri davam edən və hər tarixi şəraitdə, fəlsəfi dillə desək, inkişaf spiralının daha yüksək qatında yenidən təkrarlanan karmik bir problem, qədim hind müdriklərinin dili ilə desək, sansaradır. Hər dəfə çoxluğun, sosial mifin içindən bir qəhrəman çıxır, bəzən özünü dəhşətli, güclü miflə döyüşdə qurban vermək bahasına olsa da, mifin özündən də qədimdə yerləşən "yeniliyi" təsdiq edir. Amma problem həll olmur, sadəcə, yeni sosial mif hökm sürməyə başlayır. Ta ki neçə əsr uzaqda alnına qəhrəman olmaq əzabı və şöhrəti yazılmış yeni bir şəxs meydana çıxıb artıq köhnəlmiş yeni mifi dağıdana qədər. Amma nə mif qurtarır, nə qəhrəmanlar və belə çıxır ki, bu, qiyamətə qədər öz həllini tapmayacaq əbədi problemdir.

* * *

Gənclik romantikası öz yerini ahıl yaşların praqmatizminə verdikcə Elçinin möcüzə anlayışına münasibətində müəyyən dəqiqləşmələr nəzərə çarpır. O, bu möcüzələri nə qədər arzu etsə də, artıq onların reallaşacağına əvvəlki qətiyyətlə inanmır, getdikcə daha çox bu qərara gəlir ki, bütün möcüzələri yaradan, kənar bir qüvvə yox, insan özüdür. Nəsimi demişkən, həqq-təala adəm oğlu özüdür. Əslində isə bu redaktə zahiridir. Əslində onun əvvəlki əsərlərində də möcüzənin mənbəyi məhz insanın daxili dünyasıdır.

* * *

"Mahmud və Məryəm"in içində ayrıca bir roman var – Azər və Aysulunun romanı. Qərb insanının çoxəsrlik yuxudan oyanıb öz gücünə inandığı, Renessans – oyanma dövrünə qədəm qoyduğu bir vaxtda Şərq hələ də möcüzəni Allahdan istəyir. Aramsız müharibələr, aclıq, səfalət, dilənçilikdən cana doymuş xalq son ümid yeri kimi öz xilaskarının – on ikinci imam Mehdi Sahibəzzəmanın yolunu gözləyir.

Və xilaskarın təcəssümünü on bir oğlanları olan Azər və Aysulunun tezliklə dünyaya göz açacaq on ikinci oğlan uşağında görürlər. Lakin uşaq qız doğulur və qəzəblənmiş, son ümidini itirmiş kütlə əvvəlcə körpəni tikə-tikə edir, sonra isə yerdə qalan on bir uşağı vəhşicəsinə qətlə yetirir. Dəhşətli doğuş ağrılarından indicə azad olmuş Aysulu ayaqlarından qan axa-axa çölə çıxır, nə baş verdiyini dərk edəndə müsibətin dözülməzliyindənmi, xalqın ümidlərini doğrultmadığındanmı, bilinmir, dəryazla bətnini yararaq intiharın ən görülüb-eşidilməmiş formasını seçir. Azər dəli olub çöllərə düşür, əyninə qıpqırmızı bir tuman geyinərək hər cür dərdin, ağrının acığına Qırmızı Tuman kişiyə çevrilir.

Möcüzəni Allahdan gözləmək dövrü qurtardı, kənardan gələn xilaskara olan ümidlərimiz boş çıxdı. Roman içindəki bu faciəvi romanın doğurduğu başlıca fikir, məncə, budur. Hadisələrin cərəyan etdiyi XVI əsrdən artıq beş əsr keçib – amma hələ də, bu günün özündə də hər cür ümummilli problemlərimizin həlli üçün Xilaskar, Ağ atlı oğlan gözləyirik. İntibah dövründən artıq beş əsr adlayıb, amma hələ də ümummilli intibahımız baş verməyib.

* * *

Möcüzələrsə davam edir: təkcə "Qırmızı ayı balası", "Qatar. Pikasso. Latur. 1968", "Talvar" hekayələrində, "Mahmud və Məryəm", "Ağ dəvə" romanlarında yox, həm də həyatın özündə. Sadəcə möcüzəni yaratmağı bacarmaq lazımdır... Bu nədir? Bertold Brextin dili ilə desək, yazıçının reallığı əks etdirmək üçün hər cür üsul və vasitədən istifadə etmək hüququ, sadəcə bir bədii priyom, yoxsa müəllifin özünün də inandığı həqiqətmi? Məncə, hər ikisi. Çünki sənətin həqiqəti ilə həyatın həqiqəti arasındakı fərq ancaq və ancaq üst, zahiri qatdadır, alta enən kimi bu fərqlər, ziddiyyətlər arasından qalxır, həyatın reallığı və sənətin şərtiliyi anlayışları da gedir öz işinin dalınca...

* * *

Hər şeyin ilk baxışdan göründüyü kimi olmadığını insana başa salmaq, onu surətpərəstlikdən xilas etmək, varlığın, həyatın mənasının daha dərin qatlarına aparmaq bədii fikrin başlıca funksiyalarından biridir. Bu dərinlik elə dibsiz, elə sonsuzdur ki, bəzən öz nəhayətsizliyi ilə insanın gözlərini qaraldır. Elçinin sonuncu əsərlərindən olan "Qırmızı qərənfil gülləri "Pera Palas" otelində qaldı" hekayəsində dediyi "Mən həmişə dərinləri eşələməkdən qaçmışam" fikrinin arxasında nələr durduğunu mən təxminən hiss edirəm. Sonsuzluq həmişə ədəbi azmaq təhlükəsi doğurur və bu təhlükədən xilas olmaq üçün gərək vaxtında dayanmağı da bacarasan, insan ağlının onsuz da gedib çıxa bilməyəcəyi "son həddə" çatmaq iddiasından əl çəkəsən. Axı belə hədd onsuz da yoxdur. Bədii mətnin bu sonsuzluğu əks etdirmək xüsusiyyətini ilk dəfə dumanlı şəkildə digər bir yazıçımız Sabir Əhmədlinin "Yamacda nişanə" povestini təhlil etməyə çalışanda sezmişəm: nə qədər cəhd etsəm də, povestin, loru dillə desək, başını-ayağını bir yerə yığa bilmədim. Hansı tərəfdən yanaşırdımsa, digər tərəfdən nəsə peyda olur, əsər bir balıq kimi sürüşüb əlimdən çıxırdı. Bunu ikinci dəfə Elçinin "Qırmızı qərənfil gülləri "Pera Palas" otelində qaldı" hekayəsini təhlil etməyə çalışanda, amma daha dərindən, bütün çılpaqlığı ilə hiss etdim. Hekayədə təsvir olunan hadisələrin arxasında duran məna layları ilə dərinə getdikcə hər dəfə yeni üfüq açılır və elə görünürdü ki, son həddir, amma hər dəfə də yanıldığımı başa düşürdüm, bu hədd görünmürdü ki, görünmürdü. Çünki belə hədd varlığın özündə yoxdur və bədii mətn varlığı nə dərəcədə yaxşı əks etdirirsə, bu yoxluğu oxucuya bir o qədər kəskin hiss etdirir. Yeganə çıxış yolu "Sözün həqiqi mənasında bədii əsər axıra qədər təhlilə gəlmir" qənaəti ilə razılaşmaq, mətni qəti analitik konstruksiyaya salmaq fikrindən vaz keçməkdən ibarətdir. Bəlkə ünlü fransız poststrukturalisti Rolan Bart tənqidçinin işini bədii mətni oxuyub sadəcə zövq almaqdan ibarət hesab etməkdə haqlıdır?

* * *

Əsgəri xidmətimi Polşada keçirmişəm. Rota komandirinin yazılarını yazır, dəftərxanada işləyirdim, boş vaxtım çox olurdu. Karauldan, işdən yorğun-arğın gəlmiş əsgərlər yataqdan durmamış – səhər saat 6-dan 8-ə qədər təkbaşına qaçardım. Hündür şam ağaclarının arası ilə burula-burula gedən asfalt yolla, səkkiz, on, bəzən hətta iyirmi kilometri birnəfəsə... Onda hələ bu yalquzaq duyğusu, bu at ehtirasının məndə hardan olduğunu saf-çürük etmək imkanım yox

idi: sadəcə, qaçmaq, qaçmaq istəyirdim, bircə an belə dayanmadan, sonsuzacan, damarlarımda getdikcə coşan qan, nəhayət, bağrımı çatladana qədər! Bilirdim ki, təkbaşına hərbi hissədən bu qədər uzaqlaşmaq təhlükəlidir: Qorbaçovun yenidənqurma dövrü idi, möhtəşəm Sovet İttifaqının sosialist ölkələri üzərindəki təsiri zəifləmişdi. SSRİ ilə zorla Varşava Müqaviləsi bağlamağa məcbur edilmiş məğrur polyaklar sovet əsgərlərinə açıq-aşkar nifrət edirdilər. Gah bu, gah digər qonşu hərbi hissədən hansısa bir əsgərin şam ağaclarından asılmış meyiti tapılırdı.

Geri dönmək lazım idi! Hər dəfə yolun üfüqdə görünən növbəti döngəsinə qədər qaçmağı qərara alır, amma hər dəfə ora çatanda qarşımda yeni horizont açılır və növbəti döngəyə qədər qaçmağı qərarlaşdırırdım. Sanki irəliyə doğru atdığım hər addım məni ölümə bir az da yaxınlaşdırırdı və birdən elə bil ki, hansısa daxili qüvvə deyirdi: daha bəsdir, burdan o yana olmaz! Özümü zorla da olsa, geri dönməyə məcbur edirdim.

Bədii mətnin sonsuzluğu kənarında şam ağacları bitən bu yolları yada salır: nə qədər getsən də, tükənmir. Elə bu yollar kimi də təhlükəli, cəlbedici, çəkicidir: sonunda insanı dibsiz, nəhayətsiz bir yoxluq da gözləyə bilər. Şam ağaclarından asılmayasan deyə bəlkə də özünü vaxtında geri dönməyə məcbur etmək yaxşıdır...

* * *

İdrakın, eləcə də bədii idrakın əvvəli və sonu varmı? Məncə, bunlar insanın heç vaxt cavab tapa bilmədiyi və yəqin ki, tapa bilməyəcəyi ədəbi suallardı. Yəqin ki, suallar sualı olan Allah anlayışına olan ədəbi ehtiyac həm də idrakımızın acizliyindən doğur...

* * *

Milli psixoloji komplekslərdən çıxmaq, ümumdünya mədəniyyəti və ədəbiyyatının ən qabaqcıl, mütərəqqi ənənələrinə yiyələnmək, bədii idrakımızın və ümumən idrakımızın horizontunu genişləndirmək – bir sözlə M.F.Axundov və Ü.Hacıbəyovdan tutmuş bu günə qədər ən demokratik düşüncəli ziyalılarımızı narahat edən "qamışlıqdan çıxmaq" problemi Elçinin istər publisist və elmi-tənqidi, istərsə də bədii



yaradıcılığından qızıl xətlə keçir. Elçini öz müasirlərinin əksəriyyətindən fərqləndirən başlıca cəhətlərdən biri – həyat və zamanla ayaqlaşa bilmək, hətta yarım əsrdən bəri bir yazıçı kimi onun önündə getmək, məncə, bu çevik düşüncəli yazıçının daim yeniliklərə can atmaq kimi qabarıq nəzərə çarpan bir xüsusiyyətindən doğur. Bununla belə, Elçin dünya, xüsusən də Qərb ədəbiyyatı, mədəniyyəti və həyat tərzinə kortəbii pərəstiş ideyasından da uzaqdır. Bunu onun istər 80-cı (məsələn, "Parisdə avtomobil qəzası" hekayəsi), istərsə də 90-cı illərdə qələmə aldığı ("Ah, Paris! Paris!..." komediyası) əsərlərdə görmək mümkündür.

* * *

"Parisdə avtomobil qəzası" hekayəsinin qəhrəmanı, coğrafiya müəllimi Kərim dünyanı xəritədən əzbər bilsə də, ailəsi ilə birlikdə on yeddi il əvvəl bir ay Nalçik, doqquz il əvvəl isə on yeddi gün Şuşa sanatoriyasına getməsini çıxması şərtilə Bakıdan özgə heç yeri görməyib. Buna baxmayaraq, o da bacısı Nuridə kimi özünü "bütün dünyaya bələd hesab edir". Gözlənilməz bir hadisə istər Kərim müəllim, istərsə də onun ailə üzvləri və qohumlarının dünyaya bələdlik illüziyasını heçə çıxarır. Kərimin kürəkəni, böyük qızı Şərqiyyənin əri Salmanı altı aylığa Parisə elmi təcrübə keçməyə göndərirlər və o, Parisdə avtomobil qəzasına düşür. Qəza törətmiş avtomobilin mənsub olduğu şirkət bütün xərci öz boynuna götürməklə, Salmanın qohumlarından birini Parisə dəvət edir. Əsl mərəkə də bundan sonra başlayır: Kərim müəllim, bacısı Nuridə, qızları Şərqiyyə və Züleyxa, oğlu Hamlet, bacısının əri Abdulla, oğlunun sevgilisi Fəridə, hər biri Parisə getmək arzusuna düşürlər. Hətta Salmanın beşikdəki altı aylıq oğlu belə adəti üzrə ağlamağını kəsib diqqətlə ətrafda baş verən hadisələri dinləməyə başlayır.

Şahbaz bəy Parisə gedə bilmədiyi kimi, Kərimin ailə üzvlərinin də arzusu gözündə qalır: Parisdən gələn ikinci teleqramdan məlum olur ki, Salman sağalıb və artıq heç kəsin Parisə gəlməsinə ehtiyac yoxdur. Lakin Şahbaz bəydən fərqli olaraq, Kərim müəllimgilin Parisə getməsinə Parisdə olan inqilab mane olmur. Əksinə, bunun gizli səbəbi Kərim müəllimgilin Parisə getmək – sözün geniş mənasında dünyaya çıxmaq üçün lazımi mənəvi, intellektual, psixoloji, əxlaqi göstəricilərinin olmamasıdır. Hətta Kərim müəllim və ya onun ailə

üzvlərindən hər hansı biri bu səviyyə ilə Parisə getsəydi belə, bu sadəcə, xəritədə Parisi görməkdən uzağa getmək demək olmayacaqdı. Çünki Dərviş Məstəli Şah, Şəhrəbanı, Şərəfnisə, Xanpərinin ancaq geyimi dəyişib, düşüncəsi, psixologiyası arasında isə sözün ciddi mənasında fərq yoxdur. Baxmayaraq ki, on doqquzuncu əsrin insanından fərqli olaraq iyirminci əsrin adamı Parisə can atır, məsələnin alt qatında onları bir məqam birləşdirir: istər Şəhrəbanı, istərsə də, tutaq ki, Nuridə Parisin nə demək olduğunu bilmirlər: birincilər üçün Paris üzüaçıq qadınların əxlaqsızlıq yuvası olduğu kimi, ikincilər üçün də təzə əyin-baş alıb özünü qonum-qonşuya göstərmək vasitəsindən başqa bir şey deyil.

Yazıçı, diqqəti həm də belə bir vacib məsələyə yönəldir: Şahbazın Parisə getməkdən məqsədi elm öyrənmək, dünya mədəniyyəti ilə tanış olmaq idisə, Kərim müəllimin ailə üzvlərini düşündürən meşşan arzularını reallaşdırmaqdır. Bəlkə doğrudan da ötən əsrlə müqayisədə irəliləyiş yox, geriləmə baş verib? Nəticə isə birdir: hələ də Parisə çıxa bilməmişik...

Beləliklə, Parisdə baş vermiş kiçik bir yol hadisəsi Bakının bir ailəsində qat-qat ağır mənəvi-əxlaqi qəza vəziyyətindən xəbər verir: lovğalıq, görməmişlik, meşşan psixologiyası, riyakarlıq, mənəvi boşluq, qərb həyat tərzi qarşısında kor-koranə pərəstiş və s. neqativ milli psixoloji cəhətlər birdən-birə qapağı qaldırılmış kanalizasiyadan qalxan üfunət kimi üzə çıxır. Dünyanı xəritədən tanıyan Kərimin ailəsi ümumən milli psixologiyanın neqativ cəhətlərinin ümumiləşdirilmiş obrazına çevrilir.

* * *

Elçinin son illər müxtəlif mətbuat orqanlarında, eləcə də "Azərbaycan" jurnalında işıq üzü görən, ayrıca kitab şəklində dərc olunan "Ədəbi düşüncələr"i – yazıçının kitaba yazdığı ön sözdə dediyi kimi, "kiçik esseciklər" toplusunda "Mənim hekayə antologiyam" adlı bir "essecik" də var və müəllif Yazıçılar Birliyində partiya iclası gedə-gedə xəyalında tərtib etdiyi "Azərbaycan hekayə antologiyası"na daxil edəcəyi əsərlərin siyahısını verir: Füzulinin "Şikayətnamə"sindən tutmuş özünün "Parisdə avtomobil qəzası" hekayəsinə qədər on beş hekayə... Mənim də fikrimcə, "Parisdə avtomobil qəzası" təkcə yazıçının yaradıcılığında yox, ümumən nəsrimizdə bu janrın ciddi



nümunələrindən biridir. Qatı realizm, incə psixologizm, real, həyati, inandırıcı insan xarakterləri, yüksək ümumiləşdirmə keyfiyyəti, qəfil dönüşlərlə səciyyələnən gərgin süjet, novellavari gözlənilməz final adi bir coğrafiya müəlliminin ailəsində baş verən qəziyyədən bəhs edən bu əsəri on beş yox, beş seçilmiş hekayənin də sırasına daxil etməyə əsas verir.

* * *

Görəsən, əsas şərt bizim Parisə çıxmağımızdırmı? Bəs Paris bizi necə qarşılayacaq? Bu suala təbii ki, indi – SSRİ-nin süqutundan, sovet rejiminin dəmir barmaqlıqları aradan qaldırıldıqdan sonra daha dəqiq cavab vermək olardı. (Şübhəsiz ki, Elçin, başlıca funksiyası dünya azərbaycanlılarının mənəvi-mədəni birliyinə nail olmaqdan ibarət olan "Vətən" Cəmiyyətinin sədri kimi çoxillik fəaliyyəti ərzində bir fərd olaraq bu sualın cavabını ən azı özü üçün dəqiqləşdirmişdi. Söhbət burda ümummilli səviyyədə dünyaya çıxış və onun nəticələrindən, problemin ümummilli səviyyədə dərkindən gedir). Bu baxımdan son illərdə yazdığı hekayələrdən olan "Sarı gəlin" yazıçının "qamışlıqdan çıxmaq" problemi ilə bağlı gəldiyi qənaətlərin son bədii-estetik ifadəsi də hesab oluna bilər.

XVI yüzildən qalmış antikvar bir tütək əsrdən-əsrə, nəsildən-nəslə keçərək, nəhayət, sovet hökumətinin süqutundan sonra kasıblaşmış bir kişinin əlinə düşür. Nəvəsinin ad gününə hədiyyə almaq üçün başqa çıxış yolu tapa bilməyən baba tütəyi ucuz qiymətə bir başqasına satır. Tütəyin satılması prosesi hər dəfə qiymətin qalxması şərtilə bir neçə instansiyadan keçir, nəhayət, o, çox baha qiymətə antikvariat kolleksioneri olan varlı bir amerikalıya satılır. Qiymətli bir əşya kimi evin ən mötəbər yerinə qoyulmuş tütək evdə qulluqçu zənci qadından başqa heç kəs olmayanda birdən-birə havaya qalxıb «Sarı gəlin» havasını çalmağa başlayır. Qulluqçu əhvalatı öz sahibinə danışır və amerikalı onun dəli olmağa başladığını zənn edərək işdən çıxarır.

Bizim neçə əsrdən bəri miras qalan qəm tütəyimizin səsi dünyaya yabancıdır, onun üçün anlaşılmazdır. «Əsli və Kərəm» vaxtından qalmış erməni-müsəlman, hazırkı dövrdəki Qarabağ problemi kimi. Amerika, bu superdövlətin timsalında qabaqcıl dünya səsimizi eşitmək iqtidarında olmadığı kimi, anlamaqdan da uzaqdır. Təkcə ona görə

yox ki, dünya bizim dilimizi bilmir, həm də ona görə ki, biz dünya ilə dil tapa bilmirik, öz dərdimizi ona anlaya biləcəyi dillə yox, anlaşılmaz bir dillə, yeni dövrün dili ilə yox, XVI əsrdən qalmış qəm tütəyinin dili ilə çatdırmaq istəyirik.

* * *

Elçini öz yaşıdları olan yazıçı və şairlərdən fərqləndirən bir cəhət var: yeniliklərə daim açıq çevik düşüncə, milli və dünya ədəbi-bədii prosesini ardıcıl izləməkdən doğan çağdaş təfəkkür, zamanın ən kiçik təbəddülatlarını belə duymaq və bədii müstəviyə keçirmək, nəhayət, bütün bunların nəticəsi kimi gənc ədəbi qüvvələrə qarşı daha tolerant, daha doğma münasibət.

Elçinin gəncliyə qarşı xüsusi diqqəti, məncə, onun daim dəyişməkdə olan zamanla birlikdə yeniləşən ədəbi-estetik zövqlə ayaqlaşmasında, ədəbi prosesin gedişini bir yazıçı kimi öz canında, ruhunda duymasındadır. Onun gənc şair, yazıçı, tənqidçilər haqqında mətbuatdakı yazıları yəqin ki, yeniliyi yerində görmək və qiymətləndirmək kimi cəhətindən irəli gəlir. Qeyri-təvazökarlıq kimi səslənsə də, deməliyəm ki, mətbuatda özüm haqqında da ilk və son ciddi sözü də məhz ondan eşitmişəm.

Yaşıdlarım hərdən deyirlər: niyə Elçindən çox yazırsan? Axı sən bizim yaşıdımızsan, onların öz tənqidçiləri var. Hətta onu gənc tənqidçiləri öz yaşıdlarının əlindən almaqda qınayanlar da var.

Mənim Elçinin yaradıcılığı ilə tanışlığımın daha ciddi – üçüncü mərhələsi bir tənqidçi kimi onun əsərləri üzərində təhlillər aparmağa çalışdığım vaxtdan başlayır. Mən niyə Elçindən yazıram? Elçin ziyalıdır və ona istənilən münasibətin əsl ziyalı tolerantlığı ilə də qarşılanacağına inanıram. Elçin intellektualdır və onunla fikir dartışmasına girmək maraqlıdır. Onun son illər yazdığı hekayələr üzərində düşünə-düşünə sənətin əvvəllər ağlıma gəlməyən dərinliklərinə endiyimi hiss etmişəm. Bu elə dərinlikdir ki, onu yazıya köçürmək mümkünsüzdür. Bunu hər kəs ancaq öz daxilində duya bilər. Bəlkə də yaş dövrümlə bağlı bir şeydir, bəlkə də bu vaxt başqa əsərlər üzərində də düşünsəydim, eyni hal baş verəcəkdi. Ancaq fakt budur ki, mən bu açılışı onun son hekayələri ilə bağlı duydum.



Mən onun hekayələri haqqında yazdığım yazılara «gənc tənqidçinin» məşhur yazıçı, mənsəb sahibi haqqında məqalələri kimi baxmıram. Bu hekayələri bəhanə edib onunla zaman, insan, sənət və Allah barədə fikir mübadələsi aparır, bəzi məsələlərdə razılaşır, bəzilərində isə ixtilafa girirəm. Həm də burda onu və məni formalaşdıran zamanlar üz-üzə gəlir. Məni onun yazılarında cəlb edən bu qarşılaşmanın dramaturgiyasıdır. Onun haqqında yaza-yaza həm də özümü formalaşdırır, özümü yaradıram. Bu qarşılaşma dramaturgiyasının elə gizli sətiraltı tərəfləri var ki, bir mənə, bir də yəqin ki, ona məlumdur və bu barədə ölməyib sağ qalsam, yetmiş yaşımdan sonra yazacağam.

Elçin müasirlərimiz içində az saylı yazıçılardandır, bəlkə də yeganə yazıçıdır ki, onun son hekayələrində çağdaşımızı düşündürən suallara cavab cəhdi görür, adi bir insanın taleyi timsalında özümüzü və zamanın taleyini oxuya bilirəm. Və bir sirr açım: olub ki, bəzən onun bədii proqnozları lap az keçmiş həyatımda reallaşıb da. Hadisələrin məkanına, xarakterinə, hətta nəqliyyatın növünə kimi. Fikirləşməli olmuşam: bəlkə Tolstoyun qəhrəmanı kimi möcüzələr ölkəsinə düşmüşəm? Bu barədə də təfsilata varmağa hələ ki daxili senzor icazə vermir.

Elçinin gənc tənqidçiləri öz yaşıdlarının əlindən almasına dair cavanların fikrinə etirazım yoxdur. Ancaq o, buna bircə yolla nail olub: sənətindəki reallığın qaçılmaz gücü ilə...

Bir də, görünür ki, cismani yaşıdlıqdan, çağdaşlıqdan başqa mənəvi yaşıdlıq, çağdaşlıq da var...

* * *

Elçinin son iki ildə işıq üzü görən hekayələri təkcə onun öz yaradıcılığında deyil, ümumən müasir nəsrimizdəki yenilikləri izləmək baxımından maraq doğurur. Bizcə, bu hekayələrin ədəbi tənqidimiz üçün tamam yeni metodlarla tədqiqi nəsr düşüncəmizin çağdaş durumu və inkişaf meylinin üzə çıxarılmasında əhəmiyyətli rol oynaya bilər. Çünki bu əsərlərin müəllifi sıravi yazıçı yox, mənsub olduğu ədəbi nəsil və xalqın bədii təfəkkür enerjisinin təmsilçisidir.

* * *

«Göy üzünün ulduzlu vaxtları» hekayəsi sosioloji (varlı-kasıb) məsələyə həsr olunub. Hələ sovet dövründən boş butulkaları təhvil verməklə başını girləyən avam, kasıb kişi növbəti axtarışı zamanı zibillikdən qızıl tapır, çox düşünüb-daşındıqdan sonra qızılı gətirib uşaqlıq dostu, indi isə bütün Bakıda «qızıl» Müseyib kimi tanınan diş həkiminə satır, əvəzində səkkiz «şirvan» və bir boş butulka alır. Naxırçı qızının könlü naxırəppəyi istəyir, zər qədrini isə zərgər bilir. Qızıl Müseyibə qızıl, butulkayığana isə butulka qismət olur. Boş butulka onun alın yazısıydı və bu yazıdan qaçmaq olmur, hətta zibillikdən qızıl tapmaq kimi möcüzə baş versə belə. Çünki insan taledən qaçmaq üçün ən azı cəhd göstərməli, ulduzlardan nicat gözləməməlidir. Yazıçının əhvalata ikinci planda verdiyi yozum budur. Birinci plandakı yozumu geniş açıqlamağa isə ciddi ehtiyac yoxdur: kasıb yenə həmin kasıb, varlı da həmin varlıdır. Keçid dövrü isə sadəcə sözdür. Dünya köhnə dünya, nağıl da köhnə nağıldır.

İncildən bizə yaxşı məlum olan sərt dini formul (qeysərinki qeysərə, Allahınkı Allaha, hekayədə isə butulkayığana butulka, zərgərə zər) burda parodik forma alır. Yazıçı varlı ilə kasıbı zorla eyni iqtisadi müstəviyə müncər edən, bununla da sosial nizamı pozan sovet rejiminin süni bərabərçilik ideyasına gülür, varlının varlı, kasıbın kasıb olmasının təbii qanunauyğunluğunu göstərir.

Lakin yazıçının köhnə nağıla münasibəti birmənalı deyil: o, qədim formulu canlandırır və ona ironik münasibətini ifadə edir. Çünki bu qədər ciddi formulun komik situasiyaya tətbiqinin özü artıq ona ironik münasibətin ifadəsidir və köhnəliklə yeniliyin komik məxrəcdə sintezi onun məğzində postmodern düşüncənin durduğunu söyləməyə əsas verir. Yeri gəlmişkən, Elçinin son hekayələrində təkcə bu, ən ümumi strukturuna görə deyil, həm də bir çox cəhətlərinə (ənənəvi təhkiyədən imtina, süjetin qeyri-xəttiliyi, mətn içində mətn yaratmaq, klassik ədəbiyyat formullarına, xüsusən də məhəbbətin romantik paradiqmasına dekonstruktiv münasibət, xronoloji montaj) görə postmodern elementlərin mövcudluğundan danışmağa imkan verir.

Elçinin son illər dərc etdirdiyi hekayələr göstərir ki, 80-cı illərdə nəsrimizdə meydana çıxmağa başlayan postmodern düşüncə yeni mərhələyə qədəm qoyur, getdikcə daha çox şüurlu bədii-estetik dərk müstəvisinə keçir. Əgər belə demək olarsa, kortəbii «şərq» postmodernizmi ilə əvəz olunur. Bu hekayələrdə klassik realizmə xas



cəhətlər (süjet, təhkiyə, xarakter) bəzən qorunub saxlanılsa da, postmodern nəsrə xas cəhətlərlə sintez olunur. Hekayələrdən «Göy üzünün ulduzlu vaxtları»nda köhnə, «Qırmızı qərənfil gülləri «Pera Palas» otelində qaldı» hekayəsində isə yeni nəsr elementləri aparıcıdır. «Pera Palas»ın üsyankar, dekonstruktiv qəhrəmanından fərqli olaraq, «Göy üzünün ulduzlu vaxtları»nın passiv, aciz qəhrəmanı öz karmasına qarşı hətta nəzəri olaraq belə etiraz etmək iqtidarında deyil.

* * *

Binar (ikili) model üzərində qurulan hekayənin dəmir strukturu var və bu struktur əslində, taleyin, karmanın bədii-estetik ifadəsidir. Bu ikiliyi bütün planlarda görmək mümkündür: məkan planında göylə zibillik, subyekt planında kasıb butulkayığanla varlı zərgər, predmet planında boş butulka ilə qızıl və s. Bunlar «Məlikməmməd» nağılındakı biri digəri ilə yola getməyən ağ və qara qoçu xatırladır. Ancaq nağıldan fərqli olaraq, hekayənin qəhrəmanı nə bunların birinin belindən digərinin belinə atılıb qaranlıq dünyaya gedir, nə də ordan Simurqun belinə minib işıqlı dünyaya çıxa bilir. Onun daimi məkanı işıqlı dünyanın qaranlıq zibilliyidir. Çünki ən sadə dillə desək, o ölüb-dirilmə prosesini yaşamır. Yola saldığımız 90-cı illərin başlıca mənasını isə məhz bu ölüb-dirilmə prosesi təşkil edir. Allahın bu illərdə insana verdiyi cəza da bu dirilmə naminədir. Həm də burda əsas məsələ maddi varlanmada yox, mənəvi zənginləşmədə, ruhən yenidən doğulmaqdadır. Hekayənin qəhrəmanı ilə bu ikinci doğuluş arasında yerlə zibillik qədər fərq var. Buna görə o, ömrü boyu öz kasıblığında, öz zibilliyində, boş butulkaları və həm də boş mənəviyyatı ilə qalır. Yazıçı başı üstə çevrilmiş, travestik şəkil almış, zibilliyə düşmüş qızılı xatırladan köhnə nağıla, köhnə struktura gülür, eyni zamanda bu baş-ayaq strukturun əbədiyyətini təsdiq edir. Halbuki köhnə strukturların destruksiyası yaşadığımız dövrün başlıca mənasını təşkil edir. Köhnə struktura qalib gəlmək üçün Məlikməmmədin keçdiyi strukturu qət etməyimizə ehtiyac var. 90-cı illər adlı bir zamanda Allahın (şah atanın) bizdən əsas tələbi budur.

İlk baxışdan elə görünür ki, Elçinin hekayəsində qanunauyğun nizamı pozan təsadüfdür: butulkayığan sanki təsadüfən zibillikdən qızıl tapır. Əslində isə zibillikdən tapılan qızıl zibillənmiş reallığa metafiziki-transsendental qatdan düşən işıqdır. Bəzək-düzəksiz, sadə el

dilində desək, qızılı butulkayığanın qabağına çıxaran çıxarmışdı. Bu, gözəgörünməz qüvvənin butulkayığanın həyatına müdaxiləsi idi və hadisələrin sonrakı gedişi yenə də insanın öz öhdəsinə buraxılmışdı. Nəticə etibarilə hekayədə nizamı pozan Allah, onu yoluna qoyan insanlar olur, rollar dəyişir. Lakin nəzərə alsaq ki, kimin kasıb, kimin varlı olmasında Allahın özünün əvvəldən planı var, onda ilkin nizamın bərpasında insanla bərabər onun da gizli iştirakı üzə çıxır. Beləliklə, Allahla insan arasındakı zahiri qarşıdurma aradan qalxır, dərin qatda, metafiziki planda onlar birləşirlər. Çünki məğzində vəhdət duran metafiziki planda ancaq birlik mümkündür, orda ayrılıqdan söz belə gedə bilməz. Yazıçı bu vəhdətin özünü yox, görüntüsünü verir. Bunun səbəbi Elçinin «Ədəbi düşüncələr»ində dumanlı, «Pera Palas» hekayəsində isə açıq ifadəsini tapıb: «...mən həmişə...dərini eşələməkdən qaçmışam».

«İncil»dən tutmuş «Göy üzünün ulduzlu vaxtları»na qədər «Qeysərinki qeysərə, Allahınkı Allaha» formulu böyük bir dəyişikliyə məruz qalır. Dini düşüncə bu strukturu öz təbiətinə uyğun olaraq ehkam səviyyəsində qəbul edir və icrasını zəruri hesab edir. Hekayədə işə bu nizama istehza duyulur. 60-cıların köhnə struktura münasibəti ironiya ilə hüdudlanır.

90-cılar nəslinin əvvəlki ədəbi nəsillərdən başlıca fərqi ondan ibarətdir ki, onlar məhz nağıla inanmırlar. Çünki onlar dünyanın ən böyük nağılının – kommunizm ideallarının alt-üst olduğu bir dövrdə formalaşıblar. «Gözlədim göylərdən alma düşmədi, daha nağıllara inanmıram mən» (N.Kəsəmənli). Ədəbiyyata 70-ci illərdə gələn N.Kəsəmənlidən fərqli olaraq, 90-cılar bu almanı heç gözləmirlər də. Onların yaradıcılığında meydana çıxan dekonstruktivizm meyllərinin kökü də yəqin ki, budur. Məncə, müxtəlif nəsillər arasındakı qarşıdurmanın əsasında strukturlara münasibətdə fərqli düşüncə məxrəclərində olmaları durur.

* * *

Elçin məsələnin kökünü sosial müstəvidən metafiziki qata aparır, amma bu qatın üzərindən hər yerdə mənalı bir sükutla keçir. Köhnə struktura münasibətdə yazıçı «struktur dəyişməzdir» mövqeyindən çıxış edir. 90-cılarda artıq nağılın dəyişib-dəyişməməsi yox, mövcud olub-olmaması problemi var. Əgər belə demək olarsa, 60-cılar və daha



əvvəlki nəsillərdə nağıl, struktur qnoseoloji, 90-cılarda isə ontoloji problemdir. Çünki bu illərdə nağılın tədricən dəyişməsi yox, kökündən dağılması mərhələsi başlandı. Buna görə sonuncular üçün «nağıl yoxdur». Lakin hər hansı prosesə ironiyanın meydana çıxması artıq onun sonunun başlanğıcıdır və bu mənada 60-cıların köhnə nağıllara gülməsi özü 90-cıların nağılı inkarının əsasında durur. 60-cılar köhnə nağıllara gülür, 90-cılar isə ondan ayrılırlar. Beləliklə, strukturoloji qatda dərinə gedən kimi nəsillər araşındakı ziddiyət öz-özünə aradan qalxır və onların biri digərinin davamına çevrilir, əkdiyini biçir.

Bu günkü ədəbi gənclik yaşlı nəslin güldüyü nağıllara inanmır. Əgər inanmırlarsa, onda divi yatırdan gözəl qızdan gərək əl çəksinlər. 90-cılar, xüsusən də onun radikal qanadının yaşlı ədəbi nəsillə münasibətdə ona görə heç bir payı yoxdur ki, onlar yaşlı nəslin əsaslandığı struktura münasibətdə dağıdıcı mövqe tuturlar. Ona görə də bu strukturda onlara yer yoxdur. Məlikməmməddən fərqli olaraq onlar almanı şah ataya vermək iqtidarında deyillər. Çünki onların təsəvvüründə nağıl özünün bütün elementləri ilə uçub-dağılır, alma nəinki göydən düşmür, div onu yeraltı dünyaya aparmır, hətta yerin üstündə də alma ağacı bitmir, ümumiyyətlə, alma deyilən şey yerli-dibli yoxdur. Qəribə görünsə də, 90-cılardan M.Köhnəqalanın ilk şerlər kitabı «Alma əhvalatı» adlanır. Lakin burda iki cəhəti nəzərə almaq lazımdır: birincisi, kitabda toplanmış şerlər müəllifin əsasən göydən alma gözlədiyi dövrlərin məhsuludur;ikincisi isə bu adda şairin həm dünyanın ən qədim nağılı, həm də vaxtilə bu nağıla inandığı üçün özünə qarşı o qədər də gizli olmayan ironiyası var.

* * *

90-cı illər göydən alma düşməyən bir dövrdür. Çünki 90-cı illər göylərin özü idi. Yer uçub dağılmış, insanın ayağı yerdən üzülmüşdü. İnsan Allahın özünə, göylərə sığınmışdı. Alma gözlənilməsi daha heç bir yüksək instansiya qalmamışdı. Bu mənada 90-cıların nağıla inanmamasının özü təbiidir. Lakin onlar yalnız müəyyən zaman kəsiyində üzə çıxan bu həqiqətin ədəbi davam edəcəyi fikrinə düşür, yeni nağılı düzüb-qosmaq haqqında düşünmürlər. Onlar bir nağıldan başqa nağıla keçidi nağıl anlayışının ümumiyyətlə məhvi kimi dərk edirlər. Əslində isə yeni nağıla keçilən belə dövrlər çox olub və 90-cı illər də belə dövrlərdən ancaq biridir. Köhnə nağıla 90-cılar üçün

səciyyəvi olan ontoloji (nağıl var, ya yoxdur?) münasibətin özü artıq yeni nağılın başlanğıcından xəbər verir. Çünki bütün nağıllar məşhur ontoloji formulla başlayır: biri var idi, biri yox idi...

* * *

Elçin ədəbi mühitdə canlanma yaratmaq istəyi baxımından həmişə seçilib və yazıçının «Qırmızı qərənfil gülləri «Pera Palas» otelində qaldı» hekayəsini («525- ci qəzet», 2001-ci il, 18 iyul) müzakirəyə təqdim etməsi də bunu göstərir.

Müzakirəyə qoşulan gənc şair Səlim Babullaoğlu «Alt mətnlər» yazısında Elçinlə dünyanın ünlü nasirləri arasında paralellər aparmağa cəhd edir. Lakin diqqət Elçinin əvvəlki əsərlərinə verildiyindən problem arxa plana keçir, ən ümdəsi «alt mətn» qaneedici dərinliklə üzə çıxmır: gənc Tezey problemi alt-üst etmək üçün labirintin dərinliyinə enmir: minotavrı həm də folklor, mif və transsendental qatlara enib boğazlamaq, metodoloji Ariadnanın uzatdığı sapları (strukturoloji, psixoanalitik, sosioloji, transsendental) bir-birinə calayıb labirintdən qələbə ilə çıxmaq olardı. Çünki Elçin nəinki folklor («Mahmud və Məryəm») və mif («Ağ dəvə») qatlarına keçib, transsendentin də sərhəddinə çatıb («Ölüm hökmü») və yazıçı üçün burdan o yana tabu olduğunu hiss edib. Bunun səbəbi onun «Ədəbi düşüncələr»ində dumanlı, «Pera Palas»da isə açıq ifadəsini tapıb: «...mən həmişə...dərini eşələməkdən qaçmışam...». Yazıçını bütün ömrü boyu düşündürən «sirri-xuda»ların açarı isə «eşələmək» istəmədiyi dərinlikdədir. Çünki burdan o yana bədii təfəkkür əslində keyfiyyətcə çevrilməyə məruz qalıb başqa bir şeyə çevrilir. Elçin isə bütün varlığı ilə bədii təfəkkürə bağlı insandır, necə deyərlər, ədəbiyyat adamıdır.

Otel mövzusu baxımından hekayəni Anarın «Otel otağı» povesti ilə müqayisəyə çəkmək olar. Elçinin mövzuya gətirdiyi yenilikləri təxmini olaraq belə müəyyən etmək olar: «Otel otağı»: ekzistensiallıq, «epiklik», sosial, milli, siyasi problematikanın qabarıqlığı, tragizmə açıq meyllilik, bütün əsər boyu qəhrəmanı təqib edən ölüm sirri, nəhayət, sonda onun məchul ölümü, (yəni əslində novella finalı); «Pera Palas»: essensiallıq, məhəbbət probleminin ön plana çıxması hesabına yaranan lirizm, fərdi münasibətlərin qabardılması, bəzən satira (hətta



qrotesk) həddinə çatan yumoristik ovqat, qəhrəmanın mənəvi ölümü, dünyanın bütün sakrallığının, eləcə də ölümün açıq-aşkar profanlığı.

«Pera Palas» mövzunun nəinki «epik», hətta «lirik» mərhələsinin başa çatdığını göstərir: bədii fikir otel mövzusunun sakral simvolikasından «gülə-gülə ayrılır». Janrlar arasındakı fərq də (povest-hekayə) dolayısı ilə problemi kiçiltmək, sakrallıq haləsindən çıxarmaq naminədir. Qəhrəmanların xarakteri də fərqlidir: povestin ciddi, namuslu, vətənpərvər qəhrəmanı qonaq olduğu ölkədə öz yerini bilirsə (axırda da elə o yerdə ölürsə), hekayənin «ikiüzlü», diribaş, çevik qəhrəmanı özünü Türkiyədə (həm də dünyanın hər hansı bir yerində) qonaq hesab etmir, «...hamımız bu gözəlim dünyanın müsafirləriyik» deyir. Anarın Axillesi (Kərim) dabanından oxlanıb öləcəyini bilə-bilə döyüşə gedir və Troyada həlak olur, Elçinin Odisseyi isə dünyanın min bir üzünü görəndən sonra Troyadan doğma İtakaya qayıdır və burda «ölür». Antik modelə uyğun olaraq povesti «Oteliada», hekayəni isə «Oteleya» adlandırmaq məntiqidir.

Hekayənin xaotik strukturu onu kosmik dünyaya alternativ kimi mənalandırır. Povestin xaotik keçid dövrünün əvvəlində, hekayənin isə axırında yazılması da bu məntiqi təsdiq edir. Povestin qəhrəmanını xaos üşəndirir, hekayənin qəhrəmanını isə güldürür.

* * *

Hekayədə qoyulan əsas problem özgələşmə və sevginin ölümüdür. Problemin həlli üçün bəlkə də roman və ya novella janrı tələb olunurdu. Yazıçının öz dili ilə desək, «ölçüsüz corab» stilində yazması, hadisələrin sıxıb suyunu çıxarmaq təkcə yeni bədii düzənə keçmək yolundakı xaosun ifadəsi olmayıb, bizcə, həm də problemin böyüklüyü ilə formanın kiçikliyi arasındakı təzadı dəf etmək naminədir: «...mənim normam ölçüsüz corab kimi bir şeydir, balaca ayağa da geymək olar, böyük ayağa da». Elçin corabı böyük ayağa geyib. Hətta o dərəcədə böyük ayağa ki, corab parça-parça olub.

Avtonom parçalardan ibarət hekayəni vahid xalı kimi toxumaq üçün bir neçə vasitədən istifadə edilir: hadisələri eyni şəxsin nəql etməsi və eyni şəxslə əlaqəsi; ənənəvi süjet-təhkiyədən imtina, interaktiv zaman keçidləri (yazılma, xatırlanma və başvermə vaxtları; indi, keçmiş və gələcək) və ani məkan dəyişmələri (İstanbul, Moskva, Bakı) müqabilində bütün faktları özündə sındıran daxili fleksiyanın paralel

inkişafı. Bunlardan əvvəlkilər ənənəvi, sonuncular isə yeni nəsrə aid olduğundan hekayəni Elçinin 60-80-cı illər tərzindən yeni üsula keçmək cəhdi kimi anlamaq olar. Bu, yazıçının 90-cı illərdə dram janrına ardıcıl müraciətinin səbəbini də aydınlaşdırır: bu arada nəsr təfəkkürünün daxili fleksiya yolu ilə sınaraq yenidən qurulması prosesi gedib. Olsun ki, müzakirə də aqlütinativlikdən flektivliyə, sabit sıralanmadan inversiyaya, kosmosdan xaosa, bir sözlə, «ölçülü corab»dan «ölçüsüz corab»a keçidin doğurduğu reaksiyanı müəyyənləşdirmək istəyindən irəli gəlir.

«Ölçüsüz corab»la bağlı sözləri əsərin qəhrəmanı araq və ya pivə içməsi barədə desə də, yazı-pozu adamı olması bütün əhli-qələm kimi onun da sözlərində sətiraltı məna axtarmağa sövq edir. Silsilə simvolik elementlərdən istifadə («Pera Palas» oteli – dünya, qırmızı qərənfillər – sevgi, piyli pişiklər – duyğusuz insan və s.), simvolikanın hətta sərlövhəyə çıxması isə bu sözləri müəllifin hekayəni qələmə alma üsulu haqqında işarə kimi qəbul etməyə əsas verir.

Yazıçı sevginin ölümü ideyasını introspeksiya – qəhrəmanın öz yaddaşının dərinliklərinə nüfuz etməsi yolu ilə verir. Latent xatirələrin qurdalanması, daxili bağlarla əlaqələnən faktların şüuraltının gah bu, gah digər yerindən baş qaldırıb şüur işığında özünə izahat tələb etməsi əsərin özünün psixoanalizə həsr olunduğunu göstərir: «Axı mən sənə demişdim ki, ... heç özüm də bilmirəm ki, necə bir tipəm». Özünüdərkin psixodinamikası iki planda (fərdi və milli) verilsə də, ilk növbədə fərdi – kişi və qadın (mən və sən) münasibətlərinin aydınlaşdırılması yönündə əks etdirilir.

* * *

Hekayə əsasən dördlük üzərində qurulub. Dördlüyün birinci cütü (jurnalist və qadın) sevginin məhv olmasının səbəblərini, başlanğıcı, ikincisi (Yusif Borş və Tamara) isə tragikomik sonunu əks etdirir. Odur ki, birincilər lirik-sentimental, ikincilər isə satirik-yumoristik tərzdə təqdim olunur. Yazıçı «ciddi duet» haqqında aşkar «deyə bilmədiyini» zarafata salıb «qeyri-ciddi»nin dili ilə açır: Çünki «hər zarafatda yüz həqiqət var...».

Müəllifə görə, sevginin itməsinin səbəbi qadının və kişinin özgələşməsidir. Bunun simptomlarını jurnalistin sevdiyi qadına verdiyi



xarakteristikada (cəsarət, iti zehn, eqoistlik, açıqlıq, iddialılıq və hökmlülük, vəzifəpərəstlik, yadda saxlamaq, çoxbilmişlik, risqə getmək, kompromissizlik, ağlamağı bacarmamaq və s.) görmək mümkündür. Sadalanan aktiv cəhətləri kişilərə aid edən Freydə qarşı silsilə qadın-psixoanalitiklərin (Kleyn, Rayne və s.) geniş etirazına baxmayaraq, doğrudan da, «öyünərsə, ər öyünsün, aslandır. öyünməklik qadınlara böhtandır». Lakin bu, məsələnin latent formasıdır, manefestasiyası isə İstanbulun «Çiçək Passaj»ında akkardeon çalan və Yusif bəyə mahnı quraşdırıb oxuyan, qadından daha çox eybəcər karnaval fiqurunu xatırladan «Tamaranın yüz illik sənət həyatının spirtindən ...və siqaret tüstüsündən cinsini tamam itirib naməlumlaşmış səs»ində, çılğın, fallosentrik çağırışlarındadır: «Yusif beni al, kollarına sal! Gel yanımda yat...sonra beni at!»

Qadınla Tamaranın mahiyyətcə birinin digərinin davamı olması qadının jurnalistin sevgisinə olan inamsızlığı ilə Tamaranın mahnısındakı şərt semantikasının mahiyyətcə eyniliyində özünü göstərir: «Bu karmon gibi, canımı cal!..çal, çala BİLSEN!» Amma qadından fərqli olaraq Tamara Yusifin cismani gücünə, potensiyasına inanmır: çünki Tamara nəinki qadın, nəinki QADIN, heç insan da deyil, şeytandır!

Yusif-Tamara reterdasiyası («bunu burda qoyaq, görək o neynəyir» formulu) jurnalist-qadın münasibətlərinin cismani dibi, zibilxanasıdır. Ümumiyyətlə, reterdasiyalar alt qata qoyulmuş, arxitektonik Tartarda «zəncirlənmiş» epizmin yazıçı düşüncəsinin əsasında durduğunu, varlığı (Homerdə olduğu kimi kortəbii yox) şüurlu epik ehtiva cəhdini göstərir. Bütün yeniləşmə cəhdlərinə rəğmən hər dəfə «epos»un ancaq yeni transformasiyaları yaranır: ölçü çıxılmaz labirintdir! Yenilik isə hər dəfə başqa formada təkrarlanan köhnəlikdir.

Kişinin özgələşməsi öz ifadəsini jurnalist və Yusif Borş obrazlarında tapıb. Jurnalist sevdiyi qadının maskulin cəhətlərini sayıb ardınca dərhal Yusif bəyin feminizminə işarə edir: «...sənin...ilə... Yusif bəyin vücudu və görkəmi arasında elə bir təzad var idi ki, bu...məndə...Yusif bəylə ...İstanbulda axşam gəzintisinə çıxmağa çoxdan hiss etmədiyim...həvəs oyatdı». Jurnalisti qadından uzaqlaşdıran (və Borşa yaxınlaşdıran) qadının defeminizasiyasıdır.

Tamaranın öz «Yusifnamə»lərində defeminizasiyada kişinin roluna işarələri də bununla bağlıdır: «Almasan eger saralıb sollam»; «Onsuz da he-e-e-ey...bakan yok bana!» və s

Jurnalistin kişilik haqqında təsəvvürü araq içmək və siqaret çəkmək kimi zahiri şeylərdən o yana keçmir: «...özümə söz vermişəm ki, siqareti tərgidim və tərgitmişəm. Hərdən ürəyimdən...bir hiss keçir ki, birdən...söz verərəm ki, içgini də tərgidim və tərgidərəm; BƏS SONRA NƏ EDƏRƏM?» Bu, artıq prinsip etibarilə «patriarxallığın sonu» deməkdir. Çünki qadın surətin (təbiət), kişi isə mahiyyətin (rüh) rəmzidir. Qadının jurnalistə ambivalent – ikili münasibəti, zahiri təkəbbürünə, əzici soyuqluğuna baxmayaraq, jurnalistin onu doğrudan da sevməsinə qəlbində böyük önəm verməsi, lakin sevgilisinin Bakıdan İstanbula ona qırmızı qərənfillər gətirməsinə çətin inanması da təbiidir: komik Züleyxa (Tamara) kimi lirik Züleyxa da (qadın) öz Yusifinə əmin deyil.

Elçin qadının Bakıda firma müdiri işləyən «yoldaş»ının da olduğunu qeyd etməklə onun «etologiya»sının jurnalistdənkənar bir qatını da açır. Qadının rastlaşdığı kişilərin içində sevgiyə az-çox layiq olanı yenə də jurnalistdir. A.Ostrovski kimi, Elçinin də Katerinası öz Borisini «çarəsizlikdən sevir» (Dobrolyubov). Jurnalistlə qadının anası (!) arasında vaxtilə uzun illər davam edən sentimental macəra (ana gənc jurnalistlə «ailə idilliyası» fikrinə düşür, venerianlığını etiraf edən jurnalistin fikri ilə razılaşmır, gizlicə olaraq uzaq şəhərlərin otellərində vaxt keçirmir. Hətta onların arasında «ciddi bir şey» belə olmur) qadının psixogenezini, xüsusən də Elektra kompleksini göstərməklə bərabər başqa məsələnin də qarşısına müəyyənlik artikli qoyur: anası çıxan ağacı budaq-budaq gəzən bala ana ilə Tamara arasında keçiddir – keçid dövrünün qadını! Və bu üç obraz kişinin defunksionallığı üzündən qadının mənəvi inflyasiyasının üç pilləsidir. Cəmiyyət qadını pillə-pillə alçaldaraq Tamaranın vəziyyətinə salır, sonra da etinasızcasına əlini yelləyib «Bir şey deyil, canım... O koca kahbenin kafası bozulmuş» deyir. Problemə bu cür münasibətə görə «Pera Palas»ı «Fosforlu Cevriyyə» (S. Dərviş) romanı ilə müqayisə etmək olar.

Qadındakı funksional psixozun kişi üçün əzaba çevrilməsi jurnalistin bəmdən zilə qalxan üç etirafında əksini tapır: «Tamara, ...o qırmızı qərənfil güllərindən oxu, o zaman bəlkə ...səsin də öz cinsinə qayıtdı, insan səsi, qadın səsi oldu...amma yox, yəqin ki, sən daha bunu istəmirsən (deyəsən, heç mən də istəmirəm); «Mən çox arzulayıram ki, məni SEVGİ MƏHKUMU...vəzifəsinə təyin etsinlər və bu, elə bir ciddi təyinat olsun ki,...qaçıb aradan çıxmağa...imkAnım olmasın»; «SEVGİYƏ NİFRƏT! SEVGİ QAYĞIDIR, SEVGİ – RAHATSIZLIQDIR, MƏSULİYYƏTDİR. MƏN İSƏ RAHAT YAŞAMAQ İSTƏYİRƏM!» (saçmalar yazıçınındır).



Kişinin bais olduğu defeminizasiya son nəticədə onun özünün də ÖLÜMünə səbəb olur. Bu fikir bütün hekayə boyu inkişaf etdirilərək jurnalistin oteldə qoşduğu şerdə ümumiləşdirilir: «tavandan...qap-qara...qan damdı çarpayımı...aldı, məni də aldı, laxtalandı,... mən də içində cansız».

Məhəbbətin ölümü onun mənasını itirib cansız bir şeyə – sənət faktına çevrilməsinə səbəb olur: «Romanları yaşamaq lazımdır, yazmaq yox...yanında olmaq...əvəzinə Bakının bu istisində tək oturub sənin üçün yazı yazıram...İdiotizm». Tamaranın cinsi naməlum səslə oxuduğu «Yusifnam»lər də «aşkların vurulub şarkıya şiir ol»masının tragikomik finalıdır: sənət məsələsində kişi də, qadın da Tamara ilə eyniləşir: sevginin süniləşməsi kişini də, qadını da androgin BİR şeyə – sənətkara çevirir.

Jurnalistin sevginin yaradıcı qüvvəsini diametral şəkildə əksinə dərk etməsinin psixoloji əsasında da bizcə, bu kompleks durur: «Məhəbbət qatildir, Yaqo o dərəcədə sevməsəydi, Otello Dezdemonanı öldürməzdi...».

* * *

«Oteleya»nın məkanı kimi İstanbulu seçməklə yazıçı türkçülük ideallarının eyforiya olduğunu əsaslandırmaq istəyir və bədii semantikanın ikinci qatına keçir. Angedonik robotu xatırladan Yusif Borş, jurnalistin qadına vermək üçün İstanbulda qərənfil «tapmaması», piyli pişiklərə təşbeh olunan «Çiçək Passaj» əhlinin Azərbaycanın problemlərinə saxta canıyanmışlığı, A.Kristinin bir vaxtlar bu oteldə «Cənub ekspressində qətl» romanını yazması, sonuncu İran monarxı Rza şahın bu oteldə qalması, «Pera Palas»da yaşamış milliyyətcə türk balet rəqqası Rudolf Nuriyevin sonra SPİDdən (!) ölməsi bunu göstərir: «Pera Palas» hər şeyin sonu – ölüm yuvasıdır.

Yazıçı yeni münasibətlər məkanı kimi İstanbula qarşı köhnə Moskvanı qoyur, mövzuya uyğun olaraq Moskvadan olan yaşlı dramaturqun gənc bir qıza olan sevgisi ilə bağlı parçanı hekayəyə daxil edir və qəhrəmanının ikinciyə nostaljisini gizləmir. Dördlük üçüncü cütün əlavəsi ilə altılıqla əvəzlənir. Yazıçı yeni cütü romantik halda

təqdim edir və bu üç duet bədii fikrin keçdiyi ən mühüm metodların (sentimentalizm, romantizm, realizm) simvolik kodlarına çevrilir. Jurnalist həyatının bu və ya digər faktını xatırladıqca yazıçı da tarixi metodları «yada salır»: xaos üçün aləmin bir-birinə qarışması səciyyəvidir. Qarşıda onun bulanıb-durulub özünə yeni düzən tapması mərhələsi durur.

Jurnalistin dramaturqla Mərkəzi Jurnalistlər Evinin «məşhur restoranında» görüşməsi də təsadüfi deyil. İnsanın cənnətdən dünyaya, rühdan materiyaya doğru enişi ürəkdən mədəyə, cinsəl özəlliklərə doğrudur. Moskva bu enişin restoranadası (yemək), İstanbul isə oteleyasıdır (seks). Moskva pərisinin qadınlar silsiləsinə əlavə olunması ilə qadınlığın mələk-şeytan antiqütbləri tam müəyyənləşir, çevrə qapanır: qadın mələkdir, «amma şeytan bir mələk» (H.Cavid). Məsumluğun dərəcəsinə görə müəyyənləşən bu ierarxiyanın başında Moskva pərisi, ayağında isə İstanbul şeytanı durur. Ana və qız birincisi mələyə, ikincisi isə şeytana yaxın olmaqla bu sistemə daxil olurlar: Azərbaycan qadını mələk-şeytan seçimi qarşısındadır və çərxi-fələk şeytanın xeyrinə fırlanır.

Amma Moskva pərisinin təmizliyi hələ dünyanın çirkablarından keçib getməli, ya da beşiyindəcə doğulmalıdır. Restoranlar qoynunda pəri olmaz, çünki pərilər yemir. İnsan yemək yox, seksin nəticəsində yarandığı (dünyaya çıxdığı) kimi, bizim də dünyaya çıxışımız İstanbuldan keçib gedir. Yemək (Adəm-Həvva-alma məsələsi) «yaradıcılığın» üst qatı, zahiri qabığı, mifologiyası, simvolikası – yalandır. Buna görə Moskva sovet Adəmini öz mifini öz içində boğub dünyanı görməyə, «qamışlıqdan» (M.F.Axundov) çıxıb adam olmağa qoymadı: «Parisdə avtomobil qəzası»na uğradıq. Dünyaya gedən yol hər cür rus «kulinariya»sı (Borş) və erməni «incəsənət»indən (Tamara) ibarət eklektizminə baxmayaraq, İstanbulun məşhur körpüsündən keçir. İstəsək də, istəməsək də, bu bizim taleyimizdir!

Türkiyə millətçiliyin məhdud çərçivəsindən keçən əsr çıxıb dünya ilə birləşib. Klan psixologiyalı Orta Asiya bu idraka bəlkə XXII əsrdə yetər Sərt şaxtadan donmuş Sibir təfəkkürünün bu səviyyəyə gəlib çatması isə yəqin ki, artıq qeyri-mümkündür. Problemlə üz-üzə duran bizik. Bizi narahat edən problemlərin eyni dərəcədə türklərin də düşüncəsini məşğul etməsini arzulamaq qeyri-məntiqidir: «Kişi yenidən dönüb uşaq ola bilməz» (K.Marks). Amma uşaq böyüyüb kişi ola bilər.



* * *

İstər millət, istərsə də insan doğulduğu yerə nə qədər yaxındırsa, bir o qədər diridir. Buna görə Türkiyə türkləri Azərbaycan, Azərbaycan türkləri Orta Asiya, Orta Asiya türkləri isə Sibir türklərindən daha çevikdir.

* * *

Hadisələri dərkin üçüncü – transsendental qatını yazıçı «eşələmir», çevrəni qapamaq zərurəti isə bunu tələb edir. Evdən otelə çıxış insanın dünyaya çıxmasının simvolik işarəsidir. Bu çıxış dünyanın bütün otellərini (karvansara) gəzib son nəticədə həqiqətə qovuşan dərvişlər kimi insanı ilk evə (Kəbə) qaytarmaq üçündür. Yer üzündə həyat evdən başlanıb. Özündən uzaqlaşıb «ölmüş» insan dirilmə üçün evə qayıtmalı, əvvələ axır birləşməlidir. Otel yarı yoldakı dayanacaqdır və yarı yolda dayanmaq dirilmədən ölmək deməkdir.

Doğrudan da sevibsə, qadını itirməklə kişi formadan mənaya, surətdən orijinala keçməlidir. Buna görə, ilahi eşqə düçar olan Məcnun Leylini rədd edir (Füzuli). Poemanın sonunda qəbristanlığın təsviri onların ədəbi ayrılığının yox, birliyinin rəmzinə çevrilir. Elçinin qəhrəmanından fərqli olaraq Füzuli də, Məcnun da qəbristanlığı hər şeyin sonu yox, başlanğıcı hesab edirdilər. Buna yəqinlik hasil etmək üçün «ölməmişdən əvvəl öl»mək (Həzrət Əli), «Hürrün qəbrini aç»maq (Xətai), qəbristanlığın mahiyyətinə enmək – Dantenin cəhənnəmini diri gözlü görmək lazımdır.

Əsl sevgi kişinin qadını yox, Allahı sevdiyi məqamdan doğulur. Qadına sevgi surət, Allaha eşq isə orijinaldır. Çağdaş insan – Elçinin qəhrəmanı eşqin bu məqamından uzaqdır. Çünki qadını həqiqətən sevməyən kişi Allahı da sevə bilməz. Ona görə hekayə jurnalistin özünü və «sevdiyi» qadını nəzərdə tutaraq dediyi bədbin sentimental fikirlərlə tamamlanır: «...bir-birindən uzaq o iki qəbir eləcə lal sükut içində qalacaq,... qəbir daşlarına toxunub əsən küləklər də onları birləşdirməyəcək,...küləklər də müxtəlif səmtə əsəcək».

* * *

Vəhdətə yox, ayrılığa iman hekayənin qəhrəmanının düşüncəsinin sonsuzluğu yolunda bir şlaqbauma çevrilir. İnsanın mahiyyətini təşkil edən eşqi itirmək nəticəsində yaranan özgələşmə və bunun nəticəsi kimi reallığı olduğu kimi dərk etməmək fantaziya, oradan da qallüsinasiyalara aparır: Bakının Azadlıq meydanında eşq allahı Amurun heykəli önündə klassik aşiq-məşuqların müasir sevgililərin paradını qəbul etməsi, spermadan amlet bişirən şişman aşpazın öz unikal kulinariya icadını (Div, Cırtdan, qayğanaq məsələsi) acıqverici tərzdə paradı qəbul edənlərə nümayiş etdirməsi keçid dövrü insanının nevrasteniyasını əks etdirir. Lakin Elçinin divi (şişman aşpaz) dirilik suyunu bişirib Cırtdana (jurnalist) vermir. Hekayədə ədəbi həyata zəmanət verə biləcək vasitələr nəinki ruhi-mənəvi, hətta fiziki planda (sperma) belə inkar olunur. Ölüm divinə ayıq şüurla üstün gələn Cırtdan əbədiyyətə çatır, başını divə verən jurnalist isə ölümə təslim olur və «ağlını itirir».

* * *

Yazıçının 90-cı illər dram yaradıcılığı («Dəlixanadan dəli qaçıb», «Mənim ərim dəlidir» və s.) ilə də səsləşən bu meyl Elçindən əvvəl unudulmaz İ.Əfəndiyev dramaturgiyasında öz əksini tapmışdı. Lakin Elçin İ.Əfəndiyevdən fərqli olaraq, dəlilər-ağıllılar antiqütbünün ikinci tərəfini tamamilə istisna edir. Beləliklə, atalarla oğulların eyni prosesi dərkində əhəmiyyətli fərq özünü büruzə verir. Bu, təkcə ata ilə oğulun varlığa fərqli münasibətindən irəli gəlməyib, həm də qıl körpüsünün ortasına doğru getdikcə yıxılacağından qorxub dəhşətə gələn və ağlını itirən gerçəkliyin özünün obyektiv xüsusiyyətindən doğur. Sadəcə olaraq ata prosesin başlanğıcını, oğul isə getdikcə qatılaşan sonrasını əks etdirir. «Meydan» trilogiyasının müəllifi kimi S.Əhmədli ilə müqayisədə isə atalarla oğullar arasındakı fərq dərinləşərək əvvəlcə antiqütbə çevrilir, sonra isə vahid məxrəcdə sintez olunurlar: atalar keçid dövrü hadisələrini pillə-pillə dərk edərək dramatik («Kütlə»), tragik («Axirət sevdası»), tragikomik («Kef») idrak mərhələlərindən keçir, oğullar isə prosesə sonuncu planda yekun vururlar: hekayənin «otelnamə» hissəsi «Otel otağı»nın, «meydannamə» hissəsi isə «Meydan»ın tragikomik finalıdır. Hekayə keçid dövrü ədəbiyyatı və düşüncəsinə müəyyən ədəbi nəslin timsalında vurulan bədii yekundur.



* * *

Şişman aşpazın amlet bişirmək üçün tavaya tökdüyü sperma Elçinin hekayəsinin nüvəsidir. Yazıçı «qayğanağını» şişman divin ölüm tavasında bişirib. Buna görə tava həm də hər şeyin sonudur: bütün antiqütblər (İstanbul-Moskva, otel-restoran, «şeytan» – «pəri») bu tavada (Bakıda) bişərək cızdağ olurlar. Yazıçı fikrinin çıxış nöqtəsi ev olduğu üçün oteldən çıxıb Evə (Kəbə) getmir, evə (Bakı) qayıdır. (Elçinin şeytanlar, pərilərlə üzülüşüb adasına dönən əlli iki yaşlı Odisseyini evdə gözləyən sədaqətli Penelopanın olub-olmaması barədə kiçik bir işarə də yoxdur). Çevrə evdə qapandığı üçün isə «qısa qapanma» baş verir. Yeri toxumuna qədər inkar edən, göyün ətəyindən tutmağı isə ağlına belə gətirməyən, əli yerdən-göydən üzülmüş dairəvi tava özünün bütün çevrələrinin (insan, millət, Allah – ƏBƏDİYYƏT) yandırıb külünü çıxarmaq istəyir: şişman aşpaz demonik bir ehtirasla Amura meydan oxuyaraq sanki «Çox da göylə getmə, sənin dibin budur!» demək istəyir.

* * *

Özünüinkar hər bir yaradıcı adamın (və ümumiyyətlə, hər bir adamın) ömrünün bu və ya digər vaxtında gəlib çatdığı zəruri idrak momentidir. Ömrünün sonunda isterik bir çılğınlıqla əlyazmalarını yandıran Qoqolu, evindən, xanımından, nəhayətsiz yaradıcılıq əzablarından, usandırıcı şöhrət məngənəsindən qaçan Tolstoyu, otuz ildən bəri bütün dünyadan təcrid olunub «mağara» həyat tərzi keçirən, inzivaya çəkilən Selinceri, iyirmi il əvvəl hamımızın gözü qabağındaca «İdeal»a qədərki bütün əsərlərinin üstündən qələm çəkən Muğannanı xatırlamaq kifayətdir.

* * *

İnkar nədənsə vaz keçmək, nəyisə qurban vermək anlayışı ilə bağlıdır: Muğanna, sənəti qurban verib ədəbiyyatdan, Tolstoy isə, həyatı qurban verib dünyadan getdi. Yəqin buna görə oğlunu vətənə qurban vermiş S.Əhmədli inkara ehtiyac hiss eləmir. İnsan bütün aldıqlarının müqabilində nəsə çox qiymətli bir şeyi verməlidir: bu sənət

də, övlad da, həyat da ola bilər. Amma bu qurbanlarsız da keçirmək olardı: bir şərtlə ki, insan vaxtında öz inamını Allaha qurban verəydi. Bütün verdiklərinin müqabilində Allahın insandan tələb etdiyi bircə şey var: iman! Nə sənətə, nə övlada, nə də həyata olan sevgi insanın qəlbində Allaha olan eşqin yerini tutmamalıdır. İlahi eşqin yeri insanın qəlbindəki sevgi ierarxiyasının ən uca zirvəsindədir. Çünki Allaha olan sevgi varlıq ağacının kökü; yerdə qalan hər şey isə onun budaqlarıdır. Ağacın dibi baltalansa, qol-budaqlarının quruması təbiidir.

* * *

Qeysin Leylidən məhrum edilməsinin əsas səbəbi o idi ki, o məhz «məcnunluq» edərək qəlbində Allaha məxsus olan yeri qadına vermişdi. Onda Allah Leylini onun əlindən aldı, gənc aşiq antiqütbə keçərək qəlbini bütünlüklə Allaha verdi, orda heç kimə, hətta Leyliyə də yer saxlamadı. Kişi qadını hansı şiddətlə ilahiləşdirmişdisə, bir o dərəcədə də, inkar etməlidir. Qeys ilahi eşq kimi ağır yükün altına könüllü olaraq girməmişdi, əksinə, Allahı unutduğu üçün onu divanə bir eşqlə sevmək cəzasına məhkum edilmişdi. Ən doğrusu isə insanın qəlbində hər şeyi məhz özünə məxsus olan yerə qoyub tarazlığa nail olmaqdan ibarətdir. Qeysin faciəsini şərtləndirən amillərdən ən mühümü məhz bu tarazlığı nə Leyliyə, nə də Allaha olan münasibətində qoruyub saxlaya bilməməsi, gah bu, gah da digər antiqütbə sıçrayıb digər antiqütbü inkar etməsi, hər iki halda ifrata varmasındadır. Bu baxımdan fərdin faciəsini insanın özündən asılı olmayan, taleyin, gərdişi-dövranın fatal hökmü kimi qiymətləndirən Füzuli də Qeysin faciəsinin səbəbini ümumən görmür, «karmik diaqnostikasını» (Lazarev) dəqiq müəyyən edə bilmirdi. Qeysi Məcnuna çevirən bir şey – ifrat sevgi, tarazlığı itirmək Füzulinin təsvirində aşiqi başqalarından fərqləndirən üstün bir keyfiyyət kimi mənalandırılırdı.

* * *

İnsanın taleyi öz əlindədir və vşaqlıq yaşlarından etibarən insan öz qəlbini gah bu, gah da digər antiqütblərə məxsus ifratlardan qoruya bilsə, tarazlığı saxlaya bilsə, hər şey öz yerini alar, unudulmuş bir şeyi



öz yerinə qoymaq üçün digərini inkar etməyə də ehtiyac qalmaz. Beləliklə, inkar ilahi tarazlıq – ədalət prinsipinin pozulmasının nəticəsi olub bütün zahiri gözqamaşdırıcılığına baxmayaraq müsbət təzahür deyil və yaxşı olardı ki, nə inkar, nə də ona gətirib çıxaran amillər olmayaydı. Amma bu amillər meydandadırsa, inkarın olması yox, olmaması pisdir və inkar zəruridir. Çünki günahları məhkəmeyi-kübraya – Allahın hüzuruna aparmaqdansa, onları burda dərk edib, əzablar bahasına təmizlənib ora vicdanı təmiz getmək yaxşıdır.

* * *

İnkar oyanmış vicdanın Allah qarşısındakı borcun müqabilində insandan haqq-hesab tələb etməsi nəticəsində yaranır. «Ədəbi düşüncələr» göstərir ki, Elçinin sənət sevgisi onun üçün hər şeyin, hətta Allah eşqinin də fövqündə durur. Jurnalistin «Romanları yaşamaq lazımdır, yazmaq yox» etirafı əslində yazıçının bu məsələdə tərəddüdə düşməsinin dumanlı etirafıdır. Amma yazıçının qəhrəmanı yalanı (sənət) inkar edib, əvəzində nəinki həqiqətin əslini (Allah), hətta surətini də (qadın) qəbul etmir. Çünki hər şeyin öz vaxtı var: belə bir inkara jurnalist əlli iki yox, iyirmi iki yaşından etibarən başlamalıydı.

Jurnalistin bu qnostik infantilizminin kökü yazıçının gənclik illərində yazdığı «Dəyişmə» hekayəsinin qəhrəmanı bəstəkar S.Qayıblıdan gəlir. Ömrünün surətdən orijinala, təzahürdən mahiyyətə keçid dövrünə çatmış (iyirmi səkkiz yaş) bəstəkar kimi otuz ildən sonra jurnalist də hələ də Allah eşqi yox, qadın sevgisi uğrunda əzab çəkir və prinsip etibarilə bəstəkarla jurnalist arasında ciddi bir dəyişmə baş vermir.

Çünki jurnalist bədəni, surəti, formanı inkar edib əvəzində ruhu, orijinalı, mənanı da qəbul etmir və bu ikisinin arasındakı boşluqda əzab çəkir. Eynilə İranla Turan arasında qalmış Səyavuş kimi. Və odla suyun arasında qalmış Azərbaycan kimi. Beləliklə, körpünün ağzında dayanmaq mövqeyi istər fərdi, istər milli, istərsə də transsendental qatlarda üzə çıxır və bütöv bir sistemə çevrilərək jurnalistin bütün dünyagörüşünə sirayət edir. Onun qəbristanlıq barədə bədbin düşüncələrinin fəlsəfi əsasında da bədən konsepsiyasından çıxıb, ruh konsepsiyasına keçə bilməməsi durur.

* * *

Jurnalistin inkaredici üsyankarlığı yaradıcı şəxsiyyətlərin inkarlar silsiləsinə Elçinin əlavəsidir. Bakıya «dönmüş» jurnalistin evə, restorana, otelə yox, meydana (özü də Azadlıq meydanına) getməsi də özünün ən son həddə qədər daraltdığı çevrələri, divarları dağıdıb azad olmaq, hər cür yükdən boşalmaq arzusunu ifadə edir. Lakin bu jurnalistin idrak imkanlarından yüksəkdə durduğundan klassik «Bircə həqiqət var o da eşqdir!» qayəsini («Mahmud və Məryəm») «Dünyada ölümdən başqası yalan!» formulu ilə əvəz etməyə gətirib çıxarır.

Hekayədə fərdi qatda insan, sosial qatda millət, transsendental qatda isə Allah inkar olunur. Varlığı (tava) dibinə, kosmik embrionuna (sperma) qədər inkar edən jurnalistin triadasında əvvəlkinin inkarı sonrakının təsdiqinə gətirmir: sintezdən şüurlu olaraq edilir. Qarşılaşan ziddiyyətlər jurnalistin düşüncəsində öz həllini yox, məhvini tapır. Triadanın hər üç komponentinin arxasında insanın əbədiyyəti durduğu üçün isə inkar ona aid idi. Tam azadlıq üçün bütün bağlar, əlaqələr qırılmalıdır, əsl azadlıq ifrat əlaqəsizlikdədir, ümumdünya cazibə (eşq) qanunu üstündə duran kosmos əsarətdir, yaşasın xaos! Qənaətinə gəlib çıxan yazıçı bilərəkdən etdiyi bu əlaqəsizlik cəhdinə görə «Əlaqə» müəllifi Anarla fərqli mövqedə, əbədiyyəti inkar etdiyi üçün isə «Əbədiyyət» müəllifi (Muğanna) ilə antiqütbdə durur. Elçin yaradıcılığında yeni mərhələnin başlanmasından xəbər verən «Pera Palas», eləcə də bir qədər sonra mətbuatda dərc olunan digər hekayələri («Göy üzünün ulduzlu vaxtları», «Sarı gəlin», «Araba») onun təkcə klassik realizm, ümumən sözü bütün mənalarında klassikadan yox, həm də öz yaşıdları olan söz adamlarından da ayrılmasının əyani ifadəsinə çevrildi. Belinskinin Puşkin haqqında məşhur məqalələrində dediyi belə bir fikir yada düşür ki, sənətkarın bədii istedadı inkişaf etdikcə o tədricən başqalarından ayrılır, onu anlayan adamların dairəsi getdikcə və getdikcə daha çox daralır və nəhayət, bir gün o, tamam tək qalır.

* * *

İnkar göstərir ki, qəhrəman düşdüyü insaytın emosional həddindən intellektual həddinə keçmir: qarşıya məqsəd kimi qoyulan özünüdərk çevrəsini ədəbi vəhdətdə qapamaq jurnalistin gücü



xaricindədir. Onun anlamındakı qəbrə vəhdətin küləyi də çatmır: altılıq üçlük, üçlük isə birliklə (monada) əvəzlənmir. Sanki Muza Taliya elə hey onun qulağına «Boş ver, canım, hayat tamam bir şaka» kəlmələrini pıçıldayır...

Yazıçı Allaha, dinə, mifə, folklora, klassik ədəbiyyata, ümumiyyətlə, hər cür klassikaya qarşı çıxaraq insanın mənəvi, daxili azadlığı ideyasını irəli sürür. Amma bütün cəhdlərinə rəğmən istər məzmun, istərsə də forma planında görünməyən qatda nəinki klassikaya üz tutur, hətta onu da geridə qoyaraq daha amansız, daha sərt antik tale modelinə yaxınlaşır. Hekayənin süjetinin Homer strukturuna uyarlığı da təsadüfi deyil. Çünki bu uyarlıq varlığın özündə – onun əzəli-əbədi formasındadır və vizual varlığın arxasındakı virtuallığı qəbul etməyən sənətkarın bundan qaçması qeyri-mümkündür.

* * *

Jurnalistin öz «qızlığı»nı sevməsi ilə Edipin öz anasını alması arasında (Sofokl, «Şah Edip») bircə fərq var: birincinin bilərəkdən etdiyini ikinci taleyin amansız hökmü ilə, özü də bilmədən və istəmədən edirdi. Edipin taleyin bu amansız hökmünə məhkum edilməsinin səbəbi də onun atası Layın həddini aşmış istəkləri idi (Evripid, «Xrisipp»). Jurnalist Layın sərbəstliyi ilə Edipin məhkumluğunu kompleks şəklində özündə birləşdirir. Jurnalistin ifrat azadlığı ilə Edipin ifrat məhkumluğu prinsip etibarilə eyni nəticəni doğurur. Çünki hər şey öz ifrat formasına çatdıqda (Lay Pelopun oğlu Xrisippi «pozur») çevrə boyü dönərək antiqütbünə çevrilir (Pelopun qarğışı ilə Lay və onun nəsli lənətlənir – Edip taleyin qaçılmaz hökmü ilə atasını öldürür və anası ilə izdivaca girir): ifrat azadlıq ifrat məhkumluğun astanasıdır. Yeganə çıxış yolu qızıl ortada dayanmaqdır.

* * *

Hekayənin sonuna doğru bütün strukturoloji antiqütblərin eyni tavada bişməsi, bir meydana yığılması klassisizmin (Molyer, Fonvizin, Axundov və s.) sərt kanonlarına uyğun olaraq finalda bütün

iştirakçıların səhnəyə çıxıb müəllifin son hökmünü dinləməsini xatırladır. Beləliklə, klassika təkcə məzmun yox, daxili forma planında öz bildiyindən qalmır. Forma alt qata qovula bilər, strukturoloji layda gizlədilə bilər, amma heç vaxt axıradək məhv edilə bilməz. Çünki o, əzəlidir və elə bunun üçün də əbədidir.

* * *

Tavada üsyan çevrəni dağıda bilməz. Çünki tava dairədir və dairənin dairə olması üçün onun kənarında çevrə olmalıdır: çevrəni dağıtmaq dairənin özünü məhv etmək deməkdir. Çevrədən çıxmağın yeganə yolu onu qət edib spiralın ikinci dövrəsinə keçməkdən, başqa sözlə baş aldatmaqdan ibarətdir.

* * *

İfrat tolerantlıq tələb edən Quranla üsyankarlıq nümayiş etdirən «Pera Palas»ın oxşar strukturu (süjet «pozğunluğu», təkrarlar, xatırlamalar...) var: istər Quran, istərsə də «Pera Palas» keçid əsərləridir: birincisi vertikal – göylə yer arasında, ikincisi isə horizontal – sovet dövrü ilə yeni dövr arasında. Allah iki superdövlətdən birini dağıdıb 70 il imansızlıq qirdabında çabalayan insanı diriltmək üçün keçidi onun təfəkküründə yaratmaq istəyir. Çünki yalnız vertikal körpünü keçdikdən sonra horizontu qət etmək olar. Çağdaşımız insan isə iki ayağını bir başmağa dirəyib bu körpüdən keçmək istəmir. Yazıçı da «bütün müqəddəsliklərə ölüm», «dünyada ölümdən başqası yalan» qənaətinə gələn «sevimli dəli»sinin başına ağıl qoymur. Ölüm allahı Tanatos təklənmiş Amuru Tartarın ən dərin küncünə atır. Nevroz öz yerini psixoza verir: köhnə ideallarin məhvindən məyus olan, yeni idealları isə qəbul edə bilməyən rasional insanın iflası başlayır.

* * *

«Pera Palas»ın qəhrəmanı «dəlixanadan (SSRİ) qaçıb» adam arasına çıxan, öz «ağlı» ilə gerçəkliyə adaptasiya ola bilməyib yenidən



tavasına düşən «dəli»dir. Amma Elçin daxili senzorun diqtəsindən azad olmasına görə qəhrəmanının bu cəhətinə minnətdar olmalıdır: dəlidən doğru xəbər! Yazıçı heç bir əsərində nail olmadığı qədər «Pera Palas»da özüdür, öz tavasındadır və yəqin ki, bu tendensiya gələcəkdə güclənəcək.

* * *

Elçin bütün ömrü boyu çoxlu sayda hekayə, povest və romanlardan keçərək öz dibinə, divinə, nəhayət ki, «Pera Palas»da çatdı. O divin bir tərəfdə düşüb qalmış bədənini görsə də, şüşənin altındakı canına baxmadı və bu canı almadı. Çünki canın yerini kişiyə qadın göstərə bilər («Məlikməmməd»). Yazıçının qəhrəmanı isə qadını da, eşqi də əsarət zənciri kimi rədd edir və əbədiyyət almasını yox, ölümü intixab edir. Biz jurnalisti əbədiyyə almasının dibində oturub divi gözləyə-gözləyə huşa gedən gördük, yuxu basmasın deyə barmağını kəsib yarasına duz basdıq...

* * *

Allah insana ağıl verib ki, öz mahiyyətini dərk edib dirilsin. İnsan bunu etmədikdə ağıl ondan alınır və psixoz başlanır: Qoqol – «Ölü canlar» - «Dəlinin qeydləri», Mirzə Cəlil – «Ölülər» – «Dəli yığıncağı»; Elçin – «Ölüm hökmü» – «Dəlixanadan dəli qaçıb»... və eləcə də «Pera Palas»...

Dəlilik ölümlə dirilik arasında körpüdür: bu çayı keçən də (Hamlet, Məcnun), suyundan içən də (Don Kixot, Koroğlu), keçməyən də (kefli İskəndər) var. «Sevimli dəli» sonuncu ranqa aiddir... Bizim gücümüz onun dirilik suyu həsrətilə cadar-cadar dodaqlarını ancaq islatmağa yetdi...

* * *

Hekayədə üç məğlubiyyət var. Bu məğlubiyyətlərin hər sonra gələni əvvəlkini də özündə ehtiva edir: dirilmə körpüsündən keçə bilməyib ölümə təslim olan jurnalistin məğlubiyyəti: klassik eşq

podelinin yağışından çıxmaq istəyib antik tale modelinin yağmuruna düşən yazıçının məğlubiyyəti; keçid dövrünün körpüsündən qələbə ilə çıxa bilməyən xalqın məğlubiyyəti. «Pera Palas»ın ictimai mənası ümummilli məğlubiyyətimizi bizə xatırlatmasındadır. Yəqin ki, hekayə ədəbiyyat tariximizdə bu məğlubiyyəti özündə əks etdirən bədii sənəd kimi qalacaq.

* * *

Bu məğlubiyyətlərdən, Rolan Bartın dili ilə desək, ən gözəli yazıçının məğlubiyyətidir. Çünki yazıçı qalib gəldiyi andan etibarən həqiqəti tapır və yalandan (sənət) üz çevirir: Həssan ibn Sabit, Tolstoy, Muğanna...

Amma bu, aksiom yox, olsa-olsa sübuta ciddi ehtiyacı olan teoremdir. Çünki həqiqətlə yalanı ikiüzlü Yanus kimi bir araya gətirənlər də var: Nizami, Dante, Höte...

Bu da, Elçinin öz dili ilə desək, «sübutsuz teoremlər sislsiləsinə bizim əlavəmiz». Hər şeyir isbatını isə ancaq Allah bilir...

* * *

Bizim də bildiyimiz bir şey var: zamanın bir eradan digərinə keçidi ilə bağlı planetlərin 12 illik (1991-2003) kosmik paradı tezliklə başa çatacaq, insanın mənəviyyatında aşınma, idrakında qorxu yaradan qorxunc xaos öz yerini yeni dünya düzəninə verəcək, qalaktikamız yenə eşq orbitində fırlanacaq.

* * *

Hər şey eşq üstündə durur dünyada, - deyir Nizami.

* * *



Reallaşacağına inanmaq istədiyimiz bir arzu da var: bütün bu dediklərimiz reallaşanda Elçin bir vaxtlar ilk məhəbbətlərini qələmə aldığı, artıq müdrikləşmiş Qayıblını, Baladadaşı, Cavanşiri, Məmmədağanı başına yığıb onların son məhəbbətlərini yazıya köçürəcək. Onda yazıçının dəliləri də ağıllanacaq, jurnalistin qallüsinasiyaları da uzaqlarda qalmış bir yuxuya çevriləcək.

*«Azərbaycan» jurnalı, № 5, 2003.*

**Qeyd.** Bu məqalənin ayrı-ayrı hissələri «Yeni Azərbaycan» və «Ədalət» qəzetlərində də dərc edilmişdir.

Nərgiz-Ladən
BAYRAMOVA

## YENİ NƏSRİN ƏDƏBİ VƏHYLƏRİ

70-80-cı illərdə Azərbaycan romanı öz inkişafının yeni mərhələsinə qədəm qoyur. Bu dövrdə nəsrdə milli-sosial problematikanın ön mövqeyə keçməsi ilə əlaqədar olaraq, tarixə münasibətdə də ölçülər dəyişilmiş, «ayrı-ayrı güclü xarakterlərə maraq milli kökə işıq salan bədii-tarixi araşdırmalar ilə əvəzlənmişdi». İnsana yeni yanaşma meydana çıxmış, onun mahiyyəti sosial məzmunu ilə əlaqəli şəkildə tədqiq olunmağa başlamışdı.

Mövzu – problematikanın dəyişilməsi ilə əlaqədar olaraq nəsrin forma – stil – üslub axtarışlarında bir canlanma, bir yaradıcılıq əzmi müşahidə olunur. Bu özünü 60-cıların yaradıcılığında xüsusi göstərir. Onlar yenidən romana – böyük epik lövhələr janrına müraciət etməyə başlayır və belə olduğu halda «yeni roman üçün yeni struktur yox, yeni təhkiyə üslubu tapmağa» ehtiyac duyurlar. Çünki bu zaman ədəbi tənqiddə geniş müzakirə obyektinə çevrilən romandan epik möhtəşəmlik, epik vüsətlə yanaşı, povest yığcamlığı və «lakonizm» də tələb olunurdu. Bunu belə izah etməyə çalışırdılar ki, «məsələ həcmdə, səhifələrin sayında deyil, əsərlərdə qoyulan və həll edilən ümdə bəşəri problemlərdə, vacib həyat məsələlərindədir».

Gələcək inkişafı qaldırılacaq böyük problemlərdən asılı olan müasir romanı fikir romanı kimi görmək istəyən ədəbi tənqiddə lakonik və «miniatür» roman yaratmağın ümdə şərtlərindən biri kimi «fəlsəfəlik məsələsi» qabardılmağa başlayır: «romanda fəlsəfəlik dedikdə, biz... ayrıca «fəlsəfi roman» tələb etmirik, fəlsəfəliyi bədii şərtlərdən biri kimi başa düşür və onu hər şeydən əvvəl, yazıçının ideya, ictimai mövqeyində, hadisələrə verdiyi qiymətdə, tipikləşdirmə prosesinin, bədii idrak və inikasın özündə axtarırıq». Y.Qarayevin dediyi bu fikirdə bir həqiqət var idi. Çünki bu dövrdə epik roman janrına xüsusi «ehtiyac» duyan və bir-birinin ardınca üç roman yazan Elçinin «fəlsəfəliyi» də məhz onun tez-tez müraciət etdiyi və nəinki ayrı-ayrı anlara və məqamlara, hətta bütövlükdə poetik sistemin özünə tətbiq etdiyi bədii şərtiliyində ehtiva olunurdu.

Elçinin özünəməxsus üslubi yeniliyi ondan ibarət idi ki, o öz «hekayə üslubunu» (bir məqamda ideya açmaq) romanlarına da tətbiq



etməyə müyəssər olmuşdur. Başqa sözlə desək, o, əsərin müəllif mövqeyi kimi təzahür edən ideyasını – «baş qəhrəman»ının aqibətini, zahirən süjet xətti ilə sıx əlaqəsi olmayan, eləcə də əsərin məzmununda həlledici rol oynamayan bir fəslində və yaxud ayrı-ayrı hissələrində təqdim edir və bunu məhz bədii şərtilik əsasında həll etməyə çalışmışdır.

«Ağ Dəvə». Poetikasının zənginliyi, kamillik modelinə görə Elçinin digər əsərlərindən fərqlənən «Ağ dəvə» romanı bu cəhətdən xüsusi maraq doğurur.

Əsərdə Ağ Dəvə ilə bağlı üç rəvayət söylənilir (Rəvayətlərin təhlilində romanın təhkiyə ahəngini saxlamağa çalışacağıq).

***BİRİNCİ RƏVAYƏT***

### AĞ DƏVƏ VƏ YOLÇU
(adlar şərtidir)

«Yolçu Ağ Dəvənin üstündə səhra ilə gedirdi...

Rəmzilik ifadə edən rəvayətin «poetik» yozumu zənnimizcə belədir: Ağ Dəvə – tale, qəzavü-qədərdir (ömür karvanı); Səhra – dünyadır; Yolçu – insandır (peyğəmbər); Dəvənin qumun üstündə saldığı ləpirlər – tarixdi (insanların saldığı izdir).

Yolçu tacir idi. Son bir ildə uzaq yolda tək olmağı – ipək-qumaş karvanını özündən əvvəl göndərib öz-özü ilə təkbətək qalmağı xoşlayırdı. Ancaq onun heç bir səfəri bu gecəki səfəri kimi olmamışdı, onu fikirlər məngənəsində belə sıxmamışdı. Bu gecə bütün varlığını qəribə, qeyri-adi təəssüf hissi çülğalamışdı – axşama yaxın yola çıxanda darvazalarının qabağında qoca əncir ağacında qara qarğa görmüşdü. O qara qarğanın qapqara gözlərinin dibinə çökmüş kədər onu sarsıtmışdı... Və Yolçu elə həmin gecə bir kəşf etmişdi... kəşf etmişdi ki, onu sarmış ətrafın zülməti, gecənin aləmi bürümüş «qaranlığı» əslində ömrü üç yüz il olan o qara qarğanın gözlərindəki o dərin kədərin qaranlığıdı... (Əldə çıraq həqiqət axtarışında olan bəşəriyyətin əzəli həsrətindən doğan bu kədərin əbədiyyən mövcud olmasına işarə – N.B.). Yolçu xoşbəxtliyin nisbi olduğunu düşünür, Adəmin «tanrısına asi olub yolundan azdığı üçün cənnətdən

qovulmasını», cəza yeri kimi Sərəndibə göndərilməsini yada salır – Sərəndib də adi bəndələr üçün «cənnət-məkan» bir yerdi, əsl cənnətin yanında isə bir cəza yeri idi (Allahın deyil, özünü taleyinin yaradıcısı – yer üzünün «əşrəfi» – hesab edən «allahsızla» (asilər) cəmiyyətinə işarə – N.B.). Sonra... xoşbəxtlik rəmzi olan Süheyl ulduzunu, parıltısı ancaq Yəmən ölkəsində aydın görünən xoşbəxtlik ulduzunu fikirləşir, lakin bu ulduzu da görməyin müşkül bir iş olduğunu düşünür, çünki «...yer üzündə nə qədər məxluqat vardısa, bir o qədər tale vardı və o qədər taleyin hərəsinin öz Yəməni vardı... Həmin o Yəmənə gedib çıxmaq... O Yəməndən Süheylə baxmaq mümkün deyildi, çünki həmin o Yəmən əlçatmaz, ünyetməzdi...». Hər bir fərdin öz xoşbəxtlik yolu var idi. «Kütləvi cəmiyyət»in xoşbəxtliyi heç bir zaman reallaşmayacaq boş bir illüziya idi (Ümidsizliyə işarə – N.B.). Bu zaman Yolçunun beynində «Məni həsrət yaratdı» fikri ani bir şimşək kimi çaxıb keçir... Və Yolçunun ruhi təbəddülatı da elə bu andan başlayır. Gecə birdən-birə ürəyi sıxılan Yolçu Ağ Dəvənin ağzını döndərib yoldan çıxır (İnsan taleyini sınayırmış kimi, adət etdiyi, doğru saydığı yolunu dəyişir – N.B.) və bir az kənarda səhranın içi ilə yola müvazi getməyə başlayır.

Təzə açılan səhər ayazında Yolçunun bütün fikirləri, hissi möcüzə həsrətində idi. O möcüzənin ki, Musa peyğəmbər də yalvarıb Tanrıdan görmək istəmişdi, Tanrı da ona «Məni heç zaman görməyəcəksən» demişdi. Qeyd etmək lazımdır ki, əslində Yolçunun – insanın öz əzəli «həsrətini» dərk etməsi («Tanrını görmək, Haqqa yetmək həsrəti»), insanlığın – peyğəmbərlərdən tutmuş adi bəndələrə qədər möcüzə həsrəti ilə (haqqa varmaq həsrəti) yaşamasını etirafı və Haqqın – xoşbəxtliyin Tanrının özünə bərabər tutulması («inam» – «iman» fəlsəfəsi) illüzor xəyallar aləmində sərgərdan qalan sosialist-ateist cəmiyyətin özündə də ədəbi mühitdə bir inqilab idi. Bu, «dini vakuumu» adlamış milli insanın əzəli kökə qayıdışı idi. Və bu tendensiyanın – bədii faktın özü yeni nəsri (60-cı illər nəsri) doğuran ekzistensializmin özünə bir etiraz idi. Çünki insanı bədbəxt, aciz, öz-özü ilə təkbətək qalan fəci bir varlıq hesab edən bəzi ateist ekzistensialistlərin (J.Sartr, A.Kamyu, Haydegger) əksinə olaraq, bu romanda insanın – Yolçunun qəlbində nə zamansa gerçəkləşəcək ümidi, həsrəti vardı (Bu həsrət «milli insanın Tanrıya qovuşmaq həsrəti idi – N.B.).

Dünya isə Yolçunun nəzərində yeknəsəqdi, möcüzəsiz dünyaydı... Fani, gəlimli-gedimli dünyaydı və dünyanın bu yeknəsəkliyi



minillərin yeknəsəqliyi idi. Bu «sükunət» Yolçunun ürəyini uçundurur, dayaqsız edir, O dönüb Ağ Dəvənin iri möhür kimi qumun üstündə yapışıb qalan ləpir izlərinə (tarixə) baxmaq istəmir. Çünki «ləpir xətti daha salınmışdı... daha necə vardısa eləcə də qalacaqdı... əyilib, burulmayacaqdı... Haçansa külək qopanda, qasırğa başlayanda (tarixin hansısa dönəmində, hansısa bir qüvvənin əli ilə – istər bəşərin, istər məhşərin – N.B.) itib gedəcəkdi...».

«...Yolçu gözlərini qaldırıb qıpqırmızı qızarmış dan yerinə baxdı və bu dəfə o dan yerinin qırmızısı dünyada tökülən qanlardan xəbər verdi...».

Dan yerinin qızartısı Yolçunun gözlərinin qabağına gəldikcə qan rəngi alırdı – hər səhərin açılması – hər yenilik kimi qanlar – qurbanlar tələb edirdi (Dan yerinin qırmızısı «qeybə», «naməlumluğa» aparan dəyişməz ləpir izlərini poza biləcək «qasırğalara» – cəmiyyəti durğunluqdan çıxara biləcək inqilablara, «mən»ləri susdurulmuş, Adəm kimi «cəza»ya məhkum olunmuş xalqların və millətlərin «oyanış» hərəkatına işarə idi – N.B.).

«...Yolçuya nə olmuşdu? Bu nə fikirlər idi? Bu nə görümlər idi?..». Və birdən-birə Yolçunun insanlığı aydınlığa, işıqlı sabahlara çıxarmaq istəyən peyğəmbərin aqibəti düşür yadına. Allahın xəlq etdiyi adamlar peyğəmbərimiz Məhəmməd Rəsulullahı daşa basıb, dişini sındırıb, dodağını parçalamışdı?! Nə üçün Allah buna yol verdi? Məhəmməd ki, Allahın elçisi idi. Niyə ona əl qaldıran adamların əli qurumurdu?! Sonra «gömgöy göyə baxdı... Göyün o təmizliyindən, gömgöylüyündən imdad istədi və fikirləşdi ki, yəqin haqq o qədər ülvidir, böyükdür, yüksəkdir... Onu dərk etmək üçün, ona çatmaq üçün beləcə əzab-əziyyət çəkməlisən...

Lakin sonra da «nə üçün haqqa çatmaq üçün insan əzab-əziyyətdən keçməlidir? Allah ki, adildir, - deyə düşünür. Allahın adilliyinə şübhə (quruluşun özünə şübhə – N.B.) Yolçunun beynini dumanlandırır. O mürgüləyir. Bu mürgü Yolçunun öləziməkdə olan inamını – haqqı görmək, ona varmaq ümidini tamam sönməyə qoymur. Əksinə, haqqa yetmək üçün ona yol göstərir – səhər «dua edib salavatını çevirən Yolçu Ağ Dəvəsini itmiş görür. Lakin onun «nəsə qeybə – naməlumluğa aparan ləpir izləri ilə daha getmək istəmir.

Ağ Dəvəni (taleyini) itirmiş, yolunu azmış Yolçu indi nəhayətsiz, geniş səhrada (dünyada) özü öz yolunu tapmalı idi.

«Yolçu ikinci namazını səhrada qıldı... sonra səhradan çıxıb yolunu tapdı və axşamüstü karvanının düşərgəsinə çatdı». (Haqqa

yetmək üçün insan bu haqqa dərin inam bəsləməli və onun şəninə daim şükranlarda bulunmalı idi - N.B.).

Aydındır ki, əsərin yazıldığı dövrdə Elçin onu narahat edən taleyüklü bir məsələni birbaşa dini təsəvvürlər, açıq-aşkar müqəddəs inamlarla əlaqələndirə bilməzdi. Və Elçinin müqəddəs dayaqlardan məhrum bir cəmiyyəti məhz Ağ Dəvə ilə haqqa qovuzdurmaq istəməsi dahiyanə düşünülmüş poetik vasitə idi.

Bu mənada romandakı bədii tutumu, oynadığı rolu və Yolçunun taleyindəki missiyası cəhətdən sərf-nəzər edildikdə Ağ Dəvənin müəllif tərəfindən təsadüfi seçilmədiyi qənaəti hasil olur. Çünki tarixdən və dini məxəzlərdən məlumdur ki, Məhəmməd Peyğəmbərin də məşhur Ağ Dəvəsi vardı. Və o, camaat arasında haqq sözünü deyəndə də, haqq uğrunda apardığı döyüşlərdə də həmişə Ağ Dəvənin üstündə olardı. Bundan başqa, rəvayətdəki Yolçu bəzi zahiri əlamətləri və daxili keyfiyyətləri ilə də Peyğəmbəri xatırladır. Yolçu da Peyğəmbər kimi tacirdi, ipək-qumaş karvanı ilə səhralar dolaşır. Ağ əmmaməsi, ağ ipək libası, şagirdləri, həbəş qulamları, nökərləri var. Xalq arasında «Vəliyyünnemə» (kömək əli uzadan) adlandırılır. Ən başlıcası isə ucsuz-bucaqsız səhraları Ağ Dəvəsi ilə qət etdiyi vaxtlarda dünya, həyat, bəşəriyyət haqqında fikir-xəyallara qərq olan Yolçu da, qəlbi Haqqın sözünü bəndələrinə çatdırmaq amacı ilə döyünən Peyğəmbər kimi, qəbahət və günah girdablarında çabalayan insanlığı cəhalət zülmətindən azad etmək, qaranlıqlardan işıqlı sabahlara çıxarmaq yolları haqqında düşünür. Doğrudur, Yolçunun qulağına qeybdən səs gəlmir, Allahın kəlamı ona vəhy halında nazil olmur, lakin gecə-gündüz haqqın dərgahına səcdələrdə bulunan, səhər-axşam dilindən dualar əskik olmayan Allahın «mömin bəndəsi»nə Ağ Dəvənin yoxa çıxması ilə qeybdən işarə verilir. Bu işarə yolçunu tarixən mövcud, dəyişməz cığırları pozub yeni yollar aramağa – haqq yolunda mübarizələrə çağırırdı.

Fikrimizcə, Elçin ümdə məqsəd və mətləbini bədii şərtilik əsasında qələmə aldığı Ağ Dəvə haqqındakı bu rəvayətin içində rəmzi məna daşıyan üç qısa hekayətdə (rəmz içində rəmz) vermək istəmişdir: Adəmin – insanın (sovet vətəndaşının) yaşadığı yer üzü «cənnət sayılsa da – Allaha asi olduğu üçün göndərildiyi cəza yeri idi; Hər kəsin öz taleyi «öz Yəməni» olduğu üçün cəm halda (kollektiv) xoşbəxtlik ulduzunu seyr etmək mümkünsüz idi; nəhayət, peyğəmbərləri daş-qalaq edilən dünyada bəşəriyyətin ədəbi və əzəli həsrəti olan haqqa yetmək üçün qanlar tökülməsi labüd idi.



Gəlib karvanına yetişən «yolçunun iri qara gözlərinin dibinə bu dəm dərin bir kədər çökmüşdü...». Lakin şagirdləri, nökərləri, qulamları heyrətə salan bu kədər, heç də onların düşündüyü kimi, «bircə dəvədən ötrü» deyildi... Bu, Yolçuya agah olan həqiqətin qaçılmazlığından (insanların keçdiyi yolu – tarixi dəyişmək üçün qanlar tökülməli idi – N.B.) doğan kədər idi. Lakin Elçinin bu romanında Yolçu – insan hələlik passiv idi, varlığını silkələyən qəfil kəşfindən sarsılan Yolçu heç də mübarizə etmək əzmində deyildi, o, bədbinliyə qapılaraq kaş mən də dəvə ilə bir yerdə itəydim...» – deyə düşünürdü (ekzistensializmin təzahürü – N.B.).

*İKİNCİ RƏVAYƏT*

## AĞ DƏVƏ VƏ HƏQİQƏTİ DEYƏN

Bu rəvayətdə nə vaxtsa Nuh-Nəbinin dövründə düşmən qılıncından canını qurtararaq uzaq dağlara, daşlı-qayalı yerlərə pənah aparıb orada kənd-məskən salan bir tayfadan, Məhəmməd və Əli adında qardaşdan artıq iki dostun əzab-əziyyətli güzəranından, faciəli aqibətindən söhbət açılır. Torpaq əvəzinə yeri daş-kəsək, qayalıq olan bu kəndin camaatı bir parça ruzi əldə etmək üçün olmazın əziyyətlərə, zəhmətlərə qatlaşır. «Yazda payızdan çox, payızda yazdan artıq» əziyyət çəkən bu insanların gecə-gündüz qan-tər içində əkib-becərdikləri zəmiləri qəbil yağan yağış-leysanlar yuyub aparır, min bir əzabla bəslədikləri bağ-bağatların barını qışın soyuğu, şaxtası vurub illərlə çəkdikləri əməyi zay·edirdi. Bu kənddə «yer də naqis idi, başının üstündəki göy də naqis idi... Allah bu kəndi tamam yaddan çıxarmışdı».

Bir gün yenə göylərdən fəlakət gəlib kəndin bütün bərini-bəhərini yuyub aparır, təkcə çınqıllar, qaya parçaları qalır.

Belə bir əzablı, məhrumiyyətli kənddə göz açıb böyüyən, özünə ev-eşik quran Məhəmməd təbiətin bu zülmünə daha dözə bilmir. «... Köçək burdan! Babalarımız nahaq burda məskən saldı...» (Canını doğma yurdlarından köçməklə qurtarmaq istəyənlərə işarə) deyərək, kəndin ulu ağsaqqalı Dədə Süleymandan xeyir-dua istəyir. Dədə Süleyman «Babaların işi haqq işidir, ...tənəyə layiq deyil...» desə də,

min illərdən bəri kəndin camaatının sığınacağı, pənahgahı olmuş yurd-ocaq yerini tərk etməyi nahaq bir iş saysa da, Məhəmmədi qərarından döndərə bilmir və son anda «...olacağa çarə yoxdur, nə yazılıbsa, o da olacaq» əminliyi ilə «Kim istəyirsə, onunla gedə bilər» deyir. Bu zaman Əli irəli yeriyib Məhəmmədə «mən də səninləyəm... mən də gedirəm» - deyir. Dədə Süleyman gülümsəyərək: «Həzrət Əli də həmişə Məhəmməd Peyğəmbər Rəsulullahla bir yerdə olub» deyir və yollarına uğur diləyir.

Rəvayətdə personajların müqəddəs adlar daşıması da təsadüfi deyildi. Bununla Elçin əsas iki vacib məsələni – həqiqətən rəvayətlərdəki Ağ Dəvənin müqəddəs insanlarla bağlılığını, həmçinin «Məhəmməd hümməti» olmasına baxmayaraq, insanların hələ də qeyri-kamil bir varlıq, yer üzündə sınağa çəkilən adicə Allah bəndəsi olduğunu vurğulamaq istəmişdir.

Bundan sonra Məhəmmədlə Əli kəllərini arabaya qoşub kənddən köç edir. Dərələr-təpələr keçir, dağlar aşır, yolda bir-birinə həyan olur, axırıncı tikəni yarı bölür, axır gəlib geniş yaylağa çatırlar. Və bu «göz işlədikcə uzanan, dünyanın yaxşı işlərindən, əməllərindən, saflıqdan, təmizlikdən deyən», torpağı ətirli, güllü-çiçəkli cənnət-məkan yerdə məskən salırlar.

Bir-birinə kömək olub ev tikir, həyət düzəldirlər. Və bir də... sahələrini bir-birindən ayıran çəpər çəkirlər. Və facia də elə «o güllü-çiçəkli düzənliyin, qəhvəyi rəngli torpağın şahidi olduğu ilk çəpər»dən başlayır... Əliyə tamah güc gəlir, o, çəpərin əvvəlcədən razılaşdıqları yerini dəyişir və qollu-budaqlı armud ağacı – dibinin torpağı ilə bir yerdə onun sahəsində qalır. Və bir gün sahəni gəzməyə çıxan Məhəmməd gəlib armud ağacının dibinə çatanda heyrət və təəccübdən donub qalır. Onu dərin pərişanlıq hissi bürüyür. Bu vaxt Əli də gəlib ora çıxır. Aralarında mübahisə düşür. Məhəmməd onu gözlərindəki hərisliyi duyub təəssüf hissi ilə «Bir-birimizə qardaş demişdik... niyə belə iş tutdur» – deyə soruşur. Fəxr və qürurla öz sahəsini seyr edən Əli onunla razılaşmır, bu yeri özü şumladığını söyləyir. Məhəmməd Əlinin gözlərində «heç vaxt görmədiyi və təsəvvürünə gətirmədiyi» bir əyrilik sezir, Əlinin acgözlüklə baxan gözlərində onun da torpağına sahib olmaq istədiyini görür və ömrü boyu torpaqsız olan Məhəmmədi yenidən o daşlı-qayalı, barsız-bəhərsiz, leysanlı günlərinə qayıtmaq qorxusu bürüyür və o, sövqi-təbii çəpərin dibinə atdığı dırmığı qapıb Əlinin başına vurur. Əlinin çapılmış alnından qırmızı qan axıb tünd qəhvəyi rəngli şumlanmış torpağa tökülür. Məhəmməd Əlinin armud



ağacının dibinə sərilmiş cəsədindən gözlərini ayıra bilmədiyi bir vaxtda hiss edir ki, arxadan Ağ Dəvənin üstündə Həqiqəti Deyən gəlir...

Əlinin torpağın üstündə laxtalanmış qanı Həqiqəti Deyənin ağ gözlərində kiçik qırmızı bir ləkə salır. Burada facia bitir və rəvayətin əsl mahiyyəti açılmağa başlayır. Bildiyimiz kimi, öz nəfsinin əsiri olan insanın nələrə qadir olduğu, nə cür müdhiş fəlakətlər törədə bildiyi hələ lap bineyi-qədimdən, Adəm Peyğəmbərin övladları Habil və Qabil qardaşlarının yaşadığı zamanlardan – Habilin paxıllıqdan Qabili öldürdüyü vaxtlardan məlumdur.

Elçin Yer üzündə baş verənləri daha dərindən aşkarlamaq, «zamanın gərdişindəki faciəviliyi» əsaslı şəkildə bəyan etmək üçün Məhəmmədlə Əlinin aqibəti timsalında min illər keçsə belə, insanın hələ də zəif məxluq olduğunu, içində baş qaldıran hərislik və paxıllıq, acgözlük və tamah, hiylə və yalan kimi «şeytani vəşvəsələr qarşısında hələ də aciz qaldığını göstərir və insanların öz içlərində gəzdirdiyi «azman və titan Şər»in (N.Cabbarov) əlində oyuncaq olduğuna işarə edir; göz işlədikcə uzanan genişlik içində insanın bir qarış torpaqdan ötrü etibarı, sədaqəti tapdalaması, qardaş qanı tökməsi səhnəsi ilə Elçin Şərin hökmünə tabe olan qəzəblə hirsin, kinlə nifrətin, ədavət və intiqamın nəciblik, alicənablıq, səbr, güzəşt, təmkin kimi ən ali, ən yaşarı insani keyfiyyətləri üstələyərək onu (insanı) necə bir qəzavət və fəlakət girdablarına sürüklədiyini bütün dəhşəti ilə göz önündə canlandırır.

Məhəmmət törətdiyi əməli günah saymır, özünü haqq bilir. Onun əsil Haqqdan – onun ədalət mizanından xəbəri yoxdur və o, bütün varlığı ilə Həqiqəti deyənə üzünü tutub öz sözlərinin təsdiqini umur: «Bu torpaq mənim idi, onun deyildi... Söylə, həqiqət, kimin idi?»

Bu zaman Həqiqəti Deyən «Mən sənəm, mən oyam...» deyib özünün də insan olduğuna işarə edərək həqiqəti torpağın özündən bilmək istəyir...

Ağ dəvə boynunu uzadıb qulağını torpağa dirədi, sonra iri qara gözləri ilə Həqiqəti Deyənin ağappaq gözlərinə baxdı. Həqiqəti Deyən belə söylədi: «... Torpaq deyir ki, ... mən onların heç birinin deyiləm, onlar mənimdir! Biri artıq gəlir qoynuma. O biri də vaxtı çatanda gəlib mənim olacaq!» Ağ Dəvənin dili ilə söylənən sözlərin mənası isə bu idi ki, insan fani idi, yer üzünün müvəqqəti sakini – qonağı idi, ömrü boyu çalışıb-vuruşub artırdığı sərvət də, uğrunda vuruşduğu, qanlar tökdüyü torpaq da bu dünyada qalacaqdı. Və müəllifə görə hər cür

nəfsi-tamahın, hər cür ehtirasın qulu olan qeyri-kamil insan heç vaxt Haqqa qovuşa bilməyəcəkdi.

Göründüyü kimi, Elçinin fəlsəfi görüşləri təbliğ etdiyi humanizm və insanpərvərliklə sıx surətdə bağlıdır. Həyatın dəyişməsi üçün Elçin insan zəkasını, insanın yüksək mənəvi keyfiyyətlərə malik olmasını zəruri hesab edir.

Elçin varlığı dərk etmək, onu dərinləşdirmək, təkmilləşdirmək işində ağıla, həssaslığa üstünlük verir və insanları məhz buna səsləyir.

*ÜÇÜNCÜ RƏVAYƏT*

## AĞ DƏVƏ VƏ ÜRƏYİYUMŞAQ ADAM

Şəhərə aclıq düşmüşdü. Allah yolunu azmış insanlara göydən daha bir cəza – Yer üzünə fəlakət – quraqlıq göndərmişdi. Bir zamanlar yolçu ilə dolu olan karvan yolları bomboş boşalmış, düzənlikdə qurumuş qanqaldan başqa bir şey qalmamışdı. Atlar, dəvələr kəsilib yeyilmiş, qırılan qırılmış, qalanı başını götürüb hərə bir tərəfə qaçmışdı.

«... Arvad başa düşdü ki, bu, daha axırdı. Qucağındakını da, qarnındakını da Allah qarğıyıb və birdən-birə yüz təbib də gəlsəydi bir Allah qarğımışa nə edə bilərdi?» Qucağındakı və qarnındakı balasını aclığın pəncəsindən qurtarmağa can atan ana üç gün-üç gecə idi ki, ayağı yalın, başı açıq karvan yolu ilə gedirdi. Ümidi ancaq bu karvan yoluna idi.

Getdikcə taqətdən düşən ananın «qara Yer üzünə gəlməmiş balası» da hey qarnında təpik atır, əlini, başını tərpədirdi. Ana o uşağın çəkdiyi əzabı bütün ürəyi ilə duyur, amma, heç nə edə bilmirdi. Əli hər yerdən üzülmüş ana yavaş-yavaş yerə oturub zeytun ağacına söykənir və daha heç vaxt ayağa qalxa bilməyəcəyini anlayır. Çarəsiz və taqətsiz halda inləyə-inləyə ağlamağa başlayır. Körpəsi də ona qoşulub ağlayır. «... Arvad it kimi zingildədikcə, uşağın ağlamasını eşitdikcə hər tərəfə zülmət çökürdü, bu əbədi bir zülmətdi və yavaş-yavaş onları aparırdı». Bu zaman ana özünün də, uşağının da ağlamağından savayı bir ağlamaq səsi də eşidir. Var gücünü toplayıb zülmətdən çıxır və gözləri önündə dizi üstə yerə çöküb onunla üzbəüz oturmuş Ürəyiyumşaq adamı görür. Ürəyiyumşaq adam qarşısındakı müsibətə baxıb için-için ağlayırdı. Ana onu görən kimi tanıyır. Allahın



onlara yazığı gəldiyinə, bu çöl-biyabanda məhz Ürəyiyumşaq adamı onların qabağına çıxartdığına sevinir. Lakin ananın sevinci əbəs idi. Yolçunun əlində kiçik bir bağlama var idi. Ana bunun çörək olduğunu hiss edir. Arvad daha ağlamır, uşaq da səsini kəsir. Yrəyiyumşaq adam isə kirimək bilmir, elə hey ağlayır, ağlayırdı. Sonra axır ki, özünə gəlir, ayağa qalxıb yoluna düzəlmək istəyir. Ananı dəhşət bürüyür, yalvarıb ondan bir parça çörək diləyir. Ürəyiyumşaq adam isə əlindəki bağlamaya baxıb «mən sənin halına acıyıram, nə qədər istəyirsən oturum sənin bu halına ağlayım, - deyir. Amma bu mənim azuqəmdi, onu sənə verə bilmərəm» deyir və bir parça çörəyi acından ölən anaya qıymır.

Deyəsən doğrudan da dünyanın axırı çatmışdı. Dünyanın ən Ürəyiyumşaq adamı daşürəkli birisinə çevrilmişdi... O, qəddar deyildi, rəhmsiz, insafsız da deyildi, ancaq, onun rəhmdilliyi soyuq bir mühakimə ilə əvəz olunmuşdu. Bununla müəllif artıq insanlara ədalət, mərhəmət, şəfqət, fədakarlıq, xeyirxahlıq kimi ali düyğuların deyil, riyakarlıq, biganəlik, laqeydlik, etinasızlıq, xudbinlik kimi eqoist, cılız hisslərin hakim kəsildiyini vurğulayır. Və bu dəfə Ağ Dəvə insanları məhz buna görə ittiham edir.

Ürəyiyumşaq adam acından ölən ananı sonsuz səhra ilə baş-başa buraxaraq Ağ Dəvəsini minib karvan yoluna düşür. Ağ Dəvə yenə də insanları təkbaşına qoyub gedir, yenə də insanların işinə qarışmır (çünki insan həyatda özü öz xilas yolunu seçməli, özü öz nicat yolunu tapmalı idi).

Birinci rəvayətdə Ağ Dəvə Yolçunu yolda tək qoyub getməklə sanki insanlığı tarixin yolunu dəyişməyə səsləyir. İkinci rəvayətdə Ağ Dəvə «azman Şərin» qulu olan insanların gözünü açmağa, onlara öyüd verməyə çalışır. Hər iki rəvayətdə seçim şansı olan insanlığın üçüncü rəvayətdə artıq heç bir şansı yoxdur, onun əli hər şeydən üzülmüş vəziyyətdədir. Ağ Dəvə – tale də artıq insanlardan üz döndərir, onların dərdinə daha şərik olmaq istəmir, əzab-əziyyətlərinə biganə, etinasız qalır, gözləri ilə «...mən sizin işinizə qarışmıram, insanlar» deyir. Elçinə görə ananın işgəncəli aqibəti heç də alın yazısı olmayıb, öz əməllərinə görə bəlalara düçar olmuş insanlığın aqibəti idi (bunu ana özü də etiraf edir: «Allah qarğımışa kim nə edə bilərdi?..»). Və Ağ Dəvənin dediyi isə bunu bir daha təsdiq edir.

Gördüyümüz kimi, hər üç rəvayətdə bir ümidsizlik, bir çıxılmazlıq hökm sürür. Lakin mövcud şəraitə, cəmiyyətin bulunduğu gerçək duruma münasibətini, mövqeyini fəlsəfi-poetik bir yozumla şərtilik, rəmz vasitəsi ilə diqqətə çatdıran Elçin əsas ideyasını əsərin

şərti olaraq «Ümid karvanı» adlandırdığımız sonuncu hissəsində açmağa çalışır.

*SONUNCU RƏVAYƏT*

## ÜMİD KARVANI

Bu hissədə artıq yazıçı olmuş Ələkbər ən çox sevdiyi payız dünlərindən birində, decəyarısı iş otağında oturub şırıltı ilə küçədən axan yağışın səsinə qulaq asır. Neçə gün idi ki, analarının mərmər qəbri başında durmuş altı igid oğulun ciddi sifəti gözlərinin qabağından çəkilmirdi. Neçə gün idi ki, o, müharibədən sağ-salamat qayıtmış altı qardaşla – Cəfərlə, Adillə, Qocayla, Cəbrayılla, Əbdüləliyə, Ağarəhimlə üzbəüz idi. Onların baxışlarındakı «kişilik, güc, möhkəmlik, ehtiram, sədaqət» onun otağına bir hərarət, bir nikbinlik gətirmişdi. O baxışlar nəinki, «mənim iş otağıma, bütün içimə, gündəlik həyatıma bir hərarət gətirirdi... bu hissədə bir təmizlik, bir şəffaflıq var idi...» Bəs o yağışlı, çiskinli payız günündə Ələkbərin qəlbini isidən nəyin hərarəti idi? Bu rahatlıq haradan gəlirdi? Buna aydınlıq gətirmək üçün tənqidçi C.Məmmədovun gəldiyi qənaətlə tanış olmaq yerinə düşür:

«... Əgər sən öz həyatını mərdliklə yaşamısansa, pisliyi və şəri daşıyanlara düşmən olmusansa, insana dayaq olmusansa, sənin bir gün yoxluğun hiss olunubsa, bu yoxluqdan bir boşluq yaranıbsa, kiminsə və kimlərinsə qilbinə bir kədər çökübsə, onda ölüm heç vaxt yoxdur... və biz bu fikrin davamı kimi demək istəyirik ki, əgər xatirələrdə yaşayanın öz davamı kimi qoyub getdiyi altı oğul qara mərmər daşlı qəbrin önündə ehtiram və sədaqət içində dayanıbsa, bu, «atalar və oğullar» arasında əlaqənin itmədiyinə, keçmişlə gələcəyin bağlılığına, ölümün qaçılmaz olduğu dünyada etibarın, xeyirxahlığın yaşarılığına sübut idi. Və Ələkbərin içinə dolan hərarət də məhz bu gerçəkləşmiş həqiqətdən doğan hərarət idi.

Ələkbər yağış səsinə qulaq asa-asa mürgülədiyini hiss edir:

«... Bir ...üç ...altı.

«Karvanda altı dəvə var idi, hər dəvənin öz sarbanı var idi və bunlar Xanım xalanın oğlanlarına – Cəfərə, Adilə, Əbdüləliyə, qocaya, Cəbrayıla, Ağarəhimə oxşayırdı...». Ələkbər mürgüsündə Ağ Dəvədən ibarət karvan görür. İndi dəvə tək deyildi, üç deyildi, altı idi. Sarbanlar da igid, mərd, qeyrətli kişilər idi. «... dəvələrin belində xurcunlar var



idi... O xurcunlardan güclə hiss olunan vaqon iyi gəlirdi...». Ələkbər yundan toxunmuş bu xurcunları böyük həsir zənbilə oxşadır (bir zamanlar atasının səfərlərdən gətirdiyi dopdolu həsir zənbilə) və bu xurcunlardan da «bərəkətli vaqon iyi» (halal ruziyə işarə) gəldiyini hiss edir. Ələkbər sarbanların arasında olmasa da onun da bu karvanın bir üzvü olduğu aydın idi. Axı ikinci rəvayətdəki Həqiqəti Deyən də demişdi ki, «...Mən sənəm, mən oyam...». Bütün insanlar birdir, onların dərdi də, sevincləri də birdir və xoşbəxtlik haqqında arzuları da birdir. Xoşbəxtlik rəmzi olan Süheyl ulduzu da birdir. Və hərənin öz taleyi və hər taleyin «öz Yəməni» olsa da onların yolgöstərən ulduzu bir idi və bu xoşbəxtlik ulduzuna doğru hamı bir yerdə getməli idi. «... Hara?» sualı səslənir. «Karvan cavab verdi (sarbanlar yox, Ağ Dəvə yox, məhz bütün karvan cavab verdi)... gələcəyə gedirik!..»

«Hara?» sualına tək sarban yox, təkcə Ağ Dəvə yox, bütün karvan cavab verir; artıq bu əlamət fərdin özü, öz acizliyi, varlığı haqqında ekzistensial düşüncələrin «cəmiyyət fəlsəfəsi» ilə əvəz olunması prosesinin bədii əsərdə poetik təzahürü idi. Bu, həm də, Şərin kökü kəsilmədiyi bir zamanda cəmiyyətin xeyirxah qüvvələrinin daha sıx birləşib işıqlı gələcək uğrunda birgə mübarizə aparmasına bir ümid, bir işarə idi.

«Ölüm hökmü». «Hekayədə, bir məqamın yerinə yetirdiyi missiyanı» (C.Məmmədov) romanda tək bircə fəslin və yaxud hissənin yerinə yetirməsi bir «üslubi yenilik» kimi ən yüksək poetik təzahürünü Elçinin «Ölüm hökmü» romanında tapmışdır, desək, zənnimizcə yanılmarıq. Və əgər Nostradamusun senturiyalarının «gələcəkdən xəbər vermək» qüdrətinə malik olması doğrudursa, o zaman «Ölüm hökmü» romanının sonuncu «İntihar» fəslini müəllifin poetik axtarışlarında əldə etdiyi ən uğurlu nailiyyəti – ən böyük «uzaqgörənlik möcüzəsi» hesab etmək olar.

Müəllifin məqsədi, ictimai mövqeyi, qaldırdığı problematika və əsərin çıxardığı müəmmalı hökmün obyekti məhz bu fəsildə açıqlanır və yarım əsrdən artıq bir zaman kəsiyində milyonlarla insanın taleyində məşum rol oynamış «başabəla» quruluşun aqibəti də əsərdə rəmzi-simvolik məna daşıyan itin taleyi qismində təqdim edilərək bədii-şərtilik əsasında həll olunur. Fəsildə zülm və haqsızlıq mücəssəməsinə çevrilmiş, insanları hər bir müqəddəs təməldən məhrum etmiş dinsiz, imansız bir quruluşun məhvə məhkum olması güzəranından cana doymuş bir itin – Gicbəsərin öz sonuna – ölümünə doğru sürüklənməsi şəklində təsvir olunur. (Xam xəyallarla şirniklən-

dirilmiş, aldanılmış bir cəmiyyəti səciyyələndirmək üçün itin daşıdığı bu addan daha məqsədəuyğun bir ad tapmaq mümkün deyildi).

Maraqlı bir haldır ki, Elçin müxtəlif əsərlərində əsas ideya daşıyıcısı kimi heyvan obrazlarından istifadə etmişdir. Bununla bağlı tənqidçi İ.Vəliyevin bir fikrini xatırlamaq yerinə düşərdi: «Bu model bir çox xalqların ədəbiyyatında rast gəlinən insanların heyvanlarla, başqa cismlərlə əvəzlənməsi deyil, həyati gerçəkliklərin «şərti» it obrazı vasitəsilə reai təsvirlərlə canlandırılmasıdır».

«Dünya ədəbiyyatında geniş istifadə olunan mifoloji köklərə malik qurd-canavar-it tandeminin bu gün ədəbiyyatımızda bir neçə müxtəlif variantları mövcuddur ki, bunlardan biri də məhz daxili dünyası, iç aləmi ilə cəmiyyətdən təcrid olunmuş tənha adamı simvolizə edən qurd (it – N.B.) obrazıdır». Lakin «Ölüm hökmü» romanındakı «it» obrazı əsərə mifoloji arxetip kimi deyil, adi «məişət-güzəran personajı» kimi daxil edilmişdir. Nitsşevari anlamda cəmiyyətdə təklənmiş bircə fərdi deyil, əgər belə demək mümkünsə, bəşəriyyətin özündən təcrid olunmuş cəmiyyəti simvolizə edən bu itin özü-özü üçün çıxardığı, «ölüm hökmü» isə ümumən kəsirli quruluşa, yararsız hala düşmüş cəmiyyətə şamil edilirdi.

Elçin çürüməkdə, ərimməkdə olan cəmiyyətin ətrafa yaydığı üfunətin təkcə ab-havaya deyil, bu hava ilə nəfəs alan milyonlarla insanın qəlbinə, qanına hopmasını «Quzu budu» fəslində Gicbəsərin başına gələn «çoxmənalı» bir əhvalatla olduqca lakonik şəkildə əks edə bilmişdir.

Gicbəsər böyük xar tut ağacının dibində bir quzu budu tapır. Nəcəf Ağayeviç kimi harınların soyuducusunda yaddan çıxıb qalaraq iylənmiş bu quzu budu qurd-quşa yem olsun deyə ağacın dibinə atılmışdı. Yaralı ayağı ağrıyan, zədələnmiş boğazı sızıldayan, ağrıdan başını belə tərpədə bilməyən taqətsiz Gicbəsər bu soyuq quzu budunu dişlərinin arasında bərk-bərk sıxaraq rahat, gözdənkənar bir yerdə yemək həvəsi ilə bağlararası asfalt yolla axsaya-axsaya addımlayırdı.

«Yolun hər iki tərəfi dəmir torlarla çəpərə alınmış, daş hasarlarla tikilmişdi (qapalı, bütün dünyadan özünü təcrid etmiş keçmiş məkana bənzəmirmi? – N.B.). «Quzu budunun ağzında saxladığı isinmiş hissəsi... həyatının yaxşı məqamlarını – haradasa, haçansa bayırın soyuğunda, çovğununda isti bir yerdə yatmasını, haradasa, haçansa – çox-çox uzaqda qalmış vaxtlarda tumarlanmasını, haradasa, haçansa ağappaq bir qancığın onun dalına düşməsini...» itin yadına salırdı. Bu hiss Gicbəsərin ayağının ağrısını da, boğazının ağrısını da elə bil



azaldırdı. Bu zaman yol ilə gedən «Jiquli»lərdən birində əyləşmiş millətin dörd ziyalısı – gənc şair Səlim Bədbin, əməkdar incəsənət xadimi Ərəstun Bozdağlı və iki gənc şair ağzında bud aparan bədbəxt heyvanı görürlər. Arxadan gələn digər maşında da üç nəfər cavan qələm əhli əyləşmişdi. Talonla bir kilo ət almaq üçün saatlarla növbələrdə durmaqdan bezən və bəzən də heç bu əti də almağa müyəssər olmayan «tərifli» sovet dövlətinin «qürurlu» vətəndaşları gördükləri mənzərədən hiddətə gəlib: «Qov onu... Qov... Qov...», «Camaat əti talonla yeyir». «Fəhlə ətidir, kolxozçu ətidir...» deyərək bir parça quzu budunu tapanadək başına min bir oyun gəlmiş, döyülmüş, söyülmüş, alçalmış bu yaralı, taqətsiz itin dalına düşürlər.

Durğunluq illərində sovet dövlətinin iqtisadi-sosial durumunu və bayaqdan bəri millətin əqidəsiz, müftəxor, paxıl, dedi-qoduçu nümayəndələrinə nifrət və lənətlər yağdıraraq bir gün gələcək «...millət oyanacaq», «... Yazıq millət, bədbəxt millət» deyib «millət qeyrəti çəkən» bu ziyalıların mənəvi böhranını əks edən bu səhnəni Elçinin poetik təhkiyəsinin ən sanballı nümunələrindən hesab etmək olar.

Müqayisə üçün xatırlatmaq istərdik ki, «Ağ Dəvə» romanında Yolçunun gözlərində həsrət var idi. Bu romanda isə «həsrət» Elçinin xüsusi olaraq vurğuladığı «qüssə» ilə əvəz olunmuşdu. «Ağ Dəvə» romanında Ağ Dəvə haqqında söylənilən üç rəvayət və şərti olaraq «Ümid karvanı» adlandırdığımız sonuncu hissə rəmzi məna daşıyırdısa, «Ölüm hökmü» romanında nəinki bütünlüklə «İntihar» fəsli, hətta bu fəslin bütün cümlələri və sözləri rəmzilik ifadə edir. Burada Elçinin bədii dilə münasibəti ilə bağlı dediyi fikrin doğruluğuna bir daha əmin oluruq: «Bədii əsərlərin hər hansı bir parçasında bu və ya başqa sözü, söz qrupunu kəsib tullamaq mümkün deyil..., çünki bu sözlərdə bütün dil vasitələri elə bil ki, öz müstəqilliklərini, ayrı-ayrılıqda öz müstəqil mənalarını itirib böyük bir vəhdətin – bədii mənanın tərkib hissələrinə çevrilir».

Bu baxımdan tüklərinin rəngi Gicbəsərinki kimi qəhvəyi-qara rəngdə olan küçüklərin məhz ağ-sarı çiçəkli akasiya ağacının altında vurnuxması kimi rəmzilik ehtiva edən (böyük «ağ imperiyanın» «qara rəngli» xalqları – N.B.) «adicə» bir səhnəni də, zənnimizcə, «böyük bir mənanın» tərkib hissəsi hesab etmək olar.

Qeyd edək ki, elmi araşdırmamızın həcm məhdudluğuna baxmayaraq misal gətirdiyimiz sitatların bolluğu da məhz həmin dövrdə cəmiyyətin özünün hələ tam dərk etmədiyi acı pərişanlıq və təəssüfünün, hələ haqqında qəti qərar verə bilmədiyi uğursuz taleyinin

təcəssümü olar rəmziliyin malik olduğu böyük poetik mənanın əyani sübutuna xidmət edir.

Və biz tənqidçi C.Məmmədovun sözləri ilə desək, «yazıçının müdrikliyini, yaş artdıqca bu yaşla artan epik duyum qabiliyyətini» bir daha nəzərə çarpdırmaq üçün əsərdən bir parçanı da misal gətirmək istəyirik.

«... Küçüklər başdan-başa bir etibar, bir ümid içində idilər, əmcək axtarırdılar və altdan yuxarı Gicbəsərin qarnını iyləyə-iyləyə o tərəf bu tərəfə vurnuxurdular. Gicbəsər, əlbəttə, küçüklərin o etibarını, ümidini duyurdu».

Bu fəsildə gözləri təzəcə açılmış iki sahibsiz, köməksiz küçüyün ölümə məhkum olmuş itdən isti qucaq, tox qarın umması əsərdə real gerçəkliyin faciyəviliyini üzə çıxaran ən güclü fəlsəfi-poetik səhnələrdən biridir.

«Uzaqlarda yenə də şimşək çaxdı... Gicbəsər asta addımlarla irəliyə getməyə başladı...

... Küçüklərin ikisi də Gicbəsərin ardınca getdi. Gicbəsər addımlarını yeyinlətmək istədi, amma bacarmadı, küçüklər isə ona yaxınlaşırdı və bu zaman Gicbəsər bir anlığa dayanıb arxa ayaqları ilə küçüklərin üstünə qum sıçratdı. (Ondan küçüklərə həyan, arxa olmayacaqdı. Ümidlərini doğrultmayacaqdı – N.B.). Küçüklər də dayanıb gözlərini yumdu və qum sifətlərinə dəydi, yaş burunlarında, dodaqlarında yapışıb qaldı; küçüklər başa düşdü ki, daha irəli, o böyük itin ardınca getmək lazım deyil».

Burada yenə müqayisə yolu gedərək, diqqətə çatdırmağı lazım bilirik ki, Ağ Dəvə romanında Ağ Dəvə «naməlumluğa» doğru getməklə «həqiqət həsrəti» Yolçuya, «yeni yol aramaq» işarəsi vermişdi. İndi isə Gicbəsər, gözlərinə qum sıçratmaqla, «ruzi – hayan həsrətli» küçükləri «böyük itin dalınca getməkdən çəkindirirdi. Artıq «Ağ Dəvə»dəki «naməlumluqdan» və «həsrət»dən əsər-əlamət yox idi... «Ölüm hökmü»ndə həsrəti artıq qüssə, naməlumluğu «xəbərdarlıq» əvəz etmişdi... Çünki «böyük it» ölümə məhkum idi. Uzaqlarda isə şimşək çaxırdı...

Daha sonra oxuyuruq: «İt biganə gözlərini o uzaq işıqlardan çəkdi, sonra yenidən qayıdıb vurnuxan o iki küçüyə baxdı, gözlərindəki o qüssə daha da artdı (Bu qüssə artıq onları nələr gözləyəcəyini bildiyindən idi – N.B.) və itin qılçaları titrədi, dörd ayağı üstə dura bilməyib yerə çöməldi, elə bil ki, haçansa yekə, hərarətli bir əlin o küçükləri tumarlayacağını, sonra həmin hərarətin həmişəlik itib



gedəcəyini, o küçüklərin dəmir tor çəpərlərin, daş hasarların ətrafında, asfalt yolların, küçələrin üstündə böyüyəcəyini əvvəlcədən hiss etdi... sonra hər şeyi dəhşətli, dözülməz bir ağrı əvəz etdi». Zənnimizcə, burada şərhə ehtiyac yoxdur. Söhbətin hər cür tumardan – «dövlət qayğısından məhrum olmuş, arzuladığı azadlığı dəmir torlar, hasarlarla məhdudlaşdırılmış halal ruzisinə, rahatlığına tamarzı qalmış xalqın «ağrı»sından getdiyi məlumdur.

Və nəhayət, bu «ağrı»lara son qoymaq, ona bəslənən gerçəkləşməyəcək ümidləri yaşatmaq üçün «gicbəsər ayağa qalxdı, dikdirdən düşüb, dəmir yoluna çıxdı, relslərin arasına girib, eləcə asta-asta getməyə başladı».

Hara gedirdi gicbəsər? Ondan ümid və etibar gözləyən küçüklərə qüssə dolu gözləriylə baxan bu çarəsiz it hara gedə bilərdi? Öz-özünə ölüm hökmü oxumuş bu it ölümə qənşər gedirdi... Görkəmilə ürək parçalayan, rəzildən də rəzil vəziyyətə düşən Allahın bu dilsiz-ağızsız heyvanı «rahatlığını» uzaqdan gələn qatarın təkərləri altında tapır... Çünki o, artıq öz taleyini yaşamışdı və indi həyat dəyişməli, yeniləşməliydi...

«Uzaqlarda isə yenə də səssiz bir şəmşik çaxır» ... Fəsil də, əsərin özü də Elçinin bu xəbərdarlığı ilə bitir. Bu xəbərdarlıq irəlidəki yeniləşmənin, gələcəkdə baş verəcək möhtəşəm dəyişikliklərin müjdəçisi idi. Gicbəsərin ağrı-acıları artdıqca uzaqlarda səssiz şimşəyin də təkrar-təkrar çaxması əbəs yerə deyildi. Bu, mənfur yaşamdan bezmiş, səbri tükənmiş insanlığın yetişməkdə olan daxili etiraz və barızmazlığının bir gün içinə senməyib yağışa-leysana çevrildiyinə, aləmi yuyub-durulaşdıracağına işarə idi.

Bildiyimiz kimi, epopeya konkret biz zaman kəsiyində ictimai həyatın (bir və ya bir neçə qəhrəmanın həyat və taleyi fonunda), dövrün geniş, dolğun, mərhələli – panoram təsviridir. Nəsr tarixində vahid epopeya səciyyəsi daşıyan roman trilogiyalara da az rast gəlinməMişdir. Və nədənsə Elçinin bu üç romanı da bizə məhz belə trilogiyaları xatırladır. Doğrudur, trilogiyalarda süjet xətti, adətən eyni bir dövrün, eyni qəhrəman və personajların həyatı və taleyi üzərində qurulur, hadisə və əhvalatlar da məhz bu məzmun ətrafında cərəyan edərək inkişaf etdirilir. Lakin Elçinin bu üç romanında bir-birindən uzaq, bir-birindən fərqli dövr («Mahmud və Məryəm» romanı nəzərdə tutulur), ictimai quruluş və mühitdə yaşamış müxtəlif insan və insan qruplarının həyatı təsvir olunsa da onları vahid yazıçı qayəsi, yazıçı amalı birləşdirir ki, bu da "hə«iqət həsrəti", »üksək mənada "hə«iqət axtarışı"dı».

Elçin yazıçının yüksək amalını - y-zıçının müsbət qəhrəmanı» adlandırmışdır. Və biz məhz bu mənada müəllifin fəlsəfi-əxlaqi, mənəvi-psixoloji, ictimai-siyasi baxışlarını özündə ehtiva edən və hər üç romanı vahid bir nüvə ətrafında birləşdirən bu amalı – bu ideyanı hər üç romanın «müsbət qəhrəmanı» hesab edir və məhz bu cəhətinə görə onları (romanları) epopeya təsiri bağışlayan trilogiyaya bənzədirik. Çünki bu romanları birləşdirən vahid ideya-qəhrəman məhz romandan-romana yüksələn xətlə inkişaf edərək mükəmməlləşir və təkmilləşdikcə işıqlı gələcək axtarışlarında olan müəllifi həqiqi nicat və xilas yoluna çıxarır.

Təsadüfi deyil ki, romanlar içərisində, paradoksal olsa da (əsərin adını nəzərdə tuturuq), ən xoş müjdəlisi də məhz sonuncu «Ölüm hökmü» romanıdır. Çünki məhvə məhkum olmuş «quruluş» yenişi ilə əvəz olunmalıydı. Və «uzaqlarda çaxan səssiz şimşəklər»də məhz bundan xəbər verirdi.

Elçinin 80-cı illərdə bir-birinin ardınca yazdığı bu üç romanı («Mahmud və Məryəm», «Ağ Dəvə», «Ölüm hökmü») ərsəyə gətirdiyi dövr (1982-1988) zaman etibarilə kiçik olsa da, ümumən cəmiyyətimizin, hətta bütöv bir sivilizasiyanın taleyində böyük əhəmiyyət kəsb edən tarixi bir ərəfə idi. Bu romanları səciyyələndirən əsas xüsusiyyətsə o idi ki, burada dövrün tarixi yox, ideologiya əsarətindən qurtulmuş, həqiqətə – özünə, Tanrısına, azadlığına yetmək üçün sərbəstlik qazanmış milli insanın «mənəvi dirçəliş» tarixi əks olunmuşdu.

Ümumiyyətlə, Elçinin «həqiqət axtarışı» ideyası bu üç romanının içərisindən qırmızı xətlə keçərək qəribə və eyni zamanda «reallığa bənzər» bir assosiasiya yaradır. Sanki Şah İsmayıl dövründə sevgiyə, vüsala qovuşmaq həsrətilə səfərə – yola çıxan, lakin zülmün və haqsızlığın ərşə dirəndiyi bir zamanədə səadətə qovuşa bilməyən təmiz qəlbli, məsul Mahmud («Mahmud və Məryəm» romanı) digər romanında («Ağ Dəvə») Ağ Dəvəni minib səhralar dolaşan Yolçuya, Həqiqət Deyənə çevrilir. Və təxəyyülümüzü bir qədər itiləşdirsək, Haqqa varmaq ümidi ilə üzünü işıqlı gələcəyə tutan bu Haqq carçısını, əsərdə görsənməsə də, sonucda («Ölüm hökmü») Ağ Dəvə karvanında Tülkü gəldi Qəbiristanlığına yetib Haqqın divanında zülm və allahsızlıq dünyasına «ölüm hökmü» oxuyan və insanlığı Haqq yolunda mübarizəyə səsləyən görərik.

XX əsrin sonuncu onilliklərində cəmiyyətimizdə baş verəcək böyük çevrilişlər və dəyişikliklər ərəfəsində ümumi əhvali-ruhiyyədə, baxışlarda, şüurlarda gedən təbəddülatları, dirçəliş və irəliləyişləri Elçin bir-birinin ardınca yazdığı bu üç romanında o qədər dərindən və



bəsirətcəsinə əks etdirmişdir ki, bunu tam əminliklə yazıçı uzaqgörənliyi, yazıçı «vəhyi» adlandırmaq olar.

Həqiqətən bu həyatı əsrin ümumbəşəri ideyaları və yarıməsrlik «dini vakuumu» adlamış milli (!) insanın «həqiqət axtarışları» işığında əks edən yazıçını səslədiyi mübarizədən – yeniləşmədən, əsərlərini yazıb bitirdiyi dövrdən çox da gec olmayaraq, cəmi ikicə il ayırırdı... XX əsrin axırına isə onca il qalırdı...

*«Azərbaycan» jurnalı, 2003, № 5.*

İsa HƏBİBBƏYLİ

## YAZIÇI - TƏNQİDÇİ

Çağdaş Azərbaycan ədəbiyyatının və ədəbi-tənqidi fikrinin görkəmli yaradıcılarından biri olan Elçinin təkcə uğurla təmsil etdiyi altmışıncılar nəsli içərisində deyil, bütövlükdə yeni dövr Azərbaycan ədəbiyyatında özünəməxsus yeri, rolu, mövqeyi vardır. İnamla demək olar ki, Azərbaycanda çağdaş ədəbiyyatın və ədəbi tənqidin ən məhsuldar nümayəndələrindən biri kimi böyük nüfuz qazanmış xalq yazıçısı Elçini indi dünya ölkələrində də tanıyırlar.

Elçinin başlıca xidməti mənsub olduğu ədəbi nəsillə birlikdə ədəbiyyatı ideoloji buxovlardan xilas edib onu həyata, insanlara, mənəviyyata yaxınlaşdırmaqdan, daha doğrusu, ədəbi fikrin adi həyat hadisələri ilə qaynayıb-qarışmasına nail olmaqdan ibarətdir. Yazıçı Elçin sadə insanların adi həyatını, təbii psixologiyasını, yaşadığı gerçək həyat tərzini öz axarında ədəbiyyatda olduğu kimi deyil, həyatda olduğu kimi uğurla qələmə almışdır.

Yeni dövr Azərbaycan hekayəsinin yaradıcıları sırasında Elçin xüsusi yer tutur. Elçin «O inanırdı» adlı hekayəsini hələ 1959-cu ildə «Azərbaycan gəncləri» qəzetində dərc etdirmişdi. Onun yığcam hekayələrində ciddi, dərin, əhatəli və böyük həyat həqiqətləri canlandırılır. Yazıçının hekayə qəhrəmanları da sadə, sıravi insanların cərgəsindən olub, aydın mənəviyyatlı, təbii xalq həyatını təmsil edən yaddaqalan, koloritli obrazlardır. Yazıçı gerçəkliyə o qədər sadiqdir ki, onun təsvir etdiyi obrazları oxucu nəinki duyur, başa düşür, sanki həyatda, yaxud kinoda olduğu kimi görə bilir. Elçinin hekayələrindəki «aerodrom» papaqlı, bir az iddialı, əncirli-üzümlü həyətlərdə adi həyat sürət sıravi insanların daxili aləmi kimi zahiri görkəmi də bənzərsizdir. Elçin orijinal bir rəssam kimi öz qəhrəmanlarının heç kəsə, heç bir yazıçının əsərlərində olan surətlərə bənzəməyən, bütün əsas cizgiləri ilə fərdiləşən rəsmini böyük məharətlə çəkə bilir. Müxtəlif illərdə Elçinin qələmindən çıxmış «Baladadaşın ilk məhəbbəti», «Ayaqqabı», «Beş qəpiklik motosikl», «Hotel Bristol», «Bu dünyadan qatarlar gedər», «Bülbülün nağılı», «Şuşaya duman gəlib», «Sarı gəlin» kimi hekayələr kiçik janrın böyük ölçülərinə və imkanlarına yüksək səviyyədə cavab verən uğurlu bədii nümunələrdir.



Ümumiyyətlə, bir yazıçı kimi özünə qarşı, bütün janrlarda yazılmış əsərlərinə qarşı həmişə məsuliyyətlə yanaşan Elçin «əsrin janrı» kimi qəbul etdiyi hekayə janrına daha çox tələbkardır: «Biz «hekayə axını»ndan danışarkən...bədii estetik cəhətdən sönük yazıları, necə deyərlər, peşəkarlaşmış qrafoman yazılarını nəzərdə tuturuq. Lakin Azərbaycan ədəbi tənqidi...eyni zamanda istedadlı yazıçıların hekayələrindəki zəif cəhətlərə də göz yumur... İstedadlı yazıçıların əsərlərinə qarşı diqqətli olmaq, məhz bu istedaddan çıxış edərək onların əsərlərini təhlil etmək, estetik araşdırmalar aparmaq, bədii çatışmazlıqları, zəif cəhətləri göstərmək Azərbaycan novellasının gələcək inkişafı naminə ədəbi tənqidin birinci dərəcəli borcu, vəzifəsidir».

Elçinin əksər yaddaqalan hekayələri bu janrın yüksək ideya-estetik tələbləri ilə səsləşən kamil sənət nümunələri kimi diqqəti cəlb edir.

Povest janrında da Elçinin özünəməxsus, diqqəti cəlb edən uğurları vardır. Fikrimizcə, Elçinin «Dolça» povesti bu janrda XX əsr boyu yazılmış ən dəyərli əsərlərdən biridir. Müxtəlif illərdə qələmə alınmış «Açıq pəncərə», «SOS», «Bir görüşün tarixçəsi», «Toyuğun diri qalması» povestlərində də təsvir olunan həyat materialı və təqdim edilən insanlar maraqlı, düşündürücü, mənalı, ən başlıcası isə bənzərsizdirlər. Burası da maraqlıdır ki, Elçinin povestləri sanki onun hekayə yaradıcılığının davamı, yaxud yekunu, romanlarının ərəfəsi, təməli, başlanğıcıdır. Bu mülahizəmizi Elçinin hekayələrindən seçilmiş nümunələri genişləndirib povestə, sonra da romana çevirməsi kimi başa düşmək çox yanlış olardı. Bizə görə, yazıçının nəsr janrlarının hər birində özünəməxsus uğurları vardır. Bununla belə, mövzu, mətləb, ideya, həyat materialının qavranılması, bədii dərki və həlli baxımından, habelə xarakterlərin yetkinləşməsi, dərinləşməsi baxımından hekayə və povestlər romana aparan yolun pillələri təsiri bağışlayır. Və Elçinin hekayə və povest janrları sahəsində kifayət qədər məşq etdikdən, yetərincə, nəzərəçarpacaq səviyyədə uğur qazandıqdan sonra roman janrına müraciət etməsi onun bədii nəsrin bütün inkişaf «formasiyaları»ndan qanunauyğun təkamül prosesləri vasitəsilə keçdiyini aydın surətdə göstərir. Buna görədir ki, müasir və yeni tipli Azərbaycan romanının əsas yaradıcılarından sayılan Elçinin ədəbiyyatımızda geniş ənənəsi olan bu janrda yazılmış əsərləri də bir sıra özünəməxsus keyfiyyətlərə malikdir. Əvvələ, Elçinin romanları da hekayə və povestləri kimi adi, təbii, canlı həyat materialından

yoğrulmuşdur. Özünəqədərki, hətta öz dövründə yaranmış inqilabi-tarixi, yaxud istehsalat romanlarından fərqli olaraq, Elçinin romanlarında mühitimiz və məişətimiz aydın və təbii koloriti ilə, normal həyat tərzi və dolğun ritmi ilə əks etdirilmişdir. İkincisi, Elçin romanlarında («Ölüm hökmü», «Ağ dəvə»də olduğu kimi) tarixliklə müasirliyi ustalıqla, yaradıcılıqla çuğlaşdıra bilmişdir. Üçüncüsü, «Mahmud və Məryəm» tipli bənzərsiz folklor romanlarını yarada bilmək də məhz Elçinə nəsib olmuşdur. Bu romanda folklor motivi müasir həyatın problemləri ilə bacarıqla uzlaşdırılmışdır.

Bütövlükdə isə millilik və müasirlik Elçinin yaradıcılığının ana xəttini müəyyən edir. Bu cəhət də xüsusi qeyd olunmalıdır ki, Elçinin əsərlərindəki müasirlik ruhu konkret, bəlli bir mərhələnin bədii ovqatının ifadəsi olaraq qalmır, davamlı xarakter daşıyır, inkişaf edən həyatla birgə, yanaşı addımlaya bilir. Bu xüsusiyyət onun nəsrində olduğu kimi, dramaturgiyasında da qabarıq şəkildə nəzərə çarpır.

* * *

Son dövrlərdə xalq yazıçısı Elçinin dramaturgiya yaradıcılığına üstünlük verməsi həm daxili-mənəvi tələbatdan, həm də Azərbaycan teatrının ehtiyaclarından doğur. Elçin nəsrdə və publisistikada bədii təhkiyə və təsvir vasitəsilə bəlli bir çərçivədə təqdim etdiyi hadisə və insanları dram əsərlərində canlı həyat materialı kimi, obrazların əməlləri və hərəkətləri vasitəsilə tamaşaçıya çatdırmağa müvəffəq olur. Səhnənin malik olduğu əyanilik imkanları Elçinə cəmiyyətin müxtəlif qruplarından aldığı surətləri bütün əsas yönləri ilə göstərməyə şərait yaradır. Elçin dramaturji mühitə cəlb etdiyi insanları həm cəmiyyətlə, həm də tamaşaçı ilə üzbəüz qoymağı, daxili aləmi açmağı, fərdi cəhətləri aşkar göstərməyi bacarır. Buna görədir ki, dramaturgiya özünü nasir kimi ədəbiyyatda möhkəmləndirmiş Elçinin çoxcəhətli yaradıcılığının təzə səhifəsi, yeni mərhələsidir. Eyni zamanda, Elçinin dram əsərləri xalq yazıçısı İlyas Əfəndiyevdən sonra milli teatr və dramaturgiyada yaranan boşluğu doldurmağa da uğurla xidmət edir.

Xalq yazıçısı Elçinin bədii nəsri Azərbaycanda epik-psixoloji ədəbiyyatın ən dəyərli nümunələri sırasında dayanır. Görkəmli xalq yazıçısının nəsr əsərlərində dramatik məqamların epik təsvirlə növbələşməsi, qaynayıb qarışması onun yaradıcılığının səciyyəvi cəhətlərindən biri kimi meydana çıxır. Diqqət edildikdə aydın görünür ki, Elçinin romanları, povestləri və hekayələrində həm hadisələrin, həm də xarakterlərin təqdimində dramatik ünsürlərdən yerli-yerində, bacarıqla istifadə olunmuşdur. Yaradıcılığının bu cəhəti onun nəsr əsərlərinin bir çoxunun uğurlu ekran variantlarının meydana çıxmasına imkan yaradıb. Elçinin əsərlərinin ekranda müvəffəqiyyət qazanmasının əsas səbəbləri sırasında təqdim olunan mövzuların aktuallıq və müasirliyi, habelə rejissor işinin yetkinliyi və münasib aktyor oyunu ilə yanaşı, həm də yaradıcılığının təbiətindəki dramatizm xüsusi qeyd olunmalıdır. Elçinin nəsr əsərləri kinoya çəkildiyi halda səhnəyə onun orijinal, ancaq teatr üçün yazılmış dram əsərlərinin çıxarılması diqqəti çəkir. Həmin dram əsərlərinin də öz növbəsində yazıçının bədii nəsrindəki dramatizmdən doğulduğunu görmək mümkündür. Beləliklə, Elçinin bədii nəsri epik və dramatik vasitələrin məntiqi vəhdətindən yaranmış, yazıçının dramaturgiyası isə epik elementləri böyük səhnəyə gətirmişdir. Bütün bunlar xalq yazıçısı Elçinin bir çox ssenari və dramlarında olduğu kimi, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Dram Teatrında uğurla tamaşaya qoyulmuş «Mənim ərim dəlidir» və «Dəlixanadan dəli qaçıb» adlı əsərlərində də qabarıq şəkildə nəzərə çarpır.

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Dram Teatrında tamaşaya qoyulmuş «Mənim ərim dəlidir» pyesi mövzu etibarilə müasir mərhələdə Azərbaycan cəmiyyətində gedən ictimai-mənəvi proseslərin bədii əks-sədasından ibarətdir. Xalq yazıçısı bir ailənin və onları əhatə edən dost-tanışların timsalında keçid dövründə meydana çıxmış eybəcərlikləri düşünülmüş həyati hadisələr, seçilib-tapılmış detallar vasitəsilə mənalandırır. Yaranmış fürsətdən istifadə edən bir qrup insanların cildlərini dəyişərək əslində «xalqa xidmət» pərdəsi altında şəxsi mənafelərini güdmələri, ən müxtəlif yollarla mövqe qazanmaq üçün canfəşanlıq göstərmələri Elçinin «görüntüsündə» bütün aşkarlığı ilə nəzərə çarpır. Yaxın keçmişdə elmi ateizmdən dərs demiş professorun dindar bir şəxsə çevrilməsi, vaxtilə baytar işləmiş kənd təsərrüfatı mütəxəssisinin siyasi partiya yaradaraq vəzifə tutmaq yarışına qoşulması, komsomol təşkilatına rəhbərlik etmiş başabəla, yarımçıq «ziyalı»nın pantürkist kimi çıxış etməsi cəmiyyətdə yaranmış mürəkkəbliyi şərtləndirir. Elçinin təqdim etdiyi ailəni əhatə edən bu insanlardan hər birinin özlərinin gizli niyyətlərinə çatmaq üçün cəmiyyətdə özünəməxsus yeri və mövqeyi olan, bütün çətinliklərə baxmayaraq müvazinətini qoruyub saxlamağı bacarmış jurnalistdən istifadə etmək cəhdləri əsərdə cərəyan edən mürəkkəb hadisələrin vahid məcrada cəmləşməsinə və əlaqələndirilməsin şərait yaradır. Üstəlik evin xanımının da yaratdığı məişət çətinlikləri və ailədəki

siyasi-mənəvi qütbləşmə ailə başçısı olan vicdanlı jurnalistin vəziyyətini çətinləşdirir. Bu mənada «Mənim ərim dəlidir» pyesindəki KİŞİ obrazı keçid dövrünün çətinliklərini yaşayan ziyalıların əsas cəhətlərini özündə birləşdirən maraqlı, yaddaqalan ümumiləşmiş surətdir. Doğrudur, onun seçdiyi yol – özünü dəliliyə qoymaqla ailənin mövcud çətinliklərini həll etmək üsulu bu çətinlikləri yaşayan bütün ziyalıların düşünə, bacara, yaxud həyata keçirəcəyi hal deyil. Fikrimizcə, bu Elçinin bir dramaturq kimi ifadə etmək istədiyi qayəni açmaq üçün düşünüb tapdığı bir vasitədir. Məhz bu yolla yeni cəmiyyətin başına əngəl, gedişatına buxov olmuş tiplərin xarakterilərini açmaq mümkün olmuşdur. Əsərdəki əsas ideya müstəqilliyin inkişaf etdirilməsi və möhkəmləndirilməsi yollarında cəmiyyəti bu cür müzür tiplərdən xilas etməyin zəruriliyini əsaslandırmaqdan ibarətdir. «Mənim ərim dəlidir» tamaşası nəinki keçid dövrü üçün aktual olan bu ideyanı bütün həyatiliyi ilə əsaslandırır, hətta çağımızda hələ də müxtəlif adlar və maskalar altında fəaliyyətdə olan həmin tipləri görüb tanımağa işıq salır.

«Dəlixanadan dəli qaçıb» tamaşasında Elçinin müraciət etdiyi mövzu sanki yeni dövrün «dəli yığıncağı»ndan ibarətdi. Müəllif bu əsərdə hadisələrin cərəyan etdiyi məkanı qəzet redaksiyası kimi düşünmüşdür. Əsər boyu pyesin əsas iştirakçıları – professor, şəfqət bacısı, məsul katib, siyasi icmalçı, şöbə müdiri, katibə, ədəbi işçi (şair) özlərinin səhnədəki əməl və rəftarları ilə dəlixana adamları kimi nəzərə çarpır. Lakin Elçin, onlardan hər birinin fərdi xüsusiyyətlərini də müəyyən etmişdir.

Fikrimizcə, xalq yazıçısı Elçinin «Dəlixanadan dəli qaçıb» tragikomediyası ilə «Mənim ərim dəlidir» pyesi bir-birini təkrar etməmək şərti ilə tamamlayır. Bu əsərləri müstəqillik dövrü Azərbaycan dramaturgiyasında ilk diologiya da adlandırmaq mümkündür. Hər iki əsər həm ayrılıqda, həm də bir yerdə yaşadığımız yaxın dövr tarixinin, mühitin və cəmiyyətin bədii dərkinə sanballı töhfədir. Buna görə də həmin əsərlər xalq yazıçısı Elçinin cəmiyyətşünas bir dramaturq olduğunu qəti olaraq təsdiq edir.

Hazırkı mərhələdə xalq yazıçısı Elçinin dram əsərlərinin Azərbaycan səhnəsi ilə yanaşı, qardaş Türkiyənin teatrlarında da uğurla nümayiş etdirilməsi və ədəbi tənqidin yüksək elmi qiymətini alması onun həm də yeni dövrün əsas aparıcı dramaturqu olduğunu təsdiqləyir.



* * *

Bədii yaradıcılıq sahəsindəki çoxillik və səmərəli fəaliyyətinə görə yüksək «Xalq yazıçısı» fəxri adını qazanmış Elçin, həm də ustad bir tənqidçi və ədəbiyyatşünasdır. Tənqidçiliklə yazıçılıq Elçinin fəaliyyətində həmişə yanaşı addımlamışdı.

Bunların hər ikisi Elçin üçün doğmadır, necə deyərlər, onun düşüncəsinin qoşa qanadlarıdır. Elçinin tənqidçilik fəaliyyətinin uğurlu olmasının əsas səbəblərindən biri də onun bədii yaradıcılığın xarakterinə dərindən bələd olması, yəni yazıçılığıdır. Yaxud onun yazıçı kimi ədəbiyyatda orijinal mövqe tutmasının, ardıcıl və məhsuldar surətdə fəaliyyət göstərməsinin bir əsas səbəbi də yetkin tənqidçi kimi ədəbiyyatın yüksək tələblərinə bələd olması, həmişə canlı ədəbi prosesla, qabarıq çəkilən mühitlə həmahəng nəfəs alması ilə, yən tənqidçiliyi ilə bağlıdır. Göründüyü kimi, yazıçılıq və tənqidçilik Elçinin simasında bir-birini tamamlayır. Akademik Kamal Talıbzadənin sözləri ilə desək «nasir Elçinlə tənqidçi Elçin...birləşir». Elçin bu yaradıcılıq sahələrinin hər ikisinə sədaqətlidir. Yazıçılıqda da, tənqidçilikdə də onun sanballı xidmətləri vardır. O, məhsuldar bir xalq yazıçısı kimi hansı şöhrəti qazanmışdırsa, tanınmış ustad tənqidçi kimi də eyni səviyyəni fəth etməyə nail olmuşdur.

Elçinin tənqidçilik və ədəbiyyatşünaslıq fəaliyyətində onun «Azərbaycan bədii nəsri ədəbi tənqiddə» mövzusunda yazıb uğurla müdafiə etdiyi namizədlik dissertasiyası xüsusi yer tutur. Bu modeldə, strukturda o vaxta qədər heç kəs elmi iş yazmamışdı. Elçin seçdiyi elmi problemin təkcə ideya-məzmununu deyil, strukturunu, quruluşunu da özü müəyyən etmişdi. Sonralar ayrı-ayrı dövrlərin nəsri, dramaturgiyası və poeziyasının ədəbi tənqiddəki əks-sədası, dəyərləndirilməsi haqqında elmi əsərlər yazanlar ədəbiyyatşünaslıq elmimizdə əsası qoyulmuş «Elçin modeli»ndən bəhrələnmişlər.

Adı çəkilən tədqiqat işində 1945-1965-ci illərin bədii nəsri və ədəbi tənqidi ilk dəfə üzvü əlaqədə təhlildən keçirilərək ümumiləşdirilmişdir. Elçin Əfəndiyev bəlkə milli ədəbiyyatşünaslıqda birinci olaraq ədəbiyyatın, bədii nəsrin əbədi tənqiddə ideoloji cəhətdən deyil, elmi baxışdan dəyərləndirilməsini ön mövqeyə çəkmişdir. Elçinin araşdırmalarında ədəbi tənqidin Azərbaycan nəsrinin müasirlik ruhu, xarakter axtarışları və sənətkarlıq xüsusiyyətləri kimi problemlərinə münasibətin ön mövqeyə çəkilməsi

mühüm elmi-nəzəri əhəmiyyətə malik olan məsələ idi. Bütün bunlar əsərin dissertasiya kimi müdafiə olunduğu yetmişinci illərin əvvəllərində nəinki yeni, hətta çətin idi. Buna görədir ki, o vaxt akademiklər Məmməd Cəfər Cəfərov, Kamal Talıbzadə, professor Mehdi Məmmədov kimi nüfuzlu şəxsiyyətlər, görkəmli alimlər gənc ədəbiyyatşünası həm də mühafizə və müdafiə etmişdilər. Beləliklə, təkcə cavan bir tənqidçi Elçin deyil, bütövlükdə sağlam, yeni, elmi prinsiplərə əsaslanan, ideoloji buxovlardan xilas olunmuş ədəbi tənqid müdafiə olunmuş və irəli aparılmışdır. Elçinlə birlikdə konkret bir dövrün ədəbi tənqidi də elmi-ədəbi mühitdə özünə münasib yol açmaq imkanı qazanmışdır. Amma bu zəruri yolu açmaq üçün də Elçinin ciddi elmi axtarışları, dərin və əhatəli araşdırmaları imkan verir, uyğun şərait yaradırdı.

Başqa bir cəhət də çox ibrətamiz və yaddaqalandır. Azərbaycan ədəbi-ictimai fikrinin görkəmli nümayəndələri olmuş Əlibəy Hüseynzadə (1864-1940) və Əhmədbəy Ağayev (1868-1939) kimi qüdrətli milli ziyalılarımızın irsinin uzun illərin ayrılığından sonra Azərbaycana qaytarılmasında, necə deyərlər, onların bəraət almasında Elçin müstəsna dərəcədə səmərəli fəaliyyət göstərmişdir. Bir tərəfdən, o, qabağa düşüb Azərbaycan ədəbi-tənqidi fikrinin bütün inkişaf yolu haqqında kitab hazırlayarkən məlu-məşhur ədəbiyyatşünaslarla bir sırada Əlibəy Hüseynzadə və Əhmədbəy Ağayev kimi simaları da əhatə etmiş, digər tərəfdən isə onlar haqqında cəsarətli məqalələr yazıb Rusiya və Azərbaycan mətbuatında dərc etdirmiş, yeni, müsbət ictimai rəy yaratmağa səy göstərmişdir. Elçinin Moskvada «Literaturnaya qazeta» səhifələrində (3 fevral 1988-ci il) dərc olunmuş «Həqiqət, ancaq həqiqət» məqaləsi həm mütərəqqi yenilikçi düşüncənin, həm də ədalətli elmi mühakimənin vəhdətindən yoğrulmuşdur. Məqalənin ən mühüm dəyəri burada vaxtilə haqqı tapdanmış, nahaqdan damğalanmış ayrı-ayrı görkəmli şəxsiyyətlərə ağıllı-məntiqi şəkildə bəraət qazandırmaq niyyətinin cəsarətlə ifadə olunması idi. Fikrimizcə, məqalədəki daha qiymətli cəhət tək-tək şəxsiyyətləri müdafiə etməkdən qat-qat çox bu cür ictimai faciələr törədən sxemlərin, təlimlərin mahiyyətini açıb göstərməkdən ibarət idi. Elçin hələ səksəninci illərdə ədəbiyyatı, elmi, ictimai fikri bu cür əcaib sxemlərdən birdəfəlik xilas etmək vəzifəsini həyata keçirirdi. Onun «Həqiqət, ancaq həqiqət» məqaləsində deyilir: «Mənə elə gəlir ki, uzaq, yaxın keçmişdə sənətə tətbiq olunan ifrat sosioloji sxemlər və normativ qurğular, sadəcə olaraq yalnız aşağı əyarlı və bəsit deyildi.



Həm də şəxsi mənfəət hissindən doğurdu. Belə sxem və qurğuların arxasında adətən ya səriştəsizlik, ya da vicdansızlıq dalğalanırdı. Bu sxemlərlə bağlı ədəbiyyatımızda əcaib hadisələr baş verirdi».

Deməli, Elçinin məqsədi ədəbi-ictimai fikri qeyd olunan «ifrat sosioloji sxemlər və normativ qurğular»dan xilas etmək, bir daha «əcaib hadisələr»in baş verməməsi üçün sağlam ictimai fikri formalaşdırmaqdan ibarət idi.

Bəs bütün bunların əvəzində Elçin nəyi, hansı sxemi təklif edirdi? Məqalənin adı – «Həqiqət, ancaq həqiqət» bu sualların tutarlı cavabı idi. Həmin tezisin mahiyyətini isə Elçin aşağıdakı kimi şərh etmişdir: «Həqiqət! Ədəbiyyat tarixində həqiqət. Bütün sosial və mənəvi yanılmaları ilə bərabər, ədibi qiymətləndirmədə də həqiqət. O həqiqət ki, hər bir insanı öz zəmanəsinin övladı, istedadı isə bütün dövrlərə məxsus bir keyfiyyət kimi qiymətləndirilir. Bax belə həqiqət bizi ancaq zənginləşdirir. O bizə işimizdə kömək edir, hələ üstəlik ədəbiyyatşünaslığımızı, mənəvi mühitimizi və nəşriyyat təsərrüfatımızı uzun illik yalana, anlaşılmazlığa görə çəkilən xəcalətdən xilas edir».

Məhz bu cür həqiqət duyğusu ilə, əsl böyük həqiqətə sədaqətlə Elçin 1994-cü ildə daha bir görkəmli ictimai xadim və milli ziyalı Məhəmməd Əmin Rəsulzadənin (1884-1955) həyatı və fəaliyyəti haqqında araşdırma aparmış, kitab çap etdirmiş, ziyalı sözü demişdir. Elçin yazır: «Azərbaycan xalqının taleyinin bir parçası olan Məhəmməd Əmin Rəsulzadənin mənalı həyatına, dolğun yaradıcılığına...nəzər salmaqla biz vətənə, müstəqil Azərbaycana sədaqət timsallı böyük bir şəxsiyyətin canlı obrazı ilə görüşürük... Rəsulzadə prinsipinə sədaqətin, məfkurəyə bağlılığın, səbr və fədakarlığın, əzm və qüdrətin timsalı idi. İyirmi yaşındakı «İnsanlara hürriyyət, millətlərə istiqlal» fikri ilə də yetmiş iki yaşında həyatla vidalaşdı. Ömrünün son anına qədər inam onu tərk etmədi».

Göründüyü kimi görkəmli yazıçı və ədəbiyyatşünas Elçinin müasir elmi-ədəbi prosesdə özünəməxsus yeri və mövqeyi vardır. Elmlər Akademiyası sistemində elmi araşdırmalarını davam etdirəndə və Azərbaycan Yazıçılar Birliyinin tənqid və ədəbiyyatşünaslıq sahəsinə rəhbərlik edəndə Elçin ədəbi-tarixi prosesləri diqqətlə və dərindən izləmiş, həmişə milli və müasir elmi-ədəbi dəyərlərin fəal müdafiəçisi olmuşdur.

Elçinin böyük zəhmət bahasına tərtib və nəşr etdirdiyi «Fikrin karvanı» (1984) kitabı peşəkar ədəbiyyatşünasın həm də yüksək vətəndaşlıq keyfiyyətlərini üzə çıxarır. Uzun dövr ərzində adları «qara

siyahı»da olmuş, ədəbi-elmi fikirdə süni şəkildə damğalanmış, nəinki öyrənilməsi, hətta sadəcə, adının çəkilməsi qadağan edilmiş Əlibəy Hüseynzadə və Əhmədbəy Ağaoğlu kimi məşhur simaların haqqında ilk elmi oçerklərin üzə çıxmasında Elçinin məxsusi rolu vardır. Azərbaycan EA-nın müxbir üzvü, görkəmli ədəbiyyatşünas Əziz Mirəhmədovun yuxarıda adları qeyd olunmuş böyük şəxsiyyətlər barəsində məqalə yazmasının «sifariş edilməsi», həmin portret-oçerk xarakterli yazıların «Fikrin karvanı»na salınması Elçinin adı ilə bağlıdır. Bundan başqa, Əli Nazim, Mustafa Quliyev, Bəkir Çobanzadə, Məmmədkazım Ələkbərli, Vəli Xuluflu kimi həyatı və fəaliyyəti geniş ictimaiyyətə az bəlli olan repressiya qurbanları olan ədəbiyyatşünaslar da «Fikrin karvanı» vasitəsilə ədəbi-elmi mühitə vəsiqə almışlar. Heç şübhə yoxdur ki, «Fikrin karvanı» kitabı olmasaydı, Əli Sultanlı, Mirzağa Quluzadə, Məhəmmədhüseyn Təhmasib, Əhliman Axundov və başqaları kimi az-çox bəlli olan ədəbiyyatşünaslar da unudulub getmişdi. Bütövlükdə «Fikrin karvanı» Elçinin Azərbaycan ədəbi tənqidi tarixinə və ədəbiyyatşünaslıq elmimizə sanballı töhfəsidir. Azərbaycan tənqidi fikrinin tarixi və inkişaf yolunu tam halda əks etdirən «Fikrin karvanı» kitabının meydana çıxması mühüm əhəmiyyətə mali olan böyük bir tarixdir.

«Vətən» cəmiyyətinə rəhbərlik etdiyi illərdə ədəbiyyat, mədəniyyət və ictimai fikrimizin əhatə və yayılma dərəcəsinin genişlənməsi, çəti dövrlərdə uzun illər qadağan olunmuş mühacirət ədəbiyyatımızın təmsilçilərinin aşkara çıxarılması, xalqa çatdırılması sahəsində də Elçin fədakarlıqla xidmət göstərmişdir. Hazırkı mühüm dövlət işi – Baş nazirin müavini vəzifəsi isə Elçin müəllimin elm, təhsil, ədəbiyyat və mədəniyyət üzrə daha geniş miqyaslı və həlledici təşkilati vəzifələri həyata keçirməsinə geniş imkan yaradır. Elçinin filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün «Ədəbiyyatda tarix və müasirlik problemi» mövzusunda yazdığı elmi əsər də onun tənqid və ədəbiyyatşünaslıq sahəsindəki otuz illik fəal və ardıcıl axtarışlarının başlıca məzmununu, əsas yekunlarını tam əhatə edir. Əsərin «Azərbaycan ədəbiyyatı tarixi və ədəbiyyatda tarixiliyin bəzi məqamları» adlı birinci hissəsində «Əsrləri ötərək karvan-karvan» dövrümüzə qədər keçib gələn milli ədəbiyyatımızın çoxəsrlik təcrübəsi əsasında tarixə yanaşmanın əsas meylləri, prinsipləri müəyyən olunmuş, konkret ədəbi-tarixi faktlar əsasında şərh edilmiş, elmi konsepsiya şəklində bacarıqla ümumiləşdirilmişdir. Elçinin zəngin elmi-ədəbi təcrübəsi, geniş elmi dünyagörüşü Azərbaycan



ədəbiyyatşünaslığında ilk dəfə olaraq «Tarixi tipologiya və vahid dünya ədəbi prosesi» probleminin elmi fikrin tədqiqat probleminə çevrilməsinə münasib imkan yaratmışdır. Fikrimizcə, Azərbaycanın müstəqillik qazanması ədəbi fikrimizin «vahid dünya ədəbi prosesi» kontekstində öyrənilməsini zəruri problemlər sırasına çıxarmışdır. Elçinin araşdırmalarında ilk dəfə irəli sürülüb həll edilən məsələlər, formalaşdırılan qənaətlər, nəzərə çarpdırılan tezislər həmin istiqamətdə gələcəkdə yaranacaq tədqiqatlar üçün möhkəm bünövrə, etibarlı təməl funksiyasını yerinə yetirə bilər.

«Ədəbiyyatda müasirlik və onun təzahür xüsusiyyətləri» adlanan ikinci hissədə hər şeydən əvvəl Elçinin tənqidin müasirlik problemi sahəsindəki axtarışları sistem halında, əhatəli şəkildə tədqiq olunmuşdur. İlk növbədə konkret estetik kateqoriya kimi «Müasirlik» anlayışının mahiyyəti aydınlaşdırılmışdır. Tədqiqatçıların tez-tez müraciət etdiyi bu ifadə, yaxud anlayış hazırkı mərhələdə ilk dəfə olaraq milli ədəbiyyatın əsas kateqoriyalarından biri səviyyəsində yenidən şərh və təqdim edilmişdir. Elmi əsərin bu hissəsindəki «millilik və bəşərilik» münasibətləri, «müasirlik tələbi və sənət əsəri», tarixiliklə müasirliyin vəhdəti kimi məsələlər geniş mənada «Müasirlik» anlayışının tərkib hissələri kimi dərin təhlildən keçirilmiş, seçilmiş dəqiq və tutarlı ədəbi faktlarla təsdiqlənmiş, mühüm və əhəmiyyətli elmi nəticələr çıxarılmışdır. Elçinin fikrincə, «Müasirlikkateqoriyasının elmi-nəzəri mənası ədəbi dəyərlərlə bağlı olduğu kimi, bu və ya digər dövrə münasibətdə konkret təzahür keyfiyyətləri ilə seçilir. Buna görə də ədəbi tənqidin müasirlik probleminə marağı daimi səciyyə daşıyır. Bu təcrübə göstərir ki, bir sıra yanlış fikirlər, lazımsız polemikalar, ədəbi proseslərlə bağlı olan hadisələrin yanlış yozumu məhz müasirlik kateqoriyasının mahiyyətini, fəlsəfi-etik məzmununu dərk etməmək nəticəsində meydana çıxır».

Bu tezislər müasirlik anlayışının əsas yönümünü müəyyənləşdirməyə, onu aktuallıq kimi başa düşənlərə müasirliyin başlıca mahiyyətini anlatmağa kömək edir.

Nəsr əsərlərində olduğu kimi, elmi-tədqiqat işində də professor Elçinin özünəməxsus fərdi üslubu, yanaşma metodu, ifadə tərzi qabarıq surətdə müşahidə olunur. Ayrı-ayrı monoqrafi tədqiqatlarında, məqalə və çıxışlarında nəzərə çarpan bu fərdi üslubu təqdim olunan yeni elmi əsər ümumiləşmiş şəkildə meydana çıxarır. Görkəmli ədəbiyyatşünas Elçinin üslubu üçün bədii-publisist elementlərin elmiliklə qaynayıb-qarışması, ümumiləşdirmə məqamlarının obrazlılığı

fərdi cəhət kimi diqqəti cəlb edir. Deməli, filologiya elmləri doktoru, professor Elçinin ədəbiyyatşünaslıq fəaliyyətində yazıçı və publisist Elçinin də payı vardır.

Doktorluq dissertasiyası kimi təqdim olunmuş «Ədəbiyyatda tarix və müasirlik» adlı elmi-tədqiqat işində qaldırılan problemlər, irəli sürülən elmi ideya və tezislər müstəqillik dövründə yenidən hazırlanmaqda olan milli ədəbiyyat tariximizin orta və ali məktəblərimiz üçün nəzərdə tutulan ədəbiyyat dərsliklərinin daha da zənginləşməsinə kömək edir. İndiki mərhələdə bu əsər çağdaş tənqidçi və ədəbiyyatşünaslar üçün etibarlı bir bələdçi funksiyasını yerinə yetirir.

Elçin müəllimin tanınmış ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor Vilayət Quliyevlə birlikdə hazırlayıb nəşr etdirdikləri «Özümüz və sözümüz» adlı kitabı (1993) yeni dövrün yeni tipli ədəbiyyatşünaslıq terminləri lüğəti kimi mühüm əhəmiyyətə malikdir. Bu qiymətli nəsrdə Azərbaycan bədii fikrinin müraciət etdiyi əsas anlayışların və terminlərin lüğəti mənasını izah etməklə bərabər, ayrı-ayrı ədəbi cərəyanlar və janrlar üzrə milli ədəbiyyatın mühüm nailiyyətləri də öz əksini tapmışdır.

Lap son illərdə Elçinin qələmindən çıxmış «Müasir dövrdə Azərbaycan ədəbi tənqidinin yaradıcılıq problemləri», «Ədəbi tənqidimizdə lümpençilik meylləri» adlı elmi əsərlər müstəqillik dövrü Azərbaycan ədəbi tənqidinin sanballı nümunələridir. Dərin elmi düşüncə ilə fəal ədəbi təcrübənin, müşahidənin vəhdətindən yoğrulmuş bu elmi məqalələrdə yeni mərhələdə milli ədəbiyyatın və çağdaş ədəbi tənqidin vəzifələri, məqsədləri və mövcud vəziyyəti dolğun şəkildə ümumiləşdirilir.

Bu gün Elçinin bədii yaradıcılığı özündən sonrakı nəsildən olan cavan yazıçılar üçün bir çox cəhətdən örnək olduğu kimi görkəmli tənqidçi və ədəbiyyatşünasın çoxillik səmərəli fəaliyyəti də yeni nəsil tənqidçilər üçün mənalı bir nümunədir. Tənqidçi Elçin cavan tənqidçilərin müəllimi və ustadıdır. Lakin Elçin müəllimin əbədi tənqid üzrə Ustad səlahiyyəti qazanması təkcə bununla bitmir. Hazırkı mərhələdə bədii yaradıcılıq və ədəbi tənqid haqqında nüfuzlu söz deməyəə, ədəbi tənqidimizi və bədii fikrimizi istənilən məkanda və səviyyədə layiqli şəkildə təmsil etməyə Elçinin səlahiyyəti və mənəvi haqqı çatır. Vaxtilə filologiya elmləri doktoru, professor Vilayət Quliyevin dediyi kimi «dünən olduğu kimi bu gün də bilavasitə ədəbi prosesin mərkəzində dayanan və... buna görə də həmin ədəbi prosesin yönü, istiqaməti, gələcəyi üçün hamıdan çox narahatlıq keçirən» yazıçı



və tənqidçi Elçin nəinki ədəbi-elmi mühitimizin qayğıları ilə yaşayır, həm də bu prosesə yön və istiqamət verir. Bir az əvvəl böyük müəllimlərimiz Məmməd Arifin, Məmməd Cəfərin, Cəfər Cəfərovun, Abbas Zamanovun, Əziz Mirəhmədovun, Yaşar Qarayevin gördüyü iş, çəkdiyi elmi-ədəbi yük indi də xalq yazıçısı, filologiya elmləri doktoru, professor Elçinin vəzifəsinə, missiyasına çevrilmişdir.

Elçin Azərbaycan ədəbi tənqidində özünəməxsus dəst-xətti, fərdi üslubu ilə tanınır. Fikrimizcə, Elçin müəllimi bir tənqidçi kimi daha çox fərdiləşdirən cəhət onun yazıçı-tənqidçi olmasıdır. Bizim milli elmi-ədəbi təcrübədə yazıçı-tənqidçilik yeni hadisə deyildir. Xalq yazıçıları Mirzə İbrahimov, Mehdi Hüseyn görkəmli yazıçı olmaqla yanaşı, həm də professional tənqidçi idilər. Azərbaycan yazıçılarından bir çoxu da ədəbi tənqid işi ilə məşğul olmuşlar. Lakin onların əksəriyyəti hər iki qütbü – yazıçılığı və tənqidçiliyi eyni səviyyədə layiqincə təmsil edə bilməmişlər. Elçinin simasında isə yazıçılıq da, tənqidçilik də professionallığın ölçülərinə, tələblərinə tam cavab verir. Hətta özündən əvvəlki görkəmli yazıçı-tənqidçilərdən fərqli olaraq, Elçinin ədəbi-tənqidində ideologiya və sosioloji tənqid yoxdur. Bədii yaradıcılıqda olduğu kimi onun ədəbi tənqidi fəaliyyətinin də meyarı millilik və bəşərilikdir.

Son dövrlərdə Xalq yazıçısı Elçinin bir çox beynəlxalq mükafatlara layiq görülməsi onun böyük və geniş ədəbi şöhrətə malik olduğuna əyani sübutdur. Elçinə Türkiyədəki Yeni Araşdırmalar Mərkəzinin 2002-ci il üçün «Türk dövləti və toplulugları Ədəbiyyatı ödülü»nün verilməsi, Kipr, Balkanlar, Avroasiya Türk Ədəbiyyatları Qurumunun «2002-ci il Türk Ədəbiyyatı Ödülü»nü qazanması görkəmli yazıçının çoxillik ədəbi xidmətlərinə verilmiş yüksək qiymətin ifadəsidir. Habelə yazıçının Rusiyada nəşr olunan, nüfuzlu ədəbi jurnal sayılan «Drujba narodov» jurnalının redaksiya heyətinin üzvü seçilməsi onun yaradıcılığına daha geniş məkanda bəslənilən marağa və ehtirama parlaq sübutdur.

* * *

***Redaksiyadan.***

Müxtəlif ədəbi janrlarda eyni uğur, sənətkarlıqla əsərlər yaradan, amma daha çox istedadlı nasir kimi ölkəmizdən çox-çox uzaqlarda da

tanınan Elçinin 60 yaşı tamam olur. İlk hekayə və povestləri jurnalımızda çap olunan yazıçını bir növ «Ulduz»çu da adlandıra bilərik.

Redaksiyamızın əməkdaşları və oxucuları adından sevimli sənətkarımızı 60 illiyi ilə bağlı təbrik edir, ona möhkəm cansağlığı, ədəbiyyatımızın irəliləyişi naminə yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

*«Ulduz» jurnalı, № 5, 2003.*



Aydın XAN

# ELÇİN – AZƏRBAYCANIN MİLLİ İNTELLEKTUAL YAZARI

Xalq yazıçısı, filologiya elmləri doktoru, professor, ötən əsrin görkəmli nasiri («Mahmud və Məryəm», «Ağ dəvə», «Ölüm hökmü» romanları), müstəqillik dövrünün ciddi dramaturqu, yeni yüzilin həm ustad essesisti, həm də analitik tənqidçisi, ümumiləşdirsək, çağdaş dövrümüzün kulturoloqu, eyni zamanda Azərbaycan Respublikası Baş nazirin müavini, xaricdə yaşayan soydaşlarımızla mədəni əlaqələri qurmaqda əvəzsiz xidmətlər göstərən «Vətən» Cəmiyyətinin yaradıcısı VƏ uzun müddət sədri olmuş, sözün hər mənasında həyat və yaradıcılığı ilə gənclərin nümunəvi insan kimi qəbul etdikləri fərqli şəxsiyyət, başdan-ayağa qədər ziyalı missiyasını layiqincə yerinə yetirən – diqqətli oxucu bu nəhəng cümlədən də asanca hiss edə bilər ki, haqqında yazmağa girişdiyim ədibi heç də pis tanımıram: əlbəttə, söhbət şəxsi tanışlıqdan deyil, əsərlərinə bələdçilikdən gedir, - Elçin ilə ədəbi-mədəni mübahisələrə girişmək çoxlarının savad xaricində olsa da, milli ədəbiyyatımızın sonbeşiklərindən biri tək mən buna çalışırdım: axı söz sənətində «oğul»ların atalarıyla aralarındakı münasibətlərin kəskinliyinə rəğmən, bizim kimi yaradıcı «nəvələrin» dövrümüzün çağdaş ədəbiyyatı ağsaqqallarından biri ilə polemik diskussiyaya girişməyi anlaşılandır, hətta alqışlanmalıdır...

## DÜŞÜNDÜKLƏRİM, ANLADIQLARIM

Ədəbi nəsil anlayışı əksi Sovet İttifaqı məkanında vahid bir sənət, ədəbi-bədii söz forması – rəsmi-ideoloji «sosializm» metodu saxlanılan vaxtlarda işlənilən ifadə idi. Tarixə qısa bir nəzər salaq: XIX əsrin əvvəllərində üç istiqamətdə – əsasən Rusiya vasitəsi ilə Avropaya, Türkiyəylə Qərbə, həmçinin İranın köməkliyi ilə Şərqə – ümumdünya ədəbiyyatına inteqrasiya edən, forma müxtəlifliyinə, metod rəngarəngliyinə, məzmun dolğunluğuna yiyələnən, dünya kulturoloji olaylarının təsirindən çağdaş mədəni dəyərlərə cavab verən, yüksək estetik tələblərə uyğun, milli ruha malik nümunələri ortaya qoyan

milli söz sənətimizin ədəbi cərəyan, məktəb, həmçinin metodlarla inkişafının qarşısını kobudluqla aldılar, yaradıcı təfəkkürün təbii axarının qarşısına süni sədd çəkdilər. Əlbəttə, süni surətdə sənətin qarşısı kəsiləndə, canlı, mürəkkəb, vahid bir varlıq olan yaradıcı proses və onun arxasında duran sənət sahiblərində hələ də sirri açılmamış qəribə müqavimətin yaranması qanunauyğundur: axı təbiətdən də məlumdur ki, təsir əks-təsirə bərabərdir. O külturoloji müqavimət isə sənətəbaxış mübarizəsinə çevriləndə simvollarla dolu ədəbiyyat – müxtəlif qatlı anlayışlar, qədim yunanların təbirincə desək, ezop dili – hamının dərk edə bilmədiyi terminlər, ifadələr, ardınca isə müəllif stili, yazı manerası, orijinal üslublar, dəsti-xətlər yaranır. Zənnimcə, bu mənada ötən əsrin ideoloji havasızlığından boğulan sənət adamlarının ortaya qoyduqları ədəbi nəsil anlayışı, əslində, yaradıcılıqlarındakı və dünyaya baxışlarındakı fərqlərinə görə sənətkarları ayırmaq – o dövrlərdə məqbul, çox vaxt vacib sayılsa da, - çağımız üçün öz lazımi əhəmiyyətini itirib. Axı indi biz azad, müstəqil ölkədə, hər cür ideoloji qadağalar, siyasi repressiyalar, habelə rejim nəzarətindən uzaq bir cəmiyyətdə yaşayırıq. İndi hər şeyi öz adıyla adlandırmağın vaxtıdır. Gəldiyimiz qənaətdən də göründüyü kimi, ədəbiyyata gəlmiş yeni gəncləri ayrıca bir ədəbi nəsil tək yox, ortaya çıxartdıqları əsərlərinə görə qiymətləndirmək, fərqləndirmək, başqa sözlə, təqdim və təhlil etmək daha düzgün, metodoloji cəhətdən elmi-ədəbi həqiqətə daha yaxın olardı.

## XXI ƏSRİN SÖZ-SƏNƏT OLAYLARINA BİR BAXIŞ

XX əsrdə ən davamlı, özündə bir sıra sənət istiqamətlərini birləşdirən modernizm və ondan sonra yarananlara şamil olunan, postmodernizm bir kültür-dəb kimi həm bizim milli söz sənətimizə, həm də keçmiş Sovetlər Birliyini əhatə edən ədəbi-mədəni məkanına son on-on beş ildə ciddi müdaxilə etsə də, bu anlayış altında oxuculara sırınan əsərlərin bəlkə də böyük əksəriyyəti mahiyyət etibarilə o cərəyanlara cavab vermir. İlk öncə ona görə ki, modernizm və postmodernizm yalnız ədəbiyyat metodu deyil, əksinə, təfəkkür, intellekt forması, dünyabaxış üslubu, fəlsəfi görüş, həyat duyumudur. Qərb dünyası modernizmə qədər böyük bir fəlsəfi-estetik, ədəbi-külturoloji yolu qət etmiş, Avropa və Amerikanı, bəzən isə Uzaq və Yaxın Şərqi əhatə edən intellektual məkan yaranmış, bu dərketmə



vasitəsini kifayət sayda anlayan hazırlıqlı insanlar yetişib. Bizdə ədəbiyyatı və yaradıcı sənətin bütün növlərini, o cümlədən ictimai, siyasi, iqtisadi, fəlsəfi, elmi, intellektual, mənəvi, dini, psixoloji sahələri əhatə edən modernizmi və postmodernizmi cəm halda bilən bir yana dursun, ümumi məlumatlara malik insanların sayının məhdud olması imkan vermir ki, bu mənada bir toplum kimi düny aya səs salaq...

XXI əsrin ilk onilliyində də səs-küy yaratmadan özünü sübut və təsdiq etmək çox çətin olacaq. Digər tərəfdən də son zamanlarda cəmiyyətimizdə yaradıcı mühitə qarşı olan nihilist diqqətsizliyin axırı az qala ona gətirib çıxartdı ki, yazarlar cəmiyyətdə özünə qarşı sayğısızlıq, bir az da tünd desəm, ictimai marağın sönüklüyünü görəndə toplumun müqəddəs saydığı ehkamları dağıtmağa meyl göstərir, lazım gələndə milləti tənqid etməkdən belə çəkinmir: əsas məqsəd isə xalqın diqqətini özünə sarı, dolayısı ilə mədəniyyətə, milli sənətə tərəf yönəltməkdədir. Bu mənada son illər baş verən hadisələr anlaşılandır, ətrafdakı millətlərin, xalqların taleyinə, tarixinə nəzər salanda, görürük ki, oxşar aqibət onların da başına gəlib. Əslində dünyada baş verən bütün hadisələr kimi, kulturoloji olaylar da qlobal xarakter daşıyır və yazıçı Elçinin yaradıcılığına qiymət verəndə onun yaşadığı zamanda beynəlxalq aləmdə baş verənlərə nəzər salmadan obyektivliyi qorumaq mümkün deyil...

## MİLLİ ƏDƏBİYYATIMIZIN ELÇİN QOLU

Ötən əsrin 50-ci illərinin ortalarında Azərbaycanın daxil olduğu keçmiş SSRİ adlı nəhəng ölkədə çox mürəkkəb proseslər baş verirdi. Sovetlər Birliyinin qoca və əzazil diktatoru V.İ.Stalin dünyasını dəyişəndən sonra N.Xruşşov şəxsiyyətə pərəstiş dövrünü qamçılamağa başladı. Belə bir gərgin vaxtda bütün sahələrdə olduğu kimi, ədəbiyyata da yeni nəsil yaradıcı insanların axını gücləndi. İndi «altmışıncılar» deyə adlandırdığımız o dövrün yeni nəslinin içində seçilənlərdən biri də gənc və perspektivli nasir, istedadı ilə həmyaşıdlarından fərqlənən Elçin idi. O, yaradıcılığının ilk dövründən başlayaraq, əslində, bir neçə istiqamətdə mübarizə aparmalı oldu. Bir tərəfdən rəsmi ideologiyanı və dövlət senzorunu aldatmağa çalışan, digər yandan Stalin dövrünün yazıçılarının artıq aktuallığını itirmiş estetik prinsipləri ilə mübarizəyə girişən, başqa bir yöndə «İlyas Əfəndiyevin oğludur, fikir verməyin, atasının şöhrətini xərcləyib

qurtarandan sonra unudulacaq» deyənlərə özünü sübut edən, ən əsası isə, Azərbaycan sovet ədəbiyyatının əyalət nümunəsi – lokal hadisə hesab edən mərkəzdəki sənət elitası ilə sözün hər mənasında vuruşanların biri kimi Elçin milli ədəbi-mədəni məkana belə bir mürəkkəb zamanda girdi. Anar, Əli Kərim, Əkrəm Əylisli kimi ABŞ ilə Qərbi Avropada məşhur tələbə və gənclərin dinc azadlıq hərəkatının – «hippi»lərin mədəni-mənəvi qiyamının sanki Azərbaycanda qeyri-leqal nümayəndəsi idi gənc Elçin: uzun sac saxlayır, «Azadlıq» radiosunun daimi dinləyicisi idi, qadağan olunmuş «Bitlz» pop-qrupunun gənclərin himninə çevrilmiş mahnılarına qulaq asırdı…

Ən əsası isə o idi ki, Elçin bir yazar kimi yorulmadan işləyir, milli, sovet, rus və dünya ədəbiyyatının ən gözəl nümunələrini dərindən öyrənir, hərdən tərcümələr edir, esselər, tənqidi, publisistik, ədəbiyyatşünaslığa dair sanballı məqalələr yazırdı. Lakin qələmindən çıxan bədii yazıları cavan Elçinə daha tez və böyük şöhrət gətirirdi. Onun ilk nəsr əsərləri ədəbi tənqidin və oxucuların diqqətini cəlb etməklə yanaşı, həm də yazıçıya yeni-yeni uğurlu bədii əsərlər yazmağa həvəsləndirirdi…

## DÜNYANI TANIYAN VƏ CAHANA TANIDAN YAZAR

Həmyaşıdlarına rəğmən, Elçinin əsərlərinə və yaradıcılığına cəm halda nəzər salanda, maraqlı cəhətlərin qabarıq əks olunduğunu görürük. Dünyaya çıxışımızda və beynəlxalq aləmdə tanınmağımızda mədəniyyətin, xüsusən də ədəbiyyatımızın rolu əvəzsizdir. Bu baxımdan dolayısı – sovet mədəniyyəti, rus ədəbiyyatı vasitəsi ilə deyil, Elçin dünyaya birbaşa çıxışı üstün tutdu. Bəlkə də buna görə idi ki, rus dilini əla bilməsinə baxmayaraq, o, bədii əsərlərini öz doğma ana türkcəsində – Azərbaycan dilində yazdı. Dilin isə millətin ruhunun daşıyıcısı olması barədə məşhur fikir hamıya məlumdur. Elçinin özü də əksər əsərlərində millətin ruhunu – daha dəqiq ifadə etsəm, milli ruhun müəyyən dövrlərdəki vəziyyətini – kodlaşdıraraq verməyə, gələcək nəsillərə ötürməyə çalışan sənətkarlardandır. Yenə də yaradıcılığına – əsərlərinə qayıtsaq, görərik ki, Elçin hekayə və povestləri ilə Qərb, «Mahmud və Məryəm» romanıyla Şərq, dramları ilə Avropa, ədəbi-tənqidi, kulturoloji-filoloji yaradıcılığı ilə Rusiya-Almaniya kimi ədəbi-mədəni məkanın nümayəndələri ilə bir sırada durur. Yazıçının elə silsilə hekayələrinə, novellalarına rast gəlirik ki, o



əsərləri insan qəlbinə işıqlı bir baxış, fərdin iç dünyasına yaradıcı sənətkarın mənəvi sənət səyahəti də hesab etmək olar. Bu hekayələr məşhur ABŞ nasiri Cerom Devid Selincerin kiçik nəsrinin ruhu ilə səsləşir. «Abşeron» mövzulu povestləri isə Latın Amerikasının Nobel mükafatı almış məşhur nasiri Qabriel Qarsia Markesin bir sıra böyük hekayələri ilə yanaşı dünya ədəbiyyatının ən gözəl bədii nəsr nümunələri antologiyasına düşməyə layiqdir. Fəqət nə edəsən ki, «öz toplumunun içində peyğəmbər olmaq çox-çox çətindir»…

Elçin ilə bir dövrdə ədəbiyyat meydanına çıxmış bir çox yazarlarımızın yaradıcılığını diqqətlə nəzərdən keçirəndə, təəssüflər olsun ki, bunu görmürük. Onların əksəriyyətinin yaradıcılığının yalnız rus-sovet ədəbiyyatı təsiri ilə formalaşdığının şahidi oluruq. Əlbəttə, obyektiv və subyektiv amilləri unudub, belə kəskin qiymətlə razılaşmayanlar da ola bilər ki, onların fikirlərinə hörmətlə yanaşıram. Oxucularda isə elə rəy yaratmaq istəmirəm ki, Elçin daha çox Qərbdən bəhrələnib, dünyadan çox şeyi götürüb. Ona qalsa, ilahi eşqdən yazan Füzuli ilə böyük məhəbbəti tərənnüm edən U.Şekspirin bir-birinin yaradıcılığından bəhrələnməsi barədə diletantcasına mübahisələrə başlamalıyıq…

## BÜTÜN ƏDƏBİ-SƏNƏT CƏRƏYANLARININ FÖVQÜNDƏ DURAN ƏDİB

Böyük nasirin yaradıcılığı özünün çox çalarlığı və müxtəlifqatlılığı ilə seçildiyinə görə, ədibin qələm məhsullarını təhlilə cəlb edəndə tədqiqatçı bir çox kulturoloji problemləri adlamalıdır. Araşdırıcının intellektual və kulturoloji səviyyəsi, ədəbi-estetik hazırlığı yüksək səviyyədə olmasa, onun Elçin yaradıcılığını təhlil etməsi istənilən halda zəif təəssüratların solğun nəticəsini meydana çıxaracaq. Elçinin hansı ədəbi-estetik, fəlsəfi-kulturoloji sənət istiqamətinin – realizm ya romantizm, modernizm, yaxud postmodernizm və başqa bu kimi zaman-zaman dəbdə olan cərəyanların nümayəndələrinə yaxın olmasını müəyyənləşdirmək çox çətindir. Sənətkarın məzmunca milli, formaca bəşəri, səviyyəcə ölməz olan əsərlərinə artıq otuz ildən çoxdur ki, qiymət verilir: hər dəfə də yeni bir nəzərlə, fərqli bir baxışla, təzə düşüncə tərziylə. Elçin yaradıcılığı isə köhnəlmir, əksinə zamanın dəhşətli sürətinə tab gətirir və mən inanıram ki, milli ədəbiyyatımız durduqca, onlar da yaşayacaq, bədii-estetik təravətini itirməyəcək.

Ömrünün çox hissəsini böyük ədəbiyyata sərf etmiş xalq yazıçısının həyat və yaradıcılığına təkrar qayıdanda qəribə bir qanunauyğunluğu müşahidə edirik: Elçin – milli söz sənətimizin müəyyən dövründə əsl ciddi nəsrə ehtiyac duyulanda – hekayə və povestlərini yazdı; Avropa səviyyəli roman qıtlığı görünəndə – iri prozaya keçdi; dünyada kino dövrü başlayanda – bir-birinin ardınca ssenarilərini qələmə aldı, onların ekran taleyini həll etdi; ədəbi tənqidimiz zəifləyəndə – filoloji elmimizin qeydinə qaldı; tərcümə problemi aktuallaşanda – yapon xalq şerini, Molyeri dilimizə çevirdi; teatrlarımız axsayanda – istedadını komediya janrında sınadı... Azərbaycan ədəbiyyatında Elçin qədər çox az-az yaradıcı şəxs tapmaq mümkündür ki, milli söz sənətinin zənginləşməsində bu qədər sənət axtarışlarına, ədəbi eksperimentçiliyə baş qoşsun. Elçin, bu baxımından, çağdaş ədəbiyyatımızın inkişafında xüsusi rolu var. Məhz bu cəhətinə görə, Elçini neomaarifçi də hesab etmək mümkündür. Lakin mən onu əsl milli intellektual sənətkar, başqa sözlə bəşəri səviyyəli yaradıcı şəxsiyyət – xaricdə çıxan çoxsaylı kitabları bunu ürəklə deməyə imkan yaradır – kimi qəbul etdiyimdən qəlbimdəkilərin cüzi hissəsini bu yarımçıq essemin içinə yığmağa çalışdım...

P.S. Elçin müəllimin 60 illik yubileyini bütün ədəbiyyatsevərlərimizin, «Sara Xatun» jurnalının yaradıcı əməkdaşları və oxucularının adından səmimi qəlbdən təbrik edir, böyük ədibimizdən yeni-yeni əsərlər gözlədiyimizi bildiririk.

*«Sara Xatun» jurnalı, 2003, № 3.*



**Abid TAHİRLİ**

## SÖZ VƏ SƏNƏTKAR QÜDRƏTİ HAQQINDA DÜŞÜNCƏLƏR

**(Mayın 13-də Azərbaycanın xalq yazıçısı, görkəmli dövlət xadimi Elçinin anadan olmasının 60 illiyi tamam olur)**

Göydən tək-tək iri, ılıq damcılar düşməyə başlayanda dünyagörmüş qocalar üstlərindən ağır yük götürülürmüş kimi dərindən köks ötürər, uca dağların arxasından sürətlə kəndin üzərinə axışan parçalı qara buludlara işarə vuraraq təbəssümlə dillənərdilər:

- Yer-yurd qurumuşdu. Toz, bürkü nəfəsimizi kəsmişdi. Axır ki, yağacaq. Sərinləyərik. Təbiət də dirçələr, canlanar.

Yayın uzun cırhacırından sonra yağış həsrəti ilə göyə boylanan, dua edən, qurbanlar kəsən əzabkeş, dözümlü, fədakar sakinlərin istəyi nəhayət ki, həyata keçərdi...

... «Azərbaycan cəmiyyətinin qaranlıq dövrü» (H.Zərdabi «Kəşkül»dən «Şərqi-Rus»adək olan müddəti belə adlandırırdı – T.A.) başa çatdıqdan sonra «Həyat», «İrşad», «Tərəqqi», «Füyüzat», «Molla Nəsrəddin» nəşrə başladı, «Nəşri-maarif», «Nicat», «Səadət» xeyriyyə cəmiyyətləri yarandı, fəaliyyətlərini genişləndirdilər. Məhəmməd Ağa Şahtaxtlı, Əlimərdan bəy Topçubaşı, Məhəmməd Hadi, İbrahim Tahir, Məmməd Əmin Rəsulzadə, Əhmədbəy Ağaoğlu, Əlibəy Hüseynzadə, Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Haşım bəy Vəzirov, Üzeyir və Ceyhun Hacıbəyli qardaşları, Əbdürrəhim bəy Haqverdiyev, Abbas Səhhət, Mirzə Ələkbər Sabir, Ömər Faiq Nemanzadə qələmə sarıldılar, xalqın tarixinə və taleyinə qızıl səhifələr yazdılar...

«Şərqi-rus» nəşrə başlayandan 15 il sonra Şərqdə, türk-islam dünyasında ilk dünyəvi, demokratik respublika – Azərbaycan Xalq Cumhuriyyəti yarandı. Bu, cəmiyyətdə gedən təbii, tarixi prosesin məntiqi nəticəsi idi. Azərbaycan Xalq Cumhuriyyəti xalqın həyat və düşüncə tərzinin məhsulu, yetkinləşmiş, formalaşmış ideoloji, siyasi, ədəbi-mədəni, mənəvi mühitin yetirməsi idi.

XX əsrin ilk onuncuları 1918-ci ildə başları üzərində üçrəngli bir bayraq yüksəltdilər. Amma regiondakı təbəddülatlar, böyük dövlətlərin Qafqazda toqquşan maraqları Azərbaycan xalqına baha

başa gəldi: Azərbaycan Xalq Cumhuriyyəti cüqut etdi. Sonra cəmiyyət təzadlı, bir-birinə zidd axın və cərəyanlarla, təqib, təzyiq, terror, edam, sürgün və qanlarla dolu 20-30-cu illəri yaşamağa məcbur və məhkum edildi. Həmin dövrün «ədəbi mühiti» bəlkə heç vaxt olmadığı kimi ictimai həyatın aynasına çevrilmişdi. «ədəbi proses» cəmiyyətlə nəfəs alırdı, cəmiyyətin nəbzi «ədəbi mühitdə» vururdu. 30-cu illərin sonlarına doğru ədəbi çarpışmalara, əqidə və ideya mücadiləsinə son qoyuldu. Milli və istiqlalçı ədəbiyyatın, həqiqi söz sənətinin nəfəsi kəsildi. Sosializm realizmi qələbə çaldı, hamı «ələmdən nəşəyə» keçdi, ədəbiyyat «kolxozlaşdı», «fəhlələşdi» (staxanovçu oldu), söz çərçivəyə salındı, senzura ehkamların keşiyində ayıq-sayıq durmağa başladı. Yeni ideoloji qəliblər, mənəvi-estetik ölçülər ədəbiyyatı partiyalaşdırmış, onun proqramının bədii sözlə icraçısına çevrilmişdi. Kolxoz fermasında ictimai mal-qara yetişdirildiyi kimi, ədəbiyyat sexinin şablon bədii forma və üslub konveyeri də sovet rejimi və ideologiyasına xidmət edən ədəbi nümunələr buraxırdı.

Böyük Vətən müharibəsindən qalib çıxan Sovet imperiyası ABŞ-ın liderlik etdiyi Qərb dünyasına soyuq müharibəni – ideoloji mübarizəni uduzmağa başladı. Qərbin nəhəng təbliğat maşını-xüsusilə radiodalğaları dəmir pərdəni deşərək SSRİ-ni silkələyirdi. İmperiyadakı proses Azərbaycan SSR-dən də yan keçmirdi. Stalinin ölümü ilə ictimai mühitdə və münasibətlərdəki dəyişiklik ədəbiyyata, sənətə də sirayət edirdi. Azərbaycanın, bütün türk dünyasının şah əsəri «Kitabi-Dədə Qorqud» bəraət aldı. 50-ci illərin sonunda Azərbaycan SSR Ali Soveti Rəyasət heyəti Azərbaycan dilinin dövlət dili olduğu barədə fərman verdi. Bəxtiyar Vahabzadənini «Gülüstan»ı yarandı və ictimai rəyə təsir edəcək qədər diqqəti çəkdi.

Sonradan ədəbiyyat tarixinə «60-cılar» kimi düşəcək şair və yazıçılar bir tərəfdən həmin dövrdə baş verən ictimai-siyasi proseslərin nəticəsi kimi yetişir, meydana çıxırdılarsa, digər tərəfdən, özləri həmin dəyişikliklərin qidalandırıcısı, sürətləndiricisi qismində iştirak edirdilər. Ədəbiyyat ideoloji silahdan, cəmiyyətin siyasi taleyini həll edən alətdən fərdin xarakter, hiss, fikir və duyğularının bədii tərənnümü olan söz sənətinə çevrildikcə sətirlər cəmiyyətə nüfuz edən, ona hakim kəsilən təbii gücə, qüvvəyə dönür. Milli nəyi varsa, hamısının – dili, adət-ənənəsi, həyat və düşüncə tərzi, psixologiyasının üzərinə kölgə salınmış oxucu, sovet rejiminin əsarət və inhisarından çıxmaq üçün çapalayan ədəbiyyatı narahatlıqla izləyir, kitabları sətiraltı, yaxud məcazi məna tapmaq eşqi, həvəsi ilə vərəqləyir.



Ədəbi anlamda «60-cılar» riyazi onluqda nəzərdə tutulan çərçivəyə sığmır. Azərbaycanda «60-cı illər ədəbiyyatı» istilahı adı altında anlaşılan yeni ədəbi mərhələnin rüşeymləri 50-ci illərin sonunda əmələ gəlmiş, 60-cı illərdə formalaşmağa başlamış, 70-ci illərdə ən məhsuldar dövrünü yaşamış, 80-cı illərin ikinci yarısınadək – yenidənqurma və aşkarlıq siyasətinin elan edildiyi dövrədək davam etmişdir. Bu, Azərbaycan sovet və ümumiyyətlə, Azərbaycan ədəbiyyatı tarixində mövzusu, forması, ideyası, dili, üslubu, sənətkarlığı ilə fərqli bir mərhələdir, onun spesifik xarakteristikası var.

Bu dövr ədəbiyyatının yaradıcılarından və aparıcılarından biri xalq yazıçısı Elçindir. Elçin tarixi baxımdan 60-cı illərin əvvəllərindən ilk yaradıcılığa başladığı üçün yox (həmin vaxt yazanların, yaxud yazmağa başlayanların hamısı «60-cılar» ədəbi nəslinə mənsub deyil ki!), yeni ədəbi hərəkatın və həyatın öndərlərindən olduğuna görə, «60-cılar»dan sayılır. «60-cılar» əslində inqilabçı yox, islahatçı, bir qədər obrazlı desək, körpüsalanlardır. Onlar sovet dövründə (!!!) rejimin ötən illərində qırılmış milli ədəbi rabitəni, eybəcər hala salınmış, təftiş olunmuş ənənələri bərpa etdilər. Ədəbiyyatı sənətə çevirdilər.

Elçinin qəhrəmanları yaradıldığı tarix baxımından ehkamçı və totalitar sosialist realizmin ərsəyə gətirdiyi obrazlarla çox yaxındır. Amma bu qəhrəmanlar milli xarakter, düşüncə tərzi, hiss və duyğuları, davranış və danışığı ilə daha çox M.F.Axundzadə, N.Vəzirov, Ə.Haqverdiyev, Mirzə Cəlil personajları ilə qohumdurlar. Sovet dövründə qələmə alınmış Baladadaş (Baladadaşın ilk məhəbbəti) sovet ədəbiyyatının kolxozçu, komsomol, kommunist, qırmızı papaq qəhrəmanlarından ruhən və mənən Novruzəliyə («Poçt qutusu») daha doğmadır. Xatırlanan hekayələrin mövzu, məzmun, süjet, kompozisiya, obrazların reallığı, dinamikliyi, elə lap dil, üslub fərqləri və oxşar cəhətlərindən xeyli danışmaq olar, lakin kamil bədii sənət nümunəsi olan bu hekayələri birləşdirən tellərin təbii və möhkəm olduğu fikri şəksizdir. «60-cı illər» ədəbi nəslinin bu xidməti – klassik ədəbiyyatla varisliyin bərpası probleminin araşdırılması, dəyərləndirilməsi müasir ədəbiyyatşünaslığın yeni, həm də aktual vəzifələrindəndir...

Sosialist realizminin ehkam və çərçivələrini darmadağın edən Elçin və qələmdaşları yeni tip əsərləri ilə, belə demək mümkünsə, ədəbiyyatı öz işi ilə məşğul olmağa vadar etmiş, milli ənənələrlə çağdaş mədəniyyətin vəhdətindən, sintezindən parlaq sənət nümunələri yaratmışdır.

Elçin ilk yaradıcılığından ötən 32 il ərzində qələmə aldığı 40-a yaxın hekayəni «Baladadaşın ilk məhəbbəti» adı altında nəşr etdirmişdir (Bakı, QAPP – Poliqraf, 2000-ci il, 480 səh.). Müəllif kitaba yazdığı «Mənlə mən arasında» adlı ön sözdə toplunu niyə «Baladadaşın ilk məhəbbəti» adlandırdığını açıqlayır: «Yəqin daha çox ona görə ki, Baladadaşın varlığı, onun təmizliyi, iddiasızlığı, səmimiyyəti mənim üçün bu 32 ilin daşınan yükü müqabilində çox əhəmiyyətli bir şeydir». Səmimi və təvazökar bir etirafdır. «Daşınan yük»ün arxasında yuxusuz gecələr, saysız-hesabsız mütaliələr, yaradıcılıq axtarışlarından yaranan hiss-həyəcanlarla bərabər, mübarizələrlə dolu bir səhnə, həyat göz önünə gəlir. Partiya-sovet aparatının proqramlaşdırdığı, təlimatlandırdığı, istiqamətləndirdiyi sosialist realizmi, onun keşiyində və qulluğunda duran mühafizəkar, ehkamçı tənqid həqiqi sənətin buxovuna çevrilmişdi.

Qələminin qüdrəti, istedadının gücü sayəsində Elçin, yaradıcılığının 45, anadan olmasının 60 illiyini zəngin ədəbi irslə qarşılayır. «Mahmud və Məryəm», «Ağ dəvə», «Ölüm hökmü» adlı romanları, «Bir görüşün tarixçəsi», «Dolça», «Toyuğun diri qalması» və başqa povestləri, onlarca hekayə və səhnə əsərləri ilə Elçin Azərbaycan ədəbiyyat tarixində silinməz iz buraxmışdır.

Elçinin yaradıcılıq fəaliyyəti bədii əsərlərlə məhdudlaşmır. Filoloji araşdırmalar sahəsində ciddi, sanballı elmi-nəzəri əsərlərin müəllifi olan Elçin Azərbaycan ədəbiyyatşünasları, tənqidçiləri sırasında nüfuzlu, mötəbər simalardandır. Elçinin tənqidi üçün obyektivlik, cəsarətli elmi-nəzəri mülahizələr, şablon, ehkamçı fikirlərlə barışmazlıq, aydın, səlis dil xarakterikdir. Sovet dövründə Kommunist Partiyasının ədəbiyyat və incəsənətə dair çoxsaylı qərarlarında söz sənəti qarşısında partiyalılıq, tarixi hadisələrə və xadimlərə sinfi mövqedən münasibət bildirilməsi əsas tələb kimi irəli sürülürdü. Elçin isə öz yolu ilə gedir, bir tərəfdən sənətin aktual problemlərini müasir tələblər baxımından dəyərləndirir, digər tərəfdən isə saxta, qərəzli, ideologiyaya qulluq göstərən tənqidin tənqidi ilə (!) məşğul olurdu. Söz sənətinə məsuliyyətli, prinsipial münasibətin nəticəsidir ki, Elçin yazdıqlarına, söylədiklərinə həmişə sahib çıxmışdır. Qələmə alındığı vaxtdan düz otuz il (1979), ilk nəşrindən (1981) 20 ilə yaxın müddət keçdikdən sonra – 1999-cu ildə Elçin «Tənqid və nəsr» adlı əsərini «vaxtıyla necə yazılmışdırsa, eləcə də bu gün onu həmin oxucuya təqdim edirəm» qeydi ilə təkrar çap etdirir (Bakı, «Günəş» nəşriyyatı, 1999). Həmin kitaba yazdığı «Bir neçə



söz»də Elçin yaşadığı və yaratdığı çətin dövrün sınaqlarından şərəf və ləyaqətlə çıxdığının sevincini oxucusundan gizlətmir:

«Qürurlanıram ona görə ki, hakim və hikkəli partiya ideologiyasının fironluq etdiyi dövrdə, estetikanı, sənəti, o cümlədən ədəbiyyatı «sosializm realizmi»nin cansıxıcı, boz və şablon qəliblərinə pərçim etməyə çalışan (və əsas etibarilə buna nail olan!) nəzəriyyəçiliyin hökmranlıq sürdüyü bir zamanda bu əsəri yazarkən, ədəbiyyat haqqında mülahizələr irəli sürərkən, təhlil aparıb bədii qiymət verərkən, əslində mütləq mahiyyətli bir konyunkturadan nəinki uzaq olmuşam, hətta əsas götürüb dirsəkləndiyim prinsiplər o konyunkturaya qarşı tam müxalifətdə durubdur».

Elçin həmişə ədəbiyyatşünaslığın çətin, lakin prinsipial və həlledici məsələlərinə toxunmuşdur. O, dövrün ədəbi tənqidinin Azərbaycan bədii nəsrinin müxtəlif problemlərinə – müasirlik, xarakter, sənətkarlıqla bağlı ortaya sıxardığı qənaətlərə münasibətini bildirmişdir. Ədəbi tənqidlə bağlı yazdığı onlarca məqalədə Elçinin meyarı dəyişməz olmuşdur: həqiqi sənətə xidmət. Dünən – sovet dövründə də belə idi, bu gün də belədir.

Sovet dövründə söz sənətini ona təcavüz etmiş ideologiyadan xilas etmək uğrunda mübarizə aparan Elçin bu gün ədəbiyyatı yad və bayağı missioner «izm»lərin eybəcər hala salmaq cəhdlərindən qoruyur.

Elçinin hekayə, povest, pyes, romanları, tərcümələri, ədəbi tənqid və onun problemləri haqqında məqalələri barədə xeyli yazılmış, bədii əsərlərinin mövzusu, ideyası, dili, üslubu, sənətkarlığı, süjet və kompozisiyası ilə bağlı sanballı tədqiqatlar aparılmış, əsərləri bir çox xarici dilə tərcümə olunmuş, xarici ölkələrdə nəşr edilmiş, pyesləri respublikanın və Türkiyənin ən nüfuzlu teatrlarında oynanılmışdır. Bütün bu sahələrdə həmin işlər daha ciddi və əhatəli davam etdirilməkdədir. Sözün məcazi və müstəqim mənasında XX əsr Azərbaycan ədəbiyyatının zirvəsi, XXI əsr Azərbaycan ədəbiyyatının təməli Elçinin ədəbi irsi milli sərvətimizə çevrilmişdir.

Son dövr ədəbi mühitində də hadisəyə çevrilən əsərləri göstərir ki, tükənməz enerji və ehtirasla yazmaqda olan Elçin hələ neçə-neçə yeni yaradıcılıq uğurlarına imza atacaqdır.

*«Mars» jurnalı», № 3-4, 2003.*

Vaqif YUSİFLİ

# MƏNƏVİ ÖMRÜN İŞIQLARI...

- **Elçinin 60 yaşı tamam oldu. Doğrusu, bu «altmış» söhbəti onun həmişə cavan, heç vaxt bədii təravətini itirməyən yaradıcılığı ilə müqayisədə bir az qəribə görünür. Bəlkə elə qəribə göründüyü üçün Elçinin yaşı haqqında heç düşünməmişik.**

Bu gün çağdaş Azərbaycan ədəbiyyatının ön sıralarında gedən, bu ədəbiyyatın əsl mənada SİFƏTİNİ təyin edən şəxsiyyətlərdən biri də Elçindir. Kimsə bu fikirlə razılaşmaya da bilər (necə ki, mətbuatda Elçin haqqında cəfəngiyat fikirlər də səslənir), amma həqiqətin üzünə kor kimi baxmaq olmaz. Bəli, bu gün Elçinin adı hər bir azərbaycanlı üçün tanış və doğmadır. Son dərəcə qürur doğuran odur ki, milyonlarla oxucuların bu məhəbbət və ehtiramını illər, onilliklər də təsdiq edə bilər. «Populyar» yazıçılar olub ki, yalnız müəyyən illərin, konkret dövrün və şəraitin «sevimliləri» idilər, illər keçəndən sonra yaradıcılıq böhranı o «sevimliləri» haqlayıb və daha heç bir qüvvə onları o populyarlıq zirvəsinə qaytara bilməyib. Ancaq Elçin o yazıçılardandır ki, ədəbiyyata gəldiyi 60-cı illərdə də bir gənc nasir kimi populyar idi, bu populyarlığı o öz üslub fərdiliyilə qazanmışdı. 70-80-cı illərdə bu populyarlıq öz məkanını, hüdud və sərhədlərini daha da genişləndirdi, artıq bu zaman Elçin çağdaş ədəbi prosesdə etiraf olunmuşdu. Elçin keçmiş SSRİ məkanında Azərbaycanı layiqincə təmsil edən, Ümumittifaq ədəbi prosesində GÖRÜNƏN və SEÇİLƏN yazıçı-tənqidçi kimi diqqəti cəlb edirdi. Sonrakı onillikdə – 90-cı illərdə də Elçin yaradıcılığına maraq və diqqət azalmadı. Səbəbi o idi ki, bir yazıçı kimi Elçin üçün yaradıcılıq axtarışları heç vaxt tükənməmişdir. O, sanki ilk hekayəsinin çap olunduğu 1959-cu ilin iyun ayından bu günəcən birnəfəsə bu axtarışları davam etdirir. Təbii ki, istedadlı bir yazıçı üçün həmişə axtarışda olmaq kəşflərə və təsdiqə aparan yoldur.

Elçin və onun çoxcəhətli (janr və mövzuca) yaradıcılığı barədə professional söhbətə başlamamışdan öncə, ustad sənətkar İlyas Əfəndiyevi xatırlamamaq insafsızlıq olardı. Ata – İlyas Əfəndiyev



Elçin üçün canlı klassik idi, canlı SƏS idi. Təsəvvür edin ki, bizim hamımızdan min dəfə, milyon dəfə artıq hər gün bu canlı klassiklə, bu canlı SƏSlə ünsiyyət və təmasda olmaq nə demək idi... Elçin məhz bu ədəbi ocaqda – İlyas Əfəndiyevin ailəsində həyat və sənət dərsi keçmişdir. Təfərrüata varmadan bu sənət dərslərini belə ümumiləşdirə bilərik: «qılınc kimi kəskin həqiqətləri», həyatın sərt üzünü, görünməyən qatlarını qələmə almaq, təsvir olunan obrazlara yalnız yaşadığı dövrün deyil, gələcəyin prizmasından yanaşmaq, insanın mənəvi dünyasını, hisslər, duyğular aləmini cəmiyyət hadisələri ilə üzvi şəkildə bağlamaq, hətta uzaq və yaxın keçmişin olaylarını da bu günün ictimai, siyasi, mənəvi mənzərəsi ilə bir araya gətirmək, Azərbaycan dilinin, zəngin folklorumuzun incəliklərinə üz tutmaq, həyatda baş verən ictimai, mənəvi prosesləri vaxtında duymaq... Bütün bu sənət dərslərinə mükəmməl yiyələnən Elçin – gələcəyin böyük sənətkarı – «mən həmişə bu yaradıcılıqdan öyrənirəm» devizinə sadiq qaldı.

Lakin Elçinin bir sənətkar kimi püxtələşməsini təkcə atasının – İlyas Əfəndiyevin sənət dərsləri ilə məhdudlaşdırmaq olmaz. Elçin dünya ədəbiyyatına çox yaxşı bələd olan, mütaliəsi geniş bir yazıçıdır. O, dünya ədəbi prosesində baş verən yenilikləri vaxtında duyur, öz yaradıcılığında da həmin yenilikləri hiss etdirir.

## II

Elçin hər şeydən əvvəl istedadlı bir nasirdir. Bu istedad onun elə ilk hekayələrində diqqəti cəlb edirdi. «O inanırdı» adlı ilk hekayəsində gələcək böyük yazıçının özünəməxsus yazı manerasının cizgiləri görünürdü. Səmimiyyətlə yazılmışdı bu hekayə. Dili də səlis və rəvan idi.

1966-cı ildə Elçinin «Gənc yazıçının ilk kitabı» seriyasından «Min gecədən biri» adlı hekayələr kitabı işıq üzü gördü. Burada Elçinin yeddi hekayəsi və «Əsli və Kərəm» adlı lirik-yumoristik kiçik povesti təqdim olunmuşdu. Kitab «Nərdivanın birinci pilləsi» hekayəsi ilə açılırdı və müəyyən mənada bu hekayənin adı rəmzi məna daşıyırdı. Kitabı oxuyub başa çatdırandan sonra doğrudan da belə bir qənaətə gəlmək olurdu ki, «Min gecədən biri» bir yazıçı kimi Elçin üçün böyük ədəbiyyat meydanında ilk nərdivandır, özü də etibarlı, ucalıq üçün, yüksəlmək üçün – sənətdə özünü təsdiq üçün ilk uçuşdur. Kitabdakı

«Nərdivanın birinci pilləsi», «Səlim, Fatma və hacıleyləklər», «Min gecədən biri» hekayələri zərif, lirik hisslərin təsviri, obrazların daxili dünyasının psixoloji görüntüləri ilə maraq doğururdu.

Ədəbi tənqiddə Elçinin mənsub olduğu ədəbi nəsil «altmışıncılar» adlanır. Elçin də Ə.Əylisli, Anar, İ.Məlikzadə, F.Qoca, F.Sadıq, İ.İsmayılzadə, Ə.Salahzadə kimi bu ədəbi nəslin nümayəndəsi sayılır. «Yeni Azərbaycan nəsri» ifadəsi daha artıq bu ədəbi nəslin (nasirlər) yaradıcılığı ilə bağlıdır. «Yeni Azərbaycan nəsri»ni səciyyələndirən müəyyənedici əlamətlər haqqında ədəbi tənqid sonralar öz sözünü dedi. Ən başlıcası o idi ki, nəsrdə bir çox ənənələr, stereotiplər qırılmağa başladı, mövzu-problematika və sənətkarlıq baxımından mühüm dəyişikliklər nəzərə çarpdı. «Qum dənəsində kainatı görmək» prinsipi ön plana keçdi, monumental, vüsətli «müsbət» qəhrəman xeyli dərəcədə öz mövqeyini itirdi, nəsrdə ədəbi qəhrəmanların bütün mürəkkəbliyi və ziddiyyətliliyi ilə təsvirinə diqqət artdı. Bunun üçün Elçinin 60-70-ci illərdə yazdığı povest və hekayələrə diqqət yetirmək kifayətdir.

Elçinin «Açıq pəncərə» povesti onun 60-cı illər yaradıcılığı üçün səciyyəvi bir əsər idi - o mənada səciyyəvi ki, bu əsərdə cavan Elçinin ədəbi platforması da açıqlanırdı. Ədəbi platforma – yəni seçim, görüm, dünyaya, gerçəkliyə özünəməxsus baxış bucağı – ƏDƏBİ MÖVQE. «Açıq pəncərə»də yazıçı insan mənəviyyatına zidd olan meşşanlığı tənqid edirdi. «SOS» povestində də həmin mövzu davam etdirilir. Hər iki povestdə üslub sərt lirizm üzərində qurulub. Bu o deməkdir ki, müəllif gözəlliyə, həyata, gerçəkliyə münasibətdə neytral, biganə mövqedə qalmır, meşşan mühitinə, bu mühitin eybəcərliklərinə qarşı çıxır.

«Bu dünyada qatarlar gedər», «Poçt şöbəsində xəyal», «Beş qəpiklik motosikl» hekayələrində də Elçinin xoş bir romantika ilə nəfəs alan, nağıllı – sehrli bir aləmə can atan, hər cür mənəvi bəsitlikdən qurtulmaq istəyən, dünyanın rənglərini, rəng bolluğunu duyğularında yaşadan qəhrəmanlarını görürük. Vaxtilə görkəmli tənqidçi Yaşar Qarayev yazırdı: «Elçin hər cür yekrəngliyə qarşıdır. Onun ədəbi palitrasında şərti rənglərin bolluğu buradan irəli gəlir. Burada hətta hər əhval-ruhiyyənin öz rəngi var». Maraqlıdır ki, Elçinin bütün sonrakı yaradıcılığında RƏNGLƏRİN POEZİYASI öz işığıyla onun nəsrində və dramaturgiyasında öz cazibəsini əksiltmədi. Bu cəhəti biz «Baladadaşın ilk məhəbbəti», «Gümüşü, narıncı, məxməri...», «On ildən sonra» kimi Azərbaycan hekayəsinin ən gözəl nümunələrində də



görə bilərik. Xüsusilə, «Baladadaşın ilk məhəbbəti» hekayəsi Elçinin artıq kamil bir hekayəçi kimi formalaşdığını sübut etdi. Bu hekayələrin bir çoxu həm də onunla əlamətdardır ki, Elçin nəsrə yeni ədəbi qəhrəmanlar gətirdi. Həm də Elçin nəsri psixoloji nəsr kimi dəyərləndirildi. Vaxtilə «Tənqidimizin vicdanı» – Məmməd Arif Elçinin nəsrinin səciyyəvi xüsusiyyətləri haqqında yazmışdı: «Elçinin laboratoriyasında yerində istifadə oluna bilən bir çox vasitələr də vardır. Hazırla keçmişi, ayıqlıqla yuxunu, həqiqətlə xəyalı, real hadisələrlə nağılı, əfsanəni yanaşı təsvir etmək, daxili dialoqlardan, özü-özü ilə söhbətdən, dramaturji səhnələrdən, mozaik parçalardan, mübaliğə, şişirtmə üsulundan istifadə etmək onun təsvirlərinin emosional qüvvəsini artırır». M.Arif Elçinin «Dəyişmə», «Qatar. Pikasso. Latur 1968», «Qırmızı ayı balası» hekayələrini Azərbaycan nəsri üçün orijinal bir hadisə hesab etmişdi. Bu hekayələrdə Elçin «dördüncü ölçü»dən – bədii şərtilikdən məharətlə istifadə etmişdi. Yetmişinci illərdə Elçin bir-birinin ardınca üç gözəl povest yazdı: «Bir görüşün tarixçəsi», «Toyuğun diri qalması» və «Dolça». Bu povestlər haqqında qısaca bunu deyə bilərik ki, Elçin nəsrinin həm mövzu, həm də sənətkarlıq axtarışlarının ən bariz cəhətləri məhz bu povestlərdə daha aydın nəzərə çarpır. Xüsusilə ədəbi qəhrəman problemi.Bu üç povest, həmçinin «Şuşaya duman gəlib» hekayəsi 70-ci illər Azərbaycan nəsrinin əsas mövzusunu da xatırlamağa imkan verir – bu da mənəvi saflığa çağırış mövzusu idi.

80-cı illəri də Elçin yaradıcılığında məhsuldar və səmərəli sayırıq. Onun bu illərdə meydana çıxan romanları – «Mahmud və Məryəm», «Ağ dəvə» və «Ölüm hökmü» bütövlükdə götürdükdə gərgin axtarışların, dünyanı, varlığı bədii təfəkkürdən keçirib «başqalaşdırmağın» məntiqi nəticəsi idi.

## III

1996-cı ildə Elçinin «Dəlixanadan dəli qaçıb» adlı kitabı çapdan çıxdı. Bu kitaba nasir və tənqidçi kimi tanıdığımız və sevdiyimiz, ədəbi stixiyası doğrudan da nəsr olan Elçinin demək olar ki, eyni mövzulu üç komediyası daxil edilmişdi: «Ah Paris! Paris!..», «Mən sənin dayınam» və «Dəlixanadan dəli qaçıb və yaxud mənim sevimli dəlim». Kitabın titul səhifəsində bu sözlər yazılıb: «Atam İlyas Əfəndiyevin

vəfatından sonra çıxmış bu ilk kitabımı onun əziz xatirəsinə ithaf edirəm».

Elçin bu sətirlərin müəllifinə verdiyi bir müsahibədə deyirdi: «Siz bilirsiniz ki, «Poçt şöbəsində xəyal» əsərini 70-ci ildə yazmışam, özü də çox həvəslə yazmışdım, bunu atama da oxumuşdum, xoşuna gəlmişdi, Anar da oxudu, onun da xoşuna gəldi, daha sonra Cəfər Cəfərov da oxudu və onun da xoşuna gəldi. Yaşar Qarayev və Mehdi Məmmədov da əsəri oxuyub tərifləmişdilər. Mən də bundan ruhlanıb əsəri verdim Tofiq Kazımova, güman edirdim Tofiq Kazımovun xoşu gələcək və onu tamaşaya qoyacaq. Amma çox qəribədir ki, Tofiq Kazımov mənə heç bir söz demədi. Bir müddət keçdi və mən bunun fərqinə varmadım, o pyesi çevirdim dramatik povest elədim, o cür də çap olundu. Və bu hadisədən sonra uzun illər pyes yazmadım. Amma sən demə, içimdəki o meyl sönməyibmiş. 1990-cı ilin yanvar hadisələrindən sonra heç nə yaza bilmirdim. İndi təsəvvür edin, həmişə yazmağa vərdiş eləmiş, demək olar ki, hər gün yaradıcılıqla məşğul olan bir adam birdən-birə heç nə yazmır, yaza bilmir. Yazıçı üçün bu, ən ağır bir vəziyyətdir. Başladım oxuduğum kitabları bir də oxumağa. O kitabların içində Molyerin komediyaları da vardı və birdən-birə, özüm də gözləmədən Molyeri Azərbaycan dilinə tərcümə etməyə başlàdım. «Skapenin kələkləri»ni, «Jorj Danden, yaxud aldanmış ər»i dilimizə çevirdim. Sonra bir müddət Axundov kitabxanasına gedib-gəldim, «Azərbaycan səhnəsi və Molyer» mövzusunu işlədim (sonralar Molyerin bu iki komediyasını kitab halında çap edəndə, «Bizimçün qalan sənət» adlı həmin məqaləni də o kitaba daxil etdim), sonra Mirzə Cəlili, Sabiri, Haqverdiyevi, N.Vəzirovu da təzədən mütaliə elədim. Və bütün bunlardan sonra özüm üçün də gözlənilməz bir hadisə baş verdi, oturub komediya yazmağa başladım: «Ah, Paris, Paris!..».

Elçinin dramaturgiyaya gəlişi Azərbaycan teatrının böhran, durğunluq keçirdiyi 90-cı illərin əvvəllərinə təsadüf edir. Bu illərdə Baş Teatr təmirdə idi. Bu təmir üzündən Akademik Teatr xeyli müddət öz qapılarını tamaşaçıların üzünə bağlamalı oldu. Bu elə bir dövr idi ki, artıq cəmiyyətdə çaşqınlıq, kor stixiya, başıpozuqluq, liderlər – partiya rəhbərləri arasında qarşıdurmalar göz qabağında idi. Azərbaycan teatrının yaxşı mənada simvoluna çevrilmiş Baş Teatr həmin bu çaşqınlıq dövrünü yaşamadı, təmir üzündən susdu. Dünyanı, həyatı, gerçəkliyi səhnədən əks etdirən teatr özü həyatda baş verən komik, dramatik və faciəli hadisələrin tamaşaçısına çevrildi.



Teatr bir müddət sussa da, amma təbii ki, dram əsərləri yazılırdı. Və 90-cı illərdə Azərbaycan dramaturgiyası yeni bir mərhələyə hazırlıq və keçid dövrünü yaşadı. Daha çox zamanın ruhuna köklənən dramaturgiya cəmiyyətdə, mənəvi dünyamızda, insanlararası münasibətlərdə baş verən dəyişmələri, həyatın çaxnaşmalarını, ictimai-siyasi problemləri bədii sözün obyektinə çevirdi. Yazılan, səhnəyə yol tapan bir çox pyeslərdə dövrün, zamanın əsas konflikti, bu konfliktin yaranma səbəbləri daha çox diqqət mərkəzinə çəkildi. Zamanın başlıca impulsunu, əsas vurğusunu insan talelərində axtaran, bir çox müşgül suallara cavab tapan əsərlər sırasında Elçinin pyesləri xüsusi yer tutur.

«Ah, Paris, Paris!..», «Mən sənin dayınam», «Mənim sevimli dəlim», «Mənim ərim dəlidir» ... bunlar Elçinin bir pyes kimi doğulan, sonra səhnədə də öz ömrünü yaşayan sırf dram əsərləridir. «Mahmud və Məryəm», «Ölüm hökmü» isə Elçinin məşhur romanları əsasında yazılsa da, səhnədə «yad janrın təcəssümü» kimi yox, elə xalis dram əsəri kimi öz ömrünü yaşayır. Əslində, belə bir fakt təsdiq olunur ki, burada əsas meyar dramaturji istedaddır, «çevrilmə» şərtidir.

Elçinin adı çəkilən pyesləri (xüsusilə ilk pyes) hansı bədii sənətkarlıq məziyyətləri ilə seçilir? Ümumiyyətlə, bu pyeslər zamanın dramatik panoramını necə əks etdirir? Nəhayət, «dramaturq» kəlməsini nasir Elçinin adı qarşısında doğma bir təyin kimi işlədə bilərikmi?

Birincisi, Elçinin pyesləri komediyanın müasir tipinin nümunələridir. Təbii ki, burada gülüş iti və sürəkli olmalıdır. Çünki cəmiyyətdə, insanlar arasında mənəvi münasibətlərdə məhz bu dövr üçün xarakterik olan kifayət qədər komik tipajlar var. Ancaq bu komik tipajları məlum vasitələrlə, ənənəvi üsullarla təqdim etmək heç bir effekt yaratmazdı. Bu baxımdan Elçin daha təsirli vasitələr seçir. «Qeyri-adilik, qroteskli ümumiləşmə, pamflet əlamətləri... bu əsərlərdə bir yerə toplanan komik tipajın həm zahiri portretini, həm də iç dünyasını əvvəlki illərin personaj arsenalından fərqləndirir» (Yaşar Qarayev).

İkincisi, zamanın dramatik mənzərəsi Elçinin pyeslərində daha qabarıq nəzərə çarpır. Elçin cəmiyyətdəki xaotik durumu, hərcmərcliyi, çaşqınlığı, mənəvi müflisliyi ifadə etmək üçün bütün «tanış» tipajları «dəlilər» adı ilə bir yerə toplayır. Yaşar Qarayevin təbirincə desək, Elçin dramaturgiyamızda ilk dəfə olaraq, xaosun, hərcmərcliyin obrazını yaradır. Ancaq bu pyeslərdə iki cür dəli təsvir olunur. Birincisi, qismən ağıllı insanların məcburən, zamanın hökmü

və diqtəsi ilə sürükləndiyi «dəlilik» aktıdır. «Ağıllı olub dərd çəkincə, dəli ol, qoy sənin dərdini çəksinlər» misalını Elçin «Mənim ərim dəlidir» komediyasına epiqraf seçir və bu komediyadakı KİŞİ məhz həmin dəlilərin içində özünü dəliliyə qoyur. Özünü könüllü dəliliyə vuran KİŞİ sonda gözlənilmədən, əl fənərinin zəif işığında qəzet oxumağa başlayanda arvadı gəlib üstünə çıxır. Başa düşür ki, KİŞİ yalandan özünü dəliliyə vurubmuş. Ancaq paradoksal bir vəziyyət – KİŞİ «Sabah yenə ağıllı olacağam! Sabah hamıya elan edəcəyəm ki, daha ağlım gəlib başıma» - deyəndə arvadı sarsılır, onun yenidən ağıllı olmağını istəmir.

İkinci qism dəlilik isə dəliliyi ölülük səviyyəsinə çatdıran adamların hərəkətlərindən doğur. Onlar dəyişən dövrə, yeniləşən cəmiyyətə «uyğunlaşmaq» üçün dəyişir, başqalaşırlar. Nəyi dəyişirlər? İlk növbədə, ideallarını. Dünənki kommunist bu gün türkçüyə, partokrat isə cəbhəçiyə çevrilir.

Elçin nəsrinə xas olan şərtilik və qrotesk üsulları onun dramaturgiyasında da bariz nəzərə çarpır. Ancaq bu şərtilik tamamilə tül qara pərdəyə bürünmüş, reallıqdan tamam uzaq deyil, yalnız və yalnız həyat həqiqətini, reallığı daha təsirli və emosional ifadə etmək niyyətindən gəlir. Məsələn, «Mənim ərim dəlidir» pyesində «adı var, özü yox», yəni bircə kərə də görünməyən, səsi eşidilməyən bir personaj diqqəti cəlb edir: *«Bir də ki, Suzik, bu yerdə deyiblər ki, igidin adını eşit, özünü görmə! Ancaq rejissor lazım bilsə, hörmətli tamaşaçıları intizarda qoymamaq üçün, heç olmasa bunun şəklini səhnədə göstərə bilər».*

Bu Suzik deyilən gözəgörünməz bugünki mənəvi, ruhi-psixoloji ovqatın məhsuludur. Heç bir ideala söykənməyən pasifist romantika – kəmağıl şüuru dingildədən bu «bəyaz» romantika Suziklərin mövcudluğuna haqq qazandırır.

Elçinin nəsrində olduğu kimi, dramaturgiyasında da obrazlar qüvvətli dərəcədə fərdiləşdirilir. Bu fərdilik obrazların həm ictimai, həm mənəvi zəmində xarakterlərinin açıqlanmasına xidmət edir. «Mən sənin dayınam» komediyasında: direktor – vaxtilə sovet cəmiyyətinin, totalitar quruluşun alovlu təbliğatçısı olub, Kirovu, Kalinini, Xruşşovu, Brejnevi tərifləyib, indi isə təriflədiklərini söyür. «Mənim ərim dəlidir» komediyasında oğul özünü qatı kommunist hesab edir, amma «Kapital» əsərini nə qədər oxuyursa, yenə doqquzuncu səhifəsindən onuncu səhifəsinə adlaya bilmir. Həmin komediyada keçmiş ateistin dönüb indi qatı dindar olması, ekstrasens Ağabacının hoqqaları, eləcə də əvvəllər antitürkçü olub (sifətdən Leninə oxşasa



da), indi pantürkistə çevrilən DOST və s. obrazlar nə qədər də tanışdır. Bu adamları küçədə də, yığıncaqlarda da, metroda da görürük, keçmişləri əl içi kimi aydındır. Necə ki, bu gün əqidəsi və partiyası tez-tez dəyişən liderlər, yarımliderlər, «siyasət» adamları... Nə etmək olar..? Zaman belədir.

Və nəhayət, Elçinin pyesləri onun dramaturgiya sahəsində artıq kamil bir sənətkar kimi özünü təsdiq etməsindən soraq verir. Dramaturgiyaya ötəri bir həvəsin, eksperiment cəhdinin və gur alqışlar qazanmağın səbəbinə deyil, potensial dramaturji istedadın və daxili zərurətin təşviqilə gələn Elçin bu pyeslərində yenilikçi, novator olduğunu bir daha sübut etdi.

* * *

...Elçin 60 yaşında...

Amma bu yaş qocalığın, yaxud ora keçidin əlaməti, fiziki ömrün göstəricisi də deyil. Bu yaş mənəvi ömrün yaşıdır. Ona uzun ömür, cansağlığı, yenə əvvəlki tempi saxlamaqla gözəl yaradıcılıq uğurları arzulayırıq.

*«Qobustan», № 122, 2003.*

**Tofiq ABDİN**

## ANAR – 65...

## ELÇİN – 60

Keçdiyimiz üç ay ərzində – yəni bizim toplunun çap olunmadığı müddətdə ədəbiyyat aləmində iki böyük yazarımızın yubileyləri oldu. Açığını deyim ki, bu yazarları mən çox zaman yaşıd bilmişəm. Amma belə deyilmiş. Anar müəllimin ALTMIŞ BEŞ, Elçin müəllimin isə ALTMIŞ yaşı tamam oldu və mənim də bu gözəl yazarları yaşıd bilməyim də əbəs deyil. Necə ki, bir çox ədəbiyyatçı məni də altmışların ayağına yazır, amma hər dəfə deyirəm ki, mənim onlarla heç bir əlaqəm yoxdur. Bunu da izah etmək bu Köşənin işi deyil və ən çox da mənim ŞƏXSİ işimdir.

Anar müəllimin ALTMIŞ BEŞ yaşı Elçin müəllimin ALTMIŞ yaşına nisbətdə çox sakit keçdi və mən bu sətirləri yazanda (17 may 2003) hələ bilmirəm ki, bir toplantı olacaq, ya olmayacaq. Güman ki, olmayacaq...

Anar müəllimin altmış beş yaşı Vətəndən uzaqda - Türkiyədə daha canlı, daha diri və daha bərəkətli qeyd olundu. Mən orda olmamışam, amma internetdən oxuduqlarım bunu deyir və Anar müəllim artıq bir az da təkcə bizim yazarımız olmaqdan çıxır sanki, Türkiyənin də yazarı olur. Buna sevinməmək olmaz, çünki bu ad bizim adımızdır və onun ŞÖHRƏTİ bizim şöhrətimizdir. Bütün inciklikləre baxmayaraq.

Bu məqamda incikliyi xatırladıqsa, Anar müəllimin altmış beş yaşının Vətəndən uzaqlarda daha geniş keçirilmə məntiqini də açıb ağartmayaq.

Elçin müəllimin altmış yaşı daha nəzərə çarpacaq oldu, bunun bir izahı varsa, bəlkə də altmış yaşın daha YUBİLEY yaşı olmasıdır. Bilmirəm, mən bilən Elçin müəllim haqqında yazmayan adam qalmadı və bu bir idman yarışına bənzədi məncə...

Yazan qalmadı və Elçin müəllim bu yazılardan məmnun qaldımı-qalmadımı, bunu da bilmirəm. Amma məmnun qalmalıdır, çünki SÖZ heç zaman mane olmur (amma mane olduğu vaxtlar var, təbii) və bu yazılanlar Elçin müəllimin yaradıcılığı haqqında gələcək nəsillər üçün çox varlı tədqiqat materialı oldu. Daha bərəkətli olsun.



Uzun illər ədəbiyyatımızda adları birlikdə çəkilən bu gözəl yazarlarımıza arzu olunacaq bir şey var: Allah ömrünüzü uzatsın və Sizi bu biçarə xalqa çox görməsin!

Anar müəllim, Allahın Sizə verdiyi ömrü bu günə qədər bu XALQA, ƏDƏBİYYATA və NƏSLİNİZƏ layiq yaşadınız!

Və Elçin müəllim, Siz də eləcə!!!

*«Qobustan», № 122, 2003.*

**Mülayim HÜSEYNOVA**

## ELÇİN - 60

Bu yaxınlarda «QAPP-Poliqraf» Nəşriyyatında xalq yazıçısı Elçinin anadan olmasının 60 illiyi münasibətilə «Elçin – 60» adlı metodik vəsait çapdan çıxmışdır. 62 səhifəlik bu nəşr Elçin yaradıcılığının mədəni-maarif müəssisələrində təbliği üçün nəzərdə tutulmuşdur. Vəsaitin müəllifi Bəybala Ələsgərov, buraxılışına məsul Leyla Qafurova, redaktoru Dilsuz, naşiri Qoşqar İsmayıloğlu, bədii redaktoru İlham İsmayılov, Akif Dənzizadə, korrektoru Rəfiqə Qənbərqızı, operatoru Məlahət Qurbanova, çapa məsul Anar Abdullayevdir. Müəllif vəsaiti əvvəlki vəsaitlərdən fərqli olaraq xüsusi yeni bir quruluşda hazırlanmışdır. Belə ki, nəşr 7 sərlövhədən ibarətdir.

Birinci sərlövhədə Elçin İlyas oğlu Əfəndiyevin «İstiqlal» ordeni ilə təltif edilməsi haqqında respublika Prezidenti Heydər Əliyevin fərmanı öz əksini tapmışdır.

Növbəti başlıq möhtərəm Prezidentimizin yubilyara ünvanladığı «Xalq yazıçısı Elçinə» adlı təbrik məktubu ilə açılır.

Üçüncü sərlövhədə müəllifin «Ön sözü» diqqəti cəlb edir. Burada B.Ələsgərov xalq yazıçısı Elçinin yaradıcılığını qısa şəkildə şərh edir və oxucuları məlumatlandırır.

Beşinci bölmə xüsusilə diqqəti cəlb edir. Müəllif «Ədəbiyyat, incəsənət və dövlət xadimləri, oxucuları Elçin haqqında» adlı səhifə təqdim edir. Burada Heydər Əliyev, Məmməd Cəfər, Məmməd Arif, Mirzə İbrahimov, Mehdi Məmmədov, Bəxtiyar Vahabzadə, Yusif Səmədoğlu, Niyazi Mehdi, Lev Anninski, Yaşar Qarayev, Əziz Mirəhmədov, Nizami Cəfərov, Fərhad Bədəlbəyli, Polad Bülbüloğlu, Anar, Oljas Süleymenov, Bəkir Nəbiyev, Vilayət Quliyev, Mir Cəlal, Ağamusa Axundov və digər görkəmli şəxsiyyətlərin fikirləri oxuculara çatdırılır.

Daha bir sərlövhə Elçinin «Həyat və fəaliyyətinin əsas tarixləri» adlanır ki, burada müəllif yazıçının həyatından yaddaqalan illəri, əsas tarixləri işıqlandırır.

Metodik vəsaitin diqqət çəkən hissələrindən biri də «Elçin yaradıcılığının mədəni-maarif müəssisələrində təbliği» adı altında təqdim olunan xüsusi metodikasıdır. Kütləvi tədbirlərin, oxucu



konfranslarının, disputların və ədəbi-bədii gecələrin təşkili formaları barədə söz açan müəllif oxuculara bu barədə geniş izahat verir.

«Elçin-60» adlı kitabda həmçinin görkəmli dramaturqun kino sahəsindəki uğurları da öz əksini tapmışdır.

Sonuncu başlıq «Ədəbiyyat siyahısı» adlanır. Burada Elçinin öz kitabları (kiril və latın qrafikasında), haqqında olan kitablar, dövri mətbuatda çap olunmuş bir çox ədəbiyyat (müəllifləri göstərilməklə) öz əksini tapmışdır.

*«Mədəni-maarif» jurnalı, 2003, № 8-9.*

**Qeyd.** Bu yazı 12 oktyabr 2003-cü il tarixli «Dialoq» qəzetində də dərc edilmişdir.

Gülər ƏHƏDOVA

## «QATİL» TAMAŞAÇILARLA GÖRÜŞƏ HAZIRLAŞIR

Xalq yazıçısı Elçinin «Qatil» adlı yeni pyesinin tamaşası qarşıdan gələn teatr mövsümündə, sentyabr ayında tamaşaçıların ixtiyarına veriləcək. Akademik Milli Dram Teatrında hazırlanan bu tamaşa üzərində yaradıcı iş artıq sona yetməkdədir.

Elçin daima yeni mövzuları qələmə alan, yeni söz deyən, oxuculara, tamaşaçılara sözün müsbət mənasında «sürpriz»lər bəxş edən çoxcəhətli, çoxsahəli istedada malik bir sənətkar kimi məşhurdur. Onun «Mahmud və Məryəm», «Ağ dəvə» və «Ölüm hökmü» kimi böyük şöhrət qazanmış, bir çox dillərə tərcümə olunmuş romanlarından sonra yazdığı absurd novellalar, milli dramaturgiyamıza tamamilə yeni estetik keyfiyyətlər gətirmiş komediyalar, ən son dövrdə çap etdirdiyi psixoloji-fəlsəfi hekayələr çağdaş Azərbaycan ədəbiyyatının ən maraqlı ədəbi hadisələridir.

Bu mənada «Qatil» əsəri də istisna deyil.

Respublikamızda son illərin teatr həyatı bilavasitə Elçinin adı ilə bağlıdır. Belə ki, indiyə kimi onun üç pyesi Gənc Tamaşaçılar Teatrında, dörd pyesi Səməd Vurğun adına Rus Dram Teatrında uğurla tamaşaya qoyulub.

«Qatil» isə əsas teatrımızda – Akademik Milli Dram Teatrında Elçinin pyesləri əsasında səhnə həyatı tapmış beşinci əsərdir. Bundan əvvəl orada Elçinin «Ah, Paris, Paris!..», «Mənim sevimli dəlim», «Mənim ərim dəlidir» və «Poçt şöbəsində xəyal» pyesləri tamaşaya qoyulub, həm ədəbi ictimaiyyət, həm də tamaşaçılar tərəfindən yüksək qiymətləndirilib. Tənqid Azərbaycan dramaturgiyasının bədii-estetik faktı kimi «Elçin teatrı»nın yarandığını bəyan edib.

Elçinin Milli Dram Teatrında tamaşaya qoyulmuş əsərlərinin üçü komediya, biri isə tragikomediya janrında yazılıb. «Qatil» isə sırf psixoloji-fəlsəfi dramdır, hətta onu faciə də adlandırmaq olar.

Psixoloji sarsıntılar burulğanında cərəyan edən hadisələr süjet xəttini bütün əsər boyu olduqca gərgin saxlayır və Elçinin bu yeni əsəri milli dramaturgiyamızda ən ağır psixoloji yükü olan pyesdir desək, səhv etmərik. Oxucular əsərlə «Azərbaycan» jurnalının builki 4-cü



nömrəsində tanış ola bilərlər. Yəqin ki, Azərbaycan tənqidi bu əsər haqqında öz sanballı sözünü deyəcək.

«Qatil» tamaşasının quruluşçu rejissoru Mehriban Ələkbərovadır. Mehriban xanım keçən il Akademik Milli Dram Teatrının səhnəsində Elçinin «Poçt şöbəsində xəyal» pyesini tamaşaya qoymuşdu. Həmin tamaşa respublikamızın teatr həyatında əhəmiyyətli hadisəyə çevrildi və tamaşaçılar da, ədəbi-mədəni ictimaiyyət də Mehriban Ələkbərovanı istedadlı bir teatr rejissoru kimi tanıdı.

Qeyd etmək lazımdır ki, «Poçt şöbəsində xəyal» pyesi, əslində, Elçinin yazdığı ilk dram əsəridir və 30 ildən artıq bir müddət əvvəl qələmə alınıb. Lakin o zaman sovet senzurası bu əsərin tamaşaya qoyulmasına icazə verməyib. Müəllif onu «dramatik povest» kimi çap etdirib. Əsər «dramatik povest» kimi bir çox dillərə tərcümə də olunub.

Mehriban Ələkbərova «Poçt şöbəsində xəyal» əsərinin psixoloji dərinliyinə vara bilib, əsərdəki bədii-estetik baxımdan dolğun, siqlətli surətlərin daxili aləmini hiss edib və mədəni səviyyəsinin yüksəkliyi, psixoloji dəqiqliyi vermək üçün ən kiçik bədii detal və ştrixlərdən istifadə etmək bacarığı ilə seçilən bir tamaşanın meydana çıxmasına nail olub.

Əlbəttə, «Poçt şöbəsində xəyal» tamaşasının böyük uğur qazanmasında görkəmli artistlərin, ilk növbədə baş rolların ifaçıları xalq artistləri Bəsti Cəfərovanın, Səyavuş Aslanın və Ramiz Məlikovun xüsusi xidmətləri olub.

«Poçt şöbəsində xəyal» əsərinin tamaşası göstərdi ki, Mehriban Ələkbərova Elçinin yaradıcılığına xas olan cəhətləri – dərin psixologizmi, parlaq tipajlar qalereyasının özünəməxsusluğunu, obrazların daxili aləmində görünməyən layları, dramaturqun qələmini səciyyələndirən incə, bir çox məqamlarda isə acı yumoru, aşıladığı fikir və qayələri duya bilir.

Görünür, rejissorun elə bu keyfiyyətlərinə görə də Elçin «Qatil» pyesini məhz Mehriban Ələkbərova üçün yazdığını bildirib.

«Qatil» iştirakçıları az olan pyesdir. Əsas iki rolun – Qadın və Gənc Kişi – ifaçıları Şükufə Yusifova və Sabir Məmmədovdur. Rejissor Qadın rolunun ikinci ifaçısı kimi görkəmli kinoaktrisamız Həmidə Ömərovanı teatra dəvət edib. Əlbəttə, bu, bir tərəfdən gözlənilməz, digər tərəfdən isə çox maraqlı bir haldır.

Qalan üç rolun ifaçıları Yaşar Nuri, Səidə Quliyeva və Mətanət Atakişiyevadır.

Tamaşanın quruluşçu rəssamı Nazim Bəykişiyev, bəstəkarı Aygün Səmədzadədir.

Qeyd etmək lazımdır ki, mahnıları ilə dinləyicilərin rəğbətini qazanmış gənc bəstəkar Aygün Səmədzadə ilk dəfədir ki, teatr tamaşasına musiqi yazmaq üçün dəvət edilib. Ümid edirik ki, Aygün xanımın musiqisi sevimli dramaturqumuzun böyük məharətlə yaratdığı bədii obrazların daxili aləmi ilə səsləşəcək.

Mətbuatdan məlum olduğu kimi, «Qatil» artıq Türkiyədə və Yunanıstanda da tamaşaya hazırlanır.

Heç şübhəsiz ki, yeni teatr mövsümündə respublikamızın teatrsevərləri «Qatil»in timsalında Akademik Milli Dram Teatrının yeni yaradıcılıq uğurunun şahidi olacaqlar.

Teatr bu tamaşanı sevimli yazıçımızın 60 illiyinə töhfə edir.

*«525-ci qəzet», 4 sentyabr 2003.*



İlkin MƏMMƏDOV

## İSTANBULDA ELÇİNƏ MÜKAFAT TƏQDİM EDİLİB

### Memar Sinan universitetində bununla bağlı təntənəli mərasim keçirilib

Türkiyə Respublikasının ən qocaman və böyük nüfuza malik elmi tədris ocaqlarından biri məşhur Memar Sinan Universitetidir. İstanbulda fəaliyyət göstərən bu universitet hələ Osmanlı İmperiyası zamanından gənc nəsillərin yetişməsində, qardaş ölkədə elmin və tədrisin inkişafında, siyasi-ictimai mühitin yaranmasında böyük rol oynayıb. Universitetin professor-müəllim kollektivi Türkiyənin tanınmış elm adamları, siyasi-ictimai xadimlərdir. Təsadüfi deyil ki, Memar Sinan Universiteti qardaş ölkənin ictimai həyatında aktiv iştirak edir, ən məşhur beynəlxalq elmi-mədəni institutlarla sıx əlaqə saxlayır.

2003-cü ilin sonunda Memar Sinan Universiteti bədii ədəbiyyat sahəsində əldə etdiyi böyük nailiyyətlərə, eləcə də ədəbiyyatşünaslıq elminin inkişafındakı xidmətlərinə görə xalq yazıçısı Elçini «Yüksək xidmət ödülü» ilə təltif edib.

Bu təltif türk ədəbi-elmi mühitində razılıqla qarşılanıb, universitetin həyatında ilin mühüm hadisəsi kimi qiymətləndirilib.

Dekabr ayının 11-də İstanbulda, Memar Sinan Universitetinin Böyük Konfrans Salonunda ödülün təqdimat mərasimi keçirilib.

Görkəmli ədəbiyyatşünas, doktor **Rahim Tarım** Elçinin yaradıcılığı haqqında geniş məruzə ilə çıxış edib. O, Elçinin hekayələrini, «Mahmud və Məryəm», «Ağ dəvə», «Ölüm hökmü» romanlarını, dramaturgiyasını təhlil edərək deyib: **«Elçin çağdaş türk ədəbiyyatının böyük nümayəndəsidir. Onun yaradıcılığı sübut edir ki, sovet rejimi dönəmində də böyük türk ədəbiyyatının sanballı nümunələrini yaratmaq mümkün olub. Elçinin istedadı rejimin tələblərini üstələyə bilib, insanların daxili aləminə ideolojidən kənar olan gur işıq saçmağı bacarıb. Buna görə də Elçin bu gün Türkiyədə ən populyar yazıçılardan biridir. Son on ildə onun Türkiyədə on beş kitabı nəşr edilib, Ankara, Konya, Ərzurum Dövlət teatrlarında dram əsərləri uğurla**

**tamaşaya qoyuluö, əsərləri Türkiyə universitetlərində tədqiqat obyektinə çevrilib. Bu cür uğur Türkiyədə çox az yazıçıya qismət olur».**

Universitetin ədəbiyyat fakültəsinin dekanı, professor **Esin Küntay** çıxış edərək Elçininin məşhur bədii əsərləri ilə bərabər ədəbiyyat nəzəriyyəsi sahəsində fəaliyyətindən ətraflı danışıb, ədəbi elmi araşdırmaları üzərində dayanıb, deyib ki, Elçinin elmi-nəzəri yaradıcılığı geniş diapazona malikdir, o «Dədə Qorqud»u və Şekspir yaradıcılığını da, klassik aşıq poeziyasını və Molyer komediyalarını da, klassikanı və çağdaş ədəbiyyatı eyni yüksək nəzəri hazırlıqla tədqiq edir, filologiya elminin kamil nümunələrini yaradır.

Rektor müavini, professor **Özər Ərənman** xitabət kürsüsünə qalxaraq Elçini səmimiyyətlə salamlayıb və deyib: «Biz bu gün fəxr edirik ki, türk dünyasının böyük yazıçısı universitetimizin qonağıdır. Onun əsərləri də, fəaliyyəti də yüksək təqdirə layiqdir. Təsadüfi deyil ki, Elçin Yedditəpə və Fath Universitetlərinin fəxri doktoru seçilib».

Məşhur türk dramaturqu **Tuncər Cücənoğlu** Elçinin dramaturgiyasından danışdı və bu pyeslər müasir dünya dramaturgiyasının layiqli nümunələri kimi qiymətləndirdi. T.Cücənoğlu Elçinin son dram əsərinin –«Qatil» faciəsinin türk dilinə tərcüməsini müəllifə təqdim etdi və bu əsər artıq türk dilindən fransız və yunan dillərinə tərcümə olunub. Natiq belə inamını da bildirdi ki, «Qatil» faciəsi də Elçinin digər dram əsərləri kimi, Türkiyədə böyük uğur qazanacaqdır.

Azərbaycan-Türkiyə ədəbi əlaqələrinin inkişafında xüsusi xidmətləri olan doktor **İldəniz Kurtulan** Elçin yaradıcılığının əhəmiyyətindən danışdı və bu yaradıcılığın artıq neçə illərdir ki, iki qardaş ölkə arasında mənəvi körpü rolunu oynadığını dedi.

Üzrlü səbəbə görə təntənəli mərasimdə iştirak edə bilməyən Universitetin rektoru, professor **İsmət Vildan Alptekiinin** Elçinə müraciətlə yazdığı məktubda deyilir: **«Kultur və sənətə göstərmiş olduğunuz xidmətlərə görə adınıza düzənlənmiş yüksək ödülün təqdimat mərasiminə gəlməyiniz bizi son dərəcə xoşbəxt edib».**

Rəsmi hissənin sonunda Elçin çıxış edərək universitetin rektorluğuna, professor-müəllim heyətinə təşəkkürünü, tələbələrə, eləcə də mərasimdə iştirak edən görkəmli elm, ədəbiyyat və mədəniyyət adamlarına, siyasi-ictimai xadimlərə ən səmimi arzularını bildirdi. O, dedi: **«Mən bu yüksək mükafatı yalnız öz yaradıcılığıma yox, bütün çağdaş Azərbaycan ədəbiyyatına verdiyiniz qiymət, göstərdiyiniz diqqət kimi qəbul edirəm. Türkiyə ilə Azərbaycan əzəli və əbədi qardaşlardır və**



**bizim hər birimiz öz sahəsində əlimizdən gələni etməliyik ki, bu qardaşlıq özünün səviyyəli və effektli ifadəsini tapsın».**

Rəsmi hissə Elçin haqqında çəkilmiş sənədli filmin nümayişi ilə başa çatdı.

Rəsmi hissədən sonra kamera musiqisindən ibarət konsert oldu.

Mərasim bitdikdən sonra Elçin Türkiyənin müxtəlif nəşriyyatlarında çapdan çıxmış və çoxsaylı oxucuların mərasimə gətirdiyi kitablarını imzaladı.

Türkiyə televiziya kanalları, mətbuat təntənəli mərasimi geniş işıqlandırıldı.

**İstanbul**

*«525-ci qəzet», 3 yanvar 2004.*

Mövlud SÜLEYMANLI

# DOST HAQQINDA SÖZ

Artıq mətbuatda uğurla yer almış «Vaxtdan uca...» ifadəsi düzgün və öz məna yükünə görə gərəkli ifadədir... Vaxtdan uca adamlar olub, heç şübhəsiz, olacaq da.

Vaxtdan uca olmaq, - yəni, zamanın-vaxtın, hər hansı siyasi quruluşun dəyişib, istədiyi şəkilə salıb özünə oxşada bilmədiyi Adam. Vaxtın çaldığı havalara oynamayan, həmişə hər yerdə özü olan, ən əsası vaxtın özünün ilişib qaldığı Adam.

Heç şübhəsiz, belə adamlar istənilsə də, istənilməsə də, həmişə görünüblər, çünki hər yerdə həmişə zamanın fövqündə olmağı bacarıblar. Və vaxt haqqında əsl sözü də onlar deyə biliblər.

İndi yazıçı dostum Elçinin 60 illik yubileyindən keçsə də, ürək sözümü demək haqda düşünəndə, istər-istəməz, bu fikirləri yaşadım... Ona da təəssüfləndim ki, bu fikirləri qələmə almaq üçün demək 60 illik ömür yaşamaq lazım imiş.

Mənim də 60 yaşım oldu... Açığını deyim ki, Elçinlə yaşıd olduğumuza inanmazdım... Bir yerdə işləsək də, ən əsası yazdıqlarımıza yaxından bələd olsaq da, Elçinin yaşını bilməmişəm... Özümdən yaşlı hesab etmişəm.

«Özümdən yaşlı»... indi oturub bu haqda yazmaq istəyirəm. Aramızda cəmi iki ay yaş fərqi olan bir adamı niyə özümdən yaşlı hesab etmişəm, bu hissə toxunmaq, bu düşüncəni yazmaq istəyirəm...

Vaxt anlayışıyla başlamağım da ona görədir... Elçin həmişə vaxtdan ucada dayanmağı bacarıb, həmişə hər yerdə vaxtın sözünü deyə bilib. Və indi fikirləşirəm ki, bu cür adamların yaşının bilinmədiyi öz nəsli arasında yaşlı, ağsaqqal görünməyi də ona görədir.

«Gümüşü, narıncı, məxməri...» hekayəsi Elçinin ilk oxuduğum əsərlərindəndir. Səhv etmirəmsə, 70-ci illərin əvvəllərində yazılıb. Bu yazıda Elçin kənd həyatını çox düzgün, sözün əsl mənasında, kəndli kimi təsvir etməyi bacarıb. Kəndi-kəsəyi bütöv görən, dumanı-çiskini saçından-saqqalından damcılayan bir kəndli kimi. O vaxtdan otuz il keçib, amma mən hələ də o hekayəni gəzib gördüyüm yurd yerləri təki xatırlayıram...

Arxacda buzovu ayaqlarına bağlanmış inəyi sağan gəlin, daylağı yanında, yiyəsi belində su içən at-madyan... Şəhərdən kəndli qızı



çəkməyə gəlmiş, əslində kəndə-kəsəyə yad olan kinooperator... Bu xəbərə ayaqlarının ucuna qalxıb boylanan kənd qızlarının həsrəti, niskili... Operatorun seçib çəkmək istədiyi (çəkməyəcəyi) Sədəf adında bir qızın həyəcanları...

Və guya ki, təsvir olunmayan, yazıçının guya ki, vaxt və yer ayırmadığı, əslində isə, çox istedadla, zərifliklə yaratdığı sevgi xətti oxuduğum gündən yaddaşıma həkk olunub.

Elçin yaratdıqlarında səmimi olan, saxta rənglərə, cansız gəzişmələrə, qanadı şişmiş cümlələrə yer verməyən, həyatı əslində necə varsa, o cür ifadə eləməyi bacaran yazıçıdır. Ona görə də Elçinin əsərlərindəki həyat bizə tanış olan, rast gəldiyimiz və ya rast gələ biləcəyimiz mühitdir... Bu, hər şeydən əvvəl yazıçının bir baxmaqla öz mühitini anlamaq bacarığından irəli gəlir.

Elçin, ümumiyyətlə, bir insan, bir ziyalı kimi hamıya, hər şeyə gendən baxmağı, yəni, həssaslıqla baxmağı bacarandır.

Azərbaycan oxucularının siyasi-ictimai, bədii düşüncəsində, dünyagörüşündə çox gərəkli işlər görmüş, o dövr publisistikamızda əsaslı yer tutan «Yaxın, uzaq Türkiyə» əsərində belə bir etirafı var. Elçin yazır:

«Mən Nazim Hikməti bir neçə dəfə görmüşəm. Bir dəfə hələ lap yeniyetməykən Azərbaycan Yazıçılar İttifaqının qarşısından keçərkən küçədə Nazim Hikmətin Mehdi Hüseyn, Mikayıl Rəfili və Mehdi Seyidzadə ilə dayanıb söhbət etdiyini gördüm və Yazıçılar İttifaqı ilə üzbəüz «26-lar bağı»nda bir ağacın arxasına keçib təxminən 40 dəqiqə onlara tamaşa etdim və bu hündürboylu, sarışın, göy gözlərindən işıq və hərarət saçan yaraşıqlı insan o vaxtdan bəri bir saat bundan əvvəl görübmüşəm kimi həmişə yadımdadır...».

Bunu niyə xatırladım? Elçin, istər-istəməz, həqiqəti yazıb. Onun gözündən heç vaxt, heç nə yayınmayıb, istədiyi, istəmədiyi, sevdiyi, sevmədiyi adamlara nəzarəti, diqqəti həmişə güclü olub. Bütün hadisələrə, bütün adamlara gendən – tələsmədən, ağır-arxayın baxmağı, öyrənməyi bacarıb. Yaratdığı ən kiçik bədii obrazların belə yadda qalması ona görədir. «Baladadaşın ilk məhəbbəti» hekayəsi təkcə çox böyük ustalıqla yaradılmış obrazlarına görə yox, həm də yaddan çıxmayan, dahiyanə təsvirlərlə verilmiş Abşeron bağları, günəşi, qumu və heç yerdə rast gəlmədiyimiz böyük-kiçik münasibətinin dəqiqliklə işlənməsinə görə unudulmazdır.

Ümumiyyətlə, mənə belə gəlir ki, sevib-seçdiyimiz, ruhumuzun məskəni olan Abşeron (A.Bakıxanovun əsərlərində Avşaran kimi

gedir) istər tarixi, etnoqrafik baxımdan, istər bədii yöndən kifayət qədər işlənməyib. Qoynunda yaşasaq da, nəzərimizdən yan keçib. Bu mənada mən Abşeronu təkrarsız koloriti, özünəməxsus milli dəyərləriylə Elçinin əsərlərində gördüm və yenidən sevdim.

«Axşamdan xəzri əsməyə başlamışdı, külək get-gedə bərkiyirdi və bu dəm dənizin uğultusu da küləyin səsinə qatışmışdı, ağaclar da xışıldayırdı, külək qozaları bir-bir tarappaturupla salırdı yerə, narın çiçəklərini havaya sovururdu...».

Abşeronun bəzəksiz-düzəksiz, olan-qalan gözəlliyinin bəzəksiz-düzəksiz də təsvir olunan bir anlığı...

1970-ci illərin axırlarında dərc olunmuş «Dolça» əsəri mətbuatda göründüyü andan böyük əks-səda doğurdu... Yadımdadı, indi misal çəkdiyim bu kiçik bədii parçadakı «qatışmışdı» sözünü oxuyanda diksindim. Çünki, bu sözü hələ heç kəs belə dəqiqliklə işlətməmişdi, ümumiyyətlə işlədən olmamışdı... Bu söz mənim də yadıma indi düşürdü. «Qatışmaq» ... Bütün hallarda «qarışmaq» sözündən fərqlənir. «Qarışmaq» sözündə güc yoxdur, «qatışmaq»da isə güc və təsir var... Əl yeri var, qəsdlə, məcburən qatışmaq-qatışdırmaq var. Hələ o vaxtlar bunu öz aləmimdə ləzzət içində təhlil etmişdim.

«Dolça» povesti, heç şübhəsiz, o dövr ədəbi mühitimizdə yenilik idi. Bayaq dediyim kimi, Abşeronu yenidən tanıtdığı və sevdirdiyi üçün, yeni – daha təbii, daha səmimi münasibətləri yaratdığı və ədəbiyyatımıza gətirdiyi üçün, deyə bilərəm ki, bu əsər bənzərsiz yaradıcılığın məhsulu idi. Povestin çox-çox dərinliklərində - ruhunda dolaşan niskil, az qala məhv olmaqda olan ailə – insan xoşbəxtliyi, yazıçının sətiraltı mənalarla hiss etdirdiyi Abşeronun özünəməxsus milli-mənəvi dəyərlərinin getdikcə itdiyinin, yaşayış, ömür, tale üzüntülərinin, sıxıntıların bədii ştrixlərlə, həssas, dəqiq detallarla ifadəsi ədəbiyyatımızın unudulmaz bədii mənzərələridir.

Ağababa, Ağabacı və onların təsvirinə o qədər də çox yer ayrılmayan, amma qəribə də olsa, hər birinin canlı obrazı göz önündən çəkilməyən uşaqları, bir cümləylə yaddaşlardan silinməyən iki - mərtəbəli köhnə, nimdaş evləri, Dəllal Zübeydə, Ofelya, «kulturnu it saxlayan» Həsənalı, o unudulmaz mühitin adlarını unutduğum irili-xırdalı bütün adamları və nəhayət, Dolça - it o dövrün bir-birinə bağlı, bir-birini tamamlayan mənzərəsini əks etdirən bədii obrazlarıdır.

Dünya ədəbiyyatında bədii it obrazı çoxdur. Mənim fikrimcə, «Dolça» bunların ən unudulmazıdır. Bütün ağrılar, sıxıntılar,



eybəcərliklər xarakterik məqamlarla işləndiyinə görə yaddan çıxmazdır...

Povestdəki ziddiyyətli mühiti anlamaq, münasibətləri dərk etmək, insan psixologiyasının ən gizlin çalarlarınacan enmək, bələd olmaq üçün Dolça əvəzsiz rol oynayır. Yazıçı bu fənddən məharətlə istifadə edib.

Mənim yaradıcılığım üçün də xarakterik olduğuna görə həmişə bu povestə və Dolça xəttinə böyük əhəmiyyət vermişəm.

Yazıçı Dolça adlı itin obrazını həm də insan kimi işləyib. Ağrıları, əzabları, sıxıntıları olan insan obrazı kimi. Unudulmaz olduğu da ona görədir.

Povestdəki xarakterlər Dolçayla münasibətdə daha çox açılır, daha çox sevilir, Dolçanın yaşadığı həyat ziddiyyətlərlə dolu insan mənzərələrindən ibarətdir. Bu mənzərələr qarşısında heyran qalmaya bilmirsən.

Bu, povestdəki gərginliklərlə, sıxıntılarla dolu həyatın səsidir, qışqırtısıdır, əsəblərinin ifadəsidir həm də. Dolça obrazıyla mühitin irini-çirki axıdılır. Bütün bunlar Elçin qələmində çox böyük məharətlə öz həllini tapıb.

Elçin həmişə ictimai-siyasi mühiti dərinliklərinə, daha doğrusu, incəliyinəcən anladığına və düzgün qiymətləndirdiyinə görə seçilmiş, düşünülmüş, ölçülüb-biçilmiş mövzuları qələmə alıb.

Onun bədii sözü bütövdür, nəyinsə xatirinə söylənən söz deyil. Yaratdığı obrazlar iddiasızdır, qəliz deyillər, daha doğrusu, bilərəkdən üstə qoyulan, xaraktercə dolaşıq deyillər, ziddiyyətli, mürəkkəb olsalar da, anlaşılandırlar. Ona görə də Elçinin yaratdığı insanları öz aramızdan, öz əhatəmizdən çıxmış kimi tanıyırıq və doğma hesab edirik. Mən indi onların adlarını bir-bir çəkib vaxt aparmaq istəmirəm.

İlk baxışdan çox sadə və çox adi görünən «Baladadaşın ilk məhəbbəti» hekayəsindəki həyatı və bu həyatı yaşayan insanları bir daha xatırlayaq. Fikir verin, otuz ildən çox vaxt keçsə də, nə qədər unudulmaz və doğmadırlar.

Bədii filmdəki həmin obrazları yaratmış aktyorları hələ də Baladadaş, Murad, Sevil kimi xatırlayır və elə də çağırırlar.

Elçin bizim xalqın və bütövlükdə türk xalqlarının çox hazırlıqlı, yüksək səviyyəli ziyalısıdır. Onun yaratdığı dəyərli bədii əsərlər, romanlar, elmi-publisistik məqalələr, dünya ədəbiyyatından seçmə tərcümələr, bir-birindən qalmaz səhnə əsərləri bunu deməyə əsas verir.

Yaşıd olsaq da, bizim nəsil Elçini həmişə ədəbi hadisələrin, - yəni şair, yazıçı, filoloq kimi can atdığımız ədəbi mühitin ən qaynar yerində görüb.

60-cı illər bizim nəslin ömür dərsi aldığı, öyrəndiyi, ən əsası sabahlarını müəyyənləşdirdiyi illərdir. 60-cı illər bizim üçün seçim-ayırd illəridir. İstər-istəməz, taleyimizin ayırd edildiyi illər. Oxuduğumuz kitablarla, ayrı-ayrı məqalələrlə, bədii filmlərlə – şüurlara milli duyğuların gizlin-gizlin sızdığı vaxtlar idi. Qapanmış, dörd yanı bağlanmış sosializm mühitinə bu işıq hardan düşürdü?

Bu o dövr düşüncəsinin işığı idi. Ziyalı düşüncəsi işıq saçmağa başlamışdı. Biz bu işıqda bir-birimizi görməyə başladıq. Özümüzü dərk etdik, türklüyümüzü anladıq.

Bu, bizim içimizdəki bayraqların dalğalanmasıydı. Dünya ölkələri sırasında Türkiyəni aradıq. Bu barədə ara-sıra yazılar dərc olunmağa başladı.

Mənim üçün, - qətiyyətlə deyə bilərəm ki, ümumiyyətlə, Azərbaycan oxucusu üçün ən mötəbər mənbələrdən – qaynaqlardan biri də Elçinin 1970-ci ildə qələmə aldığı «Yaxın, uzaq Türkiyə» əsəri idi.

Məqaləni zaman özü yetirmişdi... Yəni ictimai-siyasi baxışların daşlaşmış düşüncələri dağıdıb yeni havayla cücərdiyi, yetişdiyi illərin əsəri idi. Əsərdə bilmədiklərimiz vardı, oxuyub öyrənirdik. Bütövlükdə Türkiyə Respublikasının tam obrazı yaradılmışdı. Türkiyə Cümhuriyyəti ziddiyyətləri, təzadları, ağrıları-üzüntüləri, sıxıntılarıyla bir yerdə, böyük, istedadlı, müdrik və sağlam olmağı ilə də çox gözəl ifadəsini tapmışdı.

«Yaxın, uzaq Türkiyə» əsəri o vaxtlar «Azərbaycan» jurnalında dərc olunmuşdu. Jurnal əldən-ələ gəzirdi...

Daha çox nağıllardan, dastanlardan tanıdığımız Türkiyənin, dediyimiz kimi, daxili aləmi aydınlaşmağa başlamışdı. Yazıda Türkiyənin ağrıları vardı, o ağrıları biz də yaşadıq.

Elçinin bu səfəri 1970-ci illərin axırlarına təsadüf etmişdi. Bu illər hər şeydən əvvəl yeni məna çalarlarıyla, müəyyən mənada hər bir azərbaycanlının türk olaraq özünü dərk etmək anlayışıyla, özünə qayıtması və bütün hallarda maraqlarımızın sınırlarından-sərhədlərindən aşıb uzaq ölkələrə can atmasıyla xarakterikdir.

Azərbaycanda ziyalılar barmaqlarının ucuna qalxıb o aləmə boylanırdı ki, həqiqəti görsünlər.



Elçin o dövr üçün nə qədər çətin olsa da, bu həqiqəti göstərə bilmişdi. Çox böyük ustalıqla, incə sətiraltı mənalarla Türkiyəni düşüncələrimizə bir daha yaxınlaşdırmışdı.

«Yaxın, uzaq Türkiyə» əsəri indinin özündə belə maraq doğuracaq məlumatlarla, bilgilərlə zəngindir. Bu məlumatların əksəriyyəti hələ o zamanlar bizi təəccübləndirmiş və düşünməyə məcbur etmişdi. Türkiyənin Böyük Millət Məclisində olan çəkişmələr, sağ və solçuların «müharibəsi» qarışıb, durulub, aydınlaşmaqda olan mühit hələ o zamanlardan bizə örnək idi və yeni səhifələr vəd edirdi.

Elçin həmin məqaləsində yazır: «... bu sətirləri yazarkən «Milliyət» qəzetində şəkli verilmiş bir türk anasının siması elə bil ki, qarşımdakı ağ kağızın üzərinə qonmuşdu: Gözüyaşlı ana oğlu torpağa verilərkən: «Yetər artıq, Kenanım, son olsun! – deyə haykırdı»... Mən onun çığırtısını İstanbul radiosu ilə eşitdim və bu səs indiyə qədər qulaqlarımdan çəkilmir».

Elçinin Türkiyə həyatından seçib qələmə aldığı bu məlumat, görün, Sovet Azərbaycanının o dövrü üçün necə əhəmiyyətli idi.

Ümumiyyətlə, əsərdə bu cür məqamlar, o dövrün senzurasının «dağdələn» nəzərlərindən gizlədilmiş sətiraltı mənalar, ifadələr, epizodlar çoxdur. Özündə böyük-böyük əsərlərin təsir gücünü daşıyan ştrixlər indi də yaddaşlardadır və bu günün də dərdlərindəndir.

«...Qocaman türk yazıçısı Yusif Ahuşkalı zarafatla mənə dedi:

- Qabaqlar kimin əlinə qələm keçirdi, şer yazırdı, indi kimin əlinə qələm keçir, qəzet, ya dərgi buraxır...»

Son dönəmlərdə biz bu hərcmərcliyi öz gözlərimizlə gördük. Elçin bir yazıçı fəhmilə təxminən otuz il qabaqdan oxucuları buna hazırlamışdı.

Həmin əsər Elçinin Türkiyəyə olan sevgisi hər cümlədən, hər kəlmədən bilinir.

Fikir verin, Oljas Süleymenovdan gətirdiyi epiqraf nə qədər yerinə düşür: «Diqqətlə oxu, insan, sənə malik olan yeni dünyanı kəşf et və Türkiyəni – müdriklər, humanistlər, şairlər ölkəsini tanı».

Qeyd etdiyim kimi, bu elə bir dövr idi ki, artıq gizlinlərdən üzə çıxmaqda olan türkçülük duyğuları qorxu-hürkü bilmədən nəsilləri ardınca səsləyirdi.

Bu əsəri mən indi də vərəqləyirəm. Bütün səmimiyyətimlə deyim ki, indinin özündə də çox bəyəndiyim povest, roman təsiri bağışlayır. Və inanıram ki, həmişə də öz təsir gücünü saxlayacaq. Çünki bu yazıda böyük vətəndaş istiqanlılığı var. Mövzunu halallıqla

yaşayandan sonra qələmə almaq var. Yalan yoxdur, guya deməndən, əslində, çox böyük ustalıqla gizlinlərin sətiraltı mənalarla ifadəsi var. Və ən əsası həmin sətiraltı mənalarda öz sabahıyla Azərbaycan var, Azərbaycanın Türkiyə və türk dünyasına sevgiləri, inamı var.

Yalnız bir şey yoxdu: Gülhanə parkında «Ceviz ağacı»...

Və bütün dövrlərdə oxucular Gülhanə parkında olmayan, amma yaddaşlarda öz ucalığıyla yaşayan «Ceviz ağacı»nı axtaracaqlar. Elçinin bu yönümdə çox qəribə yorumuna rast gələcəklər:

«Mən bir ceviz ağacıyam Gülhanə parkında...

Ceviz ağacını isə tapa bilmirəm... Gülhanə parkında ceviz ağacı yoxdur...

...Gülhanə parkında ceviz ağacının olmaması o gözəl gündə, o gözəl Gülhanə parkında, o vüqarlı və pıçıltılı çinar sərinliyində mənə bir kədər gətirdi və Nazim Hikmət şerindəki o qürbət, o qubar elə bil ki, məni yenidən sarsıtdı...»

«Yaxın, uzaq Türkiyə» əsəri həm də bütün dünyanı öz evi kimi duyan, canı-qanı ilə hiss edən, dərin fəhmlə, sağlam düşüncə ilə anlayan bir yazıçının Türkiyə respublikasına müstəqil bir dövlət kimi, inkişafda olan ölkə kimi bəslədiyi sevgi dolu münasibətinin ifadəsidir.

Bu mənada əsər öz dövrü üçün dəyərli tarixi rolunu, şübhəsiz, yerinə yetirmiş oldu.

Yazıçı dostum Elçin haqqında ürəkdən yazdığım bu söz isə yubiley məqaləsi deyil. Əsərləri haqqında da yazı deyil. Bir az məktuba bənzəyir. Məktub kimi də qəbul edək.

Dərin hörmətlə,
***Mövlud Süleymanlı***
2003-cü il.

*«Ədəbiyyat qəzeti», 13 fevral 2004.*



# MÜNDƏRİCAT


Tərtibçidən ... 3

**Ali mükafat**

E.İ.Əfəndiyevin «İstiqlal» ordeni ilə təltif edilməsi haqqında ... 7
Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin xalq yazıçısı Elçinə təbrik məktubu ... 8
Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab Heydər Əliyevə . 10

**Elçin – 60**

Xalq yazıçısı Elçinin Yaradıcılığı haqqında bir neçə söz (*Vaqif Hüseynov*) ... 12
Öldürüləndən sonra güllələnənlər (*Sərvaz Hüseynoğlu*) ... 15
Elçinin ədəbi qəhrəmanları (*Nərgiz Paşayeva*) ... 22
Mənəvi-əxlaqi axtarışlar (*Nərgiz Paşayeva*) ... 47
Elçin haqqında söz (*Kamal Abdulla*) ... 56
Elçinin «Ədəbi düşüncələr»i (*Nərgiz Paşayeva*) ... 58
El üçün yaşayıb yaradan Elçin (*Anar*) ... 64
Absurd, absurd, absurd... (*Vaqif Yusifli*) ... 68
Yazıçıdan artıq məsuliyyət yükü daşıyan sənətkar (*Cahangir Məmmədli*).. 73
Həqiqətlər uçurumunun əbədi yolçusu (*Afaq Məsud*) ... 80
Azərbaycan Yazıçılar Birliyinin rəhbərliyinə (*Metin Turan*) ... 82
Ədəbiyyat və mədəniyyət xadimləri, qələm dostları, oxucuları Elçin haqqında ... 83
Sözün sehri ... 97
60 yaşın ziyası (*S.Cahangirli*) ... 98
Milli faciənin bədii salnaməsi (*Şamil Qurbanov*) ... 102
Həddən bu tərəfdəki ömür (*Ruqiyyə Abdullayeva*) ... 113
Elçin ömrü... Yaxud altmışıncılardan birinin altmışı ... 117
Bu dünyaya qapanıb qalmayan Elçin (*Təranə Məhərrəmova*) ... 120
Pəncərəyə səpələnən qar dənəcikləri (*Səyavuş Məmmədzadə*) ... 128
Əbədi və doğma qanad səsləri (*Vaqif Bayatlı Odər*) ... 132
Zamansız ömrün yiyəsi (*Əyyub Qiyas*) ... 133
Qatar, Pikasso, Kamyu, Elçin və yabançı (*Adil Mirseyid*) ... 136
Adiliyin qeyri-adi bədii təcəssümü (*Tofiq Hacıyev*) ... 143
«Altmışıncılar» nəslinin sözə sadiqi (*Elton Güliyev*) ... 149
Adamın heç inanmağı gəlmir (*Şərif*) ... 152
«Literaturnaya qazeta»nın təbriki ... 154
Elçin – 60 ... 155
Ah, Paris, Paris (*Şərif*) ... 156
Zamanın bizlə qalan anları (*İlham Rəhimli*) ... 159

İstedad və sənətin qüdrəti (*Flora Xəlilzadə*) ........................................ 167
Bədii dərk duyğusu güclü və cəlbedici Elçin (*AzərTAc*)........................ 171
Zəngin yaradıcılıq yolu (*Firuz Mustafa*) ................................................ 172
Ömür (*Azərbaycan Yazıçılar Birliyi*) ...................................................... 174
Tamaşadan öncə ........................................................................................ 175
Sənətdə yaşamağın yaşı (*Məryəm Əlizadə*) ............................................. 176
Təbriklər...................................................................................................... 182
Altmış yaşın mübarək (*Fikrət Qoca*) ...................................................... 185
Elçin... (*Aydın Xan*) .................................................................................. 186
«Ağ dəvə»nin izi ilə (*S. Rüstəmova*) ....................................................... 189
Vətənə, xalqa vurğun ziyalı (*Ziyad Səmədzadə, Əfqan*) .......................... 191
Ömrün doğma vətənə həsr olunmuş illəri (*İsmayıl*) .............................. 194
Elçin yenisi-prosesdə .................................................................................. 195
Ad özünü doğruldanda və ya Elçin dünyası (*Ağalar İdrisoğlu*)................ 199
Əfəndiyev soyadlı dostum Elçin (*Rafiq Tağı*) .......................................... 204
Mənim sevimli dəlim (*Şərif*) ..................................................................... 207
Elçinin müsahibələrindən nəzəri seçmələr (*Vəfa Əliyev*)......................... 211
Elçin Yedditəpə Universitetinin fəxri doktoru adına layiq görülüb .......... 214
Yaxşılıqları əsərlərinə hopan yazıçı (*Mədət Əyyuboğlu*)........................ 215
«Onun qəhrəmanları mənə doğmadır» (*A. İsmayıloğlu*) ......................... 217
«Elçin müasirlərimizin ömür yoluna, taleyinə və qayğılarına tərcümanlıq edən yazıçıdır...» (*Zümrüd*) ........................................................... 219
Təbrik edirik ............................................................................................... 223
Türkiyənin Fatih Universitetində xalq yazıçısı Elçinin yubileyi keçirilmişdir (*Tural Rzayev*) ................................................................ 224
Elçinin kino yaradıcılığı (*Sevda Nuruqızı*)................................................. 225
Elçin – alim, tənqidçi, ictimai xadim və böyük şəxsiyyət (*Seyfəddin Eyvazov*) ................................................................................................ 229
Xalq yazıçısı Elçinə İstanbulun Yedditəpə Universitetinin fəxri doktoru diplomu təqdim edilmişdir (*Tural Rzayev*) ......................................... 236
Türkiyədə Elçinin yubileyi təntənə ilə qeyd olunub (*İlkin Məmmədov*) ..... 237
Elçinin yubileyi Türkiyədə geniş qeyd edilib ............................................ 243
Təbrik edirik (*Musa Ələkbərli*) .................................................................. 244
Türkiyədə yubiley təntənələri ..................................................................... 245
Müsahibimiz xalq yazıçısı Elçindir ............................................................ 246
Moskvada Elçinin yeni kitabı nəşr edilmişdir .......................................... 247
Elçin – 60 .................................................................................................... 248
Nəsrimizin fəxri (*Bəybala Ələsgərov*) ....................................................... 250
Bəybala Ələsgərov. Elçin – 60 ................................................................... 252
Elçin – 60 .................................................................................................... 253
Söz sənətimizə parlaq xidmət (*Səyavuş Məmmədzadə*) ........................... 255
Zaman səddini aşmış sənətkar (*İntiqam Qasımzadə*) ............................... 257
Ədəbi düşüncələr (*Əsəd Cahangir*) ........................................................... 260
Yeni nəsrin ədəbi vəhyləri (*Nərgiz-Ladən Bayramova*) ............................ 302
Yazıçı-tənqidçi (*İsa Həbibbəyli*) ............................................................... 320





Elçin – Azərbaycanın milli intellektual yazarı (*Aydın Xan*) ..................... 333
Söz və sənətkar qüdrəti haqqında düşüncələr (*Abid Tahirli*)..................... 339
Mənəvi ömrün işıqları... (*Vaqif Yusifli*) ..................................................... 344
Anar – 65... Elçin – 60 (*Tofiq Abdin*) ........................................................ 352
Elçin – 60 (*Mülayim Həsənova*) .................................................................. 354
«Qatil» tamaşaçılarla görüşə hazırlaşır (*Gülər Əhmədova*)....................... 356
İstanbulda Elçinə mükafat təqdim edilib (*İlkin Məmmədov*) .................... 359
Dost haqqında söz (*Mövlud Süleymanlı*) .................................................... 362
M ü n d ə r i c a t............................................................................................ 369

# ELÇİN -

# ZAMAN SƏDDİNİ AŞMIŞ SƏNƏTKAR

---

Nəşriyyatın rəhbəri: R.S.Qəniyev
Bədii redaktor və korrektor: S.F.İsrafilova
Kompüter tərtibi: Rəna Xələfova

Çapa imzalanmış
Kağız formatı 60x84 1/16. Ofset çapı. Ofset kağızı.
Fiziki çap vərəqi 23. Sifariş 86 Tiraj 500 Qiyməti müqavilə ilə.

Azərbaycan Beynəlxalq Universitetinin «Beynəlxalq Universitet» nəşriyyat və poliqrafiya mərkəzi

Bakı, Az1116, 7-ci mikrorayon, Xarici dairəvi küçə 179.
Azərbaycan Beynəlxalq Universiteti

Ш5
Е 44